Azərbaycan xalqının Ümummilli lideri,
Milli qurtuluş mübarizəsinin qalibi və
Yeni Azərbaycanın qurucusu
Heydər Əliyevin
əziz xatirəsinə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

HEYDƏR ƏLİYEV

İki cilddə

1-ci cild

Bakı - 2013

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

Layihənin rəhbəri, elmi redaktor, giriş məqaləsi və son sözun müəllifi:
Əməkdar elm xadimi,
Azərbaycan Respublikasının dövlət mükafatı laureatı,
AMEA-nın müxbir üzvü,
t.e.d., prof. **Yaqub Mahmudov**

Redaksiya heyəti:
Y.M.Mahmudov *(baş redaktor)*, **İ.M.Hacıyev** *(baş redaktor müavini),*
C.Ə.Bəhramov, T.H.Nəcəfli, G.N.Məmmədova,
Ə.Q.Qasımov *(buraxılışa məsul),* **V.M.Musayev, E.Ə.Məhərrəmov,**
M.H.Xanbabayeva *(dizayner və texniki redaktor)*

Heydər Əliyev. İki cilddə. 1-ci cild.
Bakı: Turxan NPB, 2013. - 500 səhifə.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nəşri olan «Heydər Əliyev» fundamental elmi araşdırmasının 1-ci cildi dahi şəxsiyyətin ömür yolunun müstəqillik illərinə qədərki dövrünü əhatə edir. Əsər Ulu Öndərin dövlətçilik fəaliyyətinin akademik səviyyədə araşdırılması yolunda ilk addımdır. Geniş mütəxəssislər kollektivi tərəfindən hazırlanmış «Heydər Əliyev» ikicildliyinin 1-ci cildində arxiv materiallarından geniş istifadə olunmuşdur. Əsər elmi ictimaiyyət və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-8211-5-4

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2013
© «Turxan» Nəşriyyat-Poliqrafiya Birliyi, 2013

BAŞ REDAKTORDAN

Milli Elmlər Akademiyasının Tarix İnstitutu ikicildlik «Heydər Əliyev» fundamental elmi araşdırmasını elmi ictimaiyyətə və geniş oxucu kütləsinə təqdim edir.

Geniş tədqiqatçılar heyəti tərəfindən yazılmış «Heydər Əliyev» ikicildliyi dahi şəxsiyyətin ömür yolunun akademik səviyyədə araşdırılması yolunda ilk təşəbbüsdür.

Milli Elmlər Akademiyasının Tarix İnstitutunda Azərbaycan xalqının Ümummilli liderinin siyasi və dövlətçilik fəaliyyətinin akademik səviyyədə hərtərəfli və dərindən tədqiq olunmasına xüsusi diqqət yetirilir. İnstitutda bu məqsədlə geniş tədqiqat işləri aparılır.

Heydər Əliyev irsinin müntəzəm olaraq, həm də sistemli surətdə araşdırılması üçün institutda ayrıca «Əliyevşünaslıq» elmi tədqiqat şöbəsi yaradılmışdır. Şöbə əməkdaşları, habelə institutun digər alimləri Heydər Əliyevə həsr olunmuş dissertasiya araşdırmaları aparır, çoxsaylı elmi tədqiqat işləri, o cümlədən monoqrafiyalar yazıb nəşr etdirirlər.

«Heydər Əliyev» ikicildliyinin **1-ci cildi** Ulu Öndərin ömür yolunun Azərbaycan SSR-in dövlət təhlükəsizliyi orqanlarındakı fəaliyyəti, Azərbaycan SSR-ə birinci rəhbərliyi və SSRİ-nin ali rəhbərliyindəki fəaliyyəti dövrlərini əhatə edir. Cild 9 fəsli əhatə edən 3 bölmədən ibarətdir.

Cildin əvvəlində verilmiş Giriş məqaləsi (I Fəsil) Heydər Əliyev şəxsiyyətinin Azərbaycan xalqının tarixi keçmişindəki böyük xidmətlərinə həsr olunmuşdur.

Əsərin yazılmasına tədqiqat sahəsinə müvafiq olaraq geniş müəlliflər heyəti cəlb olunmuşdur. Ayrı-ayrı fəsillərin və paraqrafların müəllifləri mündəricatda göstərilmişdir.

Cild Ulu Öndərin fəaliyyətinə həsr olunmuş əsərlərin biblioqrafiyası və istifadə olunmuş mənbələr və ədəbiyyat siyahısı ilə tamamlanır.

«Heydər Əliyev» ikicildliyinin **1-ci cildi** nəşrə hazırlanarkən Ulu Öndərin əsərləri, nitqləri, çıxışları, müxtəlif dövrlərdə nəşr olunmuş ilk mənbələr və elmi ədəbiyyatla yanaşı Azərbaycan Respublikası Dövlət Arxivi, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi yanında Siyasi

Sənədlər Arxivi, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi, Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, Azərbaycan Dövlət Statistika Komitəsinin Arxivi, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Arxivi, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının Arxivi, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin Arxivi, Azərbaycan Dövlət Tibb Universitetinin cari arxivi, Rusiya Federasiyasının Dövlət arxivi, Rusiya Dövlət Ən Yeni Tarix Arxivi və digər arxivlərin sənədlərindən, dövri mətbuat materiallarından geniş istifadə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutu «Heydər Əliyev» ikicildliyinin **1-ci cildinin** nəşrə hazırlanmasına köməkliyini əsirgəməmiş bütün müəssisə, təşkilat, struktur rəhbərlərinə və bu nəcib işdə əməyi olan hər kəsə dərin minnətdarlığını bildirir. Cildin ərsəyə gəlməsində Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutuna tarix üzrə elmlər doktoru A.Ə.Paşayev başda olmaqla Azərbaycan Dövlət Milli Arxiv İdarəsinin və tarix üzrə fəlsəfə doktoru M.B.Bağırov başda olmaqla Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivinin əməkdaşları yaxından köməklik göstərmişlər. «Heydər Əliyev» ikicildliyinin **1-ci cildinin** işıq üzü görməsində Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini Cəbi Bəhramov, institutun əməkdaşları Elmar Məhərrəmov, Aypara Rüstəmova, Hakim İsakov, Tələt Nəcəfəliyev, Günel Aslanlı, Leyla Hüseynova, Nailə Məmmədova, Ramilə Şıxəliyeva, Rəhilə Kazımova, Səbinə Məmmədova, Vüsalə Əlləzova və başqalarının fəal iştirak etdiklərini, çap prosesində dizayner Mehri Xanbabayevanın böyük əməyi olduğunu məmnuniyyətlə qeyd etməyi özümüzə borc bilirik.

Ümid edirik ki, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nəşri olan «Heydər Əliyev» fundamental araşdırmasının 1-ci cildi Əliyevşünaslığa dəyərli töhfə olacaq, elmi ictimaiyyət və geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacaqdır.

Yaqub Mahmudov
AMEA-nın müxbir üzvü

I BÖLMƏ

AZƏRBAYCAN TARİXİNDƏ HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ. ULU ÖNDƏRİN DÖVLƏT TƏHLÜKƏSİZLİYİ ORQANLARINDA FƏALİYYƏTİ

(1944 – 1969)

I FƏSİL

AZƏRBAYCAN TARİXİNDƏ HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ

(Giriş məqaləsi)

Tarix yalnız dahi şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünya tarixinə Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Şah Abbas, Nadir şah Əfşar kimi neçə-neçə qüdrətli şəxsiyyətlər bəxş etmişdir.

Əsrlər keçdikdən sonra – XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın Atatürk, Vaşinqton, Nehru, De Qoll kimi nadir tarixi simaları sırasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu.

Heydər Əliyev şəxsiyyəti öyrənilməmiş dünyadır! Bu nadir dühanın siyasət aləmi bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzəyir. Misilsiz dövlət xadimi kimi ən mürəkkəb, ən ağır, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tapmaq bacarığı ona bəxş olunmuş Allah vergisi idi.

Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi olan Heydər Əliyev dünyanın bütün başqa dahi şəxsiyyətlərindən fərqli olaraq iki müxtəlif ictimai-siyasi sistemdə yaşamışdır. Və hər iki sistemdə siyasət nərdivanının ən yüksək pilləsinə ucala bilmişdir.

Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan, min cür maneələrdən, çətinliklərdən keçərək Sovet

*İttifaqı kimi nəhəng bir dövlətin rəhbərlərindən biri səviyyəsinə ucalan Heydər Əliyev tarixə Azərbaycan xalqının **Qurtuluş Mübarizəsinin Qalibi** kimi daxil olmuşdur.*

*Heydər Əliyev **bütün zamanların və bütün məkanların Böyük Azərbaycanlısıdır.** Bu qüdrətli şəxsiyyət **müasir Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycanın qurucusudur.***

*Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidmətlərindən biri də budur ki, bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə **Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtuldu.***

*Doğma xalqının «**olum, ya ölüm**» savaşına başçılıq edən Heydər Əliyev Azərbaycanı dibi görünməyən uçurumların, yarğanların üzərindən incə tellər üstündə keçirərək tarixi qələbəyə qovuşdurdu. Və bu gün zəfərdən-zəfərə qovuşan demokratik, dünyəvi, hüquqi Azərbaycan dövlətini yaratdı.*

Heydər Əliyev Azərbaycan SSR-də milli müstəmləkəçilik siyasətini həyata keçirən Dəvlət Təhlükəsizliyi Komitəsini azərbaycanlılaşdırmaq üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərmiş, doğma Vətəninə iki dəfə rəhbərlik etmişdir: bir kommunist rejiminin hökmranlığı dövründə, 1969-1982-ci illərdə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsində; bir də müstəqil Azərbaycan Respublikasının Prezidenti (1993-2003) kimi.

Heydər Əliyev irsi akademik səviyyədə daha dərindən və daha ətraflı araşdırıldıqca, yeni-yeni arxiv sənədləri üzə çıxdıqca bu dahi şəxsiyyətin şərəfli ömür yolunun bugünkü nəsillərə məlum olmayan yeni-yeni səhifələri açılacaqdır.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü Azərbaycan xalqının tarixində MİLLİ OYANIŞIN BAŞLANMASI VƏ MÜSTƏQİLLİYƏ DOĞRU BÖYÜK DÖNÜŞ illəridir.

Azərbaycan xalqının qurub-yaratmaq dühası sayəsində əldə olunmuş mühüm uğurlara baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər üzündən XX yüzilliyin 60-cı illərində Azərbaycan iqtisadiy- yatının bir çox sahələrində – həm sənayedə, həm də kənd təsərrüfatında mənfi meyllər özünü göstərməyə başladı. Respublikanın inkişafı getdikcə ləngidi və bu, əhalinin sosial vəziyyətinə məntiqi təsir göstərməyə başladı. İstehsalın, o cümlədən sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan ittifaq səviyyəsindən geri qalırdı. Və bu gerilik getdikcə artırdı. Kənd təsərrüfatı xüsusilə ağır vəziyyətə düşmüşdü. Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalatda, demək olar ki, tətbiq olunmurdu. Sonralar tariximizin bu dövrünə qiymət verərkən Heydər Əliyev deyirdi: «*Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi*».

Respublikanın düşdüyü bu ağır vəziyyətdə Azərbaycan rəhbərliyində mühüm dəyişiklik baş verdi. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyinin Birinci dövrü başlandı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı.

Azərbaycanın XX əsr tarixinin əlli ildən çox bir dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. HEYDƏR ƏLİYEV YENİ AZƏRBAYCANIN QURUCUSUDUR. O, bu quruculuğa hələ XX yüzilliyin 50-ci illərindən başlamışdır.

XX əsrin uzaq 20-30-cu illərində ermənilərin və qeyri millətlərin nümayəndələrinin yuva salmış olduğu və xalqımıza qarşı qanlı repressiyalar hazırlayıb həyata keçirmiş Dövlət Təhlükəsizlik Komitəsinin (DTK-nın) azərbaycanlılaşdırılması və xalqımızın düşmənlərindən təmizlənməsi kimi son dərəcə çətin və şərəfli işə ilk dəfə – hələ sovet rejiminin ən güclü vaxtında məhz Heydər Əliyev girişmişdir. Bu gün bütün azərbaycanlılar, o cümlədən xalqımızın hər bir nümayəndəsi aydın dərk etməli və unutmamalıdırlar ki, daşnaklar xalqımıza qarşı həyata keçirdikləri 1918-ci ilin Mart soyqırımından sonra, 1920-ci ilin Sovet işğalında da yaxından iştirak etdilər. Bolşevik libası geyinmiş daşnaklar bu dəfə sovet hakimiyyətinin «quruculuğu» cildinə girərək xalqımızı qırdılar. KQB-də (Dövlət Təhlükəsizlik Komitəsində) və NKVD-də (Xalq Daxili İşlər Komissarlığında) əsas mövqeləri ələ keçirdilər. Erməni «çekistləri» uydurma «cinayət işləri» qaldıraraq 20-30-cu illərdə xalqımıza qarşı kütləvi repressiyalar həyata keçirdilər, neçə-neçə Cavidləri, Müşfiqləri – Azərbaycan xalqının qaymağını məhv etdilər. Bu baxımdan Heydər Əliyevin KQB-ni azərbaycanlılaşdırmaq sahəsindəki xidmətləri Vətən və xalq qarşısında adi xidmətlər deyildi! Başqa sözlə, Heydər Əliyev qeyrətli və milli ruhlu Vətən oğullarını Dövlət Təhlükəsizlik Komitəsinə işə cəlb etməklə, əslində xalqımızın namuslu övladlarına qarşı yönəlmiş növbəti təqiblərin qarşısını alırdı.

XX yüzilliyin 60-cı illərinin sonunda Heydər Əliyevin doğma xalqa həsr olunmuş ömür yolunda yeni, daha geniş, çoxsahəli, qaynar fəaliyyət dövrü başlandı. 1969-cu ildə – Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökmranlıq etdiyi bir şəraitdə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mər-

kəzi Komitəsinin Birinci katibi seçildi və ölkənin ali idarəçilik sükanı arxasına keçdi. Bununla, Sovet Azərbaycanının tarixində böyük dönüş dövrü başlandı. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycanı Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başlandı. Xalq ilk addımlarındanca Heydər Əliyevi rəğbətlə qarşıladı, onu sevdi və arxasınca getdi. Azərbaycan xalqının tarixində HEYDƏR ƏLİYEV DÖVRÜ başlandı. Xalqın dahi oğlu Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək Azərbaycanı tərəqqi yoluna çıxarmaq siyasəti yeritməyə başladı. Bütün ömrünü doğma xalqına həsr etdi.

Böyük siyasətçi iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində öz Vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə əvvəlcə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur, sonra da bütün xalqımızı həmin qərarların icrasına səfərbər edir, doğma Azərbaycanın tərəqqisi uğrunda yorulmadan, gecəli-gündüzlü mübarizə aparırdı. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə (o vaxtkı terminologiya ilə desək, inzibati-iqtisadi vahidə) çevirmək onun planlarının başında gəlirdi. Bir sözlə, Vətənimizin müstəqilliyə gələn yolunu hələ o zaman Heydər Əliyev başlamışdı.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi həmin illərdə min cür maneələri dəf edərək Sovet hökumətinin Azərbaycanın hərtərəfli inkişafını təmin edən xüsusi qərarlar qəbul etməsinə nail oldu. Və eyni qətiyyətlə də həmin qərarların yerinə yetirilməsini təmin etdi. Xalqın qurub-yaratmaq dühası tamamilə və bütünlüklə Azərbaycanın ümumi yüksəlişi üçün səfərbər olundu. Nəticədə 1970–1985-ci illər Sovet Azərbaycanının tarixinə, bütün varlığı ərzində, ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi.

Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və səriştəli rəhbərliyi nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən qabaqcıl pambıqçılıq və üzümçülük diyarına çevrildi. Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı surətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı. Sonralar tariximizin bu dövrünü Heydər Əliyev belə qiymətləndirirdi: «*1970–1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur*».

1970–1985-ci illərdə, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

Paytaxt Bakıya, Azərbaycanın rayonlarına gözəllik, yaraşıq verən yüzlərlə yaşayış binaları, mehmanxanalar, ictimai binalar, məktəblər, mədəniyyət sarayları, iqtisadiyyatımızın nüvəsini təşkil edən fabriklər, zavodlar, nəhəng sənaye obyektləri, iri istehsal kompleksləri, su anbarları, dəryaçalar, Kür su kəməri, yaşıllıq zonaları, istirahət ocaqları, neçə-neçə yollar, o cümlədən yurdun şimal-qərb ucqarını paytaxta bağlayan Bakı – Balakən dəmir yolu, Dağlıq Qarabağın mərkəzə – Bakıya bağlılığını artırmaq və orada Azərbaycan mühitini canlandırmaq üçün görülən mühüm tədbirlər, o cümlədən Xankəndinə dəmiryolu çəkilməsi Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu böyük insanın bütün varlığına hopmuş Vətən sevgisinin nəticəsi idi.

1970–1985-ci illər ərzində Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, həmin illərdə iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirildi. SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərildi. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınırdı. Hərbi təhsilin inkişafına xüsusi diqqət yeti-

rilirdi. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü.

Azərbaycanın gələcək inkişafına ünvanlanmış strateji əhəmiyyətli bütün bu işlərə Heydər Əliyev şəxsən özü başçılıq edirdi. Bir sözlə, daim xalqının gələcəyini düşünən böyük azərbaycanlı hələ o vaxtlar zamanı qabaqlayaraq XXI yüzilliyin Azərbaycanı üçün güclü kadr potensialı yaradırdı.

Heydər Əliyevin XX yüzilliyin 70-80-ci illərinin əvvəllərində həyata keçirdiyi kompleks inkişaf proqramları nəticəsində Şimali Azərbaycan o zaman dağılmağa başlamış böyük SSRİ məkanında qabaqcıl sənaye, kənd təsərrüfatı və mədəniyyət respublikasına çevrildi. Bu, Heydər Əliyevin məqsədyönlü, qabaqcadan götür-qoy edilmiş, dərindən ölçülüb-biçilmiş və gələcəyə istiqamətlənmiş müdrik siyasətinin, dahiyanə uzaqgörənliyinin parlaq nəticəsi idi. Heydər Əliyevin özü demişkən: «*Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır*».

Heydər Əliyev hələ o zaman müstəqil yaşadığımız bu günləri görürdü, doğma Vətənini bu günlər üçün hazırlayırdı. Böyük düha sahibi yeni Azərbaycanı – bugünkü Azərbaycanı hələ o vaxtdan qurmağa başlamışdı!

Dahi dövlət xadimi Heydər Əliyev kommunist rejiminin hökmranlığı dövründə doğma xalqına qarşı baş vermiş haqsızlıqlar əleyhinə özündən başqa heç kəsin apara bilməyəcəyi mübarizəni apardı, Kreml rejiminin ağır təqibləri şəraitində xalqının çəkdiyi əzablara cavab olaraq, Azərbaycanın gələcəyi naminə olduqca uzaqgörən və çox cəsarətli addımlar atdı. Vətənin bütün guşələrində Azərbaycanın haqqı tapdalanmış böyük şəxsiyyətlərinin heykəllərini ucaltdırdı, repressiya qurbanı olmuş böyük Ca-

vidi ölümündən illər keçdikdən sonra Vətənə qaytardı, Kerçdə, Krımda həlak olmuş minlərlə azərbaycanlının şərəfinə Sapun Qora yaxınlığında abidə ucaltdırdı...

Məhz bu dövrdə – Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə, ilk dəfə olaraq, Azərbaycanın görkəmli sənət adamlarının böyük bir dəstəsinə – şairlərimizə, yazıçılarımıza, bəstəkarlarımıza ilk dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi də təkzibolunmaz tarixi faktlardır.

Doğma xalqı, el-obası üçün canını qoyan, elə buna görə də Moskvaya «irəli çəkilib» müəmmalı şəkildə həyat çırağı söndürülən, sonra da «millətçi» damğası yapışdırılan və adının çəkilməsi belə yasaq olunan Nəriman Nərimanovun Bakıda əzəmətli heykəlini ucaltdırmaq Heydər Əliyev şəxsiyyətinin Vətən qarşısında böyük xidməti idi. Sonralar Nərimanova Ulyanovsk şəhərində də abidə ucaltdırmağa nail olan Heydər Əliyev bir daha sübut etdi ki, onu Vətən – xalq təəssübkeşliyindən döndərmək heç kəsin hünəri deyil, o cümlədən hakim sovet rejiminin də!

Heydər Əliyevin rəhbərliyi dövründə, XX əsrin 60-cı illərinin sonu – 70-ci illərində, Azərbaycanın ümumi yüksəlişi fonunda xalqımızın tarixi keçmişinə də maraq artdı, bu sahədə də oyanış başlandı. Xalqımızın milli-mənəvi həyatında da dirçəliş başlandı. O zaman ölkəmizdə milli oyanışın əsas mərkəzlərindən biri böyük mütəfəkkirimiz Rəsul Rzanın başçılıq etdiyi Azərbaycan Ensiklopediyası idi. Ensiklopediyanın Baş redaksiyası, redaksiya ətrafında toplanmış alimlərin böyük əksəriyyəti çox cəsarətli çıxışlar edirdilər. Xalqımızın təşəkkülündə türk etnoslarının həlledici rol oynaması, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı, Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin tariximizdə mütərəqqi rol oynaması, Cümhuriyyət dövrünün xadimlərinə obyektiv qiymət verilməsi, 1920-ci ilin Aprel işğalı kimi bir çox məsələləri o zaman məhz ensiklopediyaçılar qaldırdılar. Rəsul Rzanın həlledici köməyi ilə bu sətirlərin müəllifi Kiyevin xəritə fabrikində

ilk dəfə olaraq Azərbaycan tarixi xəritələrinin hazırlanması və çapına nail oldu. 1972-ci ildə Ensiklopediyanın Baş redaksiyası Rəsul Rzanın redaktorluğu ilə «Azərbaycan SSR xəritələri» (Azərbaycan və rus dillərində) adlı atlas nəşr etdi. Göstərilən tarix xəritələri həmin atlasa daxil edildi. Lakin «sapı özümüzdən olan baltalar» bütün bu məsələləri Moskvaya çuğulladılar, Ermənistandakı tarixçi «dostlarını» köməyə çağırdılar. Bizə «millətçi», «burjua məfkurəçiləri», «sovet hökumətinin və Rusiyanın düşmənləri» damğasını vurmaq məqsədilə xalqımıza qarşı 1918-ci ilin Mart soyqırımını törətmiş Stepan Şaumyanın oğlu L.S.Şaumyanı Bakıya gətirtdilər. O zaman «Böyük Sovet Ensiklopediyası» baş redaktorunun birinci müavini, həm də sovet ideologiyasının başında duranlardan biri olan oğul – Şaumyan əlinə düşən fürsətdən istifadə edərək Azərbaycan ziyalılarına zərbə vurmaq üçün özünü oda-közə vurdu. Lakin məqsədinə çata bilmədi. Çünki Azərbaycana doğma yurdunun təəssübkeşi olan qüdrətli bir şəxsiyyət başçılıq edirdi. Məhz Heydər Əliyevin müdrikliyi və cəsarəti sayəsində o zaman həm ensiklopediyaçılar, həm də ziyalılarımızın böyük bir dəstəsi nəinki KQB-nin təqiblərinə düçar olmadı, hətta partiya cəzasından da yaxa qurtara bildilər!!!

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün bu əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli-azadlıq hərəkatının yeni mərhələyə–yüksəliş mərhələsinə daxil olması demək idi. Bu, Heydər Əliyevin xalqımızın istiqlal mübarizəsi tarixində misilsiz xidmətidir.

Bu inkarolunmaz tarixi faktdır ki, dünya sosializm sisteminin və böyük Sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan SSR artıq öz inkişaf səviyyəsinə və çoxsahəli iqtisadiyyatına görə SSRİ-nin

müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ola biləcək ikinci respublika idi.

1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul olunarkən Şimali Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi.

Heydər Əliyev yeni, müstəqil Azərbaycanı qurduğu illərdə tariximizin yuxarıda bəhs etdiyimiz dövrünü yada salaraq deyirdi:

«Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır».

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü Azərbaycan xalqının tarixində ən parlaq dövrdür. Bu dövrdə Heydər Əliyev Azərbaycan xalqının tarixinə QURTULUŞ MÜBARİZƏSİNİN QALİBİ, AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN XİLASKARI kimi daxil oldu.

Bu dövrdə Heydər Əliyev öz xalqı üçün ən müasir demokratik, dünyəvi və hüquqi dövlət yaratdı.

...Mütəqilliyin ilk illərində baş vermiş hərc-mərclik, xaos və anarxiyadan sonra doğma xalqının təkidli tələbi ilə Azərbaycanda hakimiyyət sükanının arxasına qüdrətli bir siyasətçi keçdi – düşmənlərin min bir hiyləsindən, məkrli oyunlarından asanlıqla baş çıxaran, onların dayanmadan dolaşdırdıqları siyasət kələfinin ucunu əldən verməyən, siyasi dühası ilə onilləri-yüzilləri qabaqlayan, qalın-qalın siyasət divarlarının arxasında nələr baş verdiyini ovcunun içi kimi görən Heydər Əliyev başçılıq etdi Azərbaycana! Müxtəlif tarixi dövrlərdə Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərimizin, onların bitib-tükənməyən məkr, hiylə və ən müasir

silahlarının qarşısında məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirə bildi!

Heydər Əliyevin Azərbaycana başçılıq etdiyi Birinci dövrlə İkinci dövr arasındakı illər, sözün əsl mənasında, tariximizin hərc-mərclik dövrü, ağır tənəzzül illəridir. Uğursuz Qarabağ müharibəsi, hakimiyyəti ələ keçirmək xatirinə müqəddəs torpaqlarımızın düşmənə təslim edilməsi, xaricdəki ağalara daha sədaqətlə nökərçilik etmək üçün bəhsə-bəhs, vaxtı ilə Nərimanovun qətlə yetirildiyi Kreml labirintlərindən salamat qurtarıb xalqını dardan xilas etmək üçün Vətənə qayıtmış böyük dövlət adamımız Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmaması, onu hətta Naxçıvanda da hakimiyyətdən götürmək cəhdi kimi rüsvayçılıqlar tariximizin ən qara səhifələri, ən bağışlanmaz səhvləridir. Əgər o zaman – müstəqilliyin ilk illərində bu müdrik siyasətçi hakimiyyət sükanının arxasında əyləşsəydi, bunca müsibətlərə düçar olardıqmı?!

Bu suala Heydər Əliyev ömrünün Naxçıvan səhifələri daha aydın cavab verir: **milli dövlətçilik ənənələrimizin dirçəldilməsi, muxtar respublikanın adından «sovet», «sosialist» sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, 1990-cı ilin 19-20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsi, muxtar respublika ərazisində Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 31 Dekabr gününün Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması, nəhayət, böyük Vətəndən – Azərbaycandan ayrı düşmüş Naxçıvanda, özü də amansız hərbi-iqtisadi blokada şəraitində vətən torpağının düşməndən qorunub saxlanması** – bax, bunlardır böyük şəxsiyyətimizin Naxçıvanda ağır blokada şəraitində keçən ömrünün, göstərdiyi fəaliyyətin qısa yekunu!

Bəs Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmadığı həmin dövrdə böyük Vətəndə – Azərbaycanda nələr baş verdi?

Sərt tarixi həqiqət belədir: **1993-cü ilin iyununda – Heydər Əliyevin hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycan öz tarixinin ən qanlı burulğanı içərisində çabalayırdı. Cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər, satqınlıq, vəzifə ələ keçirmək üçün müqəddəs torpaqlarımızın hərraca qoyulması adi hal almışdı. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərcmərclik, hərki-hərkilik baş alıb gedirdi. Bölgələrimizdə, rayonlarda, paytaxtın ayrı-ayrı məhəllələrində faktiki olaraq silahlı quldur dəstələri hökmranlıq edirdilər. Xalq vahimə və təşviş içərisində idi. Atışma səslərindən camaat evində rahat yata bilmirdi. Girovgötürmə kimi çirkin qazanc vasitəsi adi hala çevrilmişdi. O dövrün başabəla rəhbərləri təyyarələrini hazır saxlayır, vəziyyət bir az mürəkkəbləşən kimi qaçıb aradan çıxırdılar. Üzdə xalqdan danışan, əslində isə sərvət düşkünləri olan bir qrup vəzifəpərəst sovet hakimiyyəti illərində toplanmış xalq əmlakına sırışt olmuşdu. Talançılıq baş alıb gedirdi. Faktiki olaraq dövlət yox idi. Ölkəni xalq adından idarə edən, əslində isə heç bir səriştəsi olmayan, ən adi idarəçilik qaydalarının belə nə olduğunu bilməyən və xaricdəki ağalarının göstərişi ilə hərəkət edən məhdud bir qrup məmləkəti milli fəlakət həddinə çatdırmışdı. İdarəçilik sükanı sahibsiz qalmışdı. Ölkə vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Cəbhə düşmənin üzünə açıq idi. Ululərımızın müqəddəs əmanəti olan Vətən torpaqları hərraca qoyulmuşdu. Azərbaycan xarici aləmdəki olan-qalan nüfuzunu da tamamilə itirmişdi. Xalq ümidsizlik və tələş içərisində idi. Sabaha inam qalmamışdı. Ən təhlükəli cəhət isə bundan ibarət idi ki, Azərbaycanın xaricdəki yağı düşmənləri daxildəki satqınlarla birləşmişdilər. Daşnakların «Böyük Ermənistan» yaratmaq niyyətləri, tari-xi düşmənlərimizin – qonşu ölkələrin paytaxtlarında hazırlanmış və Azərbaycanı Qafqazın siyasi xəritəsindən silib götürmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox**

olmaq təhlükəsi qarşısında qalmışdı. Bakı yaxınlığında – Navahı kəndində vətəndaş müharibəsinin ilk güllələri atılmış, qardaş qanı axıdılmışdı...

Bax, bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev idi. Müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı – dünyanın bu böyük siyasət adamını hakimiyyətə gətirdi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı. **Məhz o zaman – 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan xalqının qurtuluş mübarizəsində həlledici dönüş baş verdi.**

Müdrik siyasətçi bir neçə gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxdı. Dövlətimizin, xalqımızın tarixi müqəddəratının idarəçilik sükanı dahi dövlət adamının əlinə keçdi. Vətən, millət, bütün xalqımız məkrli düşmənlərin hazırladığı fəlakət uçurumuna yuvarlanmadı, fəlakətdən, ölüm qəzasından yan keçdi. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra öz xalqı üçün, doğma Vətən üçün nələr etdi? Və ya 1993-cü ilin 15 İyun gününü nə üçün Qurtuluş günü adlandırmaq olar?! Görülən böyük işlərin hamısını sadalamaq mümkün olmasa da, heç olmasa, onların ən mühümlərini, ən böyüklərini sıraya düzməyə çalışaq!

Ən başlıcası: azadlıq, müstəqillik həm hər bir ayrıca vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, minlərlə şəhid vermişik bu yolda. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmayan yerdə azadlıq və müstəqillik də yoxdur.

Dövləti olmayan xalq ölümə məhkumdur. Azərbaycan dövləti bizim «olum, ya ölüm» məsələmizdir. **Ulu öndər Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidməti budur ki, bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtuldu**. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. **Qurtuluş deməkdir!**

Azərbaycan dövlətçiliyi və prezident Heydər Əliyevin qətiyyəti 1994-cü ilin Oktyabr və 1995-ci ilin Mart qiyamları, habelə digər qəsdlər və şantajlar zamanı ağır sınaqlardan uğurla çıxdı. Heydər Əliyev andına sadiq qalan, dar ayaqda Vətənin müstəqilliyi, xalqın azadlığı naminə həlak olmağa hazır olan prezident olduğunu nümayiş etdirdi. Özündən əvvəlki «rəhbərlər»dən fərqli olaraq, dar ayaqda xalqını, Vətənini qoyub qaçmadı. Dövlət başçısının qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. Azərbaycan qanlı burulğandan çıxdı. **Sabitlik və əmin-amanlıq yarandı. Böyük dövlət xadimi kimi Heydər Əliyevin digər tarixi qələbəsi məhz budur – sabitlikdir.**

Ölkədə sabitlik yaratmaqla Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi: ***Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır!***

Heydər Əliyev müharibə məsələsində düzgün mövqe tutdu. Müdrik bir strateq kimi real vəziyyətlə hesablaşdı. Məkrli düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını, Azərbaycanın düşdüyü qanlı burulğanın nə qədər təhlükəli olduğunu nəzərə aldı. Vəziyyəti düzgün qiymətləndirdi. Real vəziyyətdən çıxış edərək atəşkəs rejiminə nail oldu. Bununla Azərbaycanın gənc, sağlam qüvvələrinin mənasız yerə qırıl-

masının qarşısını aldı – genefondumuzu xilas etdi. Bu, Azərbaycan xalqının yaşaması, gələcəyi demək idi...

Prezident Heydər Əliyev xalqı, yurdu milli-mənəvi parçalanmadan, iflasa uğramaqdan xilas etdi. Özündən əvvəlki «rəhbərlərin» tarixi keçmişin ibrət dərslərinə, dəyişən dünyanın real həqiqətlərinə, daxili həyatın və beynəlxalq vəziyyətin gerçəkliklərinə deyil, emosiyalara əsaslanaraq qəbul etdikləri səhv qərarların icrasını dayandırdı. Torpağımızın, xalqımızın, dilimizin üzərindəki əzəli və əbədi «Azərbaycan» möhürü özümüzə qaytarıldı. Bununla Vətənçilik, xalqımızın adı və dili, qüdrətimizin və vahidliyimizin əsası olan islam-türk birliyi bərpa olundu, reallaşmaqda olan etnik toqquşmalar ehtimalı aradan qaldırıldı. Düşmənlərimizin oxu bu məsələdə də daşa dəydi!

Heydər Əliyevin həyata keçirdiyi uğurlu daxili islahatlar və xarici siyasət nəticəsində müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti sürətlə artdı. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazandı.

Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz – Azərbaycan Respublikasının Konstitusiyası dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biri kimi beynəlxalq aləmdə Vətənimizə böyük rəğbət qazandırdı.

Yurdumuzda hökmranlıq edən sabitlik, həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərdi.

Özünün xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünyanın bütün dövlətləri üçün açıq ölkəyə çevrildi.

Prezident Heydər Əliyevin xarici siyasət sahəsində ən mühüm uğurlarından biri də budur ki, o, Azərbaycanı türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxartdı. Bizimlə birlikdə azadlığa çıxmış qardaş Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənis-

tanla ənənəvi dostluq münasibətlərimiz bərpa olundu. Azərbaycan Respublikası qardaş türk dövlətləri ailəsinin bərabərhüquqlu üzvünə çevrildi. **Heydər Əliyev isə bütün türk dünyasının müdrik yolgöstərəni, öz zəmanəsinin Atatürkü kimi dərin ehtiram və nüfuz qazandı!**

Heydər Əliyevin yorulmaz səyləri nəticəsində müstəqil Azərbaycan dövlətinin islam dünyasındakı nüfuzu da artdı.

Azərbaycan Respublikası bir çox beynəlxalq ittifaqlar və təşkilatlara üzv qəbul olundu. Azərbaycan Avropa Şurasında xüsusilə böyük uğurlar qazandı. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan İlham Əliyevin bu mötəbər beynəlxalq məclisdəki parlaq çıxışları, onun başçılıq etdiyi deputat qrupunun erməni millətçiləri üzərindəki qələbələri hər bir Vətən övladında haqlı qürur hissi doğururdu.

Heydər Əliyev bütün tarixi dövrlərdə, ənənəvi düşmənlərimizin həmişə Azərbaycanı diz çökdürmək üçün istifadə etdikləri «erməni kartı»na qarşı neft siyasəti strategiyasını işləyib hazırladı. Və sübut etdi ki, Qafqaz problemlərinin həllində «erməni kartı»ndan daha güclü vasitələr vardır. Uzaqgörən siyasətçilər indi yaxşı başa düşürlər ki, neft strategiyasının «erməni kartı»na və xarici ölkələrdəki erməni lobbisinə qalib gələcəyi gün uzaqda deyil. Yaxın gələcəkdə müəllifi Heydər Əliyev olan bu siyasətin nə qədər dərindən düşünülmüş və uzaqgörən bir siyasət olduğunu zaman özü indikindən daha qabarıq göstərəcəkdir!

Heydər Əliyev zəkasının, onun gərgin, ardıcıl və inadlı fəaliyyətinin nəticəsi olan Bakı–Tiflis–Ceyhan əsas neft ixracı kəmərinin, həmçinin Bakı – Ərzurum qaz kəmərinin region ölkələri üçün, o cümlədən türk dünyasından ötrü nə demək olduğu hələ neçə-neçə nəsillər keçəndən sonra daha aydın və daha dərindən başa düşüləcəkdir!

Heydər Əliyev Azərbaycan Respublikasını şimaldan və cənubdan məngənəyə salıb sıxan, onun xarici ölkələrlə ənənəvi əlaqələrini kəsən qüvvələrə qarşı Şərq – Qərb dəhlizini açdı. Böyük İpək

Yolunun dirçəldilməsi ideyasından Azərbaycanı iqtisadi blokadadan çıxarmaq üçün məharətlə istifadə etdi. Dünya bunun şahididir. Dünya siyasətçiləri bunu qiymətləndirirlər. Gizli deyil ki, ermənilər də bu siyasətin uğuru qarşısında təlaş keçirməyə başladılar. İndi isə qaçılmaz məğlubiyyətlə üz-üzədirlər!

Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7–8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Bakıda – məşhur «Gülüstan» sarayında keçirilmiş beynəlxalq konfrans bütün varlığı dövründə Azərbaycanın xarici siyasət tarixinin ən böyük hadisələrindən biridir. Böyük İpək Yolunun dirçəldilməsi təkcə Azərbaycanın deyil, bütün türk dünyasının dirçəlişində, onun iqtisadi – mənəvi oyanışında misilsiz rol oynayacaqdır. Bu gün həmin siyasətin uğurları da göz qabağındadır!

Heydər Əliyevlə siyasi mükalimədə uduzan ənənəvi düşmənlərimiz, çox keçmədən Qafqazda itirilmiş mövqeləri qaytarmaq, neft siyasətini uduzmamaq üçün siyasi şantajlara, hərbi təzyiq və terror aktlarına, bir sözlə, siyasət cığallığına əl atmağa başladılar. Ermənistanda rusiyapərəst davakarların və Qarabağda Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımları qatillərinin hakimiyyətə gətirilməsi, Gürcüstan prezidenti E.A.Şevardnadzeyə qarşı təşkil olunmuş suiqəsd və s. bu baxımdan uduzmuş oyunçuların cığallığından başqa bir şey deyildi. **Bir sözlə, dahi dövlət xadimi, qüdrətli siyasətçi Heydər Əliyev öz doğma xalqını dibi görünməyən yarğanların, uçurumların üzərindən böyük müdrikliklə, incə və çevik siyasətlə, nazik tellər üzərindən keçirib işıqlı həyata qovuşdurdu**.

Bu gün yaşadığımız regionda təkcə Azərbaycanda xarici dövlətlərin əsgəri qüvvələri və hərbi bazaları yoxdur. **Vətənimiz Azərbaycan bütün Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunmasında mühüm rol oynayır. Bunun özü də Heydər Əliyevin başladığı uzaqgörən siyasi gedişlərin uğurlu davamıdır.**

Heydər Əliyevin Xəzərlə bağlı müdrik və uzaqgörən xarici siyasət strategiyası, bu dənizi sülh və əmin-amanlıq dənizinə çevir-

mək planları da öz reallığına görə Xəzərsahili ölkələr tərəfindən, faktiki olaraq, əsaslı bir etiraz doğurmadı! Beynəlxalq mənafelərin, o cümlədən böyük dövlətlərin və qonşuların mənafelərinin düyünləşdiyi Azərbaycan kimi çox mühüm hərbi-strateji və zəngin sərvətli bir ölkədə bütün bunlara nail olmaq hər siyasətçinin işi deyildi!!!

Heydər Əliyev özünün ölkəmiqyaslı qəbullarından tutmuş beynəlxalq miqyaslı görüşlərə, yüksək səviyyəli danışıqlarınadək hər yerdə, hər an Azərbaycan həqiqətini dünyaya yaydı. Bunun nəticəsində **Azərbaycan vaxtilə ona qarşı yaradılmış beynəlxalq informasiya blokadasını yara bildi. Dünya Azərbaycan həqiqətini qəbul etməyə başladı**.

Heydər Əliyev vaxtilə onun öz qayğısı sayəsində Moskva, Sankt-Peterburq, Kiyev və başqa şəhərlərin ali məktəblərində təhsil almış, özü də Azərbaycanın müxtəlif bölgələrini təmsil edən gənclərin qabaqcıl bir dəstəsini Prezident Aparatına, müxtəlif dövlət strukturlarına toplayıb onlara idarəçilik qaydaları öyrətdi, gələcəyin yeni, qüdrətli Azərbaycanı üçün hazırladı!

Başqa bir məsələ barədə. Gecəli-gündüzlü, son dərəcə ağır, hətta dözülməz bir rejimlə işləməsinə baxmayaraq, Azərbaycan prezidenti yurdumuzda baş verən heç bir hadisəni, heç bir prosesi nəzərdən qaçırmır, onlardan ən mühümünü ön plana çəkir, şəxsi nəzarəti altına götürür, prezident andına sadiq qalaraq Vətəni zərgər dəqiqliyi ilə idarə edirdi.

Heydər Əliyevin öz doğma el-obası qarşısında danılmaz tarixi xidmətlərinin hamısını dərindən-dərinə araşdırmaq, yerli-yerində ipə-sapa düzmək, incələmək və gələcək nəsillərə doğru-düzgün çatdırmaq o qədər də asan məsələ deyil. Və bu hər tarixçinin də işi deyil! Əlbəttə, bütün bunlar xüsusi tədqiqatların və gələcəyin işidir. Mən isə bu yığcam yazıda müasirlərimə təkcə bir həqiqəti yetirmək istədim: **keçid dövrlərində qüvvətli şəxsiyyət olmadan qələbə yoxdur!** Hazırda tərəqqi dövrünü yaşayan bütün xalqları, millətləri,

ölkələri keçid dövrünün keçilməz labirintlərindən dahi şəxsiyyətlər – Atatürklər, Vaşinqtonlar, Bismarklar, Nehrular, De Qollar çıxarmışlar! Heydər Əliyev də belə şəxsiyyətdir! Bunu bütün dünya qəbul edir. Bunu Azərbaycanın çağdaş və gələcək nəsillərinin də daha dərindən dərk etməsi gərəkdir!..

Heç kəsin istəyindən asılı olmayaraq, XX yüzilliyin 90-cı illərində Azərbaycanın tarixinə daha bir silinməz səhifə həkk olundu. Zaman, tarix özü həkk etdi bu səhifəni. «**İstiqlal savaşı**» adlanır həmin qızıl səhifənin adı. Xalqımızı bu müqəddəs savaşdan – İstiqlal savaşından **Heydər Əliyev** şəxsiyyəti qələbə ilə çıxartdı! Və tamamilə təbii olaraq **İstiqlal savaşının qalibi** kimi dünyanın dahi şəxsiyyətləri sırasında öz layiqli yerini tutdu. Tanrı yazısına pozu yoxdur!

Çağdaş Azərbaycan bu gün – XXI yüzilliyin başlanğıcında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda uğurdan-uğura qovuşur. Tarixin ən qanlı burulğanı içərisində çabaladığımız günlər arxada qalmış, tarixə çevrilmişdir! Azərbaycan dövlətçiliyi məkrli düşmənlərin qanlı caynağından həmişəlik xilas edilmişdir! Bütün bunlar üçün hər bir Vətən övladı, qədirbilən xalqımız dahi xilaskara – Ata yurdumuzun Atatürkünə borcludur!

Bu gün Heydər Əliyev ideyalarının zəfər yürüşü davam edir! Azərbaycan Cənubi Qafqazın lider dövlətinə və dünyanın ən sürətlə inkişaf edən ölkəsinə çevrilmişdir. Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının üzvüdür. Azərbaycan xalqı müasir dünyanın böyük dövlət xadimi İlham Əliyevin rəhbərliyi ilə özünün daha parlaq gələcəyinə doğru inamla irəliləyir.

II FƏSİL

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN SSR DÖVLƏT TƏHLÜKƏSİZLİYİ ORQANLARINDA FƏALİYYƏTİ (1944–1969-cu illər)

2.1. Azərbaycan SSR dövlət təhlükəsizliyi orqanlarında fəaliyyəti

Heydər Əliyevin parlaq şəxsiyyətinin və misilsiz fitri istedadının bariz şəkildə təzahür etməsində və kamil siyasi lider kimi formalaşmasında onun 25 illik bir müddət ərzində Azərbaycan SSR-in dövlət təhlükəsizliyi orqanlarında çalışmasının mühüm rolu olmuşdur. Bu 25 illik dövr Heydər Əliyevin həyatının mühüm bir mərhələsini təşkil etmişdir.

Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında fəaliyyətinin ilkin dövrü 1944–1953-cü illəri əhatə edir. Bu böyük tarixi şəxsiyyət 1940–1950-ci illər sovet rejiminin şərt reallığında çox az adama nəsib olan ömür yolu keçərək, təhlükəsizlik orqanlarında leytenant rütbəsindən general-mayor rütbəsinədək, sıravi əməkdaşdan Azərbaycan SSR DTK-nın sədri vəzifəsinədək yüksəlmişdir. Bəri başdan deməliyik ki, təhlükəsizlik orqanlarının işinin xüsusiyyətləri nəzərə alınaraq, Heydər Əliyevin Azərbaycan SSR DTK-dakı fəaliyyəti bu orqanın arxiv fondlarını göstərməklə deyil, müxtəlif məlumatlar və kitablardakı materiallar əsasında işıqlandırılmışdır. Bu məqamla əlaqədar Heydər Əliyev təhlükəsizlik orqanlarına gəlişini öz xatirələrində belə xatırlayırdı: «1941-ci ildən mən Naxçıvan MSSR-in NKVD-sində Xalq Daxili İşlər Komissarlığının «Arxiv şöbəsi»nin məxfi hissəsinin müdiri vəzifəsində işləyirdim. Sonra muxtar respublikanın Xalq Komissarları Sovetində şöbə müdiri, 1944-cü ildən Xalq Daxili İşlər Komissarlığı – Dövlət Təhlükəsizliyi Nazirliyi və Dövlət Təhlükəsizliyi Komitəsində əməliyyat işində işləmişəm».

Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarının sıralarında yalnız öz şəxsi keyfiyyətləri – dərin erudisiyası, hərtərəfli dünyagörüşü,

parlaq zəkası nəticəsində vəzifə pillələrində addım-addım irəliləyirdi. Harada çalışmasından asılı olmayaraq heç vaxt vəzifə dalınca qaçmayan, savadlı və məsuliyyətli əməkdaşı vəzifənin özünün mütləq tapacağına əmin olan bu insanın təhlükəsizlik orqanlarında və ümumiyyətlə, həyatda pillə-pillə yüksəlişi və nəhayət, hakimiyyət olimpinə çatması yalnız biliklərə hərtərəfli yiyələnməsinin, dərin səriştənin, peşəkarlığının, fenomenal idarəçilik və təşkilatçılıq bacarığının və gərgin zəhmətinin bəhrəsi olmuşdur.

Heydər Əliyev XX əsrin 40-cı illərində Azərbaycan SSR Xalq Dövlət Təhlükəsizliyi Komissarlığında gedən prosesləri diqqətlə izləyir, gənc əməkdaş kimi dövlət təhlükəsizliyi orqanları qarşısında qoyulmuş vəzifələri dərindən öyrənir və hər vəchlə təcrübəsini artırmağa, əməliyyat işinin sirlərini dərindən öyrənməyə çalışır, yaşlı əməkdaşların təcrübələrindən bəhrələnirdi. Bütün bunlarla yanaşı, xüsusi fənlərin elmi-nəzəri əsaslarını da öyrənməyə, bilik dairəsini daim genişləndirməyə səy göstərirdi. 1944-cü il yanvarın 27-də Naxçıvan MSSR Azərbaycan SSR dövlət təhlükəsizliyi orqanının rəhbərliyinə rəsmi müraciət edərək Heydər Əliyevin Bakı şəhərindəki xüsusi məktəbdə təhsilini artırmağı xahiş edir və o, bura qəbul edildikdən sonra 1945-ci il iyulun 10-da Bakı Diyarlararası Məktəbin əməliyyat işçilərinin peşə hazırlığının artırılması üzrə qısamüddətli kursu əla qiymətlərlə bitirərək yenidən Naxçıvan şəhərinə qayıdır.

Heydər Əliyevin xüsusi xidmət orqanının peşəkar işçisi kimi fəaliyyətini öyrənmək üçün onun işə qəbul olunduğu dövrü və bu dövrdə həm dövlət təhlükəsizliyi orqanlarında mövcud olan mühiti, həm də keçmiş Sovetlər İttifaqında və onun ətrafında cərəyan edən geosiyasi prosesləri nəzərdən keçirmək zəruridir. Heydər Əliyevin yüksək intellektə, qeyri-adi təfəkkürə sahib olması, onun işlədiyi mühitdə baş verənlərə münasibətdə fərdi yanaşmasını şərtləndirirdi. O, təhlükəsizlik orqanlarının bütövlükdə fəaliyyətini heç də «çəhrayı rəngdə» görmür, mövcud olan nöqsanları aradan qaldırmaq istiqamətində ciddi səylər göstərirdi. Heydər Əliyev bütün fəaliyyəti ilə o dövrdə cəmiyyətdə xüsusi xidmət orqanı işçisi haqqında mövcud olan ədəbiyyatdan, elmi-texniki tərəqqinin nailiyyətlərindən xəbərdar olmayan «boz» poqon daşıyıcı stereotiplərini sındırmağı bacardı. Heydər Əliyev özü dövlət təhlükəsizliyi orqanlarının o vaxtkı fəaliyyətini

belə səciyyələndirdi: «...Bu orqanlar və onlarda işləmiş insanlar... çox mürəkkəb yol keçiblər. 20–30-cu, 40-cı illərdə bu orqanlar Azərbaycan xalqına, onun mənəviyyatına, bütün həyatına çox böyük zərər gətirmişdir, zərbələr, yaralar vurmuşdur... 30-cu illərin siyasi repressiyaları nə qədər insanların, nə qədər ailələrin həyatını pozmuşdur, nə qədər günahsız insanları həyatdan, azadlıqdan məhrum etmişlər. Xüsusən 37–38-ci illərin repressiyaları Azərbaycan xalqına, onun ziyalılarına, zəkalı adamlarına, intellektual potensialına çox böyük zərbələr vurmuşdur. Ancaq bu siyasət, bu istiqamət 40-cı illərdə və hətta 50-ci illərin əvvəllərində də davam etmişdir».

Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarına gəlişi II Dünya müharibəsi və Cənubi Azərbaycanda milli azadlıq hərəkatının geniş vüsət aldığı dövrə təsadüf edir. Böyük şəxsiyyətin bu dövrdəki fəaliyyətini həmin kontekstdə də nəzərdən keçirmək maraqlıdır. Cənubi Azərbaycanda və Sovet Azərbaycanında cərəyan edən proseslər, ayrı-ayrı vaxtlarda doğma Vətənə münasibətdə baş vermiş tarixi ədalətsizliklər, soydaşlarımızın çəkdikləri zillət, milli ziyalıların daim təqib olunması gənc Heydər Əliyevi düşündürür, bu qayğı və duyğular böyük vətənpərvər insanın, gələcək xilaskarın keyfiyyətlərini formalaşdırırdı.

SSRİ hökumətinin 1944-cü il martın 6-da keçirilən iclasında «Cənubi Azərbaycan əhalisinə mədəni və iqtisadi yardımın gücləndirilməsi tədbirləri haqqında» məsələ müzakirə edilmiş və bunun nəticəsində yazda və yayda Azərbaycan SSR-dən Cənubi Azərbaycana 620 nəfərdən çox müxtəlif mütəxəssis göndərilmişdi. 1944-cü il sentyabrın 14-də Mircəfər Bağırov Cənubi Azərbaycanda sovet siyasətinin həyata keçirilməsinə dair konkret tədbirlər haqqında Kremlə geniş hesabat göndərir. Hesabatda SSRİ dövlətinin maraqlarına toxunan «düşmən təxribatçı ünsürlərini neytrallaşdırmaq məqsədilə casusluq-kəşfiyyat işinin genişləndirilməsi» başlıca məsələlərdən biri sayılırdı.

1945-ci il iyulun 6-da Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Siyasi Bürosu məsələni əsaslı surətdə öyrəndikdən sonra «Cənubi Azərbaycanda və Şimali İranın digər əyalətlərində separatçılıq hərəkatının təşkilinə dair tədbirlər haqqında» gizli qərar qəbul etdi. Qərarda İran dövlətinin tərkibində geniş hüquqlara malik Azərbaycan

Milli Muxtar Vilayətinin yaradılması istiqamətində hazırlıq işlərinə başlamaq məqsədəuyğun sayılırdı. İ.Stalin sovet hərbi qüvvələrinin iştirakı ilə Cənubi Azərbaycanın sovetləşdirilməsini təmin etmək, son nəticədə isə İranın hesabına SSRİ-nin sərhədlərini genişləndirmək niyyətində idi. Moskvanın planlarında Cənubi Azərbaycana xüsusi yer ayrılırdı. Cənubi Azərbaycan əhalisinin etiraz mitinq və yürüşlərinin təşkili, İranın kənd və şəhər sakinləri arasından casusların cəlb olunması, İran ərazisində sovet xüsusi xidmət orqanları əməkdaşlarının əməliyyatlarının əks-kəşfiyyat mühafizəsinin təmin olunması – bütün bunlar bilavasitə Azərbaycan SSR dövlət təhlükəsizliyi orqanlarının fəaliyyət dairəsinə daxil idi. Naxçıvan MSSR XDTK-da İran ərazisi istiqamətinə nəzarət edən Heydər Əliyev bu və digər şəkildə Cənubi Azərbaycanda sovet xüsusi xidmət orqanları əməkdaşlarının əməliyyatlarının əks-kəşfiyyat mühafizəsində iştirak edirdi. Burada bir məqamı xüsusi olaraq qeyd etmək yerinə düşər ki, məhz dövlət təhlükəsizliyi orqanlarında işlədiyi dövrdə əldə etdiyi təcrübə və vərdişlər Heydər Əliyevə Azərbaycan SSR-də siyasi hakimiyyətə gəlişindən sonrakı dövrdə beynəlxalq siyasətin mürəkkəb qanunauyğunluqlarını duymaq, təhdidləri müəyyənləşdirmək və vəziyyətin qiymətləndirilməsi əsasında düzgün və çevik qərarlar qəbul etmək, Azərbaycan SSR-in maraqlarını bölgədə mənafeləri toqquşan fövqəldövlətlərin maraqları ilə uzlaşdırmaq kimi mürəkkəb vəzifələrin öhdəsindən gəlməyə kömək edirdi. Ümumiyyətlə, dövlət təhlükəsizliyi orqanlarındakı iş üslubuna xas olan dəmir nizam-intizam, Sparta tərbiyəsi (qədim yunan şəhər-dövlətinin sakinləri olan spartalılar xüsusi nizam-intizamları ilə seçilirdilər) Heydər Əliyevin bir rəhbər işçi kimi bütün sonrakı fəaliyyətinə də sirayət etmişdi. Eyni zamanda gələcəyin bu böyük dövlət xadiminin təhlükəsizlik orqanlarında fəaliyyəti ilə buraya yeni nəfəs, yeni ab-hava gəlmişdi. Bu bir tarixi həqiqətdir ki, Heydər Əliyev şəxsiyyəti fitri istedadın və müstəsna işgüzarlığın vəhdətindən yoğurulmuşdu.

Heydər Əliyevin XX əsrin 40-cı illərindəki fəaliyyəti daha çox müşahidə və öyrənmə ilə xarakterizə olunur. Onun istedadı və qabiliyyəti, məsuliyyəti, tapşırılmış işə yaradıcı münasibəti rəhbərliyin diqqətini çəkirdi. Təsadüfi deyil ki, Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi nazirinin 1949-cu il 10 may tarixli 66

saylı əmri ilə Naxçıvan MSSR Dövlət Təhlükəsizliyi Nazirliyinin 5-ci bölməsinin rəisi, baş leytenant Heydər Əlirza oğlu Əliyev vəzifəsi saxlanılmaqla bir il müddətinə təhsil almaq üçün SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Leninqraddakı (indiki Sankt-Peterburq – *E.M.*) xüsusi məktəbinə ezam edilmişdi.

1950-ci il iyulun 6-da xüsusi məktəbdə təhsilini əla qiymətlərlə başa vuran Heydər Əliyevə verilmiş xidməti xasiyyətnamədə göstərilirdi ki: «o, intizamlı, mənəvi cəhətdən saf, ciddi, yoldaşları ilə münasibətdə ünsiyyətcil, müdavimlər arasında böyük nüfuzu olan bir zabitdir. Əməliyyat məsələlərinin həllində əsas mahiyyəti bacarıqla üzə çıxarır, əməliyyat şəraitində sərbəst və düzgün hərəkət edir, əməliyyat sənədlərini dolğun və əsaslandırılmış şəkildə tərtib edir... Xidməti vəzifədə irəli çəkilməyə layiqdir».

O bu xasiyyətnamə ilə Naxçıvan şəhərinə qayıdır və burada Naxçıvan MSSR DTN-nin 5-ci Bölmənin rəisi kimi fəaliyyətini davam etdirir. Ancaq həm yerli, həm də mərkəzi orqanlara rəhbərlik edən şəxslər onun bilik və bacarığından daha geniş dairədə istifadə etmək qərarına gəlmişdilər. Bu gənc əməkdaşın başqalarından ciddi surətdə fərqlənməsi, özünü açıq-aydın büruzə verən üstün imkanlara malik olması, məhdud çərçivələrə sığmaması onun gələcək karyerasının müəyyənləşməsində mühüm rol oynadı.

Azərbaycan SSR Dövlət Təhlükəsizliyi naziri S.F.Yemelyanovun 1950-ci il 25 avqust tarixli 443 saylı əmri ilə Heydər Əliyev Naxçıvan MSSR DTN-nin 5-ci Bölmənin rəisi vəzifəsindən azad edildi və Azərbaycan SSR DTK-nın 2-ci şöbəsi 6-cı Bölməsinin rəisi vəzifəsinə təyin olundu.

Beləliklə, Heydər Əliyev Naxçıvan şəhərindən Bakıya – əyalətdən paytaxta gəldi. Bakı mühiti və mərkəzi aparat onun dünyagörüşünün, eləcə də xüsusi xidmət orqanlarının gələcək rəhbər əməkdaşı kimi formalaşmasında, əməliyyat işini daha dərindən mənimsəməsində mühüm rol oynadı. Heydər Əliyev əməliyyat işləri ilə yanaşı, o vaxt SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Bakı Diyarlararası Məktəbində də mühazirələr oxuyur və əldə etdiyi elmi-nəzəri bilikləri və təcrübəni təhlükəsizlik orqanları əməkdaşlarından əsirgəmirdi.

Heydər Əliyev tərəfindən şəxsən həyata keçirilən «Duel», «Alagöz», «Naturalist», «İzuver», «Axito» və s. əks-kəşfiyyat əməliy-

yatları planları çərçivəsində xarici xüsusi xidmətlərin kəşfiyyat orqanlarının apardığı məxfi-pozuculuq fəaliyyətini və bu işdə istifadə etdikləri kanalları nəzarət altında saxlamağa imkan vermiş, bir neçə rəqib xarici ölkələrin kəşfiyyatlarının ifşa olunmuş casusları məxfi əməkdaşlığa cəlb olunmuşdu. Onun bilavasitə rəhbərliyi altında 10-dan artıq əcnəbi diplomatın qeyri-qanuni fəaliyyəti sənədləşdirilmiş, əldə olunmuş materiallar əsasında SSRİ Xarici İşlər Nazirliyi onları «persona-non-qrata» («arzuolunmaz şəxs» elan etmişdi.

1947-ci ildən başlayaraq Amerika Birləşmiş Ştatları Mərkəzi Kəşfiyyat İdarəsi SSRİ-yə qarşı mübarizədə onun Cənubunda yerləşən bəzi qonşu dövlətlərin xüsusi xidmət orqanlarından istifadə edirdi. Bu işdə çox vaxt sovet vətəndaşlarından alət kimi istifadə olunurdu. Məsələn, Azərbaycan SSR-in Astara rayonunda anadan olan, müharibə vaxtı gedib İrana çıxan, oradan Türkiyə Cümhuriyyətinə qaçan və sonradan xarici xüsusi xidmət orqanlarının nəzər dairəsinə düşən bir nəfər kəşfiyyat işinə cəlb olunmuş, müvafiq hazırlıq keçdikdən sonra casus kimi Azərbaycan SSR ərazisinə göndərilmişdi. Bakıda Azərbaycan SSR DTK-nın əməkdaşları onu öz tərəflərinə cəlb etmişdilər. Əsaslı yoxlamadan və hazırlıq keçdikdən sonra o, SSRİ DTK-nın 2-ci Baş İdarəsi ilə razılaşmaya əsasən, yenidən xarici dövlətin ərazisinə göndərilmişdi. Bu ölkədə o, yenidən uzun yoxlamadan keçmiş və bir daha Azərbaycan SSR ərazisinə göndərilmişdi. Bu əməliyyat prosesi 1950-ci ildən 1956-cı ilə qədər davam etmiş, onun fəaliyyəti sayəsində Azərbaycan SSR-in xüsusi xidmət orqanları qarşı tərəfin əlaqə kanallarını, casusların şəxsiyyətini, plan və niyyətlərini öyrənə bilmişdi. Azərbaycan SSR DTK veteranı Cabbar Bəylərovun sözlərinə görə, «o vaxt bizim casusun xarici xüsusi xidmət orqanlarına yerləşdirilməsi faktı bütün SSRİ üçün böyük sensasiya doğuran hadisə idi».

Heydər Əliyev «Duel» adlı əməliyyat planını işləyib hazırlayandan sonra əks-kəşfiyyatçılar arasında daha da məşhurlaşdı. «Duel» əməliyyatının həyata keçirilməsində başlıca məqsəd xarici xüsusi xidmət orqanlarının Azərbaycan SSR-lə bağlı niyyətlərini öyrənmək idi. Bunun üçün bir neçə casus seçilmişdi, onların arasında «Radist» ləqəbli casusu xüsusi qeyd etmək lazımdır. 1942-ci ildə «Radist» almanlara əsir düşür, Abverin (1921–1944-cü illərdə Almaniyada hərbi kəşfiyyat xidməti) «Tseppelin» məktəbini bitirir və Sovet İttifaqına göndərilmək

üçün nəzərdə tutulur. Lakin Hitler Almaniyasının müharibədə məğlub olması bu planın həyata keçməsinə mane olur. Sonra bir çox hərbi əsirlər kimi, o da yeri dəyişilmiş şəxslər üçün nəzərdə tutulan düşərgəyə göndərilir və ABŞ MKİ-nin əlinə düşür. Onlar da öz növbəsində bu adamları Almaniyadakı SSRİ dövlət orqanlarına verirlər. «Radist» ləqəbli casusu bir azərbaycanlı kimi Azərbaycan SSR-ə yola salırlar. Filtrasiyadan (hərtərəfli yoxlamadan – *E.M.*) keçəndə o, səmimi olaraq öz keçmişini boynuna alır, «Tseppelin» kəşfiyyat məktəbində onunla bir yerdə oxumuş sovet vətəndaşları haqqında məlumat verir. Öz göstəricilərinə görə bu casus «ələ verilmək» üçün əlverişli namizəd idi. Həmin məqsədlə Heydər Əliyev xüsusi əməliyyat (qarşı tərəf üçün düşüncə və fəaliyyət mülahizəsi) hazırlayır.

Azərbaycan SSR xüsusi xidmət orqanlarının veteranı, general-leytenant, Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının rəisi Ziya Yusifzadənin xatirələrindən:

«Heydər Əliyev «əfsanə» («əfsanə» xüsusi xidmət orqanlarında kəşfiyyat məqsədilə istifadə olunan xüsusi əməliyyat üsuluna deyilir – *E.M.*) fikirləşməyin əsl ustası idi. Onun qurduğu «əfsanə»lər həmişə yüz faiz tutarlı olurdu. Bu casusu «yaşıl sərhədlə» (dövlət sərhədinin dövlət təhlükəsizliyi orqanları tərəfindən nəzarət edilən, qabaqcadan postlar yığışdırılan hissəsi) Türkiyəyə keçirdik. O, jandarmeriyaya düşdü. Oradan türk xüsusi xidmət orqanlarına göndərildi, sonradan bu işə hərbi kəşfiyyatçılar, həmçinin MKİ-nin (ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi – *red.*) əməkdaşları da qoşuldular. «Radist»i uzun müddət çək-çevir etdilər, «əfsanəsini» yoxladılar. Bir ildən artıq idi ki, ondan məlumat almırdıq. Kordonun o tərəfindəki imkanlarımızdan istifadə edərək öyrəndik ki, o, həqiqətən xarici xüsusi xidmət orqanlarının əlinə keçib, onu yoxlayırlar, hazırlayırlar. Təxminən bir ildən sonra «Radist»i yenidən, bizim güman etdiyimiz kimi «Duel» əməliyyatı ilə bağlı Azərbaycan SSR-ə göndərdilər. Heydər Əliyevlə görüşən zaman o, Azərbaycan SSR ərazisində yerləşən hərbi obyektləri, rejim obyektlərini aşkar etmək üçün aldığı tapşırıqlar barədə məlumat vermişdi. Xarici xüsusi xidmət orqanları tərəfindən cəlb olunandan sonra «Radist» bir neçə dəfə Azərbaycan SSR-ə göndərilmişdi və hər dəfə də Heydər Əliyevlə görüşürdü. «Radist»in köməyi ilə onlarca xarici casus ifşa olundu».

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivində Heydər Əliyevin təhlükəsizlik orqanlarındakı fəaliyyətini əks etdirən onlarca qiymətli sənədlər və materiallar qorunub saxlanılır. Həmin materiallar Heydər Əliyev peşəkarlığı və əməliyyat işində Heydər Əliyev üslubu barədə dəyərli mənbə rolunu oynayır. Heydər Əliyevin bilavasitə iştirakı ilə həyata keçirilmiş «Duel» və «Alagöz» əməliyyatları SSRİ DTK-nın rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş və o, xidməti fəaliyyətindəki uğurlara görə mükafatlandırılmışdı. SSRİ DTK-nın 2-ci Baş İdarəsinin rəis müavini, general-mayor Lyalinin Azərbaycan SSR DTK-nın sədrinə göndərdiyi məktub yuxarıda deyilənləri təsdiqləyir: «9 XI –1957-ci il №25–73. Tamamilə məxfidir.

Azərbaycan SSR DTK-nın 2-ci şöbəsi tərəfindən «Alagöz» əməliyyatının hazırlanması və həyata keçirilməsinə dair ciddi iş aparılmışdır. 2-ci şöbənin rəisi yoldaş E.Məmmədovun və onun müavini Heydər Əliyevin şəxsən böyük müsbət işlər gördüklərini nəzərə alaraq, göstərilən işçilərin mükafatlandırılmasını xahiş edirəm».

Heydər Əliyev təhlükəsizlik orqanları sıralarında qüsursuz xidmətinə görə dəfələrlə fəxri fərmanlara, orden və medallara layiq görülmüşdür. O, 1962-ci ilin aprelində «Dövlət təhlükəsizliyi orqanının fəxri əməkdaşı» nişanı, 1962-ci ilin mayında «Qırmızı Ulduz» ordeni, 1964-cü ildə isə «Qüsursuz xidmətə görə» medalı ilə təltif edilmişdi. Yuxarıda sadalanan və digər əməliyyat işləri bu gün də əks-kəşfiyyatın klassik nümunələri kimi xüsusi əhəmiyyət kəsb edir. Həmin işlər Azərbaycan Respublikası MTN Akademiyası ilə yanaşı, Moskva, Minsk, Kiyev şəhərlərindəki xüsusi məktəblərin əks-kəşfiyyat fəaliyyətinə aid dərsliklərinə salınmışdır və ən uğurlu təcrübə nümunələri kimi indiyədək tədris olunur.

Azərbaycan Respublikası MTN-in Heydər Əliyev adına Akademiyasında Ümummilli liderin anadan olmasının 85-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda Heydər Əliyevin Azərbaycan SSR dövlət təhlükəsizliyi orqanlarında həyata keçirdiyi milliləşmə siyasətindən ətraflı bəhs edilmişdir. Milli təhlükəsizlik Naziri E.Ə.Mahmudov bununla bağlı fikirlərini belə ifadə etmişdir: «1953-cü ilin axırında Heydər Əliyev Azərbaycan SSR DTK-nın 2-ci şöbəsinin rəisi vəzifəsinə yüksəldi. Heydər Əliyevin əks-kəşfiyyata rəhbərlik etdiyi

1956–1964-cü, xüsusilə DTK rəhbərliyinə irəli çəkildiyi 1965–1969-cu illərdə Azərbaycan SSR-in dövlət təhlükəsizliyi orqanları SSRİ miqyasında aparıcı strukturlardan birinə çevrilmişdi. Bu orqana milli kadrların cəlb edilməsi, həlledici sahələrdə rəhbər vəzifələrə irəli çəkilməsi ilə gələcək milli xüsusi xidmət orqanının formalaşması üçün başlıca zəmin yaradılmışdı. Məhz Heydər Əliyevin inadla apardığı milliləşmə siyasətinin nəticəsində təhlükəsizlik orqanlarında azərbaycanlıların xüsusi çəkisi sürətlə artaraq, 40–50-ci illərdəki 25 faizdən 70–80-ci illərdə 70 faizə çatmış, bu proses dinamik, dönməz xarakter almışdır».

Heydər Əliyev özü dövlət təhlükəsizliyi orqanlarında milliləşmə ilə bağlı vəziyyəti belə şərh edirdi: «Xruşşov dövründə bütün Sovetlər İttifaqında təhlükəsizlik orqanlarında çox ciddi dəyişikliklər prosesi gedirdi: 1937–1938-ci illərə, Stalinlə əlaqədar, Stalini günahlandıran materiallar çıxarıldı, bir neçə proses getdi, o cümlədən Beriyanın tutulması, burada, Azərbaycanda və başqa yerlərdə gedən proseslər. Bunların hamısı 1937–1938-ci illərdən qalmış kadrların təmizlənməsi prosesi idi. Amma bunu kim necə bacarırdısa, o cür aparırdı. Azərbaycanda isə vəziyyət mürəkkəb idi, ona görə ki, rəhbər orqanların, zabit kadrların tərkibinin əksəriyyəti azərbaycanlı deyildi». Heydər Əliyev fikrinə davam edərək deyirdi: «1953-cü ildən sonra bu orqanlarda həm kəşfiyyat, həm əks-kəşfiyyat sahəsində, bütün başqa sahələrdə çox gözəl azərbaycanlı kadrlar yetişmişdi, inkişaf etmişdi, bu orqanlar azərbaycanlılaşmışdı». Təhlükəsizlik orqanlarındakı milliləşməni öz peşəkar fəaliyyətinin başlıca uğurlarından hesab edən Heydər Əliyev 1999-cu ildə təhlükəsizlik orqanları yaradılmasının 80-ci ildönümü ilə bağlı keçirilən tədbirdə etdiyi çıxışında: «... mən hesab edirəm ki, Azərbaycanda təhlükəsizlik təşkilatının Azərbaycana vurduğu zərərə baxmayaraq, bu təşkilatın milliləşdirilməsi prosesi bizim əldə etdiyimiz ən böyük nailiyyət idi, təşkilat milliləşdikcə, onun fəaliyyətinin istiqamətini də Azərbaycanın milli mənafelərinə daha çox aparmaq mümkün olurdu».

Heydər Əliyevin şəxsi keyfiyyətlərinə, peşəkarlığına, geniş və səmərəli fəaliyyətinə, təhlükəsizlik orqanlarında sağlam mühit yaratmaq təşəbbüslərinə baxmayaraq, onun bu orqanlardakı inkişaf yolu heç də hamar və asan olmamışdır. Xüsusilə xidməti işinin nəticəsində irəli çəkilməyə, vəzifə pillələrində inamla yüksəlməyə başladığı ilk il-

lərdə onun millətsevərliyi və uzaqgörənliyini özlərinə qarşı təhlükə kimi qiymətləndirən, azərbaycanlıların uğurlarından narahatlıq keçirən qüvvələr hər vasitə ilə bu yüksəlişə mane olmağa çalışıblar. Həmçinin Heydər Əliyevin xidməti fəaliyyətdə əldə etdiyi uğurlar, onun prinsipiallığı, Stalinin hakimiyyəti dövründə dövlət təhlükəsizliyi orqanlarına təsir əldə etmək üçün bu orqanın daxilində ayrı-ayrı partiya funksionerlərinin maraqlarına xidmət edən müxtəlif qruplaşmalar arasında gedən nüfuz savaşına qoşulmayaraq, təhlükəsizlik orqanı işçisinin adını ləkələyən şəxslərin xidmətdən kənarlaşdırılması ilə bağlı haqlı tələblər irəli sürməsi DTK-nın o vaxtkı rəhbərliyi tərəfindən birmənalı qarşılanmır, qısqanclıq doğurur, onun bədxahlarının fəallaşmasına və o vaxtlar işçini rəhbərliyin gözündən salmaq üçün geniş tətbiq olunan kompromat mübarizəsinə yol açırdı. Vaxtilə Azərbaycan SSR-də milli-mənəvi təfəkkür sahiblərini, düşünən beyinləri məhv edən qüvvələr öz çirkin cinayətlərinin ört-basdır edilməsi yolunda Heydər Əliyevə bir maneə kimi baxır, həqiqətləri çəkinmədən söyləyən bu gənci öz vəzifə ambisiyaları üçün real təhlükə hesab edirdilər. Bu məkrli qüvvələr birləşərək, 1955-ci ildə Heydər Əliyevin şöbə rəisi vəzifəsindən uzaqlaşdırılmasına nail oldular. Heydər Əliyev o dövrün hadisələrini belə səciyyələndirirdi: «O qədər çətinliklər çəkdim ki, 30-cu illərdən qalmış və Azərbaycana xəyanət etmiş insanlardan bu orqanları xilas edək və yeni gənc nəsli cəlb etmək, orqanlarda sağlamlaşma işi aparmaq. Bu, çox çətin oldu. O qədər çətin oldu ki, mənə qarşı fitnələr etdilər, vəzifədən çıxartdılar. Lakin bir-iki ildən sonra məni yenə də vəzifəyə təyin etdilər, məcbur oldular ki, təyin etsinlər… Mən o zaman cəsarətli addımlar atmağa, təmizləmə işləri görməyə başladım, bir neçə zabitin cinayətkar olduqlarına görə həbs edilməsinə, cəzalandırılmasına, işdən çıxarılmasına nail oldum».

1955-ci ilin ortalarında Heydər Əliyev Azərbaycan SSR DTK-nın Arxiv-Qeydiyyat şöbəsinə baş əməliyyat müvəkkili göndərildi. Qısa bir müddətdən sonra SSRİ DTK-nın mərkəzi aparatında Heydər Əliyevin əməliyyat təfəkküründün, təhlil qabiliyyətinin, idarəetmə məharətinin, təşkilatçılıq bacarığının təhlükəsizlik orqanlarına gərəkliliyini, belə keyfiyyətlərə malik əməkdaşın əməliyyat işindən uzaqlaşdırılmasının kadr siyasətində yolverilməz səhv olduğunu anladılar. Çünki, Heydər Əliyev fiziki, ruhi, mənəvi qüvvələrinin çiçək-

ləndiyi bir yaşda idi və onun potensialı hələ neçə-neçə uğurlu əməliyyatın həyata keçirilməsində əvəzedilməz rol oynaya bilərdi. Fransız filosofu Fransua Laroşfukonun təbirincə desək, insanın böyüklüyü onunla ölçülür ki, hətta bədxahlar belə onun ləyaqətini qiymətləndirmək məcburiyyətində qalırlar. Belə də oldu, düz yarım ildən sonra Heydər Əliyev Bakıda DTK-nın 2-ci şöbəsinin bölmələrindən birində rəis müavini, sonra rəis vəzifəsində idi. Daha yarım il sonra isə 2-ci şöbəyə rəis müavini təyin olundu. 1958-ci ildə – 35 yaşında Heydər Əliyev artıq bütün Azərbaycan SSR DTK-nın əks-kəşfiyyatına başçılıq edirdi. General-leytenant Ziya Yusifzadə Heydər Əliyevin təhlükəsizlik orqanlarında yenidən məsul vəzifələrə irəli çəkilməsini belə xatırlayır:

«Özlərini gözdən salmış DTK əməkdaşlarının işdən çıxarılması ilə bağlı onun 1953–1954-cü illərdə qaldırdığı məsələnin 1956-cı ildə, Mircəfər Bağırovun məhkəməsindən sonra aktuallıq tapması öz sözünü dedi. Yəni Əliyevin doğru olduğunu zaman sübuta yetirdi. Ən başlıcası isə Əliyev 2-ci şöbənin rəisi olan vaxt bu şöbənin əks-kəşfiyyat uğurları əhəmiyyətli dərəcədə yüksək idi. O, əməkdaşlar sırasında kəskin surətdə seçilirdi. Baxmayaraq ki, orqanlara istedadlı, geniş dünyagörüşünə malik, xalqa, partiyaya sədaqətli adamları götürürdülər. Özü də ciddi, iki il, üç il yoxlayırdılar. Hətta bu fonda belə, Əliyev öz təşkilatçılıq və analitik qabiliyyətinə görə nəzərə çarpan dərəcədə fərqlənirdi. Buna görə də qısa müddətdən sonra onu yenidən irəli çəkdilər».

Azərbaycan SSR DTK Kollegiyasının 1960-cı il 29 iyun tarixli qərarının yerinə yetirilməsi haqqında arayışdan çıxarışda deyilir: «2-ci şöbənin rəhbərliyi öz işində əməliyyat heyətinin tərbiyəsini düzgün qurmuşdur. Şöbənin rəisi podpolkovnik Heydər Əliyev işin təşkilində əməkdaşlara şəxsən kömək etmiş, mövcud nöqsanlarla yanaşı, çekist işində yenilik və müsbət təcrübənin olduğunu göstərmiş, onlardan lazımi səviyyədə istifadə edildiyini bildirmişdir. O, ayrı-ayrı əməkdaşların nümunəsində əməliyyat heyətinin digər üzvlərinin öyrədilməsini təşkil edir, bundan başqa, tapşırılan sahələrdə işin düzgün təşkil edilməsi yollarını göstərir».

Əməliyyat tədbirlərinin təşkilində, xüsusilə də əcnəbi vətəndaşların Azərbaycan SSR ərazisində törətmək istədikləri təxribat-pozuculuq fəaliyyətlərinin aşkarlanıb üzə çıxarılmasında Heydər Əliyevin və onun başçılıq etdiyi 2-ci şöbənin müstəsna rolu olmuşdur.

İ.Stalinin ölümündən sonra N.Xruşşovun hakimiyyətə gəlişi ilə ölkədaxili ictimai-siyasi proseslərdə başlanan nisbi «mülayimləşmə» prosesi cəmiyyətin tərkib hissəsi olan təhlükəsizlik orqanlarından da yan keçməmişdi. DTK veteranı Filip Bobkovun xatirələrinə görə, güman edilirdi ki, ölkə daxilində əks-kəşfiyyatın fəaliyyət dairəsi əhəmiyyətli dərəcədə daraldılacaq və SSRİ ərazisində xarici ölkə xüsusi xidmət casuslarının üzə çıxarılması ilə xarici vətəndaşların ölkəyə gəlib-getməsi rejiminə nəzarətlə məhdudlaşacaqdır. O ki qaldı SSRİ vətəndaşlarına, burada ön plana ayrı-ayrı vətəndaşların qanunazidd hərəkətlərinin qarşısını almalı olan xəbərdarlıq tədbirləri çəkilirdi.

Tədqiqatçılar Aleksandr Şelepinin SSRİ DTK-ya rəhbərlik etdiyi qısa müddət ərzində onun imzaladığı 00420 saylı əmri sovet dövlət təhlükəsizliyi orqanlarında liberallaşma meyillərinin kağız üzərində təzahürü kimi qiymətləndirirlər. Bu əmr dövlət təhlükəsizliyi orqanlarının şəxsi heyəti qarşısında yeni vəzifələr qoyaraq, əhalinin müəyyən təbəqələri arasında cəza deyil, profilaktika tədbirlərinin aparılmasını ehtiva edirdi. Ancaq məhz Azərbaycan SSR dövlət təhlükəsizliyi orqanları bu əmri kağız üzərində deyil, əməli surətdə icra etmişdir. Bu orqanların işinin yeni reallıqlara uyğun təşkilində o vaxt Azərbaycan SSR DTK-da rəhbər vəzifələrdə çalışmış Heydər Əliyevin danılmaz xidmətləri olmuşdur. XX əsrin 60-cı illərinin əvvəllərində Heydər Əliyev tez-tez rayonlarda olur, ən müxtəlif auditoriyalar qarşısında çıxışlar edirdi. Kabinet işinə üstünlük verən, geniş auditoriya ilə açıq təmasdan çəkinən bir çox DTK əməkdaşından fərqli olaraq, Heydər Əliyev insanlarla canlı ünsiyyəti sevirdi. Ümumiyyətlə, hərbi nizamnamələrin müddəalarını gözəl bilən və onları layiqincə icra edən Heydər Əliyev bununla belə, hər hansı hadisəyə şablon yanaşmadan uzaq idi. 1963-cü ildə Sumqayıtda baş vermiş «çörək üsyanı» adı ilə tarixə düşmüş hadisə və DTK-da məsul vəzifədə çalışan Heydər Əliyevin ona reaksiyası bu baxımdan maraqlıdır. Həmin il Sumqayıt şəhərinin bir qrup sakini şəhərin ərzaqla təminatının lazımi səviyyədə olmamasına etiraz əlaməti olaraq 1 May nümayişində SSRİ dövlət və partiya liderlərinin portretlərini qoparmışdılar. O dövrlərdə belə hadisələr geniş ictimaiyyətdən gizlədilirdi. Heydər Əliyevin alicənablığı və hadisələrə əsl peşəkar yanaşması nəticəsində bu hadisənin obyektiv təhqiqatı aparıldı, kütləvi həbslərə rəvac verilmədi, iğtişaşın qarşısı alındı.

Heydər Əliyevin Azərbaycan SSR DTK-da rəhbərlik etdiyi əks-kəşfiyyat şöbəsinin fəaliyyəti təkcə ölkə daxilində narazı ünsürlərə qarşı profilaktik tədbirlərin həyata keçirilməsi ilə məhdudlaşmırdı. Şöbənin işinin başlıca istiqamətlərini xüsusi xidmət orqanlarının ölkə ərazisində kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınması, xarici vətəndaşların gediş-gəliş kanallarında əks-kəşfiyyat işinin aparılması təşkil edirdi. Bu istiqamətdə əldə edilmiş uğurlardan biri kimi 1958-ci ilin sonlarında «Duqlas» adı altında keçirilən təhlükəsizlik əməliyyatını göstərmək olar. O vaxt Azərbaycan SSR səmasında xarici dövlətə məxsus «Duqlas S–16» təyyarəsi vurulub salınmışdı. Ekipajın axtarılıb tapılması və hadisənin araşdırılması ilə DTK-nın 2-ci şöbəsinin başçılıq etdiyi əməliyyat qrupu məşğul olurdu. Azərbaycan Respublikası MTN-nin Heydər Əliyev adına Akademiyasının rəisi, general-leytenant Ziya Yusifzadənin xatirələrindən:

«1958-ci ilin iyununda dördmotorlu «Duqlas S–16» təyyarəsi tərəfindən Sovet İttifaqının sərhədinin pozulması qeydə alınmışdı. Təyyarə Azərbaycan SSR ərazisinin içərilərinə 170 kilometr keçmişdi. SSRİ Müdafiə Nazirliyi ilə razılaşmaya əsasən havaya qalxan iki «MİQ–17» təyyarəsi qabaqlayıcı atəşlə təyyarəni enməyə məcbur etməyə cəhd göstərmişdi. Lakin ekipaj atəşlərə reaksiya vermirdi. Həqiqətən, təyyarənin qanadını zədələyən birinci atəşdən sonra o enməyə başladı. Təyyarə enən zaman Ağcabədi rayonunun Hindarx kəndinin sakinləri təyyarədən bir neçə adamın tullandığını görürlər. Bəziləri deyirdi ki, onlar beş nəfərdir, bəziləri altı. Bu məlumatı alan kimi Heydər Əliyev başda olmaqla qərargah yaradıldı. Bir neçə saat ərzində Heydər Əliyev Bakı Hava Hücumundan Müdafiə Dairəsinin Xüsusi Şöbəsinin və digər hərbi hissələrin, o cümlədən sərhədçilərin və yerli əhalinin nümayəndələrini cəlb etməklə əməliyyat işçilərinin böyük bir qrupunu yaratdı. Təxminən 500-ə yaxın adam bir neçə gün ərzində yüz kilometrlərlə ərazini addım-addım axtardı.

Axtarış tədbirləri nəticəsində sonradan amerikalı olduqları məlum olan 9 nəfər saxlanıldı. Hamısı Bakıya, DTK-ya gətirildi və hər bir ekipaj üzvü ilə əsaslı surətdə iş aparılmağa başlandı. Təyyarəçilərin dindirilməsi ilə şəxsən Heydər Əliyev məşğul olurdu. Mən dindirmədə tərcüməçi qismində iştirak edirdim. Heydər Əliyevin ustalığına heyran olurdum. O, istintaqı elə aparırdı, istintaq olunanları almaq istədiyi

cavaba elə yaxınlaşdırırdı ki, onlar özləri də hiss etmədən, faktik olaraq Cənub-Şərqi Asiya, Türkiyə, Pakistan, Avropa ərazilərində onlara məlum olan bütün hərbi aerodromların yerini açıb söyləyirdilər».

Ziya Yusifzadə Heydər Əliyevin xarici ölkələrdən birinin hərbi kəşfiyyatçısının cəlb olunması və onun vasitəsilə qiymətli məlumatların əldə olunması ilə nəticələnmiş növbəti uğurlu «Axito» əməliyyatını belə xatırlayır:

«Mərkəzdən «Axito»nun dəfələrlə Sovet İttifaqında olması barədə məlumat daxil oldu. O, SSRİ-nin şəhərlərini gəzir, artıq Leninqrad, Kiyev, Moskva, Tbilisidə olub, kəşfiyyat məlumatları toplamağa cəhd göstərib. «Axito» Bakıya gələndə bütün gün ərzində onun hərəkətləri müşahidə altına alındı.

Müəyyən olundu ki, «Axito» konspirasiya tədbirləri görərək rejim obyektlərinə yol tapıb kəşfiyyat işləri aparır, «Minaks» fotoaparatı ilə çəkiliş aparır, sxemlər cızır, gördüklərini qeyd edir. Materiallar Heydər Əliyevə məruzə edildi, o, «Axito»nu cinayət başında yaxalamağı təklif etdi. «Axito» köhnə «İnturist» mehmanxanasında yaşayırdı, bizim müşahidələrimizdən bəlli oldu ki, o, hərbi dəniz limanına getmək istəyir. Bir dəfə o, mehmanxananın arxa qapısından çıxıb doğrudan da Xəzər flotiliyasının hərbi dəniz limanına tərəf istiqamətləndi.

Bu vaxt biz onu izləyirdik, ancaq onun bu rayona maneəsiz keçə bilməsi üçün müşahidə sistemi zəiflədilmişdi. Və «Axito» orada çəkiliş aparan zaman yaxalandı. Heydər Əliyev tamamilə gözlənilməyən bir qərar qəbul etdi: təklif etdi ki, «Axito» əməliyyata cəlb olunsun, çünki hərbi kəşfiyyatçı olduğundan həm öz ölkəsi, həm də olduğu başqa ölkələr haqqında geniş məlumatı var. Bu təklif SSRİ DTK-nın 2-ci Baş İdarəsinə məruzə edildi və «Axito»nun cəlb olunmasına razılıq alındı. Cəlbetməni həyata keçirtmək Heydər Əliyevə tapşırıldı. Çünki, dediklərinə görə, o, böyük adam idi və əgər cəlbetməyə Heydər Əliyev gedərsə, onlar işin uğur qazanacağına əmindirlər.

Heydər Əliyevə üç cəhd kifayət etdi ki, «Axito»nu inandırsın: uzun müddətə həbsxanaya düşməkdənsə, dövlət təhlükəsizliyi orqanları ilə əməkdaşlıq etmək onun öz xeyrinədir. Cəlbetmə uğurlu oldu və artıq bir neçə aydan sonra Heydər Əliyev xarici ölkələrin birində onunla konspirativ görüş keçirdi. Bu, Heydər Əliyev tərəfindən həyata keçirilən ən yaxşı cəlbetmələrdən biri idi və Mərkəz tərəfindən olduqca

yüksək qiymətləndirilmişdi. Moskvanın nəzarəti altına keçən «Axito» uzun müddət SSRİ dövlət təhlükəsizliyi orqanları ilə əməkdaşlıq edib maraqlı informasiyalarla təmin etdi».

Azərbaycan Respublikası MTN veteranı Kamal Əliyevin xatirələrindən Heydər Əliyevin bilavasitə iştirakı ilə həyata keçirilən daha bir uğurlu əməliyyat – «İzuver» əməliyyatı haqqında məlumat əldə etmək olar: «1964-cü ildə İran xüsusi xidmət orqanlarının (SAVAK) muzdlu agenti «İzuver» qeyri-leqal olaraq Azərbaycan SSR ərazisinə göndərilmişdi. «Əfsanəyə» görə, o, «Tudə» (1941-ci ildə yaradılmış İran Xalq Partiyası) partiyasının üzvü idi və guya Bakıda olan İran mühacirləri ilə İrandakı gizli «Tudə» mərkəzi arasında nizamlanmış əlaqə kanallarını yoxlamaq məqsədilə gəlmişdi. Əslində isə o, «Tudə» partiyasının Mərkəzi Komitəsinin yerləşdiyi keçmiş Almaniya Demokratik Respublikasına getmək fikrində idi. SAVAK bu əlaqə kanalını ələ keçirmək və İXP-nin fəaliyyəti barədə aktual informasiya almaq imkanını təmin etməyə çalışırdı. «İzuver» Azərbaycan SSR-ə şah rejiminin təqiblərindən xilas olmağa can atan şəxs kimi «pənah gətirmişdi». Biz onunla profilaktik iş aparmağa başladıq və xaricdə olan əlaqəçilər xəbər verdi ki, bu tələdir. Bundan əlavə məlum oldu ki, İrandakı gizli kommunist hərəkatı fəallarının həbsi də bu casusla bağlıdır. «İzuver» tərəfindən İran cəza orqanlarına «təhvil» verilən «Tudə» partiyasının iki böyük xadimini isə ölüm cəzası gözləyirdi. Bu məlumat bizə çatdırılanda Heydər Əliyev onların həyatının qorunmasına kömək göstərmək xahişi ilə Azərbaycan SSR Ali Sovetinə müraciət etdi. Ali Sovet bu məsələni SSRİ Ali Soveti qarşısında qaldırdı və o da öz növbəsində İran şahına müraciət etdi. Nəticədə ölüm cəzası uzunmüddətli həbs ilə əvəz olundu».

İşdə göstərdiyi nümunəvi xidmətlərinə görə dəfələrlə mükafatlandırılan podpolkovnik Heydər Əlirza oğlu Əliyev SSRİ Nazirlər Soveti yanında DTK sədrinin 1964-cü il 2 mart tarixli 85 saylı əmrinə müvafiq olaraq, Azərbaycan SSR Nazirlər Soveti yanında DTK sədrinin müavini vəzifəsinə təyin edildi. 2-ci şöbənin rəisi Heydər Əliyevin daha məsul vəzifəyə irəli çəkilməsi üçün SSRİ DTK-ya göndərilən xidməti xasiyyətnaməsində deyilirdi:

«... Kapitalist ölkələrindən olan xaricilərlə bağlı SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi ilə birgə keçirilən bir sıra ciddi çekist əməliy-

yatında şəxsən iştirak etmişdir. Onun bilavasitə iştirakı ilə respublika DTK-da xarici kəşfiyyat orqanlarına qarşı bir neçə tədbir həyata keçirilmişdir. Casuslarla şəxsən işləyir...

1963-cü ildə yoldaş Əliyev kordonun o tərəfinə keçmək fikri olan dövləti cinayətkarın axtarışı və saxlanması işini yüksək peşəkarlıqla təşkil etmişdir. 1962–1964-cü illərdə onun rəhbərliyi altında şöbənin operativ heyəti tərəfindən həyata keçirilən xeyli sayda profilaktik tədbirlər nəticəsində bir çox arzuedilməz halların qarşısını almaq və yanlış fikirdə olan sovet vətəndaşlarını doğru yola gətirmək mümkün olmuşdur». Bütün bu nailiyyətlərin məntiqi nəticəsi olaraq 1965-ci il martın 31-də Heydər Əliyevə polkovnik hərbi rütbəsi verilir.

Öz əməli fəaliyyəti ilə təhlükəsizlik orqanlarında böyük nüfuz qazanan polkovnik Heydər Əliyev 1966-cı ilin fevralında SSRİ Nazirlər Soveti yanında DTK-nın F.E.Dzerjinski adına ali məktəbinin rəhbər heyətin təkmilləşdirilməsi kurslarına göndərilir. Heydər Əliyev 1966-cı ilin mayında həmin kursu müvəffəqiyyətlə bitirib respublikaya qayıtdıqdan sonra Azərbaycan SSR DTK-nın fəaliyyətində mühüm irəliləyişlər müşahidə olunmağa başladı. O, əməli fəaliyyətlə nəzəri biliklərin vəhdətinə xüsusi fikir verirdi. Heydər Əliyevin özünün dediyi kimi, artıq əməliyyat işlərindəki 1930-cu illərin səriştəsizliyi və savadsızlığı aradan qaldırılır. Əməliyyat işlərinin və əməliyyat oyunlarının yalnız statistik göstəriciləri deyil, keyfiyyəti də yüksəldilirdi.

Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında rəhbər vəzifədə çalışdığı dövrdə daha bir yaddaqalan əməliyyat kimi «Naturalist»i qeyd etmək lazımdır. General-leytenant Ziya Yusifzadə həmin əməliyyatın təfərrüatını belə xatırlayır:

«...«Naturalist» Azərbaycan SSR-ə 1964-cü ildə turist vizası ilə gəlmişdi. SSRİ DTK-nın məlumatlarından aydın olurdu ki, «Naturalist» 1942–1945-ci illərdə Hitler Vermaxtının qərargahında işləmiş, Almaniyanın satelliti olan ölkələrin hərbi-texniki və hərbi-iqtisadi potensialını öyrənmək üçün tez-tez Qərb və Şərq ölkələrinə getmiş, alman agenturasının müxtəlif mənbələrindən qərargaha daxil olan kəşfiyyat məlumatlarının təhlili və ümumiləşdirilməsi ilə məşğuldur. Bir neçə dəfə Sovet İttifaqında olmuşdu.

O vaxt artıq Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin birinci müavini olan Heydər Əliyev bu məlumatları alıb ən hazır-

lıqlı əməliyyat işçilərindən ibarət qrup yaradaraq, onların qarşısında «Naturalist» Bakıda olduğu vaxt onun ətrafında xüsusi əməliyyat tədbirləri planının işlənib hazırlanması vəzifəsini qoyur. Alınan məlumatlardan ilk növbədə bəlli oldu ki, onun haqqında olan informasiya həqiqətə uyğundur, bundan əlavə, aydınlaşdırıldı ki, o da, atası da Hitlerə, onun irqçi siyasətinə düşmən münasibət bəsləmiş, ona görə də müharibə bitəndən sonra «Naturalist» istefaya çıxaraq əvvəlcə müəllimlik etmiş, sonra jurnalistika ilə məşğul olmuşdur. Materiallar Heydər Əliyevə məruzə olunandan sonra o deyir: «Onunla Azərbaycan dövlət təhlükəsizliyi orqanları ilə əməkdaşlığa cəlb olunmaq məqsədi daşıyan söhbət aparmaq üçün şərait yaradın». Şərait yaradıldı.

Azərbaycan Respublikası MTN-in arxiv materiallarından bəlli olur ki, Heydər Əliyev «Naturalist»in məxfi əməkdaşlığa cəlb olunması ilə nəticələnmiş söhbətdə şəxsən iştirak etmişdir. Məlumatlara görə, «Naturalist» cəlb olunandan sonra isə Heydər Əliyev iki dəfə Almaniya Federativ Respublikasına xidməti ezamiyyətə də yollanmışdı.

Keçirdiyi çoxsaylı əməliyyatlar, topladığı böyük iş təcrübəsi, yüksək peşəkarlığı və təşkilatçılığı nəzərə alınaraq SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin 1967-ci il 22 iyun tarixli 27 saylı əmrinə əsasən Heydər Əlirza oğlu Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilir. Təxminən dörd aydan sonra – 1967-ci il oktyabr ayının 30-da 136 nömrəli əmrlə ona general-mayor hərbi rütbəsi verilir.

Azərbaycan tarixini gözəl bilən, erməni millətçilərinin Azərbaycan xalqının başına gətirdiyi müsibətlərdən xəbərdar olan Heydər Əliyev DTK-da rəhbər vəzifələrdə çalışdığı dövrlərdə erməni məkrinin əyani sübutları ilə dəfələrlə qarşılaşmışdı. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi köklərini, ermənilərin Azərbaycan xalqına qarşı sovet hakimiyyəti illərində də səngimək bilməyən ideoloji təxribatlarını Heydər Əliyev ağızdan-ağıza deyil, məhz ilk mənbələrdən öyrənmiş, təhlil süzgəcindən keçirmiş, erməni millətçiliyinin Azərbaycan SSR-in Dağlıq Qarabağ bölgəsində baş qaldırmasına qarşı mübarizənin ön sıralarında olmuşdur.

Azərbaycan Respublikası MTN Arxivində SSRİ Nazirlər Soveti yanında DTK-nın 2-ci Baş İdarəsi 2-ci şöbəsinin rəisi Heydər Əliyevin adına göndərilən tam məxfi məktub saxlanılır (2 II–383, 7 fevral 1962-

ci il). Məktubda deyilirdi: «1961-ci il noyabr ayının sonunda Livanda, xüsusi olaraq buraya gəlmiş ABŞ kəşfiyyatının nümayəndəsi daşnak partiyasının «Xarici büro» rəhbərləri ilə gizli müşavirə keçirmişdir. «Xarici büro» tərəfindən bir sıra qərarlar qəbul edilmişdir: təxribat işləri aparmaq üçün casus hazırlanması və qeyri-leqal yolla repatriasiya kanalları vasitəsilə sərhədyanı ölkələrdən Ermənistan SSR-ə göndərilməsi, SSRİ-yə yollanan turist qrupları və qohumlarının yanına gedən ayrı-ayrı ermənilərdən casusluq məqsədilə istifadə edilməsi, bütün vasitələrdən istifadə etməklə, o cümlədən repatriasiyaya fəal kömək göstərən adamlara qarşı terror aktları törətməyə qədər, ermənilərin Sovet İttifaqına gözlənilən repatriasiyasına mane olmaq».

Heydər Əliyev həmin sənədin üzərinə xarici daşnak təşkilatlarının əlaqələrini öyrənmək və aşkar etmək üçün konkret tədbirlərin hazırlanması, habelə casusların SSRİ sərhədinin Azərbaycan SSR-ə aid hissəsindən göndəriləcəyi halda onların tutulmasına dair göstərişləri ehtiva edən dərkənar qoymuşdur.

Azərbaycan SSR DTK-nın 1967-ci il üçün hesabatında, Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində olan vəziyyətin müfəssəl təhlilini verən Heydər Əliyev bildirirdi: «Bir çox hallarda vilayətdə siyasi cəhətdən ziyanlı və cəmiyyətə zidd olan hərəkətlər Ermənistan SSR-dən olan millətçiliyə köklənmiş ayrı-ayrı elementlərin təsiri və bilavasitə iştirakı ilə həyata keçirilirdi».

Tarixi ədalət naminə demək lazımdır ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin Azərbaycan SSR-ə qarşı ərazi iddiaları ilə çıxış edən erməni separatçıları ilə mübarizəsi, onun Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilməsindən əvvəl başlamışdır. Belə ki, 1967-ci il iyulun 3-də Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndidə 3 soydaşımızın – müəllim Ərşad Məmmədovun, onun qohumları Zöhrabın və Ələmşahın heç bir əsası olmadan cinayət məsuliyyətinə cəlb olunmasını və məhkəmə prosesindən sonra xüsusi bir amansızlıqla qətlə yetirilməsini həyata keçirən erməni canilərinin aşkarlanmasında, onların ifşa edilməsində, məsuliyyətə cəlb olunmasında Azərbaycan SSR DTK-nın sədri Heydər Əliyevin qətiyyətli və barışmaz mövqeyi erməni millətçilərini ciddi təşvişə salmışdı. Heydər Əliyev bu hadisələrlə bağlı Xankəndidə əməliyyat müşavirəsi keçirərək, cinayət əməlinə milli don geyindirmək

istəyən bir qrup separatçının niyyət və hərəkətlərini ifşa etmiş, cəzasızlıq mühitinin hökm sürməsinə yol verilməyəcəyini açıq bəyan etmiş, erməni millətçilərinin hərəkətlərinin ağır fəsadlar ilə nəticələnəcəyi barədə xəbərdarlıq etmişdi.

Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarında sıravi əməkdaşdan komitə rəhbərinə qədər mərhələli uzun bir yol qət etmişdir. Onun bu mərhələlərin hər birindəki iş üslubu, daha doğrusu, işgüzar keyfiyyətləri ilə şəxsi məziyyətlərinin vəhdəti maraq doğurur. Uzun müddət dövlət təhlükəsizliyi orqanlarında Heydər Əliyevlə birgə çalışmış insanların xatirələri bir şəxsiyyət kimi onun bizim üçün naməlum olan cəhətlərinə işıq salır.

Heydər Əliyev əməkdaşları narahat edən hər bir məsələ ilə maraqlanır, insanlıq qayğısını heç kimdən əsirgəmir, xidməti fəaliyyətlə bağlı tövsiyələri ilə yanaşı, onların ailə və məişət məsələlərini də diqqətdən kənarda qoymurdu.

«1963-cü ildə DTK əməkdaşları üçün yeni yaşayış binası tikdilər. Mənzilləri bölüşdürməyə başladılar. Bundan bir qədər əvvəl şöbə partiya təşkilatının katibi kimi mən, şöbə rəisinin müavini Xalıqov və bir nəfər də partiya bürosunun üzvü ev növbəsində duran əməkdaşlarımızdan birinin evində olduq. Gördüklərimiz bizi dəhşətə gətirdi. Özü, həyat yoldaşı, üç uşağı, hamısı da bir otaqda... Hələ yoldaşı da xərçəngdən əziyyət çəkirdi. Bir sözlə, bölüşdürmə başlayanda, mən həmin əməkdaşın xeyrinə öz mənzilimdən imtina etdim. Sədr müavini Eyvaz Məmmədov yadıma gəlir, narazılığını da bildirdi. Bu nə hərəkətdir, sənə mənzil verirlər, hələ imtina da edirsən. Heydər Əliyev də orada idi. İclasdan sonra məni yanına çağırıb dedi: «Çox düzgün hərəkət eləmisən, ürəyini sıxma. Sən o adama kömək etdin, sənə də mütləq kömək edərlər». O vaxt Azərbaycan SSR Sərhəd Qoşunları İdarəsi ləğv olunmuşdu, ona görə sərhədçi ailələrinin bir çoxu respublikadan gedirdi. 2-ci şöbənin rəis müavini Vladimir Bantserev boşalan mənzillərdən birinə köçdü. Onun şəhərin Neftçilər prospektindəki mənzilini isə Bakı Şəhər İcraiyyə Komitəsinin qərarı ilə mənə verdilər. Mən bilirəm, bu, şəxsən Heydər Əliyevin təşəbbüsü idi» (Kamal Əliyevin xatirələrindən).

«Heydər Əliyev söhbət etdiyi adamı çox diqqətlə dinləməyi bacarırdı, sözünü kəsmirdi, yalnız bundan sonra, məsləhət edirmiş

kimi, həmsöhbətinin mənliyinə toxunmadan öz fikrini söyləyirdi. Əgər əməkdaşın köməyə ehtiyacı vardısa, Heydər Əliyev bunu yubatmadan edirdi, problemin operativ həllinə çalışırdı. Heydər Əliyev əməkdaşlarına qarşı olduqca diqqətli idi. Ona görə bütün tapşırıqları yerinə yetirilirdi, hamı bilirdi ki, onun gözəl yaddaşı var, nəzarət güclü, nəticə isə müsbət olacaq. Heydər Əliyev təkcə əməkdaşlarına qarşı deyil, özünə qarşı da son dərəcə tələbkar idi. O, iş vaxtının hər dəqiqəsinin qədrini bilirdi, tapşırıqlarının səthi yerinə yetirilməsini, yaxud yubadılmasını sevmirdi. Fenomenal yaddaş sahibi olduğundan, kimə nə tapşırıq verdiyi, icra müddəti yadında idi. Bir dəfə o, qurum rəhbərlərindən kiməsə müəyyən gün saat 14-ə qədər bir sənəd hazırlamağı tapşırır. Əməkdaş sənədi hazırlayır, ancaq rəisin kabinetinə göstərilən vaxtdan 10 dəqiqə gec gəlir. Heydər Əliyev söz demədən sənədlə tanış olur, razı qaldığını bildirir, sənədi imzalayaraq təyinatı üzrə göndərilməsini tapşırır. Əməkdaş kabineti tərk etməyə hazırlaşanda, Heydər Əliyev onu saxlayıb soruşur ki, sənəd nə vaxt təqdim olunmalı idi. Məlum olur ki, əməkdaş Heydər Əliyevin nahardan sonra yubanacağını zənn edərək onun yanına vaxtından gec gəlib. Heydər Əliyev ona anladır ki, çox diqqətli olmaq, iş vaxtının qədrini bilmək və başqasının da vaxtına hörmətlə yanaşmaq lazımdır» (Adil Bağırovun xatirələrindən).

Ziya Yusifzadə xatırlayır ki, Azərbaycan SSR DTK sədri olandan sonra Heydər Əliyev bütün şöbə rəislərini yığıb göstəriş verdi ki, həftədə bir dəfə iş vaxtından sonra vətəndaşları qəbul etsinlər. Onun vaxtında bu, ilk dəfə olaraq DTK-nın təcrübəsində istifadə olunmağa başlanıldı. MTN-in Heydər Əliyev adına Akademiyasının kursantlarına bu barədə söhbət açan Ziya Yusifzadə xatırlayır:

«Heydər Əliyev DTK rəhbəri olanda, onun adına gələn şikayətlərin sayı artdı. O vaxt, adətən raykoma, şəhər komitəsinə, MK-ya, Moskvaya, hətta Lenin Mavzoleyinə şikayət yazırdılar. Hamı da bu şikayətləri bir-birinin üstünə atırdı, nəticədə məsələlər həll olunmurdu. Heydər Əliyev DTK-da rəhbər vəzifəyə gələndən sonra insanlar ağrılı məsələlərdə ona müraciət etməyə başladılar, çünki inanırdılar: baxacaq, diqqətsiz qoymayacaq, ədalətlə həll edəcək. O özü də həftədə bir dəfə adamları qəbul edirdi (hər qəbulda 30–40 nəfərədək), müavinlərini, şöbə rəislərini də bu işə cəlb etmişdi. Bu səbəbdən də sadə

adamlar arasında DTK-nın hörməti kəskin şəkildə artdı. Camaat artıq çatışmayan cəhətlər barədə bu orqana şikayət etməkdən qorxmurdu. Heydər Əliyev üçün belə görüşlərin başqa məqsədi də var idi – respublikada operativ vəziyyəti, insanların əhval-ruhiyyəsini daha yaxından öyrənmək. Heydər Əliyev DTK-ya əhalidən çoxsaylı şikayət məktublarının daxil olması barədə vaxtaşırı MK-ya məlumat verirdi. Bundan sonra MK-nın «Zəhmətkeşlərin şikayət və məktubları ilə iş haqqında» qərarı qəbul edildi, və əhali ilə aparılan iş xeyli düzəldi».

Heydər Əliyev məhz dövlət təhlükəsizliyi orqanlarında işləyərkən onun tale yolu gələcək ömür-gün yoldaşı akademik Zərifə xanım Əliyeva ilə kəsişir və xoşbəxt ailə həyatının təməli qoyulur. Lakin bu ailənin qurulması çoxlu çətinliklər və mənəvi məhrumiyyətlər bahasına başa gəlmişdir. Taleyin gərdişi ilə hər iki tərəf bu çətinliklərə mərd-mərdanə sinə gərmişdir. Bu hadisələrin çox maraqlı tarixçəsi vardır. 1950-ci ilin sentyabrında Zərifə xanımın atası Əziz Əliyev Azərbaycan SSR Nazirlər Soveti Sədrinin müavini vəzifəsindən azad edilir və vaxtilə özünün yaratdığı respublika Bərpa Cərrahiyyəsi və Ortopediya İnstitutuna direktor təyin edilir. Paralel olaraq Azərbaycan SSR DTK-ya və ali partiya orqanlarına birdən-birə daxil olmağa başlayan anonim məktubların yoxlanmasına başlanılır.

Heydər Əliyev ilə Zərifə Əliyevanın qarşılıqlı məhəbbəti Əziz Əliyevin ailəsi üçün heç də münasib olmayan belə bir məqamda başlanmışdı. Yaranmış vəziyyətin digər qəribə, incə, ağrılı bir cəhəti vardı: gənc zabit gələcək qayınatası barədə kompromat toplamaq tapşırığı almış həmin o təşkilatın özündə işləyirdi. Vəziyyətin qeyri-müəyyənliyi, ikimənalılığı Zərifə xanımı da narahat edirdi. Gənc qız ehtiyat edirdi ki, bilaixtiyar sevdiyi adamın xidməti karyerasına mane ola bilər. O, növbəti görüşləri zamanı Heydər Əliyevə deyir: «Bilirsən, biz daha görüşə bilməyəcəyik, çünki atamı işdən çıxardıblar, onu bir çox məsələlərdə günahlandırırlar. Sən dövlət təhlükəsizliyi orqanlarında işləyirsən, bu, sənə ziyan gətirə bilər. Bir yerdə olmağımız qismət deyilmiş, deyəsən».

Bu söhbətin üstündən çox keçməmiş, Heydər Əliyevi Azərbaycan SSR Dövlət Təhlükəsizliyi naziri Yemelyanov yanına çağırır. Xoşagəlməz bir söhbət olur. General, faktik olaraq, ona əmr edir ki, Əziz Əliyevin ailəsi ilə bütün əlaqələrini kəssin, əks halda o, Heydər Əliyevi

orqanlardan xaric etməli olacaqdır. Əslində, Yemelyanovun əmri onu çıxılmaz vəziyyətdə qoymuşdu: ya sevdiyi peşə və xidməti karyera, ya da sevdiyi qız. Bu, Heydər Əliyev üçün mənəvi yetkinlik imtahanı idi. Xoşbəxtlikdən o bu məsələdə tərəddüd nə olduğunu bilmədi. Zərifə xanım öz zəngin daxili aləmi, qadın gözəlliyi, nadir tapılan ziyalılıq mədəniyyəti ilə artıq onun qəlbinə elə hakim kəsilmişdi ki, o həyatını bu qızdan ayrı təsəvvür edə bilmirdi. Bu məsələdə də Heydər Əliyev qətiyyəti, iradəsi, mətanəti və dönməzliyi qalib gəldi.

Bu dahi insanın təhlükəsizlik orqanlarında fəaliyyətini araşdırarkən dövlət təhlükəsizliyi orqanlarının Heydər Əliyev şəxsiyyətinin formalaşmasına, onun bu orqanların fəaliyyətinin yeni iş üslubu ilə təkmilləşdirilməsinə qarşılıqlı təsiri amillərini nəzərdən qaçırmaq olmaz. Heydər Əliyev şəxsiyyəti dövlət təhlükəsizliyi orqanının əməkdaşı kimi sıravi işçi prinsipiallığı ilə rəhbər qətiyyətini, hadisələri düzgün proqnozlaşdırmaq bacarığı ilə çevik qərarlar qəbul etmək qabiliyyətini, insan alicənablığı ilə çekist peşəkarlığını, hərbi nizamnamələrin müddəalarına dəqiqliklə əməl olunmaqla işə yaradıcı münasibəti, ümumbəşəri dəyərlərə hörmət hissi ilə milli mənəvi dəyərlərə sadiqliyi özündə birləşdirirdi. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü ondadır ki, onun xarakterindəki dəqiqlik heç vaxt pedantlığa, prinsipiallıq inadkarlığa, ümumbəşəri dəyərlərə sadiqlik kosmopolit düşüncə tərzinə keçməmişdir.

Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında yorulmaz və səmərəli fəaliyyəti Heydər Əliyev – Zaman, Heydər Əliyev – Məkan, Heydər Əliyev – Şəxsiyyət, Heydər Əliyev – Millət kateqoriyaları prizmasından daha aydın görünür. Təhlükəsizlik orqanları işçilərinin say tərkibinin azərbaycanlıların xeyrinə dəyişdirilməsi, əslində, uzaq hədəflərə hesablanmışdı. Təhlükəsizlik orqanlarında çalışarkən sovet cəza maşınının neçə-neçə günahsız insanın qətlinə fərman verdiyinin əyani şahidi olan Heydər Əliyev özü orqanlara rəhbərlik etdiyi dövrdə səhvi cinayətdən, cinayəti səhvdən müdrikliklə ayırmağı və ədaləti, milli maraqları önə çəkməyi bacaran böyük şəxsiyyət olduğunu təsdiqlədi.

Heydər Əliyev Azərbaycan SSR DTK-da rəhbər vəzifələrdə çalışdığı dövrdə Azərbaycan SSR-də «əcinnə ovu»na imkan verməyərək, Azərbaycan xalqının neçə-neçə tanınmış ziyalısını yersiz təqiblərdən qorudu, milli mənlik şüurunun oyanmasına, milli özünüdərkin

yaranmasına rəvac verən ziyalı təşəbbüslərini dolayısı ilə dəstəkləməklə, xüsusi xidmət orqanlarını milli mənafelərə tabe edən rəhbər olmağı bacardı. 1997-ci ildə respublika MTN-in şəxsi heyəti qarşısında çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev özü bu hadisələri belə xatırlayırdı:

«Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, dövlət təhlükəsizliyi orqanlarında rəhbər vəzifələrdə işlədiyim zaman, bu orqanın başçısı olduğum zaman və ondan sonra Azərbaycan Respublikasının başçısı olduğum zaman Azərbaycan xalqının milli mənafeyinə əks olan heç bir addım atılmamışdır. Biz heç bir dissident həbs etməmişdik, heç bir zaman heç bir adamı antisovet təbliğat, yaxud millətçi təbliğat üstündə həbs etməmişdik. Amma nə qədər belə təkliflər, belə təzyiqlər var idi. Burada bizim hörmətli şairimiz xatırlatdı, həqiqətdir, – mən hələ Dövlət Təhlükəsizliyi Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Bunlar hamısı onun xatirindədir. Belə bir insan o vaxtlar böyük fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayəti yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şeirlər yazırdı, «Gülüstan» poeması yazmışdı. Ondan ötrü o adamı həbs etmək məsələsini qoymuşdular.

Xəlil Rzanı da həbs etmək məsələsini qoymuşdular. Onu da mən qoymadım, xilas etdim. Neçə-neçə belələrini xilas etdim. Əkrəm Əylisli var, çox qeyri-sabit adamdır – bir gün belə danışır, bir gün elə danışır. Ona çox köməklər etmişəm. Bəli, onun həbs olunması haqqında neçə dəfə mənim qarşımda təklif vermişdilər, – mən qoymamışam. Belələrini mən çox deyə bilərəm. Məsələn, mərhum Ziya Bünyadov, bizim böyük alimimiz, akademikimiz. Onlar yığışıb müşavirə keçirmişdilər ki, 150 il bundan qabaq Azərbaycan Rusiyanın tərkibinə könüllü girməyib, Azərbaycanı zəbt ediblər. Bu həqiqətdir. Amma, təəssüf ki, o vaxt, 1964-cü ildə qərar çıxmışdı ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü daxil olmuşdu və ona görə də Azərbaycan Respublikası Lenin ordeni ilə təltif edilmişdi. Amma bu alimlər tarixi araşdırma, yəni elmi bir iş aparırdılar. Buna görə onların, xüsusən Ziya Bünyadovun başına nə işlər gətirmək istəyirdilər! Mən bunların hamısının qarşısını almışam».

Milli şüur və mübarizə ilə bağlı konkret hərəkətləri müdafiə etmək və onları gələcəkdə müstəqil Azərbaycan Respublikasının fəaliyyət cəbbəxanasına daxil etmək Heydər Əliyevin düşüncə və fəaliyyətinin həmişə başlıca leytmotivini təşkil etmişdir.

2.2. Erməni separatizminə qarşı mübarizə

1920-ci ildə Şimali Azərbaycanın və Ermənistanın sovetləşməsi, hər iki respublikanın 1922-ci ildə təşkil olunmuş SSRİ-nin tərkibinə qatılması erməni–azərbaycanlı qanlı qarşıdurmasına müvəqqəti olaraq son qoydu. Bundan sonra ictimai şüurda həkk olunmuş fikrə əsasən, bütün millətlərarası ziddiyyətlər «Lenin milli siyasəti bayrağı altında, sovet siyasi sisteminin fundamental dəyərlərini təşkil edən xalqlar dostluğu və qardaşlığı şəraitində» birdəfəlik öz həllini tapmışdı. Azərbaycan SSR-in tərkibində 1923-cü ildə Dağlıq Qarabağa və 1924-cü ildə Naxçıvan diyarına muxtariyyətin verilməsi ilə Ermənistan SSR-lə – Azərbaycan SSR arasında əsası ermənilər tərəfindən qoyulan ərazi münaqişəsi üzərinə müvəqqəti qadağa qoyuldu. XX əsrin 20-ci illərinin ikinci yarısı və 30-cu illərdə Sovetlər İttifaqında siyasi rejimin sərtləşməsi və siyasi repressiyalar şəraitində keçmiş millətlərarası münaqişələrini yenidən reanimasiya cəhdləri, onun təşəbbüskarları üçün ağır nəticələnə bilərdi. Lakin İkinci Dünya müharibəsinin sonlarına yaxın aydın oldu ki, yaranmış sakitlik nisbidir. 1945-ci ilin noyabrında [390, 657] Ermənistan SSR rəhbərliyinin Dağlıq Qarabağa dair növbəti dəfə qaldırdığı ərazi iddiaları onu göstərirdi ki, erməni tərəfi Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılmasını problemin həlli üçün əsaslı saymır və bu əraziyə qəsbkarlıq planlarından əl çəkmək istəmir. Lakin həmin ilin dekabrında Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun Moskvaya ÜİK(b)P katibi G.Malenkova göndərdiyi teleqramda [180, v. 8–11] Ermənistan SSR-in ərazi iddialarına qarşı sərt mövqeyi ermənilər geri çəkilməyə məcbur etdi. Ancaq İ.Stalinin vəfatından sonra Ermənistan SSR rəhbərliyi növbəti dəfə müxtəlif səviyyələrdə bu məsələyə qayıtmışdı.

İ.Stalinin vəfatından sonra SSRİ-də siyasi rejimin mülayimləşməsi dövlətin cəmiyyət üzərində nəzarətini loyallaşdırdı. İ.Stalin to-

talitar modelinin təftişi Azərbaycan SSR-də və Ermənistan SSR-də siyasi rəhbərliyin dəyişilməsi ilə müşayiət olundu. 1953-cü ilin dekabrında M.C.Bağırov və G. Arutyunov birinci katib vəzifələrindən azad olundular. 1956-cı ilin fevralında Sovet İttifaqı Kommunist Partiyasının yeni rəhbəri N.Xruşşovun partiyanın XX qurultayında çıxışı zamanı İ.Stalinin şəxsiyyətinə pərəstişi tənqid etməsi bu prosesin kulminasiya nöqtəsi idi. Qurultayın qərarları Azərbaycan SSR və Ermənistan SSR-də müxtəlif formada qarşılandı. Əgər Azərbaycan SSR-də milli dil və dəyərlər uğrunda mübarizəni stimullaşdırdısa, Ermənistan SSR-də qonşu sovet respublikalarına və Türkiyə Cümhuriyyətinə qarşı ərazi iddiaları ideyasını yenidən gündəliyə gətirdi [224, 111]. Ermənistan SSR rəhbərliyi bu iddialar artıq təkcə dövlət və partiya rəhbərliyi tərəfindən deyil, daha geniş miqyas alaraq, əhalinin müxtəlif təbəqələrinin imzası ilə İttifaq rəhbərliyinə göndərilən etiraz və müraciətlərdə qaldırılırdı. Əslində, bu, ermənilərin necə düşündüyünü və Sovetlər İttifaqının necə idarə olunduğunu göstərirdi. Ermənilər heç vaxt problemin həlli üçün Azərbaycan SSR-in paytaxtı Bakıya müraciət etmirdilər. Ukraynanın Rusiyaya birləşməsinin 300 illiyi münasibətilə SSRİ Ali Sovetin Rəyasət Heyətinin 1954-cü il 19 fevral tarixli qərarı ilə Krım Vilayətinin Ukrayna SSR-ə verilməsi ermənilərdə yeni rəhbərliyin SSRİ tərkibində keçmiş sərhədlərə yenidən baxacağı ümidini yaratdı. M.C.Bağırov hakimiyyətinin başa çatması və Azərbaycan SSR rəhbərliyində baş vermiş geniş dəyişikliklər digər dövlət idarə strukturlarında da yeniliklərə səbəb oldu. Belə ki, daxili işlər və dövlət təhlükəsizliyi nazirlikləri birləşdirildi. Nəticədə 1954-cü il mayın 3-də Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi yaradıldı. 1950-ci illərdən başlayaraq, Heydər Əliyev DTK-nın «Əks-kəşfiyyat» şöbəsində rəhbər vəzifələr tutmuşdu. 1954–1956-cı illərdə Azərbaycan SSR DTK-ya rəhbərlik etmiş Anatoli Quskov bu dövrü xatırlayaraq yazırdı: «Bir çox çətinliklərə baxmayaraq, mənim tərəfimdən Azərbaycan SSR DTK bir sıra gənc, perspektivli və öz işini sevən əməkdaşlar irəli sürülmüşdü, o cümlədən…. Heydər Əliyeviç Əliyev». Quskov Əliyevin zəkasını, qeyri-ordinar insan kimi şəxsi keyfiyyətlərini qeyd edərək, bu xüsusiyyətlərin ona gələcəkdə parlaq karyera qurmağa imkan verdiyini yazır [439].

Heydər Əliyev 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin qiyabi şöbəsini bitirmişdi. Yəni ümumilikdə Azər-

baycan tarixini və onun ayrılmaz hissəsi olan Qarabağın tarixini, bu ərazidə 1923-cü ildə ermənilərə ikinci qondarma dövlət qurumunun – Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasının tarixçəsini yaxşı bilirdi. Həm də Heydər Əliyev Naxçıvan şəhərində anadan olmuşdu. Naxçıvan və Qarabağ isə bir-birinə coğrafi cəhətdən qonşu bölgələr olmaqla yanaşı, son yüz ildə ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddialarının əsas hədəflərindən olmuşdular. Sözsüz ki, Heydər Əliyev hələ uşaqlıq və gənclik illərində yaşlı nəslin nümayəndələrindən, ağsaqqallardan erməni millətçilərin xüsusilə 1905–1906, 1918–1920-ci illərdə bu ərazilərdə dinc azərbaycanlılara qarşı törətdikləri cinayətlər barədə eşitmişdi. Sonralar DTK əməkdaşı, bu orqanın sədr müavini və sədri vəzifələrində işləyərkən Heydər Əliyevin fəaliyyətinin istiqamətlərindən biri də ölkə daxilində və xaricdə daşnaklara, erməni millətçilərinə qarşı mübarizə olmuşdur.

Keçən əsrin 60-cı illərində ermənilərin Azərbaycan SSR-ə qarşı növbəti dəfə ərazi iddiaları bu məsələ ətrafında vəziyyətin kəskinləşməsinə səbəb olmuşdu. Bu mərhələnin başlanması Azərbaycan SSR-də partiya rəhbərliyinin növbəti dəfə dəyişdirilməsi və Vəli Axundovun Azərbaycan Kommunist Partiyasının birinci katibi (1959–1969) işlədiyi dövrə təsadüf edir. O illərdə Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarında yüksək vəzifələrə irəli çəkilməyə başladı. 1960-cı ildə o, Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin «Əks-kəşfiyyat» şöbəsinin rəhbəri təyin edilir. Sözsüz ki, bu təyinat Heydər Əliyevi Ermənistan SSR-in ərazi iddiaları ətrafında gedən müxtəlif oyunlar haqqında geniş məlumata və mühüm qərarların qəbul edilməsində tutarlı sözə malik olan məsul şəxslərdən birinə çevirdi.

Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətində erməni separatçıları Ermənistan SSR rəhbərliyinə təzyiq edərək, onu sözdən işə keçməyə çağırırdılar. 1961-ci il aprelin 23–24-də Ermənistan KP MK katibinə, Nazirlər Sovetinin Sədrinə və müavinlərinə, Ali Sovetin Sədrinə, bir sıra müəssisələrin rəhbər işçilərinə ünvanlanmış 100-ə qədər anonim məktub aşkara çıxarılmışdı. «Əzəli erməni torpaqlarının» Ermənistana qaytarılması tələbləri bu məktubların əsas məzmununu təşkil edirdi [295]. 1959–1961-ci illərdə Azərbaycan KP MK-nın ikinci katibi işləmiş Vladimir Semiçastnı rusiyalı jurnalisti Andrey Karaulova

verdiyi müsahibəsində həmin dövrü belə xatırlayırdı: «… Qarabağ ətrafında müxtəlif şayiələr və dedi-qodular gəzirdi, qeyri-sağlam hadisələr baş verirdi… Mən onların konfransında çıxış edəndə mənə saysız-hesabsız suallar verdilər: bu belə deyil, o belə deyil. Mən onlara vəziyyətin nə yerdə olduğunu dedim. Sonradan orada kimi isə rəhbərlikdə dəyişdilər, vilayət komitəsinə ikinci katib təyin etdilər və vəziyyət bir qədər düzəldi» [371, 30].

Lakin bu, yalnız hələ başlanğıc idi. 1960-cı illərin əvvəllərində SSRİ hökumətinin xaricdə yaşayan ermənilərə Sovet İttifaqına gəlməyə icazə verməsi, «Daşnaksutyun» partiyasının casusluqla məşğul olan qanadını fəallaşdırdı və onlar repatriasiya kanalları vasitəsilə həmsərhəd ölkələrdən Ermənistan SSR ərazisinə müxtəlif təxribatçı qrupların keçməsinə çalışdılar. Bu haqda məlumat SSRİ Nazirlər Soveti yanında DTK-nın 2-ci Baş İdarəsinin 1962-cı il fevralın 2-də Azərbaycan SSR DTK-nın 2-ci şöbəsinin rəisi Heydər Əliyevə göndərdiyi tam məxfi məktubda öz əksini tapmışdı. Məktubda xarici erməni daşnak təşkilatlarının əlaqələrinin öyrənilməsi və üzə çıxarılmasına, xarici casusların SSRİ sərhədlərinin Azərbaycan SSR sahəsini qanunsuz pozduqları halda yaxalanmasına dair xüsusi tapşırıqlar verilirdi [300, 331–332]. Azərbaycan SSR DTK-nın 2-ci şöbəsinin rəisi podpolkovnik Heydər Əliyev və 4-cü şöbənin rəisi podpolkovnik Bağırov SSRİ Nazirlər Soveti yanında DTK-nın 2-ci Baş İdarəsinin 2-ci şöbəsinin rəisi V.M.Xamazyuka 1962-ci il iyun ayının 20-də yazdıqları 2/3804 №-li tam məxfi məktubda göstərirdilər ki, Azərbaycan SSR ərazisində Bakı, Gəncə (keçmiş Kirovabad), Xankəndi (keçmiş Stepanakert) və Naxçıvan şəhərlərində yaşayan 60-dək keçmiş daşnak və digər erməni millətçisi qeydə alınmışdır. Bu kontingentdən 15 nəfəri dövlət təhlükəsizliyi orqanları tərəfindən araşdırılıb və işlər arxivə verilib. Məktubda əməliyyat diqqəti çəkən şəxslərin siyahısı və xarakteristikası verilir, eyni zamanda göstərilirdi ki, son vaxtlar millətçi elementlər tərəfindən ayrı-ayrı təzahürlərə rast gəlinir. Belə ki, 1962-ci ilin may ayında məlumat daxil olub ki, Xankəndidə yaşayan bəzi millətçi əhvalruhiyyəli ermənilər vilayətdəki təsərrüfat problemlərindən istifadə edərək, Azərbaycan SSR-in DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında təxribatçı şayiələr yayırlar. Şayiələri fəal yayanlar casusluq yoxlamasına götürülmüşlər [246, 60–64]. 1962-ci il iyunun

24-də Azərbaycan SSR DTK-ya məlumat daxil oldu ki, N.Xruşşovun Ermənistan SSR-ə qarşıdakı səfəri ilə bağlı vilayətin erməni əhalisi arasında belə bir şayiə yayılır ki, guya N.Xruşşov respublikada sovet hakimiyyəti qurulmasının 40-cı ildönümü münasibətilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistan SSR-ə hədiyyə edəcək» [439]. 1963-cü ildə DQMV-dən Sovet İttifaqı KP MK-nın Birinci katibi N.Xruşşova 2500 nəfərin imzaladığı etiraz məktubu göndərilmişdi. Məktubun müəllifləri məsələnin tarixinə toxunaraq, onun təxirə salınmadan həll olunması məqsədilə Azərbaycan SSR DQMV-nin və ermənilər yaşayan ətraf rayonların ya Ermənistan SSR-ə, yaxud da RSFSR-ə birləşdirilməsini tələb edirdilər [308, 23]. Lakin hətta muxtar vilayətin özündə belə bu cür imzatoplama kampaniyası heç də yaxşı qarşılanmırdı. Belə ki, Azərbaycan SSR DQMV-nin Hadrud rayonu məktəblərinin direktorları İrəvanda yaşayan keçmiş məktəb müəllimi Stepanyanın əhali arasında imza toplamaq haqqında müraciət məktubunu aldıqdan dərhal sonra həmin müraciəti rayon partiya komitəsinə apararaq, ona öz etirazlarını bildirmişdilər [368, 21]. Bu dövrdə xaricdə yaşayan ermənilər xüsusilə fəallaşmışdılar. Sözsüz ki, onlar öz addımlarını İrəvanla əlaqələndirirdilər. Belə ki, 1964-cü il mayın 18-də onların N.Xruşşova göndərdikləri müraciət bu sözlərlə bitirdi: «Biz Dağlıq Qarabağ məsələsinə dair qərarın təcili qəbul olunmasında təkid edirik: ya muxtar vilayət və ermənilərin yaşadığı ətraf rayonlar Ermənistana birləşməlidir, ya da onlar birbaşa SSRİ-nin tərkib hissəsi olmalıdır» [434, 31]. Ermənilərin çoxsaylı müraciətlərinə N.Xruşşovun hər hansı cavabının olmasına dair sənədlər aşkar edilməmişdir. Lakin rus müəllifi Y.Pompeyevin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə həsr etdiyi çoxsaylı əsərlərinin birində gətirdiyi fakt diqqəti cəlb edir. Onun yazdığı kimi, etibarlı mənbələrə görə, 1964-cü ilin əvvəlində SSRİ Ali Sovetinin Sədri Anastas Mikoyanın on il əvvəl Krımın Ukrayna SSR-ə birləşdirilməsi kimi uğurlu bir təcrübəni misal gətirərək, DQMV-nin Ermənistan SSR-ə verilməsi təklifinə N.Xruşşov çox sərt cavab vermişdi: «Bir sutka ərzində DQMV ermənilərini Ermənistana köçürmək uçun 12 min hərbi yük maşınını onların ixtiyarına verməyə hazıram» [407, 18].

1965-ci ilin yanvarında Heydər Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında DTK sədrinin müavini vəzifəsinə təyin edilir. O vaxt

Azərbaycan SSR DTK-nın sədri S.K.Sviqun idi. Bu dövrdə Ermənistan SSR-də guya 50 il əvvəl, I Dünya müharibəsi illərində Osmanlı imperiyası ərazisində «ermənilərin soyqırımı»nın ildönümünə həsr olunmuş tədbirlərə geniş hazırlıq işləri antitürk və antiazərbaycan kampaniyası ilə müşayiət edilirdi. Qarşıdakı tədbirlər Ermənistan SSR-in azərbaycanlı əhalisi arasında haqlı həyəcan doğurmuşdu. 1965-ci ilin mart ayında Sovet İttifaqı KP MK-ya Ermənistan SSR-in azərbaycanlı əhalisi adından anonim məktublar daxil olmuşdu. Həmin məktublarda türklərin guya 50 il bundan əvvəl törətdikləri hadisələrə görə ermənilərin azərbaycanlılara qarşı intiqam aksiyalarının həyata keçirməsinin mümkünlüyü haqda məlumat verilirdi. Sovet İttifaqı Kommunist Partiyasının yeni Baş katibi L.Brejnevin və SSRİ Xarici İşlər naziri A.Qromıkonun ünvanına göndərilən məktublardan birində yazılırdı: «Hazırda Ermənistan içi barıtla dolu və hər an alışmağa hazır olan çəlləyə bənzəyir». Məktub müəllifləri mümkün qarşıdurmaya yol verməmək üçün tədbirlər görməyi xahiş edirdilər [368, 21].

1965-ci ilin iyununda Azərbaycan Yazıçılar İttifaqının DQMV Filialının katibi B.Ulubabyan muxtar vilayətin erməni millətindən olan məsul partiya və sovet işçilərinin imzaladığı ərizəni Sovet İttifaqı KP MK-ya göndərir. Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsi bu barədə respublika rəhbərliyinə məlumat vermiş və təxribatçıların qarşısını almaq üçün zəruri tədbirlər görmüşdü. 1966-cı ildə respublikanın dövlət xüsusi xidmət orqanları gizli fəaliyyət göstərən bir neçə millətçi qrupları aşkar edərək zərərsizləşdirmişdi. Belə ki, 40 nəfər üzvü birləşdirən «Erməni gənclər ittifaqı» adlı təşkilatın İrəvandan olan emissarları muxtar vilayətin ərazisində öz özəklərini təşkil etməyə cəhd göstərmişdilər. Xankəndinin orta məktəblərinin yuxarı sinif şagirdlərindən ibarət digər qrup bütün «erməni torpaqlarının», o cümlədən Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti və Naxçıvan MSSR ərazilərinin Ermənistan SSR-ə birləşdirilməsinə çağıran vərəqələr yayırdı [300, 324–325; 370, 581–582]. 1966-cı ilin avqustunda Sovet İttifaqı KP MK-nın Baş katibi L.Brejnevin ünvanına göndərilən və altında 2000-ə qədər erməni «ziyalısı»nın imzası olan məktubda deyilirdi: «Qarabağ ərazisinə və milli tərkibinə görə Ermənistanındır, quruluşuna, mənəvi dünyası və məişətinə görə Ermənistanındır, Qarabağın tarixi Ermənistanın tarixidir, Qarabağın dili, incəsənəti və

ədəbiyyatı ermənilərindir. Nəzərə alınsa ki, Ermənistan SSR mövcuddur, onun ayrılmaz hissəsini süni şəkildə Sovet Ermənistanından ayırmaq məqsədəuyğun deyil» [308, 23]. «Ermənistan SSR-in elm və mədəniyyət xadimlərinin Sovet İttifaqı Kommunist Partiyasının XXIII qurultayına müraciəti» adlı bu məktub haqqında 1966-cı il sentyabrın 30-da Ermənistan KP MK-nın birinci katibi A.Koçinyanın və Nazirlər Sovetinin Sədri B.Muradyanın Sovet İttifaqı KP MK-ya ünvanladıqları məktubda da məlumat verilir. Məktubun müəllifləri DQMV-nin və Naxçıvan MSSR-in yaranması ilə bağlı tarixi faktları və sənədləri istədikləri kimi yozaraq, daha doğrusu, saxtalaşdıraraq, həmin ərazilərə iddialarını siyasi, iqtisadi və etnik amillərlə, «DQMV zəhmətkeşlərinin müxtəlif təbəqələrindən olan insanların Ermənistan KP MK-ya çoxsaylı məktubları» ilə əsaslandırmağa çalışırdılar. Onlar «bu məsələnin bütün aspektlərini diqqətlə öyrənib və respublikada yaranmış vəziyyəti təhlil edərək Dağlıq Qarabağın və Naxçıvan MSSR-in Ermənistana qaytarılmasını» xahiş edirdilər. Daha sonra məktubda deyilirdi ki, «azsaylı erməni xalqının Sovetlər İttifaqı tərkibində iki dövlət qurumunun – Ermənistan SSR-in və DQMV-nin olması qeyri-normal haldır». Həqiqətən, SSRİ-də ermənilərdən başqa bu cür imtiyaza malik olan ikinci bir millət yox idi. Lakin, eyni zamanda Ermənistan SSR rəhbərləri əvvəlki fikirlərinə zidd çıxaraq, «Naxçıvan MSSR Ermənistan SSR-ə birləşdiyi halda, onun tərkibində muxtariyyətini saxlaya bilər» təklifilə çıxış edirdilər. Sonda həyasızcasına yazırdılar ki «məktubda bu məsələləri qaldıraraq, ən əsası Sovet İttifaqı xalqları, o cümlədən ermənilərlə azərbaycanlılar arasında qardaşlıq dostluğundan çıxış edirlər. Çəkinməyə heç bir əsas yoxdur. Məsələ Azərbaycan SSR-in hər hansı ərazisinin ondan qoparılmasından yox, eyni kökə malik olan xalqın – ermənilərin yaşadığı muxtar vilayətin müttəfiq respublika ilə birləşməsindən gedir» [376, 35–43]. Həmin vaxt Azərbaycan SSR DTK sədrinin müavini işləmiş Heydər Əliyev sonralar, artıq Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə bu hadisələri belə xatırlayırdı: «Yadımdadır, 1966-cı, ya 67-ci ildə idi, Moskvadan bir qərar gəldi. O vaxt Axundov məni çağırdı. Sov. İKP MK-nın qərarı idi, yazmışdılar ki, «Azərbaycan KP MK-ya – Axundova, Ermənistan KP MK-ya – Koçinyana tapşırılsın ki, bu məsələni müzakirə edib məruzə etsinlər». Bu nə deməkdir? Deməli, Azərbay-

canın məsələsini həll etməyi Ermənistana tapşırırlar. Elə bununla da onu həll edirdilər, – yəni «siz gedin, onlarla bu məsələni həll edin». O deyəcək ki, mənim olmalıdır, biz də deyəcəyik ki, yox. Oturduq, məsləhətləşdik. Mən ona dedim ki, bilirsiniz, siz Moskvaya getməli və Brejnevlə görüşməlisiniz. Getdi və Brejnevi başa saldı. Brejnev anladı və özü o qərarı ləğv elədi. Bu, 67-ci ildə olan hadisədir» [280].

1967-ci ildə Y.V.Andropov SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə gəldikdən sonra S.Sviqun onun müavini təyin olundu. Həmin il Azərbaycan SSR DTK-nın Sədri vəzifəsinə Heydər Əlirza oğlu Əliyev təyin olundu. Heydər Əliyevin xatirələrinə görə, bu təyinatda SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədri Y.V.Andropov və Azərbaycan KP MK-nın birinci katibi V.Axundov mühüm rol oynadılar [300, 250]. Heydər Əliyevin bu vəzifəyə təyin olunması XX əsrin 30-cu illərindən sonra yaranmış ənənənin, bir növ, pozulması demək idi. Çünki 1930-cu ildən, M.C.Bağırovun o vaxtkı Baş Siyasi İdarənin rəisi vəzifəsindən azad edilməsindən sonra respublikanın təhlükəsizlik orqanlarına, bir qayda olaraq, başqa millətlərin nümayəndələri rəhbərlik edirdilər. Müharibədən sonra respublikanın təhlükəsizlik orqanlarına ardıcıllıqla S.F.Yemelyanov, A.M.Quskov, F.İ.Kopılov, A.V.Kardaşev, S.K.Sviqun rəhbər təyin olunmuşdular. Yemelyanovdan başqa digərləri bu vəzifəyə birbaşa Moskva tərəfindən və əsasən, respublikadan kənarda işləyən çekistlər içərisindən göndərilmişdilər. Bunu yalnız Moskvanın yerli müsəlman kadrlara etibarının olmaması ilə izah etmək olar, çünki başqa müsəlman respublikalarında da vəziyyət eyni idi. Digər tərəfdən, Moskva belə bir amili nəzərdən qaçırmırdı ki, Azərbaycan SSR müsəlman respublikasıdır və SSRİ ilə «soyuq müharibə» münasibətlərində olan İran və Türkiyə Cümhuriyyəti ilə həmsərhəddir. Azərbaycan SSR-dən fərqli olaraq, Ermənistan SSR-də və Gürcüstan SSR-də təhlükəsizlik orqanlarına, bir qayda olaraq, yerli kadrlar rəhbərlik edirdilər. Digər tərəfdən, Heydər Əliyevin DTK sədri vəzifəsinə təyin olunması ilə ilk dəfə olaraq eyni vaxtda respublikanın həm partiya təşkilatına, həm də təhlükəsizlik orqanlarına azərbaycanlılar rəhbərlik etdilər. Sonralar məhz H.Əliyevin respublikaya rəhbərliyi dövründə bu hal ənənəyə çevriləcək.

Ermənistan SSR-in Azərbaycan SSR-ə qarşı ərazi iddiaları fonunda 1967-ci ildə Azərbaycan SSR DQMV ətrafında vəziyyət yenidən

gərginləşdi. Bu baxımdan Heydər Əliyevin 1967-ci il iyunun 26-da Azərbaycan KP MK-nın Birinci katibi V.Y.Axundova yazdığı 10/579 №-li məxfi məktub diqqəti cəlb edir. Məktubda deyilirdi ki, iyun ayının 23-dən 24-ə keçən gecə Xankəndidə bəzi küçələrdə erməni dilində 8x9 sm ölçüdə 300 vərəqə yayılmışdır. Həmin vərəqələrdə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi tələb edilir və millətçi fikirlər irəli sürülür. Vərəqənin müəlliflərini axtarıb tapmaq və digər lazımi tədbirlər görmək üçün Xankəndiyə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar ciddi cəzalandırılmışlar.

Heydər Əliyev ilk dəfə Şuşada hələ 1967-ci ildə olmuşdu. O vaxt Xankəndidə azərbaycanlılarla ermənilər arasında münaqişə olmuş və qan tökülmüşdü. Münaqişəyə səbəb Azərbaycan SSR DQMV Martuni rayonunun Kurapatkino kəndində yerli kolxoz sədrinin oğlu, 8 yaşlı N.B.Movsesyanın müəmmalı şəraitdə qətli olmuşdu. Qətldə ermənilər yerli azərbaycanlıları – Ərşad, Ələmşad və Zöhrab Məmmədov qardaşlarını günahlandırmışdılar. 1967-ci il iyulun 3-də Xankəndidə Yay estrada parkında qardaşlara məhkəmə hökmü oxunduqdan sonra N.B.Movsesyanın valideynləri və başqa ermənilər mühafizəçilərə hücum edərək, Məmmədov qardaşlarını vəhşicəsinə öldürmüş, onların hətta başlarının dərisini soymuşdular. Bu vəhşiliyə əvvəlcədən hazırlaşan qatillər daşları şəhərə maşınlarda gətirmişdilər. Həmin məsələni dərindən araşdırmaq üçün Heydər Əliyev Dağlıq Qarabağa ezam olunmuş və 15 gün orada qalmışdı. Cinayətkarlar üzə çıxarılaraq həbs edilmişdilər. Xankəndi hadisələrinin təşkilatçıları ilə bağlı Bakıda keçirilən məhkəmə prosesi 5 nəfəri güllələnməyə məhkum etmiş, digər 14 nəfəri isə müxtəlif müddətə azadlıqdan məhrum etmişdi. Güllələnməyə məhkum edilənlərdən üç nəfərə dair qərar icra olunmuşdu [246, 328–330; 300, 327–329]. Bundan başqa, qərara alınmışdı ki, muxtar vilayətin təhlükəsizlik orqanları peşəkar kadrlarla möhkəmləndirilsin. Heydər Əliyevin təklifi ilə Azərbaycan SSR DTK-nın DQMV şöbəsinə rəhbər erməni yox, rus təyin edilmişdi. Bu vəzifəyə namizədi Heydər Əliyev özünün etibar etdiyi və uzun illər birgə işlədiyi kadrlardan seçmişdi [300, 330].

1967-ci ildə DQMV-də baş vermiş faciəli hadisələri o vaxt Moskva tərəfindən buraya ezam olunmuş SSRİ DTK-nın məsul işçisi E.B.Nord-

man belə xatırlayır: «22 il bundan əvvəl Dağlıq Qarabağ Muxtar Vilayətinə ezamiyyətimi xatırlayıram. Xankəndidə o vaxt milli zəmində baş vermiş qarşıdurma zamanı, deyəsən, on nəfərdən çox adam ölmüşdü. Məni xüsusi səlahiyyətlə məsələni araşdırmaq üçün buraya göndərmişdilər. İstintaqın gedişi ilə bağlı mənim imzam olmadan Moskvaya göndərilən hər hansı məlumat həqiqi hesab olunmurdu. Mən qeyd edirdim ki Ermənistan və Azərbaycan rəhbərliyi görüşüb və vaxtı çatmış məsələləri müzakirə etmək istəmirlər. Andropov siyasi şəraiti düzgün qiymətləndirərək, prinsipial təkliflər irəli sürdü. Əgər onlar qəbul olunsaydı, faciə baş verməzdi» [344].

1967-ci il hadisələri hələ uzun müddət respublika rəhbərliyini gərginlikdə saxladı. Heydər Əliyev 1967-ci ildə Azərbaycan SSR DTK-nın hazırladığı hesabatda DQMV ətrafında yaranmış vəziyyəti təhlil edərək yazırdı: «Bir çox hallarda vilayətdə siyasi cəhətdən mənfi və cəmiyyətə zidd hərəkətlər onların bilavasitə təşkilatçısı və iştirakçısı olan Ermənistan SSR-in bəzi millətçi əhval-ruhiyyəli ünsürlərinin təsiri ilə baş verirdi. Bunu son 5 ildə toplanmış faktlar sübut edir.

Ermənistan SSR-dən Xankəndinə gələn şəxslər burada, guya DQMV-nin Ermənistan SSR-ə birləşəcəyi haqqında müxtəlif şayiələr yayırdılar, bununla bağlı xüsusi hazırlanmış müraciətlər üçün imzalar toplayırdılar, «Qarabağ ermənilərinə çağırış» adlı millətçilik ruhunda yazılmış müraciətləri və digər təxribat xarakterli çap materiallarını kütləvi şəkildə buraya gətirərək yayırdılar» [300, 325].

1968–1969-cu illərdə də Dağlıq Qarabağda erməni millətçilərinin təxribatları davam etdi. Azərbaycan SSR DTK-nın sədri Heydər Əliyev 1969-cu ilin aprel ayında Azərbaycan KP MK Partiya Nəzarəti Komitəsinə göndərdiyi məruzəsində yazırdı: «Dağlıq Qarabağ Muxtar Vilayətində millətçi əhval-ruhiyyə mövcuddur. Son illərdə vilayətdə yaşayan millətçi ünsürlər və Ermənistan SSR-in bəzi sakinləri yerli əhalini vilayəti Azərbaycanın tərkibindən çıxardaraq, Ermənistana birləşdirilməsini qızışdırmaq üçün cəhdlər göstərirlər. Gənclərin bəzi hissəsi, o cümlədən komsomolçular da millətçi ünsürlərin təsiri altına düşürlər. Gənclər arasında millətçi əhval-ruhiyyə 1968-ci ildə də yer almışdı» [390, 658].

Ümumiyyətlə, müharibədən sonrakı ilk onilliklərdə Ermənistan SSR –Azərbaycan SSR münasibətlərində keçmiş illərin münaqişə

potensialı qalaraq, bəzi hallarda özünü qanlı qarşıdurma səviyyəsində büruzə verirdi. Lakin bu vaxt münaqişə onun yarandığı yerdən kənara çıxmırdı, çünki erməni separatçıları başa düşürdülər ki mövcud şəraitdə keçmişdə geniş istifadə olunmuş açıq təcavüz və zorla əhalinin köçürülməsi üsulları ilə mövcud sərhədləri dəyişmək və ya yeni ərazilər tutmaq artıq mümkün deyildir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev çıxışlarının birində bu dövrdəki hadisələri tarixi baxışdan keçirərək və onları qiymətləndirərək demişdir: «30-cu, 40-cı, 50-ci, 60-cı, 70-ci illərdə də erməni millətçiləri Dağıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdı. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam» [282, 8].

II BÖLMƏ

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN SSR-in RƏHBƏRİ SEÇİLMƏSİ VƏ XX ƏSRİN 70-80-ci İLLƏRİNDƏ AZƏRBAYCAN SSR-in SOSİAL- İQTİSADİ, MƏDƏNİ-MƏNƏVİ İNTİBAHI

III FƏSİL

HEYDƏR ƏLİYEV və AZƏRBAYCAN SSR-in İCTİMAİ-SİYASİ HƏYATI

3.1. Respublikanın idarəçilik sistemində və kadr siyasətində mütərəqqi dəyişikliklər

XX əsr Şimali Azərbaycanın tarixi taleyində mühüm rol oynamış, bu yüzillikdə xalqımız iki dəfə öz siyasi müstəqilliyinə qovuşmuş, siyasi, iqtisadi, mədəni-mənəvi sahələrdə bir sıra mühüm nailiyyətlər qazanmışdır. Xüsusən sovet hakimiyyəti illərində Şimali Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaranmış, xalqımızın təhsil, mədəni səviyyəsi xeyli artmış, iqtisadiyyatın yeni sahələri təşəkkül tapmış, maddi rifahı yaxşılaşmışdı. Artıq 1960-cı ildə Azərbaycan SSR sənayesi 1940-cı illərdəki səviyyəni 2,8 dəfə üstələyən məhsul buraxılışına nail olmuşdu [3].

Lakin 1960-cı illərdə respublika iqtisadiyyatının inkişafında mənfi meyillər də özünü göstərməyə başlamışdı. Azərbaycan SSR milli gəlirin artım sürətinə, istehsalın həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqinə, əməyin məhsuldarlığına görə İttifaq göstəricilərindən xeyli geri qalırdı. İqtisadiyyatdakı çatışmazlıqlar sosial sahədə, əməkçilərin maddi rifah halının yaxşılaşmasındakı problemlərin həllinə mənfi təsir edirdi. Bütün bunlar 1960-cı illərdə respublika iqtisadiyyatının bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoyduğunu göstərirdi. Yaranmış vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipcə yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi [3].

Respublikanı bürümüş iqtisadi və mənəvi böhranın başlıca səbəblərindən biri də vəzifədən sui-istifadə, rüşvətxorluq, gözdən

pərdə asmaq, halal zəhmətə xor baxmaq şəraitində kütlələrin təşəbbüskarlığının zəifləməsi, mənəvi narahatçılığın hökm sürməsi idi. Belə şəraitdə əhalinin bir çox təbəqələrində məyusluq, laqeydlik əhval-ruhiyyəsi yaranmış, xalqın haqq-ədalətə, qanunun aliliyinə inamı sarsılmışdı. Birinci növbədə, xalq arasında rəhbərliyə inam hissi bərpa edilməli, cəmiyyətin idarə olunmasında onun yaxından iştirakına nail olunmalı idi.

Bunun üçün respublikanın düşdüyü ağır problemləri dərindən dərk edən, vəziyyətdən çıxış yollarını bilən qətiyyətli, siyasi iradəyə malik, xalqı öz arxasınca aparmağa qadir, yeni təfəkkürlü siyasi liderə ehtiyac duyulurdu. Azərbaycan xalqı məhz Heydər Əliyevin simasında bu keyfiyyətlərə malik öz liderini tapmış oldu.

1969-cu il Azərbaycan xalqının ən yeni tarixində dönüş ili oldu. Həmin ilin iyulunda Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci Katibi vəzifəsinə seçilməsi ilə xalqın və vətənin taleyində mütərəqqi dəyişikliklər dövrü başlandı.

Respublikada uzun illər mövcud olmuş iqtisadi geriliyin səbəbləri Azərbaycan KP Mərkəzi Komitəsinin 1969-cu il avqust plenumunda hərtərəfli təhlil olundu. Bu səbəblər, əsasən, iqtisadi planlaşdırılmada buraxılan səhvlər və rəhbərlikdə yol verilən məsuliyyətsizlik, arxayınçılıq əhval-ruhiyyəsi, tənqid və özünün tənqidin aşağı səviyyədə olması ilə birbaşa bağlı idi.

Başlıca səbəb isə kadrların seçilməsinə, yerləşdirilməsinə və tərbiyə olunmasına dair cəmiyyətdə qəbul edilmiş prinsiplərin kobud şəkildə pozulması idi. Məsul vəzifələrə çox vaxt yetkin olmayan, aciz, siyasi və mədəni cəhətdən geri qalmış adamlar irəli çəkilirdilər. Kadrları yerliçilik, qohumbazlıq və şəxsi sədaqət əlamətlərinə görə, çox vaxt vəzifəsindən öz şəxsi məqsədləri üçün istifadə edən rəhbər işçilərin himayəçiliyi ilə seçmək halları geniş yayılmışdı. Vəzifəsinin öhdəsindən gəlməyən işçiləri bir yerdən başqa yerə, bəzən hətta daha yüksək vəzifəyə keçirmək kimi qüsurlu bir iş qaydası kök salmışdı. Heydər Əliyevin sonralar dediyi kimi, hətta Azərbaycan KP-nin rəhbər özəyinin – MK Bürosunun tərkibində prinsipial birlik, ən əvvəl kadr siyasətində prinsipial birlik yox idi, bunun əvəzində şöhrətpərəstlik iddiaları və xudpəsəndlik məqsədləri ilə bir-birinə qarşı duran qruplaşmalar var idi [51, 6–7].

Əlbəttə, bütün bunlar təşkilatçılıq işinə, ideoloji işə, təsərrüfat işlərinə, ən əvvəl, kadrların tərbiyəsinə, ictimai şüurun formalaşmasına böyük ziyan vururdu.

1969-cu il avqust plenumunda Heydər Əliyev respublikada yaranmış ağır vəziyyət haqqında həqiqəti açıq şəkildə dilə gətirdi. Azərbaycan KP MK Bürosunda, Nazirlər Sovetində, bir çox nazirlik və baş idarələrdə olan ciddi nöqsanları və səhvləri aşkara çıxardı. Heydər Əliyev plenumdakı çıxışında iqtisadiyyatda yaranmış vəziyyətin, ümumi məhsulun artım sürəti üzrə Azərbaycan SSR-in orta İttifaq göstəricilərindən və digər respublikaların göstəricilərindən xeyli geri qalmasının onda ciddi təşviş hissi doğurduğunu bildirdi, geriliyin səbəblərini təhlil edərək, bunu hər şeydən əvvəl, bəzi rəhbər işçilərin etibar edilən iş sahəsi üçün məsuliyyət hissini itirməsi, tabeçilikdə olan müəssisələrə rəhbərliyin səviyyəsinin aşağı olması, lazımi tələbkarlıq və intizamın yoxluğu ilə izah etmişdi. O, diqqəti istehsal prosesinin təşkilindəki nöqsanlara, məhsulun keyfiyyətinin aşağı olmasına, kadr axıcılığına, planların müntəzəm dəyişdirilərək aşağı salınması praktikasına yönəldərək, bu cür qüsurlu iş qaydasına son qoymağı və özözünü aldatmaq hallarını aradan qaldırmağı tələb etmişdi.

Neft sənayesinin uzun müddət geridə qalması Heydər Əliyevi daha çox narahat edirdi, çünki bu gerilik neftlə bağlı digər sahələrə də ciddi təsir göstərirdi. Ona görə də Heydər Əliyev bütün qüvvələri səfərbər etməyi, neft sənayesinin təkcə bu günü ilə deyil, sabahı ilə əlaqədar əsas problemləri həll etməyi tələb edirdi.

Heydər Əliyev çıxışında respublika sənayesinin bütün sahələrində, kənd təsərrüfatında mövcud vəziyyətin dərin təhlilini verərək vəziyyəti düzəltmək üçün konkret yolları da müəyyənləşdirmişdi. Geridə qalmaya görə əsas məsuliyyətin respublika partiya və sovet orqanlarının daşıdığını vurğulayaraq, diqqəti nöqsanlar, əsas və həlledici problemlər üzərində cəmləşdirməyi, bütün sahələrdə tələbkarlığı və intizamı yüksəltməyi, hər bir rəhbərin tapşırılmış iş üçün məsuliyyət daşımasını tələb etmişdi. «Yalnız bu şərtlə biz vəziyyəti dəyişə bilər, iqtisadiyyatın bütün sahələrinin inkişafını, əmək məhsuldarlığının yüksəlməsini, ən yeni elm və texnika nailiyyətlərinin tətbiqini, … məhsulun keyfiyyətinin yüksəldilməsini, maya dəyərinin aşağı salınmasını təmin edə bilirik» [74].

Heydər Əliyev ideoloji-siyasi işdə, tərbiyə işində, elm sistemində, inzibati orqanların fəaliyyətində, qanunçuluğun möhkəmləndirilməsi sahəsində mövcud olan nöqsanların da geniş elmi təhlilini verərək, ayrı-ayrı vəzifəli şəxslərin davranışında özünü büruzə verən nalayiq hallara, pozğunluq təzahürlərinə göz yummamağı, dedi-qoduçuları, böhtançıları, intriqabazları, mənsəbpərəstləri ifşa etməyi tələb edirdi. O, rüşvətxorluq faktlarına qarşı ən qəti və amansız mübarizə aparmağı, rüşvətxorluğu doğuran səbəblərin kökünü kəsməyi, bu məqsədlə inzibati tədbirlərlə yanaşı, profilaktika işini gücləndirməyi tələb edir, bu halın tamamilə aradan qaldırılması üçün adamlarda və kadrlarda məsuliyyət hissini artırmağın labüdlüyünü bildirirdi [74].

Heydər Əliyev kadrlarla iş sahəsində ciddi nöqsanlara diqqəti cəlb edərək, bəzi rəhbər işçilərin adamları şəxsi sədaqət, yerliçilik, qohumluq əlamətlərinə və ya dostluq münasibətlərinə görə məsul vəzifələrə təyin etməsi hallarının kök saldığını göstərmişdi. O, işçiləri açıq-aşkar, xalqın gözü qabağında seçməyi, onların haqqında adamların, kollektivin rəyini nəzərə almağı tövsiyə edirdi.

Respublikanın yeni siyasi rəhbərliyi bütün xalqı mövcud nöqsanları aradan qaldırmaq, həyatın bütün sahələrində əsaslı dönüş yaratmaq üçün səfərbər etdi. Bu vəzifələr və onları əməli surətdə həyata keçirmək tədbirləri Azərbaycan KP MK-nın sonrakı plenumlarında da müzakirə olundu. Mövcud nöqsanların səbəbləri dəqiqliklə təhlil olundu, idarəetmənin bütün səviyyələrində kəskin və prinsipial söhbətlər aparıldı. Bütün bunlar əminlik yaradırdı ki, Heydər Əliyevin siyasi iradəsi sayəsində mövcud nöqsanlar və böhran halları qısa müddətdə aradan qaldırılacaqdır.

1969–1970-ci illər ərzində Azərbaycan KP MK-nın daha dörd (1969-cu il dekabr, 1970-ci il mart, avqust və dekabr) plenumu keçirildi. Əgər 1969-cu il avqust plenumu respublikanın bütün iqtisadi, ictimai-siyasi sahələrində olan nöqsan və qüsurları aşkara çıxardısa, sonrakı plenumlar daha konkret sahələrdəki vəziyyətin təhlilinə həsr edilmişdi. Həmin plenumlarda partiya, sovet, təsərrüfat orqanlarının fəaliyyəti, sənaye və kənd təsərrüfatında vəziyyət tənqidi surətdə təhlil olunmuş, dövlət intizamını möhkəmləndirmək, kadrların tapşırılan iş üçün məsuliyyətini yüksəltmək, işdə olan nöqsanları aradan qaldırmaq, iqtisadiyyatın yüksəlişini təmin etmək, qarşıda duran iqtisadi və

siyasi vəzifələri uğurla yerinə yetirmək üçün konkret proqramlar, lazımi tədbirlər müəyyən edildi. Respublika əhalisinin qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə səfərbər edilməsində bu plenumların qərarlarının böyük rolu oldu.

Heydər Əliyevin müəyyənləşdirdiyi və bütün xalqın etimad göstərdiyi yeni strateji xətt respublikanın iqtisadi problemlərinə diqqətin artırılmasına, idarəçilik metodları və üsullarının təkmilləşdirilməsinə, siyasi-ideoloji işin genişlənməsinə səbəb oldu. Bu isə, öz növbəsində, iqtisadiyyata rəhbərliyin səviyyəsinin yüksəlməsinə, dövlət intizamının möhkəmlənməsinə, bütövlükdə, respublikada mənəvi-psixoloji şəraitin sağlamlaşmasına, əhalinin siyasi və əmək fəallığının artmasına şərait yaratdı.

Partiya, dövlət, təsərrüfat rəhbərliyinin bütün sahələrində kadrların seçilməsinə, yerləşdirilməsinə və tərbiyə edilməsinə dair qəbul olunmuş prinsipləri bərpa etmək və bunlara əməl etmək qarşıda duran ən başlıca vəzifə idi. Kadrlara qarşı tələbkarlığın, tapşırılan iş üçün onların məsuliyyətinin artırılması, dövlət intizamının möhkəmləndirilməsi, nöqsanlara qarşı prinsipial və barışmaz mübarizə xətti götürüldü. Bu işə, ilk olaraq, respublikanın ali siyasi rəhbər orqanlarından başlanıldı. Qısa müddət ərzində Azərbaycan KP MK Bürosunun tərkibi, Nazirlər Sovetinin və Ali Sovetin Rəyasət Heyətinin rəhbərliyi əsaslı şəkildə yeniləşdirildi, cəmiyyətə zidd hallara, vəzifədən sui-istifadə edilməsinə qarşı ardıcıl mübarizə aparıldı. Kadrlarla iş sahəsində normalara zidd halların aradan qaldırılması həm də «kadr məsələlərini əsassız və qərəzkarlıqla həll etməyi özləri üçün normaya çevirmiş rəhbər işçilərin şüurunu dəyişdirməyi tələb edirdi» [51, 8]. 1969–1970-ci illərdə bir çox rəhbər işçilər dəyişdirildi. Onların əksəriyyəti işdə ciddi nöqsanlara yol verdiyinə görə vəzifədən çıxarıldı, partiya xətti ilə cəzalandırıldı, bəziləri isə cinayət məsuliyyətinə cəlb edildi. Bu, əslində, kadrlar sahəsində işin birinci mərhələsi idi və bu mərhələ XXVIII qurultayadək başa çatdırıldı [51, 18; 86, 75–77].

Heydər Əliyevin siyasəti bütün xalq tərəfindən bəyənilir və müdafiə edilir, insanlarda qanunların aliliyinə, ədalətin zəfər çalacağına inam doğururdu. Bunu respublikanın ali siyasi orqanlarına daxil olan məktubların məzmunu da təsdiq edirdi. Əgər əvvəlki dövrdə əhalinin müxtəlif təbəqələrindən göndərilən məktublarda,

əsasən, şikayətlər üstünlük təşkil edirdisə, indi insanlar ayrı-ayrı müəssisə və təşkilatların işini yaxşılaşdırmaq haqqında əməli təkliflərlə müraciət edir, respublikada geriliyə mümkün qədər tez son qoyulmasına maraq göstərməyə başlamışdılar. Görülən tədbirlər və respublikada yaranmış şərait əvvəllər səhvlərə yol vermiş, lakin öz vəzifələrində qalmış kadrların da düzgün yola qədəm qoyacağına, müasir tələblər ilə ayaqlaşacağına ümid yaradırdı. Lakin köhnə səhvlərindən və baxışlarından xilas ola bilmədikdə, onlara qarşı da təşkilati tədbirlər görüldü. Kirovabad, Qazax, Tovuz, Şəmkir (keçmiş Şamxor), Sabirabad, Lənkəran, Göyçay, Kəlbəcər, Abşeron, Zaqatala, Mingəçevir, İliç, Daşkəsən, İsmayıllı, Ağdam partiya komitələrinin birinci, katibləri, bir sıra nazirlik və komitələrin – daxili işlər, səhiyyə, sənaye tikintisi tikinti materialları nazirliklərinin, Azərbaycan SSR Radio və Televiziya Verilişləri Komitəsinin rəhbərləri və başqa məsul işçilər işdə nöqsanlara yol verdiklərinə görə vəzifələrindən azad edildilər [5, 80–82].

Heydər Əliyev yararsız işçilərin bir məsul vəzifədən götürülərək başqasına təyin edilməsinin həm işə, həm də kadrların tərbiyəsinə ziyan vurduğunu, kadrların tərkibini korlayanlardan tam ciddiyyətlə məsuliyyət tələb etməyin zəruriliyin çoxsaylı faktlarla sübut edirdi [51, 20–24]. O öyrədirdi ki, «elmi-texniki inqilab şəraitində yenilik hissi, qabaqcıl təcrübəni, novator üsullarını görmək, öyrənmək və yaymaq bacarığı hər bir rəhbər işçinin ümdə keyfiyyəti olmalıdır, çünki yenilik hissi iqtisadiyyatda, elm və mədəniyyətdə yüksək nəticələr əldə olunmasını təmin edir. Bizim ümdə vəzifəmiz işdə yeniliyin əhəmiyyətini daha da yüksəltməkdir, təşəbbüsü hər vasitə ilə təşviq etməkdir. Təşkilatçılıq, tərbiyə və təsərrüfat fəaliyyətinin daha maraqlı və təsirli üsullarına və metodlarına hamının yiyələnməsinə nail olmaqdır» [51, 24–25].

Sovet dövləti və partiya kadr siyasəti üçün ənənəvi olan iş üsulları – rəhbər kadrların tez-tez və əsassız olaraq dəyişdirilməsi və ya uzun müddət bir vəzifədə saxlanılması, ixtisas hazırlığı olmayan rəhbər işçilərin xüsusi çəkisinin son dərəcə yüksək olması və onların öz ixtisaslarını artırmaq üçün şəraitin olmaması, orta pillə kadrlarından lazımınca istifadə edilməməsi Heydər Əliyevi ciddi narahat edirdi.

Eyni zamanda o, qadınların və gənclərin daha geniş şəkildə rəhbər vəzifələrə cəlb edilməsinə çalışırdı. Doğrudur, respublika əhalisinin

yarıdan çoxunu təşkil edən qadınlar iqtisadiyyatın, maarif və elmin bütün sahələrində uğurla işləyirdilər, bir çoxu yüksək partiya və dövlət vəzifələrində çalışırdı. 50 rayon və şəhər partiya komitəsində qadın katib var idi, onlardan 6-sı birinci katib idi. Lakin rəhbər vəzifələrdə çalışan qadınların sayı hələ də yetərli deyildi. 553 sənaye müəssisəsindən yalnız 38-nə, cəmi 18 kolxoza və 8 sovxoza qadınlar başçılıq edirdilər. Hətta mütəxəssis qadınların əksəriyyət təşkil etdiyi səhiyyə, maarif, ticarət, məişət xidməti kimi sahələrdə rəhbər vəzifələrdə çalışan qadınların sayı çox az idi [51, 34–35]. Heydər Əliyev hazırlıqlı qadınları məsul işə cəsarətlə irəli çəkməyi tələb edir, onlara əməli kömək göstərməyi tövsiyə edirdi.

O, eyni zamanda kadrları yeniləşdirməyi, gəncləri daha qətiyyətlə irəli çəkməyi kadr siyasətinin mühüm məqsədi hesab edir və göstərirdi ki, əsas vəzifə həm gənc kadrlardan, həm də təcrübəli kadrlardan əlaqəli şəkildə, düzgün istifadə olunması prinsipinə riayət etməkdən ibarətdir [51, 41].

Heydər Əliyev inzibati orqanların işçilərinə xüsusi tələbkarlıq göstərməyi, vəzifəsindən sui-istifadə edənlərə qarşı kəskin mübarizə aparmağı tələb edirdi. Qanunçuluğun pozulmasına, yarıtmaz işlədiklərinə görə 1971–1974-cü illərdə Azərbaycan SSR DİN-in respublika üzrə daxili işlər şöbələrinin 14 rəisi, 10 şəhər, rayon və vilayət prokuroru öz vəzifəsindən azad edilmiş, 12 xalq hakimi vaxtından əvvəl geri çağırılmışdı. Xeyli inzibati orqan işçisi partiya məsuliyyətinə cəlb edilmiş, cinayət törətdiyinə görə məhkum olunmuşdu [51, 43]. O, inzibati orqanların fəaliyyətindəki ciddi nöqsanları kadrlarla iş sahəsindəki qüsurlarla əlaqələndirərək, bu işi daim nəzarət altında saxlayırdı.

Heydər Əliyev kadrlara qarşı tələbkarlığı, intizamın möhkəmləndirilməsi məsələsinə siyasi, iqtisadi vəzifələrin yerinə yetirilməsinin mühüm vasitəsi kimi baxırdı. Onun qənaətinə görə, tələbkarlıq nədəsə təqsirkar olan, qüsur və səhvə yol vermiş adamları cəzalandırmaqla məhdudlaşmamalı, əsl tələbkarlıq kadrların işini daim və dərindən təhlil etməkdən, qəbul olunmuş qərarların yerinə yetirilməsinə ciddi nəzarət qoymaqdan və bu işi müntəzəm yoxlamaqdan, əməli kömək etməkdən və ən son tədbir kimi müvafiq cəza verməkdən ibarət olmalıdır [51, 45]. O, yüksək tələbkarlığı kadrlara hörmət və qayğı göstərilməsi ilə əlaqələndirməyi kadr siyasətinin ən mühüm cəhəti hesab edirdi.

Heydər Əliyev tutduğu vəzifəsindən asılı olmayaraq, heç bir rəhbər kadrın tənqiddən kənarda qalmaq hüququnun olmadığını bildirirdi. Azərbaycan KP MK Bürosunun iclaslarında dəfələrlə bir sıra məsul işçilərin partiya və xidmət intizamını kobud surətdə pozmaları haqqında məsələlər müzakirə edilmiş, müvafiq qərarlar qəbul olunmuşdu. Subyektizmi, volyuntarizmi, kadrlarla işdə nöqsanları aradan qaldırarkən, Heydər Əliyev ən əvvəl rəhbərliyin yaramaz üslub və metodlarını rədd edirdi. Onun nəzərində əsl rəhbər işçi yüksək işgüzar və siyasi keyfiyyətlərə malik olan, təşəbbüsü məsuliyyət dərk etməklə əlaqələndirən, müvəffəqiyyətlərlə kifayətlənməyən, konkret fəaliyyət planı olan, perspektivi nəzərə alan, başlıca problemləri müəyyənləşdirməyi bacaran, qarşısında qoyduğu məqsədə əzmlə irəliləyən təşkilatçı idi [51, 47]. Rəhbərin ən mühüm cəhətlərindən biri kimi, kütlələrlə qırılmaz əlaqədə olmağı xüsusi qeyd edirdi.

O, idarəçilikdə kollegiallığa ciddi riayət olunmasını, lakin kollegiallıq adı altında şəxsi məsuliyyətdən yaxa qurtarmaq cəhdlərinə, bürokratizm və süründürməçiliyə qarşı qəti mübarizə aparmağı tələb edir, tənqid və özünütənqidin zəruriliyini vurğulayırdı. Partiya-dövlət-sovet sisteminin ciddi məhdudiyyətlərinə baxmayaraq, elə şəraitin yaradılmasına çalışırdı ki, hər bir insan nəinki öz hüququnu dərk etsin, həm də çəkinmədən bu hüquqdan istifadə edə bilsin.

Kadr hazırlığının əsas bazası olan ali məktəblərin fəaliyyətinin yaxşılaşdırılması Heydər Əliyevin diqqət yetirdiyi əsas sahələrdən biri idi. Ali məktəblərə qəbulda nöqsanların aradan qaldırılmasına, mütəxəssis hazırlığının keyfiyyətinin yaxşılaşdırılmasına xüsusi fikir verilirdi. Onun səyləri nəticəsində abituriyentlərin, əsasən, obyektiv seçilməsi təmin edilmiş, rüşvətxorluq, himayəçilik, başqa mənfi hallar xeyli azalmışdı. Lakin bütün müvəffəqiyyətlərə baxmayaraq, Heydər Əliyev arxayınlaşmamağı, bu sahədə olan bütün mənfi təzahürlərə qarşı daha da qəti və barışmaz mübarizə aparmağı, qənimətçilərin, rüşvətxorların kökünü amansızlıqla kəsməyi tələb edirdi. Eyni zamanda o, mütəxəssis hazırlığı sahəsində mühüm problem olan planlaşdırma məsələsinə diqqəti cəlb edərək kadrları gələcəyə, perspektivə nəzər salmaqla hazırlamağı, mütəxəssis hazırlığı imkanlarını onlara olan tələbata uyğunlaşdırmağı tələb edirdi [51, 55–60].

Respublikanın siyasi rəhbəri elmi kadrların hazırlanmasına, aspiranturaya qəbula və aspirantların təhsilinə, onlar tərəfindən dissertasiyaların hazırlanmasına və müdafiə edilməsinə diqqəti cəlb edərək, ali məktəblərin və elmi tədqiqat institutlarının elmi şuralarından tələbkarlığı artırmağa, elmi işlərin müzakirəsində prinsipiallıq göstərməyə, bacarıqsız, istedadsız, əliəyri adamların elmə yol tapmasına imkan verməməyə çağırırdı.

Heydər Əliyev rəhbər kadrların əxlaqı məsələsinə də xüsusi önəm verir, onların mənəvi siması ilə mənəvi hüququnun qarşılıqlı şəkildə əlaqədə olmasına diqqəti cəlb edirdi. O göstərirdi ki, rəhbər işçi olmağa yalnız elə adamın mənəvi hüququ var ki, o, dərin ideyalıdır, yüksək dərəcədə əxlaqlıdır, cəmiyyətdə və məişətdə qüsursuz davranış, nöqsanlara qarşı prinsipial münasibət nümunəsidir, partiya və xalq qarşısında öz məsuliyyətini tamamilə başa düşür [51, 61–62].

Azərbaycan SSR rəhbəri bütün çıxışlarında rüşvətxorluq, himayəçilik, qohumbazlıq, yerliçilik kimi əxlaqa zidd hallara qarşı barışmaz mübarizə aparmağı tələb edir, öz fəaliyyəti ilə bu mübarizənin əsl nümunəsini göstərirdi. Onun başçılığı altında rüşvətxorları aşkara çıxarmaq və ifşa etmək sahəsində böyük işlər görülmüş, bir çox vəzifəli şəxslər, ali və orta məktəb müəllimləri, səhiyyə, inzibati orqan, ticarət işçiləri məsuliyyətə cəlb edilmişdilər. Lakin bu bəlanı tam aradan qaldırmaq mümkün olmamışdı. Ona görə də Heydər Əliyev bu biabırçılığın kökünü tamamilə kəsmək üçün vahid cəbhə yaratmağı zəruri hesab edirdi [51, 64].

Heydər Əliyev kadr siyasətində himayəçiliyin, onun müxtəlif təzahürləri olan xahişlə işə təyin etdirmək, qohum və dostların havadarlığı ilə irəli çəkmək kimi halların adamların əxlaqını pozduğunu qətiyyətlə qeyd edirdi. Himayəçiliyin ən pis formalarından olan yerliçiliyə qarşı ən qətiyyətli mübarizə aparmağı tələb edir, kadrların yerliçilik mülahizələrinə görə seçilməsini, onların fəaliyyətinin bu baxımdan qiymətləndirilməsini dözülməz hesab edirdi. O əmin idi ki, işçinin yaradıcı fəaliyyəti, mənəvi saflığı onun əməli fəaliyyətinə qiymət vermək üçün yeganə meyar olmalıdır [51, 65].

Kadrlara tələbkarlığın yüksəldilməsi, dövlət intizamının möhkəmləndirilməsi, idarəetmə metodlarının dəyişilməsi sahəsində

görülən işlər sənayenin və kənd təsərrüfatının inkişafına müsbət təsir göstərdi. Artıq 1970-ci ildə milli gəlirin artım sürəti 1966–1969-cu illərdəki göstəricilərdən təqribən iki dəfə artıq oldu. Sənaye məhsulu istehsalı planı vaxtından əvvəl yerinə yetirildi. Eləcə də kənd təsərrüfatı məhsullarının istehsal planları da artıqlaması ilə yerinə yetirilmiş, 1969-cu ildəkinə nisbətən 18 % artmışdı. Görülmüş tədbirlər əmək məhsuldarlığının artmasına, əhalinin maddi rifahının yaxşılaşmasına, mədəni səviyyəsinin yüksəlməsinə şərait yaratdı.

1970-ci ildə qazanılmış uğurlara görə Azərbaycan SSR keçici Qırmızı bayraqla, 1321 nəfər isə SSRİ-nin orden və medalları ilə təltif olunmuş, 15 nəfərə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ad verilmişdi [248, 25–26]. İqtisadiyyatın müxtəlif məsələləri müzakirə edilərkən Heydər Əliyev əsas diqqəti idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə, kadr problemlərinə, irəli sürülən vəzifələrin həyata keçirilməsində onların məsuliyyət daşımasına cəlb edirdi. Azərbaycan KP MK Bürosunun və Katibliyinin hər bir iclasında qərarların icrasının gedişi müzakirə edilərkən, iqtisadi inkişaf prosesləri müəyyənləşdirilərkən kadrların yeri və rolu məsələsinə ciddi fikir verilirdi.

Rayon və şəhər partiya komitələrinin, nazirlik və idarələrin kadrlarla işinə dair məsələləri kompleks halında öyrənmək və müzakirə etmək MK-nın fəaliyyətində ənənəyə çevrilmişdi. Kadrlarla iş məsələsini öyrənərkən və müzakirə edərkən nöqsanları sadalamaqla kifayətlənmir, onları aradan qaldırmaq üçün konkret təkliflər verilir, yollar göstərilirdi. Heydər Əliyevin bu tələbkarlığı yerlərdə partiya və sovet orqanlarını kadr problemlərinə daha çox fikir verməyə, bu məsələləri daha tez-tez müzakirə etməyə vadar edirdi.

AKP-nin 1971-ci ilin martında keçirilmiş XXVIII qurultayı da əvvəlki qurultaylardan kəskin surətdə fərqləndi. Prinsipial tənqid və özünütənqid ruhunda keçən qurultayda Azərbaycan SSR rəhbərliyinin 1969-cu ilin avqustundan ötən dövr ərzindəki siyasi və təşkilatçılıq işi yüksək qiymətləndirilməklə yanaşı, mövcud nöqsanlara da diqqət cəlb edildi, onların aradan qaldırılması yolları göstərildi, növbəti vəzifələr müəyyənləşdirildi.

Heydər Əliyevin qurultaydakı məruzəsində göstərildiyi kimi, növbəti 1971–1975-ci illəri əhatə edən doqquzuncu beşillikdə sənaye istehsalının həcmini 43–46 faizə, illik orta artım sürətini əvvəlki beşil-

likdəki 6,5 faizlə müqayisədə 8 faizə çatdırmaq nəzərdə tutulurdu. Bu vəzifələri yerinə yetirmək üçün təsirli tədbirlər görülməsi, texnoloji və əmək intizamının təmin edilməsi, istehsalın ahəngdar təşkili tələb olunurdu. Heydər Əliyev açıqca bildirdi ki, elmi-texniki tərəqqini sürətləndirmədən, idarəetmə və planlaşdırma sistemini və metodlarını daha da təkmilləşdirmədən sənaye, kənd təsərrüfat istehsalının problemlərin həll etmək mümkün deyildir [86, 18–19].

Qurultayda xüsusi vurğulandı ki, işin müvəffəqiyyəti, birinci növbədə, dəqiq və bacarıqlı rəhbərlikdən asılıdır. Hər bir işçi həyatla ayaqlaşmaq üçün daim təhsil almalı, yeni biliklərə yiyələnməli, özünün fəaliyyət metodlarını təkmilləşdirməlidir. Rəhbərlik etmək üçün hərtərəfli hazırlığa, yaxşı biliyə, geniş siyasi və mədəni görüş dairəsinə malik olmaq lazımdır. «İstehsalata bələd olmaq, iqtisadiyyat məsələlərindən, ictimai həyat proseslərindən və hadisələrindən yaxşıca baş açmaq lazımdır. Rəhbər işçinin sözü ilə işi bir olmalıdır, o, kütlələrlə sıx əlaqə yaratmalı, insanları sevməli, qayğıkeş və mehriban olmalıdır. Bu, kütlələr içərisində rəhbər işçinin böyük hörmət qazanmasının ən mühüm şərtlərindən biridir [86, 24–25].

Heydər Əliyev texnoloji tərəqqinin idarəetmədə rolunun getdikcə artmasının əhəmiyyətini dərindən dərk edərək, avtomatlaşdırılmış sistemləri və hesablama texnikasını tətbiq etməklə, iqtisadiyyatın idarə olunmasının təkmilləşdirilməsinə nail olmağı tələb edir, yeni planlaşdırma, iqtisadi həvəsləndirmə metodlarına keçidi tezləşdirməyi tövsiyə edirdi [86, 25].

O, həm XXVIII qurultayda, həm də Azərbaycan KP MK-nın sonrakı plenumlarında respublikanın iqtisadi inkişafında hələ də öz həllini gözləyən problemlərin geniş təhlilini verərək, onların qısa müddətdə aradan qaldırılmasını əsas siyasi vəzifə kimi irəli sürmüşdü. Belə ki, 1971-ci ilin iyulunda Azərbaycan KP MK plenumunda Azərbaycan SSR üçün ciddi aktuallıq kəsb edən məsələlərin – respublikada yem bazasının möhkəmləndirilməsi və əsaslı tikintinin yaxşılaşdırılması sahəsində mövcud vəziyyət hərtərəfli müzakirə olundu və bu sahələrdəki nöqsanların aradan qaldırılması üçün konkret tədbirlər müəyyən edildi. Heydər Əliyev açıq şəkildə bildirdi ki, Azərbaycan SSR-də heyvandarlığın inkişafı, əhalinin ət-süd məhsulları ilə təminatı ümumən İttifaq səviyyəsindən və digər respublikalardan dəfələrlə geri qalır və

bunun başlıca səbəblərindən biri yem bazasının yarıtmaz halda olmasıdır. Bunları nəzərə alaraq, yetərli yem bazası yaratmaq üçün konkret tədbirlər hazırlanmışdı [25].

Plenumda respublikada əsaslı tikinti məsələlərində, planlaşdırma işində də ciddi nöqsanların olduğu vurğulandı, müvafiq idarə və təşkilatların yarıtmaz fəaliyyəti tənqid edildi, əsaslı tikinti sahəsində nöqsanların qısa müddətdə aradan qaldırılmasına dair tapşırıqlar verildi.

Elə həmin ilin oktyabrında Azərbaycan KP MK-da keçirilmiş müşavirədə 1971-ci il iyul plenumu qərarlarının icrası haqqında məsələ müzakirə olundu. Heydər Əliyev əsaslı tikintidə lazımi dönüş yaradılmadığına, əsaslı vəsait qoyuluşuna və tikinti-quraşdırma işlərinə dair planların yerinə yetirilməməsinə görə müvafiq nazirlik və idarələrin rəhbərlərini tənqid etdi, respublikanın gələcək iqtisadi və mədəni inkişafının bu planların yerinə yetirilməsindən asılı olduğunu bildirərək, köhnə qaydada işləyən, təşəbbüs göstərməyən rəhbər kadrlardan zərərli iş üslubuna birdəfəlik son qoymağı tələb etdi [236, 1971, 10 oktyabr].

Sonrakı dövrdə əsaslı tikinti sahəsində mühüm keyfiyyət dəyişiklikləri baş vermiş, bir çox problemlər öz həllini tapmışdı. Lakin Heydər Əliyevin özünün də etiraf etdiyi kimi, əsaslı tikintidə qəti dönüş yaranmamışdı. Bu sahədə olan əsas problemlər barədə Heydər Əliyev beş il sonra, 1976-cı il iyunun 23-də plenum çağırmaq məcburiyyətində qalmış, həmin plenumda əsaslı tikintinin vəziyyəti, mövcud problemlərin aradan qaldırılması məsələləri ətrafında prinsipial söhbət aparmışdı [53].

İqtisadi-təsərrüfat vəzifələrinin həyata keçirilməsi xeyli dərəcədə partiya təşkilatlarının fəaliyyətindən, siyasi-ideoloji işin vəziyyətindən asılı idi. Bunu nəzərə alaraq, Heydər Əliyev Azərbaycan KP MK-nın təşkilatçılıq işini, siyasi işi yaxşılaşdırmaq, ideoloji işin təsirini gücləndirmək üçün mühüm və səmərəli tədbirlər həyata keçirirdi. Onun təklifi ilə Azərbaycan KP MK-nın 1971-ci ilin oktyabr plenumunda ideoloji işin gücləndirilməsi ilə bağlı məsələ də müzakirəyə çıxarılmışdı. Heydər Əliyev çıxışında 1969-cu ilin yayından sonra siyasi, ideoloji, mədəni sahələrdə görülmüş işlərə yekun vuraraq, bu sahədə hələ də ciddi problemlərin olduğunu bildirdi. Mədəni-maarif, təhsil, kütləvi

informasiya sahələrində, yaradıcılıq ittifaqlarının fəaliyyətində olan ciddi nöqsanlara və çatışmazlıqlara diqqəti cəlb edərək konkret faktlar göstərməklə vəziyyətin dözülməz olduğunu vurğuladı. Ali məktəblərdə dərin kök salmış korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin zəif aparıldığını, bu vəziyyətlə barışmayacağını bəyan etdi [50].

Onun ali məktəblərin fəaliyyətinə, kadr hazırlığının vəziyyətinə dair fikirləri respublikada geniş əks-səda doğurmuşdu. Azərbaycan xalqının milli mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının geniş analitik təhlilini verərək, bu sahələrdə də ciddi nöqsanların olduğunu konkret faktlarla göstərən Heydər Əliyev, ürək yanğısı ilə bildirirdi ki, Azərbaycan milli musiqi mədəniyyətinin, incəsənətin digər növlərinin əvvəlki dövrlərdə coşqun inkişafına baxmayaraq, son illərdə bu sahələrdə tənəzzül özünü göstərir, diqqəti cəlb edən irihəcmli opera, simfonik əsərlər az yazılır, müasir mövzuda heç bir sanballı milli opera əsəri yaradılmamışdır.

Əhaliyə mədəni-maarif xidməti, xüsusən kino xidməti sahəsində də çox ciddi problemlər olduğunu vurğulayan Heydər Əliyev bədii yaradıcılıq, qəzet və jurnalların fəaliyyəti barədə də bir sıra prinsipial iradlarını bildirdi.

İdeoloji işə həsr edilmiş plenumun yekunları respublika partiya təşkilatlarında, istehsal, mədəniyyət, təhsil müəssisələrində geniş müzakirə edilmişdi.

Həyatın gedişi qarşıya yeni problemlər çıxarır, görülən işlərin miqyasını genişləndirməyi tələb edirdi. Respublika iqtisadiyyatının, mədəniyyətinin aktual məsələləri MK plenumlarında, bürosunda, katibliyində mütəmadi müzakirə edilir, müvafiq qərarlar qəbul edilirdi. 1973-cü ilin fevralında Azərbaycan KP MK plenumunda respublika xalq təsərrüfatının vəziyyəti geniş müzakirə olundu, nöqsanlar üzə çıxarıldı. Bildirildi ki, bir sıra göstəricilər üzrə planlar hələ də kəsirlə yerinə yetirilir, sənaye istehsalının artım sürəti qənaətbəxş deyil, heyvandarlıq, üzümçülük, tərəvəzçilik sahəsində ciddi işlər görülməlidir. Əhaliyə ticarət və məişət xidməti sahəsində ciddi səhvlər və nöqsanlar var, bu məsələlərlə bağlı əvvəllər qəbul edilmiş qərarlar yarıtmaz yerinə yetirilir.

Bunların səbəblərindən biri də həmin sahələrə rəhbərlik edən şəxslərin fəaliyyətindəki qüsurlar və nöqsanlarla, tapşırılan işə məsuliyyətsizliklə bağlı idi. Doğrudur, vəziyyəti düzəltmək üçün res-

publika hökuməti səviyyəsində müəyyən tədbirlər görülmüş, bu sahələrə rəhbərlik gücləndirilmişdi. 1974-cü ilin iyulunda Azərbaycan KP MK plenumunda əhaliyə ticarət və məişət xidmətini yaxşılaşdırmaq üçün konkret tədbirlər müəyyənləşdirilmişdi. Lakin bu sahədə nöqsanlar yenə də qalmaqda idi. 1975-ci il iyul plenumundakı məruzəsində Heydər Əliyev xidmət sahəsi nazirlikləri və idarələrini, partiya komitələrini yarıtmaz işinə görə kəskin tənqid etdi. O, açıq şəkildə belə bir faktın dözülməz olduğunu bildirdi ki, hər yeni seçilən rayon və ya şəhər partiya komitəsinin birinci katibi öz fəaliyyətinə xidmət sahəsindəki rəhbər işçiləri ucdantutma dəyişdirməklə başlayır, həm də özlərini ləkələyən şəxslərlə yanaşı, yaxşı rəhbər işçilər də vəzifədən azad olunurlar [51, 42]. O bu sahədəki rəhbər kadrların fəaliyyətinə qiymət verilməsində lazımi kəskinliyin olmadığını, ləkəli işçilərin məsuliyyətdən yaxa qurtardığını, dəfələrlə olan göstərişlərə baxmayaraq, ticarət və məişət xidməti müəssisələrinin işinə ciddi nəzarət edilmədiyini bir daha xüsusi olaraq qeyd etdi [51, 42–43].

Heydər Əliyev hər çıxışında məsələnin birbaşa kadrların, rəhbər işçilərin fəaliyyətindən asılı olduğuna diqqəti cəlb edir, onların məsuliyyəti məsələsini ön plana çəkirdi. Azərbaycan KP MK Bürosunun və Katibliyinin iclaslarında kadrlarla bağlı məsələlər müntəzəm olaraq müzakirəyə çıxarılırdı. MK-da ayrı-ayrı partiya komitələri, nazirlik və idarələrin kadrlarla apardığı işlər öyrənilir, rayon və şəhər partiya komitələrində, idarə və müəssisələrin partiya təşkilatlarında kadrlarla işin vəziyyəti müzakirə edilirdi [248, 101]. Lakin kadrlarla iş sahəsindəki nöqsanlar və qüsurlar hələ də aradan qaldırılmamışdı. Buna görə də bu məsələni 1975-ci il iyulun 30-da Azərbaycan KP MK plenumunda daha geniş şəkildə müzakirə etmək qərarlaşdırılmışdı və belə bir plenum keçirilmişdi. Plenumda Heydər Əliyev kadrların seçilməsini, yerləşdirilməsini və tərbiyə edilməsini daha da yaxşılaşdırmaq sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında məruzəsində konkret rəqəmlər [51] əsasında bildirdi ki, bütün səviyyələrdə və bütün mərhələlərdə kadrlarla işin kökündən yaxşılaşdırılması 1976–1980-ci illərdə ölkə iqtisadiyyatındakı uğurların möhkəm zəmini olmuşdur.

Bununla belə, o, təşkilatçılıq, idarəetmə və kadr işində hələ də çox ciddi nöqsanların, həll edilməmiş məsələlərin olduğunu qeyd etdi.

Açıq şəkildə bildirdi ki, aparılan böyük işə baxmayaraq, kadrların tərbiyəsi sahəsində keçmişin səhv və qüsurları heç də tamamilə aradan qaldırılmamışdır: «Bu səhv və qüsurlar məsul vəzifələrdə çalışan adamların xeyli qisminin şüuruna ərp kimi çökmüşdür və bu, istəristəməz təmizləmə prosesini ləngidir» [51, 15]. Digər tərəfdən, bir müddət əvvəl rəhbər işə keçmiş ayrı-ayrı şəxslərin yanlış yola yuvarlandıqları, inzibatçılıq və vəzifəsindən sui-istifadə etməyə başladıqları kimi faktlar da xatırladıldı.

Heydər Əliyev şəhər və rayon partiya komitələri birinci katiblərinin tərkibinin möhkəmləndirilməsinə birinci dərəcədə əhəmiyyət verirdi, çünki «şəhər və ya rayon həyatının bütün sahələrinə partiya rəhbərliyinin səviyyəsi xeyli dərəcədə onların fəaliyyətindən asılı idi» [51, 16].

Heydər Əliyevin 1969-cu ildən başlayaraq həyata keçirdiyi məqsədyönlü və ardıcıl siyasət öz bəhrəsini verirdi. Azərbaycan SSR-də sənaye və kənd təsərrüfatı sahələrində uzun müddət davam etmiş geriliyə 1976–1980-ci illərdə son qoyuldu, iqtisadiyyatın sürətli inkişafı təmin edildi. Müharibədən sonrakı dövrdə ilk dəfə olaraq, iqtisadi inkişafa dair dövlət planı bütün göstərişlər üzrə vaxtından üç ay iyirmi gün tez yerinə yetirildi [5, 9–14]. Bütövlükdə, 1976–1980-ci illərə dair dövlət planı respublikanın iqtisadi və sosial inkişafında dönüş mərhələsi oldu. Sənaye istehsalının həcmi nəzərdə tutulan 43–46% əvəzinə, 50% artdı. Elektron, radiotexnika, hesablama texnikası və digər bu kimi mühüm sənaye sahələri yaradıldı. Bakı Məişət Kondisionerləri Zavodu vaxtından əvvəl tikilib başa çatdırıldı [5, 14–15]. Sənayenin strukturundakı dəyişikliklər beşillik planın uğurla yerinə yetirilməsində mühüm rol oynadı. Obyektiv səbəblərə görə yanacaq sənayesində istehsalın bir qədər azalmasına baxmayaraq, digər sahələrin intensiv inkişafı hesabına, bütövlükdə, respublika üzrə sənaye istehsalı həcminin yüksək sürətlə artımı təmin edilmişdi. Bu dəyişikliklərin Azərbaycan SSR-in sənayesinin perspektivli inkişafı üçün çox böyük ictimai-iqtisadi əhəmiyyət var idi [5, 16].

Kənd təsərrüfatında da plan və tapşırıqlar artıqlaması ilə yerinə yetirilmiş, 1976–1980-ci illər ərzində dövlətə 1,2 mln. ton taxıl, 2,2 mln. ton pambıq, 2,2 mln. ton üzüm, 2 mln. ton tərəvəz, 11,1 mln. ton süd, 46,5 min ton yun, 917 mln. ədəd yumurta, 487 min ton ət satılmışdı.

1971–1975-ci illərdə nisbətən taxıl satışı 42 faiz, pambıq satışı 34,5 faiz, üzüm satışı 2,1 dəfə, tərəvəz satışı 63,5 faiz, ət satışı 36,5 faiz, süd satışı 36,1 faiz, yumurta satışı 71 faiz artmışdı [5, 34]. İqtisadiyyatın sürətlə inkişafı əsasında xalqın maddi rifahı da yüksəlmişdi. Əhalinin real gəlirləri beşillik ərzində 117 faiz artmışdı. Yüksək əmək göstəricilərinə görə 16 nəfər Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, 12450 nəfər isə orden və medallarla təltif olunmuşdu [5, 9].

Görülmüş işlərə Azərbaycan KP-nin 1976-cı il yanvarın 28-də keçirilmiş XXIX qurultayında yekun vuruldu. Heydər Əliyevin hesabat məruzəsində deyildiyi kimi, görülmüş böyük təşkilatçılıq işi və siyasi iş sayəsində əsas ictimai-iqtisadi vəzifələr və respublika qarşısında qoyulan konkret tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilmişdi. İqtisadiyyatın illər boyu davam etmiş geriliyinə nəinki son qoyulmuş, həm də xalq təsərrüfatının respublikanın tarixində misli görünməmiş yüksək sürətlə inkişafına nail olunmuşdu [5, 7].

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan SSR-də partiya, dövlət və plan intizamını möhkəmlətmək, kadrlara tələbkarlığı artırmaq, təşkilatçılıq və siyasi işi təkmilləşdirmək sahəsində görülən işlər, eləcə də bütün sahələrdə işin əsaslı şəkildə yenidən qurulması, nöqsanlara qarşı mübarizə əhalinin siyasi və əmək fəallığının yüksəlişinə səbəb olmuş, respublikada sağlam, işgüzar mənəvi-siyasi iqlim yaranmışdı [5, 8]. Respublikada dövlət idarəçiliyinin bütün səviyyələrində və sahələrində məsuliyyət, işə sədaqətlə yanaşma hökm sürürdü, rəhbər işçilər arasında intriqa, dedi-qodu, dəstəbazlıq kimi zərərli hallar aradan qaldırılmışdı. Heydər Əliyev əminliklə bildirirdi ki, biz, rəhbər işçilər arasında vaxtilə mövcud olmuş bütün qeyri-sağlam halların kökünü kəsmişik və bu cür hadisələrin təkrar edilməsinə heç vaxt yol verməyəcəyik [5, 75].

Bu, hər şeydən əvvəl, Heydər Əliyevin nöqsanların və geriliyin aradan qaldırılması sahəsində gərgin mübarizəsinin və əməli fəaliyyətinin nəticəsi idi. Bir müddət sonra, 1976-cı ilin martında Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilməsi onun Azərbaycan SSR-də qazandığı uğurlu nəticələrə SSRİ-i rəhbərliyi səviyyəsində verilən qiymətin təzahürü oldu.

Bazar iqtisadiyyatı qanunlarının işləmədiyi, təsərrüfatın pul-əmtəə münasibətləri ilə deyil, partiya-dövlət direktivləri əsasında idarə

edildiyi planlı sovet iqtisadiyyatı şəraitində istehsalın səmərəliliyi, məhsulun keyfiyyəti məsələləri mühüm iqtisadi problem olaraq qalırdı. Heydər Əliyev aydın şəkildə dərk edirdi ki, belə şəraitdə bütün mümkün imkanlardan, mövcud siyasi-iqtisadi idarəetmə vasitələri və metodlarından maksimum istifadə edərək, bu sahədə ciddi dəyişikliklərə nail olmaq lazımdır. Məhz bu amilləri nəzərə alaraq, Heydər Əliyev Azərbaycan KP MK-nın 1976-cı ilin dekabrında keçirilmiş plenumunun gündəliyinə istehsalın səmərəliliyini artırmaq və məhsulun keyfiyyətini yaxşılaşdırmaq məsələsini daxil etməyi zəruri bilmişdi. Plenumundakı məruzəsində o, partiya təşkilatlarından, sənaye müəssisələrindən, təsərrüfat və istehsal kollektivlərindən məhsulun keyfiyyətinin yüksəldilməsi işinə daha çox diqqət yetirməyi tələb edərək, bu sahədə dönüş yaratmağı əsas vəzifə kimi müəyyənləşdirdi. Azərbaycan SSR-də buraxılan məhsulun keyfiyyəti ilə bağlı həm respublikanın daxilindən, həm də digər müttəfiq respublikalardan çoxsaylı şikayətlər daxil olurdu. Başqa respublikalarla müqayisədə Azərbaycan SSR istehsalı olan mallar keyfiyyətinə görə çox geri qalırdı, müəssisələrin cəmi 10 faizə qədəri keyfiyyət nişanlı məhsul buraxırdı. Bu məsələ hələ 1976-cı ilin avqustunda Azərbaycan KP MK-da keçirilmiş müşavirədə müzakirə edilmiş, bir çox nazirlik və idarələrin yarıtmaz işi kəskin tənqid edilmişdi.

Heydər Əliyev bütün fəaliyyətində, siyasətində Azərbaycan SSR-in gələcək inkişaf perspektivlərini nəzərə alırdı. Lakin respublika iqtisadiyyatının bir çox məsələlərinin həlli Mərkəzi hökumətin qərarlarından asılı idi. Bunu aydın dərk edən Heydər Əliyev hələ respublika rəhbərliyinə yenicə başladığı ilk illərdə ittifaq rəhbərliyi qarşısında respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı bir sıra məsələlər qaldırmış, Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin Azərbaycan SSR-lə bağlı prinsipial qərarlar qəbul etməsinə nail olmuşdu.

Azərbaycan KP XXIX qurultayından sonra Heydər Əliyevin təşəbbüsü ilə respublikanın inkişaf perspektivləri ilə bağlı yeni tədbirlər və təkliflər kompleksi hazırlanaraq Mərkəzə təqdim olundu. Nəticədə 1976-cı il iyulun 27-də Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin «1976–1980-ci illərdə respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişafına dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsinin nəticələri barədə» birgə qərarı qəbul edildi. Qərarda 1976–

1980-ci illərdə Azərbaycan SSR-də yeni istehsal müəssisələrinin tikilməsi, fəaliyyətdə olan müəssisələrin genişləndirilməsi və yenidən qurulması, onların yeni texnika ilə təchiz edilməsi nəzərdə tutulurdu. Bu qərardan irəli gələn vəzifələr Azərbaycan KP MK-nın 1976-cı il 18 oktyabr tarixli plenumunda müzakirə edildi və konkret tədbirlərin həyata keçirilməsi müəyyənləşdirildi [41].

Azərbaycan SSR iqtisadiyyatının mühüm sahəsini təşkil edən kənd təsərrüfatının strukturunun təkmilləşdirilməsi, idarəetmənin optimallaşdırılması yolu ilə məhsul istehsalının artırılması Heydər Əliyevin daim diqqət yetirdiyi məsələlərdən idi. Bu baxımdan, 1978-ci il fevral plenumunda təsərrüfatlararası kooperasiya və aqrar-sənaye inteqrasiyası əsasında kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması və təmərküzləşdirilməsi məsələləri müzakirə edildi. Pambıqçılıq, taxılçılıq, üzümçülük, tərəvəzçilik və meyvəçilik, heyvandarlıq sahəsində ixtisaslaşmanı və təmərküzləşməni genişləndirmək üçün konkret tədbirlər müəyyənləşdirildi. Bir sıra rayonlarda kənd təsərrüfatı istehsalının ixtisaslarının dəyişilməsi ilə bağlı qərarlar qəbul edildi.

Kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı Heydər Əliyevin strateji xətti, o cümlədən Azərbaycan SSR-i üzümçülük və şərabçılıq bazasına çevirmək planları Mərkəzi hökumət tərəfindən də dəstəklənirdi. Azərbaycan SSR rəhbərliyinin təkliflərini nəzərə alaraq, Sov. İKP MK və SSRİ Nazirlər Soveti 1979-cu ilin fevralında «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» mühüm qərar qəbul etdi. Qərarda bütün kənd təsərrüfatı sahələrinin intensivləşdirməsi, birinci növbədə, üzümçülüyün və şərabçılığın daha sürətlə inkişaf etdirilməsi nəzərdə tutulurdu.

Heydər Əliyev respublikanın kənd təsərrüfatındakı vəziyyətlə yerində tanış olmağı üstün tutur, müntəzəm olaraq rayonlara gedir, kənd əməkçiləri ilə görüşürdü. O illərdə, yığıma hazırlıq dövründə müxtəlif rayonlarda zona müşavirələrinin və partiya-təsərrüfat yığıncaqlarının keçirilməsi ənənəyə çevrilmişdi və bu, məhsul istehsalının artmasına çox müsbət təsir göstərirdi.

Heydər Əliyev siyasi və iqtisadi vəzifələrin yerinə yetirilməsində ideoloji-mənəvi amilləri idarəetmənin mühüm cəhəti hesab edirdi. Buna görə də mənəvi tərbiyə məsələləri partiya, sovet, təsərrüfat

orqanlarının əsas diqqət yetirməli olduğu məsələ kimi qarşıya qoyurdu. O, kütlələrlə əlaqələrin daim genişləndirilməsinə böyük əhəmiyyət verir, geniş xalq kütləsini ictimai işlərə, dövlət işlərinə, idarəçiliyə daha fəal cəlb etmək üçün müxtəlif formalardan istifadə olunmasını tövsiyə edirdi. O vaxt Azərbaycan SSR-də mənəvi tərbiyə məsələlərinə böyük diqqət yetirilirdi. 1979-cu ilin aprelində «Fəal həyat mövqeyinin formalaşdırılması; mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri» mövzusunda Ümumittifaq elmi-praktik konfransının də məhz Bakıda keçirilməsi Azərbaycan SSR-də bu sahədə toplanmış müsbət təcrübənin təsdiqi idi. Konfransda 12 bölmənin iclasında 6 mindən çox adam iştirak etmiş, 300-dən çox məruzə dinlənilmişdi. Mənəvi tərbiyənin, fəal həyat mövqeyi formalaşdırılmasının ən aktual məsələləri təhlil edilmiş, Azərbaycan SSR-də toplanmış zəngin təcrübə ümumiləşdirilmişdi.

Heydər Əliyev həmişə çalışırdı ki, respublikanın dövlət orqanları tərəfindən qəbul edilən qərarlar yalnız direktiv qüvvəsinə deyil, həm də mənəvi qüvvəyə malik olsun, ictimai rəyə fəal təsir göstərsin. O, qərarların qəbulunda, idarəetmədə ictimai rəyin əhəmiyyətini daim vurğulayır, ona görə də ictimai rəyin müntəzəm öyrənilməsini və nəzərə alınmasını tövsiyə edirdi [28, 46].

1979-cu ilin iyulunda Azərbaycan KP MK-nın ideoloji məsələlərə dair plenumu keçirildi. Heydər Əliyev məruzəsində respublikada ideoloji işi yaxşılaşdırmaq baxımından görülən müsbət işləri və təcrübəni qiymətləndirməklə yanaşı, bu sahədə hələ də ciddi nöqsanların, çatışmazlıqların olduğunu bildirmiş, onları tezliklə aradan qaldırmağı tələb etmişdi. Məruzədə siyasi və təsərrüfat məsələlərinin həllində ideoloji amillərin nəzərə alınmasına, kütləvi informasiya vasitələrinin, ictimai elmlərlə məşğul olan tədqiqat institutlarının, kafedraların fəaliyyətindəki ciddi nöqsanlara, ideoloji kadrlar probleminə xüsusi diqqət yetirməyi tövsiyə etmişdi [35].

Respublikanın qarşısında qoyulmuş vəzifələrin, öhdəliklərin yerinə yetirilməsi təşkilatçılıq işinin, idarəetmənin daim təkmilləşdirilməsini, dövlət intizamının daha da möhkəmləndirilməsini tələb edirdi. Azərbaycan KP MK-nın 1980-ci il fevral plenumunda Heydər Əliyev bu sahədəki vəzifələri təhlil edərək, konkret tədbirlər müəyyənləşdirmişdi.

Heydər Əliyevin başçılığı ilə həyatın bütün sahələrində baş vermiş dəyişikliklərin nəticələri 1976–1980-ci illərə dair dövlət planlarının yerinə yetirilməsində özünü göstərdi. SSRİ respublikaları arasında birinci olaraq Azərbaycan SSR sənaye və kənd təsərrüfatı məhsulları istehsalına dair bütün tapşırıqları vaxtından əvvəl – 4 il 2 ay ərzində yerinə yetirdi [7, 15]. Beş il ərzində 39 nəfər Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, 19713 nəfər orden və medallarla təltif olunmuşdu [66, 76]. Respublikanın qazandığı uğurlara görə Azərbaycan SSR-ə 1980-ci ildə üçüncü «Lenin ordeni» verilmişdi.

Heydər Əliyevin Azərbaycan KP-nin XXX qurultayındakı (28–30 yanvar, 1981) hesabat məruzəsində son on ildə (1970–1980-ci illər) respublikada görülən işlərə yekun vuruldu. Sənaye və kənd təsərrüfatı məhsulu istehsalının dinamik şəkildə artması, plan və öhdəliklərin artıqlaması ilə yerinə yetirilməsi 70-ci illərdə təsərrüfat-siyasi inkişafın əsas istiqaməti olmuşdu. Sənaye istehsalı 39 % əvəzinə 47 %, əmək məhsuldarlığı 28,2 % artmış, kənd təsərrüfatının ümumi məhsulunun ortaillik həcmi nəzərdə tutulan 21 % əvəzinə 47 %-ə çatmışdı [68, 22–71]).

Heydər Əliyev Azərbaycan KP MK-nın 1981-ci il may, dekabr, 1982-ci il mart, may, iyun, oktyabr plenumlarında, müxtəlif səviyyəli müşavirə və yığıncaqlarda, MK Bürosunun iclaslarında respublikanın sosial-iqtisadi, mədəni inkişaf problemləri, idarəçilik, təşkilatçılıq işi, kadr siyasəti sahəsində mövcud vəziyyətin dərin təhlilini vermiş, problemlərə diqqət yetirmiş, onların aradan qaldırılması üçün konkret yollar və vasitələr göstərmişdi. 1982-ci ilin noyabrında Heydər Əliyevin Sov. İKP MK Siyasi Bürosunun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi yüksək vəzifəyə təyin edilməsi görkəmli siyasi və dövlət xadiminin doğma Azərbaycan SSR-i tərəqqi və intibah yoluna çıxarmaq sahəsində gördüyü misilsiz işlərin məntiqi nəticəsi, belə bir şəxsiyyətin Sovetlər İttifaqının rəhbərliyində təmsil edilməsinə ehtiyacın olmasının rəsmi səviyyədə təsdiqi idi.

Beləliklə, 1969–1982-ci illərdə Azərbaycan SSR Heydər Əliyevin rəhbərliyi altında hərtərəfli inkişaf etmiş, həyatın bütün sahələrində yüksək nailiyyətlər əldə etmişdir. Bu uğurların əsas səbəblərindən biri Heydər Əliyevin bu illər ərzində siyasi rəhbərlik və təşkilatçılıq işi, kadrlarla iş sahəsində həyata keçirdiyi mütərəqqi islahatlar olmuşdur. Həmin dövrdə partiya, sovet, təsərrüfat orqanlarının fəaliyyət metod-

larının təkmilləşdirilməsinə, iş üslubunun yaxşılaşdırılmasına, respublikanın rəhbər orqanlarının çoxcəhətli və səmərəli fəaliyyət göstərməsinə daim diqqət yetirilmiş, iqtisadi, mədəni və tərbiyə məsələlərinin kompleks həllinə nail olunmuşdu. Əldə edilmiş nailiyyətlərin əsas şərtlərindən biri də Heydər Əliyevin həyata keçirdiyi kadr siyasəti olmuşdur.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər baş vermiş dəyişikliklərin vüsəti, ictimai və siyasi sahədə aparılmış köklü islahatların xarakteri və xalqın maddi rifahının keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımından, sözün tam mənasında, müstəqil Azərbaycan Respublikasının yaranması salnaməsində ən parlaq səhifələrdir [252, 22].

3.2. Respublikanın ictimai-siyasi həyatı

1969-cu ilin iyulunda Heydər Əliyev Azərbaycan SSR-ə siyasi rəhbər seçilərkən respublika dərin və uzun sürən iqtisadi böhran içində idi. Respublikada sosial ədalət prinsiplərinə əməl olunmaması, cəmiyyətdəki mənəvi aşınma ölkənin ictimai-siyasi həyatına, ilk növbədə, insanların şüuruna mənfi təsir göstərir, onlarda inamsızlıq, biganəlik hissləri doğururdu.

Heydər Əliyev Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçildikdən az sonra, 1969-cu il avqustun 5-də MK-nın plenumundakı məruzəsində respublikada yaranmış vəziyyəti ətraflı təhlil etdi, xüsusilə rüşvətxorluğa qarşı mübarizəni ön plana çəkdi: «Rüşvətxorluq faktlarının, rüşvəti doğuran şəraitin aradan qaldırılması ilə biz ən ciddi, amansız mübarizə aparmalıyıq. Bizim vəzifəmiz, inzibati tədbirlərlə yanaşı, hər sahədə profilaktik işi gücləndirmək, bu biabırçı halın tam aradan götürülməsi uğrunda insanlarımızda məsuliyyət hissini yüksəltməkdir».

Sovet siyasi sistemində bütün məsələlərin Sov. İKP MK Siyasi Bürosu tərəfindən planlaşdırıldığı və bu siyasi orqanın göstərişi olmadan hər hansı bir təşəbbüs irəli sürməyin mümkünsüzlüyü şəraitində Heydər Əliyevin belə bir cəsarətli çıxışı qeyri-adi idi. Onun bu vaxtdan sonrakı bütün fəaliyyəti sovet siyasi sisteminə sığışmayan yüksək intellektual səviyyəyə, dövlətçilik bacarığına, təşkilatçılıq qa-

biliyyətinə malik dövlət adamının hakimiyyət başına gəlməsinin parlaq nümunəsi idi.

1974-cü ildə Heydər Əliyev Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunun əhəmiyyətindən danışarkən demişdir: «Biz respublikanın xalq təsərrüfatında yaranmış ağır vəziyyət haqqında … həqiqəti … bütün zəhmətkeşlərə açıqca söylədik. Mərkəzi Komitə Azərbaycan KP MK Bürosunun tərkibini, respublika Nazirlər Sovetinin və respublika Ali Soveti Rəyasət Heyətinin rəhbərliyini yeniləşdirmək yoluna qədəm qoydu, cəmiyyətə zidd hallara, vəzifədən sui-istifadə edilməsinə və kommunist əxlaqının antipodlarına qarşı ardıcıl mübarizə apardı» [9, 7].

Bu deyilənlərə nail olmaq üçün kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsi işinə xüsusi diqqət yetirilirdi: «1969–1970-ci illərdə bir çox rəhbər işçilər dəyişdirildi. Onların əksəriyyəti ciddi nöqsanlara yol verdiyinə görə işdən çıxarıldı, partiya xətti ilə cəzalandırıldı, bəziləri isə cinayət məsuliyyətinə cəlb edildi. Bu, kadrlar sahəsində işin birinci mərhələsi idi».

Heydər Əliyevin siyasi iradəsi ilə ictimai-siyasi təşkilatlar, sovetlər, yaradıcılıq ittifaqları xalqın mənəvi dəyərlərinin öyrənilməsi və təbliğinə diqqəti artırdılar. Partiya və dövlət idarəçiliyi sahəsində görülən işlər Azərbaycan SSR-in ictimai-siyasi həyatında müsbət dəyişiklikləri getdikcə gücləndirirdi. Cəmiyyətdə ictimai-siyasi fəallıq artırdı.

Heydər Əliyev bu işdə xalq deputatları sovetlərinin roluna böyük əhəmiyyət verirdi: «Azərbaycanda sovetlər xalq hakimiyyətinin ən kütləvi orqanlarıdır, xalq deputatları sovetləri təsərrüfat quruculuğunda və mədəni quruculuqda fəal iştirak edirlər, ehtiyat əmək qüvvələrindən və təbii sərvətlərdən düzgün istifadə olunmasına, qanunların yerinə yetirilməsinə göz qoyurlar. Sovetlər təsərrüfat və maliyyə məsələlərini həll edir, əhaliyə məişət xidməti və ictimai-mədəni xidmət göstərilməsi qayğısına qalırlar.

Sovetlərin daimi komissiyalarının rolu yüksəlir, vəzifələri və hüquqları genişlənir, Respublika Ali Sovetinin və yerli sovetlərin daimi komissiyalarının işində deputatlardan və fəallardan minlərlə adam iştirak edir. Sovetlərin ətrafında zəhmətkeşlərin ictimai özfəaliyyət təşkilatları geniş fəaliyyət göstərirlər» [68, 72].

Bütövlükdə isə həmin dövrdə sovetlərin işində formalizm, dövrün tələblərindən geri qalmaq halları mövcud idi. Heydər Əliyev öz çıxışlarında sovetlərin fəaliyyətində olan nöqsanları açıb göstərir, onlara zəhmətkeşlərin maraqlarının müdafiəsində daha fəal olmağı tövsiyə edirdi.

1970-ci il sentyabrın 30-da Azərbaycan SSR-in və Azərbaycan KP-nin yaradılmasının 50 illiyi ilə əlaqədar respublikada geniş yubiley tədbirləri keçirildi.

Azərbaycan KP-nin 1971-ci il martın 10–12-də keçirilən XXVIII qurultayında 1969-cu il avqust plenumundan ötən müddət ərzində respublikada görülmüş siyasi və təşkilatçılıq işləri yüksək qiymətləndirdi, eyni zamanda mövcud nöqsanların aradan qaldırılması üçün konkret yollar göstərildi, qarşıya yeni vəzifələr qoyuldu [248, 31].

Sov. İKP MK və SSRİ Nazirlər Soveti 1970-ci il iyulun 23-də «Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında», iyulun 25-də isə «Azərbaycan SSR-də xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında» qərarlar qəbul etdi. Bilavasitə Heydər Əliyevin təşəbbüsü ilə qəbul olunmuş bu mühüm qərarlar respublika qarşısında yeni perspektivlər açırdı.

Respublika iqtisadiyyatının inkişaf etdirilməsi sahəsində görülən məqsədyönlü işlərlə yanaşı, cəmiyyəti narahat edən məsələlərə də ciddi diqqət yetirilir, cinayətkarlığa, mənfi hallara qarşı mübarizə aparılırdı. Azərbaycan KP MK-nın «Respublikada cinayətkarlığa qarşı mübarizəni gücləndirmək tədbirləri haqqında» (1971-ci il 7 mart) qərarında bütün cinayət hallarının aşkarlanması, cinayətkarlığa qarşı vahid cəbhə təşkil edilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdu.

Heydər Əliyevin ardıcıl fəaliyyəti nəticəsində xalqda qanunların gücünə, həyata keçirilən tədbirlərin obyektivliyinə, respublika rəhbərliyinin namuslu adamların mənafeyi keşiyində dayandığı haqda qəti inam yaranırdı [247, 135].

Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında» (1975, 9 iyul), «1976–1980-ci illərdə respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsi nəticələri barədə» (1976, 27 iyul) və «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdır-

maq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» (1979, 22 fevral) qərarları Azərbaycanın sürətli inkişafı üçün əlverişli şərait yaratdı. Heydər Əliyev bunların əhəmiyyətindən bəhs edərək deyirdi: «Bu qərarlar Azərbaycan iqtisadiyyatının uzun sürən geriliyinin aradan qaldırılmasında, məhsuldar qüvvələrin yüksək inkişaf sürətinə nail olunmasında, elmi-texniki tərəqqinin sürətləndirilməsində, zəhmətkeşlərin rifahının və mədəniyyətinin yüksəldilməsində çox böyük rol oynamışdır. Bu qərarlar IX və X beşilliklərdə və uzun perspektivdə respublika iqtisadiyyatının hərtərəfli inkişafı üçün möhkəm təməl qoymuşdur» [16, 101].

Respublikada ictimai-siyasi həyatın sağlamlaşdırılmasında ideoloji məsələlərə xüsusi diqqət yetirilirdi. 1971-ci il oktyabrın 29-da Azərbaycan KP MK-nın ideoloji məsələlərə həsr olunmuş plenumunda ideoloji işin bütün sahələrində mövcud olan nöqsanlardan ətraflı bəhs edildi və onların aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirildi. Plenumun qərarları respublikanın yaradıcılıq təşkilatlarında, digər əlaqədar qurumlarda geniş müzakirə olundu.

Heydər Əliyev qarşıda duran mühüm vəzifələrin həlli üçün dövrün tələblərinə cavab verən kadrların yetişdirilməsinə xüsusi diqqət yetirirdi. Azərbaycan KP MK-nın 1975-ci il iyulun 30-da keçirilən plenumunda «Kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsini daha da yaxşılaşdırmaq sahəsində Azərbaycan partiya təşkilatının vəzifələri haqqında» məsələ müzakirə edildi. Plenumda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev geniş məruzə ilə çıxış etdi. Məruzədə deyilirdi: «Xalq təsərrüfatının bir sıra sahələrində ixtisas hazırlığı olmayan rəhbər işçilərin xüsusi çəkisinin son dərəcə yüksək olması ciddi təşviş doğurur. Lakin bu, necə deyərlər, bəlanın yarısıdır. Bəla burasındadır ki, bu cür rəhbərlər, bir qayda olaraq, heç yerdə oxumurlar. Bizim vəzifəmiz onlara təhsil almaq, öz ixtisaslarını yüksəltmək üçün şərait yaratmaqdır. Bizdə orta pillədən olan kadrların vəziyyəti də yarıtmazdır. Respublikanın xalq təsərrüfatında ixtisas hazırlığı olan 348 min adam işləyir, onların 175 min nəfəri ali təhsilli və 173 min nəfəri orta ixtisas təhsillidir. On minlərlə sex, sahə, briqada, ferma rəhbəri vəzifələri ixtisas hazırlığı olmayan adamlar tərəfindən tutulmuşdur. Eyni zamanda təqribən 16 min mütəxəssis yüksək ixtisas tələb etməyən vəzifələrdə işləyir» [51, 31].

1976-cı il sentyabrın 2-də Azərbaycan KP MK Bürosunda qadınların ictimai-siyasi həyata fəal cəlb edilməsi ilə bağlı məsələ müzakirə olundu. Büro iclasının qərarında Azərbaycan SSR Ali Soveti, Naxçıvan MSSR Ali Sovetində və DQMV XDS-də qadınların əmək və məişəti, qadın və uşaqların müdafiəsi məsələlərinə dair daimi deputat komissiyaları yaradılmasının məqsədəuyğunluğu vurğulanır, eyni zamanda qadınlar içərisində işi gücləndirmək məqsədilə baxışlar və s. ictimai-siyasi tədbirlər keçirilməsi nəzərdə tutulurdu.

Heydər Əliyev kadrlara qarşı tələbkarlığın yüksəldilməsinə ciddi diqqət yetirirdi. O, 1975-ci il Azərbaycan KP MK-nın iyul plenumundakı məruzəsində qanunçuluğun pozulmasına yol verdiklərinə, yarıtmaz işlədiklərinə görə 1971–1975-ci illərdə rayon daxili işlər şöbələrinin 14 rəisinin, 10 şəhər, rayon və vilayət prokurorunun vəzifəsindən azad edildiyini, 12 nəfər xalq hakiminin vaxtından əvvəl geri çağırıldığını bildirməklə yanaşı, rəhbər kadrlara qarşı tələbkarlığın artırılmasını da tələb edirdi. «Tələbkarlığı nədə isə təqsirkar olan, qüsura və səhvə yol verən adamları ancaq cəzalandırmaqla məhdudlaşdırmaq olmaz. Əsl partiya tələbkarlığı kadrların işini daimi və dərindən təhlil etməkdən, qəbul olunmuş qərarların yerinə yetirilməsinə ciddi nəzarət qoymaqdan və bu işi müntəzəm surətdə yoxlamaqdan, əməli kömək göstərməkdən və ən son tədbir kimi müvafiq cəza verməkdən ibarətdir. Biz yüksək tələbkarlığı kadrlara hörmət və qayğı göstərilməsi ilə əlaqələndirməyi kadrlarla aparılan işin ən mühüm cəhəti hesab edirik» [51, 45]. Heydər Əliyev bildirirdi ki, «… rəhbər kadrların tərkibinə yüksək siyasi və peşə hazırlığı olan yeni sağlam qüvvələr cəlb etmək lazımdır. Məsələyə belə bir münasibət, təbii ki, respublika və rayon təşkilatlarının tamamilə geri qalmış, perspektivə inamını itirmiş, nöqsanlara alışmış bir sıra işçiləri ilə işləməyi tələb edirdi. Keçən illərin yekunları göstərir ki, seçilən yol tamamilə düzgün yol idi» [51, 34 -35].

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında XX əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində Azərbaycan SSR-in mülki, mülki-prosessual, cinayət-prosessual məcəllələrinə əlavələr və dəyişikliklər edildi. Azərbaycan SSR-in məhkəmə quruluşu, səhiyyə, dövlət notariatı, xalq təhsili, tarix və mədəniyyət abidələrinin qorunması və onlardan istifadə edilməsi, Nazirlər Soveti, xalq deputatları sovetləri

haqqında qanunlar, torpaq, əmək haqqında qanun məcəllələri, inzibati hüquq pozuntuları haqqında, ailə və nikah haqqında məcəllələr qəbul edildi [195, 193].

Heydər Əliyev SSRİ-nin yeni Konstitusiyasının layihəsini hazırlayan Konstitusiya Komissiyasının üzvü və 1978-ci il Azərbaycan SSR-in Konstitusiyasının layihəsini hazırlayan Komissiyanın sədri kimi geniş dövlətçilik fəaliyyəti göstərdi.

Azərbaycan SSR Ali Sovetinin növbədənkənar VII sessiyasında (20–21 aprel 1978-ci il) Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul edildi. Heydər Əliyev geniş məruzə ilə çıxış edərək, onun rəhbərliyi altında hazırlanan layihənin yenilikləri və müzakirəsi ilə bağlı görülən işlər barədə ətraflı məlumat verdi. Bildirildi ki, Azərbaycan SSR-in yeni Konstitusiyasının layihəsi 25 gün ümumxalq müzakirəsinə verilmişdi. Konstitusiya layihəsinin müzakirəsi ilə əlaqədar 32.066 yığıncaq və mitinq keçirilmişdi. Bu yığıncaq və mitinqlərdə 3 mln. 850 min adam iştirak etmişdi. Yığıncaq və mitinqlərdə 228.164 adam çıxış etmiş, zəhmətkeşlərdən təqribən 5 min məktub gəlmişdi. Konstitusiyanın müzakirəsinə cəmi 4443 təklif verilmişdi. Müzakirələr nəticəsində layihənin 67 maddəsində dəyişiklik etmək və layihəyə 5 yeni maddə artırmaq məqsədəuyğun hesab edilmişdi [17, 30].

Azərbaycan SSR-in Yeni Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması Heydər Əliyevin müstəsna xidməti, respublikanın ictimai-siyasi həyatında çox mühüm hadisə idi. Yeni Konstitusiya ilə respublikanın qanunverici orqanı olan Ali Sovetin səlahiyyətləri də artırılmışdı. İlk dəfə olaraq, Ali Sovetin daimi komissiyalarının statusu müəyyən edilmişdi. Azərbaycan SSR Ali Sovetinin səlahiyyətinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilib hazırlanmasında, qanunvericilik aktlarının həyata keçirilməsinə, habelə dövlət orqanları və təşkilatlarının fəaliyyətinə nəzarət qoyulmasına kömək göstərilməsində daimi komissiyalara mühüm yer verildi [17, 17–18].

Yeni Konstitusiyaya uyğun olaraq Azərbaycan SSR-in bir sıra qanunvericilik aktlarında dəyişiklik edildi. «Azərbaycan SSR Ali Sovetinə Seçkilər haqqında», «Azərbaycan SSR yerli xalq deputatları sovetlərinə seçkilər haqqında», «Azərbaycan SSR rayon xalq deputatları Soveti haqqında», «Azərbaycan SSR qəsəbə və kənd xalq deputatları sovetləri haqqında» qanunların qəbul olunması respublikanın ictimai-siyasi

həyatında sovetlərin fəaliyyətinin gücləndirilməsində əhəmiyyətli rol oynadı.

Heydər Əliyevin səyləri sayəsində respublikada qazanılmış uğurlar SSRİ rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilirdi. 1978-ci ilin sentyabrında Bakıya gəlmiş Sov. İKP MK-nın Baş katibi L.İ.Brejnev respublikanın həyatında baş vermiş müsbət dəyişikliklərdən danışarkən bu uğurları respublikada görülən məqsədyönlü təşkilatçılıq, siyasi və ideya-tərbiyə işinin nəticəsi, bütün Azərbaycan xalqının fəal əmək səylərinin yekunu kimi səciyyələndirərək demişdir ki, vəziyyətin sağlamlaşması, mənəvi-psixoloji iqlimin yaxşılaşması təsərrüfat fəaliyyətinin yekunlarına da dərhal təsir göstərmişdir [66, 83].

Bu illərdə mətbuat, televiziya və radio respublikanın ictimai-siyasi həyatında fəal iştirak edirdi. Heydər Əliyev onların işinin dövrün tələblərinə uyğun qurulmasına daim tələbkarlığı artırırdı. O deyirdi: «…. Mətbuatımız, televiziya və radiomuz nöqsanlara qarşı, bizə yabançı olan mənəviyyatın yayılmasına qarşı daha tez-tez və daha cəsarətlə çıxış etməlidir. Bir çox qəzet və jurnal səhifələrində tənqidin səviyyəsi bizi qane etmir. Məsələn, «Kirpi» satirik jurnalında çox vaxt ikinci dərəcəli şəxslər tənqid atəşinə tutulur, ciddi pozuntuların əsl müqəssirləri isə kölgədə qalır. Təəssüf ki, jurnal lazımi döyüşkənlik və kəsərlilik xarakteri kəsb etməmişdir, odur ki, bu qüsuru mümkün qədər tezliklə aradan qaldırmaq lazımdır. Nöqsanların kökünün kəsilməsinə yönələn tənqid televiziya və radio proqramlarında da lazımi yer tutmalıdır» [10, 79].

Heydər Əliyev respublikada ictimai-siyasi həyatın sağlamlaşmasında ideoloji işin əhəmiyyətini yüksək qiymətləndirirdi. «1970–1980-ci illərdə Azərbaycanda ideoloji iş daha konkret və məqsədyönlü xarakter daşımağa başlamışdır. Bununla birlikdə, ideoloji işdə formalizm, kampaniyaçılıq, işə səthi münasibət ünsürləri hələ də qalır. Təbliğat tədbirlərində hələ də çox vaxt miqdar ardınca qaçır, bu tədbirlərin keyfiyyətinə lazımınca fikir vermirlər, təbliğat tədbirləri əmək kollektivlərinin həyatı ilə, adamların marağı ilə zəif əlaqələndirilir. Bütün bunlar ideoloji işin kəsərini, nəticələrini azaldır.

... Mətbuat səhifələrində, radio və televiziya verilişlərində təsərrüfat həyatının və sosial həyatın, mənəvi tərbiyənin, elmi-texniki tərəqqinin vacib problemlərinə toxunan prinsipial, ciddi çıxışlar azdır.

Qəzetlərdə, jurnallarda, radio və televiziyada vacib məsələlərə toxunmaq, informasiya vermək sarıdan zəif olan çıxışlar hələ də çoxdur, bu çıxışlar ümumi, şablon mühakimələrlə, boş ibarələrlə ağırlaşdırılır. Bizim respublika qəzetləri, təəssüf ki, tənqidin kəsərini zəiflətmiş, aktual mövzularda felyetonlar, bürokratları, qənimətçiləri, hər cür fırıldaqçıları, rüşvətxorları ifşa edən məqalələri az-az dərc etməyə başlamışlar» [11, 53–55].

Respublika rəhbərinin mətbuat, radio və televiziya ilə bağlı tənqidi çıxışları bu orqanların fəaliyyətinin güclənməsində, onların ictimai-siyasi həyatda rolunun artmasında mühüm rol oynayırdı.

Azərbaycan KP MK 1971-ci ilin oktyabrında və 1974-cü ilin dekabrında ideoloji işin səviyyəsini və təsirini yüksəltmək sahəsində ən mühüm problemləri müzakirə etmişdi.

İctimai-siyasi həyatın canlanmasında əhəmiyyətli rol oynayan vahid siyasi günlərin keçirilməsinə də xüsusi diqqət göstərilirdi. Həmin tədbirlərdə ölkədə baş vermiş mühüm siyasi hadisələrlə bağlı məruzələr təşkil edilirdi. Heydər Əliyev bu tədbirin əhəmiyyətindən bəhs edərək deyirdi: «Kütləvi-siyasi işin yeni forması – vahid siyasi gün respublika zəhmətkeşlərində canlı maraq oyatmışdır. Vahid siyasi gün .... bütün müəssisələrdə, sovxozlarda, kolxozlarda, idarələrdə müntəzəm keçirilir. Təqribən 15 min nəfər partiya, sovet, təsərrüfat işçisi əmək kollektivlərində həmin gün mühazirələr, söhbətlər, məruzələrlə çıxış edir, geniş kütlələrlə ünsiyyətdə olur, zəhmətkeşləri maraqlandıran məsələlərə dərindən nüfuz etmək imkanı qazanır» [11, 53].

Azərbaycan KP MK-nın 1979-cu il iyul plenumunun ideoloji məsələyə dair qərarında kütləvi informasiya və təbliğat orqanlarının, yaradıcılıq ittifaqlarının işində ciddi nöqsanlar olduğu, bir sıra elmi tədqiqat institutlarının qarşıya qoyduğu vəzifələr səviyyəsində durmadıqları, ali məktəblərin ictimai elmlər kafedralarının işlərində nöqsanlara yol verildiyi göstərilmiş, ideoloji kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsi işindəki nöqsanlar tənqid olunmuşdu [248, 151].

Heydər Əliyev cəmiyyətdə ictimai rəyin öyrənilməsinə xüsusi önəm verir, bu sahədə sıravi vətəndaşların məktublarına xüsusi diqqət yetirilməsini tələb edirdi: «Özünütənqidi genişləndirmək, kütlələrlə əlaqəni dərinləşdirmək üçün mühüm vasitələrdən biri ictimai rəyin

daim və dərindən öyrənilməsidir ... İctimai rəyi daha dolğun və hərtərəfli nəzərə almaq üçün biz ən müxtəlif vasitələr və metodlar tətbiq edirik, konkret sosioloji tədqiqatlar bunların arasında getdikcə daha böyük əhəmiyyət kəsb edir. İctimai rəyi müntəzəm surətdə öyrənmək, bütün fəaliyyətimizdə onu nəzərə almaq ən mühüm məsələdir. Yaxşı işləmək üçün ictimai rəyi bilmək, onunla hesablaşmaq, ona hörmət etmək lazımdır» [7, 154–155]. O, zəhmətkeş məktublarını ictimai rəyin ifadə edilməsinin, kütlələrlə əlaqənin möhkəmləndirilməsinin əvəzsiz forması hesab edirdi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Bürosunun və katibliyinin iclaslarında zəhmətkeşlərin məktubları və ərizələri ilə əlaqədar məsələlərə baxılır, şəhər və rayon partiya komitələrində hər il yüzlərlə bu cür məsələ müzakirə olunurdu [7, 156].

1982-ci ilin noyabrında Bakıda keçirilmiş elmi-praktik konfransda «İctimai rəyi dərindən öyrənməli» mövzusunda məruzə ilə çıxış edən Heydər Əliyev ictimai rəyin öyrənilməsini xalqla, əmək kollektivləri ilə daim ünsiyyətdə olmaq, həm fərdi söhbətlər keçirmək, həm də adamların qrupları ilə görüşlər zamanı onların rəyini aydınlaşdırmaq kimi səciyyələndirmişdi. Eyni zamanda o qeyd edirdi ki, «bu problemin digər cəhəti ictimai rəyin öyrənilməsi nəticələrindən səmərəli istifadə etməkdir. Mənə belə gəlir ki, burada bizim nailiyyətlərimiz azdır. Xüsusilə qeyd etmək istəyirəm ki, ictimai rəyi bilmək son məqsəd deyildir. Onu yaxşıca və əslində olduğu kimi öyrəndikdən sonra görülən tədbirləri təsbit etmək, əlavə tədbirlər hazırlayıb həyata keçirmək lazımdır. Yəni bütün sonrakı işimizi ictimai rəyi nəzərə almaqla, adamların əhval-ruhiyyəsini, istəyini yaxşı bilməklə qurmalıyıq» [33, 12, 20].

Azərbaycan SSR rəhbərlərinin konfransındakı məruzəsində ehkamçılığa, formalizmə, şablona qarşı mübarizənin zəruriliyindən də bəhs olunurdu: «… bəzən belə olur: hər hansı bir planı tərtib edir, sonra ildən-ilə onu köçürür, yalnız tarixini və rəqəmlərini dəyişdirirlər. Halbuki həyat ildən-ilə, aydan-aya dəyişir. Deməli, işə ziyan vuran formal münasibətə qarşı fəal mübarizə aparmaq üçün ictimai rəy dərindən öyrənilməli və təbiidir ki, yaranmış şəraitə, sosioloji tədqiqatların aparılması zamanı əldə etdiyimiz nəticələrə müvafiq surətdə planlarımızı və əməli tədbirlərimizi daim təkmilləşdirməliyik» [33, 21].

Heydər Əliyevin 1981-ci ildə «Literaturnaya qazeta»nın xüsusi müxbirinin suallarına cavabı və orada səslənən «Qoy ədalət zəfər çal-

sın!» ifadəsi təkcə Azərbaycan SSR-də deyil, ümumən Sovet İttifaqında böyük əks-səda doğurmuşdu. Müsahibədə böyük ictimai bəla olan rüşvətxorluqdan bəhs olunurdu: «…. Rüşvət universal cinayətdir. Bütün başqa eybəcərliklər onun ətrafında dolanır. Rüşvətxor əlaltından dublyonka satmır, dövlətin mənafeyini satır, öz fəaliyyətini satır, başqa birisi isə pul verib bunları alır .... Şəxsən təmiz olmaq və şəxsən çiyrinmək vətəndaşlıq ləyaqəti deyildir. Vətəndaşlıq fəallıq deməkdir, Şərə qarşı mübarizə aparmaq bacarığı və arzusu deməkdir» [38, 9, 23].

Heydər Əliyevin ali məktəblərə qəbul zamanı yol verilən mənfi hallara qarşı mübarizəsi respublikada ictimai-siyasi vəziyyətin sağlamlaşmasına müsbət təsir göstərmişdi. O, Azərbaycan SSR-də siyasi hakimiyyətə gəldiyi ilk vaxtlardan bu cür mənfi hallara qarşı kəskin mövqeyini bildirmişdi. 1971-ci il oktyabrın 29-da Azərbaycan KP MK plenumunda ali məktəblərə qəbul zamanı rüşvətxorluğun, müəllimlərin arasında təsadüfi, kəmsavad, bəzən də əliəyri adamların olduğunu vurğulamış, bəzi adlı-sanlı adamların övladlarının qanunsuz yollarla ali məktəblərdə, aspiranturalarda özlərinə yer tapmasını, növbədənkənar mənzil almasını və s. halları pisləmişdi. Xüsusilə, Bakı Dövlət Universitetinin (keçmiş Azərbaycan Dövlət Universiteti – *V.H.*) hüquq fakültəsinə qəbul zamanı yol verilmiş mənfi halları kəskin tənqid etmiş, fəhlə balaları adı altında bu fakültəyə daxil olmuş uşaqların valideynlərinin, hüquq mühafizə orqanlarının işçilərinin adlarını açıqlamışdı.

Heydər Əliyev gənclərin ideya-siyasi, mənəvi tərbiyəsinə, onlara vətənpərvərlik hissinin aşılanmasına, azərbaycanlı gənclərdən hərbçi kadrların yetişməsinə xüsusi diqqət və qayğı göstərir, bu sahədə komsomol təşkilatlarının üzərinə mühüm vəzifələrin düşdüyünü vurğulayırdı: «Komsomol təşkilatları gənclər və yeniyetmələr arasında cinayətkarlığın qarşısını almaq işini gücləndirməlidirlər, çünki cinayət şəxsiyyətin mənəvi düşkünlüyünün ifrat dərəcəsidir. Belə bir cəhət bizi çox narahat edir ki, respublikada bütün cinayətlərin xeyli hissəsini yaşı 29-dan aşağı olan şəxslər törədirlər və onların arasında komsomolçular da az deyildir. Cinayət məsuliyyətinə cəlb edilən həddi-büluğa çatmamış şəxslərin yarısı ümumtəhsil və ya texniki peşə məktəblərinin şagirdləridir. Bu onu göstərir ki, cinayətlərin qarşısını almaq sahəsində komsomol təşkilatlarının profilaktika işi zəifdir» [8, 35].

1973-cü ildə Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Bakıda C.Naxçıvanski adına ixtisaslaşdırılmış orta internat məktəb (indiki Hərbi lisey) açıldı. Heydər Əliyev yaxşı bilirdi ki, müasir milli hərbçi kadrlar olmadan, sözün əsl mənasında, milli dirçəliş mümkün deyildir. Ali hərbi məktəblərə daxil olan gənclərin sayı ildən-ilə artırdı. 1970–1980-ci illərdə ali hərbi məktəblərə göndərilən 2750 gəncdən 1.079 nəfəri azərbaycanlı idi. Respublikadan göndərilən gənclər SSRİ-nin 69 şəhərində ali hərbi məktəblərdə təhsil alırdılar. Onların xeyli hissəsi C.Naxçıvanski adına internat məktəbin məzunları idi [7, 185]. Həmin illərdə 2000-dən çox azərbaycanlı zabit hazırlanmışdı ki, bunun da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin ilk illərində ordu quruculuğu üçün müstəsna əhəmiyyəti olmuşdur.

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi dövründə bütün ictimai təşkilatların respublikanın ictimai-siyasi həyatında rolu qat-qat artmışdı. O, respublika komsomolunun, Azərbaycan SSR həmkarlar ittifaqlarının qurultaylarında geniş məruzələrlə çıxış edir, cəmiyyətin ictimai-siyasi həyatının sağlamlaşmasında onların qarşısında duran vəzifələri müəyyənləşdirirdi.

Həmin illərdə Bakıda ittifaq və beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi ənənəyə çevrilmişdi. Eyni zamanda SSRİ respublikalarında, habelə digər sosialist ölkələrində, başqa xarici dövlətlərdə Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi. Bu tədbirlər Azərbaycan SSR-in xarici ölkələrlə əlaqələr qurmasına, tariximizin, milli mədəniyyətimizin tanıdılmasına imkan yaradırdı [252, 26].

Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə ədəbiyyat, mədəniyyət və incəsənətin inkişafı sahəsində çox böyük uğurlar qazanılmış, Azərbaycan SSR-in ictimai-siyasi həyatında mühüm hadisələrə çevrilmiş yüksək səviyyəli tədbirlər keçirilmişdi. Bunlara misal olaraq, Azərbaycan xalqının məşhur mədəniyyət xadimlərinin: Nizaminin, Nəsiminin, Əcəmi Naxçıvaninin, Nəsirəddin Tusinin yubileylərinin keçirilməsi və onların adlarının əbədiləşdirilməsi Azərbaycan xalqının düşmənlərinin iradəsi ilə millətçi kimi qələmə verilərək, uzun illər unutqanlığa məruz qalmış [252, 27] görkəmli dövlət xadimi Nəriman Nərimanovun, Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Səməd Vurğunun, Aşıq Ələsgərin və başqalarının təntənəli yubileylərinin, xalqımızın

məşhur şəxsiyyətlərinə abidələrin ucaldılmasını və s. göstərmək olar. Hüseyn Cavidin cənazəsinin qalıqlarının uzaq Sibirdən gətirilərək, Naxçıvan şəhərində doğma torpağa tapşırılması isə sovet gerçəkliyində görünməmiş bir hadisə idi. Bütün bunlar Heydər Əliyevin son dərəcə yüksək siyasi məharət və peşəkarlıq səviyyəsində həyata keçirdiyi siyasətin əməli nəticələri idi [252, 32].

3.3. Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi dövründə Ermənistan SSR-in ərazi iddialarına və erməni separatçılığına qarşı mübarizəsi (1969–1982-ci illər)

1969-cu ildə Azərbaycan SSR rəhbərliyinə seçildikdən sonra Heydər Əliyevin fəaliyyətində Ermənistan SSR-in müxtəlif dairələrinin Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bağlı ərazi iddialarının qətiyyətlə kəsilməsi mühüm yer tuturdu. Çünki bu dövrdə həmin dairələr ərazi iddialarından nəinki əl çəkməmişdilər, hətta onu müxtəlif üsullarla genişləndirməyə cəhd göstərmişdilər. Heydər Əliyev ermənilərin Dağlıq Qarabağ və digər Azərbaycan torpaqlarına olan ərazi iddiaları haqqında həm tarixçi kimi, həm də uzun illər Azərbaycan SSR DTK orqanlarında rəhbər vəzifələr tutmuş şəxs kimi hərtərəfli məlumata malik idi. Bu məsələyə Heydər Əliyev sonralar, Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə millət vəkilləri, tanınmış ziyalılarla keçirilən çoxsaylı görüşlərdə dəfələrlə qayıtmışdı. 1999-cu il fevralın 9-da Prezident aparatında Naxçıvan Muxtar Respublikasının yaranmasının 75-ci ildönümünə hazırlıq işləri ilə bağlı təşkilat komissiyasının üzvləri ilə keçirilən görüşü zamanı Heydər Əliyev məsələnin tarixi köklərinə toxunaraq demişdir: «Dağlıq Qarabağa vilayət statusu verilməsi gərgin bir şəraitdə keçibdir. Ermənilər 1988-ci ildə Dağlıq Qarabağa iddia etməyə başlayanda Stalini, Orconikidzeni və başqalarını günahlandırırdılar ki, guya azərbaycanlıların təsiri nəticəsində onlar Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxladılar. Biz isə hesab edirik ki, Dağlıq Qarabağa muxtariyyət verilməsi Azərbaycanın əleyhinə olan bir qərar idi. Ancaq belə bir qərar meydana çıxdı. İndi Azərbaycanın o vaxtkı rəhbərlərindən kimisə gü-

nahlandırsaq, biz ədalətsiz olarıq. Tarixi bilənlər, tarixlə sənədlər əsasında tanış olanlar yaxşı bilirlər ki, Nərimanov və başqaları o vaxt nə qədər kəskin mübarizə aparmışlar. Ancaq, sadəcə, ona nail ola bilmişlər ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qalsın. Hətta məlumdur, tarixçilər yaxşı bilirlər ki, Moskvada, Tbilisidə, Zaqafqaziya Federasiyasında Dağlıq Qarabağın Ermənistana verilməsi barədə məsələ qoyulanda, Nəriman Nərimanov ciddi bir bəyanat vermişdi və kəskin demişdi ki, onda biz Rusiyaya neft verilməsini dayandıracağıq. Məhz bu kəskin mübarizənin nəticəsində, nəhayət, belə bir qərar qəbul olunmuşdu» [47, 151–152]. 1999-cu il noyabrın 10-da Azərbaycanın bir qrup ziyalısı ilə Prezident Aparatında keçirdiyi görüş zamanı Heydər Əliyev növbəti dəfə ermənilərin Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisinə olan ərazi iddiaları və burada onlara süni muxtariyyətinin yaradılması məsələsinin tarixi kökləri ilə bağlı dərin biliklərə malik olduğunu bir daha sübut etmişdir: «Dağlıq Qarabağ muxtariyyətinin 1923-cü ildən yaranmasının tarixini çox yaxşı bilirəm. 1923-cü ildə Dağlıq Qarabağa muxtariyyət verilməsi Azərbaycanın başına bir bəla olub, bilin. Düzdür, o vaxtlar buranı Ermənistana vermək istəyirdilər. Azərbaycanın rəhbərləri çalışıblar və nəhayət, nail olublar ki, o, Azərbaycanda qalsın. Qalmalı idi, amma muxtariyyət yox! 1923-cü ildə verilən o muxtariyyət Azərbaycanın içinə qoyulmuş bir bombadır, nə vaxtsa partlamalı idi. Sovet hakimiyyəti vaxtı bu, dəfələrlə qaldırılıbdır. Dağlıq Qarabağ həmişə Azərbaycanda xüsusi bir statusa malik idi, həmişə də Ermənistana daha çox tabe idi, nəinki Azərbaycana» [280].

XX əsrin 60-cı illərinin birinci yarısında Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisini Azərbaycan SSR-dən qoparmaq cəhdləri boşa çıxdıqdan sonra Ermənistan SSR rəhbərliyi Heydər Əliyevin Azərbaycan SSR rəhbərliyinə gəldiyi ərəfədə iki respublika arasında 20-ci illərdə müəyyən edilmiş sərhədlərə yenidən baxılması məsələsini qaldırdı. 1922-ci ildə Zaqafqaziya Federasiyası yarandıqdan sonra iki respublika arasında sərhədlər dövlətlərarası əhəmiyyətini itirərək inzibati sərhədlər səviyyəsinə düşdü. Lakin bundan sonra respublikalar arasında sərhədlərin dəqiqləşdirilməsi problemi ortaya çıxdı. Bu məsələnin həllində etnik amillərdən daha çox, iqtisadi və onunla sıx bağlı olan coğrafi amillərə üstünlük verilirdi. Belə vəziyyət bir çox hal-

larda hər üç respublikanın sərhədyanı qəzaları arasında daha çox təsərrüfat – otlaqlardan, sudan və meşələrdən istifadə hüququ zəminində qarşıdurmalara gətirib çıxarırdı. Bu cür qarşıdurmalar nəticəsində 20-ci illərin ikinci yarısında Azərbaycan SSR-in Qazax qəzasından, Qarabağdan, Naxçıvan MSSR-dən bir sıra ərazilər Ermənistan SSR-ə verildi. Digər tərəfdən, artıq razılaşdırılmış və xəritələrə köçürülmüş ərazilər naturada öz əksini tapmırdı. Bu ziddiyyətlər ümumilikdə respublikalar arasında sərhədləri qeyri-müəyyən edərək gələcəkdə yeni ərazi münaqişələrinə şərait yaradırdı.

1968-ci ildə Ermənistan SSR-in Şəmşəddin rayonu ilə Azərbaycan SSR-in Gədəbəy rayonu arasında torpaq zəminində münaqişə baş vermişdi. Daha dəqiq desək, həmin münaqişə erməni kolxozçuları tərəfindən Şəmşəddin rayon rəhbərliyinin razılığı ilə törədilmişdi. Münaqişənin dərinləşərək, nəzarətdən çıxaraq qanlı qarşıdurmaya çevrilməsi təhlükəsi ona İttifaq və hər iki respublika rəhbərliyini müdaxilə etməyə məcbur etmişdi. Nəticədə, Sovet İttifaqı Kommunist Partiyasının 1968-ci il 23 iyun və SSRİ Nazirlər Sovetinin 1968-ci il 10 və 20 iyun tarixli tapşırıqlarına əsasən, 1968-ci il oktyabrın 28-də Ermənistan KP MK-nın birinci katibi A.Koçinyanın, Azərbaycan KP MK-nın birinci katibi V.Axundovun və SSRİ Kənd Təsərrüfatı naziri V.Matskeviçin imzaları ilə yaranmış torpaq mübahisəsinin həlli üzrə xüsusi sənəd qəbul edilmişdi. Həmin sənədə əsasən tərəflər 1928-ci ildə Zaqafqaziya FSSR MİK tərəfindən müəyyən edilmiş sərhədlərin dəyişilməzliyini tanımışdılar. Şəmşəddin və Gədəbəy rayonlarının və müvafiq təsərrüfat rəhbərlərinin iştirakı ilə yerlərdə sərhədlər natura şəklində müəyyən edilərək torpaq mübahisəsi həllini tapmışdı. Eyni zamanda Ermənistan SSR Şəmşəddin və Azərbaycan SSR Gədəbəy rayonlarının kolxozları arasında gələcəkdə buna bənzər torpaq mübahisələrinin qarşısını almaq məqsədilə kolxozçularla izahedici iş aparılmışdı. Qəbul edilmiş sənədin 4-cü maddəsinə əsasən, Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinə tapşırılmışdı ki, hər iki respublikanın paritet komissiyaları tərəfindən 1927–1929-cu illərdə Zaqafqaziya FSSR MİK qərarları əsasında hazırlanmış sərhədlərin qrafik təsviri baxılsın və təsdiq edilsin [134, v.10–11]. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Sədri M.İsgəndərov və katibi Z.Şükürovanın 1969-cu il may ayının 7-də imzaladıqları «Azərbaycan SSR ilə Ermənistan SSR arasındakı

sərhədin qrafik təsvirinin təsdiq edilməsi haqqında» iki maddədən ibarət qərarda (№805-VII) deyilirdi ki, Azərbaycan SSR ilə Ermənistan SSR arasında Zaqafqaziya MİK tərəfindən təsdiq edilmiş sərhədin göstərilən respublikaların paritet komissiyaları tərəfindən 1:25.000 miqyaslı topoqrafik xəritələrin vərəqələrinə keçirilmiş və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən təqdim olunmuş qrafik təsviri bəyənilsin; Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, respublika sərhədi təsvirinin müvafiq sahələrdə Ermənistan SSR nümayəndələri ilə birlikdə naturaya keçirilməsini 1969-cu il noyabrın 1-dək təmin etsin. Azərbaycan KP MK Bürosunun 1969-cu il 21 may tarixdə keçirilən iclasında (pr. №100, 4-q) iki respublika arasında sərhədlərin coğrafi təsvirini təsdiq etməyə dair Azərbaycan SSR Ali Sovetinin qərar layihəsi bəyənildi [246, 326–327; 130, v.90].

Lakin 1968-ci il 28 oktyabr tarixli qərarı ilə müəyyən edilmiş sərhədlər Gədəbəy rayonu Hacılar kəndinin Kalinin adına kənd təsərrüfatı artelinin kolxozçularının etirazına səbəb olmuş və onlar 1969-cu ilin iyun ayında müəyyən olunmuş sərhəd zolağından kənarda qalmış torpaqlarının onlara qaytarılmasını tələb etmişdilər. Bundan başqa, Azərbaycan SSR kolxozçuları Ermənistan SSR Şəmşəddin rayonunun Aygedzor kəndinin kolxozçuları tərəfindən rayon rəhbərliyinin xeyirduası ilə Azərbaycan SSR Gədəbəy rayonu Qaravəllər kəndindən 500–700 metr məsafədə mal-qara fermasının tikilməsinə öz etirazlarını bildirmişdilər. Nəzərə almaq lazımdır ki ferma Aygedzor kəndindən 45 km aralı tikilirdi [130, v.63]. Tikinti işləri zamanı tikinti daşının əldə olunması məqsədilə yaxınlıqdakı qayanın partladılması işləri aparılırdı. Bunun nəticəsində qayadan qoparılmış qəlpələr Gədəbəy rayonu Hacılar kəndinin Kalinin adına kolxozunun əkin sahələrinə və ot tayalarına səpələnmişdi. Azərbaycanlı əhalini gözlənilən təhlükə haqqında qabaqcadan xəbərdar etmədən aparılan partlama işləri zamanı yaxınlıqda işləyən kolxozçuların bədən xəsarəti alması və heyvanın tələf olunması halları qeydə alınmışdı [130, v.70–74]. Şəmşəddin rayon partiya komitəsi katibinə və Ermənistan KP MK-ya çoxsaylı müraciətlər heç bir nəticə verməmişdi. Ona görə də, əsasən, Azərbaycan SSR Gədəbəy rayonunun Qaravəllər kənd sakinlərindən olan 41 nəfər kolxozçudan ibarət nümayəndə heyəti Moskvaya getməyə məcbur olmuşdu [130, 61]. Moskvada azərbaycanlı kolxozçuların

keçirdiyi görüşlər zamanı etdikləri şikayətlərin məzmunu və onlara partiya və dövlət rəsmilərinin reaksiyası haqqında məlumat 1969-cu il iyunun 19-da Azərbaycan SSR-in Moskvada Daimi nümayəndəsi E.Hüseynov tərəfindən Azərbaycan KP MK-nın birinci katibi V.Axundova hazırlanan geniş məruzədə verilmişdi. Məruzədə göstərilirdi ki 1969-cu il iyunun 16-da Moskvaya gəlmiş şikayətçilər Sovet İttifaqı KP MK-ya gedərək Baş katib L.Brejnev və ya hökumətin sədri A.Kosıginin qəbuluna düşməyə çalışmışlar. Bütün cəhdlərə baxmayaraq, şikayətçilərlə Sovet İttifaqı KP MK partiya-təşkilat işləri üzrə şöbənin təlimatçısı A.İ.Kisilyov Azərbaycan KP Gədəbəy Rayon Partiya Komitəsinin katibi T.Allahverdiyevin iştirakı ilə görüş keçirmişdi. Görüş zamanı şikayətçilər bildirmişdilər: «Ermənistanın Şəmşəddin rayonu rəhbərliyi yuxarıların razılığı ilə kolxozçuların torpaqlarını əllərindən alaraq onları aclığa və səfalətə düçar etmişlər. Ermənilər bizim torpaqlara donuz sürüləri (200 baş) gətirmişlər ki, onlar da bütün əkin sahələrini məhv etmişlər və bizim bağlarımıza və təsərrüfatımıza ziyan vurmaqda davam edirlər. Bizi başqa yerə köçməyə məcbur edirlər. Biz başa düşmürük ki, niyə görə öz evlərimizi, bağlarımızı, ata-babalarımızın və ulu əcdadlarımızın qəbirlərini qoyub başqa yerə köçməliyik. Axı bunu bizdən, hətta çarlıq dövründə tələb etməyiblər? Aygedzor sakinləri bizim üzərimizə basqınlar təşkil edirlər, bizim adamları döyürlər, bizim milli hisslərimizi təhqir edirlər, bizim insani mənliyimizi alçaldılar, həmişə bizi davaya və qalmaqala təhrik edirlər». Şikayətçilərin iddiasına görə, bütün bu özbaşınalıqların əsas günahkarı Ermənistan SSR Şəmşəddin Rayon Partiya Komitəsinin katibi Avakyandır: «O, bizim kolxozçulara qarşı silahlı basqınlar təşkil etmişdi. Nəticədə bizim adamlar yaşından və cinsindən asılı olmayaraq vəhşicəsinə döyülmüş, bəziləri girov götürülmüş və döyüldükdən sonra gücləri olmadığı üçün, sürüyə-sürüyə Şəmşəddin rayon mərkəzinə gətirilmişdilər (onları maşınlara və traktorlara bağlayaraq yerlə sürüyürdülər). Onların bir çoxları uzun müddət xəstəxanada qaldıqdan sonra tam sağalmamış əlil olmuşdular». Çıxış edənlərin şikayətini dinlədikdən sonra A.Kisilyov bildirmişdi ki, Sovet İttifaqı KP MK tərəfindən Azərbaycan və Ermənistan KP MK-ya kolxozçuların şikayətlərinə baxılması və bütün məsələlərin həll edilməsinə dair xüsusi təlimatlar verilmişdir [130, vv.70–74].

Heydər Əliyev 1996-cı il iyunun 21-də Azərbaycanın görkəmli alimi və dövlət xadimi, 1959–1969-cu illərdə Azərbaycan KP MK-nın birinci katibi olmuş Vəli Axundovun anadan olmasının 80 illiyinə həsr olunmuş yubiley yığıncağında çıxışı zamanı 1968–1969-cu illərdə Ermənistan SSR ilə Azərbaycan SSR arasında baş vermiş sərhəd mübahisəsini belə xatırlayırdı: «Ermənistan çalışırdı ki, Azərbaycanın Ermənistanla sərhəd rayonlarında bəzi torpaqlarımızı öz torpaqları kimi əllərinə keçirsinlər. Onlar köhnə xəritələri – 28-ci ilin, yaxud da 29-cu ilin xəritələrini ortaya çıxarmışdılar. İki-üç il danışıqlar getdi. Bu danışıqları tək Vəli Axundov deyil, Məmməd İsgəndərov, Ənvər Əlixanov, ikinci katib Yelistratov birlikdə aparırdılar. Təəssüf ki, bu danışıqlar nəticəsində 1969-cu ilin may ayında Azərbaycanın Ali Soveti elə bir qərar qəbul etmişdi ki, həmin sərhədyanı torpaqlar guya Ermənistana mənsubdur və ona verilməlidir. Mən iyul ayında Azərbaycana rəhbər seçilən kimi bu məsələni bir ay müddətində təhlil etdim və həmin qərardan imtina etdim. Çox çalışdılar ki, bu qərar həyata keçirilsin, lakin mən buna imkan vermədim» [46, 454]. Arxiv sənədlərindən məlum olur ki Heydər Əliyev Azərbaycan SSR-ə rəhbər seçiləndən bir həftə sonra, 1969-cu il iyulun 22-də Azərbaycan KP MK Bürosunun iclasında Gədəbəy rayonunun kolxozları ətrafında yaranmış ağır vəziyyət haqqında məsələni cəsarətlə qaldırmış və müzakirə etmişdi. Nəticədə, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin və Azərbaycan SSR Nazirlər Sovetinin Sədri Ə.Əlixanovun imzası ilə Gədəbəy rayonu kolxozlarının iqtisadiyyatının dirçəldilməsi, sosial problemlərinin həlli məqsədilə 9 maddədən ibarət geniş tədbirlər planını nəzərdə tutan xüsusi qərar qəbul edilmişdi. Qərarın yerinə yetirilməsinin gedişatı haqqında 1969-cu il dekabrın 15-nə məlumat hazırlamaq Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinə tapşırılmışdı [129, v.28–30]. Tezliklə Ermənistan SSR ilə münaqişə də həllin tapmışdı. 1990-cı ildə «Ulduz» jurnalının xüsusi müxbiri Elmira Əhmədovaya verdiyi müsahibədə Heydər Əliyev bu məsələyə yenidən toxunaraq demişdir: «1969-cu ilin sentyabrında Ermənistan KP-nin birinci katibi Anton Koçinyana zəng edib onunla görüşmək istədiyimi bildirdim. Görüşümüz Qazax rayonu ilə İcevan rayonunun sərhədində oldu. Mən məsələni qəti qoydum və Koçinyana təklif etdim ki, Ermənistandakı millətçi adamları öz ərazi iddialarından çəkindirmək üçün əməli,

konkret əməli iş görsün. Mənim fikrimcə, bu görüş faydalı oldu» [38]. 1969-cu il oktyabr ayının sonunda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev, Ermənistan KP MK-nın birinci katibi A.Koçinyanın və SSRİ Kənd Təsərrüfatı naziri V.Maskeviçin imzaları ilə xüsusi qərar qəbul edilmişdi. Qərarda deyilirdi: «Şəmşəddin rayonu Aygedzor kolxozunun sərhədyanı torpaqlardan istifadəsi arzuedilməz mübahisələrə səbəb olduğu üçün Qaravellər kəndinin şimal-qərb hissəsi və Məmmədcəfərli kəndinin qərb hissəsi tərəfindən respublika sərhədlərinə bitişən 46 ha torpaq sahəsi müvəqqəti olaraq Gədəbəy rayonu Kalinin adına kolxoza təhkim edilsin. Hal-hazırda Gədəbəy rayonunun kolxozlarının istifadəsində olan Ceyrançöl massivinin 100 hektar hüdudlarında olan qışlaqlar müvəqqəti olaraq Şəmşəddin rayonunun Aygedzor kolxozuna təhkim edilsin». Sənədin 3 maddəsinə görə erməni tərəfinə mal-qara fermasının tikintisinin sərhəddən uzaqlaşdırılması tapşırılırdı [134, v.12–13]. Ermənistan SSR Nazirlər Soveti 1969-cu il 26 dekabr tarixli qərarı ilə əldə olunmuş razılaşmanı təsdiq etmişdi [139, v.31]. Beləliklə, münaqişə nizama salınmışdı və Ermənistan SSR rəhbərliyi məsələnin kəskinləşməsinə cəsarət etməyərək, sovet qanunçuluğu çərçivəsində onun həlli ilə razılaşmağa məcbur olmuşdu. Digər tərəfdən Moskva gələcəkdə buna bənzər lokal münaqişələrin arzuolunmaz nəticə verəcəyindən ehtiyatlanaraq dərhal məsələyə müdaxilə edib tərəflərdən, əldə olunmuş razılaşmaya sadiq qalacaqları haqqında yazılı zəmanət almışdı. Azərbaycan SSR rəhbərliyinə isə bu münaqişə növbəti dəfə göstərdi ki, sayıqlığı heç vaxt itirmək olmaz və gələcəkdə də erməni tərəfinin yeni sürprizlərinə hazır olmaq lazımdır. Ermənistan SSR-in ərazi iddialarına toxunaraq Heydər Əliyev onları belə qiymətləndirmişdir: «Onlar bunu birbaşa demirdilər, lakin rəhbər işçilər vasitəsilə mənə çatdırırdılar ki, 20-ci illərdə sərhədlərin müəyyən olunmasında guya səhvlər buraxıldığı üçün Ermənistanın və Azərbaycanın xəritələri yenidən dəqiqləşdirilməlidir. Mən isə hamıya deyirdim ki bizim sərhədlər məlumdur, müəyyənləşmişdir və nə isə dəyişməyə ehtiyac yoxdur» [301, 608–609]. Onu da qeyd etmək lazımdır ki, 1982-ci ilin dekabrında Heydər Əliyev Moskvaya yeni vəzifəyə keçdikdən sonra iki respublika arasında yenidən sərhədlərin ayrı-ayrı sahələri üzrə mübahisələr yaranmışdı. Bununla bağlı erməni tarixçisi G.Mirzoyan öz işində Ermənistan SSR Nazirlər Soveti Sədrinin

sabiq müavini Vladimir Movsisyanın xatirələrinə müraciət edir: «1984-cü ilin oktyabrında Azərbaycan tərəfi ilə sərhəd məsələlərinin həlli üçün mən K.Dəmirçiyanın tapşırığı ilə İcevan və Noyemberyan rayonlarına getmişdim. Sovet İttifaqı KP MK-nın nəzarəti altında Doveh kəndində Ermənistan–Azərbaycan sərhədlərinin müxtəlif sahələrinin dəqiqləşdirilməsi və torpaqdan istifadənin qaydaya salınması üzrə işlər başlanmışdı. Bunun nəticəsində 1988-ci ildə respublikalar arasında imzalanmış protokola əsasən, Noyemberyandan Mehriyə qədər bütün sərhəd boyunca 14551 ha torpaq Ermənistana verilmişdi» [386]. Beləliklə, Heydər Əliyevdən sonra respublikanın yeni rəhbərliyi Moskvanın təzyiqlərinə tab gətirməyərək bir sıra əraziləri Ermənistan SSR-ə güzəştə getmişdi.

1969-cu ilin iyul ayında Azərbaycan SSR-ə rəhbər seçilən Heydər Əliyevin fəaliyyətinin prioritet istiqamətlərindən biri də kadr siyasəti idi. 1969-cu il MK-nın avqust plenumundan sonra bu sahədə aparılan işlər əsl inqilabi prosesə bənzəyirdi. Bu proseslər Azərbaycan SSR DQMV-dən də kənar keçmədi. Heydər Əliyev yaxşı başa düşürdü ki vilayət daxilində intizamı möhkəmlətmək və erməni separatçılığını neytrallaşdırmaq üçün muxtar vilayətin rəhbərliyində köklü dəyişikliklər aparmaq lazımdır. 1973-cü il oktyabrın 12-də Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Partiya Komitəsi plenumunun qərarı ilə Qurqen Melkumyan vəzifəsindən azad olunaraq onun yerinə, Heydər Əliyevin təklifi ilə, Bakı şəhəri Kirov rayonunun (indiki Binəqədi rayonu) keçmiş partiya katibi Boris Gevorkov seçilmişdi [179, v.15]. Azərbaycan SSR DQMV tarixində ilk dəfə olaraq birinci katib vəzifəsinə təyin edilən şəxs nə Qarabağ ermənisi idi, nə də Ermənistan SSR-dən göndərilmiş namizəd idi. B.Gevorkov bu vəzifədə öz sələflərindən ən çox – 15 il qalmış və həmin vəzifədən 1988-ci ilin fevralında – Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlanmasından sonra azad edilmişdi. Sonralar Rusiya Federasiyasından olan jurnalist Andrey Karaulova verdiyi çoxsaylı müsahibələrindən birində bu təyinata münasibətini bildirən H.Əliyev demişdir: «Dağlıq Qarabağ muxtar vilayətinin bütün rəhbərləri erməni idi. Hesab edirəm ki onlar düzgün siyasət aparıblar və rəhbərliyi düzgün həyata keçiriblər və mən DQMV rəhbərliyi tərəfindən hər hansı qərara əməl etməmək hallarını müşahidə etməmişəm» [371, 251–252]. Bu dövrdə həyata keçiri-

lən digər vəzifə dəyişikliklərini H.Əliyev belə xatırlayırdı: «Mən ilk dəfə Dağlıq Qarabağda ikinci katibi rus seçirdim ki, heç olmasa, bir az fəaliyyət göstərsin. Vilayət Soveti sədrinin birinci müavinini azərbaycanlı təyin elədim» [280].

Uzun illər respublikanın təhlükəsizlik orqanlarında rəhbər vəzifələr tutmuş general İlhüseyn Hüseynov 70-ci illərdə ermənilərin Azərbaycan SSR-ə qarşı ərazi iddialarını belə xatırlayırdı: «70-ci illər onunla səciyyəvi idi ki, bu dövrdə erməni millətçiləri Qarabağın Ermənistanın tarixi torpağı olduğu məsələsini açıq şəkildə qaldırırdılar. Bu işi, əsasən, vilayətin bir qrup ziyalısı və gəncləri aparırdı, onların fəaliyyətini isə Yerevanın millətçi dairələri istiqamətləndirirdi. DTK materiallarına görə, təkcə 1972–1974-cü illər ərzində vilayət ərazisində erməni millətindən olan 35 şəxs yoxlanılmış, onların bir qisminə rəsmi xəbərdarlıq edilmişdi» [357, 57–58].

Zamanın nəbzini tutmağı bacaran erməni millətçiləri Azərbaycan SSR ilə sərhədlərin yenidən baxılması məsələsini, adətən, respublikada və ölkədə mühüm siyasi dəyişikliklər və ya əlamətdar tarixi hadisələrin qeyd olunması ərəfəsində qaldırırdılar. 1972-ci ildə bütün ölkədə SSRİ-nin yaranmasının 50 illiyinə, 1973-cü ildə Azərbaycan SSR tərkibində DQMV yaradılmasının 50 illiyinə hazırlıq işləri gedərkən də belə olmuşdu. 1972-ci ildə İrəvandan Moskvaya, Sovet İttifaqı KP MK-nın Baş katibi L.Brejnevə erməni ziyalılarının nümayəndələri tərəfindən göndərilmiş məktubda Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-dən ayrı qalmasının məqsədəuyğun olmadığı qeyd olunurdu. Məktubda məsələnin qısa tarixi arayışını verən onun müəllifləri V.Zinovyevi, M.C.Bağırovu və L.P.Beriyanı «Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında Bakı Sovetinin 1920-ci il 1 dekabr Bəyannaməsi»nin və «1921-ci ildə Ermənistan ilə Azərbaycan arasında əldə olunmuş razılaşmanın» pozulmasının əsas günahkarları kimi göstərmişdilər. Məktubun müəllifləri tərəfindən milli məsələlərin həllində bütün günahların məhz bu şəxslərin boynuna qoyulması təsadüfi deyildi. L.İ.Brejnevin ölkə rəhbərliyinə gəlməsi ilə N.S.Xruşşovun «mülayimləşmə» siyasətinə son qoyuldu və sovet cəmiyyətində İ.Stalini ittiham etməkdən əl çəkildi. Lakin V.Zinovyev, xüsusilə də L.P.Beriya və M.C.Bağırov kimi İ.Stalin rejiminə sədaqətlə xidmət etmiş tarixi şəxslər üzərindən damğalar götürülməmişdi. Məktubun müəl-

lifləri belə bir qənaətə gəlirlər ki, «respublikaların sərhədlərində kiçik dəyişikliklər», yəni Azərbaycan SSR tərkibindən Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistan SSR-ə verilməsi «iki qardaş xalqın dostluğuna xələl gətirməz, çünki Sovet hakimiyyəti 50 il ərzində bizim xalqları beynəlmiləlçilik ruhunda tərbiyə etmişdi». Misal kimi, məktubda SSRİ Ali Sovetinin 1972-ci ilin yanvar-fevral aylarında Özbəkistan SSR ilə Qırğızıstan SSR, Özbəkistan SSR ilə Tacikistan SSR arasında qismən sərhəd dəyişiklikləri haqqında qərarlar göstərilirdi. Məktubun sonunda onun müəllifləri bir daha Sovetlər İttifaqının yaradılmasının 50 illiyi münasibətilə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Sovet Ermənistanına birləşdirilməsinə dair məsələnin müsbət həllinə ümid etdiklərini bildirirdilər [308, 84–85].

Təxminən eyni vaxta L.İ.Brejnevin ünvanına Azərbaycan SSR DQMV ictimaiyyəti nümayəndələrinin müraciəti göndərilmişdi. Müraciətin müəllifləri Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR tərkibinə verilməsini tələb etməklə yanaşı, tarixən ermənilərin böyük rus xalqına həmişə sadiq olduğunu, müsəlmanlara etibar yoxdur, kimi fikirləri səsləndirməyi unutmamışdılar. Həqiqəti şişirtməklə arzularını həqiqət kimi qələmə verməyə çalışan müraciət müəllifləri 50 il ərzində vilayətin həyatında baş vermiş müsbət dəyişiklərə göz yumaraq onları tamamilə inkar etməyə çalışırdılar. Bununla bağlı müraciətdə deyilirdi: «Moskvanın etimadından və qarışmamasından sui-istifadə edən respublika rəhbərliyi Qarabağın nəinki ərazisini, hətta hüquqlarını azaltmağa çalışır. Qarabağa qalmış cüzi torpaqlar, tədricən, lakin planlı şəkildə kəsilərək Azərbaycanın qonşu düzən rayonlarına birləşdirilir. Hətta çayların belə Qarabağ torpağını suvarmaq imkanı yoxdur. Su resurslarının çox cüzi hissəsi onun torpaqlarını hopdurmaq imkanına malikdir. Qarabağın bağları və əkin sahələri susuzluqdan məhv olduğu halda, respublikanın qonşu rayonlarında cənnət hökm sürür. Onların nazından asılıdır Qarabağın meyvəylə, tərəvəzlə, taxılla və digər məhsullarla təmin olunması. Bu az kimi, son vaxtlar Qarabağda azərbaycanlıların məskunlaşması artmışdı. Aydındır ki, bundan sonra Qarabağın erməni əhalisinin İttifaqın müxtəlif bölgələrinə mühacirəti güclənmişdi. Ona görə gedirlər ki, ailəni saxlamaq, …getdikcə öz dilini və adətlərini qorumaq çətinləşir»

və s. Çox maraqlıdır ki məktub müəllifləri öz fantaziyalarında nə qədər uzağa getdiklərini hiss edib, müraciətin bu tonda yazılmasına təəccüb etməməyi xahiş edirlər. Müraciətin sonunda müəlliflər vilayətin rəhbərliyini Dağlıq Qarabağda yaranmış vəziyyətə baxmayaraq, bununla barışmağı və susmağı üstün tutduqlarına görə ittiham etmişdilər [308, 85–90].

Erməni millətçiləri Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti ərazilərinə olan iddialarını əsaslandırmaq üçün guya Azərbaycan SSR-in digər rayonları ilə müqayisədə vilayətin iqtisadi cəhətdən geriliyi və kapital qoyuluşunun azlığı, erməni əhalisinin siyasi və mədəni hüquqlarının məhdudlaşdırılması, Azərbaycan SSR rəhbərliyinin muxtar vilayətdən erməni əhalisini sıxışdırması və azərbaycanlıların yerləşdirilməsi yolu ilə demoqrafik vəziyyəti dəyişmək cəhdləri haqqında hər cür yalan və böhtanlarla dolu məktubları sonralar da Moskvaya mərkəzi partiya və dövlət rəhbərliyinə göndərirdilər. Sözsüz ki, bütün bunlar ancaq bəhanə idi və onların əsas məqsədi Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisini Azərbaycan SSR-dən ayırmaq üçün respublika rəhbərliyini Mərkəzin gözündən salmaq idi. Andrey Karaulova verdiyi müsahibəsində rusiyalı jurnalistin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranması səbəblərini öyrənmək məqsədilə verdiyi sualını cavablandıran Heydər Əliyev demişdir: «Əfsuslar olsun ki vilayətdə vəziyyət gərginləşəndən sonra belə bir fikir yaranmışdı ki, münaqişənin əsas səbəbləri kimi Dağlıq Qarabağın sosial-iqtisadi sahədə geriliyi, guya keçmiş respublika rəhbərliyinin DQMV problemlərinə, onun əhalisinə qarşı etinasızlığı göstərilir». Heydər Əliyev Azərbaycan SSR DQMV-nin 70–80-ci illərdə sosial-iqtisadi inkişafını sübut edən konkret faktlar misal gətirərək erməni millətçilərinin ittihamlarını alt-üst etmişdi: «DQMV sosial-iqtisadi göstəriciləri Azərbaycanın və Ermənistanın orta respublika göstəricilərindən yüksək idi. Məhz 70–80-ci illərdə vilayətin iqtisadiyyatı tam gücü ilə inkişaf etmişdi. Vilayətin mərkəzinə kimi dəmir yolu, gözəl vağzal, hava limanı tikilmişdi – biz Xankəndi, Bakı və İrəvan arasında daimi reyslər açmışdıq. Mən Dəmirçiyana zəng etdim və biz belə bir razılığa gəldik ki reysləri Azərbaycanın və Ermənistanın hava yolları həyata keçirəcək. Görürsüz ki, biz məsələləri bütün xırdalığına kimi düşünürdük. Ayaqqabı fabriki, elektrotexnika

zavodu, elektron sənayesi üçün kondensatorlar zavodu, kənd təsərrüfatı maşınqayırması zavodu və digər sənaye müəssisələri açılmışdı. Kənd təsərrüfatı sahəsində də çoxlu işlər görülmüşdü. İki elektrik su anbarı, suvarma kanalları tikilmişdi ki, onlar da iki rayonun su təchizatını yaxşılaşdırmışdı. Üzüm istehsalı 70-ci illərdə 50 min tondan 80-ci illərdə 120–130 min tona kimi yüksəlmişdi. Heyvandarlıqda istehsal təxminən iki dəfə artmışdı. Əhalisinin sayı cəmi 170 min adam olan kiçik bir vilayət üçün bu, az deyildi. Sosial-mədəni sahədə də az iş görülməmişdi. Xankəndidə biz pedaqoji institut açdıq. Belə bir kiçik vilayətdə ona olan bilsin ki tələbat yox idi, lakin biz yaradıcı ziyalıların arzusunu yerinə yetirdik. Dərslər erməni dilində aparılırdı. Mən artıq qeyd etdim ki, yaşayış evləri, məktəblər, poliklinikalar tikilirdi, dram teatrı rekonstruksiya edilərək yeni avadanlıqla təchiz edilmişdi. Böyük siyasi maarif evi açmışdıq, mən şəxsən onun tikintisi zamanı orada olmuşdum. Yeni heykəllər qoyulmuşdu. Bir çox incəsənət xadimlərinə Azərbaycanın xalq və əməkdar artistləri fəxri adları verilmişdi. Hər il DQMV gəncləri müsabiqədənkənar Azərbaycanın və ölkənin ali təhsil ocaqlarına qəbul olunurdular. Şuşa şəhərində böyük kilsə var idi. 1918-ci ildə o dağıdılmışdı. Biz Ermənistandan ustalar dəvət edərək onu tam bərpa etdik. Ermənistan ilə DQMV arasında mədəni əlaqələr xeyli canlandı və biz bunun üçün şərait yaradırdıq. Muxtar vilayətə tez-tez Ermənistanın müxtəlif nazirliklərinin və idarələrinin rəhbərləri, mədəniyyət xadimləri, alimləri gəlirdilər. Ona görə məhdudiyyətlər haqqında bütün söhbətlər əsassızdır» [371, 251–252]. Heydər Əliyevin Dağlıq Qarabağa hər gəlişi, – hətta hərdən ildə bir neçə dəfə, – muxtar vilayətin həyatında əlamətdar hadisəyə çevrilirdi, çünki yeni sənaye və sosial obyektlərin, yolların açılması ilə müşahidə olunurdu, onun mədəni həyatına böyük töhfə olurdu. 1973-cü ilin oktyabrında Dağlıq Qarabağ Muxtar Vilayətinin keçici Qırmızı Bayraq ordeni ilə təltif olunması münasibətilə Heydər Əliyev Xankəndidə olmuşdu. Bundan bir ay sonra Heydər Əliyev Azərbaycan SSR DQMV-nin yaradılmasının 50 illiyi münasibətilə Azərbaycan SSR Dağlıq Qarabağ Partiya Komitəsinin və Vilayət Deputatları Sovetinin keçirilən təntənəli iclasında iştirak etmişdi. Bu tarixi hadisə münasibətilə DQMV Lenin və Xalqlar dostluğu ordenləri ilə təltif olunmuşdu. DQMV bu səfərini Heydər Əliyev sonralar belə xatırlayırdı: «Bir faktı da xatırladım.

DQMV-nin 50 illik yubileyi idi. Vilayət Xalqlar dostluğu ordeni ilə təltif olunurdu, oradakı çıxışımda bir cümləni erməni millətçiləri indi də mənə bağışlaya bilmirlər. Mən bəzi əhval-ruhiyyələri hiss edərək demişdim ki, «DQMV Azərbaycanın ayrılmaz hissəsidir və ayrılmaz hissəsi olaraq qalacaq…» [38].

Sonralar, daha doğrusu, 1988–1993-cü illərdə Azərbaycanın siyasi səhnəsində yaradılmış xaosdan istifadə edən kəmsavad siyasətbazlar, içərimizdən olan bəzi ünsürlər Heydər Əliyevi DQMV-yə həddindən artıq diqqət yetirilməsində günahlandırmışdılar. 2001-ci il fevralın 23-də Azərbaycan Respublikası Milli Məclisində çıxışı zamanı Prezident Heydər Əliyev bu ittihamları belə cavablandırmışdır: «Mən Azərbaycana rəhbərlik etdiyim zaman, – bunu açıq demək lazımdır, – biz Dağlıq Qarabağa daha çox iqtisadi cəhətdən şərait yaradırdıq, onların iqtisadiyyatının inkişaf etməsinə üstünlük verirdik. Çünki daim məsələ qalxırdı ki, guya Dağlıq Qarabağı Azərbaycanda sıxışdırırlar və ermənilər Dağlıq Qarabağda inkişaf edə bilmir. Azərbaycanın bütövlüyünü saxlamaq, bütün ərazisini qorumaq üçün biz o vaxtlar, yenə də deyirəm, Dağlıq Qarabağa daha da çox diqqət yetirirdik. Doğrudur, sonra bəzi diletant adamlar məni günahlandırırdılar ki, bunu nə üçün edirdim. Mən bu gün də deyirəm, edirdim. Edirdim, ona görə ki, Dağlıq Qarabağa, ermənilərə imkan verməyək ki, bu məsələni qaldırsınlar» [281]. O ki qaldı vilayətdə demoqrafik vəziyyətin dəyişməsinə, Heydər Əliyev Milli Məclisin həmin iclasında bu məsələyə də aydınlıq gətirmişdir: «Bu münaqişə başlanandan sonra mətbuatda, SSRİ mətbuatında məni yenə də günahlandırdılar ki, Azərbaycana rəhbərlik etdiyim zaman guya erməniləri sıxışdırmışam, oradakı demoqrafik vəziyyəti dəyişdirmişəm, ermənilərin oradan çıxması üçün müəyyən tədbirlər görmüşəm və ermənilər Dağlıq Qarabağda azalıblar. Azərbaycanın başqa yerlərində azaldıqları kimi, Dağlıq Qarabağda da azalıblar. Bunu ermənilər deyirdilər və hətta o vaxtlar bu məsələlər SSRİ Ali Sovetinin sessiyasında müzakirə olunanda onların nümayəndələri, hətta Ermənistan Elmlər Akademiyasının prezidenti Ambarsumyan, – biz vaxtilə onu Azərbaycan Elmlər Akademiyasının fəxri üzvü seçmişdik, o cümlədən dostluğu möhkəmləndirmək üçün Gürcüstan Elmlər Akademiyasının üzvü seçilmişdi, – mənim adımı çəkirdi. O söz indiyə qədər yadımdadır ki, Heydər Əliyev Dağlıq Qarabağı, Azər-

baycanı ardıcıl surətdə ermənilərdən təmizləmişdir. Mən buna təəccüb etmirdim, amma ona təəccüb edirdim ki, o vaxt Azərbaycanda çoxları yenə də Əliyevi günahlandırır və həmin o sözlərlə razılaşırdılar» [281]. Qeyd etmək lazımdır ki, bəzi xarici ölkə tarixçiləri də Heydər Əliyevin Azərbaycan SSR-in DQMV-də 70–80-ci illərində həyata keçirdiyi tədbirlərin antierməni xarakteri daşıdığını, onun sovet rəhbəri ilə yaxın olmasını bu siyasətinə göz yumulmasının əsas səbəbi kimi göstərirlər. ABŞ tarixçisi A.D.Ağostino yazır ki, Heydər Əliyevin hakimiyyəti altında sovet Azərbaycanı Dağlıq Qarabağa azərbaycanlıları yerləşdirirdi. Digər ABŞ tarixçisi A.Benniqsen isə yazırdı ki, Azərbaycan Kommunist Partiyasının antierməni siyasətinə mərkəzi sovet hökuməti laqeyd yanaşırdı [246, 337–338].

Lakin Muxtar Vilayətin etnik tərkibində baş verən dəyişikliklər XX əsrin 60–80-ci illərində Azərbaycan SSR-in sosial-iqtisadi həyatında gedən obyektiv proseslərlə bilavasitə bağlı idi. 1970-ci ildə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin sayı müharibədən əvvəlki səviyyəyə çatmışdı. Eyni zamanda azərbaycanlı əhalinin tərkibində müşahidə olunan artımı, bir tərəfdən, ermənilərlə müqayisədə azərbaycanlılar arasında təbii artımın ənənəvi olaraq yüksək olması ilə bağlı idisə, digər tərəfdən, ermənilərin DQMV-dən kənara miqrasiyasının artması ilə bağlı idi. Belə ki, 1970–1979-cu illər ərzində DQMV əhalisi 12 min nəfər artmışdı. Bu artım içərisində ermənilər 2 min nəfər təşkil etdiyi halda, azərbaycanlılar 10 min nəfər təşkil edirdi [263, 46–47]. Ermənilərin miqrasiyasının səbəb və xüsusiyyətlərinə gəldikdə, qeyd etmək lazımdır ki, bunlar, əsasən, urbanizasiya prosesləri ilə sıx bağlı idi. Əgər XX əsrin 60-cı illərinə qədər ermənilərin miqrasiyası, əsasən, Bakıya və respublikanın digər sənaye mərkəzlərinə istiqamətlənmişdisə, 60–80-ci illərdə bu istiqamət artıq dəyişərək Azərbaycan SSR-dən kənara, əsasən, Ermənistan SSR tərəfə yönəlmişdi. Miqrasiya proseslərində baş verən bu cür dəyişiklikləri 50-ci illərin sonlarından başlayaraq Azərbaycan SSR-in milli inkişafında meydana gələn bir sıra yeni meyillərlə bağlamaq lazımdır. Belə ki, 1959-cu ildə kolxozçulara pasportların verilməsi və onların üzərindən yerlərini tərk edərək şəhərə köçmək qadağasının götürülməsi 60-cı illərin əvvəllərindən başlayaraq Azərbaycan SSR-in kəndli əhalisinin respublikanın sənaye mərkəzlərinə və əsasən də Bakıya axınını gücləndirdi. Bu

proses Azərbaycan dilinin istifadə əhatəsinin xeyli genişlənməsinə, rus dilinin isə azalmasına gətirib çıxarmışdı. 1970–1979-cu illərdə Azərbaycan SSR-də keçirilmiş əhalinin siyahıyaalınmasının nəticələri göstərir ki əhalinin tərkibində titul millətin ümumi çəkisinin artması qeyri-millətlərin sayının azalmasına gətirib çıxarırdı. Respublikanı tərk etmək istəməyən və ya buna imkanı olmayanlar Azərbaycan dilinin əhəmiyyətinin artması şəraitinə adaptasiya problemini özü üçün həll etməli idi. Azərbaycanın, o cümlədən DQMV-nin erməni əhalisi arasında yeni inkişaf prosesləri iki meyilin yaranmasına gətirib çıxardı. Bir tərəfdən, əsasən, Yerevandan qızışdırılan ermənilərlə azərbaycanlılar arasında münasibətlər kəskinləşir, digər tərəfdən isə ermənilərin DQMV miqrasiyasının istiqaməti dəyişirdi. Sonuncu proses tam könüllü hal almışdı və nə respublika rəhbərliyi, nə də azərbaycanlı əhalinin təzyiqi olmadan gedirdi. Ermənilərin Ermənistan SSR-ə miqrasiyası sırf dil və dini amillərlə birbaşa bağlı idi. Rusdilli ermənilər isə Ermənistana yox, əsasən, RSFSR və Sovetlər İttifaqının Avropa hissəsinin digər bölgələrinə köçürdülər. Aydındır ki bu cür miqrasiya erməni əhalisi arasında təbii artıma mənfi təsir göstərirdi. Bununla yanaşı, Azərbaycan SSR DQMV-nin azərbaycanlı əhalisi arasında artım müşahidə olunurdu. Bu artım təkcə təbii deyil, eyni zamanda mexaniki xarakter daşıyırdı. Azərbaycanlılar, əsasən, Muxtar Vilayətlə qonşu olan rayonlardan köçürdülər. Belə ki, əgər 1970–1979-cu illər ərzində Azərbaycan SSR-də azərbaycanlıların sayı 25% artmışdısa, DQMV-də bu göstərici 37%-ə bərabər idi [263, 47]. Azərbaycanlıların DQMV ərazisinə miqrasiyası, əsasən, sosial-iqtisadi və mənəvi amillərlə bağlı idi və ilk növbədə Muxtar Vilayət iqtisadiyyatına iri kapital qoyuluşu ilə DQMV-dən köçən ermənilərin azad olunmuş iş yerlərini azərbaycanlılar tuturdu. Bununla yanaşı kadr siyasətində və Muxtar Vilayətdə hakimiyyət strukturlarının milli tərkibində ermənilər sayca azərbaycanlılardan çoxluq təşkil edirdi. Belə ki, Muxtar Vilayətin sovetlərinin tərkibi, bir qayda olaraq, yerli partiya komitəsi rəhbərliyi tərəfindən tərtib olunurdu və nəticədə (Şuşadan başqa) 90–98 % ermənilərdən ibarət idi. Vilayət Partiya Komitəsinin 165 üzvündən cəmi 24-ü, DQMV (Şuşasız) ilk partiya təşkilatlarının 456 katibindən isə cəmi 30-u azərbaycanlı idi. Vilayət Partiya Komitəsinin aparatı, demək olar ki, 100% ermənilərdən ibarət idi. Azərbaycanlıların DQMV əhalisinin tərkibində

say çəkisi yerli həmkarlar ittifaqlarında, komsomol, milis və xalq nəzarəti orqanlarında sayı ilə müqayisədə xeyli az idi [270].

1975-ci il martın 21-də keçirilən Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin plenumunda erməni millətçi ünsürlərinin tənqid edilməsi vilayətdə yenidən vəziyyəti gərginləşdirdi. Millətçi ünsürlərin bu cür reaksiyasına əsas səbəb vilayətdə sabitliyin pozulmasında maraqlı olan separatizm və antiazərbaycan təbliğatı ilə məşğul olan şəxslərin adlarının çəkməsi idi.

«Sovet Qarabağı» qəzetinin 1975-ci il 23 mart tarixli sayında dərc olunmuş Vilayət Partiya Komitəsinin plenumunun materialları erməni millətçi dairələrinə yenidən Dağlıq Qarabağ məsələsi ətrafında səs-küy qaldırmaq üçün bəhanə oldu. Moskvaya növbəti müraciət və məktub axını kampaniyası başladı. Onların müəllifləri arasında erməni yazıçıları S.Kaputikyan, L.Qurunsun və digərləri var idi. Çox maraqlıdır ki, L.Brejnevə ünvanlanan həmin məktublarda bu şəxslər Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Azərbaycan SSR tərkibindən çıxarılaraq Ermənistan SSR-ə verilməsi məsələsinin açıq şəkildə qoyulmasından çəkinirdilər. Onların heysiyyətinə daha çox toxunan o olmuşdu ki, DQMV KP birinci katibi erməni ola-ola, 1915-ci il hadisələrinin 60-cı ildönümünün Ermənistan SSR-də qeyd olunması ərəfəsində qondarma erməni soyqırımı məsələsinə münasibətini bildirərək Osmanlı imperiyasının Daxili İşlər naziri Tələt paşanın qatili olan erməni terrorçusu Soqomon Teyleriyanın hərəkətlərini pisləmişdi. Heydər Əliyev öz xatirələrində bu hadisələrdən sonra yaranmış vəziyyəti belə xatırlayırdı: «Millətçi ünsürlər yenidən baş qaldırdı və ilk növbədə, Gevorkovun eləcə də DQMV Partiya Komitəsinin əleyhinə cürbəcür hərəkətlər başlandı. Moskvaya, başqa yerlərə teleqramlar vuruldu, vəziyyət gərginləşdi. 2 ay sonra Moskvada Dəmirçiyanla görüşüb 4 saat söhbət etdik. Ona bildirdim ki , DQMV-nin problemlərini vilayətin və Azərbaycanın rəhbərliyi həll etməlidir. Qarabağın işlərinə ayrı-ayrı şəxslərin qarışması ümumi münasibətimizə ancaq ziyan vurar və biz buna yol verə bilmərik» [301, 597–598].

1977-ci ildə Praqada nəşr olunan və dünyanın 145 ölkəsində 32 dildə yayılan «Sülh və sosializm problemləri» jurnalının altıncı nömrəsində Hindistan Kommunist Partiyası Milli Şurasının üzvü Sarada Mitra və İraq Kommunist Partiyasının MK üzvü Adil Həbanın müəl-

ləri olduqları «Biz millətlər dostluğu gördük» adlı məqalələri dərc olunmuşdu. Müəlliflər Sovet İttifaqı KP MK-nın dəvətilə milli münasibətlərin inkişafı ilə tanış olmaq üçün Azərbaycan SSR-də olmuşdular. Bu səfər zamanı onlar məhz Azərbaycanda xalqlar dostluğunun real şəkildə mövcud olduğunu öz müsahibələrində xüsusilə qeyd etmişdilər.

1975-ci ildə Azərbaycanda SSRİ ədəbiyyatı günlərinin keçirilməsi ilə əlaqədar Bakıya 40-cı illərdən Azərbaycan xalqına öz düşmən münasibətilə tanınan erməni yazıçısı M.Şaginyan gəlmişdi. Bu həmin M.Şaginyan idi ki, onun 1946-cı ilin əvvəllərində Yerevanda «Sovet Zaqafqaziyası» kitabı nəşr edilmişdi. Müəllif tərəfindən həmin kitabda toplanmış Qarabağın və Cənubi Qafqazın keçmişindən bəhs edən oçerklər, bütövlükdə, azərbaycanlılara qarşı yönəlmiş, erməni xalqının tarixi keçmişini vəsf edən ideyalar üzərində qurulmuşdu. Oçerklərdə Azərbaycan xalqının tarixi ciddi şəkildə təhrif edilmişdi. O vaxt M.Şaginyanın kitabı Azərbaycan SSR rəhbərliyi, respublikanın elmi və yaradıcı ziyalıları tərəfindən böyük narahatlıqla qarşılanmışdı. Kitab Azərbaycan K(b)P MK-da müzakirə edildikdən sonra Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırov 1947-ci il iyul ayının 21-də ÜİK(b)P MK-nın katibi A.Jdanova onun haqqında geniş məktubla müraciət etmişdi. Məktubun sonunda M.C.Bağırov təklif edirdi ki, kitab satışdan yığışdırılsın. «Sovet Zaqafqaziyası» kitabı ilə bağlı M.C.Bağırovun məktubu və onun təklifi tezliklə öz nəticəsini vermişdi. M.Şaginyanın kitabı satış yerlərindən yığışdırılmış və onun özü bu barədə izahat verməli olmuşdu. Ermənistan SSR rəhbərliyi müəyyən düzəlişlərlə M.Şaginyanın kitabını saxlamağa cəhd göstərsə də, Moskvanın müdaxiləsi ilə onun çap olunmuş nüsxələri müsadirə edilmişdi [352, 466–470]. Heç şübhəsiz ki, Heydər Əliyevin M.Şaginyanın əslində kim olduğu və keçmiş «macəraları» haqqında məlumatı var idi. Məhz ona görə erməni yazıçısı ilə görüşünü Heydər Əliyev müsahibələrinin birində xüsusilə xatırlayır: «O, DQMV-də, Gəncə, Bakıda olmuş, erməni millətinin müxtəlif nümayəndələri, o cümlədən yazıçı və şairləri ilə görüşüb söhbət etmişdi. Səfəri başa çatdıqdan sonra onu evimə dəvət etdim. Onun söhbətindən iki məsələni sizin üçün qeyd etsəm, maraqlı olar. Birincisi, dedi ki, ermənilər Azərbaycanda «jivut, kak sır v masle katayetsa». İkincisi, dedi ki, Bakıya gəlməzdən əvvəl Yere-

vanda olub. Mehmanxanada qalarkən, yanına Ermənistanın bir qrup məşhur mədəniyyət xadimləri gəlmiş və bildirmişdilər ki, DQMV-nin Ermənistana verilməsi barədə Moskvaya məktub hazırlayıblar. M.Şaginyana da həmin məktuba qol çəkmək təklif etmişlər. M.Şaginyan dedi ki, hələ onda mən Azərbaycanda vəziyyətin bu cür olduğunu bilmirdim, buna baxmayaraq, razılıq vermədim və məsləhət gördüm ki, belə nalayiq işlərlə məşğul olmasınlar, bunlar axırsız oyunlardır» [38].

1977-ci ildə SSRİ-nin sayca üçüncü və tarixi ədəbiyyatda «Brejnev» Konstitusiyası adlanan Əsas Qanunun qəbuluna hazırlıq işləri gedirdi. 1936-cı ildə qəbul olunmuş sonuncu «Stalin» Konstitusiyasından sonra belə bir ənənə yaranmışdı ki, partiyanın birinci şəxsi Əsas Qanunu hazırlayan komissiyaya sədrlik edir. Bu fürsətdən istifadə edən erməni millətçiləri Moskvaya məktublar, müraciətlər göndərərək Dağlıq Qarabağ məsələsini yenidən qaldırmağa cəhdlər etdilər. Bu dövrü Heydər Əliyev belə xatırlayırdı: «1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olunurdu. Konstitusiya komissiyası təyin olunmuşdu, sədri Brejnev idi, biz də onun üzvü idik, mən də Azərbaycanın nümayəndəsi idim. Vaxtaşırı komissiyanın müzakirələri keçirdi. Bunları da o vaxt Mərkəzi Komitənin katibi vardı – akademik Ponomaryov, – o aparırdı. Brejnev o qədər iştirak eləmirdi. Bir dəfə Moskvaya, komissiyanın iclasına gəldim. Gördüm, xeyli ərizə gəlib ki, «Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənistana vermək lazımdır». Gördüm ki, Ponomaryov deyir, bunu komissiyanın müzakirəsinə qoymaq lazımdır, – ermənilər ona da təsir göstərirdilər. Elə bu faktın özü komissiyanın müzakirəsinə buraxılsın, başa düşürsünüzmü ki, bu nə deməkdir? Hələ komissiyanın iclasından bir gün qabaq mən buna nə qədər etiraz elədim, gördüm, yox... Yenə də getdim rəhmətlik Brejnevin yanına. Ona dedim ki, bu nədir, belə şey ola bilməz! O, telefonu götürüb Ponomaryova zəng elədi ki, çıxar onu» [280].

Heydər Əliyevin bu səylərinə baxmayaraq, erməni müraciətlərinin təsiri ilə 1977-ci il noyabrın 23-də SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin iclasının protokoluna belə bir maddə əlavə edilmişdi: «Müəyyən tarixi şərait üzündən bir neçə onillik əvvəl Dağlıq Qarabağ süni şəkildə Azərbaycana birləşdirilmişdir. O vaxt vilayətin tarixi keçmişi, milli tərkibi, xalqın istəyi və iqtisadi maraqları nəzərə alın-

mamışdı. Onilliklər keçməsinə baxmayaraq, Qarabağ məsələsi hallanmaqda davam edilərək, əsrlər boyu dostluq telləri ilə bağlı olan iki qonşu xalq arasında həyəcana və narahatlığa səbəb olur. Dağlıq Qarabağı Ermənistana birləşdirmək lazımdır. Onda hər şey öz yerini tutacaq» [308, 25]. Heydər Əliyevin bu məsələdən xəbəri var idi. Akademik İqrar Əliyev xatırlayır ki, 1977-ci ilin sonunda Heydər Əliyev onu yanına dəvət edərək demişdir: «Ermənilər ölkə rəhbərliyi qarşısında Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsini qaldırıblar. Bu məsələ ilə bağlı əsaslı bir arayış hazırlamaq lazımdır». Onda akademik Heydər Əliyevə xatırlatdı ki, müharibədən sonra M.C.Bağırov üçün altı nəfər Azərbaycanın tarixçi aliminin iştirakı ilə (Ə.Əlizadə, M.Qazıyev, İ.Cəfərzadə, M.Şərifli, Q.Mehdiyev və İ.Əliyev) belə arayış hazırlanmışdı və onun tərtibində o da iştirak etmişdi. İqrar Əliyev həmin arayışın arxivdən axtarıb tapılması üçün Heydər Əliyevin göstəriş verməsini xahiş edir və o bunu belə xatırlayırdı: «Ertəsi gün Heydər Əliyev yenidən məni qəbul etdi. O, mənə 32 il əvvəl hazırlanan həmin arayışı uzatdı. On gün ərzində mən Dağlıq Qarabağ haqqında geniş arayış hazırladım və onu MK-ya təqdim etdim. Sabahısı gün həmin arayışın əsas müddəaları ilə mən Heydər Əliyevin sədrliyi ilə keçirilən Azərbaycan KP Mərkəzi Komitəsinin Büro iclasında məruzə ilə çıxış etdim. Mən çıxış etdiyim zaman Büro üzvlərindən biri mənə iki dəfə yerdən replika atdı və mən ona hər iki dəfə çox sərt cavab verdim. Lakin bu şəxsin kim olduğunu bilmirdim. Amma ona cavab verərkən gözüm Heydər Əliyevdə idi, üzündə təbəssüm var idi. Məruzəm müzakirə olunub qəbul edildikdən sonra Heydər Əliyev təklikdə məndən sərt cavab verdiyim şəxsin kim olduğunu soruşdu və mən onu tanımadığımı söylədim. O, mənə dedi ki, çox düz etdin və sərt cavab verdin. O, DQMV PK-nın birinci katibi B.Gevorkovdur. Sonralar mən bildim ki Heydər Əliyev ermənilərin Azərbaycan xalqına qarşı növbəti təxribatının qarşısını necə vaxtında ala bilmişdi» [212].

Ümumiyyətlə, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə əsl dövlət xadimi kimi öz vətəndaşlarının etnik mənsubiyyətinə heç bir fərq qoymadan bütün regionların inkişafına çalışırdı. Axı onlar hamısı bir dövlətin tərkibində yaşayırdılar və onun ümumi rifahı haqqında düşünürdülər. Həm Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlayanda, həm də sonralar Heydər Əliyev

inanırdı ki, bu məsələ DQMV-də yaranmamışdı. ABŞ-ın «Vaşinqton post» qəzetinin müxbiri Devid Remnika verdiyi müsahibədə Heydər Əliyev bu məsələ ilə bağlı demişdir: «Respublikaya rəhbərlik etdiyim 14 il ərzində mən hər il, bəzən ildə bir neçə dəfə Dağlıq Qarabağda olurdum və bu muxtar vilayətdən bir nəfər yox idi ki, mənim qarşımda məsələ qaldırsın ki, DQMV-ni Azərbaycanın tərkibindən çıxarıb Ermənistana vermək lazımdır. Başa düşürsünüz, heç kəs! Ermənistanda ayrı-ayrı belə əhval-ruhiyyəli adamlar var idi, orada bəziləri belə planlar cızırdılar, lakin onlar DQMV əhalisi tərəfindən dəstək almadılar» [371, 271]. «Ancaq mən Azərbaycandan gedəndən sonra, təəssüf ki, 1988-ci ildə olan hadisələrdən sonra xırda-xırda başladılar, Dağlıq Qarabağa nəzarəti azaltdılar və onlar da bunu etdilər» [280].

1987-ci ilin oktyabrında Heydər Əliyevin SSRİ dövləti rəhbərliyində tutduğu yüksək vəzifələrdən getməsində ermənilərin fəal iştirakı hamıya məlumdur. Bu haqda amerikalı tədqiqatçı Tomas de Vaal «Qara bağ» adlı kitabında belə yazır: «Onlar Azərbaycanın patriarxı Heydər Əliyevi hörmətdən salmaq üçün kampaniyaya başlamışdılar, çünki hesab edirdilər ki, o, Qarabağın ayrılması ideyasının əsas əleyhdarı kimi bu prosesin qarşısını ala bilər. Onlar, hətta Ermənistan kommunist partiyasının rəhbəri Dəmirçiyanın dəstəyin almışdılar, o isə, deyilənlərə görə , özünün SSRİ-nin ali partiya rəhbərliyində opponentinin siyasi karyerasının sona çatmasına çox sevinirdi. 1990-cı ildə bu hadisəni xatırlayan Ermənistan KP MK-nın birinci katibi K.S.Dəmirçiyan deyirdi: «Biz əsas işi görə bildik – Qarabağ hərəkatı başlayana qədər Əliyevi vəzifədən kənarlaşdırdılar. Bu, çox vacib idi» [309, 38–39].

IV FƏSİL

HEYDƏR ƏLİYEV
və
RESPUBLİKANIN İQTİSADİ İNKİŞAF STRATEGİYASI

4.1. Respublika neft sənayesinin inkişafı

II Dünya müharibəsindən sonrakı dövr, xüsusilə XX əsrin 70–80-ci illəri Azərbaycan SSR-in neft sənayesi tarixində xüsusi bir mərhələ hesab olunur. XX əsrin II yarısında Azərbaycan SSR neft sənayesində neft hasilatında həmişə artım müşahidə olunmuşdur. Belə ki, 1948–1970-ci illər ərzində Azərbaycan SSR-in neft sənayesinə məxsus mədənlərdən 435,1 milyon ton neft çıxarılmışdır [109, 135]. Lakin 1966–1970-ci illərin beşillik dövlət plan tapşırıqlarının yerinə yetirilməsi üzrə aparılan təhlil göstərir ki, 1970-ci il istisna edilməklə, Azərbaycan SSR neft sənayesində ötən beşilliklərin heç bir ilində dövlət plan tapşırıqları 100 % yerinə yetirilməyib. Əlbəttə, belə bir vəziyyətin yaranmasının obyektiv və subyektiv səbəbləri var idi. Qeyd etmək lazımdır ki, göstərilən dövrdə mərkəzi hökumətin Azərbaycan SSR-in neft sənayesinə olan münasibəti birmənalı deyildi. 1941–1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının 72 min şəhəri və kəndi, 32 min sənaye müəssisəsi dağıdılmış, 65 min km dəniz yolu sıradan çıxarılmış və nəticədə 35 milyon insan heç nəsiz qalmışdı. Sovet dövlətinə dəyən zərərin ümumi miqdarı 679 milyard rubla bərabər idi [431, 6]. Müharibə nəticəsində dağıdılmış iqtisadiyyatın, bütün infrastrukturun bərpası üçün çox böyük miqdarda maliyyə vəsaiti ilə yanaşı, ümumi həcmi bilinməyən enerji resursları tələb olunurdu.

Qeyd etmək lazımdır ki, II Dünya müharibəsindən sonra Azərbaycan SSR-in neft sənayesinin vəziyyəti heç də ürəkaçan deyildi. Yuxarıda qeyd olunduğu kimi, müharibə Sovet İttifaqının iqtisadiyyatına, xüsusilə də onun bel sütununu təşkil edən neft sənayesinə ağır zərbə vurmuşdu. Neft sənayesində çalışan mütəxəssislərin cəbhəyə

səfərbər edilməsi ilə yanaşı, aşkar olunmuş neft mədənlərinin konservasiya olunması və hasilatın aşağı düşməsi, yeni texnika və texnologiyanın çatışmaması müharibədən sonra Azərbaycan SSR-in neft sənayesində yaranmış ümumi ağır vəziyyətin mənzərəsini təşkil edirdi. Bu vəziyyəti xarakterizə edən ən mühüm göstərici neft hasilatının əvvəlki illərlə müqayisədə 11,5 mln. tona düşməsi idi [388, 553]. Buna görə də SSRİ dövlətinin rəhbərliyi müharibə nəticəsində dağıdılmış ərazilərin bərpası işində neft sənayesinin müstəsna rol oynayacağını çox gözəl başa düşürdü. 1946-cı ildən başlayaraq Mərkəzi hökumət Azərbaycan SSR neft sənayesinə diqqəti artırmağa başladı. Belə ki, həyata keçirilən tədbirlər nəticəsində, daha doğrusu, neft sənayesinə əsaslı kapital qoyuluşunun həcminin artırılması, yeni texnika və texnologiyanın tətbiqi və ən başlıcası, yeni neft yataqlarının aşkar edilərək istifadəyə verilməsi mövcud ağır vəziyyətin kökündən dəyişdirilməsi üçün şərait yaratdı. Neftçıxarmada yeni üsulların tətbiqi bu sahəyə əsaslı kapital qoyuluşunun 65 % artırılması ilə bilavasitə bağlı idi. 1949-cu ildə dünya neftçıxarma işi tarixində ilk dəfə məhz Azərbaycan SSR-də Xəzər dənizinin ona məxsus sektorunda neftçıxarma işinin əsası qoyuldu. 1946–1953-cü illərdə neft sənayesində tikinti işlərini həyata keçirmək üçün 68,3 mlrd. rubl vəsait ayrılmışdı [388, 554].

1953-cü ildə İ.V.Stalinin ölümündən sonra SSRİ dövlətində hakimiyyəti ələ keçirən N.S.Xruşşov ölkə iqtisadiyyatının bir çox sahələrində olduğu kimi, neft sənayesində də struktur və təşkilatı tədbirlər həyata keçirdi. Neft sənayesində rəhbərliyi möhkəmləndirmək üçün 1954-cü il 18 may SSRİ Ali Sovetinin və 13 noyabr SSRİ Nazirlər Sovetinin qəbul etdikləri qərarlar əsasında müvafiq olaraq Azərbaycan SSR Ali Soveti və Azərbaycan SSR Nazirlər Sovetinin 26 iyul tarixdə qəbul etdikləri qərara əsasən Azərbaycan SSR Neft Sənayesi Nazirliyi yaradıldı [201, 133]. Lakin qəbul edilən bu mühüm qərara baxmayaraq, 50-ci illərin ortalarında Azərbaycan SSR neft sənayesinə mərkəzi hökumət tərəfindən göstərilən münasibət getdikcə pisləşirdi. Bu fikri təsdiq edən ən mühüm fakt odur ki, keçmiş SSRİ-nin Qərbi Sibir, Tatarıstan, Başqırdıstan və digər regionlarında neft sənayesinin inkişafının Azərbaycan SSR-in neft sənayesi ilə müqayisədə iqtisadi cəhətdən daha rentabelli olduğunu sübut etməyə çalışan rus-erməni və yəhudi şovinist siyasi dairələrinin nümayəndələri respublika neft

sənayesinə kapital qoyuluşunun iqtisadi cəhətdən əlverişli olmadığını sübut etməyə çalışırdılar. Bu təcavüzkar cəhdlərin nəticəsində 1955-ci il üçün Azərbaycan SSR Neft Sənayesinə ayrılan 1.545,8 mln. rubl vəsait 50 % azaldılaraq 700 mln. rubla endirilmişdi. Bundan əlavə, həmin dairələr [388, 556] 1956-cı ildə Sov. İKP MK yanında Partiya Nəzarəti Komitəsinin sədri N.Sverkinə Azərbaycan SSR-in neft sənayesinin iqtisadi cəhətdən qeyri-rentabelli olduğunu sübut etmək iddiası ilə saxta sənəd təqdim edərək, onun SSRİ rəhbərliyi tərəfindən maliyyələşdirilməsinin dayandırılmasına cəhd göstərmişdilər. Lakin respublika rəhbərliyinin qətiyyətli mövqeyi, rus-erməni-yəhudi təcavüzkar dairələrinin çirkin niyyətlərinin baş tutmasına imkan verməmişdi.

Qeyd etmək lazımdır ki, 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilən H.Ə.Əliyev XX əsrin 50–60-cı illərində Azərbaycan SSR-in neft sənayesinin təkcə respublikanın deyil, həm də SSRİ-nin sosial-iqtisadi, strateji və hərbi həyatında hansı rol oynadığını bütün təfərrüatı ilə bilirdi. Buna görə də Azərbaycan SSR-in iqtisadiyyatının başqa sahələrində olduğu kimi, neft sənayesinin inkişafında da yeni mərhələ başlandı.

Azərbaycan KP MK-nın 1970-ci il dekabr plenumunda respublika rəhbəri Heydər Əliyevin məruzəsində ötən beş il ərzində ölkənin neft sənayesi işinin dərin təhlili verilmiş, respublika sənayesinin bu qabaqcıl sahəsində uzunmüddətli geriliyin və yaranmış gərgin vəziyyətin əsl səbəbləri açılıb göstərilmişdi [137, 81]. Bu, ilk növbədə, neft və qaz ehtiyatları artımının təmin edilməsi üçün 60-cı illərdə geoloji-kəşfiyyat işində, Azərbaycan SSR-də geoloji axtarış və kəşfiyyat işləri istiqamətlərinin seçilməsində mövcud nöqsanların, vəsaitin, maddi-texniki ehtiyatların böyük sayda sahələr üzrə səpələnməsinin birbaşa nəticəsi olan ciddi gerilik, qazıma prosesində çoxsaylı qəzalara və fəsadlara yol vermiş qazma təşkilatlarının son dərəcə yarıtmaz işi ilə bağlı idi. Nəticədə 1970–1975-ci illər üçün müəyyən edilmiş neft hasilatı planı 1000000 ton kəsirlə yerinə yetirilmişdi. Köhnə neft rayonlarında mövcud quyu fondu üzərində işlərin yolverilməz dərəcədə zəifləməsi də neft hasilatını zəiflətmişdi. Neft mədənlərinə və quyuətrafı zonalara təsir göstərilməsi sahəsində geoloji tədbirlərin həcmi xeyli azalmışdı. Layların hazırlanması üsulu, turşular vasitəsilə öyrənilməsi işi və geoloji-texniki tədbirlərin səviyyəsi aşağı düşmüşdü.

1966–1970-ci illərdə respublika neft sənayesində xüsusən ağır vəziyyət yaranmışdı, əgər altıncı beşillik ilə müqayisədə yeddinci beşillikdə neft hasilatı 18,8 milyon ton artmışdısa, səkkizinci beşillikdə artım cəmi 3,8 milyon ton təşkil etmişdi. Artımın bu qədər kəskin şəkildə aşağı düşməsi onunla izah olunurdu ki, 1966-cı ildən sonra neft hasilatı ildən-ilə azalmağa başlamışdı.

4 il ərzində artımın aşağı düşməsi 1,5 milyon tondan çox olmuşdu. Yaranmış ağır vəziyyəti Azərbaycan KP MK plenumunda hərtərəfli analiz edən Heydər Əliyev öz məruzəsində göstərdi ki, hasilatın səviyyəsi, neft sənayesinin inkişafı bilavasitə qazıma işlərinin həcmindən asılıdır. Qeyd olundu ki, 1966–1970-ci illər ərzində quyuların qazılması həcmi 1 milyon metr aşağı düşmüşdür. Qazma işlərinin başa çatdırıldığı 272 quyudan 84-ü və ya 31 faizi layihə səviyyəsinə çatdırılmamışdı [109, 137]. Buna görə də 1971-ci il martın 11-də respublika rəhbəri Heydər Əliyev neftçilər və sahənin alimləri qarşısında çıxış edərək demişdir: «Xəzərdəniz» və «Azərneft» birliklərinin mühəndis texniki işçilərindən, geoloqlarından, hər iki birliyin rəhbərlərindən tələb olunur ki, geoloji kəşfiyyat və qazıma işlərinin, xüsusən də Mezozoy çöküntülərində bu işlərin yaxşılaşdırılması yolu ilə köhnə sahələrdə neft hasilatının sabitləşdirilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirsinlər, gələcəkdə neft və qaz hasilatının artırılmasını təmin etmək üçün onların ehtiyatlarını artırsınlar. Eyni zamanda dəniz neft və qaz yataqlarının işlədilməsinə xüsusi diqqət yetirilməlidir» [236].

1970-ci ildən başlayaraq Azərbaycan SSR-in neft sənayesi daha da inkişaf etməyə başladı. Bunun nəticəsi olaraq, 1971-ci ildə Azərbaycan SSR neftçiləri SSRİ-də ilk dəfə olaraq sənaye üsulu ilə 100 illik neft hasilatı tarixində bir milyard ton neftin çıxarılmasına nail oldular. Azərbaycan SSR-in neft sənayesi tarixində baş verən bu mühüm hadisə ilə bağlı Azərbaycan KP MK Bürosu 1971-ci il mart ayının 24-də «Azərbaycan SSR-də bir milyard ton neftin çıxarılması ilə bağlı tədbirlər haqqında» qərar qəbul etdi. Qəbul edilən qərara əsasən, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini İ.A.İbrahimovun sədrliyi ilə dövlət komissiyası təşkil edildi və martın 28-də bu hadisə dövlət səviyyəsində qeydə alındı. 1971-ci il aprelin 21-də bir milyard ton neftin çıxarılması ilə bağlı keçirilən təntənəli mərasimdə respublika rəhbəri H.Ə.Əliyev məruzə ilə çıxış etdi. O, öz çıxışında Azərbaycan

SSR-in neft sənayesi işçilərini bu mühüm hadisə ilə bağlı təbrik etdi və respublika iqtisadiyyatının bu mühüm sahəsinin daha da inkişaf etdirilməsinin əsas istiqamətlərini göstərdi [140, 72]. Lakin bir faktı qeyd etmək lazımdır ki, respublika neft sənayesində yaranmış vəziyyətlə tanış olan Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK Bürosu 1971-ci il fevral ayının 17-də «Neft sənayesində və geoloji-kəşfiyyat təşkilatlarında qabaqcıl qazıma briqadalarının təcrübəsinin geniş tətbiq edilməsi haqqında» qərar qəbul edilməsindən sonra ölkə miqyasında aparılan geoloji-kəşfiyyat işlərinin coğrafiyası xeyli genişləndi [109, 147]. Azərbaycan SSR-in mərkəzi və qərb rayonları ərazilərində yeni neft və qaz yataqlarının aşkar edilməsi işi geniş miqyas aldı. Respublika neft sənayesində dərinlik nasosları vasitəsilə istismar işləri təkmilləşdirilmiş, bu işdə korroziyaya davamlı olan möhkəm tökmə materialı, yeni müxtəlif nasos və klapan konstruksiyaları tətbiq edilməyə başlamışdı. Hidroperforatların yeni konstruksiyalarının, layların hidravlik parçalanmasının yeni modifikasiyalarının köməyi ilə quyuların məhsuldarlığını xeyli artırmaq mümkün olmuşdu. Bir neçə obyektin bir quyudan eyni zamanda və ayrıca istismarı metodu geniş təbliğ olunurdu. 1971–1975-ci illərdə Azərbaycan SSR-in neft sənayesində təbii və səmt qazının hasilatında da böyük uğur qazanılmışdı. Əgər müharibədən əvvəlki illərdə qazdan yalnız qızdırıcı vasitə kimi istifadə edilirdisə, indi qaz kimya, neft-kimya və sənayenin başqa sahələri üçün çox qiymətli xammala çevrilmişdi. «Azərneft» birliyi qaz hasilatı sahəsində doqquzuncu beşilliyin planını üç il yarım ərzində, neft hasilatı planını isə dörd il səkkiz ay ərzində yerinə yetirmişdi. Plandan əlavə 2423 min ton neft və 2,5 milyard m^3 qaz hasil edilmişdi.

Heydər Əliyev 1971–1975-ci illər ərzində Azərbaycan SSR-in neft sənayesi işinin yekunlarını təhlil edərək göstərmişdir ki, hesabat dövründə respublika neftçiləri yeni uğurlara nail olmuşlar. «Azərneft» və «Xəzərdənizneft» birlikləri məhsul satışı üzrə tapşırıqları vaxtından əvvəl yerinə yetirmiş, 1966–1970-ci illərlə müqayisədə təxminən bir dəfə yarım artmış və qaz hasilatı planlarını artıqlaması ilə yerinə yetirmişlər. Neft hesabı ilə məcmu neft və qaz hasilatı 1975-ci ildə 27,1 milyon ton təşkil etmişdi ki, bu da respublikada 1941-ci ildə əldə edilmiş ən yüksək hasilat səviyyəsini xeyli ötmüşdü. «Azərneft» Birliyi üzrə hasilatın aşağı düşməsi sürəti səkkizinci beşillikdəki 7,2%-dən

4,3 %-ə enmişdi. Neft sənayesində geoloji-kəşfiyyat işlərinin səmərəsi xeyli artmış, 8 neft və qaz yatağı, 22 yeni lay aşkar olunmuşdu. 1966–1970-ci illər ilə müqayisədə sənaye neft ehtiyatlarının artımı 3 dəfə, qaz ehtiyatlarının artımı isə 2 dəfə yüksəlmişdi [155].

1971–1975-ci illərdə Azərbaycan SSR neftçilərinin əhəmiyyətli nailiyyətlər qazandıqlarına baxmayaraq, Heydər Əliyev 1976–1980-ci illərdə respublika neftçiləri qarşısında daha mürəkkəb vəzifələr qoymuşdu. Onlar dənizdə və quruda yeni iri neft və qaz yataqlarını və laylarını istismara verməli, neft qatlarının məhsuldarlığını artırmalı, ən yeni qazıma və istismar üsullarını geniş tətbiq etməli idilər. Dəniz neftçilərinin yerinə yetirməli olduqları işlərin həcmi xüsusən böyük idi. SSRİ Nazirlər Sovetinin 1974-cü ildə qəbul etdiyi qərarda Xəzər dənizinin dərin strukturlarında kəşfiyyat məqsədilə qazıma işlərinin xeyli sürətləndirilməsi və onların həcmlərinin genişləndirilməsi, dərin dəniz quyularının, o cümlədən 200 metrədək suyun dərinliyində yerləşən quyuların qazılması, işlənməsi və istismarı üçün texniki vasitələrin yaradılması və tətbiqi nəzərdə tutulurdu. 1981-ci il yanvarın 28-də Heydər Əliyev 1976–1980-ci illər üçün hazırlanmış dövlət planlarının yerinə yetirilməsinin yekunları əsasında respublikanın neft sənayesinin vəziyyətini təhlil edərək göstərmişdir ki, bu dövrdə neft-qaz hasilatı sənayesinə 2 milyard rubl həcmində vəsait qoyulmuşdur və bu, ötən illərdəkindən 1,4 dəfə çox idi. Qeyd etmək lazımdır ki, bu vəzifələrin yerinə yetirilməsi üçün 1975-ci il yanvarın 8-də və fevralın 10-da Azərbaycan KP MK Bürosu xüsusi qərarlar qəbul etmişdi [157, v.91–94].

Azərbaycanın neft sənayesi tarixində 1976–1981-ci illər çox böyük uğurların əldə edildiyi bir dövr hesab olunur. Bu dövrdə Abşeron yarımadasının köhnə yataqlarında və respublikanın yeni neft-qaz rayonlarında iş xüsusən gücləndirilmişdi. «Azərneft» Birliyinin işinin texniki-iqtisadi göstəriciləri xeyli yaxşılaşmışdı. Səmərə və keyfiyyət beşilliyi Azərbaycan SSR-in neft sənayesi tarixində yeni səhifələr açmışdı. Respublika hökuməti quruda neft və qaz yataqları axtarışının gələcək perspektivlərinə böyük əhəmiyyət verir və bu məqsədlə yeni vəzifələr müəyyən edilmişdi. Bu mühüm vəzifələr içərisində geoloji-kəşfiyyat işləri xüsusi əhəmiyyət kəsb edirdi. Buna görə də Azərbaycan SSR neftçiləri 1977-ci ildə Muradxanlı perspektiv yatağının sənaye üsulu ilə işlənməsinə başlamışdılar. Bu yataq mürəkkəb geoloji şəraiti,

sahə üzrə neft ehtiyatlarının qeyri-bərabər bölgüsü ilə səciyyələnirdi. Burada istismara verilən quyuların debiti bir neçə yüz tona çatırdı. Həm də demək olar ki, bütün quyular istismarın ilk günlərində suvarmaya məruz qalmışdı.

Muradxanlı yatağının işlənməsi «Azərneft»in geoloqları, qazmaçıları, istismarçıları qarşısında yeni kəskin suallar qoyurdu ki, bunların da bir çoxu müvəffəqiyyətlə həll olunmuşdu. Artıq 70-ci illərin II yarısında Azərbaycan SSR-in neft sənayesində quruda çalışan neftçi geoloqları kəşfiyyat məqsədilə qazıma işlərinin mərkəzini Abşeron yarımadasından respublikanın digər ərazilərinə doğru keçirmişdilər. Azərbaycan SSR-in iqtisadi xəritəsində Qalaməddin, Zəyli-Zeyvə kimi perspektiv neft və qaz yataqları aşkar edilmişdi. Lakin respublikada geoloji-kəşfiyyat işlərinin səmərəsi hələ də kifayət qədər yüksək deyildi və quru ərazilərdə kəşfiyyat məqsədilə qazıma işlərinin həcmi kiçik idi. Bu işlərin sürətləndirilməsi ölkə iqtisadiyyatına onlarca yeni neft yatağı verə bilərdi. Çünki, Azərbaycan SSR ərazisində kəşf olunmamış yataqlar hələ də çox idi. Bunlardan Şirinqum, Duzdağ-Gödəkboz, Hacınohur, Gürzundağ, Keyrük-Keylan, Palantökən, Sacdağ, Dəmirtəpə-Udabno və başqa strukturlar çox perspektivli idi. Muradxanlı yatağı ilə Karxulu strukturu arasında seysmik kəşfiyyat tərəfindən Zərdab, Gödəkqobu, Əmirarx-qərb, Mürsəl və Xaldan sahələri aşkar edilmişdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan KP MK və respublika hökuməti tərəfindən ölkə neftçiləri qarşısında neft laylarının məhsuldarlığını xeyli artırmaq vəzifəsi qoyulmuşdu. Azərbaycan SSR-in uzun müddət istismar olunmuş yataqları üçün bu vəzifə xüsusi aktuallıq kəsb edirdi. Təhlil göstərirdi ki, yataqların işlənməsinin ənənəvi metodları, o cümlədən suvurma metodu saxlanmaqla, perspektiv üçün layihələşdirilən neft məhsuldarlığını artırmaq məqsədilə laylara müxtəlif təsir metodları – su, buxar, qaz, kimyəvi reagentlər ilə təsir edilməsi, laydaxili yanma ocaqlarının yaradılması və s. üsullar tətbiq olunurdu. Bu metodların əksəriyyəti Azərbaycan alimləri tərəfindən hazırlanmışdı və onların səmərəsi olduqca yüksək idi.

Azərbaycan SSR-in neft yataqlarında qarışdırıcıların və səthi aktiv maddələrin tətbiqi sahəsində ilk müsbət mədən sınaqları hələ 30-cu illərdə aparılmışdı. Respublikada neft məhsuldarlığının artırılmasının istilik və fiziki-kimyəvi metodlarının müntəzəm surətdə

öyrənilməsinə 60-cı illərin əvvəllərində başlanmışdı. Təbəqələrə su vurmaqla laydaxili yanma ocağı metodunun sınaqdan keçirilməsi ilk dəfə ölkədə 1973-cü ildə Xocəsən sahəsində həyata keçirilmişdi. Orada sınaq zamanı 90 min tona yaxın neft hasil edilmişdi ki, bu da həmin obyektin işlədiyi əvvəlki dövrdəkindən 7–8 dəfə çox idi. 1978-ci ildə Pirallahı adasının şimalındakı yataqda laydaxili yanma ocağı metodu sınaqdan keçirilmiş, 1975-ci illə müqayisədə bu sahədə neft hasilatı həcminin iki dəfə artmasına səbəb olmuşdu.

Azərbaycan SSR Neft Sənayesində neft laylarına buxar vurulması metodu ilk dəfə 1969-cu ildə Xocəsən sahəsində tətbiq edilmişdi. 1970-ci ildə bu işlər Binəqədi-Qırmaki, 1974-cü ildə isə Puta Quşxana yataqlarında həyata keçirildi. 1979-cu ildə Pirallahı qəsəbəsi yaxınlığındakı yataqda prosesə hazırlıq işləri başa çatdırıldı. Azərbaycan SSR-in neft sənayesinin neft mədənlərində buxar-istilik metodlarının tətbiqi nəticəsində həmin obyektlərdə ümumi neft məhsuldarlığının 40%-nə qədər əlavə neft hasil edilmişdi.

Azərbaycan SSR-in neft sənayesinin çox mühüm bir sahəsini neft emalı sahəsi təşkil edir. 1966–1970-ci illərdə neft emalı həcmi 7,8 %, termik krekinq həcmi 36%, katalitik krekinq həcmi 1,4 dəfə, kokslaşdırma həcmi 10 dəfə artmışdı.

Azərbaycan SSR-in neft sənayesində yenidənqurma işlərinin həyata keçirilməsi üçün 379 milyon rubl həcmində vəsait ayrılmışdı. Dövlət Ekspertiza Komissiyası respublika iqtisadiyyatı üçün daha qısa müddət ərzində fayda götürmək məqsədilə neft emalı sahəsində yenidənqurma işlərinin mərhələlərlə aparılması məqsədilə qərar qəbul etmişdi. Respublikada neft emalı işini «Azərneftyanacaq» və «Azərneftyağ» neftayırma zavodlarında cəmləşdirmək qərara alınmışdı. Mövcud texniki bazanın yenidən qurulması, mənəvi və texniki cəhətdən köhnəlmiş zəif qurğuların ləğvi, avtomatlaşdırma, dispetçerləşdirmə vasitələrinin, əlavə-yardımçı, əmtəə-xammal təsərrüfatlarının, enerji və su təchizatının nizamlanması mexanizmlərinin tətbiqi ilə yanaşı, əmək şəraitinin yanğından mühafizə vəziyyəti, sanitar-gigiyena şəraiti, istehsal mədəniyyəti yüksəlmiş və əməyin mühafizəsi səviyyəsi müsbət istiqamətdə xeyli dəyişmişdi.

Nəticədə respublikada neft emalı zavodları kollektivlərinin fədakar əməyi sayəsində dövlət planının və götürülmüş öhdəliklərin

yerinə yetirilməsi, əmək məhsuldarlığının artırılması və bir sıra məhsulların keyfiyyətinin yüksəldilməsi üzrə yaxşı nəticələr əldə etmək mümkün olmuşdu.

Azərbaycan SSR-in neft sənayesinin mühüm sahəsi olan neft emalı sahəsinin inkişafı tarixində dönüş dövrü kimi adlandırmağa imkan verən başlıca meyil 70-ci illərdə bu sahədə əsaslı yenidənqurma işlərinin həyata keçirilməsi üçün zəmin yaradılması və bu işlərə uğurla başlanması – yenidənqurma işlərinin flaqmanı ELOU-AVT–6 qurğusunun inşası, yağların parafinsizləşdirilməsi üzrə iki qurğunun tikintisi və istismara verilməsi, dənizdən neft qəbul etmək üçün limanın inşası və s. idi.

Heydər Əliyev başda olmaqla, respublika rəhbərliyinin birbaşa yardımı sayəsində 1976–1980-ci illərdə neft sənayesində yenidənqurma işlərinin aparılması üçün əvvəlki beşillikdəkindən iki dəfə çox həcmdə əsaslı vəsait ayrılmışdı. Yenidənqurma işlərinin həyata keçirilməsi dövlətin iqtisadi planlarında ən mühüm işlərdən biri hesab olundu və Sov.İKP XXV qurultayının qərarlarında öz əksini tapdı.

1971–1975-ci illərdə mövcud texnoloji bazada bir sıra texniki tədbirlərin həyata keçirilməsi sayəsində, yeni qurğular inşa edilmədən respublikada neft emalının həcmi xeyli artırılmışdı. Katalitik krekinq qurğularında istehsal texnologiyasının təkmilləşdirilməsi sahəsində işlər aparılmışdı.

1973–1974-cü illərdə respublikanın neft zavodları tərəfindən istehsal olunan məhsulun 98,7% -i attestasiyadan keçmiş, bu zaman beş növdə məhsula dövlət keyfiyyət nişanı verilmişdi. 1971–1975-ci illərdə A-76 və Aİ-93 markalı benzin buraxılışı 12% artmışdı. Keyfiyyətli mühərrik və energetika yağları da istehsal olunurdu. 1975-ci ildə Azərbaycan SSR Neft-Kimya Sənayesi Nazirliyində və zavodlarda standartlaşdırma və keyfiyyət xidmətləri yaradılmışdı. 1976–1980-ci illərdə Bakı neftayırma zavodlarının yenidən qurulması işi davam etdirilmiş və bu məqsədlər üçün 1971–1975-ci illərdəki faktiki xərclərdən xeyli çox olan əsaslı vəsait həcmi ayrılmışdı.

1976-cı ildə YBNZ-da istismara verilmiş ilk obyekt neft emalı üzrə güclü ELOU-AVT qurğusu olmuşdu. Onun xammal bazası Böyükşor gölü rayonunda yerləşirdi. Bu qurğunun işə salınması kükürdlü neftlərin emalını təşkil etməyə və bununla də sahənin xammal ehtiyat-

larını artırmağa imkan vermişdi ki, bu da monokükürdlü xammal qıtlığı şəraitində böyük əhəmiyyət kəsb edirdi. Qurğunun işə salınması nəticəsində mənəvi cəhətdən köhnəlmiş dörd qurğu ləğv edilmiş, emal olunan neftin hər tonu üçün iqtisadi göstəricilər yaxşılaşmışdı. YBNZ-də ikinci buraxılış kompleksinin – «Katalitik Riforminq» qurğusunun tikintisi də başa çatdırılmışdı ki, bu da istehsalın texniki səviyyəsini və buraxılan avtomobil benzinlərinin keyfiyyətini yüksəltməyə, A-66 və A–72 markalı aşağı növlü benzinlərin buraxılışını dayandırmağa, A-76 və Aİ-93 markalı yüksək növlü benzinlərin buraxılışını xeyli artırmağa və onları yüksək keyfiyyət kateqoriyası ilə attestasiyadan keçirməyə imkan vermişdi. SSRİ Neft-Kimya Sənayesi Nazirliyi tərəfindən qabaqcadan onuncu beşillik üçün əsaslı vəsait qoyuluşu nəzərdə tutulsa da, bu, tikintinin lazımınca genişləndirilməsinə imkan vermirdi.

Azərbaycan SSR hökuməti sənaye istehsalının ən mütərəqqi sahələrinin sürətlə inkişaf etdirilməsinə yönəldilmiş konkret tədbirlər kompleksi hazırlamış və bunu Sov.İKP MK-nın müzakirəsinə vermişdi. Respublikanın neft emalı zavodlarında yenidənqurma işləri həmin tədbirlər kompleksinə daxil idi. Azərbaycan KP MK-nın oktyabr (1976-cı il) plenumundakı məruzəsində respublikanın rəhbəri Heydər Əliyev bu məsələni «mühüm problem» adlandırmışdı [109, 319].

«1976–1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişafına dair Azərbaycan KP MK-nın təkliflərinə baxılmasının nəticələri haqqında» Sov.İKP MK-nın və Sovet hökumətinin qəbul etdiyi qərarda Azərbaycan SSR-də sənaye istehsalının dinamik və hərtərəfli inkişafı proqramı müəyyən edilmiş, onun strukturunun əsaslı şəkildə təkmilləşdirilməsi, respublikanın şəhər və rayonlarının kompleks sosial-iqtisadi inkişafı, əhalinin məşğulluğunun təmin edilməsi, əhalinin rifahının daha da yüksəldilməsi sahəsində tədbirlər nəzərdə tutulmuşdu.

1976–1980-ci illərdə neft zavodlarının əsaslı şəkildə yenidən qurulması işinin həyata keçirilməsi üçün ayrılmış əsaslı vəsait qoyuluşunun həcmi 1966–1970-ci illərdə 62,1 milyon rubl, 1971–1975-ci illərdə 194, 2 milyon rubl, 1976–1980-ci illərdə isə 247 milyon rubl təşkil etmişdi.

Nəticədə respublika neft emalı sahəsində aşağıdakı əsas obyektlər tikilib işə salınmışdı: 1. YBNZ-də SSRİ-də ilk dəfə olaraq kataliza-

torun fasiləsiz regenerasiyası prosesinin aparılmasını nəzərdə tutan katalitik riforminq qurğusu kompleksi (xaricdən alınmış avadanlıq kompleksinin bazasında). Qurğunun inşası 1977–1979-cu illərdə nəzərdə tutulmuşdu;

2. BNZ-də ELOU-ABT–6 qurğusu kompleksi (xaricdən alınmış avadanlıq kompleksinin bazasında). Qurğunun inşası 1979–1980-ci illərdə başa çatdırılmışdı;

3. BNZ-də yağların parafinsizləşdirilməsi və asfaltsızlaşdırılması üzrə qurğu kompleksi (1978–1980-ci illər);

4. BNZ-də xaricdən alınmış avadanlıq kompleksinin bazasında duru parafinlər alınması üçün «Pareks» kompleksi (1979–1980-ci illər);

5. YBHZ-də ləng kokslaşdırma metodu ilə elektrod koksu istehsalı üçün qurğu kompleksi (1978–1980-ci illər);

Bundan başqa, 1976–1980-ci illərdə istismara verilmiş yağların soyuq parafinsizləşdirilməsi və asfaltsızlaşdırılması qurğularının istehsal gücü artırılmış (1977–1980-ci illər), habelə elektrik sahəsini qələvi ilə yuyan qurğunun, dəniz və dəmir yolu yanacaqdoldurma obyektlərinin (1978-ci il), bütün su mühafizə obyektlərinin (1977–1979-cu illər) və s. tikintisi başa çatdırılmışdı.

1976–1982-ci illərdə Azərbaycan SSR-in neft sənayesi neft emalı sahəsinin texniki-iqtisadi göstəricilərinin artımı (1975-ci illə müqayisədə 1980-ci ildə) aşağıdakı rəqəmlərdə öz ifadəsini tapmışdır (%-lə):

Ümumi məhsul	– 109,9
Satış	– 117,6
Əmək məhsuldarlığı	– 115,7
Sənayedə çalışanların sayı	– 95,0
Mənfəət	– 154,1

İşə salınan istehsal qurğularından tam istifadə şəraitində (1981–1982-ci illər) ümumi məhsulun həcmi 763,3 milyon rubl təşkil etməli idi ki, bu da 1975-ci ildə məhsul buraxılışı həcmindən 121,1 milyon rubl və ya 18% çox idi. 1970-ci illə müqayisədə isə artım 165,8 milyon rubl və ya 40% təşkil edirdi. Satış üçün istehsal edilən məhsul 1975-ci illə müqayisədə 21%, 1970-ci illə müqayisədə isə 36% artmışdı. Xidmət heyətinin say tərkibi 1975-ci ildə olan 7795 nəfərdən 6240 nəfərədək azalmışdı. Əmək məhsuldarlığı 1975-ci illə müqayisədə 42% yüksəlmişdi. Nəticədə 1976–1980-ci illərdə neftayırma sahəsinin əsas

texniki-iqtisadi göstəriciləri xeyli yüksəlmişdi ki, bu da aşağıdakı cədvəldən aydın görünür [202, 213]:

Cədvəl 1

Texniki-iqtisadi göstəricilər	Faizlə (%)
Ümumi məhsul	108,5
Satış	117.7
Əmək məhsuldarlığı	108,8
İşçilərin sayı	98,1
Gəlir	162,6

Azərbaycan SSR neft sənayesinin neft emalı sahəsində aparılan əsaslı yenidənqurmanın layihələşdirilməsi texnoloji bazanın və yardımçı təsərrüfatın bütün nöqsanlarını aradan qaldırmalı və respublikanın neft emalı sənayesini müasir dünya səviyyəsinə çıxarmalı idi.

Yenidənqurma layihəsi hazırlanarkən yeni zavodların tikintisi üçün əsas götürülən prinsiplərdən istifadə olunmuşdu. Layihədə aşağıdakılar nəzərdə tutulurdu:

– iriləşdirilmiş yüksək məhsuldar texnoloji qurğuların və aqreqatların yaradılması və geniş tətbiqi, bir texnoloji blokda bir neçə prosesin səmərəli kombinasiyası və birləşdirilməsi, katalitik sistemlərin təkmilləşdirilməsi və yüksək səmərəliliyə malik yeni katalizatorların tətbiqi, mənəvi cəhətdən köhnəlmiş proseslərin ləğvi və onların daha mükəmməl yeni proseslərlə əvəz edilməsi.

Bütün layihələşdirmə işləri zavodların mühəndislərinin, respublika və İttifaq nazirlikləri aparatı mütəxəssislərinin və alimlərin iştirakı ilə aparılırdı. Qeyd etmək lazımdır ki, ən mühüm və başlıca məsələlər respublika rəhbəri Heydər Əliyevin nəzarətində idi və onun təşəbbüsü ilə Azərbaycan KP MK Bürosunun müzakirəsinə çıxarılırdı. Neft emalı və sürtgü yağları istehsalı üçün zavodların modernləşdirilməsinin maliyyələşdirilməsi belə məsələlərdən idi.

Heydər Əliyev və bu sahəyə cəlb olunan yüksəkixtisaslı mütəxəssislərin fikri belə idi ki, Azərbaycan SSR-in neft sənayesində aparılan yenidənqurma işlərində əsas məqsəd daha çox səmərə götürmək, xərc-

lərin əvəzinin tezliklə ödənilməsinə nail olmaq, istehsalın bütün texniki-iqtisadi göstəricilərini yaxşılaşdırmaq məqsədilə neft emalının həcmini artırmaq idi.

Məlumdur ki, dünya təcrübəsi tarixində ilk dəfə dənizdən neft çıxarma işinin də əsası 1949-cu ildə Azərbaycan SSR-də həyata keçirilmişdir. Bu yeni sahənin yaradılması Azərbaycan alimi, mühəndis, texnik və fəhlələrinin müstəsna əməyi sayəsində yaradılmışdır, Heydər Əliyev bu sənaye sahəsinə xüsusi diqqət yetirirdi. Ona görə də onun 1971-ci ildə Azərbaycan neftçiləri gününün bayram edilməsi münasibətilə keçirilən respublika müşavirəsində qarşıya qoyduğu vəzifələr dənizdə neft çıxarılmasının inkişafında həlledici rol oynadı. Xəzər dənizində Azərbaycan neftçiləri tərəfindən əldə edilən maksimum neft hasilatı – 12,9 milyon ton 1970-ci ildə, maksimum qaz çıxarılması isə – 14,3 milyard kubmetr 1982-ci ildə qeydə alınmışdı. Bundan əvvəl dənizin dayaz yerlərində iri neft yataqları kəşf edilmiş və istifadəyə verilmişdi.

Neft Daşlarının kəşfi və istismara verilməsi Azərbaycan SSR neft sənayesinin, qazma və istismar texnikasının ciddi elmi əsasda inkişafında mühüm rol oynamış, dəniz neft yataqlarında qatların təzyiqi qorunub saxlanmışdır. Dünya neft təcrübəsində təməli açıq dənizdə, yaxın sahil bazasından 110 km-dən də çox uzaqdakı çökəkdə qoyulmuş və işlənilmiş neft mədəni olan bu «şəhər»in analoqu yoxdur. Neft Daşlarının və Xəzər dənizinin ona bitişik akvatoriyasının siması 1950-ci ildən başlayaraq ərzində tanınmaz dərəcədə dəyişmişdir. Dənizdəki süni ərazidə müasir daş binalar, neftçilər üçün mehmanxana tipli yaşayış evləri, yataqxana korpusları, mədəniyyət sarayı, mağazalar, yeməkxanalar, xəstəxanalar, kinoteatr, idman meydançaları və digər obyektlər tikilmişdir. Qeyd etmək lazımdır ki, 670-ci illərin sonunda SSRİ Mərkəzi hökuməti Xəzər dənizinin bütün sektorlarında geoloji-kəşfiyyat işlərinin aparılması haqqında qərar qəbul etdi.

Buna görə də, 1970-ci ildə Azərbaycan SSR Neft Sənayesi Nazirliyi ləğv olundu və onun yerinə respublikada iki yeni istehsalat birliyi – «Azərneft» və «Xəzərdənizneft» birlikləri yaradıldı. «Azərneft» İB-yə respublikanın quru sahəsində, «Xəzərdənizneft» İB-yə (sonralar – «Xəzərdənizneftqazsənaye» Ümumittifaq İstehsalat Birliyi) isə SSRİ-

nin Xəzər dənizi akvatoriyasının bütün sektorlarında (məhz həmin il Xəzərin SSRİ-yə məxsus hissəsi 4 respublika – RSFSR, Qazaxıstan SSR, Azərbaycan SSR və Türkmənistan SSR arasında sektorlara bölünmüşdü) geoloji-kəşfiyyat, qazıma, yataqların işlənməsi, istismarı və sahə ilə bağlı digər işlərlə məşğul olmaq həvalə olundu [202, 214].

1970–1980-ci illərdə Azərbaycan SSR dəniz neft sənayesinin infrastrukturunun müasirləşdirilməsi sahəsində Heydər Əliyev tərəfindən çox mühüm və Azərbaycan Respublikasının bu gününə hesablanmış böyük işlər görüldü.

1970-ci ilə qədər Xəzər dənizində istifadə olunan texniki vasitələr dəniz dərinliyinin 40 metrində işləməyə imkan verirdi və Xəzər dənizinin Azərbaycan SSR sektorunda bu dərinliklərdə olan perspektiv strukturlardakı neft və qaz yataqları, demək olar ki, kəşf olunmuşdu. Respublikada neft və qaz sənayesinin gələcək inkişafı dənizin daha dərin hissəsində yeni yataqların axtarışından asılı idi. Ona görə də bu illər əvvəlcə dənizin 70 metr dərinliyində kəşfiyyat-qazıma işləri aparmağa imkan verən «Xəzər» tipli üzən bir neçə qazıma qurğuları alındı və bu da «Bahar» və «Bulla-dəniz» qaz-kondensat yataqlarının açılması ilə nəticələndi.

Sonralar dənizin 200 metrə qədər dərinliyində işləməyə imkan verən «Şelf» tipli müasir yarımdalma üzən qazıma qurğularının alınması nəticəsində dənizdə axtarış-kəşfiyyat işləri genişləndirildi. Bu qurğuların əsasında müstəqillik dövründə dənizin 700 metr dərinliyində qazıma işlərini aparmağa imkan verən indiki «Dədə Qorqud» və «İstiqlal» qurğuları yaradıldı. 80-ci illərdə üzən qazıma qurğularının sayı artıq 11-ə çatdı və onlardan səmərəli istifadə olunması nəticəsində Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda dənizin 80–350 metr dərinliyində zəngin neft ehtiyatlarına malik «Günəşli» (1979), «Çıraq» (1985), «Azəri» (1987), «Kəpəz» (1989) və başqa yataqlar («Şərqi-Livanovo» – dənizin Türkmənistan Respublikası sektorunda, «Qayalı dəniz» – Qazaxıstan Respublikası sahillərində) kəşf olundu [202, 214].

Dənizdə habelə çətin əməliyyatların aparılmasının təşkili məqsədilə 1970–1980-ci illərdə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və yorulmaz fəaliyyəti nəticəsində «Xəzərdənizneft» donanması üçün çoxlu sayda müxtəlif təyinatlı gəmilər – qaldırıcı gəmi-kran-

lar, borudaşıyan, sərnişin daşıyan və seysmik gəmilər gətirildi. Xəzərdə «Süleyman Vəzirov», «İsrafil Hüseynov» kimi borudüzən gəmilər, 2500 ton yük qaldıra bilən «Azərbaycan» kran gəmisi, geofiziki kəşfiyyat gəmiləri və başqa texniki üzən vasitələr fəaliyyətə başladı. Ümumiyyətlə, o illərdə Xəzərdə 75 növdə 400-dən çox gəmi fəaliyyət göstərirdi [195, 183].

Neft-qaz sənayesində tətbiq olunan yeniliklər tezliklə öz bəhrəsini verdi. Yeni kəşf olunan neft və qaz yataqları hesabına neft ehtiyatları 2, qaz ehtiyatları isə 3 dəfə artdı. 1975-ci ildə neft və qazın ümumi hasilatı respublika üzrə 27,1 milyon ton şərti yanacağa çatdırıldı. Neft hasilatının azalma sürəti qısa müddət ərzində nəzərəçarpacaq dərəcədə aşağı endi. 1975-ci ildə isə «Bulla-dəniz» yatağının işlədilməsinə başlandı. «Bulla-dəniz» və «Bahar» kimi qaz-kondensat yataqlarının kəşf edilməsi nəticəsində 1981-ci ildə Azərbaycan SSR-də rekord həcmdə – 15 milyard kubmetr qaz hasil edildi. Bu qaz yataqlarından hasil olunan qazın bir hissəsi o vaxtlar «Dostluq kəməri» adlanan boru xətti ilə qonşu respublikalara ötürülürdü.

Həmin dövrdən başlayaraq Azərbaycan neftçiləri Xəzər dənizinin bütün sektorlarında axtarış – kəşfiyyat işlərinin aparılmasına başladılar. 1970–1988-ci illər ərzində «Xəzərdənizneftqazsənaye» Ümumittifaq İstehsalat Birliyi tərəfindən Xəzərin şimalından başlamış cənubuna qədər geoloji – kəşfiyyat işləri aparılmış və dərin quyular qazılmışdır. Azərbaycan geofizikləri tərəfindən isə 350-yə qədər perspektivli struktur aşkar edilmişdi.

XX əsrin 70-ci illərində Azərbaycan SSR neft sənayesinin quruya aid ərazilərində də genişmiqyaslı işlər aparılırdı. 1975-ci ildə Balaxanıda istifadəsiz qalmış neft mədənləri sahəsində neft şaxtasının tikintisinə başlandı və bu qeyri-adi üsul «1976–1980-ci illərdə SSRİ iqtisadiyyatının inkişafının əsas istiqamətləri» proqramına daxil edildi. Şaxta üsulu ilə neft hasilatı texniki və texnoloji baxımdan ənənəvi üsullardan fərqli idi və məhsuldarlığı az olan, təbii enerjisini itirmiş dayaz neftli süxurların işlənməsində layların neftvermə imkanlarını artıra bilərdi. Lakin çoxsaylı texniki problemlərin həll olunmaması ucbatından onun tikintisi 1986-cı ildə sona çatdırılmadan dayandırıldı.

1977-ci ildə neft hasilatı ilə bağlı olmasa da, Yer təkinin geologiyasının öyrənilməsi, böyük dərinliklərdə mineral və enerji mən-

bələrinin aşkara çıxarılması və qazıma elminin, texnika və texnologiyasının inkişafı və təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyan, 15000 metr dərinliyə qazılması nəzərdə tutulan Saatlı quyusunda qazıma işlərinə start verildi (quyu 8229 metr dərinliyə qədər çatdırılmış (bu o zaman Azərbaycan SSR ərazisində qazılmış ən dərin quyudur), lakin bu dərinlikdə qazıma alətinin tutulması nəticəsində qəza vəziyyətinə düşmüş və 1989-cu ildə ləğv edilmişdir). Dünyanın cəmi 5 ölkəsində (ABŞ, SSRİ, Kanada, AFR və Yaponiyada) qazılması planlaşdırılmış 11 quyudan (onun 2-si SSRİ-nin öhdəsinə düşmüşdür, ikinci quyu Kola yarımadasında qazılmışdır) birinin respublikamızın payına düşməsi bu sahədə çalışan Azərbaycan alimlərinin, mühəndis və texniklərinin bacarığına olan yüksək etimadın təzahürü kimi qiymətləndirilməlidir. Təsadüfi deyildir ki, o illər Bakını Sovet İttifaqının «Neft Akademiyası» adlandırırdılar.

Burada bir məqamı qeyd etmək lazımdır ki, o illər Azərbaycanın neft-qazçıxarma müəssisələri SSRİ-nin ayrı-ayrı nazirliklərinin tabeliyinə verilmişdi. «Azərneft» İB SSRİ Neft Sənayesi, «Xəzərdənizneftqazsənaye» ÜİB isə SSRİ Qaz Sənayesi nazirlikləri tərəfindən idarə olunurdu. Keçən əsrin 70–80-ci illərində Xəzər dənizinin Azərbaycan SSR hissəsində yeni perspektivli yataqlar («Günəşli», «Azəri», «Çıraq» və s.) aşkar edildiyi halda, quru sahəsində yeni tapıntılar bir o qədər də qeydə alınmırdı.

Görülən müxtəlif tədbirlərə baxmayaraq, 60-cı illərin sonundan Azərbaycan SSR-də neft hasilatı tədricən aşağı düşməyə başladı. Neft hasilatının azalmasının əsas səbəbləri bunlar idi: birincisi, Azərbaycan SSR-in quru sahəsində on illərlə intensiv olaraq istismar edilən məşhur neft yataqlarında ehtiyatlar artıq tükənmək üzrə idi və onlara həm ehtiyatı, həm də maya dəyəri ilə bərabər olan yeni yataqlar kəşf edilməmişdi. Köhnə quru yataqlarından neft hasil etmək isə getdikcə baha başa gəlirdi. Xəzər dənizindən də neft hasil olunması quru yataqlarına nisbətən daha yüksək kapital xərcləri tələb edirdi.

Digər tərəfdən, Qərbi Sibirdə, Qazaxıstan SSR ərazisində və digər bölgələrdə nəhəng neft yataqları aşkar edilmişdi. Keçmiş SSRİ ərazisində hasil olunan neftin xüsusi çəkisində Azərbaycan SSR-in neft sənayesində hasil edilən neftin həcmi getdikcə azalırdı (1950-ci ildəki 39,1 faizdən 1960-cı ildə 12 %-ə düşmüşdü. 1970 və 1980-ci illərdə isə

Azərbaycan neftinin xüsusi çəkisi 5,7 və 2,4% təşkil etmişdi) və tamamilə təbiidir ki, Moskva tərəfindən də Azərbaycan SSR-in neft hasilatının problemlərinə diqqət azalırdı.

Bununla əlaqədar, 1986-cı ildə SSRİ Neft Sənayesi Nazirliyi tərəfindən Azərbaycanın quru sahəsinə əsaslı vəsait qoyuluşunun səmərə vermədiyi əsas gətirilirdi ki, bu da neft sənayesi və onunla bağlı olan digər sənaye sahələrinin ləğv olunmasına gətirib çıxara bilərdi. Lakin Azərbaycan SSR-ə gələn SSRİ Neft Sənayesi Naziri burada ona təqdim olunan hesabat sənədləri və aparılan işlərlə yaxından tanış olduqdan sonra öz fikrini dəyişmiş və quru neft sənayesinin səmərəliliyini artırmaq üçün yeni quyuların qazılması təklifi ilə razılaşmışdır.

Ancaq onu da qeyd etmək lazımdır ki, 1982-ci ildə Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi ilə əlaqədar respublikadan getməsi və «yenidənqurma»nın yaratdığı siyasi-iqtisadi təzadlar respublikanın iqtisadiyyatında, o cümlədən neft sənayesində də müəyyən geriləmələrə səbəb oldu. Belə ki, 1990-cı ildə SSRİ-nin süqutu ərəfəsində Azərbaycan SSR-də neft hasilatı 12,9 milyon ton, qaz isə 8 milyard kubmetr təşkil etmişdi.

Deyilənlərin yekunu kimi qeyd etmək olar ki, sovet dövrü Azərbaycan neft sənayesi tarixində olduqca mühüm mərhələ təşkil edir. Sovet imperiyası Azərbaycan SSR-in neft sərvətlərindən səmərəli bəhrələnmək üçün geniş imkanlar açmış, böyük maddi-texniki baza yaratmış, bacarıqlı mütəxəssislər, peşəkar neftçilər nəsli yetirmiş, onların köməyi ilə yeni zəngin yataqlar aşkara çıxarılmış, neft hasilatında və emalında ən mütərəqqi üsulların tətbiqinə nail olunmuşdur. Bu dövrdə ölkəmizdə neft-maşınqayırma, neft-kimya, energetika və sənayenin digər sahələri də sürətlə inkişaf etmiş və bu sahələrlə bağlı güclü elmi-texniki baza yaradılmışdır. Azərbaycan SSR iqtisadiyyatı neft və neft məhsullarının hətta ən aşağı qiymətlərlə satışı zamanı SSRİ iqtisadiyyatına gəlir gətirmiş, yəni 15 respublika arasında Sovet Rusiyasından sonra müsbət saldo ilə işləyən yeganə respublika olmuşdur. Beləliklə, XX əsrin 70–80-ci illərinin birinci yarısında Ümummilli lider Heydər Əliyevin məqsədyönlü və uğurlu rəhbərliyi nəticəsində Azərbaycanın neft sənayesi tarixində yeni mərhələ başlandı. Nəticədə, 20 ilə yaxın bir müddət ərzində Azərbaycan SSR-də 42 yeni perspektivli sahələr açıldı, 6 km və daha dərin quyuları istismar imkanları

yarandı, neftçilər, ilk növbədə, dənizin 84 m dərinliyindən neftçıxaran buruqlar yaratdılar, yer səthindən 15 km dərinlikdə nadir quyu qazdılar. Geoloji kəşfiyyatın effektivliyi xeyli yüksəldi, 22 neft və qaz yatağı kəşf olundu. 60-cı illərə nisbətən neftin sənaye ehtiyatları 3 dəfə, qazıntı isə 2 dəfə artdı. Bulla-dəniz, Muradxanlı, Kəmaləddin, 28 may adına yeni neft yataqları neft və qaz verməyə başladı. Neft mədənlərinin yarıdan çoxu avtomatlaşdırıldı.

Üzən buruqlardan «Azərbaycan», «Xəzər», «Oktyabrın 60 illiyi» vasitəsilə dəniz suyunun 60–70 metr qatı altında dərinliyi 6000 metrə çatan quyular qazılırdı. 70-ci illərdə dərin dəniz özülləri hazırlayan iri zavodun tikintisinə başlanıldı. Zavod 1985-ci ildə fəaliyyətə başladı. Qeyd etmək lazımdır ki, bu mühüm sənaye obyektinin tikintisi və istifadəyə verilməsi işinə şəxsən Heydər Əliyev rəhbərlik edirdi. O, Sov. İK MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışarkən, 1984-cü ildə tikintiyə baş çəkmiş və işlərin gedişi ilə maraqlanmışdı. Bu istiqamətdə yeniliyin tətbiqi nəticəsində xeyli yüksək keyfiyyətli [109, 289–290] Azərbaycan nefti hasil edilmişdi.

Ümummilli lider Heydər Əliyev 1969–1982-ci illərdə Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə təkcə Azərbaycan SSR neft sənayesinin deyil, həm də hazırda Azərbaycan Respublikası ilə həmsərhəd olan RF, Qazaxıstan, Türkmənistan və İran İslam Respublikasının milli neft sənayelərinin inkişafına çox böyük töhfə vermişdir. 1970-ci ilin avqustundan başlayaraq bilavasitə Heydər Əliyevin tapşırığı ilə Xəzər dənizinin Türkmənistan SSR sektorunda geoloji-kəşfiyyat işlərinin aparılması, neft və qazın çıxarılması işi Azərbaycan SSR-də yerləşən «Xəzərdənizneft» Birliyinə həvalə edildi. Sonradan yuxarıda adları çəkilən işlərin Xəzər dənizinin Qazaxıstan SSR və RSFSR-ə məxsus sektorunda da aparılması yenə də «Xəzərdənizneft» Birliyinə tapşırılmışdı. Beləliklə, 1970-ci ildən başlayaraq, Azərbaycan neftçiləri, demək olar ki, Xəzər dənizinin bütün akvatoriyasında planlı surətdə genişmiqyaslı işlər həyata keçirmişlər. Xəzər dənizinin Türkmənistan SSR, Qazaxıstan SSR və RSFSR-ə məxsus sektorlarında planlı geoloji işlərin aparılması, əsasən, 1988-ci ilə qədər davam etmişdir. Göstərilən illərdə Azərbaycan SSR mütəxəssisləri tərəfindən böyük həcmdə geofiziki kəşfiyyat, axtarış-qazıma işləri görülmüş, Türkmənistan SSR sek-

torunda isə həm də neft və qaz çıxarılması işi həyata keçirilmişdir. 1973–1989-cu illərdə isə Qazaxıstan SSR, 1972–1988-ci illərdə RSFSR-ə məxsus sektorlarda genişmiqyaslı və 1988–1990-cı illərdə İran İslam Respublikasına məxsus sektorda kiçik həcmdə geoloji kəşfiyyat işləri görülmüşdür (109, 289–290).

Qeyd etmək lazımdır ki, 1969–1987-ci illərdə Ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan neft sənayesində həyata keçirən bütün işlər bu gün qürurla öyündüyümüz müasir, güclü Azərbaycan Respublikasının yaranması və xalqımızın xoşbəxt gələcəyi üçün edilmişdir. Bu gün bütün bu deyilən fikirlər artıq həyati reallığa çevrilmişdir.

4.2. Respublika sənayesinin digər sahələri

1941–1945-ci illər müharibəsində Hitler Almaniyası üzərində qələbədə müstəsna rol oynayan Azərbaycan SSR 1946-cı ildən başlayaraq öz iqtisadi inkişafının yeni mərhələsinə qədəm qoydu. Qeyd etmək lazımdır ki, bu dövrə qədər respublika iqtisadiyyatının əsasını neft sənayesi təşkil edirdi və bu da təbii idi. Çünki, 1920-ci ilin aprelində Şimali Azərbaycanı işğal edən Sovet Rusiyası 1918–1920-ci illər vətəndaş müharibəsi zamanı dağıdılmış iqtisadiyyatını bərpa etmək üçün yeganə çıxış yolunu Bakı neftini ələ keçirməkdə görürdü. Buna görə də 1920-ci ildə Şimali Azərbaycanı işğal edən Sovet Rusiyası, respublika iqtisadiyyatında neft sənayesindən başqa, digər sahələrin inkişafını o qədər də məqsədəuyğun saymırdı. Yalnız 1941–1945-ci illər müharibəsindən sonra Azərbaycan SSR iqtisadiyyatında yeni sahələrin yaradılması istiqamətində konkret addımlar atılmağa başlandı. Bu da, heç şübhəsiz, respublika rəhbərliyinin mərkəzi hökuməti qarşısında qoyduğu çox ciddi tələblərin ümumi nəticəsi idi. Bir tarixi həqiqətdir ki, keçmiş SSRİ dövlətinin iqtisadiyyatının əsasını beşillik planlaşdırma sistemi təşkil edirdi və təbii olaraq Azərbaycan SSR-in də iqtisadi inkişafı bu sistemin tərkib hissəsi hesab olunurdu. Buna görə də 1946–1954-cü illərdə SSRİ iqtisadiyyatının bərpası ilə yanaşı, həm də onun tərkibində olan digər respublikalar da daxil olmaqla, Azərbaycan SSR-də də yeni iqtisadi sahələrin yaradılmasına başlanıldı. 1946–1954-cü il-

lərdə respublika iqtisadiyyatında, neft-kimya və kimya (Sumqayıt), energetika (Mingəçevir və Şirvan) metallurgiya və metal emalı (Daşkəsən və Sumqayıt) və dəniz neftçıxarma sənayesi sahələrinin əsası qoyuldu. Lakin onları yaratmaq və inkişaf etdirmək də asan olmamışdır. Göstərilən illərdə mərkəzi hökumətdə kök salmış erməni-daşnak və rus şovinist dairələrinin respublika neft sənayesi ilə bağlı atdığı addımlar və qəbul etdirməyə çalışdıqları qərarlar belə bir fikir söyləməyə əsas verir. Elə bu çirkin siyasi oyunların nəticəsi idi ki, XX əsrin 60-cı illərinin sonunda Azərbaycan SSR SSRİ respublikaları içərisində öz iqtisadi göstəricilərinə görə sonuncu yerlərdən birini tuturdu. 1960–1970-ci illərdə respublikada sənaye məhsullarının istehsal həcmi 94% artmış, istehsal vasitələrinin istehsalı 91% və mənimsəmə vasitələri istehsalı 103% təşkil etmişdi. Bu illərdə Azərbaycan SSR-də iqtisadi inkişaf üçün 7,538 mln. rubl vəsait xərclənmiş və 100 iri sənaye müəssisəsi istismara verilmişdi. Respublika sənayesinin mühüm sahələrində: elektroenergetikada 93%, yanacaq sənayesində 28%, qara və əlvan metallurgiyada 38%, maşınqayırma və metal emalında 184%, tikinti materialları sənayesində 101%, şüşə və farfor-fayans sənayesində 348%, yeyinti sənayesində 108% istehsal həcmi artmışdı. Sənaye istehsal sahələrində çalışan personalın ortaillik sayı 41%, əmək məhsuldarlığı isə 43% artmışdı [392, 35–191]. Yuxarıda adları çəkilən bu göstəricilərə baxmayaraq, Azərbaycan SSR-in ümumi inkişaf səviyyəsi o zamankı ümumittifaq göstəricilərindən xeyli geridə qalırdı. Belə ki, respublika üzrə hər fərdi şəxsə düşən ictimai məhsul orta ümumİttifaq göstəriciləri ilə müqayisədə 1960-cı ildə olan 75,8%-dən 1970-ci ildə 53,3%-ə, müvafiq olaraq milli gəlir 74%-dən 61%-ə, sənaye üzrə daxili məhsul 75,9%-dən 56,3%-ə, kənd təsərrüfatı məhsulları 68,7 %-dən 70,2 %-ə yüksəlmiş, pərakəndə ticarət dövriyyəsi 69,2 %-dən 62,1 %-ə düşmüşdü [410, 71].

Qeyd etmək lazımdır ki, keçmiş SSRİ dövlətinin siyasi, sosial-iqtisadi və digər sahələrdə inkişafı üzrə əsas istiqamətləri bu dövlətin siyasi hakimiyyətini təmsil edən Sov. İKP MK-nın və onun beş ildən bir keçirdiyi qurultaylarının qəbul etdiyi qərarlar müəyyən edirdi. Buna görə də Sov. İKP-nin 1966–1970-ci illər üzrə XXVII qurultayında qəbul edilən qərarların çox böyük kəsirlərlə yerinə yetirilməsi Azərbaycan KP MK-nın 1969-cu il avqust və dekabr plenumlarında respublikanın sosial-iqtisadi inkişaf vəziyyəti müzakirə edilmiş və

yaranmış belə bir vəziyyətin əsas səbəbləri kimi ölkə iqtisadiyyatına sərişтəsiz rəhbərliyin həyata keçirilməsi, respublikanın istehsal qüvvələrinin planlaşdırılması və istifadəsi zamanı buraxılan səhvlər və çatışmazlıqlar göstərilmişdi [410, 70]. Bütün bunlarla bərabər, respublikanın sosial-iqtisadi vəziyyətinin pisləşməsi həm də onunla xarakterizə olunurdu ki, dövlət plan və əmək intizamının mütəmadi olaraq pozulması, respublika iqtisadiyyatının çox mühüm sahələrinə aid planların qəsdən azaldılması, xüsusilə də neft emalı və neftmaşınqayırma sahələrində yeni texnika və texnologiyanın tətbiqində radikal addımların atılmaması ümumi iqtisadi durğunluğun – geriləmənin başlanmasına səbəb olmuşdu. Buna görə də Azərbaycan SSR-in SSRİ iqtisadiyyatında xüsusi yeri olduğunu bilən imperiya rəhbərliyi respublika rəhbərliyinin dəyişdirilməsi haqqında qərar qəbul etdi. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın plenumu keçirildi və 1967-ci ildən Azərbaycan SSR DTK-nın sədri vəzifəsində işləyən Heydər Əliyev Azərbaycan SSR-in rəhbəri seçildi. Bu, əslində, Azərbaycan xalqının ən yeni tarixində yeni mərhələnin başlanması demək idi. Respublikanın yeni rəhbəri H.Əliyev həmin il avqustun 5-də keçirilən Azərbaycan KP MK-nın plenumunda (plenum keçmiş Sov. İKP-nin qurultaylararası fəaliyyəti zamanı onun özünün və müttəfiq respublikaların partiya təşkilatlarının MK-nın ölkənin daxili və xarici siyasəti ilə bağlı çox mühüm qərarlarının qəbul edilməsi ilə bağlı keçirdiyi xüsusi iclaslara deyilirdi – *C.B.*) çıxış edərək, respublika iqtisadiyyatının bütün sahələrində yaranmış vəziyyəti hərtərəfli analiz edərək, rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə çox ciddi nöqsanların olduğunu qeyd etdi və onların ləğv edilməsi yollarını göstərdi. H.Əliyev öz çıxışında respublikada zəifləmiş dövlət əmək intizamının möhkəmləndirilməsi və mənəvi-psixoloji mühitin sağlamlaşdırılması məsələlərini ön plana çəkərək yaranmış böhrandan çıxış yollarını müəyyən etdi [195, 174]. Respublika rəhbəri tərəfindən müəyyən edilən çıxış yollarının əsas mahiyyəti ondan ibarət idi ki, sovet quruluşunun bütün dövrlərində bir çox respublikalarda, xüsusilə də Azərbaycan SSR-də məhsuldar qüvvələrin inkişafında hökm sürən bir sıra yanlış prinsiplərin əksinə olaraq, onun yüksəlişi respublikanın böyük imkanlarının istifadəsinə və zəruri tələblərinin ödənilməsinə əsaslanmalıdır. Ancaq bu yolla yaranmış ağır vəziyyətdən çıxmaq mümkün

idi. Ona görə də iqtisadiyyatın nəzərdə tutulan böyük miqyaslı inkişafının sürətlə və tələb olunan səviyyədə genişləndirilməsi məqsədilə, ilk növbədə, yaranmış istehsal potensialından tam istifadə edilməsi tələb olunurdu. Lakin respublika iqtisadiyyatını düşdüyü gerilikdən çox qısa vaxtda çıxarmaq üçün təkcə bu vəzifənin həlli kifayət deyildi. Həm də əvvəllər onun sosial-iqtisadi inkişafında əldən verilmiş imkanlar nəticəsində məhsuldar qüvvələrin ümumi səviyyəsində yaranmış boşluqların müəyyən dərəcədə doldurulması üçün zəruri olan əlavə vəsaitin İttifaq hökumətindən alınması məqsədilə böyük müdrikliklə düşünülmüş və elmi cəhətdən əsaslandırılmış tələblərin irəli sürülməsi çox vacib idi. Heydər Əliyevin təşəbbüsü ilə İttifaq hökuməti Azərbaycan SSR-də sənayenin və kənd təsərrüfatının intensiv inkişafı üçün beş xüsusi qərar qəbul etdi, xeyli vəsait və maddi-texniki resurslar ayrıldı. Azərbaycan SSR-də iqtisadi quruculuq fəaliyyəti 70-ci illərin ilk ilindən sürətlə başlandı. Sərmayə qoyuluşunun həcmi 1971–1985-ci illərdə 32 milyard rubl (manat) təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində cəmi istifadə edilən vəsaitdən 2,1 dəfə çox idi. Başqa sözlə, göstərilən 15 ildə hər il orta hesabla 2133 milyon rubl vəsait istifadə olunurdu ki, bu da əvvəlki 50 ilin ortaillik göstəricilərindən 7 (288 milyon) dəfə çox idi [195, 182].

Respublikada 70-ci illərdən başlayaraq məhsuldar qüvvələrin inkişafı, onun imkanlarında daha səmərəli istifadə edilməsi və müasir inkişaf meyillərinin vəzifələrinə uyğun möhtəşəm quruculuq proqramı iqtisadiyyatın strukturunda zəruri təkmilləşmənin əsasını qoydu.

Azərbaycan SSR-də sənayenin maşınqayırma, kimya, neft-kimya, tikinti materialları, yeyinti sənayesi və b. sahələrinin inkişaf imkanları çox olduğundan 1971–1985-ci illərdə mənimsənilən sərmayə qoyuluşunun 45%-dən çoxu bu sahələrin artımı üçün istifadə edilirdi. Məhz buna görə sənaye daha sürətlə inkişaf edirdi. Onun quruluşunda ciddi dəyişikliklər baş verirdi. Belə ki, sənayedə maşınqayırma kompleksinin xüsusi çəkisi 1960-cı ildəki 5,1 %-dən 1985-ci ildə 16,4 %-ə, kimya, neft-kimya və meşə sənaye kompleksinin müvafiq qaydada 4,1-dən 8,7 faizə, tikinti materialları istehsalı 2,7-dən 3,2 %-ə, yeyinti sənaye kompleksinin xüsusi çəkisi 15,3-dən 31,3 %-ə qalxdı [195, 182].

Respublikanın güclü elmi-texniki və istehsal potensialına söykənərək iqtisadiyyatın mühüm istiqamətlərinin inkişafı ardıcıl mərhə-

lələr üzrə həyata keçirilirdi. Zəngin yerli təbii sərvətlər əsasında əlvan metallurgiyanın yeni istehsal sahələri yaranırdı. Qara metallurgiyada yüksəkkeyfiyyətli məhsullar istehsal edən elektrometallurgiya mənimsənilirdi. Əvvəllər daha çox xammalın ilkin emalı ilə məhdudlaşan kimya sənayesi üzrə müxtəlif çeşidli və təyinatlı məhsullar istehsalı səmərəli inkişaf edirdi. Üzümçülük istehsal kompleksi ilə bağlı yeni sənaye sahələri tərəqqi edirdi. Kənd təsərrüfatı təyinatlı maşınqayırma sənayesində ciddi işlər görülürdü. Respublika üçün həyati əhəmiyyət kəsb edən maşınqayırmanın önəmli istiqamətləri əsasında yeni müəssisələr yaradılırdı.

70–80-ci illərdə, xüsusən H. Əliyevin rəhbərliyi dövründə Azərbaycan SSR-in təbii sərvətlərindən respublikanın öz mənafeyi üçün daha səmərəli istifadə edilməsinə diqqət yetirilirdi. Yerli xammal resurslarından son hazır məhsullar istehsalı sahəsində, hətta mərkəzdən ciddi maneələr törədilsə də, respublikada çox qəti addımlar atıldı. Az vaxt içərisində yerli alüminium xammalı əsasında soyuducular üçün buxarlayıcılar və başqa hazır məhsulların istehsalı təşkil edildi. Salyan plastik kütlə emalı zavodu inşa edildi. Yerli xammal əsasında respublikada bütün növ parça məhsullarının, geniş çeşidli trikotaj, tikiş məmulatlarının və digər çoxlu hazır məhsulun həcmi artdı. Məsələn, həmin vaxtlar bütün növ parça məhsulları 43%, o cümlədən ipək parçalar iki dəfə, trikotaj məmulatları iki dəfədən çox, xalça və xalça məmulatları beş dəfəyə qədər artdı. Sumqayıtda nəhəng EP–300 qurğusunun yaradılması Azərbaycan SSR-də kimya sənayesində müxtəlif məhsullar istehsalının əsasını qoydu [182].

70–80-ci illərdə yeni müəssisələr sənayenin istehsal quruluşunun təkmilləşdirilməsində və məhsul istehsalının artırılmasında əhəmiyyətli rol oynamışdır. Belə ki, həmin illərdə Azərbaycan SSR-də 218 yeni sənaye müəssisəsi istifadəyə verildi ki, bu da Sovet hakimiyyətinin əvvəlki 50 ilində istifadəyə verilən yeni sənaye müəssisələrinin 70%-ə qədərini təşkil edirdi. Mingəçevirdə tikilən və Cənubi Qafqazda ən iri elektrik stansiyası – Yeni Azərbaycan Dövlət rayon Elektrik stansiyası, Şəmkir SES-i, Bakı Məişət Kondisionerləri zavodu, Sumqayıt Kompressorlar Zavodu, Salyan Plastik Kütlə Emalı Zavodu, Mingəçevir yol maşınları zavodu və rezin-texnika məmulatları zavodu, Əli Bayramlı Məişət Cihazları, habelə sənaye, avtomatika və telemexanika zavod-

ları, Ağdam dəzgahqayırma və metiz-furnitur zavodları, Neftçala Yeni Yod-Brom zavodu, Bakı və Xankəndi şəhərlərində iri ayaqqabı fabrikləri, Gəncə Xalça, Qənnadı və çini-saxsı qablar fabriki, Bakı Şampan Zavodu, Naxçıvan alt trikotaj fabriki, Yevlax yunun ilkin emalı fabriki, Göyçay pambıqəyirici fabriki, onlarla yüngül yeyinti və başqa sənaye müəssisələri istifadəyə verilmişdi. Qeyd etmək lazımdır ki, bu yeni tikilən müəssisələr içərisində Bakı Məişət Kondisionerləri zavodunun tikintisi xüsusi əhəmiyyət kəsb edirdi.

1973-cü ilin sonunda Bakıda Məişət Kondisionerləri zavodunun tikintisinə başlanıldı. Zavodun tikintisi elə ilk gündən Azərbaycan rəhbərliyinin diqqət mərkəzində idi. Azərbaycan KP MK və respublika Nazirlər Soveti zavodun tikintisinin sürətləndirilməsi haqqında qərar qəbul etdi [182, v.11].

1975-ci ilin mart ayında Azərbaycan KP MK «Məişət kondisionerləri zavodunun tikintisi və istifadəyə verməyə hazırlanmasının gedişi haqqında» məsələ müzakirə edib, geniş qərar qəbul etdi [182, v.12].

Qərarda əldə edilmiş nəticələr müsbət qiymətləndirilməsi ilə bərabər, tikintinin gedişində yol verilmiş nöqsanlar göstərilir, tezliklə aradan qaldırılması tələb edilirdi.

1975-ci il sentyabrın 10-da Azərbaycan KP MK Bürosunun üzvləri, başda Heydər Əliyev olmaqla, zavodun tikintisinə getdilər. Onlar tikinti obyektində işlərin gedişi ilə ətraflı tanış olduqdan sonra zavodun klubunda işgüzar söhbətlər aparılmışdı. Söhbət zamanı qeyd olunmuşdu ki, inşaatçıların və quraşdırıcıların fədakar əməyi sayəsində, həqiqətən, rekord müddətdə istehsal prosesinin mürəkkəbliyinə görə nadir müəssisə ucaldılmışdır. Elə həmin gün sentyabrın 10-da Azərbaycan KP MK-da müşavirə keçirilmiş və görülən işlərə çox yüksək qiymət verilmişdi. Müşavirədə qeyd olunmuşdu ki, 155 min kvadratmetr sahəni tutan kondisioner zavodunun tikintisinə 1430 milyon manat vəsait xərclənmişdir. Bunun 37,9 milyon manatdan çoxu inşaat-quraşdırma işlərinə sərf olunmuş, müəssisədə 4 min mürəkkəb texnoloji və texniki avadanlıq quraşdırılmışdır. Təkcə baş korpusun tikintisində 700 min kubmetr torpaq işi görülmüş, 130 min kubmetr dəmir-beton konstruksiya quraşdırılmış, min kilometr boru və kabel çəkilmişdi [237].

Bu müəssisələrin respublikanın müxtəlif bölgələrində yaradılması, ilk növbədə, Azərbaycan SSR üçün həmişə ciddi problemin – sənayenin regionlarda qeyri-bərabər yerləşdirilməsinin həllində mühüm rol oynadı. Tarixən Azərbaycan SSR-də sənayenin birtərəfli inkişafı ilə əlaqədar onun müəssisələri, əsasən, Abşeron (Bakı–Sumqayıt) regionunda yerləşdirildiyindən, respublikanın digər ərazilərində iqtisadiyyatın bu aparıcı sahəsinin ümumi inkişaf səviyyəsi həmişə xeyli aşağı olmuşdur. 1970–85-ci illərdə yaradılan yeni sənaye müəssisələrin 158-i və ya 72%-i Bakı–Sumqayıt iqtisadi rayonunun hüdudlarından kənarda, respublikanın başqa ərazi sahələrində istifadəyə verildi. Nəticədə Bakı–Sumqayıt iqtisadi rayonunun respublika sənaye məhsulu istehsalında xüsusi çəkisi 1970-ci ildəki 70%-dən 1985-ci ildə 50 faizə endi, qalan rayonların payı isə 41 faizə qalxdı [406, 203].

Respublika ərazisində məhsuldar qüvvələrin, xüsusən sənayenin daha səmərəli yerləşdirilməsi və təkmilləşdirilməsi rayonların simasını kökündən dəyişdirdi, əhalinin sosial-mədəni həyatı, mədəni şüuru, mənəviyyatı ciddi dəyişikliklərə səbəb oldu, yerli əmək ehtiyatlarından daha tam istifadə edilməsində əhəmiyyətli rol oynadı. Belə ki, 1970–1985-ci illərdə sənaye sahəsinə 143 min nəfər əlavə işçi cəlb edilmişdi ki, bu da 1940-cı ildə respublikanın bütün sənayesində çalışanlardan da bir qədər çox idi [195, 184].

Ağır və yüngül sənayenin mühüm sahələri geniş inkişaf etmişdi. 1985-ci ildə 1970-ci ilə nisbətən istehlak malları istehsalının artımı 305,8 faiz, istehsal vasitələri istehsalı üzrə isə 276,1% oldu. Aparıcı sənaye sahələrinin xüsusi çəkisi artdı, istehsal olunmuş bütün məhsulların 28 faizi mütərəqqi sənaye sahələrinin payına düşürdü.

Sov.İKP MK-nın 1976-cı ildə qəbul etdiyi «1976–1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişafı üzrə Azərbaycan KP MK təkliflərinin müzakirəsinin nəticələri haqqında» qərarı, H.Əliyevin qeyd etdiyi kimi, elmi-texniki tərəqqi əsasında respublikanın sosial-iqtisadi inkişafının prinsipcə yeni mərhələsinin başlanğıcı oldu: 15 iri kompleks işə düşdü [318].

Elmi-texniki yüksəliş mexanikləşdirilmiş axın və avtomatik xətlərin, kompleks-mexanikləşdirilmiş və avtomatlaşdırılmış sahələrin, sexlərin istehsalatlarının artmasına şərait yaratdı. Müəssisələrin yeni maşınlarla, texnika ilə təminatı xeyli yaxşılaşdı. 1971–1985-ci illərdə

Azərbaycan SSR iqtisadiyyatının inkişafında elmi-texniki tərəqqinin nailiyyətlərindən geniş istifadə edilməsi onun səmərəsini xeyli yüksəltmişdi. Respublika sənayesinin özündə 581 adda maşın, avadanlıq, aparat və cihaz yaradılmışdı. 1985-ci ildə sənayedə 2519 mexanikləşdirilmiş axın xətti, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş xətt və avtomatlaşdırılmış istehsal sahəsi uğurla işləyirdi. Sənayedə, ilk növbədə, elmi tutumlu və elmi-texniki tərəqqiyə xüsusi üstünlük verilirdi. Azərbaycan SSR sənayesi bu illərdə ən yüksək keyfiyyət nəticələrinə nail olmuşdu. Elmi-texniki nailiyyətlərin geniş tətbiqi nəticəsində ən yüksəkkeyfiyyətli məhsulların xüsusi çəkisi həmin dövrdə 1,3%-dən 17,2%-ə qalxmışdı. Müəssisələrin texniki cəhətdən yenidən qurulması, elektrotexnika, radiotexnika, dəzgah istehsalı üçün güclü müəssisələr tikmək proqramının həyata keçirilməsi nəticəsində təcrübə-eksperiment zavodu istismara verildi, neft maşınqayırma, elektrotexnika və başqa müəssisələrin çoxu yenidən quruldu. 15 ildə maşınqayırmada istehsalın həcmi 5,3 dəfə artdı, yüzlərlə yeni maşın, aqreqat, avadanlıq və alət mənimsənildi [195, 185].

Azərbaycan SSR SSRİ-nin ən iri elektrotexnika sənaye mərkəzlərindən birinə çevrildi. Respublika elektrotexnika sənayesinin flaqmanı Sovet İttifaqının ən böyük zavodlarından biri – Bakı məişət kondisionerləri zavodu idi. Bu zavod 1975-ci ildə H.Əliyevin təşəbbüsü ilə tikildi. Bu zavodun inşasına başlanmasının birinci günündən onunla bağlı bütün məsələlər şəxsən H.Əliyevin daimi diqqəti və inadlı əməyi sayəsində həll olunurdu. Zavod ildə 400 min kondisioner istehsal etmək gücünə malik idi. 70-ci illərin axırlarında radiomaşınqayırma, iri elektrik sobaları istehsal edən zavodlar, alət istehsalı zavodunun ikinci növbəsi və başqa müəssisələrin tikintisinə başlandı. Respublikada iri maşınqayırma kompleksi ölkə üçün vacib olan neftmədən texnikasının 70%-dən çoxunu istehsal edirdi.

70–80-ci illərdə kimya və neft-kimya sənayesinə xlor, kaustik soda, kükürd turşusu, sulfanol istehsal edən iri müəssisələr əlavə olundu, sintetik yuyucu vasitələr, superfosfat istehsalı üzrə müəssisələr istismara verildi. Mineral gübrə, plastik kütlə, sintetik kauçuk və sulfanol, kükürd turşusu, məişət kimyası malları istehsalı artdı.

1970-ci ildən başlayaraq Azərbaycan SSR-də energetika sənayesinin inkişafına xüsusi diqqət yetirilirdi. Bu dövrdə Azərbaycan

SSR Naxçıvan MSSR ərazisində Araz çayı üzərində İran İslam Respublikası ilə müştərək su-elektrik stansiyası, Sumqayıt elektrik stansiyasının ikinci növbəsi, «Qırmızı ulduz» elektrik stansiyasında iki iri boru generatoru isə düşmüşdü. Şəmkir enerji kompleksinin və Azərbaycan Dövlət Rayon Elektrik stansiyasının tikintisinə başlanılmışdı. Bu stansiyanın 1970-ci ildə ümumi gücü 2741 min kilovat idisə, 1985-ci ildə bu, 4649 min kilovat olmuş, burada elektrik enerjisi istehsalı 122027 mln. kilovat-saatdan 20702 kilovat saata çatmışdı [406, 3]. XX əsrin 70–80-ci illərində Azərbaycan SSR-də metallurgiya sənayesinin inkişafında mühüm irəliləyişlər baş vermişdi. Belə ki, bu illərdə respublikada 1970-ci ildə polad istehsalı 441 min tondan 1980-ci ildə 5750 min tona çatdırılmışdı [398, 66]. 1970–1985-ci illərdə respublikada qara metallurgiya ilə yanaşı əlvan metallurgiya sənayesinin də coğrafiyası xeyli genişlənmişdi. 1980-ci ildə Bakı. Naxçıvan və Gəncə şəhərində əlvan metallurgiya müəssisələri istifadəyə verilmişdi [82, v.78].

Bu dövrdə respublika iqtisadiyyatının mühüm hissəsini yüngül sənaye sahələri təşkil edirdi. 1985-ci ildə Azərbaycan SSR-də əvvəlki illərlə müqayisədə pambıq lifi istehsalı 251,1 min ton, xam ipək sapı 456 ton, yun iplik 8,2 min ton, alt trikotaj paltarı 27,9 milyon ədəd, üst trikotaj paltarı 12,9 milyon ədəd, xalça-palaz və xalça məmulatı 4045 min kv.m-ə çatdırılmışdı [398, 66].

Azərbaycan SSR iqtisadiyyatının mühüm sahələrindən biri olan yeyinti sənayesi bu dövrdə ən sürətlə inkişaf edən sahələr içərisində idi. Respublikada yeyinti məhsullarının istehsalı 1985-ci ildə 76,8 min ton ət, 29,1 ton kolbasa məmulatları, 219,6 ton üzlü süd məhsulları, 54,8 min ton bitki yağı, 619.9 mln. şərti banka müxtəlif konservlər, 94,9 min ton qənnadı məmulatları, 164,1 mln. yarımlitrlik şüşə mineral sular, 117,9 min ton duz, 18,6 min ton təbii çay və s. yeyinti sənaye məhsulları istehsal edilmişdi. Ümumilikdə isə bu sənaye sahəsinin inkişafına görə Azərbaycan SSR SSRİ-də birinci yerdə dururdu.

Bütün bunlar 1969–1981-ci illərdə Azərbaycan SSR-ə rəhbərlik edən və SSRİ dövlətinin rəhbərlərindən biri olan, müasir Azərbaycan Respublikası dövlətinin əsasını qoyan Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının milli mənafelərinin inkişafı üçün həyata keçirdiyi irimiqyaslı işlərin uğurlu nəticəsidir.

4.3. Respublikada əsaslı tikintinin geniş miqyas alması və inkişafı

1969–1982-ci illər Azərbaycan SSR tarixində başqa dövrlərlə müqayisədə kiçik bir dövrdür. Lakin respublikada sosial-iqtisadi inkişafın genişliyi, kompleksliyi və sürətinə görə bu dövr ölkəmizin tarixində xüsusi yer tutur. Çünki həmin vaxtda respublikanın və Azərbaycan xalqının ictimai-siyasi həyatının bütün sahələrində görünməmiş canlanma baş vermişdi. Bu illər vətənimizin tarixinə siyasi, iqtisadi, mədəni və mənəvi yüksəlişin müşahidə edildiyi, respublikanın uzunmüddətli perspektiv üçün hərtərəfli inkişafının möhkəm əsası qoyulduğu bir dövr kimi daxil olmuşdur. Və heç şübhəsiz ki, bu proseslərin baş verməsində o illərdə respublikaya rəhbərlik etmiş Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur.

Həmin dövrün yalnız bir günü ərzində Azərbaycan SSR-də istehsal olunan məhsulun həcmi insanı heyran etməyə bilməz: 41 min ton neft, 37 milyon kubmetr qaz, 2200 ton polad, 69 min metr uzununa ölçülən boru, 4900 avtotəkər, 2700 mədən gübrələri, 968 məişət kondisioneri, 734 soyuducu, 546 min metr müxtəlif parçalar və s. [279, 19]. O illərdə tikinti və quruculuq işlərinin miqyası, həqiqətən, heyrətləndirirdi. Belə yüksək nəticələri əldə etmək üçün Heydər Əliyevdən böyük təşkilatçılıq istedadı, əməksevərlik, inadkarlıq, işə yaradıcı münasibət, prinsipiallıq və əzmkarlıq tələb olunurdu. Əsaslı tikinti ictimai istehsalın inkişafında və onun səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayırdı. Mahiyyət etibarilə respublika iqtisadiyyatının elə bir sahəsi yox idi ki, o sahə əsaslı tikinti istehsalından kənarda qalsın. Heydər Əliyev əsaslı tikintinin inkişafına böyük əhəmiyyət verirdi. Onun fikrincə, bu sahə bütün maddi istehsal sahələrinin inkişafında, onların əsas istehsal fondlarının genişlənməsi və keyfiyyətcə təkmilləşdirilməsində müstəsna rol oynayır. Bu barədə H.Əliyev müxtəlif partiya və dövlət tədbirlərinin, konfransların və müşavirələrin kürsülərindən dönə-dönə söyləmişdi. Məsələn, 1971-ci ilin fevralında keçirilmiş Azərbaycan KP-nin 40-cı Bakı konfransındakı çıxışında o demişdir ki, bütün sosial problemləri həll etmək üçün, iqtisadiyyatın sonrakı inkişafına nail olmaq üçün biz ümumən respublika miqyasında, o cümlədən Bakı şəhərində əsaslı tikintini kökündən yaxşılaşdırmalıyıq [383, 18].

AKP MK-nın 7 fevral 1979-cu ildə keçirilmiş plenumunda çıxışında isə H.Əliyev qeyd etmişdir ki: «…iqtisadiyyatın dinamik inkişafı daha çox əsaslı tikintinin vəziyyəti, onun potensial imkanlarından asılıdır» [165, 25, v.15]. 12 fevral 1979-cu ildə keçirilən partiya-təsərrüfat fəallarının yığıncağında Heydər Əliyev bəyan etmişdir ki: «… respublika iqtisadiyyatının başqa sahələrindən fərqli olaraq əsaslı tikinti burada aparılan işlərin xarakterinə və növünə görə daha hərtərəfli və müxtəlifdir. Onun nəticələri bir çox amillərdən asılıdır, buna görə də başlıcası ondan ibarətdir ki, bütün kompleks dəqiq, sahmanlı, dinamik, qarşılıqlı əlaqə əsasında işləsin» [289]. O, həmçinin bildirmişdir ki: «… əsaslı tikinti xalq təsərrüfatının ən kəskin problemidir və onun sonrakı inkişafı bütövlüklə inşaatçıların müvəffəqiyyətli işindən asılıdır. Ona görə də əsaslı tikinti həmişə əlaqədar qurumların diqqət mərkəzində olmalıdır ki, ən yaxın zamanda respublikada maddi istehsalın bu ən mürəkkəb və çətin sahəsində köklü dönüş təmin edilsin» [410, 207].

1969-cu ildə Azərbaycan SSR iqtisadiyyatında bütün göstəricilərə görə, o cümlədən əsaslı tikintidə gerilik müşahidə olunurdu. 1966–1970-ci illər ərzində bu sahə üzrə 303 mln. rubl məbləğində kapital qoyuluşu istifadə edilməmiş və istismara 670 mln. rubl məbləğində əsas sərmayələr qoyulmamışdı. Bu səbəbdən də respublika əhalisi həmin illərdə 1 mln. 98 min. m^2 yaşayış sahəsi və ya təqribən 30 min mənzil, 30 məktəb və 6 xəstəxana ala bilməmişdi [410, 44]. Əsaslı tikintinin vəziyyəti qənaətbəxş deyildi, bu sahə respublika iqtisadiyyatının və məhsuldar qüvvələrinin inkişafını əngəlləyən ən geridə qalan sahə idi. 1969-cu ilin avqustunda keçirilən Azərbaycan KP MK-nın plenumunda çıxış edən H.Əliyev əsaslı tikintidə vəziyyətin pisləşməsinin dözülməz olduğunu söyləmiş və bunun əsas səbəblərindən əməyin təşkilinin pis vəziyyətdə olmasını, tikinti materiallarının mühafizə edilməsi və düzgün xərclənməsi üzərində lazımi nəzarətin olmamasını, kadr axınını, əmək intizamının aşağı səviyyədə olduğunu göstərmişdir [129, v.17].

Tədqiq edilən dövrdə H.Əliyevin rəhbərliyi altında əsaslı tikinti üzrə bu sahədə inkişaf üçün geniş imkanlar açan və onun vəziyyətini yaxşılaşdıran mühüm qərarlar qəbul edilmişdi. Məsələ ilə bağlı əsas qərarlar Azərbaycan KP MK-nın 1969-cu il avqust, 1970-ci il mart və

dekabr plenumlarında, 7 aprel və 19 may 1970-ci il Azərbaycan KP MK-nın katibliyi tərəfindən, 5, 27 may, 10 noyabr 1970-ci il Azərbaycan KP MK-nın Bürosu tərəfindən və 30 iyul 1970-ci il Azərbaycan SSR Nazirlər Sovetinin Rəyasət Heyəti tərəfindən, 17 avqust və 8 oktyabr 1972-ci il tarixli Azərbaycan KP MK-nın müşavirələrində, MK-nın 1973-ci il fevral plenumunda, 19 mart 1974-cü ildə gənclər forumunda, 10 yanvar 1976-cı il 42-ci Bakı şəhər partiya konfransında, Azərbaycan KP MK-nın 1976-cı il iyun, 1978-ci il fevral, 1979-cu il fevral plenumlarında, 12 may 1980-ci il 43-cü Bakı şəhər partiya konfransında, 11 oktyabr 1980-ci il tarixli Azərbaycan KP MK Bürosunun genişləndirilmiş iclasında, Azərbaycan KP MK-nın 1980-ci il noyabr plenumunda, Azərbaycan KP MK-nın 16 yanvar 1981-ci il tarixli qətnaməsində, 1981-ci ildə 44-cü Bakı şəhər partiya konfransında, Azərbaycan KP MK-nın 1982-ci il yanvar, iyun və dekabr plenumlarında və digər tədbirlərdə qəbul edilmişdir. Bununla da əsaslı tikinti üzrə respublika həyatının bütün sahələrində köklü dəyişikliklərin aparılmasına yönəlmiş konstruktiv proqram işlənilmişdir.

Qəbul edilmiş qərarların hər bir bəndi arxasında əlavə irihəcmli kapital qoyuluşu, sənaye müəssisələrinin tikintisi, yeni avtomobil yollarının çəkilməsi, köhnə avtomobil yollarının, irriqasiya qurğularının və sistemlərin bərpası, su-elektrik stansiyaları və su anbarlarının tikilməsi, on min hektarlıq bağça və üzümlüklərin salınması, yüz min hektar quraq torpaqların su ilə təmin edilməsinin yaxşılaşdırılması, şəhər və kəndlərdə yeni yaşayış massivlərinin yaradılması məsələləri dayanırdı.

Respublika ərazisində tikilən bütün obyektlər Heydər Əliyevin diqqət mərkəzində idi. Əsaslı tikintidə əldə olunmuş uğurları qeyd edərkən, Heydər Əliyev, eyni zamanda respublika iqtisadiyyatının bu sahəsində mövcud olan qüsurları da göstərir, onların aradan qaldırılması üçün konkret tədbirləri müəyyənləşdirirdi. Məsələn, Azərbaycan KP MK-nın 1970-ci il 3 dekabr tarixli plenumunda H.Əliyev Azərbaycan SSR-də iqtisadiyyatın sonrakı inkişafına həsr olunan geniş məruzə ilə çıxış edərək bildirdi ki: «... tikinti materialları istehsalının inkişafı əsaslı tikintidə əldə olunan artımın sürətindən xeyli geridə qalır. Buna görə də inşaatçıların tələbatı və tikinti materialları sənayesinin imkanları arasında uyğunsuzluq yaranmışdır. Tikinti materialları sənayesinin

inkişafı əsaslı tikintinin gedişini qabaqlayan sürətli templərlə həyata keçirilməlidir. Fəaliyyət göstərən zavod və karyerlərin işinin yaxşılaşdırılması ilə yanaşı, qarşıdakı beş il ərzində müvafiq qərarla nəzərdə tutulan tikinti materiallarının istehsalı üzrə yeni müəssisələri inşa etmək lazımdır» [284, 26].

1973-cü il martın 21-də Azərbaycan KP MK Bürosunda məruzə ilə çıxış edən H.Əliyev bildirdi ki: «... tikinti və sənaye nazirlikləri və idarələri, respublika Dövlət Plan Komitəsi və Baş Təchizat İdarəsi kapital tikintidəki ciddi qüsurların aradan qaldırılmasını təmin edə bilməmişdilər». O, həmçinin bu vəzifələrin yerinə yetirilməsi məqsədilə konkret tədbirləri də göstərmişdir [145, 26, v.9]. 1976-cı ildə Azərbaycan KP MK-nın iyun plenumunda Sov.İKP-nin XXV qurultayının qərarlarına uyğun olaraq əsaslı tikintinin yaxşılaşdırılması üzrə respublika partiya təşkilatının vəzifələrinə həsr edilən geniş məruzəsində H.Əliyev əsaslı tikintidə vəziyyəti ətraflı şəkildə təhlil etdi. O bu sahədə mühüm irəliləyişin baş verməsini söyləyərək mənfi halları da sadaladı və onların aradan qaldırılması yollarını göstərdi [286, 57–68].

1980-ci il oktyabrın 11-də Azərbaycan KP MK-nın Bürosunda 1980-ci il üzrə respublika tikinti təşkilatlarının fəaliyyətinin nəticələri və əsaslı tikinti planlarının yerinə yetirilməsinin təmin edilməsi üzrə tədbirlərə həsr edilən məsələlərlə bağlı məruzə ilə çıxış edən Heydər Əliyev bildirdi ki: «...tikinti təşkilatlarının işində lazımi uzlaşma yox dərəcəsindədir, istehsal və əmək təşkili aşağı səviyyədədir. Çoxsaylı tikinti meydançalarında resursların dağılması ilə bağlı qüsurlu təcrübə hələ də mövcuddur, texnika və iş qüvvəsinin bir tikintidən başqasına göndərilməsi tikinti işlərinin ritmini pozaraq tempin azalmasına gətirib çıxarır» [165, 106, v. 2–8]. Heydər Əliyev Dövlət Tikinti Komitəsinə və layihə təşkilatlarına müvafiq tapşırıqlar verərək bəyan etdi ki: «... tikinti üzrə komissiyanın fəaliyyəti tikinti meydançalarına keçirilməlidir. İclasların sayı azalmalı, konkret rəhbərliyin səviyyəsi yüksəldilməli, istehsaledici obyektlər hər gün nəzarətdə saxlanılmalıdır» [165, 390, v. 48–49]. H.Əliyevin bu səpkidə çıxışları çoxsaylıdır və onları respublika həyatının bütün sahələrinə aid etmək olar.

Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumundan sonra tikinti təşkilatlarının strukturunun təkmilləşdirilməsi istiqamətində də xeyli iş görülmüşdü. Respublika Tikinti Sənayesi Nazirliyinin tərki-

bindən müstəqil təşkilat kimi Bakı Baş Tikinti İdarəsi ayrılmış, montaj işi ilə məşğul olan təşkilatların işi tənzimlənmiş və onların ixtisaslaşması genişləndirilmişdi. Həmçinin respublika Kənd Təsərrüfatı Nazirliyinin tərkibində Şərabçılıq Obyektlərinin tikintisi üzrə Baş İdarənin təşkili və Azərbaycan SSR-də kolxoz və sovxozlarda tikinti üzrə Baş İdarənin yaradılması haqqında qərarlar qəbul edilmişdi.

Tədqiq edilən dövrdə müasir tikinti texnikaya, konstruksiyalar və materialların istehsalı üzrə müəssisələrə, tərkibində 59 tikinti-montaj trestləri, 3 evtikmə kombinatı, eləcə də 150 min nəfərin çalışdığı çoxlu sayda kolxozlararası təşkilatlar olan podrat təşkilatlara malik iri tikinti sənayesi yaradılmışdı [410, 37].

Heydər Əliyev əsaslı tikinti üzərində rəhbərliyin yaxşılaşdırılmasına, respublika iqtisadiyyatının bütün istehsal obyektlərinin tikintisi və istismara verilməsinə mütəmadi olaraq diqqət yetirirdi. Bunun üçün büdcədən böyük məbləğdə vəsaitlər ayrılırdı. Heydər Əliyevin söylədiyi kimi, 13 il ərzində respublika iqtisadiyyatının inkişafına 21,3 milyard rubl məbləğində əsası kapital qoyulmuşdu ki, bu da əvvəlki 50 il ərzində qoyulduğundan 1,4 dəfə artıq idi [301, 248].

1970–1982-ci illərdə respublikanın əsas istehsalat fondları 2,3 dəfə artırılmış və bu böyük həcmdə artım templəri həm kənd təsərrüfatı (2,7 dəfə), həm də tikinti üçün (3,44 dəfə) də səciyyəvi idi [409, 64].

H.Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildikdən sonra da Azərbaycan SSR onun diqqət mərkəzində idi. Sov.İKP MK katibi Yeqor Liqaçov böyük həsəd və xəbisliklə qeyd edirdi: «Heydər Əliyev ona xas olan israr, inandırmaq bacarığı, hadisələrə mümkün dərəcədə təsir göstərmək kimi keyfiyyətləri nümayiş etdirmişdi. Bu işdə onun öz gücünə güvənmə, özünə və kadrlarına xüsusi tələbkarlıq, tapşırıqların yerinə yetirilməsində yüksək səviyyədə məsuliyyət hissi nəzərə çarpırdı» [299, 31].

H.Əliyevin şəxsi siyasi nüfuzu ona imkan verirdi ki, Azərbaycan SSR üçün İttifaq büdcəsindən respublika iqtisadiyyatının maliyyələşdirilməsinin xeyli artırılmasına nail olsun və nəticədə 10 il ərzində respublika iqtisadiyyatına 15 milyard rubl məbləğində kapital qoyulmuşdu [291, 70]. Heydər Əliyev sonralar xatırlayırdı ki: «... o illər onun siyasi fəaliyyətində ən yaxşı illər idi, hətta iş bitəndən sonra o, evə getmirdi, respublikada vəziyyətin yaxşılaşdırılması ilə bağlı fikirləşir və

yeni planlar qururdu. Fikirləşirdi ki, vəzifəsindən irəli gələn imkanlardan necə bəhrələnsin ki, xalqı üçün yeni-yeni işlər görə bilsin» [296, 93].

Azərbaycan SSR-də sənayenin inkişafı böyük tikinti proqramının həyata keçirilməsi ilə bilavasitə bağlı idi. Tədqiq edilən illərdə Azərbaycan SSR sənayesinin strukturunun elmi-texniki tərəqqisini təmin edən sahələrin intensiv inkişafı istiqamətində köklü şəkildə dəyişilməsi proqramının həyata keçirilməsi nəzərdə tutulurdu. Respublikada çoxsahəli sənaye infrastrukturu yaradılmış, yeni iri müəssisələr tikilərək istismara verilmişdi. Bundan əlavə, artıq fəaliyyətdə olan müəssisələrin yenidən qurulması və yenidən texniki avadanlıqla təchiz edilməsi üzrə geniş proqram reallaşdırılmışdı. 1970–1982-ci illərdə respublikada 213 iri sənaye müəssisəsi istifadəyə verilmişdi [250, 386]. Eyni zamanda neft emalı müəssisələrinin tam yenidən qurulması həyata keçirilmiş, elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi sahələrində iri zavodlar tikilərək istifadəyə verilmişdi.

Heydər Əliyev Azərbaycan SSR iqtisadiyyatının ənənəvi sahələrində – neft emalı və neft-kimya sənayelərində də vəziyyəti böyük diqqətlə izləyirdi. İri templərlə neft emalı və metal emalı zavodlarının, kimya, neft-kimya sənayelərində texnoloji qurğuların tikintisi və yenidən qurulması işi aparılırdı. Ona görə də belə müəssisələr olmadan neft sənayesinin inkişafından söhbət gedə bilməzdi.

İqtisadiyyatda mütərəqqi struktur dəyişikliklərinin həyata keçirilməsi və xüsusilə də Bakı neft emalı zavodlarının yenidən qurulması üzrə geniş proqramın reallaşdırılması artıq bir reallıq idi. Bu işlərin başlanğıcı 1976-cı ildə Yeni Bakı Neft Emalı Zavodunda ölkənin ən qüvvətli neft emalı qurğularından birinin – ELOU-AVT qurğusunun istismara verilməsi idi. ELOU-AVT-da aparılan proses tam avtomatlaşdırılmış olduğu üçün burada əl əməyindən tamamilə istifadə olunmurdu. Bu qurğu yüksəkoktanlı benzin və neft məhsullarının digər on növünü istehsal edirdi. Qurğunun quraşdırılmasında 20-yə yaxın tikinti və montaj işi ilə məşğul olan təşkilatların kollektivləri iştirak etmişdilər [313].

Tədqiq edilən dövrdə respublikada maşınqayırma sənayesinin inkişafı üzrə böyük tikinti proqramı da həyata keçirilmişdi. Elektronika, radiotexnika, dəqiq cihazqayırma kimi yeni sənaye sahələri yara-

dılmışdı. Leytenant Şmidt adına zavodun əsasında bir sıra neftmaşınqayırma müəssisəsi istifadəyə verilmişdi. Suraxanı zavodunda neft hasilatında yerin müxtəlif dərinliklərdə istifadə edilən nasosların istehsalına başlanılmış, dəzgahların istehsalı «Bakı fəhləsi» zavoduna, qazıma bəndlərinin (kilidlərin) və iskənələrin (baltaların) istehsalı isə Bakı Maşınqayırma Zavoduna verilmişdi. Bu zavod həmin dövrdə SSRİ ərazisində neft maşınqayırması üzrə ən güclü çoxprofilli müəssisələrdən birinə çevrildi. SSRİ neft sənayesində istifadə edilən avadanlığın nomenklaturasının 70%-i Bakı neftmaşınqayırma zavodlarında istehsal olunurdu.

Bu illər ərzində respublikanın neft-kimya sənayesində iri texnoloji qurğular, yeni perspektivli komplekslər istismara buraxılmış, qara və əlvan metallurgiya sahələrinin müəssisələri müasirləşdirilmişdi. 1946-cı ildə əsası Sumqayıt şəhərində qoyulan Azərbaycan Boru-Prokat Zavodu öz ixtisası üzrə Sovet İttifaqının ən iri müəssisələrindən biri idi. Yeni tikilmiş müəssisələr içində Sumqayıt Kompressorlar Zavodu, Bakı Məişət Soyuducuları zavodu, Elektrotermik Avadanlığı Zavodu və s. göstərmək olar.

H.Ə.Əliyevin yüksək təşkilatçılıq bacarıqlarının aşkar sübutu kimi 25 dekabr 1975-ci ildə Bakı Məişət Kondisionerləri Zavodunun istismara buraxılması oldu. Böyük zəhmətin nəticəsi olaraq, o, həmin zavodun məhz Bakıda inşasına nail ola bildi, baxmayaraq ki, əvvəlcədən bu müəssisəni Ukrayna SSR-in Zaporojye şəhərində açmaq istiqamətində ciddi cəhdlər göstərilirdi. Bu iri sənaye obyektinin Bakı şəhərində inşası respublikada əsaslı tikintinin inkişafı tarixində mühüm hadisə oldu. Bakı Məişət Kondisionerləri Zavodu istehsal prosesinin birinci əməliyyatdan tutmuş sonuncusuna qədər bütün texniki prosesləri özündə birləşdirən iri bir kompleks idi. Bu həm texniki, həm də elmi baxımdan nəinki SSRİ, hətta Avropa üçün də yenilik idi.

Zavodun tikintisi 2 il ərzində həyata keçirilmişdi. 1975-ci il dekabrın 25-də onun açılışı münasibətilə keçirilən mitinqdə H.Əliyev bildirdi ki: «... son iki il ərzində 130 mln. rubldan çox kapital qoyuluşundan istifadə olunmuş, istehsalat və digər obyektlər 155 min m^2 ərazidə tikilmişdir. Burada 4 min ədəd texnoloji və mühəndislik avadanlığı quraşdırılmış, avtomatlaşdırılmış arasıkəsilməz xətlərin

ümumi uzunluğu 9 km təşkil edir, təxminən 1 000 km boru kəməri və kabel xətləri çəkilmişdir» [301, 474]. Bu, Heydər Əliyevin və onun komandasının böyük qələbəsi idi və onlar SSRİ rəhbərliyinə sübut etdilər ki, Azərbaycan xalqının nümayəndələri elmi-texniki tərəqqini təmin edən yüksək texnoloji sənaye sahələrinin inkişafında ən fəal şəkildə iştirak edə bilərlər.

Yuxarıda adları göstərilmiş müəssisələrin 2/3-i sənayenin yüksək səviyyədə inkişaf etdiyi Bakı–Sumqayıt iqtisadi rayonundan kənarda yerləşən iqtisadi rayonlarda yerləşdirilmişdi. Diqqəti cəlb edən xüsusiyyət odur ki, yeni sənaye müəssisələrinin istifadəyə verildiyi bəzi iqtisadi rayonlar yeni əsaslı tikinti hesabına özünün sənaye tərkibini xeyli dərəcədə artıra bilmişdilər. Belə ki, göstərilən dövrdə Kür–Araz iqtisadi rayonunda maşınqayırma, kimya, tikinti materialları, yeyinti və digər sənaye sahələrində 22 iri dövlət müəssisəsi tikilərək istifadəyə verilmişdi. Bu dövrdə Gəncə–Daşkəsən rayonunda sənayenin müxtəlif sahələrində 17 müəssisə, Naxçıvan MSSR-də 8, Lənkəran-Astara rayonunda - 8, Quba–Xaçmaz rayonunda – 5, Şəki–Zaqatala rayonunda - 6 müəssisə yaradılaraq istifadəyə verilmişdi [410, 220–221].

Bu illərdə respublikada irihəcmli sərmayələr yüngül və yeyinti sənayelərinin inkişafına qoyulurdu. Respublikada dövrün tələblərinə uyğun aqrar-sənaye kompleksləri yaradılırdı. Lənkəran rayonunun tərəvəz və çay kompleksləri respublikanın şimal bölgəsində və Ordubad rayonunda meyvə istehsalı kompleksləri, Böyük Qafqaz dağ silsiləsi, Kiçik Qafqaz dağ ətəyi və Kür–Araz ovalığında isə üzümçülük-şərabçılıq kompleksləri tikilib istifadəyə verilmişdi.

1976–1980-ci illərdə Xudat və Lənkəran şəhərlərində tikilmiş konserv zavodları istifadəyə verildi. Təkcə 1977-ci il ərzində respublikada yüngül və yeyinti sənayelərində istifadəyə verilməsi nəzərdə tutulmuş 11 müəssisədən 10-u fəaliyyətə başlamışdı. Bu müəssisələr içərisində Kirovabad (Gəncə) xalça-mahud kombinatı, Astara çay fabriki, Şəki çörək zavodu, ilkin şərabçılıq zavodları (ümumi gücü – mövsümdə 81 min ton üzüm emalı), Xırdalan ət emalı zavodu, Yevlax ilkin yun emalı fabrikinin birinci növbəsi [161, 16, v. 24–25] və s. göstərmək olar.

Respublikada bu dövrdə yüngül və yeyinti sənayelərinin kollektivləri yeni istehsal obyektlərinin işə buraxılmasını sürətləndirərək bu işi vaxtından əvvəl başa çatdırdılar. 1980-ci ildə 40 min ton üzüm emalı

gücünə malik şərabçılıq zavodu, Şamaxı pendir zavodu, Göyçay çörək zavodu, Bakı Şampan Şərabları Zavodu, Bakı ayaqqabı fabriki və xəz məmulatlarının istehsalı obyektləri, Sumqayıt toxuculuq və ipəyirmə fabriki, Yevlaxda ilkin yun emalı fabriki, Kirovabadda (Gəncədə) Saxsı qab-qacaq zavodu, Xırdalanda ət emalı və süd zavodları və s. fəaliyyətə başladılar [165, 388, v. 131].

H.Əliyev respublikanın rayonlarında kənd təsərrüfatının bütün sahələrinə böyük diqqət yetirirdi. Bu illərdə Azərbaycan SSR kəndində tikinti təşkilatlarının inkişafı üzrə konkret planları nəzərdə tutan qərarlar qəbul edilmişdi. Tikinti proqramının reallaşdırılması məqsədilə Azərbaycan SSR Kənd Tikintisi Nazirliyi yaradıldı və nəticədə Kolxozlararası Baş Tikinti İdarəsinin tikinti imkanları və iş həcmi xeyli artırıldı [287, 41].

Respublikanın kənd təsərrüfatında tikintinin vəziyyətini dərindən öyrənən H.Əliyev əldə edilmiş nailiyyətlərlə yanaşı, burada olan nöqsanları da qeyd edərək, onlara prinsipial qiymət verir və kənddə tikinti işlərinin daha keyfiyyətli aparılması, Kolxozlararası Baş Tikinti İdarəsinin tikinti obyektlərinin artırılması ilə bağlı vəzifələr qoyurdu. O, özü dəfələrlə tikilən obyektlərə gəlir, Şamaxı, Şəki, Xanlar, Salyan, Zərdab, Ucar və başqa rayonlarda fəaliyyət göstərən heyvandarlıq və quşçuluq komplekslərinə, tikinti obyektlərinə baş çəkirdi. 1979-cu ildə H.Əliyev Neftçala, Yevlax, Şamaxı rayonlarının obyektlərinə baş çəkmişdi.

1971-ci ilin noyabrında Azərbaycan KP MK və respublikanın Nazirlər Soveti tərəfindən «Azərbaycan SSR Nazirlər Soveti yanında Kolxozlararası Baş Tikinti İdarəsi təşkilatlarının inkişafı və möhkəmləndirilməsi üçün tədbirlər haqqında» qərar qəbul edildi. Bu sənəd 1971–1975-ci illər üçün Kolxozlararası Baş Tikinti İdarəsi obyektlərinin artımının sürətini müəyyənləşdirərək bu təşkilatın istehsalat bazasının inkişafı yollarını və kolxozlararası tikinti təşkilatlarının inkişafı və möhkəmləndirilməsi istiqamətində konkret tədbirləri nəzərdə tuturdu.

Kolxozlararası Baş Tikinti İdarəsinin fəaliyyətinə diqqətin yeni təzahürü 1979-cu ilin mayında Azərbaycan KP MK-nın tikinti-montaj işlərinin keyfiyyətinin yaxşılaşdırılması üzrə Kolxozlararası Baş Tikinti İdarəsinin fəaliyyəti haqqında qəbul etdiyi qərar oldu. Kolxozlarda əsaslı tikintinin sürətli artımına Azərbaycan KP MK-nın və Nazirlər

Sovetinin 1976–1980-ci illərdə respublikada dövlət və təsərrüfatlararası heyvandarlıq komplekslərinin və quşçuluq fabriklərinin tikintisi haqqında qərarı da qəbul edilmişdi. Bu sənədin tələblərini həyata keçirən Azərbaycan SSR-də kənd inşaatçıları tikinti işlərinin daha yaxşı təşkil edilməsinə nail olmuş, yeni mütərəqqi əmək üsulları tətbiq etmiş, tikintinin keyfiyyətini və bütün texniki-iqtisadi göstəriciləri yaxşılaşdırmışlar [409, 7].

İstehsal obyektlərinin tikintisi ilə yanaşı, kolxoz inşaatçıları Azərbaycan SSR kəndində sosial təyinatlı obyektlərin həyata keçirilməsində fəal iştirak edirdilər. 10-cu beşillik ərzində onlar tərəfindən 17,3 min. km^2 yaşayış məskəni, 6,7 min yerə malik klub otaqları, kolxozçular üçün bir sıra abadlaşdırılmış yaşayış qəsəbələri tikilmişdi. Respublikada məktəb tikintisi də geniş vüsət almışdı [427, 11].

Tədqiq edilən dövrdə respublika Kolxozlararası Baş Tikinti İdarəsinin əsas gücü və imkanları heyvandarlıq və quşçuluq sahələrinin inkişafına, regionlarda çoxlu sayda heyvandarlıq komplekslərinin və quşçuluq fabriklərinin tikintisinə yönəldilmişdi.

Üzümçülük, pambıqçılıq, tərəvəzçiliyin inkişafı sayəsində Heydər Əliyev respublika büdcəsinin artırılmasına nail olmuş və bunun hesabına kənddə sürətli tikinti işlərini həyata keçirməyə şərait yaratmışdı. Artım sürətinə görə respublikadakı kolxoz tikintisi İttifaq miqyasında birinci yerlərdə idi.

Heydər Əliyev Azərbaycan SSR-də tikilməkdə olan obyektlərə xüsusi diqqət yetirirdi. 31 mart 1970-ci ildə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti tikilən və layihələndirilən inzibati, ictimai, sosial və iri binaların, eləcə də yaşayış evlərinin siyahısına yenidən baxmağı nəzərdə tutan qərar qəbul etdi [275]. Heydər Əliyev 1972-ci il avqustun 17-də Azərbaycan KP MK-nın keçirilən müşavirəsində mənzil tikintisinin və abadlıq işlərinin artırılması məsələsinə həsr edilmiş böyük nitqlə çıxış etdi [290]. Yaşayış və məktəb tikintisi obyektlərinin inşası Azərbaycan KP MK-nın tikinti işləri üzrə komissiyasının iclasında müzakirə edilmişdi. 1980-ci il avqustun 12-də Heydər Əliyevin təşəbbüsü ilə partiya, sovet və təsərrüfat orqanlarının rəhbərlinə obyektlərin inşa edilməsi templərinin sürətləndirilməsi və onların vaxtında istismara buraxılmasının təmin edilməsi istiqamətində effektiv tədbirlərin həyata keçirilməsi tapşırılmışdı [139, 152, v.139–147].

Heydər Əliyevin rəhbərlik etdiyi 13 il ərzində Azərbaycan SSR-də 18,5 mln.m^2 mənzil sahəsi tikilmişdir. Bu, əvvəlki 50 il ərzində tikiləndən 60% artıq idi. 2 milyon 200 min adam, yəni respublikanın hər üçüncü sakini yeni mənzilə sahib olmuş və ya öz yaşayış şəraitlərini yaxşılaşdırmışdı [216, 6]. 1969–1982-ci illərdə, həmçinin respublikada 700 məktəb tikilmiş və istifadəyə verilmişdi.

O dövrdə Bakı şəhərini aşağıdakı yeni memarlıq abidələri bəzəmişdir: respublika Ali Sovetinin binası (indiki Milli Məclisin binası), «Abşeron», «Gənclik», «Moskva» mehmanxanaları, Lenin adına saray (indiki H.Əliyev adına saray), «Gülüstan» sarayı, Kosmik Tədqiqatlar İnstitutu, Şüvəlandakı Azərbaycan Yazıçılar Birliyinin Yaradıcılıq Evi, Bakıda dəmir yolu və dəniz limanı vağzallarının binaları və s.

XX əsrin 70-ci illərində Azərbaycan SSR-də müstəqil enerji sisteminin əsası qoyulmuşdu. Azərbaycan İES-i, Şəmkir SES-i, sənaye qovşaqlarının, yarımstansiyaların və elektroenerji xətlərinin güclü şəbəkəsi məhz bu illərdə tikilmiş və istismara verilmişdi.

Heydər Əliyev böyük çətinliklə SSRİ dövlətinin rəhbərlərindən Cənubi Qafqazda ən iri su-elektrik stansiyanın – Azərbaycan SES-inin inşası haqqında qərarın qəbul edilməsinə nail ola bilmişdi. 1974-cü ildə bu stansiyanın inşa edilməsi, həqiqətən, ümumxalq tikintisinə çevrildi. Tikinti işlərinin gedişi Heydər Əliyevin şəxsi nəzarəti altında idi. O, 1981-ci il oktyabrın 20-də Azərbaycan SSR-in birinci enerji blokunun istismara verilməsi ərəfəsində Mingəçevirə gəlmiş, inşaatçılar və energetiklərlə görüşmüşdü. Heydər Əliyev Moskvaya getməmişdən SSRİ dövlətinin ali rəhbərliyində işə keçməzdən əvvəl və sonra da bu obyektdə həyata keçirilən tikinti-montaj işlərinin başa çatdırılmasına diqqət yetirməyi davam edir, bu işə lazımi köməyi göstərirdi. Elə bu səbəbdən də 1981–1986-cı illərdə hər il bir enerji bloku istifadəyə verilirdi. Bununla da su-elektrik stansiyasının bütün altı bloku istismara verildi.

Tədqiq edilən illərdə respublikada su təsərrüfatının yenidən qurulmasına yönəlmiş işlərə də böyük diqqət yetirilirdi. Onun təşəbbüsü ilə respublikada su təsərrüfatındakı tikinti sahələri üçün 2 mlrd. rubldan çox vəsait ayrılmışdı. Müqayisə üçün demək lazımdır ki, əvvəlki 50 il ərzində bu sahə üçün cəmi 800 mln. rubl xərclənmişdi. 1970-ci ildə Kür su kəmərinin birinci növbəsinin tikintisi başa çatdırıldı

[284, 46]. 15 sentyabr 1971-ci ildə isə əhalinin su ilə təminatının yaxşılaşdırılması üçün böyük əhəmiyyət kəsb edən ikinci növbə istismara verildi. 1971-ci ilin iyun ayında Ağstafa su anbarının bəndi üzərində hidrotexniki qurğuların açılışı oldu [275, 26]. Həmin ildə, həmçinin «Araz» su qovşağı və Mil-Muğan suburaxıcı bəndi də istismara verildi. Araz çayı üzərində tikilmiş su qovşağının inşası iki qonşu dövlət arasında həmsərhəd çay üzərində iri obyektin birgə tikintisinin ilk nümunəsi idi.

Bundan əlavə Abşeron suvarılma sistemi kimi iri obyektlər istismara verilmiş, Salyan rayonunda suvarılma sistemləri texniki baxımdan yaxşılaşdırılmış, Yuxarı Şirvan kanalından torpaqların suvarılması sisteminin birinci növbəsinin tikintisi başa çatdırılmışdı. İmişli və Zərdab rayonlarında torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və suvarılmanın inkişafı üzrə işlər davam etdirilmişdi. H.Əliyev 1976-cı il dekabrın 18-də Lənkəran rayonuna gəlmiş və Xanbulançay su anbarının açılışında iştirak etmişdi. 29 dekabr 1976-cı ildə o, Kiçik Qafqazın ən mənzərəli dərələrindən birində yaradılmış Tərtərçay enerji su təsərrüfatı kompleksinin açılışında iştirak etmişdi. 130 metrlik bənd Avropanın ən yüksək bəndlərindən biri idi.

1977-ci ildə istismara verilmiş 150 mln.m^3 həcmli Arpaçay su anbarının tikintisi, əslində, ermənilərə və ermənipərəst siyasətçilərə tutarlı cavab idi. Heydər Əliyevin 1970-ci ildən başlayaraq Naxçıvan MSSR-də irimiqyaslı meliorasiyanın tətbiq edilməsi, suvarma əkinçiliyinin genişləndirilməsi, süni dəryaçaların yaradılması kimi atdığı addımlar Naxçıvan diyarını xilas etmişdi. 1970-ci ildən sonra muxtar respublikada 20 su anbarı tikilmişdi ki, bu da onun iqtisadiyyatını xeyli canlandırmışdı [161, 16, v.26].

SSRİ Meliorasiya və Su Təsərrüfatı naziri N.Vasilyev 1980-ci ilin oktyabrında Azərbaycan SSR-də olarkən bildirmişdi ki, Azərbaycan SSR-də su təsərrüfatı tikintisi ən yüksək texniki-mühəndislik səviyyəsində aparılır [311]. 12 may 1980-ci ildə 43-cü Bakı şəhər partiya konfransında çıxış edən Heydər Əliyev qeyd etmişdi ki, respublika əhalisinin içməli su ilə təmin olunması xeyli yaxşılaşdırılmışdır [172, v.26].

H.Əliyev Azərbaycan SSR-in bütün rayonlarının sosial-iqtisadi inkişafına böyük diqqət yetirirdi. Bu xüsusi olaraq muxtar qurumların

inkişafına münasibətdə ifadə olunurdu. Tədqiq edilən dövrdə Naxçıvan MSSR-də aparılan əsaslı tikinti geniş vüsət almışdı. 1971–1980-ci illərdə 370 mln.rubl məbləğində əsas fondlar istismara verilmişdi. Bu da ondan əvvəlki onilliklə müqayisədə (1961–1970) iki dəfə artıq idi [353, 39].

Bu illər ərzində muxtar respublikada 9 sənaye müəssisəsi istifadəyə verilmişdi [107, v. 33–62]. Bunların içərisində: Naxçıvan elektrotexnika zavodu, Badamlı, Sirab mineral suların utilizasiyası zavodu, Trikotaj fabriki, Un kombinatı, Araz çayı üzərində su-elektrik stansiyası, Şərab zavodu və s. var idi [258]. Mənzil tikintisinin miqyası xeyli dərəcədə genişlənmişdi. Dövlət və kooperasiya müəssisələri tərəfindən ümumi sahəsi 270,1 min kv.m olan yaşayış evləri tikilmiş və istifadəyə verilmişdi. Bu rəqəm 1961–1970-ci illərin göstəricilərini 81 min kv.m üstələmişdi.

Sosial-iqtisadi inkişafın yüksək göstəriciləri Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətində də əldə edilmişdi. Guya DQMV-nin sosial-iqtisadi baxımdan geridə qalması və bu amilin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlanması səbəbi olması barəsində ermənilərin irəli sürdüyü iddia, əslində, yalandan başqa bir şey deyildi. Bunu sübut etmək üçün 10 il ərzində Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin İcraiyyə Komitəsinə rəhbərlik etmiş M.Ohancanyanın sözlərinə diqqət yetirmək kifayətdir. Onun dediyinə görə, Heydər Əliyev hakimiyyətdə olduğu zaman Qarabağ ermənіləri fəxr edirdilər ki, onlar Azərbaycanda yaşayırlar. Çünki həmin illər ərzində istər siyasətdə, istər maddi sahədə onların vəziyyəti başqalarından qat-qat yaxşı idi. Digər tərəfdən, Heydər Əliyev Dağlıq Qarabağ üzərində Bakının nəzarətini gücləndirmək məqsədilə daha «sərt siyasət» aparırdı [309, 193]. Bu amil, əlbəttə ki, erməni millətçilərinin planlarına uyğun gəlmirdi.

DQMV-nin sosial-iqtisadi vəziyyəti heç də pis vəziyyətdə deyildi. Əksinə, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1988-ci ildə qəbul etdiyi «1988–1991-ci illərdə Azərbaycan SSR-in DQMV-də sosial-iqtisadi inkişafın sürətləndirilməsinə dair» tədbirlərə həsr edilmiş qərarında qeyd edilirdi ki, DQMV-nin sosial-iqtisadi inkişafında mühüm nailiyyətlər əldə edə bilmişlər. 70–80-ci illərdə vilayət iqtisadiyyatının maddi-texniki bazasının gücləndirilməsi təmin olunmuşdu. Yalnız son

15 il ərzində burada sənaye istehsalının həcmi üç dəfə, kənd təsərrüfatı məhsulları isə 1,5 dəfə artmışdı [371, 251]. Sosial-iqtisadi inkişafın göstəricilərinə görə DQMV Azərbaycan SSR və Ermənistan SSR-in orta iqtisadi göstəricilərini üstələyirdi.

Azərbaycan SSR DQMV-nin iqtisadi inkişafında 1970–1980-ci illərdə böyük irəliləyiş müşahidə olunurdu. Əsaslı tikinti sahəsində də burada xeyli işlər görülmüşdü. 23 noyabr 1973-cü ildə H.Əliyev öz çıxışında vilayətdə 9-cu beşilliyin üç ili ərzində görülmüş işləri sadalayaraq bildirmişdir ki, ildə 3,5 mln. cüt ayaqqabı buraxmaq imkanına malik Xankəndi ayaqqabı fabriki, Şuşa şəhərində musiqi alətləri fabriki, Ağdərə rayonunda ilkin şərabçılıq zavodu fəaliyyət göstərməyə başlamışdı. Burada qurğuşun zənginləşdirmə fabriki, Suvenir məmulatları fabriki tikilmiş, Xaçınçay üzərində körpünün tikintisi başa çatdırılaraq istifadəyə verilmişdi. Respublika miqyasında ən iri tikinti meydançalarından biri Tərtərçayda Sərsəng su qovşağı idi [258].

1979-cu il yanvarın 12-də DQMV-nin mərkəzi olan Xankəndi şəhərinə Azərbaycan SSR dəmir yolunun yeni xətti çəkildi və istifadəyə verildi. Şəhər vağzalı ikimərtəbəli bina, yük evinin inzibati korpusu, lokomotiv briqadalar üçün istirahət evi və digər lazımi stansiya qurğuları ilə təmin edilmişdi. Ağdam şəhərindən çəkilmiş 26 kilometrlik yolda bir neçə körpü inşa edilmişdi. Həmçinin, bundan əlavə, Xocalı qəsəbəsi yaxınlığında yeni aeroport da tikilmiş və buradan Xankəndi şəhəri ilə Bakı və İrəvan arasında nizami reyslər təşkil edilmişdi. Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinə yeni qaz kəməri çəkilmiş, vilayətdə Pedaqoji İnstitut təsis edilmişdi. H.Əliyev 1982-ci il yanvarın 15-də Şuşaya, Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsinin açılışına gəlmiş (bu məqbərə hal-hazırda erməni vandalları tərəfindən dağıdılmışdır) və burada yeni Poeziya Evinin açılışında da iştirak etmişdi. O, Azərbaycan SSR DQMV partiya və dövlət fəallarının müşavirəsində çıxış edərək, vilayətdə əldə edilən nailiyyətlər haqqında danışmışdı. H.Əliyev qeyd etmişdir ki, müxtəlif məsələlərin həlli böyük məbləğdə kapital qoyuluşu, respublika və İttifaq orqanlarının böyük zəhmət göstərmələrini tələb edir [301, 227–228]. Bu faktları təkzib etmək mümkün deyil, buna görə də Heydər Əliyevin fəaliyyətinin konkret nəticələri, hətta onun rəqibləri tərəfindən etiraf edilir.

Tədqiq edilən illərdə intensiv surətdə yol tikintisi də həyata keçirilirdi. Bu məqsədlə Azərbaycan SSR Avtomobil Yollarının İstismarı və Tikintisi Nazirliyi yaradılmışdı. Onu demək kifayətdir ki, 1969-cu ildə respublikada qalın örtüklü avtomobil yolları cəmi 12,7 min km məsafəni əhatə edirdi, lakin tədqiq edilən dövrün sonunda yolların ümumi uzunluğu 1,5 dəfə çoxalmışdı [430, 37].

Bakı şəhərində metropoliten inşası respublikada həyata keçirilən tikinti işlərinin ən mürəkkəb, zəhmət tələb edən, yüksək səviyyəli texnika və yüksəkixtisaslı kadrların çalışdığı sahələrindən biridir. Bakı Metropoliteni tək nəqliyyat vasitəsi deyil, həm də təbii fəlakətlər və hərbi əməliyyatlar zamanı müdafiə vasitəsi kimi layihələşdirilmiş və tikilmişdir. Heydər Əliyev 1969-cu ildən başlayaraq Bakı şəhər metropoliteni stansiyalarının tikintisinə bilavasitə özü rəhbərlik edirdi. O, «Ulduz» (17 aprel 1970-ci il), «Neftçilər» (6 noyabr 1972-ci il), «Qara Qarayev» (6 noyabr 1972-ci il), «Koroğlu», «Nizami» (31 dekabr 1976-cı il), «Bakmil» (15 noyabr 1979-cu il) stansiyalarının açılışında şəxsən iştirak etmişdir.

Əsaslı tikintidə artım sürətinə görə Azərbaycan SSR Sovet İttifaqında birinci yerlərdə idi. Əsaslı tikinti planının icra edilməsinin əsas göstəricilərinə görə isə Azərbaycan SSR 1982-ci ildə Cənubi Qafqaz respublikaları içində birinci yerə çıxmışdı. Bütün bunlar, aşağıda gətirilən cədvəldə öz əksini tapmışdır [172, v.172].

	Kapital qoyuluşu	**Tikinti işləri**	**Podrat işləri**	**Əsas fondların işə salınması**
	İcra faizi	İcra faizi	İcra faizi	İcra faizi
Azərb. SSR	100,3	99,0	100,1	48,0
Gürc. SSR	94,1	94	100	40,6
Erm. SSR	82,0	90	90	40,8

Azərbaycan KP MK Bürosunun 12 yanvar 1982-ci il tarixli iclasında mühüm sənaye, kənd təsərrüfatı və sosial təyinatlı obyektlərin tikintisi haqqında AKP MK-nın 16 yanvar 1981-ci il tarixli qərarının icra edilməsinin nəticələrinə baxılmışdı. Bu iclasda H.Əliyev öz çıxışında qeyd etmişdi ki, əsaslı tikintidə mühüm nailiyyətlər əldə

edilmişdir və bu nailiyyətləri inkişaf etdirmək və artırmaq lazımdır [173, v.21].

Nisbətən az bir vaxt ərzində Heydər Əliyev istedadlı rəhbər, böyük peşəkar kimi şöhrət qazanmışdır. Ona məxsus olan təşkilatçılıq qabiliyyəti, müstəsna zəhmətsevərlik, inadkarlıq, gördüyü işə yaradıcı münasibət, prinsipiallıq və nöqsanlara barışmaz mövqeyi sayəsində Heydər Əliyev respublikada nəinki çoxillik geriliyə son qoyulmasına, hətta xalq təsərrüfatının bütün sahələrinin inkişafında dinamik, davamlı, yüksək templi artıma nail ola bilmişdir. Miqyasına görə nəhəng, texniki baxımdan çox mürəkkəb olan tikinti proqramı Azərbaycan iqtisadiyyatının bütün sahələrinin inkişafında böyük irəliləyişin baş verməsini təmin etmişdir.

4.4. Respublikada nəqliyyat və rabitənin inkişafı

XX əsrin əvvəllərindən başlayaraq nəqliyyat və rabitə sistemi bütün ölkələrin iqtisadi həyatının ən vacib komponentlərinə çevrilmişdir. XX əsrdə nəqliyyat istənilən ölkə iqtisadiyyatının arteriyasıdırsa, rabitə onun çevik bir zəmində qarşılıqlı mənəvi-fiziki əlaqələrinin təminatçısı rolunu oynayır. Bu səbəbdən də XX əsrin 70–80-ci illərində Azərbaycan SSR-də nəqliyyat və rabitənin inkişafı ilə bağlı məsələlər Heydər Əliyevin respublikaya rəhbərliyinin ilk günlərindən etibarən daim onun diqqət mərkəzində olmuşdur.

Əvvəlki dövrlərdə Azərbaycan SSR rəhbərliyinin buraxdığı səhvlər nəticəsində iqtisadiyyatın digər sahələrində olduğu kimi, nəqliyyat və rabitə sistemində də çox ağır vəziyyət yaranmışdı. Azərbaycan KP MK-nın avqust (1969-cu il) plenumunda bu gerilik konkret olaraq etiraf edildi. Heydər Əliyev məruzəsində bildirdi ki: «....respublika nəqliyyatında ciddi problemlər yaranmışdır. Hər bir nəqliyyat strukturu əsas göstəricilər üzrə plan tapşırıqların yerinə yetirmir. Xüsusilə, respublika dəmir yolundakı vəziyyət həyəcan doğurur. 1967-ci ildən başlayaraq vaqonların dövriyyəsi üzrə əsas göstəricilər geri qalır. Respublikanın çoxlu nazirlik və idarələri stansiyalarda yük altında olan vaqonların lüzumsuz dayanmalarına qarşı heç bir tədbir görmürlər, yükləmə-boşaltma işlərinin mexanikləşdirilməsi məsələsi diqqətdən

kənarda qalır. Gəmilərin hərəkətinin optimal tənzimlənməsində problemlər var, gəmilər Bakı və Mahacqala limanlarında sistematik olaraq boş dayanır. 1969-cu il sentyabrın 3-də Azərbaycan KP MK və Nazirlər Soveti tərəfindən «Yüklərin dəniz nəqliyyatı ilə daşınmasının artırılması tədbirlərinə dair» birgə qərarı qəbul edildi [132, v.228].

1969-cu ildən başlayaraq, Heydər Əliyev respublikada nəqliyyatın bütün növlərini və rabitə sistemini qətiyyətlə öz nəzarətinə götürdü, elmi-texniki tərəqqinin sürətlə inkişafını geri qalmış nəqliyyat və rabitənin maddi-texniki bazasını möhkəmləndirməyin mühüm amili səviyyəsinə qaldırmağı bacardı. Nəticədə infrastruktur təkmilləşdirilməsi ilə yanaşı, bu sahənin dönməz inkişaf dinamikası təmin edilmiş oldu.

Azərbaycan SSR-in nəqliyyat sistemi özündə dəmir yolunu (magistral və sənaye) avtomobil, su (dəniz və çay), hava, boru kəməri və şəhər nəqliyyatını (tramvay, trolleybus, metropoliten, taksi, avtobus) birləşdirirdi.

Azərbaycan SSR ərazi baxımından kiçik olsa da, onun nəqliyyatı SSRİ-nin nəqliyyat sisteminin əhəmiyyətli bir hissəsini təşkil edirdi. Belə ki, SSRİ-nin yük dövriyyəsində Azərbaycan SSR-in payı 0,93 %, sərnişin daşınmasında isə 1,06 % təşkil edirdi [403, 297–298; 393, 112].

Heydər Əliyevin ardıcıl diqqət və qayğısı sayəsində Azərbaycan SSR-də vahid nəqliyyat sistemi yeni nəqliyyat əlaqələrinin genişləndirilməsi və mövcud olanların yeniləşdirilməsi hesabına inkişaf etməyə başladı. 1970-ci ildə Azərbaycan SSR-də nəqliyyat və rabitəyə 147 milyon manat, 1982-ci ildə isə 214 milyon manatı əsaslı vəsait qoyulmuşdu [395, 114]. 1970–1982-ci illərdə Azərbaycan SSR əhalisinin 8–8,9 %-i, iqtisadiyyatda çalışan ali və orta ixtisas təhsilli mütəxəssislərin 5,1-%-i, respublikanın əsas fondlarının təqribən 14,2–14,5 %-i nəqliyyat və rabitə sektorunun payına düşürdü [395, 16, 129; 410, 159].

Heydər Əliyevin səyləri sayəsində 1970-ci ildən 1982-ci ilədək respublikada nəqliyyat və rabitə sahəsində əsas fondların artımı 79 %, ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı 52,1 %, milli gəlir istehsalı 44%, orta əməkhaqqı nəqliyyatda 32 %, rabitədə isə 41 % artdı. Su nəqliyyatında əməkhaqqının artımı daha yüksək idi. Məsələn, əgər dəmir yolunda çalışanların əməkhaqqı 1970-ci ildən 1982-ci ilədək

118,5 manatdan 172,5 manata çatmışdısa, su nəqliyyatı işçiləri üzrə həmin rəqəm müvafiq olaraq 175,2 manatdan 235,5 manata yüksəlmişdi [395, 132]. Bundan əlavə, işçilərin yaşayış şəraiti yaxşılaşmış, pensiya və müavinətlər qaldırılmışdı. Nəqliyyat işçilərinin əməkhaqqını artırmaq və onların həyat şəraitini yaxşılaşdırmaq, Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən onun qayğılarından biri olmuşdur. O bu problemin həlli üçün Nazirlər Sovetinə göstəriş vermiş və məsələ ilə bağlı xüsusi qərar qəbul edilmişdir [142, v.126].

Respublika iqtisadiyyatının bütün sahələrində gedən inkişaf dəmir yolunda da baş verirdi. 1969-cu ilə qədər olan dövrdə Azərbaycan SSR dəmir yolu SSRİ dəmir yolları sistemində həyata keçirilən texniki yeniləşmə, müasir təmir bazalarının tikintisi, əlavə dəmir yolu xətlərinin çəkilməsi kimi tədbirlərlə ayaqlaşa bilmirdi. Heydər Əliyevin gərgin zəhməti hesabına, ilk növbədə, sənaye kompleksinin sürətli inkişafı təmin edildi ki, bu da... dəmir yolu nəqliyyatında bariz şəkildə hiss olundu.

1970–1982-ci illərdə baş dəmir yollarının istismar uzunluğu 181,1 km-dən 1903 km-ə [253, 100], elektrikləşdirilmiş dəmir yollarının uzunluğu 794 km-dən 1111 km-ə, stansiya yollarının ümumi uzunluğu da 954 km-dən 1343,5 km-ə çatdı [253, 100]. P–43 və P–50 tipli relslərdən ibarət bu yollar 1969-cu ildən başlayaraq, P–65 tipli relslər qoyularaq tam yeniləşdirildi. 372 ədəd yeni yoldəyişdirici quraşdırıldı [253, 16–17].

Azərbaycan SSR-də 1979-cu ildə Ağdam–Xankəndi xətti tikilərək istifadəyə verildi. Nəticədə Dağlıq Qarabağ Muxtar Vilayətinin Bakı ilə intensiv əlaqələri təmin edilmiş oldu. Heydər Əliyevin təkcə bu addımı ermənilərin hər cür ideoloji təxribatına tutarlı zərbə idi [410, 162].

Heydər Əliyevin israrlı tövsiyəsi ilə, Yevlax–Balakən dəmir yolunun tikintisinə başlamaq haqqında qərar qəbul edildi. Respublika rəhbəri həmin dəmir yolunun Azərbaycan SSR-in Şimal-Qərb bölgəsinin iqtisadi və mədəni inkişafı üçün böyük əhəmiyyət kəsb etdiyini bildirirdi.

1980-ci ildə respublika əhəmiyyətli yolların tikintisi, bərpası və təmiri işlərinə kolxozların, sovxozların, sənaye, nəqliyyat və digər təsərrüfat müəssisələrinin cəlb olunması qaydaları və bu cəlb olunmadan boyun qaçırmağın məsuliyyəti haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı qəbul edildi. Qərara əsasən, yuxarıda

göstərilən sənaye müəssisələri yerli əhəmiyyətli avtomobil yollarının tikintisi, bərpası və təmiri işlərinə öz daxili imkanları hesabına və əvəzsiz olaraq cəlb olunmalıdırlar. Kənd yerlərində bu işlərin görülməsinə ən mühüm, əsaslı tikinti üçün nəzərdə tutulmuş ehtiyatlardan istifadə olunmaması qeyd olunurdu [165, v.14].

Respublikanın Şimal-Qərb zonasında yaşayan əhalinin həyat şəraitini və bu regionun iqtisadi inkişafını təmin etmək üçün Yevlax–Balakən dəmir yolu xəttinin tikintisi gedişində 6 yeni stansiya və vağzal binası (Balakən, Zaqatala, Qax, Şəki, Səbuhi, Xanabad) tikilib təhvil verildi. 1970-ci illərdə Sumqayıt, Sabunçu, Goran, Ağstafa, Əli Bayramlı (indiki Şirvan), Ucar, Gəncə, Tovuz, Qazax, Kürdəmir, Baş Ələt, Daşburun, Horadiz, Bərdə, Ağdam, Xankəndi stansiyalarında müasir tipli vağzal binaları, Culfa stansiyasında xarici ölkələrdən gəlib-gedən sərnişinlər üçün yeni vağzal binası və qonaq evi, Bakıda yeni sərnişin vağzalı istifadəyə verildi. 1971-ci ildə Heydər Əliyevin SSRİ hökumətinə müraciətindən sonra Azərbaycan SSR-in dəmir yoluna malik VL8, VL10, VL15, VL22 seriyalı elektrovozlar gətirildi və nəticədə dəmir yolunun istismar işinin səviyyəsi, qatarların orta çəkisi və sürəti artdı, hərəkət cədvəlinə əməl olunması təmin edildi, dəmir yolunun iqtisadi göstəriciləri yaxşılaşdı. Şəhərətrafı elektrik qatarları müasir tələblərə cavab verən, yeni seriyalı EP2 elektrik qatarları ilə əvəz olunmağa başlandı. 1970–1982-ci illərdə 75 seksiya EP2 seriyalı elektrik qatarı alındı, 1200 at gücünə malik 100-dən çox yeni TEM 2 seriyalı və Çexoslovakiyada istehsal olunmuş 1350 at gücünə malik 50 ədəd ÇMEZ seriyalı teplovozlar alındı. Biləcəri və Gəncə lokomotiv depolarında yeni elektrovoz sexləri tikilib istifadəyə verildi [253, 16–17].

Yeni xətlərin çəkilişi ilə yanaşı, 3733 km yolda əsaslı, 2818 km yolda orta təmir işləri görüldü. Bu müddətdə 308 ədəd yeni körpü tikilmiş və bunların sayı 1939 ədədə çatdırılmış, 30 körpüdə aşırmalar dəyişdirilmişdi. Bu illərdə Güzdək stansiyasında sərnişin vaqonlarının ehtiyatda saxlanılması üçün 14 yoldan ibarət park tikilmişdi.

Azərbaycan SSR dəmir yolunda stansiya təsərrüfatının tikintisi və inkişafı ən önəmli yer tuturdu. 1969-cu ilə qədər dəmir yolunda 159 stansiya fəaliyyət göstərirdisə, bəhs edilən dövrün sonlarında bunların sayı 176-ya çatmışdı. 1980-ci ildə Şirvan çeşidləmə stansiyasının tikintisinə başlanıldı və 1984-cü ildə başa çatdırıldı. SSRİ üçün son dərəcə

əhəmiyyətli olan bu stansiya sutkada 60 qatarı qəbul edib göndərmək imkanına malik idi.

Azərbaycan SSR dəmir yolunun vaqon təsərrüfatının inkişafı da, faktik olaraq, 1969-cu ildən sonra başlamışdır. O vaxtadək vaqon təsərrüfatı cəmi 2 vaqon deposu və bir yuyucu-buxarlayıcı stansiyadan ibarət idisə, 1980-ci illərdə 9 vaqon deposu və bir yuyucu-buxarlayıcı stansiya fəaliyyət göstərirdi. 1975-ci ildə Bakıda konteynerlərin təmiri üzrə ixtisaslaşmış müasir texnologiyalı depo və 1981-ci ildə isə Ələt qəsəbəsində müasir tələblərə cavab verən refrijerator vaqon deposu tikilib istifadəyə verildi. Deponun yaranması ilə əlaqədar Salyanda və Biləcəridə belə vaqonlara texniki xidmət göstərilməsi üçün texniki müayinə məntəqəsi yaradıldı. Sonrakı illər ərzində daha 100 ədəd refrijerator seksiyası alındı və bununla Azərbaycan SSR-də istehsal olunmuş kənd təsərrüfatı və şərab məhsullarının daşınması tam təmin olundu. Gəncə şəhərində 1978-ci ildə texnikanın son nailiyyətlərinə uyğun müasir texnologiyalı yük vaqonlarının təmiri və istismarı deposu tikilib istifadəyə verildi, 200 nəfər işlə təmin edildi. İllik təmir gücü 2500 vaqon olan depo xətdə qatarların təhlükəsiz hərəkətini tam təmin etməyə zəmin yaratdı.

1975–79-cu illərdə Bakı elektrik dairəsində yoldəyişdirici və siqnalların mərkəzləşdirilməsi sahəsində böyük işlər görüldü, 7 stansiyada 33 yoldəyişdirici mərkəzləşdirildi, 5 keçid avtomatlaşdırıldı. Lokomotiv parkının radiostansiyalarla təminatında böyük sıçrayış əldə edildi. Təkcə 1976-cı ildə 302 belə radiostansiya quraşdırılmışdı. Dəmir yolunu keyfiyyətli operativ texnoloji rabitə ilə təmin etmək məqsədilə Ələt–Naxçıvan–Şərur dispetçer xəttinin mərkəzləşdirilməsi sahələrində yeni kabel xətləri çəkildi. Samur–Dəvəçi sahəsində 72 km, Yevlax–Xocalı sahəsində 99 km, Qala–Dübəndi–Zirə sahəsində 17 km, Bakı–Cənub, Sahil–Keşlə sahəsində 15 km uzunluğunda yeni hava rabitə xətləri çəkildi. 1970–1973-cü illərdə Pirşağı–Sumqayıt, Zabrat Pirşağı–2, Sumqayıt-Yalama sahələrində ümumi uzunluğu 202,8 km, 1974-cü ildə Ağstafa–Böyük Kəsik sahəsində ikinci dəmir yolu xəttinin tikilməsi ilə əlaqədar 45,6 km, 1975-ci ildə Baş Ələt–Əli Bayramlı (indiki Şirvan) sahəsində uzunluğu 48 km, 1979-cu ildə Əli Bayramlı–İmişli sahəsində uzunluğu 78 km olan kontakt şəbəkələri tikilərək istismara verildi.

Heydər Əliyevin şəxsi tapşırığı ilə 1969–1982-ci illərdə mənzil tikintisi geniş vüsət aldı, istismara verilmiş mənzil fondunun ümumi sahəsi 202820 m^2-ə çatdı.

Azərbaycan Kommunist Partiyasının XXIX qurultayında nəqliyyatın inkişafına toxunan Heydər Əliyev 1966–1970-ci illərdə nisbətən dəmiryol nəqliyyatının əsas fondlarının ikiqat, yük dövriyyəsinin ümumi həcminin 28%, vaqonların və lokomotivlərin dövriyyəsinin, habelə avtomobil nəqliyyatında yük dövriyyəsi və sərnişin daşınmasının xeyli artdığını, daşımaların maya dəyərinin aşağı salındığını qeyd etmişdi [4, 19–20].

Bununla belə, nöqsanlar və çatışmazlıqlar hələ də mövcud idi. Heydər Əliyev 1979-cu il dekabr plenumunda nəqliyyat sahəsində olan geriliklərdən də danışmışdır: «Demək lazımdır ki, respublikada nəqliyyatın inkişafı xalq təsərrüfatının böyük yüksəliş sürətindən geri qalır... Orta hesabla gündəlik vaqon boşaldılması, bütövlükdə, respublika üzrə plandan aşağı olmuşdur, bunun nəticəsində müəyyən edilmiş normadan 24,5% artıq yerli yüklər yolda yığılıb qalmışdır. Müəssisələrin və təşkilatların daxili yollarında vaqonların orta hesabla boş dayanması halları normadan təqribən 75% artıqdır. Azərbaycan SSR Dəmir Yolu İdarəsinin, onun şöbələrinin rəhbərliyinin vəzifəsi ən qısa müddətlərdə işləri ... yenidən qurmaqdan, nəqliyyat vasitələrindən səmərəli istifadə olunmasını təmin etməkdən ibarətdir. Səmərəsiz və qısa məsafəli daşımaları xeyli azaltmaq, onları avtomobil nəqliyyatına və başqa nəqliyyat növlərinə vermək lazımdır» [4, 56–57].

Dəmir yolundakı vəziyyət vaxtaşırı Mərkəzi Komitə səviyyəsində müzakirə olunur, Heydər Əliyev sahənin rəhbərliyindən daha artıq mütəşəkkillik, çalışqanlıq, nöqsanları aradan qaldırmaqda operativlik tələb edirdi: «...Bir çox cəhətdən bu səbəblərə görə dəmir yolu vaqonlarının və sisternlərin yük vurulması üçün verilməsində fasilələr əmələ gəlir, tez-tez dəmir yolu üzərinə qadağanlar qoyulur, qatarların hərəkət cədvəlləri pozulur. Biz onlardan vəziyyəti düzəltmək, nöqsanları aradan qaldırmaq üçün dərhal tədbir görməyi tələb edirik» [49, 23–25].

Nöqsanlar tam aradan qaldırılmadıqda isə tənqid daha kəskin olurdu. «Yaranmış vəziyyətin əsas səbəblərindən biri istismar işinin yarıtmaz təşkil edilməsindən, texniki vasitələrin saxlanılmasında ciddi nöqsanlara yol verilməsindən, qatarların gediş-gəlişində uzun fasilə-

lərə gətirib çıxaran nöqsanların sayının artmasından ibarətdir. Təsərrüfata belə qayğısızlıq ona gətirib çıxarmışdır ki, ilin əvvəlindən bəri 200 mindən çox vaqonun yüklənməsi və boşaldılması ləngimişdir, həm də bu vaqonların hər biri normadan əlavə olaraq orta hesabla saat yarımdan çox hərəkətsiz dayanmışdır... Azərbaycan KP Mərkəzi Komitəsinin 1979-cu il 16 yanvar tarixli qərarının yerinə yetirilməsi gedişinin MK-da müzakirəsi göstərmişdir ki, yaxşılığa doğru işlər çox ləng gedir» [13, 34–36].

Heydər Əliyevin elmi əsaslara söykənən prinsipial idarəçiliyi nəticəsində respublika dəmir yolunda yük dövriyyələrinin həcmi 1970-ci ildəki 24593 milyon ton kilometrdən 1982-ci ildə 35510 milyon-ton kilometrə çatdı. Sərnişin dövriyyəsinin həcmi isə müvafiq olaraq 1676 milyon sərnişin – kilometrdən 2257 milyon sərnişin-kilometrə yüksəldi [395, 99]. Həmin illərdəki uğurlarına görə Dəmir Yolu Oktyabr İnqilabı ordeni ilə təltif edildi.

1969-cu ildən etibarən bütün başqa sahələr kimi, Azərbaycan SSR-in avtomobil nəqliyyatında da ciddi irəliləyişlər dövrü başlandı. Lakin Azərbaycan SSR-də olan avtomobil yollarının 40 %-ə qədəri müharibədən əvvəl salınmışdı və dövrün standartlarına cavab vermirdi. 1966–1970-ci illərdə avtomobillə yük daşınması 44 %, sərnişin daşınması 50 % artsa da, yolların əksəriyyətinin texniki səviyyəsi aşağı idi. Kəndlərlə iri sənaye mərkəzləri arasında abad və etibarlı yolların olmaması kənd təsərrüfatı istehsalının səmərəliliyinə, kənd əhalisi ilə şəhər əhalisinin yaşayış səviyyələrinin bir-birinə yaxınlaşmasına mənfi təsir edirdi. Avtomobil yolları üzərindəki körpülərin çoxu yarıtmaz vəziyyətdə idi.

Azərbaycan KP MK iyul (1971-ci il) plenumunda Heydər Əliyev respublikada avtomobil yollarının yaxşılaşdırılmasını, yol şəbəkəsinin inkişafının baş sxeminin hazırlanmasını və yol çəkilməsinin düzgün planlaşdırılmasını, yolların texniki səviyyəsinin yüksəldilməsini, bərk örtüklü yolların və daha yüksək texniki kateqoriyalardan olan digər yolların xüsusi çəkisinin artırılmasını Baş Şose Yolları İdarəsinə və digər yol çəkilişi təşkilatlarına və idarələrinə bir vəzifə olaraq tapşırmışdı [89, 4].

1970-ci ildən başlayaraq Heydər Əliyevin qəti mövqeyi nəticəsində avtomobil nəqliyyatında yük dövriyyəsi və sərnişin daşıması

xeyli artmış, daşımaların maya dəyəri aşağı salınmışdı. Lakin bəzi mənfi hallar da yox deyildi. Belə ki, yük maşınlarının təqribən 40 %-i daşımalarda iştirak etmir, boş maşınların yola çıxması halları isə çox olurdu. Respublika Avtomobil Nəqliyyatı Nazirliyində yük avtomaşınları parkının yalnız 15 %-nin cəmləşdirildiyi iriləşdirilmiş müəssisələr respublikada bütün yük dövriyyəsinin üçdə bir hissəsini yerinə yetirirdi [395, 102]. 1966–1970-ci illərdə avtomobillərin orta texniki sürəti saatda 25–26 kilometr olmuşdur. Bunun da nəticəsində daşınan yüklərin hər ton-kilometrinin maya dəyəri 4–5 qəpiyə başa gəlirdi. Halbuki, İttifaq miqyasında yük avtomobillərinin bərk örtüklü yollarda orta sürəti saatda 55–60 km, daşınan yüklərin hər ton-kilometrinin maya dəyəri isə 2,5–3,5 qəpik idi [14, 19–20].

Heydər Əliyev bu səbəbdən respublikada yeni avtomobil yolları salmaq və mövcud yolların texniki səviyyəsini yüksəltmək üçün yol tikinti təşkilatlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi.

Respublikada yol təsərrüfatını inkişaf etdirməyin mühüm bir məsələsi də yol inşaatı təşkilatlarının yüksəkixtisaslı kadrlarla təmin edilməsi idi. Bu məqsədlə Azərbaycan Politexnik İnstitutunda avtomobil yolları, körpüləri, tunelləri çəkilməsi, istismarı və yol tikintisi maşınlarının istismarı fakültəsi yaradıldı. Yol işlərini planlaşdırmağın elmi səviyyəsi yüksəldi, elmi tədqiqat işləri genişləndi, yüksəkixtisaslı kadrlar hazırlanmağa, yol işlərində müasir texniki metodlardan geniş istifadə olunmağa başlandı [197, 48].

1970-ci illərdə Heydər Əliyevin bilavasitə rəhbərliyi altında geniş həcmdə yol tikintisi işləri görülürdü. Bunu demək kifayətdir ki, 1969-cu ildə respublikada asfalt-beton döşənmiş avtomobil yollarının uzunluğu cəmi 21,1 min km olduğu halda, 1982-ci ildə bu, 23,9 min km-ə bərabər idi [197, 48].

Avtomobil nəqliyyatının iş əmsalında böyük sıçrayış əmələ gəlmiş və onun yük dövriyyəsi 1970-ci ildəki 3709 milyon ton-km-dən 1982-ci ildə 8533 milyon ton-kilometrə çatmışdı.

Heydər Əliyev Bakı şəhərinin nəqliyyat problemlərinin həllinə də diqqət yetirir, bunu çox mühüm sosial problem hesab edirdi. O, 1975-ci ildə paytaxtda nəqliyyatın inkişafından danışarkən demişdir: «...Şəhər nəqliyyatı daha da inkişaf etdirilmişdir... Trolleybus xətləri 39

kilometr uzadılmış, 38 yeni avtobus marşrutu açılmışdı. Bakı metrosu təkcə 1974-cü ildə 101 milyon sərnişin daşımışdı. Başlıcası isə bundan ibarətdir ki, metro fəhlə qəsəbələrində və yeni sahələrdə işləyən və yaşayan yüz minlərlə adamı şəhərin mərkəzinə yaxınlaşdırmışdı» [395, 99].

Şəhərlərarası avtobus marşrutları 1970-ci ildəki 302-dən 1982-ci ildə 394-ə, sərnişin daşımaları müvafiq olaraq 12,9 milyondan 34,2 milyon nəfərə çatmışdı. Taksi maşınları 1970-ci ildə 23,9 milyon nəfər, 1982-ci ildə 44 milyon nəfər sərnişin daşımışdı [65, 37].

Azərbaycan SSR-in paytaxtı Bakı şəhərində metropoliten 1967-ci ildə istifadəyə verilsə də, onun inkişafı məhz Heydər Əliyevin respublikaya rəhbərliyi dövrü ilə bağlıdır. Heydər Əliyev Bakı şəhərində metro stansiyalarının artırılmasının xalqın sosial problemlərinin həllində əvəzsiz rol oynayacağını bilir və bu sahəyə ciddi diqqət göstərirdi. Qeyd etmək lazımdır ki, Bakı şəhərində metropoliten tikintisi ideyası hələ keçən əsrin 30-cu illərində irəli sürülmüş, 1947-ci ildə onun inşası haqqında qərar qəbul edilmiş və 1949-cu ildə bu işlərə başlanılmışdı. Lakin Mərkəzi hökumətdə kök salmış antiazərbaycan qüvvələrin səyləri nəticəsində, SSRİ hökumətinin 1953-cü il 20 sentyabr tarixli qərarı ilə Bakıda metro tikintisi dayandırılmışdı. 1960-cı ildə yenidən Bakı şəhərində metro tikintisi işinə başlandı.

Heydər Əliyevin Azərbaycan SSR DTK-nın şöbə rəisi işlədiyi illərdə SSRİ-nin strateji əhəmiyyətli şəhərlərindən olan Bakıda metro tikintisi işi xüsusi orqanların nəzarəti altında həyata keçirilirdi. Tikintidə gündəlik proseslər, mütəmadi olaraq, birbaşa Azərbaycan SSR DTK-nın şöbə rəisi Heydər Əliyevin yazı masasına daxil olan məlumatlarda öz əksini tapırdı. Çünki metropoliten təyinatına görə təkcə nəqliyyat vasitəsi deyil, həm də əhalinin kütləvi qırğın silahından müdafiəsi üçün nəzərdə tutulan hərbi-strateji obyekt idi.

1967-ci il noyabrın 6-da Bakı metrosunun birinci növbəsinin 9,2 kilometrlik ilk xətti və beş stansiyası istifadəyə verildi. Sonra «28 May» stansiyasından «Nizami» stansiyasına doğru ikinci buraxılış sahəsinin tikintisinə başlanıldı. 1968-ci ilin fevralında «Xətai» stansiyası istifadəyə verildi. Artıq metro respublika paytaxtının əhalisinin məişətinə möhkəm daxil olmuşdu. «Nərimanov–Neftçilər» istiqamətində üçüncü buraxılış sahəsində tikinti işləri aparmaq haqqında qərar qəbul

olundu. Bu istiqamətdə 1970-ci ildə «Ulduz», 1971-ci ildə «Əzizbəyov» (indiki «Koroğlu»), «Avrora» (indiki «Qara Qarayev», «Neftçilər» stansiyaları istifadəyə verildi. 1976-cı ildə ikinci növbənin ilk stansiyası olan «Nizami» stansiyası işə salındı. Daha sonra Heydər Əliyevin qəbul etdirdiyi layihə əsasında 1985-ci ildə metro şəhərin şimal-qərbindəki yaşayış sahəsinə uzadıldı. «Nizami» stansiyasından sonra istifadəyə verilən «Elmlər Akademiyası», «İnşaatçılar», «20 Yanvar», «Memar Əcəmi» stansiyaları Bakı şəhərinin nəqliyyat problemini xeyli yüngülləşdirdi. 1980-ci illərin sonunda isə metro Bakı şəhərinin sıx yaşayış rayonu olan Əhmədli qəsəbəsinə gəlib çıxdı [400, 104].

Respublikaya rəhbərlik etdiyi dövrdə hər bir metro stansiyasının istismara verilməsini mühüm hadisə hesab edən Heydər Əliyev, demək olar, bütün açılış tədbirlərinə qatılaraq, məzmunlu nitqlərlə çıxış edirdi. O, «Koroğlu», «Qara Qarayev» və «Neftçilər» stansiyalarının açılışı mərasimində etdiyi çıxışlarında demişdir: «...İcazə verin, sizi, bütün bakılıları, yeni metro xəttinin çəkilişində iştirak edənlərin hamısını şanlı əmək qələbəsi münasibətilə Azərbaycan KP MK, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti və respublika hökuməti adından səmimi təbrik edim. Bu gün biz yeni xəttin istifadəyə verilməsinin şahidiyik. Bu xəttin işə salınması nəticəsində metromuzun ümumi uzunluğu 16 kilometrdən çox olacaqdır. Biz sevinirik ki, yeni xəttin çəkilişi ilə əlaqədar olan işlərin hamısı yüksək səviyyədə görülmüş və əla qiymət almışdır. Tunellər çəkilərkən, «Əzizbəyov», «Avrora», «Neftçilər» stansiyaları tikilərkən texnikanın ən yeni nailiyyətlərindən istifadə edilmişdir. Biz bilirik ki, metro inşaatçıları öz məqsədlərinə çatmaq yolunda ciddi çətinlikləri aradan qaldırmalı olmuşlar. Daş-kəsəkli torpaq, axar qumlar onların işini çox mürəkkəbləşdirirdi. Lakin bu mühüm tikintinin iştirakçıları qarşılarında qoyulmuş vəzifəni şərəflə yerinə yetirmiş, böyük yaradıcılıq təşəbbüsü göstərmiş, qarşıya çıxan problemləri cəsarətlə, yeni texniki yollarla həll etmişlər» [400, 104].

1976-cı ilin dekabr ayının axırlarında «Nizami» stansiyanın açılışında Heydər Əliyev stansiyaların, sadəcə, funksional deyil, həmçinin estetik məna və əhəmiyyət daşımalı olduğunu vurğulamaqla, bir növ, gələcəkdə görüləcək işlərin məzmun tərəfini müəyyənləşdirirdi: «Azərbaycanın metro stansiyalarının hər biri memarlıq abidəsidir. «Nizami» metro stansiyası bu baxımdan xüsusi fərqlənir».

Bakı metropoliteni Bakı şəhərinin ən nümunəvi nəqliyyatı, yüksək xidmət mədəniyyəti müəssisəsi kimi tanınmağa başladı. Metropoliten əməkçilərinin qazandığı nailiyyətlər Heydər Əliyevin diqqətindən kənarda qalmadı. Metropolitençilərin əməkhaqqı 1971-ci ildə 30 % artırıldı. Yeraltı magistral əməkçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görüldü.

Tramvay istisna olmaqla, digər nəqliyyat vasitələrində ciddi inkişaf baş vermişdi. Trolleybus xətlərinin uzunluğu 144,8 km-dən 352,9 km-ə, metropoliten xətlərinin uzunluğu isə 11,3 km-dən 18,6 km-ə çatdırılmışdı.

Sərnişin dövriyyəsi isə göstərilən illər arasında tramvay nəqliyyatında azalaraq 67 milyon nəfərdən 40,6 milyon nəfərə enmiş, trolleybusda 57,5 milyon nəfərdən 86,9 milyon nəfərə, metropolitendə isə 46,7 milyon nəfərdən 136,2 milyon nəfərə çatmışdı [22, 30].

Heydər Əliyevin rəhbərliyi altında nəqliyyatın inkişafı sahəsində görülən işlər aviasiya sahəsində də özünü göstərməyə başladı. 1970-ci illərdə Naxçıvan, Xankəndi, Balakən, Zaqatala şəhərlərində YAK–40 reaktiv təyyarələrini qəbul edən uçuş-enmə zolaqları yaradıldı. 1974-cü ildə Naxçıvan şəhərində hava limanı tikildi. Füzulidə, Naftalanda yeni aerovağzallar yaradıldı. Bakı hava limanı yenidən quruldu, təyyarə parkı təzələndi. Tu–154 magistral təyyarəsini qəbul etmək üçün uçuş-enmə xətti yaradıldı [395]. 1978-ci ildə qısa müddətə Gəncə şəhərində yeni aerovağzal binasının inşası başa çatdırıldı və istifadəyə verildi.

Heydər Əliyev AKP-nin XXIX qurultayındakı məruzəsində 1970-ci illərin birinci yarısında respublika iqtisadiyyatında aviasiyanın tətbiqinin 1,8 dəfə artdığını, hava nəqliyyatının Azərbaycan SSR-in şəhər və rayonlarının bir çoxunu, Bakı ilə, respublikanın paytaxtının isə SSRİ-nin 50 şəhəri ilə birləşdirdiyini qeyd etmişdi. Eyni zamanda yaxın gələcək üçün ilkin vəzifələri də müəyyənləşdirirdi: təyyarə parkından daha səmərəli istifadə edilməsinə nail olmaq, uçuşların yüksək dərəcədə müntəzəm və təhlükəsiz keçirilməsini təmin etmək [294, 207–209]. Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan SSR-ə məxsus avialayner parkı Sovet İttifaqında ilk «Tu–134» və «Tu–154» reaktiv təyyarələrini, «Mi–2» və «Mi–8» vertolyotlarını alanlardan biri olmuşdu [4, 2–20].

Azərbaycan SSR-də aviasiya vasitəsilə 1970-ci ildə 17,1 min ton, 1982-ci ildə 25,4 min ton yük, müvafiq olaraq 830 min və 1664 min nəfər sərnişin daşınmışdı [77].

Heydər Əliyev Azərbaycan SSR-in su nəqliyyatının inkişafına da xüsusi diqqət yetirirdi. Respublika dəniz gəmiçiliyi neftdaşıyan, quru yüklər və sərnişin daşıyan böyük donanmaya malik idi. Bakı–Krasnovodsk bərə xəttinin açılması Qafqazın Orta Asiya, Qazaxıstan SSR və Sibirlə nəqliyyat əlaqələrini yaxşılaşdırmışdı. Qara dənizdə üzən Xəzər dəniz gəmiçiliyinin gəmiləri İtaliya, Əlcəzair, Birləşmiş Ərəb Respublikası, Polşa, Rumıniya, Bolqarıstan limanlarına reyslər edirdi.

Heydər Əliyevin qəbul etdiyi qərarın nəticəsi olaraq, 1985-ci ildə Xəzərdə Azərbaycan SSR-i Qazaxıstan SSR-lə birləşdirən bərə xətti açıldı [395, 105]. Xəzər Dəniz Gəmiçiliyi vasitəsilə 1970-ci ildə 528 min, 1982-ci ildə 608,5 min sərnişin, müvafiq surətdə 31,2 və 25,9 mln. ton yük daşınmışdı [195, 207].

Azərbaycan SSR neft ölkəsi olduğundan, istehsal və emal müəssisələri ilə istehlakçı qurumlar arasında əlaqə vasitəsi kimi boru kəmərlərindən geniş istifadə olunurdu. Bu sahədə işlərin intensiv həyata keçməsinə Heydər Əliyev əlahiddə diqqət yetirirdi. Neft və qaz sənayesinin inkişafı ilə əlaqədar boru kəməri nəqliyyatı ilə daşımalar da artırdı. 1970-ci ildə boru kəmərləri vasitəsilə 963 mln. ton-kilometr, 1975-ci ildə 1676 mln. ton-kilometr, 1982-ci ildə isə 1985 mln. ton-kilometr yük dövriyyəsi təmin edilmişdi [395, 105].

Azərbaycan SSR-də rabitənin, elektron avadanlıqlar və telekommunikasiya texnologiyaları sektorunun inkişafının geniş vüsət alması məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Respublikada rabitə sahəsində müəyyən işlər görülmüşdü: istehsal həcmi 37,7% çoxalmış, gəlirlər və səmərəlilik yüksəlmiş, xalq təsərrüfatı planları üzrə əsaslı vəsait qoyuluşu 1,6 dəfə artmışdı. Şəhər telefon stansiyalarının imkanları 1,17 dəfə genişlənərək 117074 nömrəyə, kənd yerlərində isə 1,6 dəfə genişlənərək 32100 nömrəyə çatmışdı. Radiorele xətləri çəkilmiş, kabel magistrallarının inşasına başlanılmış, beynəlxalq telefon kanallarının sayı artırılmışdı. Televiziya yayımları ilə respublika əhalisinin 78%-i əhatə olunmuş, yaşayış məntəqələrinin 80%-i radiolaşdırılmışdı. 1970-ci ilin aprelində rəngli televiziya verilişlərinin retranslyasiyası üçün radiorele xətləri çəkilişi başa çatdırılmışdı.

Lakin rabitə sahəsində işlər hələ lazımi səviyyədə deyildi. Heydər Əliyevin çıxışlarında dəfələrlə bildirilmişdi ki, rabitənin inkişafı məhsuldar qüvvələrin inkişafı tempindən xeyli geri qalır və xalq təsərrüfatının, eləcə də əhalinin artan tələblərini əsla ödəmir. Şəhərlərdə və rayon mərkəzlərində telefon şəbəkəsi xeyli dərəcədə aşağıdır. Bakı, Sumqayıt, Gəncə (keçmiş Kirovabad) şəhərlərində telefon rabitəsinin vəziyyəti qənaətbəxş deyildir. Beynəlxalq telefon-teleqraf rabitəsi müasir avadanlıqla, eləcə də kabel və radiorele xətləri ilə zəif təchiz edilmişdir. Respublikanın beynəlxalq telefon rabitəsinin 89,3%-i hava xətləri əsasında işləyir. Bir çox rayon mərkəzlərində köhnəlmiş, əllə qoşulan telefon stansiyaları fəaliyyət göstərir. Azərbaycan SSR-də yaşayış məntəqələrinin üçdə biri telefonlaşdırılmamışdır. Bütün bunlar nəzərə alınaraq, 1970-ci illərin əvvəllərində Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK rabitə vasitələrinin inkişafı və təkmilləşdirilməsinin respublikanın ən vacib vəzifələrindən biri hesab edilməsini, respublika iqtisadiyyatının bu vacib sahəsində müəssisələrin işinin hərtərəfli yaxşılaşdırılmasına nail olmağı nəzərdə tutan qərar qəbul etmişdi [395, 99]. Bu qərara uyğun olaraq, 1971–1975-ci illərdə Rabitə Nazirliyinə 16 rabitə qovşağı binasının tikintisi və rabitə müəssisələrinə istehsalat mebeli alınması üçün qeyri-mərkəzləşdirilmiş maliyyə mənbələri hesabına limit, 100 kənd rabitə şöbəsinin və Bakı şəhərində mütəxəssislərin iş yerlərində möhkəmlənməsi məqsədilə hər biri 394 yerlik iki yataqxana inşası üçün vəsait ayrılmışdı.

Bakı şəhərində yeni mikrorayonların salınması hesabına genişlənməsi paytaxtın telefon rabitəsinin də sürətli inkişafını tələb etsə də, bu sahədə vəziyyət yaxşı deyildi. Elə buna görə də Heydər Əliyev 1974-cü il fevralın 5-də Bakı şəhər partiya konfransındakı çıxışında diqqəti paytaxtın genişlənməsi ilə rabitənin inkişafı arasındakı kəskin uyğunsuzluğa yönəltmişdi: «...İndi telefon çəkdirmək üçün növbəyə 50 mindən çox ailə dayanmışdı. Respublika Rabitə Nazirliyi bu problemlə daha ciddi məşğul olmalıdır. Əhaliyə telefon çəkilməsində sui-istifadə hallarından, növbəliliyin kobud surətdə pozulmasından çoxlu şikayət gəlir. Bəzən 10 il növbədə dayanan adamlar heç cür telefon çəkdirməyə nail ola bilmir, amma bəzi əliəyri adamlar hər cür fırıldaq yolu ilə bir neçə günün ərzində telefon çəkdirə bilir. Bəs nə üçün şəhərin partiya və sovet orqanları bu cür halların qarşısını almırlar və müqəssirlər lazımınca cəzalandırılmır» [221, 10–11].

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin «Bakı şəhərində telefon rabitəsinin vəziyyəti və onu sürətlə inkişaf etdirmək tədbirləri haqqında» 1974-cü il 30 avqust tarixli qərarında isə respublika Dövlət Plan Komitəsi, Rabitə Nazirliyi, Sənaye Tikintisi Nazirliyi, Bakı Şəhər İcraiyyə Komitəsi və «Azərneft» Birliyindən paytaxtda telefon rabitəsinin inkişafı məsələlərinə münasibəti qəti şəkildə dəyişmək tələb edilmişdi [37]. 1974–1980-ci illərdə Bakıda yeni ATS-lərin tikilməsi hesabına 164 mindən çox nömrənin istifadəyə verilməsi nəzərdə tutulurdu.

Heydər Əliyev rabitə sahəsindəki uğurları qiymətləndirməklə bərabər, yaxın perspektiv üçün telefon rabitəsi həcminin 30 %-dən çox artırılmasını, çoxproqramlı televiziya stansiyası tikilməsini, bütün rabitə növlərinin, televiziya və radioda texniki vasitələrin etibarlı işləməsinə nail olunmasını prioritet vəzifələr kimi irəli sürürdü [12]. Görülən məqsədyönlü işlər nəticəsində Azərbaycan SSR ərazisində telefon aparatlarının sayı 1970-ci ildəki 157,7 mindən, 1975-ci ildə 225,5 minə, 1982-ci ildə isə 380,7 minə çatmışdı [395, 106].

1970–1980-ci illərin əvvəllərində Heydər Əliyevin bu sahəyə diqqəti yalnız rabitə sektorunun maddi-texniki bazasının möhkəmləndirmək, optimallaşdırmaqla yeni stansiyaların və rabitə qovşaqlarının inşası, əhaliyə göstərilən xidmətin yaxşılaşdırılması ilə məhdudlaşmırdı. Faktik olaraq, o illərdə Heydər Əliyev elmi-texniki tərəqqinin nailiyyətlərinin rabitə-kommunikasiya sistemində fəal şəkildə tətbiqinə çalışırdı. Digər sahələrdə olduğu kimi, adıçəkilən sektorda da innovativ inkişafa əsaslanan modelin yaradılmasını respublika iqtisadiyyatı qarşısında duran prioritet vəzifə kimi müəyyənləşdirmişdi. Ona görə də Heydər Əliyev tam haqla Azərbaycan Respublikasında informasiya cəmiyyətinin təməlini qoyan dövlət rəhbəri kimi səciyyələndirilə bilər. Onun SSRİ EA-nın prezidenti M.Keldışla yaxın münasibətləri vardı və respublikamıza o dövrün ən müasir texniki avadanlıqlarının gətirilməsinə ən fəal şəkildə yardım etmişdi.

Həmin illərdə müxtəlif nazirliklərdə və birliklərdə 120-dən artıq informasiya-hesablama mərkəzi, informatika elm-istehsalat birliyi və informasiyalaşdırma ilə məşğul olan başqa müəssisələr təşkil olunmuşdu. Sonralar «Nord», «Ulduz», «EHM» kimi elm-istehsalat birlik-

ləri, «Azon», «Büllur», «Peyk», Naxçıvanda, Tərtərdə, Mingəçevirdə, Şirvanda, Gəncədə, Sumqayıtda, Bakının özündə 30-dan artıq elektron və cihazqayırma müəssisələri işə salındı [221, 5]. Eyni zamanda respublikanın ali məktəblərində İKT ixtisasları üzrə mütəxəssis hazırlığına başlanıldı. Heydər Əliyevin o illərdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı istiqamətində fəaliyyəti onun bəsirətli və uzaqgörən dövlət xadimi kimi qlobal iqtisadi meyilləri gözəl bilməsindən xəbər verirdi.

Beləliklə, 1969–1982-ci illərdə Azərbaycan SSR-in nəqliyyat və rabitə sahələrinin inkişaf dinamikasının nəzərdən keçirilməsi bu tərəqqinin arxasında görkəmli dövlət xadimi Heydər Əliyev amilinin dayanmasını bir daha əyani şəkildə sübut edir. Sovet dövründə Azərbaycan SSR iqtisadiyyatının ən parlaq inkişaf mərhələsini məhz onun respublikaya rəhbərlik etdiyi illərdə yaşaması artıq təkzibedilməz bir həqiqətə çevrilmişdir. Heydər Əliyev keçmiş Sovet İttifaqının iqtisadi münasibətlər sistemində Azərbaycan SSR iqtisadiyyatının sürətli modernləşməsi və inkişafı üçün ən münasib metod və vasitələr seçməklə, mövcud şərtlər daxilində ən optimal modeli yaratmağa müvəffəq olmuşdu.

Heydər Əliyev, bir tərəfdən, respublikanın sərvət və resurslarından yerli istehsalın mənafelərinə uyğun şəkildə və xalqın maddi rifahının yüksəlişi naminə daha çox istifadə edilməsinə, digər tərəfdən isə İttifaq fondlarından yararlanmaqla, respublika iqtisadiyyatında yeni sahə və müəssisələrin yaradılmasına nail olmuşdu. 1971–1985-ci illərdə 32 milyard rubl təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində cəmi istifadə edilən vəsaitdən 2,1 dəfə çox idi. Başqa sözlə, göstərilən 15 ildə hər il orta hesabla 2133 milyon rubl vəsait istifadə olunurdu ki, bu da əvvəlki 50 ilin ortaillik göstəricilərindən 7 dəfə (288 milyon) çox idi.

Nəqliyyat və rabitənin yenidən qurulması, bu sahədə yeni texnologiyaların tətbiq edilməsi də o illərdə Azərbaycan SSR iqtisadiyyatının nəinki kəmiyyət, ən əsası, keyfiyyət dəyişikliklərindən keçdiyini bariz şəkildə nümayiş etdirir.

4.5. Respublika kənd təsərrüfatının inkişafında əsaslı dönüş

Heydər Əliyev Azərbaycan KP MK-nın avqust (1969-cu il) plenumunda respublika rəhbərliyinin siyasi və iqtisadi xəttinin, o cümlədən, aqrar sahənin konkret istiqamətlərini, kəndin inkişafının ən mürəkkəb problemlərini başa düşməyin və həll etməyin yollarını göstərdi.

Kənd təsərrüfatının sənaye zəmini üzərinə çıxarılmasının daha da sürətlənməsi, bir çox sahələrdə onun tam təsbiti məsələləri bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. 1970–1980-ci illər Azərbaycan SSR-in sosial-iqtisadi tarixində, xüsusilə də onun tərkib hissəsi olan kənd təsərrüfatı tarixində xüsusi mərhələ təşkil edir. Bu dövrdə respublika kənd təsərrüfatının maddi bazasının genişləndirilməsinə əsaslanan təsərrüfatçılıq üsullarından daha səmərəli istifadə edilməsi ilə yanaşı, torpaq fondunun intensiv yollarla mənimsənilməsi sistemi də gücləndirilmişdi. Ümumiyyətlə, o illərdə kənd təsərrüfatının intensivləşdirilmə əsasında inkişafı müəyyənləşdirilmişdi. Azərbaycan SSR şəraitində müstəsna əhəmiyyətə malik aqrotexniki xidmətin səviyyəsinin yüksəldilməsi üçün xeyli kolxozların sovxozlara çevrilməsi hesabına mühüm nəticələr əldə edildi. Bu mühüm nəticələrin əldə edilməsinin əsasını isə, ilk növbədə, respublikada kənd təsərrüfatının ayrı-ayrı sahələrini onların hər birinə daha çox münasib olan əlverişli torpaq-iqlim şəraitində yüksək səviyyədə inkişaf etdirmək yolu ilə əkinçilik və maldarlığın müxtəlif təbii-iqtisadi zonalar üzrə səmərəli ixtisaslaşması və təmərküzləşməsi təşkil etmişdi.

Heydər Əliyevin Azərbaycan KP MK-nın avqust (1969-cu il) plenumunda dediyi kimi, ötən illərdə Azərbaycan SSR EA, Kənd Təsərrüfatı Nazirliyinin elmi idarələri, rayon partiya, sovet təşkilatları, kolxoz və sovxoz rəhbərləri kənd təsərrüfatının əsas problem məsələləri, təsərrüfatın kimyalaşdırılması, intensivləşdirilməsi, ixtisaslaşdırılması, təmərküzləşdirilməsi, kompleks mexanikləşdirilməsi işləri ilə lazımi qədər məşğul olmamışdılar. Heyvandarlıq və bitkiçilik sahəsində xəstəliklərlə mübarizə pis təşkil edilmişdi. Kənd Təsərrüfatı Nazirliyi üzrə planlar 30 faizdən az yerinə yetirilmişdi [181, v.10–11].

Heydər Əliyev tələb edirdi ki, təsərrüfat rəhbərlərinin dünyagörüşü geniş olmalı, onlar hadisələrdən, mürəkkəb məsələlərdən

düzgün baş çıxartmalı, yenilik ruhu ilə yaşamalıdır, rəhbər işçinin başlıca vəzifələrindən biri yaradıcı təşkilatçılıq işi olmalıdır. O, cəsarətli, elmi cəhətdən əsaslandırılmış, müstəqil təşəbbüslər irəli sürməyi, insanları onların həyata keçirilməsinə səfərbər etməyi bacarmalıdır.

Heydər Əliyev respublikanın kənd təsərrüfatında yaranmış ağır vəziyyətin səbəblərini elmi əsaslarla dərindən təhlil edərək, respublikanın kənd təsərrüfatında əsaslı dönüş yaratmaq, onu hərtərəfli inkişaf etdirmək üçün konkret tədbirlər hazırlayıb Sov. İKP MK-ya müraciət etdi.

Həmin təkliflər xüsusi komissiya tərəfindən ətraflı öyrənildikdən sonra, 1970-ci il iyulun 23-də Sov. İKP MK və SSRİ Nazirlər Soveti «Azərbaycan SSR-in kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında» qərar qəbul etdi.

Qərarda respublikada torpaqdan və texnikadan səmərəli istifadə etmək, kolxoz və sovxozlarda məhsul istehsalını yüksəltmək, kənd təsərrüfatı məhsulları tədarükünü artırmaq, əmək məhsuldarlığını yüksəldib maya dəyərini aşağı salmaq üçün kolxoz və sovxoz rəhbərlərinin, kənd təsərrüfatı mütəxəssislərinin, elmi və tikinti idarə işçilərinin qüvvələrinin səfərbər olunması, respublikanın kənd təsərrüfatı məhsulunun 34,6 %-ni verən pambıqçılığa münasibətdə özünü göstərən mənfi əhval-ruhiyyənin aradan qaldıraraq, 1971–1975-ci illərdə ümumi istehsalı 360–380 min tona, taxılçılıqda ümumi məhsul istehsalını 900 min tona, tədarükünü 130 min tona çatdırmaq məsələsi irəli sürülürdü. Bundan əlavə, tərəvəz, bostan bitkiləri, kartof, meyvə və üzüm istehsalını intensiv surətdə artırmaq vəzifəsi qarşıya qoyulur, heyvandarlıq sahəsindəki ciddi nöqsanları tezliklə aradan qaldırmaq tələb olunurdu [181, v.11, 13–15].

Bakı, Gəncə (keçmiş Kirovabad), Sumqayıt, Mingəçevir şəhərləri ətrafında ixtisaslaşdırılmış, yüksək məhsul verən iri sovxozların təşkili nəzərdə tutulur, suvarma sisteminin inkişaf etdirilməsi kənd təsərrüfatı istehsalının artırılmasının mühüm şərti kimi qeyd olunurdu [181, v.16].

Qərarda, həmçinin göstərilirdi ki, respublikanın kənd təsərrüfatında aparılan tikinti işlərində dözülməz vəziyyət yarandığı, tikinti planlarının ilbəil yerinə yetirilməməsi kənd təsərrüfatının inkişafına mane olur. Tikintidə olan nöqsanlara tezliklə son qoymaq tələb olunur,

tərəvəz, meyvə və başqa kənd təsərrüfatı məhsullarını saxlamaq üçün yeni anbarlar tikilməsi tövsiyə edilirdi.

Azərbaycan KP MK-nın avqust (1970-ci il) plenumu Heydər Əliyevin məruzəsi əsasında həmin qərarın yerinə yetirilməsi sahəsində qarşıda duran vəzifələri müəyyənləşdirdi. Heydər Əliyevin plenumdakı məruzəsində kənd təsərrüfatı kadrlarının hazırlanması, seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsi sahəsindəki ciddi nöqsanlar vurğulanır, kadr siyasətində dönüş yaratmaq, elm və texnikanın nailiyyətlərindən, qabaqcıl təcrübədən geniş istifadə etmək ən vacib vəzifələrdən biri hesab edilirdi [181, v.92].

Heydər Əliyev tam inanırdı ki, işin müvəffəqiyyətini rəhbər partiya, sovet, təsərrüfat kadrları və birinci növbədə, istehsalın təşkilatçısı olan kadrlar həll edirlər. Kənd təsərrüfatı sahəsində rəhbər kadrların, kolxoz sədrlərinin, sovxoz direktorlarının, şöbə və ferma müdirlərinin, aqronomların, mühəndislərin, zootexniklərin, briqadirlərin, manqabaşçılarının düzgün seçilməsi qayğısına qalmaq, onlarla işləmək, onları yetişdirmək böyük əhəmiyyətə malik vəzifədir.

Respublikada kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satılmasını özündə birləşdirən müəssisələrin sayı xeyli artırmışdı. Bu müəssisələr istehsalın təşkilində və idarə olunmasında yeni, mütərəqqi forma olaraq yüksəkixtisaslı, elmi-texniki yenilikləri tətbiq edə bilən bacarıqlı kadrlar tələb edirdi.

Heydər Əliyevin gündəlik qayğısı və rəhbərliyi ilə kənd təsərrüfatını ixtisaslı kadrlarla təmin etmək sahəsində çox iş görülmüşdü. 1978-ci ildə kənd təsərrüfatında ali və orta təhsilli 32,4 min mütəxəssis çalışmışdır ki, bu da 1965-ci ildəkindən iki dəfə çox idi. Kolxoz sədrlərinin 84 %-i, sovxoz direktorlarının 93%-i ali və ya orta ixtisas təhsilinə malik idi. Kolxoz və sovxoz istehsalının orta pilləsində 6600-dən çox ali və orta ixtisas təhsilli mütəxəssis işləyirdi [59, 12].

Azərbaycan KP MK respublika üçün alitəhsilli mütəxəssislər hazırlayan Kənd Təsərrüfatı İnstitutu ilə (hazırda Aqrar Universitet) xüsusi məsələ müzakirə edərək konkret qərar qəbul etdi. İnstitutun, xüsusilə, mühəndislik fakültəsinin rəhbərliyi gücləndirildi, çox ehtiyacı olan rayonların gənclərinin buraya planlı surətdə qəbuluna diqqət artırıldı. Görülmüş tədbirin nəticəsində 1971–1975-ci illərdə bu fakültədə təhsil alan 1324 nəfərdən 1224 nəfəri kəndli-gənclərdən

ibarət idi [268, 44]. 1969–1978-ci illərdə institutun əyani və qiyabi şöbəsini müxtəlif ixtisas üzrə 10 516 nəfər bitirib respublikanın kənd rayonlarına göndərilmişdi.

Heydər Əliyev orta texniki təhsil almış kadrlara böyük ehtiyac olduğunu nəzərə alaraq, bu sahəyə xüsusi fikir verməyi tələb edirdi. 1970–1982-ci illərdə Azərbaycan SSR-də kənd təsərrüfatı üçün orta texniki təhsilli kadrlar hazırlayan bir çox texnikum və ixtisasartırma məktəbi, habelə müxtəlif peşə məktəbləri və kurslar fəaliyyət göstərirdi.

1971–1977-ci illərdə respublikada 10 min 200 nəfər mexanizator hazırlanmışdı. Respublikanın iqtisadi həyatında böyük rol oynayan pambıqçılıq, taxılçılıq, heyvandarlıq, üzümçülük və tərəvəzçiliyin sürətli inkişafında, ümumən kənd təsərrüfatının əsaslı yüksəlişində onların mühüm xidməti olmuşdur.

Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə işlənib hazırlanan tədbirlərin həyata keçirilməsi prosesində respublika kənd təsərrüfatının inkişafında yeni mütərəqqi meyillər yaranmışdı. İntensivləşdirmə, ixtisaslaşdırma, təmərküzləşdirmə, təsərrüfatlararası kooperasiya və aqrar-sənaye inteqrasiyası əsasında respublika kənd təsərrüfatının durmadan inkişafı bu sahəni «iqtisadiyyatın yüksək səviyyədə inkişaf etmiş bölməsinə çevirmək üçün möhkəm, mükəmməl bünövrə yaratmağa imkan vermişdi» [265, 54].

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər kənd təsərrüfatının maddi-texniki bazasının daha da möhkəmlənməsində mühüm mərhələ olmuşdur. Təkcə 1976–1980-cı illərdə kənd təsərrüfatının istehsal və qeyri-istehsal obyektləri üçün 2,3 milyard manatlıq əsaslı vəsait ayrılmışdı ki, bu da 1920–1965-ci illərdəki müvafiq göstəricidən 700 milyon manat çox idi [399].

Respublika iqtisadiyyatına əsaslı vəsait qoyuluşunun kənd təsərrüfatının xeyrinə bölüşdürülməsi də əhəmiyyətli dərəcədə güclənmişdi. Əsaslı vəsait qoyuluşunda kənd təsərrüfatının xüsusi çəkisi 1966–1970-ci illərdə 14,4 %-dən 1976–1980-ci illərdə 21 %-ə qalxmışdı.

Kənd təsərrüfatına çəkilən xərclərin mühüm istiqamətlərindən biri də irriqasiya və meliorasiyaya qoyulan vəsait idi. 1971–1980-ci illərdə bu sahəyə təqribən 1,5 milyard manata qədər əsaslı vəsait yönəldilmişdi ki, bu da sovet hakimiyyətinin əvvəlki 50 ili ərzindəkindən

1,7 % çox idi [264, 13]. Bu illərdə dağətəyi və dağlıq regionlarda su təsərrüfatı qurğularının tikintisi xeyli genişlənmiş, respublikanın əksər rayonlarında böyük həcmdə meliorasiya işləri görülmüşdü. Bütün bunlar əkin sahələrinin strukturunun təkmilləşdirilməsinə, torpaq fondundan istifadənin səmərəliliyinin yüksəldilməsinə müsbət təsir etmişdi.

Kənd təsərrüfatı istehsalının inkişafına əsaslı vəsait qoyuluşunun istiqamətlərində də mühüm keyfiyyət dəyişikliyi baş vermişdi. Təkcə 1980-ci ildə dövlətin və kolxozların kənd təsərrüfatına yönəltdiyi əsaslı vəsaitin traktor, kənd təsərrüfatı maşınları, nəqliyyat vasitələri alınmasına sərf edilən hissəsi təqribən 3 dəfə artaraq, 1970-ci ildəki 35 milyon manatdan 100 milyon manata çatmışdı [399].

1976–1980-ci illərdə kənd təsərrüfatında traktorların sayı 5 min, yük avtomaşınlarının sayı 6 min ədəd artmış, kolxoz və sovxozlar çoxlu kənd təsərrüfatı maşını almışdı. 1980-ci il üçün respublika iqtisadiyyatında əsas istehsal fondlarının 20%-i kənd təsərrüfatının payına düşürdü. Ümumiyyətlə, Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə məqsədyönlü siyasət nəticəsində kənd təsərrüfatının əsas istehsal fondlarının bütünlükdə iqtisadiyyata, sənayeyə nisbətən üstün olması meyli həmişə müşahidə edilmişdi. Bu isə kənd təsərrüfatı istehsalının daha da intensiv xarakter almasına, əkinçilik və heyvandarlığın sürətli inkişafına, əmək məhsuldarlığının maddi əsasının möhkəmlənməsinə səbəb olmuş, onun kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına əlverişli zəmin yaratmışdı. Statistika materiallarının təhlilindən aydın olur ki, 70–80-ci illərin ən mühüm iqtisadi nəticələrindən birini kənd təsərrüfatının dinamik inkişaf etməsi, respublikanın bütün iqtisadiyyatında onun rolunun artmasıdır. Belə ki, respublikada kənd təsərrüfatının ümumi istehsalı 1970–1980-ci illər arasında 2,1 dəfə artmışdı [241].

Azərbaycan SSR-də kənd təsərrüfatı məhsullarının ümumi istehsalının durmadan artması ortaillik göstəricilərdə də öz əksini tapmışdır. Əgər respublikada kənd təsərrüfatı məhsullarının ortaillik ümumi istehsalı (1983-cü ilin qiymətləri ilə) 1966–1970-ci illərdə 1555,7 milyon manat olmuşdusa, 1971–1975-ci illərdə 2076,8, milyon 1976–1980-ci illərdə isə 3962,6 milyon manata çatmış, yaxud təqribən 3 dəfə artmışdı [401, 80].

Həmin illərdə əsas kənd təsərrüfatı məhsullarının mütləq orta illik artımı təmin edilmişdi: taxıl məhsulları 1966–1970-ci illərdə 710,5 min tondan, 1976–1980-ci illərdə 1149,5 min tona, pambıq 327,7 min tondan 627,5 min tona, kartof 122,5 min tondan 151,1 min tona, tərəvəz 364,5 min tondan 835,3 min tona, tütün 21,2 min tondan 52,6 min tona, üzüm 232 min tondan 1008 min tona, meyvə 82,8 min tondan 230,6 min tona, yaşıl çay yarpağı 9,2 min tondan 18 min tona, kəsilmiş çəkidə ət 85,8 min tondan 127,5 min tona, süd 465,4 min tondan 737,5 min tona, yumurta 361,8 milyon ədəddən 737,5 milyon ədədə, yun 7,9 min tondan 10,3 min tona, barama 3,5 min tondan 4,9 min tona çatmışdı [401, 72–73].

İntensivləşdirməni təsərrüfat fəaliyyətinin əsas meyarı hesab edən və bu işə çox böyük əhəmiyyət verən Heydər Əliyevin, demək olar ki, hər an nəzarəti sayəsində taxıl istehsalı 1980-ci illərin əvvəllərində rekord həddə çatdı. Belə ki, 1965-ci illə müqayisədə taxıl əkini 1980-ci ilin əvvəlləri üçün 164,2 min hektar azalmasına baxmayaraq, ümumi məhsul 1288,8 min tona çatmış, yaxud təqribən 2,3 dəfə artmışdı [183]. Bəzi regionlarda hər hektardan 35–44 sentner, bir çox briqadalar isə hətta 65–70 sentner məhsul götürmüşdü [84].

Heydər Əliyevin bilavasitə göstərişləri əsasında həyata keçirilən tədbirlər sayəsində 1981–1985-ci illərdə Azərbaycan SSR-də 1976–1980-ci illərə nisbətən ortaillik pambıq istehsalı 12,5 %, 1971–1975-ci illərə nisbətən 60,3 %, 1966–1970-ci illərə nisbətən 115,5 % çox olmuşdu. Bu həm də Heydər Əliyev şəxsiyyətinə və idarəçilik məharətinə xüsusi rəğbət bəsləyərək daha səylə işləyən minlərlə pambıqçının vicdanlı əməyinin, kolxoz və sovxoz işçilərinin gərgin zəhmətinin nəticəsi idi. Lakin bu sahədə heç də hər şey qaydasında olmamışdır. Şəmkir (Şamxor), Goranboy, Yevlax, Bərdə, Sabirabad rayonlarının bir sıra pambıqçılıq təsərrüfatlarında dövləti cinayətkarcasına aldatmaq, gözdən pərdə asmaq, rəqəmləri şişirtmək, dövlət mülkiyyətini oğurlamaq faktları aşkara çıxarılmışdı. Bilavasitə məsuliyyət daşıyan təsərrüfat rəhbərləri ilə yanaşı, bu əmələ rayonların bəzi rəhbər işçiləri də cəlb olunmuşdular [87, 47].

Respublika rəhbəri kənd təsərrüfatı istehsalının strukturunda üzümçülüyün xüsusi çəkisinin artmasına da böyük qayğı ilə yanaşırdı. Azərbaycan SSR-də üzümçülüyün təbii-iqtisadi zona və rayonlar üzrə

dərin ixtisaslaşdırılması, üzümçülük sahələrinin xeyli genişləndirilməsi bunun aydın təzahürü idi. Məhz 70-ci illərdə salınan plantasiyaların hesabına üzümçülük sahələri 1965-ci ildəki 57,7 min hektardan 1985-ci il üçün 173 min hektara çatmışdı ki, bu da üzüm istehsalının 11,3 dəfə artaraq 1790 min tona yüksəlməsinə imkan vermişdi. Həyata keçirilmiş düzgün aqrar siyasət nəticəsində 1980-ci illərin əvvəllərində keçmiş SSRİ-də bütün məhsul verən üzümlüklərin 22 faizi, dövlətə verilən məhsulun 27 faizdən çoxu respublikamızın payına düşürdü [184; 207, 27].

Bir qədər irəli gedərək xatırladaq ki, M.Qorbaçovun sərxoşluğa və alkoqolizmə qarşı mübarizə pərdəsi altında 1985-ci ilin martından başladığı kampaniya keçmiş SSRİ-nin bu sahədə ixtisaslaşmış respublikalarının iqtisadiyyatının əsas sahələrindən olan üzümçülüyə ağır zərbə vurdu. Üzüm sortlarının dəyişdirilməsi də bu mühüm sahəni Qorbaçov avantürasının caynağından xilas edə bilmədi və üzümçülük sürətlə tənəzzül etməyə başladı.

Tərəvəz istehsalının durmadan artırılması da kənd təsərrüfatı iqtisadiyyatının mühüm sahəsi kimi Heydər Əliyevin diqqət mərkəzində olmuşdu. 1970-ci illərdən başlayaraq bu sahədə mühüm irəliləyiş əldə edilmişdi. 1965-ci ilə nisbətən 1980-ci illərin əvvəllərində tərəvəz istehsalı Naxçıvan MSSR-də 25,5 dəfə, Masallı rayonunda 6,8, Lənkəran rayonunda 6,4, Astara rayonunda 4,6, Xaçmaz rayonunda 2,2 dəfə artmışdı [85].

Meyvəçilikdə əsaslı dəyişikliklər edilərək, on min hektarlarla yeni bağ sahələri salınmışdı. 1985-ci il üçün bağların sahəsi 138,2 min hektara çatdırılmışdı ki, bu da 1965-ci ildəkindən 67 min hektar çox idi. Meyvə istehsalı bu illər ərzində 4,8 dəfə artaraq 317,5 min tona çatmışdı. Naxçıvan MSSR-də, Quba, Qusar, Şəki, Zaqatala, Qax, Balakən, Qəbələ, Xaçmaz və Gədəbəy rayonlarında istehsal, xüsusilə vüsətlə gedirdi [184].

Heydər Əliyevin rəhbərliyi altında keçən Azərbaycan KP XXIX qurultayının qərarlarına uyğun olaraq qoz-fındıq, zeytun və subtropik bitkilərin sahəsi daha da inkişaf etdirilmişdi. Zaqatala, Qax və Qələbə rayonlarında yaradılmış 7 fındıqçılıq sovxozu və fındıqtəmizləmə zavodu əsasında Zaqatala aqrar-sənaye birliyi təşkil olunmuşdu. Keçmiş SSRİ-də yeganə olan bu fındıqtəmizləmə zavodu hər il 4 min tona qədər fındıq emal edirdi [215, 175].

Zeytunçuluq Abşeron rayonunda 3 ixtisaslaşdırılmış sovxozda cəmləşdirilmişdi və yığılan məhsul Maştağa konserv zavodunda emal olunurdu [215, 175].

Çayçılıq 23 sovxozda, o cümlədən 12 ixtisaslaşdırılmış sovxozda cəmləşdirilmişdi. Azərbaycan SSR-də yaşıl çay yarpağı istehsalı 1966–1970-ci illərdəki 46 min tondan 1976–1980-ci illərdə 90, 1981–1985-ci illərdə isə 146 min tona çataraq, təqribən 3,2 dəfə artmışdı [123].

1960-cı illərdə geridə qalmış sahə hesab edilən ictimai heyvandarlığın inkişafında da bir sıra uğurlar əldə edilmişdi. Belə ki, 1970–1980-ci illərdə Azərbaycan SSR-də 169 heyvandarlıq kompleksi, ferma və sənaye tipli quşçuluq fabriki, yüzlərlə yem zavodu və yem sexi tikilib istifadəyə verilmişdi. Zoobaytar xidmətini yaxşılaşdırmaq, damazlıq işinin səviyyəsini yüksəltmək, yem bazasını inkişaf etdirmək, heyvandarlığı ixtisaslı kadrlarla möhkəmlətmək sahəsində xeyli iş görülmüşdü. Bütün bunların nəticəsində 1965-ci ildən 1980-ci ilin ortalarınadək ət istehsalı 2,4 dəfə, süd istehsalı 2,3 dəfə, yun istehsalı 1,6 dəfə artmışdı [232, 24; 239; 242].

Respublikada heyvandarlığın səmərəsinin və məhsuldarlığını yüksəltmək sahəsində də əhəmiyyətli işlər görülmüşdü. Kolxozlarda, sovxozlarda, təsərrüfatlararası müəssisələrdə və digər dövlət təsərrüfatlarında hər inək və camışdan ortaillik süd sağımı 1965-ci ildəki 696 kq-dan 1980-ci ildə 1666 kq-a, 1985-ci ildə isə 1886 kq-a çatmış və ya təqribən 2,7 dəfə artmışdı. Mal-qaranın damazlıq tərkibinin yaxşılaşdırılmasına, yem bazasının möhkəmləndirilməsinə, yemləmənin və heyvanları bəsləmənin mütərəqqi vasitələrinin tətbiqinin yeni səviyyədə qurulmasına qayğı göstərilən təsərrüfatlarda isə göstəricilər qatqat yüksək idi.

1969–1982-ci illərdə kənd təsərrüfatını, bütün aqrar-sənaye kompleksini inkişafı etdirmək sahəsində Heydər Əliyevin rəhbərliyi ilə görülmüş işlərə ümumi şəkildə müxtəsər yekun vursaq, deyə bilərik ki, bu müddət ərzində yüksək təcrübə toplanmış, kənd təsərrüfatı istehsalının texnologiyası təkmilləşdirilmiş, iqtisadi vasitələrdən istifadə edilməsi, əməyin təşkilinin və həvəsləndirmənin yeni formalarının tətbiqi, istehsal və sosial vəzifələrin yerinə yetirilməsində əmək kollektivlərinin müstəqillik və məsuliyyətinin artırılmasında əhəmiyyətli uğurlar olmuşdur.

Kənd təsərrüfatının sürətli inkişafının təmin edilməsində əsas yer tutan ümumi təsərrüfatlarla yanaşı, yardımçı təsərrüfatların da mühüm rolu olmuşdur. Sovet totalitar rejiminin ciddi yasaqlarına baxmayaraq, Heydər Əliyev Azərbaycan SSR vətəndaşlarının yardımçı təsərrüfatdan maksimum yararlanmalarına yaxından himayə göstərmişdir. O, sənaye, səhiyyə müəssisələrinin, məktəblərin, elmi tədqiqat institutlarının və təcrübə məntəqələrinin ictimai yardımçı təsərrüfatlarının yaranmasına və fəaliyyətinə də xüsusi diqqət göstərirdi [88].

Yardımçı təsərrüfatların maddi-texniki bazasının möhkəmləndirilməsi, əməyin təşkilinin təkmilləşdirilməsi, heyvan və quşlara aqrozoobaytar xidmətinin yaxşılaşdırılması bu müəssisələrin sayının 1979-cu ildəki 101-dən 1982-ci ildə 364-ə çatmasına, onlarda qaramalın sayının 2,4 dəfə, o cümlədən inəklərin sayının 3,6 dəfəyədək artmasına imkan vermişdi, qoyunçuluğa və donuzçuluğa diqqət artmış, bu təsərrüfatlara ayrılan əsaslı vəsait qoyuluşu üç dəfədən çox yüksələrək 16,6 milyon manata çatmışdı. Aparılan məqsədyönlü siyasət nəticəsində 1980-ci illərin ortalarına yaxın yardımçı kənd təsərrüfatı müəssisələrinin sayı 538-ə, onlarda qaramalın sayı 3770-ə, donuzların sayı 12825-ə, qoyun və keçilərin sayı 38 minə, quşların sayı 848 minə çatdırılmışdı [200].

Sovet siyasi sistemində ərzaq məhsullarına olan tələbatı ödəməyin əsas mənbəyi ictimai kənd təsərrüfatı istehsalı olsa da, Heydər Əliyev bu işdə fərdi yardımçı təsərrüfatların rolunu da qiymətləndirir, bu məsələyə kolxozçu, fəhlə və qulluqçuların konkret mənafeyi ilə cəmiyyətin mənafeyini uzlaşdıran mühüm sosioloji vasitə kimi baxırdı. O bilirdi ki, şəxsi yardımçı təsərrüfatlar kənd təsərrüfatı məhsullarının ictimai istehsalına nəinki mane olur, əksinə, onun inkişafının daha da sürətlənməsinə kömək edir. Belə ki, bu təsərrüfatlarda istehsal edilmiş məhsulların əsas hissəsi onunla məşğul olanların istehlakına gedirdisə, xeyli miqdarı mərkəzləşmiş qaydada dövlətə satılır, müəyyən hissəsi isə bazar və kooperativ ticarəti vasitəsilə reallaşdırılırdı. Deməli, burada tətbiq olunan əmək də öz mahiyyəti etibarilə ictimai xarakter kəsb edirdi.

Heydər Əliyev respublikanın iqtisadi inkişafının insanların azad iqtisadi təsərrüfat fəaliyyəti ilə üzvü surətdə bağlı olduğunu bilir və sanki hələ 1970–1980-ci illərin əvvəllərində gələcək müstəqil Azərbay-

can Respublikasının maddi dayağı kimi şəxsi təşəbbüslərə meydan verir və onu hər vasitə ilə stimullaşdırırdı.

Haqqında danışılan dövrdə Azərbaycan SSR Sovet İttifaqının tərkibində idi və bu baxımdan respublikada kənd təsərrüfatı istehsalının artımını ifadə edən rəqəmlərin bütövlüyündə İttifaq göstəriciləri ilə müqayisəsi daha dolğun mənzərə yaradır. Məsələn, 1966–1970-ci illərin ortaillik göstəricisinə nisbətən 1976–1980-ci illərdə kənd təsərrüfatında əmək məhsuldarlığı İttifaqda 39 %, Azərbaycan SSR-də 56 % artmışdı [264, 142].

Heydər Əliyev özünün bütün siyasi fəaliyyəti dövründə insan kapitalına böyük əhəmiyyət vermiş və mövcud iqtisadi resursları bu istiqamətə yönəltməyə çalışmışdır. Respublikanın kənd təsərrüfatının dinamik inkişafı da bu sahədə çalışan insanların maddi marağının daha da artırılması ilə müşayiət olunurdu. Bu dövrdə istehsalın inkişafı ilə işçilərin maddi marağı arasındakı qarşılıqlı əlaqə və asılılıq yeni xüsusiyyətlərlə xarakterizə edilməyə başlamışdı. İstehsalın inkişafı, bir tərəfdən, əməkhaqqının artmasını, işin nəticələrinə görə maddi maraq prinsipinin daha geniş tətbiqini təmin edir, digər tərəfdən isə maddi maraq prinsipinin təkmilləşdirilməsi istehsal göstəricilərinin yaxşılaşmasına səbəb olurdu. Təbii ki, maddi marağın təmin edilməsinin birinci əsas şərti əməkhaqqının artması idi. Respublikanın kolxozlarında əməkhaqqına 1965-ci ildə 193 milyon, 1970-ci ildə 262 milyon, 1980-ci ildə 571,5 milyon manat pul verilmişdi [398, 115, 118; 399, 134, 142].

Bəhs olunan illərdə Azərbaycanda kəndin sosial-iqtisadi simasının yaxşılaşdırılması sahəsində kompleks tədbirlər həyata keçirilmiş, kəndlərin qazlaşdırılması, səhiyyə və mədəni-maarif müəssisələri şəbəkəsinin genişləndirilməsi baxımından mühüm işlər görülmüşdür.

4.6. Azərbaycan SSR-in xarici iqtisadi əlaqələri

Azərbaycan SSR-in 70 il ərzində tərkibində olduğu SSRİ-də xarici iqtisadi əlaqələrin bütün formalarının həyata keçirilməsi sovet dövlətinin müstəsna səlahiyyətində idi. İqtisadi stimulları inkar edən qeyri-bazar təsərrüfatı və sərt inhisarçılıq şəraitində milli respublikaların real tələbatları nəzərə alınmırdı. Əslində, Azərbaycan SSR-in xarici iqtisadi-

ticarət əlaqələrinin maddi əsasını təşkil edən amillər: əlverişli coğrafi mövqe, zəngin strateji xammal ehtiyatları, əmək ehtiyatları, iqtisadi və elmi-texniki potensialı fəal xarici iqtisadi əlaqələr qurmağa imkan versə də, respublikamız bu imkanlardan real surətdə istifadə edə bilmirdi. Sovet dövlətinin xarici ticarəti bir müttəfiq respublikanın (o cümlədən Azərbaycan SSR-in) maddi sərvətlərinin digərlərinin mənafeyini və tələbatını ödəmək üçün daşınmasına (bir çox hallarda dəyər-dəyməzinə) xidmət edirdi.

SSRİ Konstitusiyasına əsasən, Azərbaycan SSR suveren respublika hesab olunub beynəlxalq hüququn subyekti sayılsa da, xarici iqtisadi əməkdaşlıq sahəsində müstəqil fəaliyyət göstərmək səlahiyyət yox idi. Çünki SSRİ-nin tərkibinə daxil olan digər müttəfiq respublikalar kimi, Azərbaycan SSR-ə də müstəqil xarici iqtisadi əlaqələr yaratmaq imkanı verilmirdi. Bütün müttəfiq respublikalar, o cümlədən Azərbaycan beynəlxalq əmək bölgüsündə İttifaq dövləti və onun səlahiyyətli orqanları tərəfindən imzalanmış müqavilə və sazişlərdən irəli gələn öhdəliklərin bir hissəsinin yerinə yetirilməsində iştirak edirdi.

Sovet dövləti xarici ticarət əməliyyatlarında yeritdiyi inhisarçılıq siyasətini bu məqsədlə yaradılmış xüsusi orqanlar – Xarici Ticarət Nazirliyi və idxal-ixrac birlikləri, beynəlxalq maliyyə hesablaşmalarını isə Xarici Ticarət Bankı vasitəsilə həyata keçirirdi. Sovet ixracatının zəif struktura malik olması iqtisadi inkişafı ləngidən əsas amillərdən biri idi.

Azərbaycan SSR-in iqtisadi əlaqələrinin əsasında digər müttəfiq respublikalarla əməkdaşlıq dururdu. Müttəfiq respublikalarla ticarət dövriyyəsində ixracın həcmi, ənənəvi olaraq, Azərbaycan SSR-in ziyanına idxaldan çox olurdu. SSRİ-nin vahid iqtisadi kompleksi çərçivəsində, digər müttəfiq respublikalarda olduğu kimi, Azərbaycan SSR-də də birinci növbədə yerli imkanlara uyğun sahələr inkişaf etdirilirdi. «Ümumittifaq əmək bölgüsü» deyilən anlayışa görə Azərbaycan SSR-in iqtisadi əlaqələrində neft kimyası, elektrotexnika, radiotexnika, neft avadanlığı və maşınları, neftayırma məhsulları və bir sıra kənd təsərrüfatı məhsulları ənənəvi idi. İxrac mallarının çeşidinin artırılmasına dövlət səviyyəsində səy göstərilmirdi. İqtisadiyyatın bir sıra sahələrində istehsal və ixrac potensialının artırılmasından əldə edilən büdcə gəlirlərinin böyük bir hissəsi ümumittifaq ehtiyaclarının ödənilməsinə yönəldilirdi.

SSRİ dövlətinin xarici ticarət planlarında, ixrac malları da daxil olmaqla, məhsul istehsalı və bölgüsünün bəzi parametrləri əsas götürülürdü. Məsələn, ixrac mallarının satışı dövlət qiymətqoyma orqanları tərəfindən daxili bazar üçün təyin edilən qiymətlərlə həyata keçirilirdi. Ona görə də bu qiymətlər dünya bazarındakı qiymətlərdən fərqlənir – ya dəfələrlə az, ya da çox olurdu. Məsələn, neft və qazın və bir çox mineral xammalların daxili bazardakı qiymətləri xarici bazardakından xeyli ucuz olsa da, elə bu qiymətlərlə də istehsalçılarla (məsələn, «Azneft»lə) hesablaşma aparılırdı. İxrac mallarından əldə edilən gəlir mərkəzi dövlət büdcəsinə daxil olurdu. Əksinə, xarici ölkələrə ixrac olunan bəzi malların daxili bazar qiymətləri dünya qiymətlərindən yuxarı olardısa, müəssisələrin zərəri dövlət büdcəsindən ödənilirdi. Belə bir şəraitdə xarici iqtisadi fəaliyyətin tənzimlənməsində iqtisadi metodların rolu məhdud idi.

Sosial-iqtisadi inkişafın bütün istiqamətləri üzrə geriliyin hökm sürdüyü 1960-cı illərdə Azərbaycan SSR-in xarici iqtisadi əlaqələrinin zəif inkişafının obyektiv və subyektiv səbəbləri var idi. Sözsüz ki, bütövlükdə, respublika iqtisadiyyatında, o cümlədən sənayenin ənənəvi və aparıcı sahələrində hökm sürən uzunmüddətli gerilik, istehsal prosesində yeni avadanlıq və texnologiyaların zəif tətbiq edilməsi dövlət sifarişlərinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə mane olurdu. Digər tərəfdən, xarici iqtisadi fəaliyyətin Mərkəzi hökumət tərəfindən planlaşdırılması xarici ticarətlə məşğul olan birlik və təşkilatların dünya bazarında baş verən dəyişikliklərə uyğunlaşmasına və iqtisadi maraqlara uyğun çevik qərarlar qəbul etməsinə imkan vermirdi. Buna görə də çox vaxt xarici iqtisadi əlaqələrin subyektləri bu əlaqələrin daha səmərəli qurulmasına bir o qədər maraqlı deyildilər. Beynəlxalq standartlara uyğun valyuta tutumlu məhsulların istehsalı başlı-başına buraxılırdı. İxrac edilən bir çox məhsulların aşağı keyfiyyətdə olması haqlı narahatlıq doğururdu. 1969-cu ildə xarici ticarət birliklərinin sifarişi ilə respublikanın cəmi 70 müəssisəsi dünyanın 60 ölkəsinə müxtəlif adda məhsul ixrac etmişdi. İxrac məhsullarının həcmi 133,7 mln. manat olsa da, dövlət planında nəzərdə tutulan göstəricilər kəsirlə yerinə yetirilmişdi. Həmin il xarici ölkələrə müqavilələrdə nəzərdə tutulduğundan 3258 min manatlıq az neft məhsulları, o cümlədən 318822 ton dizel yanacağı, 61030 ton do-

nanma mazutu, 84064 ton maşın dizel və 312,8 ton təyyarə mühərriki yağı («MK–22»), 814,4 min manatlıq neft maşınqayırması avadanlığı, 457, 2 min manatlıq kimya sənayesi məhsulları, 519 min manatlıq metal borular göndərmişdi.

1960-cı illərdə Azərbaycan SSR-də sənaye və kənd təsərrüfatı sahələri üzrə ixrac tutumlu malların istehsalında mütləq rəqəmlərdə artım müşahidə olunsa da, əslində, bu göstəricilər respublikanın iqtisadi imkanlarından çox aşağı səviyyədə idi [68, 37–38].

1960-cı illərin sonlarından başlayaraq sovet cəmiyyətinin tədricən qapalılıqdan çıxması milli respublikaların xarici iqtisadi əlaqələrinin, o cümlədən Qərb ölkələri ilə əlaqələrinin nisbətən genişlənməsi ilə müşayiət olunurdu. O vaxtdan müttəfiq respublikaların rəhbərləri də müxtəlif ölkələrə gedən nümayəndə heyətlərinə başçılıq edir, təsərrüfat müqavilələri imzalayırdılar. Lakin bu əlaqələr, hər halda, dünya iqtisadiyyatına qovuşmağa imkan verə biləcək səviyyədə deyildi.

1970–1980-ci illərdə Azərbaycan SSR-in xarici ölkələrlə iqtisadi əlaqələri yeni forma və məzmun kəsb etməyə başlamışdı. Beynəlxalq əməkdaşlığın əsas formalarını xarici ticarət, xarici ölkələrin ərazisində tikinti işlərinin aparılması sahəsində fəaliyyət, beynəlxalq yük daşımaları, beynəlxalq yarmarka və sərgilərdə iştirak, mütəxəssis mübadiləsi və beynəlxalq turizm və birbaşa iqtisadi əlaqələr təşkil edirdi.

Heydər Əliyev Azərbaycan SSR-in xarici ölkələrlə ticarət-iqtisadi əlaqələrinin ümumi mənzərəsini düzgün qiymətləndirir, bu əlaqələrin genişləndirilməsi üçün ən səmərəli forma və metodlardan istifadə olunmasını tövsiyə edirdi. Mərkəzi Komitənin plenumlarında və büro iclaslarında, partiya-sovet və təsərrüfat fəallarının müşavirələrində Heydər Əliyev ayrı-ayrı sənaye müəssisələrinin ixrac potensialının artırılmasında cavabdeh olan nazirlik, komitə və baş idarə rəhbərlərini işlərində dönüş yaratmağa çağırırdı. Beləliklə, deyə bilərik ki, respublika iqtisadiyyatında həyata keçirilməkdə olan yeniləşmənin əsas istiqamətlərindən biri beynəlxalq iqtisadi əməkdaşlığa meylin güclənməsi idi.

Azərbaycan SSR-in xarici iqtisadi fəaliyyətinin geniş xarakter almasında və əsas istehsal sahələrinin xarici bazarlara yol tapmasında Heydər Əliyevin bir ümdə məqsədi var idi: Azərbaycan SSR-in iqtisadi cəhətdən müstəqil yaşamasının əsaslarının yaradılması və

möhkəmləndirilməsi. Respublikanın, sözün əsl mənasında, öz təbii sərvətlərinin və iqtisadi potensialının tam sahibi olmaması, xarici iqtisadi əlaqələri tənzimləyən mərkəzi idarələrin mövcudluğu kimi bir çox maneələrə baxmayaraq, bu strateji xətt məqsədyönlü və ardıcıl şəkildə həyata keçirilməkdə idi.

Tarixi həqiqət budur ki, Heydər Əliyev Azərbaycan SSR-in öz təbii sərvətləri və strateji xammal mənbələrinə söykənən passiv iqtisadi siyasətin deyil, bütün iqtisadi resursların vahid məqsədə xidmət etməsinin, elm və texnologiya tutumlu sahələrin hərtərəfli inkişafını nəzərdə tutan, fəal və uzaq perspektivə hesablanan iqtisadi siyasətin tərəfdarı olmuşdur. Kommunist ideologiyasının və sosialist idarə sisteminin hökm sürdüyü bir cəmiyyətdə Heydər Əliyevin qətiyyətli mövqeyi, işə peşəkar münasibəti respublikanın xarici iqtisadi əlaqələrinin malik olduğu iqtisadi resurslara uyğun reallaşması üçün geniş meydan açırdı.

Heydər Əliyevin yüksək təşkilatçılıq və məqsədyönlü fəaliyyəti qısa müddət ərzində respublikanın ixrac potensialını artırmağa imkan verdi. Nəticələr özünü elə birinci ildə göstərmiş oldu. Azərbaycan SSR Xarici İşlər Nazirliyinin Azərbaycan KP MK-ya təqdim etdiyi «1970-ci ildə Azərbaycan SSR-in xarici ölkələrlə əlaqələri» haqqında hesabatda göstərilirdi ki, 1969-cu illə müqayisədə ixrac mallarının ümumi dəyəri 7,7 mln. manat artmışdır. Xüsusilə neft emalı və neft kimyası, yüngül, yerli sənaye, tikinti materialları, kənd təsərrüfatı və ticarət nazirlikləri, «Azneftsənayemaş», «Azneft», «Xəzərdənizneft», «Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi», «Azərkitab», Sumqayıt alüminium və kimya zavodları, Bakı yod zavodu və s. ixrac öhdəliklərini yerinə yetirmişdi.

Bununla belə, Azərbaycan SSR iqtisadiyyatını təmsil edən müəssisə və təşkilatların xarici bazara istiqamətlənməsi, ixrac mallarının dünya standartlarının tələblərinə uyğunlaşdırılması sahəsində hələ çox iş görülməli idi. Azərbaycan SSR ixracının əsas hissəsini təşkil edən nefti müstəqil surətdə dünya bazarına çıxarmaq imkanından məhrum idi. Neft emalı prosesinin tullantılarının xarici bazarda satışına kvotalar ayrılması və lisenziyalar verilməsi tamamilə Mərkəzin ixtiyarında qalırdı. İstehsal olunan pambığın 88 %-i, sulfanolun 86 %-i, neft məhsullarının 64 %-i, polad boruların 97 %-i, neft-mədən avadanlığının 75 %-i respublikadan kənara (SSRİ-nin digər bölgələrinə) aparılırdı. Əgər

göstərilən xammal və avadanlıqları xarici bazara respublika təşkilatları özləri müstəqil çıxarsa idi, Azərbaycan SSR-in büdcəsinə milyonlarla manat əlavə valyuta vəsaiti daxil olardı [217, 38].

Heydər Əliyev dühasının üstünlüyü özünü sosializm sisteminin məhdud imkanlarından maksimum istifadə edilməsi və xarici iqtisadi fəaliyyətin daha səmərəli qurulmasında göstərirdi. Ümummilli lider Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində böyük imkanların olduğunu yaxşı bilir, buna görə də ixrac potensialından daha səmərəli və məqsədyönlü istifadə edilməsinə böyük əhəmiyyət verirdi. Onun bilavasitə təşəbbüsü ilə bu sahədə qəbul edilən qərarlar və həyata keçirilən tədbirlər, əslində, həmin dövrdə Azərbaycan SSR-in xarici iqtisadi əlaqələr sahəsində fəal siyasət apardığını sübut edir.

Digər müttəfiq respublikalar kimi, Azərbaycan SSR-in də xarici iqtisadi əlaqələrinin böyük bir qismi dünya sosializm birliyi ölkələri ilə aparılırdı. Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) çərçivəsində Şərqi Avropanın sosialist ölkələri ilə əməkdaşlıq sovet xarici ticarətinin və gömrük-tarif siyasətinin üstün istiqaməti idi. Azərbaycan SSR də QİYŞ xətti ilə fəal surətdə beynəlxalq inteqrasiya prosesinə qoşulmuşdu. QİYŞ-in maşınqayırma üzrə daimi komissiyasının 1971-ci ilin noyabrında Bakıda keçirilən iclası kimya və neft maşınqayırması sahəsində inteqrasiya məsələlərinə həsr olunmuşdu.

Azərbaycan SSR-in maşınqayırma müəssisələri Əfqanıstan, Qvineya, Birma, Əlcəzair, Hindistan, Mali, Sudan, Birləşmiş Ərəb Respublikası, Seylon, Pakistan, İraq, Efiopiya, Türkiyə, İran, Suriya, Somali və başqa ölkələrin sifarişlərini yerinə yetirirdi. Leytenant Şmidt adına zavod dünyanın 20-dən artıq ölkəsi üçün 30-dan çox adda neft avadanlığı hazırlayır, respublikamız Hindistana polad borular, alüminium, reaktiv yod göndərirdi. İxrac edilən avadanlıq və məmulatlar içərisində neft qazması və neftçıxarma avadanlığı mühüm yer tuturdu. Azərbaycan neftçiləri Tümen və Tatarıstan neftçiləri ilə birlikdə bu ölkədə neft və qaz yataqlarının axtarışında iştirak edirdilər. Birgə səylər nəticəsində Assam və Qucarat ştatları ərazisində, habelə Bombey şelfinin qərbində iri neft yataqları kəşf olunmuşdu. Azərbaycan SSR mütəxəssislərinin köməyi ilə Hindistanda 50-dən çox neft və qaz yatağı aşkar edilmişdi. Rançi və Durqaput maşınqayırma müəssisələrindən Azərbaycan SSR-ə avadanlıq göndərilirdi. Bakının maşınqayırma za-

vodları Hindistan şirkətləri ilə kooperasiya əsasında istehsal etdikləri avadanlıq və dəzgahları üçüncü ölkələrə ixrac edirdi. Sovet İttifaqının iqtisadi və texniki yardımı ilə Əfqanıstanda tikilən avtomobil təmiri zavodu üçün Azərbaycan SSR-dən mütəxəssislər, səyyar elektrik stansiyaları, polad borular, elektrik mühərrikləri və s. göndərilirdi [217, 10, 20].

Sovet İttifaqının yardımı ilə Əfqanıstanda avtomobil yolları və təyyarə meydanlarının, Türkiyədə Cümhuriyyətində şüşə və sement zavodlarının, Nepalda şin zavodunun tikintisinə avadanlıqlar Bakıdan aparılmışdı. Azərbaycan SSR inkişaf etməkdə olan ölkələrə kənd təsərrüfatı maşınları ilə bərabər, ziyanvericilərə qarşı mübarizə aparmaq üçün kimyəvi vasitələr də göndərirdi.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və respublika Nazirlər Sovetinin 1973-cü il 13 aprel tarixli B–63/7 nömrəli qərarında respublikanın müvafiq nazirlik, təşkilat və müəssisələrinin rəhbərlərinə ixrac planlarının yerinə yetirilməsinə ciddi nəzarət edilməsi və respublika Dövlət Plan Komitəsinə məlumat verilməsi tapşırılırdı. İxrac mallarının keyfiyyətinə SSRİ Xarici Ticarət Nazirliyi Dövlət Müfəttişliyinin Azərbaycan SSR şöbəsi nəzarət edirdi. Xarici ticarət fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatların sırasında «Azneft», «Xəzərdənizneft», Ticarət-Sənaye Palatası və «Azərittifaqla» yanaşı, respublikanın yüngül sənaye, meşə və ağac emalı sənayesi, yerli sənaye, yeyinti sənayesi, kənd təsərrüfatı və ticarət nazirliklərinin, Əlvan Metallurgiya Birliyinin tabeliyində olan müəssisələr mühüm yer tuturdu. Sumqayıt Kimya Birliyi, Bakı və Gəncə cihazqayırma zavodları, Bakı mayesiz transformatorlar, «Bakelektroavtomat», yod, dərman preparatları və zərgərlik, elektrik-montaj avadanlıqları, elektrik lampaları zavodları, «Xəzər Dəniz Gəmiçiliyi» və «Xəzərbalıq», şirkətləri, Azərbaycan Boru Prokat, Mingəçevir «Azərkabel» və yol maşınları zavodları var idi. 1973-cü ildə Azərbaycan SSR-dən ixrac olunan malların strukturu belə idi: neft məhsulları 50,2 faiz, yüngül sənaye malları 34,3, əlvan metallurgiya məhsulları 4,9, neft maşınqayırması məhsulları 3,2, yerli sənaye məhsulları 2, cihazqayırma məhsulları 1,6, elektrotexnika sənayesi məhsulları 1,1, qara metallurgiya məhsulları 0,7, yeyinti məhsulları 0,5, kimya sənayesi məhsulları 0,5, digər ixrac malları 1 %. 1970-ci ildə respublikanın 70-ə yaxın müəssisəsi 56 ölkəyə mal ixrac edirdisə,

1975-ci ildə 100-dən çox müəssisə və təşkilat Avropa, Asiya, Afrika və Latın Amerikasının 65 dövlətinə 350 adda məhsul göndərmişdi [151, v. 89; 199, 1976, 2 may; 231].

Heydər Əliyev Azərbaycan SSR-in ixrac potensialında mühüm yeri olan neft maşınqayırması sənayesində yaranan durğunluğu aradan qaldırmaq üçün böyük işlər görürdü. Azərbaycan KP MK və Nazirlər Sovetinin 1973-cü il 20 aprel tarixli qərarında deyilirdi ki, son illərdə ixraca göndərilən maşınqayırma məhsullarının texniki göstəricilərinin və keyfiyyətinin yüksəldilməsi üçün görülən tədbirlər müsbət nəticə vermiş, 1967-ci illə müqayisədə sənaye məhsulları ixracında maşınqayırma sənayesinin payı 36 faiz artmışdı. Bununla belə, ixraca göndərilən maşınqayırma məhsullarının ümumi ixracda payı cəmi 5,2 % təşkil edirdi. Bunun əsas səbəbi respublikanın istehsal və elmi tədqiqat müəssisələrində, layihə institutları və konstruktor bürolarında rəqabət qabiliyyətli məhsulların istehsalının artırılması, ixrac üçün nəzərdə tutulan maşın və avadanlıqların konstruksiyasının təkmilləşdirilməsinə laqeydlik göstərilməsi idi. Məsələn, elmi tədqiqat «Azinmaş» İnstitutunda hazırlanmış təkmilləşdirilmiş reduktorun kütləvi istehsalı təşkil edilmədiyinə görə, «Bakı fəhləsi» zavodu təkcə 1972-ci ildə 704,8 min manat dəyərində 140 ədəd neftçıxarma dəzgahını xarici ölkə sifarişçisinə göndərə bilməmişdi [145, v. 28; 146, vv. 47–50].

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR-in xarici ticarət balansında mühüm payı olan neftayırma sənayesinin texniki cəhətdən yenidənqurma və kompleks modernləşdirmə proqramının həyata keçirilməsinə başlanıldı. Yeni Bakı neftayırma zavodunda neftin ilkin emalı qurğusu – ELOU-AVT vaxtından əvvəl işə salındı. Bakı prokat zavodunda «250–2» stanının istifadəyə verilməsi termik üsulla boru istehsalının 2,1 dəfə artmasına səbəb oldu.

Heydər Əliyev Azərbaycan SSR-in sənaye müəssisələrində istehsal olunan məhsulların, xüsusilə dünya bazarına çıxarılan malların keyfiyyətinin artırılmasına xüsusi əhəmiyyət verirdi. Azərbaycan KP MK və SSR Nazirlər Sovetinin məhz onun təşəbbüsü ilə qəbul edilən «İxrac malları istehsalının artırılması və keyfiyyətinin yüksəldilməsi haqqında» 1974-cü il 1 avqust tarixli qərarının bu baxımdan böyük əhəmiyyəti oldu. Respublikanın xarici ticarət potensialının yüksəlişini nəzərdə tutan qərarda bu sahədə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf

etdirilməsi üçün görülən işlər təhlil olunmuş, qarşıda duran vəzifələr müəyyən edilmişdi. İxrac mallarının nomenklaturasının artırılması, yeni növlərinin ixrac siyahısına daxil edilməsi, istehlak kooperasiyası və sərhədyanı ticarət əməliyyatlarının genişlənməsi kimi müsbət irəliləyişlərlə yanaşı, bəzi nazirlik, müəssisə və təşkilatlarda imkanlardan qənaətbəxş istifadə edilmirdi, ixrac tapşırıqlarının yerinə yetirilməsi və keyfiyyətin artırılması sahəsində nöqsanlar var idi. Qərarda bu sahədəki geriliyin səbəbləri göstərilməklə yanaşı, xarici iqtisadi fəaliyyətdə iştirak edən müvafiq nazirlik, dövlət təşkilatları və müəssisə rəhbərləri qarşısında konkret tapşırıqlar qoyulmuşdu.

1960–1980-ci illərdə Azərbaycan SSR-in ixrac potensialının dinamikası (milyon manatla)

İllər	İxracın həcmi	1960-cı ilə nisbətən %-lə	İllər	İxracın həcmi	1970-ci ilə nisbətən faizlə
1960	76,3	100,0	1970	141,3	100,0
1961	71,3	93,5	1971	161,5	114,3
1962	84,7	111,0	1972	175,3	124,1
1963	106,6	140,0	1973	215,7	152,6
1964	101,3	133,0	1974	213,3	150,9
1965	117,7	154,0	1975	244,3	172,9
1966	131,6	172,0	1976	226,7	160,4
1967	135,5	178,0	1977	220,8	156,3
1968	149,5	196,0	1978	218,5	154,6
1969	133,7	175,0	1979	209,4	148,2
1970	141,3	185,0	1980	217,7	154,1

Mənbə: [151, 89].

1970-ci illərin ikinci yarısında respublika iqtisadiyyatının inkişafında mühüm nailiyyətlər əldə edilməsi Azərbaycan SSR-in xarici iqtisadi əlaqələrinin maddi əsasını daha da möhkəmləndirdi. SSRİ Xarici Ticarət Nazirliyinin ixrac malları siyahısına daha 49 adda məhsulun daxil edilməsinin təklif olunması da bu yüksəlişlə əlaqədar idi.

İxrac malları sırasında əsas yeri neft və neft məhsulları (49 %), pambıq mahlıcı (32 %) tutsa da, hazır məhsulların xüsusi çəkisi də artırdı. Respublikanın beynəlxalq iqtisadi əlaqələrdə fəal iştirak etməsi ixracyönümlü iqtisadiyyatın formalaşmasına və inkişaf tempinə müsbət təsir göstərə bildi [394, 11].

Cədvəldən göründüyü kimi, iqtisadiyyatın dinamik inkişaf prosesi onun ixrac potensialının sabit şəkildə artması ilə müşayiət olunurdu. Belə ki, 1980-ci ildə Azərbaycan SSR-dən ixrac edilən malların dəyəri 1960-cı illə müqayisədə 2,8 dəfə, 1970-ci illə müqayisədə 1,5 dəfə artmışdı.

Azərbaycan SSR Ticarət-Sənaye Palatasının təşkilatçılığı ilə müxtəlif ölkələrdə keçirilən sərgi və yarmarkaların ticarət, iqtisadi və elmitexniki əlaqələrin inkişafı və təbliğində mühüm rolu vardı. Respublikamızın bu sahədə fəaliyyəti 1965-ci ildə İranın paytaxtı Tehran şəhərində keçirilən beynəlxalq sərgidə müstəqil stendlə iştirakı ilə başlamış, 1966-cı ildə Dəməşqdə keçirilən beynəlxalq yarmarkada müstəqil bölmə və 1970-ci ildə Türkiyə Cümhuriyyətinin İzmir şəhərində keçirilən 39-cu beynəlxalq yarmarkada müstəqil pavilyonla iştirakı ilə davam etmişdi [273, 7–10]. Azərbaycan SSR 1969-cu ilin oktyabrında Tehranda Asiya ölkələrinin II Beynəlxalq ticarət yarmarkasının informasiya bölməsinin iştirakçısı olmuşdu [138, v. 25–27].

Ticarət-Sənaye Palatası Azərbaycan SSR-in beynəlxalq ticarət yarmarkası və sərgilərində müstəqil bölmə ilə iştirakını təmin etmək üçün respublikanın müvafiq nazirlikləri və müəssisələri ilə geniş hazırlıq işləri aparırdı. Məsələn, İzmir beynəlxalq yarmarkasında (1970-ci il 2 avqust – 2 sentyabr) 884 kv.metr sahəni əhatə edən müstəqil pavilyonda respublikamızın iqtisadiyyat, elm və texnika sahəsindəki uğurları nümayiş olunmuşdu. 1970-ci ilin oktyabrında Bakıda Polşa Xalq Respublikasının «Pol-Mot» xarici ticarət birliyinin təşkilatçılığı ilə bu ölkədə istehsal edilən minik avtomobillər nümayiş etdirildi. Respublikanın Ticarət-Sənaye Palatası elmi tədqiqat cihazları istehsal edən fransız şirkətlərinin nümayəndələri ilə Azərbaycan SSR Elmlər Akademiyası mütəxəssislərinin görüşünü təşkil etmişdi. Almaniya Demokratik Respublikasının «Hemikombinat Batterfeld» kimya kombinatının nümayəndələri ilə Bakıda keçirilən işgüzar görüşdə neft emalı və neft kimyası sənayesində işlədilən istilik mübadiləsi cihaz-

larının sərgisinin təşkili haqqında razılıq əldə olunmuşdu. Çexoslovakiyanın «Kovo» xarici ticarət şirkəti 1971-ci ilin may-iyununda Bakıda «Dəqiq cihazlar və radiotexnika» adlı satış-sərgi təşkil etmişdi. Respublikamıza ən yeni elmi tədqiqat cihazlarının göndərilməsi haqqında ADR-in «Karl Seys-Yena» müəssisəsi ilə razılıq əldə olunmuşdu.

Azərbaycan SSR-in xarici iqtisadi-ticarət əlaqələrinin inkişafına xidmət edən beynəlxalq yarmarkalarda iştirak ildən-ilə daha geniş xarakter alırdı. Respublikanın Bağdad, Qahirə və Əlcəzairdə keçirilən beynəlxalq yarmarkalarda müstəqil bölmələrlə iştirak etməsi bu sahədə irəliləyişdən xəbər verirdi. 1973-cü ildə keçirilən Bağdad yarmarkasında Azərbaycan SSR iqtisadiyyatının sənaye və aqrar bölməsində istehsal olunan 350 adda məhsul nümayiş etdirilmiş, Azərbaycan SSR pavilyonu yarmarkanın «Böyük qızıl medal»ını almışdı. 1974-cü ildə Qahirədə keçirilən 7-ci beynəlxalq yarmarkada Azərbaycan pavilyonunun eksponatları ilə 400 min nəfər tanış olmuşdu [436, 43].

Azərbaycan KP MK Bürosunun «Azərbaycan SSR-in 1976–1978-ci illərdə xaricdə keçiriləcək beynəlxalq yarmarka və sərgilərdə müstəqil bölmə ilə iştirakı haqqında» 1973-cü il 23 oktyabr tarixli qərarında respublikamızın Hindistan (1976-cı il), Fransa (1977-ci il) və Finlandiyada (1978-ci il) keçiriləcək yarmarka və sərgilərdə iştirakına ciddi hazırlıq işlərinin görülməsi barədə əlaqədar təşkilatlara tapşırıqlar verilmişdi.

Bu illər ərzində Bakıda 9 beynəlxalq ixtisaslaşmış sərgi və elmi-texniki simpozium keçirilmişdi. İlk dəfə keçirilən «Şərabkonservmaş–76» sərgisində 11 ölkəni təmsil edən 56 xarici ticarət şirkəti iştirak edirdi. Yaponiya şirkətlərinin mallarını nümayiş etdirən «Orqtexnika-76», «Finmetal–76» (Finlandiya), ADR-in məişət və avtokosmetika məhsulları, İsveçin «Eriksson» şirkətinin rabitə avadanlıqlarını nümayiş etdirən sərgilər, Macarıstan alimlərinin iştirakı ilə «Kimyəvi reaktivlər və xüsusi təmiz maddələr» adlı beynəlxalq simpozium müvəffəqiyyətlə keçmişdi [160, v. 136–139].

Azərbaycan SSR Ticarət Palatasının xətti ilə Bakıda Fransa, Çexoslovakiya və Polşa dövlətlərinin sənaye məhsullarının texniki və istehlak göstəricilərinin nümayiş etdirildiyi sərgi və simpoziumlarda xarici ölkə mütəxəssislərinin təcrübəsi ilə tanış olmağa əlverişli imkan

yaranırdı. 1980-ci ildə Azərbaycan Ticarət-Sənaye Palatası ixrac potensialının nümayişində və beynəlxalq əməkdaşlığın inkişafında əldə etdiyi nailiyyətlərə görə «Qızıl Merkuri» beynəlxalq mükafatın layiq görülmüşdü. 1981-ci ilin sentyabrında Parisdə, YUNESKO-nun iqamətgahında «Azərbaycanın xalçaçılıq sənəti» adlı sərgi keçirilmişdi. Fransız ictimaiyyətinin böyük maraqla qarşıladığı bu tədbir haqında 25 dildə dünyanın 150 ölkəsinə yayımlanan «Kuryer YUNESKO» jurnalında geniş informasiya dərc olunmuşdu [166, v. 57–58].

1970–1980-ci illərdə Azərbaycan SSR Plovdiv (Bolqarıstan), Leypsiq (ADR), Praqa (Çexoslovakiya), Bağdad (İraq), Qahirə (Misir), Dehli (Hindistan), Poznan (Polşa), Zaqreb (Yuqoslaviya), Cakarta (İndoneziya), Boqota (Kolumbiya), Oslo (Norveç), Saloniki (Yunanıstan) və Hanoyda (Vyetnam) keçirilmiş beynəlxalq sərgi və yarmarkalarda iştirak etmişdi.

Həmin illərdə xarici şirkətlərin iştirakı ilə Bakıda 50-dən çox beynəlxalq sərgi keçirilmişdi. Xarici iqtisadi əlaqələrin coğrafiyasına gəlincə, mənzərə aşağıdakı kimi idi: respublikamızın inkişaf etməkdə olan ölkələrlə ticarətinin 60 faizi Asiya, 35 faizi Afrika, 5 faizi Latın Amerikası ölkələrinin payına düşürdü.

Qonşu İranla geniş xarici ticarət əlaqələrində Azərbaycan SSR-in mühüm rolu vardı. 1969-cu ildə respublikamız sərhədyanı ticarət xətti ilə qonşu ölkəyə 486,5 min ABŞ dolları həcmində mal (əsasən, pambıq yağı, təbii əlif, şampan şərabı və təsərrüfat sabunu) satmışdı. İrandan isə 465 min ABŞ dolları həcmində trikotaj, sintetik parçalar və ayaqqabı, elektrik soyuducuları, parfümeriya və düyü alınmışdı [138, v. 25–27].

SSRİ ilə İran arasında dövlətlərarası razılaşmaya əsasən, 1971-ci ildə Araz çayı üzərində su-elektrik stansiyası, su anbarı və ötürücü sistemlərin daxil olduğu kompleksin tikintisi başa çatdırıldı. Azərbaycanlı mütəxəssislər qonşu dövlət üçün hidrotexnika üzrə yerli kadrların hazırlanmasında da yaxından iştirak etmişdilər. Enerji daşıyıcıları sahəsində Azərbaycan SSR-in qonşu İranla geniş əlaqələrinin inkişafında 1971-ci ildə Transsibir magistral qaz kəmərinin istifadəyə verilməsinin mühüm əhəmiyyəti oldu. Azərbaycan SSR ərazisindən keçən bu kəmərlə Cənubi Qafqaz respublikalarına hər il təqribən 10 mlrd. m^2 təbii qaz verilirdi.

İsfahan metallurgiya kombinatının işçiləri üçün salınan Ariyaşəhr qəsəbəsi 17 ölkənin mütəxəssislərinin iştirak etdiyi müsabiqədə qalib gələn həmyerlimiz, memar M.Paşayevin təqdim etdiyi layihə əsasında tikilmişdi [210, 10].

Azərbaycan SSR-in ərəb ölkələri ilə iqtisadi əlaqələri yüksək səviyyədə idi. Respublikamız Misirdə, Nil çayı üzərində Asuan bəndinin tikintisinə texniki avadanlıqlar, yüksəkixtisaslı mütəxəssislərlə kömək edirdi. Azərbaycan SSR-dən İraq, Səudiyyə Ərəbistanı, Yəmən, Tunis, Əlcəzair, Tunis və Suriyada tikilməkdə olan neftayırma, metallurgiya və kimya müəssisələrinə müxtəlif avadanlıq göndərirdi. Livan, Küveyt, Liviya və Mərakeşlə ticarət əlaqələri genişlənməkdə idi.

1976–1980-ci illərdə SSRİ-nin xarici ticarət əlaqələrində Azərbaycan SSR daha fəal iştirak edirdi. Xüsusilə 70-ci illərdə yaradılan bir sıra sənaye müəssisələri yerli məhsulların dünya bazarına çıxarılmasına əlverişli imkanlar açmışdı. 1979-cu ildə 110 sənaye müəssisəsi dünyanın 80 ölkəsinə 350 adda 209,4 mln. manatlıq mal ixrac etmişdi [203, 84].

Azərbaycan SSR-in neft məhsulları, neft avadanlıqları, polad boruları, sintetik kauçuku, müxtəlif güclü elektrik mühərrikləri, məişət kondisionerləri, avtomobil şinləri, mineral gübrələri, tikinti materialları, çini qabları, xalça və xalça məmulatları, pambıq mahlıcı və digər məhsulları SSRİ-nin ixrac potensialının mühüm hissəsini təşkil edirdi [169, v. 113, 122].

«Ağ qızıl» strateji əhəmiyyətinə görə Azərbaycan SSR-in ixrac potensialında ikinci yeri tuturdu. Ötən əsrin 70–80-ci illərində dünyada pambıq xammalına olan tələbatın artması Azərbaycanın ixrac potensialının artmasına müsbət təsir etdi. 1977-ci ildə Yaponiyanın sifarişi ilə Bakı pambıqtəmizləmə fabriki bu ölkəyə 300 ton məhsul göndərmişdi. 1982-ci ildə Azərbaycan SSR-dən Macarıstan Xalq Respublikasına 28,1 mln., Almaniya Demokratik Respublikasına 31,7 mln., Polşaya 45,4 mln., Rumıniyaya isə 21,0 mln. manat həcmində pambıq mahlıcı ixrac edilmişdi. Lakin ticarət əməliyyatları, əsasən, barter (mübadilə) yolu ilə həyata keçirildiyindən, əvəzində Azərbaycana, əsasən, yüngül sənaye məhsulları və yeyinti məhsulları gətirilirdi. Belə ki, 1982-ci ildə respublikaya 340,4 mln. manatlığı yüngül sənaye məhsulları idxal edilmişdi ki, bu malların 181,2 mln. manatı sosialist ölkələrindən, 94,4 mln. manatlığı isə inkişaf etmiş kapitalist ölkələrindən və

64,8 mln. manatlığı inkişaf etməkdə olan ölkələrdən gətirilən malların payına düşürdü.

Xarici iqtisadi əlaqələrdə «Azərittifaq» da mühüm rol oynayırdı. SSRİ Xarici Ticarət Nazirliyinin xətti ilə mal və avadanlıq ixracı «Azərittifaq» xəttilə də həyata keçirilirdi. 1978-ci ildə «Azərittifaq»ın xəttilə 8673,8 min manatlıq mal ixrac edilmiş, müxtəlif ölkələrdən 20317,4 min manatlıq mal idxal olunmuşdu [394, 91–92].

Lakin xarici ticarət əməliyyatlarında, xüsusilə qonşu müttəfiq respublikalarla ticarət-mübadilə əməliyyatlarının aparılmasında kobud qanun pozuntularına yol verilirdi. Məsələn, «Azərittifaq» rəhbərliyinin icazəsi ilə Balakən rayonu ərazisindən qonşu respublikalara bir sıra zəruri ərzaq və sənaye məhsulları (pendir, şirə, cem, tomat, konservlər, rəngli televizor, motosikletlər, avtomobillərin ehtiyat hissələri və s.) araq və tütün məhsulları ilə mübadilə edilmişdi. Heydər Əliyev buna çox ciddi reaksiya vermiş, kommersiya əməliyyatları adlandırılan belə mübadiləni cinayət, fırıldaqçılıq kimi səciyyələndirmişdi [173, v. 73–79; 42, 36].

Azərbaycan SSR öz coğrafi mövqeyi və beynəlxalq nəqliyyat qovşağının mərkəzində yerləşməsi ilə yükdaşımaları sahəsində də beynəlxalq əməkdaşlığa cəlb olunmuşdu. 1971-ci il iyulun 22-də Azərbaycan SSR Xəzər Dəniz Gəmiçiliyi İdarəsi ilə İranın liman və gəmiçilik təşkilatı arasında iki saziş imzalanmışdı. Bakı–Pəhləvi və Bakı–Nouşəhr limanları arasında idxal yüklərinin daşınması, Xəzər Dəniz Gəmiçiliyi gəmilərinin cədvəl üzrə Bakı–Pəhləvi–Bakı xəttində hərəkəti haqqında razılıq əldə edilmişdi. İran mallarının Azərbaycan SSR ərazisindən tranzit daşımaları həcmini artırmaqda idi. 1970-ci ildə Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin gəmiləri ilə İrana məxsus 427,2 min ton, 1971-ci ildə 513,5 min ton idxal-ixrac yükləri daşınmışdı [144, v.45–47].

Bütövlükdə, Azərbaycan SSR Xəzər Dəniz Gəmiçiliyi İdarəsi tərəfindən 14 ölkəni təmsil edən şirkətlərin sifarişi əsasında 1970-ci ildə 581,5 min ton yük daşınmış və 3445 min xarici valyuta manat gəlir əldə edilmişdi. 1978-ci ildə yük-daşımaları 666 min ton, gəlir 5605 min xarici valyuta manat olmuş və daşımaların həcmi ildən-ilə artmaqda idi [426, 50].

Heydər Əliyev böyük uzaqgörənliklə Azərbaycan SSR-də gömrük işinin inkişaf etdirilməsinə, bu sahədə milli kadrların formalaş-

masına son dərəcə diqqətlə yanaşırdı. O, gömrükxanalarda rəhbər vəzifələrə azərbaycanlı əməkdaşların təyin edilməsinə nail olmuşdu.

Respublikanın sərgi və yarmarkalarda iştirakını təşkilati cəhətdən Azərbaycan SSR Ticarət-Sənaye Palatası hazırlayır, xaricə göndərilən məhsullara və yüklərə gömrük baxışını Bakı gömrükxanası həyata keçirirdi. Bakıda keçirilən xarici və beynəlxalq sərgilərin bütün fəaliyyəti, onların qurulmasından başlayaraq, bağlanmasına qədər gömrük nəzarətində olurdu. Bakı gömrükxanası bu işləri Azərbaycan SSR-in Xarici ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti, Mədəniyyət Nazirliyi, bir çox yaradıcı ittifaqlarla birgə əməkdaşlıq etməklə həyata keçirirdi. Xaricə göndərilən bütün rekvizit və yüklər, qiymətli bədii sənət nümunələri Bakı gömrükxanası nəzarətindən keçirilirdi. Gömrükçülər sərhəddən daxil olan və xaricə göndərilən beynəlxalq poçt göndərişlərinə (bağlama, banderol, paket) nəzarət edirdilər. Gömrükxananın başlıca vəzifələrindən biri qaçaqmalçılıqla mübarizə və sosializm quruluşuna zərərli ideoloji materialların ölkəmizə gətirilməsinə qarşı mübarizə aparmaq idi. Təkcə 1978–1980-ci illərdə gömrükxana tərəfindən ümumilikdə 114,2 min manatlıq qaçaqmalın aşkar edilməsinə görə 103 iş açılmışdı. Həmin müddət ərzində gömrükxana tərəfindən ideoloji cəhətdən zərərli 4655 nüsxə material saxlanılmışdı [168, v. 54–55].

1971–1973-cü illərdə Azərbaycan SSR-ə 1966–1970-ci illərdəkindən iki dəfə çox – 30 min nəfər xarici turist gəlmişdi. Bir sıra xarici ölkələrdə Azərbaycan SSR-in «Turizm günü» və «Turizm həftəsi» keçirilmişdi. Bütün bunlarla yanaşı, respublikanın geniş turizm imkanlarından səmərəli istifadə edilmirdi.

Azərbaycan KP MK bürosu 1974-cü il mayın 21-də «Azərbaycan SSR-də xarici turizmin inkişaf etdirilməsi tədbirləri haqqında» qərar qəbul etmişdi. Heydər Əliyevin öz xətti ilə layihəsində düzəlişlər edilən qərarda deyilirdi ki, Azərbaycanda xarici turizmin daha da inkişaf etdirilməsi üçün turizm obyektlərinin maddi-texniki bazası müasir tələblər səviyyəsinə çatdırılmalı və respublikamızın turizm potensialı xarici ölkələrdə təbliğ olunmalıdır. Qərarda turizm müəssisələri kompleksi yaradılmasının texniki-iqtisadi əsaslandırılması və layihələndirilməsi haqqında təkliflərin hazırlanması, Bakı, Sumqayıt, Mingəçevir, Şəki, Quba, Şamaxı, Ağdaş, İsmayıllı, Göyçay, Zaqatala,

Qax və Balakənin turizm marşrutları üzrə avtomobil yollarının təmiri və yeni yolların tikintisi nəzərdə tutulurdu.

1975-ci ildə Azərbaycan SSR-ə 28, 3 min nəfər, 1978-ci ildə isə 20, 5 min nəfər xarici turist gəlmişdi. Xarici ölkələrə turist səfərinə isə müvafiq olaraq 4,5 min nəfər və 5,3 min nəfər Azərbaycan SSR vətəndaşı getmişdi.

Bütün bu deyilənlərlə yanaşı, bütövlükdə, Azərbaycan SSR-in xarici ticarət-iqtisadi əlaqələrinin vəziyyəti və səviyyəsi respublikanın potensial imkanlarına və tələbatına uyğun deyildi. Uzun illər ərzində respublikanın dünya iqtisadi məkanında münasibətlərinin İttifaq orqanları vasitəsilə qurulması milli maraqlarımıza öz mənfi təsirini göstərirdi. Azərbaycan SSR-in iqtisadi əlaqələrinə rəhbərlik SSRİ-nin mərkəzi orqanları tərəfindən aparıldığından, xarici ticarət və gömrük gəlirlərindən əldə edilən mənfəətlərin çox hissəsi respublikaya çatmırdı.

Bütün bunlara baxmayaraq, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969–1982-ci illərdə ölkənin ixrac potensialının fundamental əsaslarının yaradılması və xarici ticarət fəaliyyətinin səmərəli idarə edilməsi sahəsində zəngin təcrübə qazanıldı. Heydər Əliyev keçilmiş yola yekun vuraraq deyirdi: «*Ümumittifaq əmək bölgüsündə Azərbaycanın rolu, SSRİ-nin xarici iqtisadi əlaqələrində onun iştirakı güclənmişdir. Respublikamız neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metal, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişətdə işlədilən kondisionerlər, avtomobil şinləri, mineral gübrələr, çini-saxsı məmulatı, xalça məmulatları istehsalına görə ölkədə əsas yerlərdən birini tutur*» [18, 17–18].

O dövrdə Azərbaycan SSR müstəqil dövlət olmasa da, Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi və siyasi iradəsi sayəsində 1969–1982-ci illərdə Azərbaycan SSR-in xarici iqtisadi əlaqələrində keyfiyyətcə yeni mərhələnin başlanğıcı qoyuldu. Respublikanın ixrac potensialının artırılmasına istiqamətlənən siyasi qərarlar qəbul edildi, bu sahədə təşkilati işlər gücləndirildi.

Yeni tarixi mərhələdə – müstəqil Azərbaycan Respublikasının davamlı iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi, yaxın və uzaq ölkələrlə milli maraqlara cavab verən xarici iqtisadi əlaqələrin daha səmərəli forma və metodlarının axtarışı və tətbiqində ötən yüzilliyin 1970–1980-ci illərində keçilmiş yolun mühüm tarixi əhəmiyyəti oldu.

V FƏSİL

HEYDƏR ƏLİYEV
və
AZƏRBAYCAN SSR-in SOSİAL İNKİŞAFI

5.1. Əhalinin maddi rifahının yaxşılaşması

Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də insanların sosial-mənəvi ehtiyatlarının təmin edilməsi, onların rifahının yüksəldilməsi idi.

Ümummilli liderin Azərbaycan SSR-ə birinci dəfə rəhbərlik etdiyi 1969–1982-ci illərdə respublikanın iqtisadi həyatında baş verən mütərəqqi dəyişikliklər cəmiyyətin sosial-mədəni həyatına, əhalinin maddi və mənəvi tələbatının daha dolğun ödənilməsinə əsaslı təsir göstərdi. Xalqın həyat səviyyəsinin yüksəlməsi, birinci növbədə maddi istehsalın genişlənməsindən, milli gəlirin artım sürətindən asılıdır. Məlum olduğu kimi 1966–1970-ci illərdə respublikada iqtisadiyyatın bütün sahələrində ciddi nöqsanların olması milli gəlirin artım sürətini zəiflətmiş və bütövlükdə, onun adambaşına düşən miqdarının artmasını məhdudlaşdırmışdı. Bu dövrdə Azərbaycan SSR adambaşına düşən milli gəlirin miqdarına görə bütün müttəfiq respublikalar içərisində axırıncı yeri tuturdu [264, 44]. 1961-ci ildən 1970-ci ilədək 10 il ərzində respublikada adambaşına milli gəlir artımı cəmi 130 manat, yəni bütün ölkədən təqribən üç dəfə az olmuşdu. Adambaşına milli gəlir 1970-ci ildə 737 manat, yəni orta İttifaq səviyyəsindən 457 manat az idi».

1970-ci illərdə respublikada ictimai istehsalın səmərəliliyinin ümumiləşdirilmiş göstəricisi olan milli gəlirin ən yüksək sürəti təmin edilmiş, orta İttifaq səviyyəsindən geriliyə son qoyulmuşdu. Həmin illərdə Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial-iqtisadi siyasətin məntiqi nəticəsi olaraq, Azərbaycan SSR-in milli gəliri, xüsusən onun istehlaka yönəlmiş hissəsi daha da artdı. 1971–1980-cı

illərdə respublikada adambaşına düşən milli gəlirin artım sürəti əvvəlki onilliyə nisbətən 2,7 dəfə çoxalmışdı [384, 73]. 1971–1975-ci illərə nisbətən 1976–1980-ci illərdə milli gəlir 42 % artmış, onun dörddə üç hissəsi əhalinin şəxsi istehlakına yönəlmişdi. On birinci beşilliyin iki ilində (1981–1982-ci illərdə) milli gəlirin artım sürəti daha da yüksək idi. 1971–1975-ci illərdə adambaşına düşən milli gəlir istehsalının ortaillik artım sürəti 5,35 %, 1976–1980-ci illərdə isə 5,9 % olmuşdu [264, 46].

Bu proses vahid xalq təsərrüfatı kompleksində Azərbaycan SSR-in iqtisadi inkişaf səviyyəsinin daha da yüksəlməsini ifadə edir və həmin göstəriciyə görə başqa respublikalardan və orta İttifaq səviyyəsindən geriliyi xeyli azaltmaq üçün real əsas yaradırdı. Belə ki, 1970-ci ildə respublikada adambaşına düşən milli gəlirin miqdarı İttifaq səviyyəsinin 61.7 %-ni təşkil edirdisə, 1975-ci ildə bu rəqəm 65 %-ə, 1980-cı ildə isə 80 %-ə çatmışdı [264, 47].

Əhalinin maddi rifah halının yaxşılaşmasının əsas göstəricilərindən birini real gəlirin artması təşkil edir. Heydər Əliyevin idarəçiliyi müddətində əhalinin real gəlirinin önəmli şəkildə yüksəlməsi müşahidə edilirdi. 1969–1978-ci illərdə əhalinin real gəliri 1,5 dəfə [167, v.181], adambaşına real gəlir 1970-ci illə müqayisədə 1975-ci ildə 17 %, 1980-cı ildə 42 %, 1984-cü ildə 61 % artmışdı [272, 85].

Əhalinin real gəlirinin yüksəlməsinə əməkhaqqının artımı da böyük təsir göstərmişdi. 1980-cı ildə yalnız əməkhaqqı əhalinin bütün gəlirinin üçdə iki hissəsini, o cümlədən fəhlə və qulluqçuların gəlirlərinin dörddə üç hissəsini, kolxozçuların gəlirlərinin isə yarısını təşkil edirdi.

Fəhlə və qulluqçuların orta aylıq əməkhaqqı 1970-ci ildəki 109,6 manatdan 1975-ci ildə 125,1 manata, 1980-ci ildə isə 148,4 manata qalxmışdı [399, 193]. 1969-cu illə müqayisədə 70-ci illərdə kolxozçuların əməyinə verilən haqq 2 dəfə, sovxoz fəhlələrinin və qulluqçularının orta aylıq əməkhaqqı isə 65 % artmışdı [167, v.181].

Respublika xalq təsərrüfatının mürəkkəb əmək tələb edən sahələrində orta aylıq əməkhaqqı daha yüksək idi. Məsələn, 1980-ci ildə orta aylıq əməkhaqqı tikintidə 202 manat, nəqliyyatda 164 manat, sənayedə 164,9 manat, dəmir yolu nəqliyyatında 160 manat, elm və elmi xidmət sahəsində 150 manat olmuşdu [264, 199]. 1981-ci ildə 1970-

ci ilə nisbətən respublikanın bütün xalq təsərrüfatı üzrə orta aylıq əməkhaqqı 43,1 manat artmışdı [399, 199].

1970-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə respublikada kolxozçuların yaşayış səviyyəsinin ictimai təsərrüfatdan götürülən gəlirlər hesabına yüksəlməsi üçün təsirli tədbirlər işlənib hazırlanmış və həyata keçirilmişdi. Nəticədə, həmin illərdə kolxozçuların əməyinə haqq verilməsinin artım sürəti fəhlə və qulluqçuların əməkhaqqının artım sürətindən xeyli yüksək idi. Belə ki, 1971–1980-cı illərdə respublikamızda fəhlə və qulluqçuların orta aylıq əməkhaqqı 33 %, kolxozçuların əmək ödənişi isə 83 % artmışdı [264, 201].

Əhalinin ümumi gəlirinin yüksəlməsində, onların orta aylıq əmək haqqının artmasında ictimai istehlak fondlarından olan ödənc və güzəştlər də əhəmiyyətli rol oynayırdı. 1971–1980-ci illərdə Azərbaycan SSR-də əhaliyə ictimai istehlak fondlarından verilən ödənc və güzəştlərin ümumi məbləği 1,9 dəfə artmışdı. Bu fondlardan adambaşına 1970-ci ildə 188,3 manat vəsait sərf olunmuşdusa, 1980-cı ildə bu rəqəm 295,3 manata çatdırılmışdı [272, 84].

1976–1980-ci illərdə ictimai istehlak fondlarından verilən bütün ödənc və güzəştlərin həcmi 8171,7 milyon manat, başqa sözlə, ildə orta hesabla 1634,4 milyon manat olmuşdu ki, bu da 1971–1975-ci illərin müvafiq göstəricisinə nisbətən 419,3 milyon manat çox idi [264, 204].

1970-ci illərdə ictimai istehlak fondlarından verilən bütün ödənc və güzəştlərin həcminin surətlə artması əhalinin bu fondlardan fərdi gəlirinin müntəzəm surətdə artmasına imkan verdi. Respublikada ictimai istehlak fondlarından olan ödənc və güzəştlər də daxil olmaqla, orta aylıq əməkhaqqı 1970-ci ildə 155 manat (ödənc və güzəştlərsiz əməkhaqqı 109,8 manat), 1980-cı ildə isə 205 (144 manat) olmuşdu [264, 206].

XX əsrin 70–80-ci illərində Azərbaycan SSR-də ictimai istehlak fondlarından ödənc və güzəştlərin artması respublikada sosial təminat və sığorta sisteminin yaxşılaşdırılması və təkmilləşdirilməsi sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdı. Belə ki, fəhlə, qulluqçu və kolxozçuların təqaüdlərinin minimum məbləği artmış, əlillərin təqaüd təminatı yaxşılaşdırılmışdır. Aztəminatlı ailələrdəki uşaqlara müavinətlər təyin edilmişdir. Ali və orta ixtisas məktəb tələbələrinə, texniki peşə məktəbləri şagirdlərinə verilən

təqaüdlərin həcmi artırılmış, ümumtəhsil məktəblərinin şagirdlərinin dərsliklərlə pulsuz təminatına başlanılmışdı.

Əhalinin sosial təminatı ilə əlaqədar tədbirlər sırasında pensiya təminatı mühüm yer tuturdu. Qocalara, əlillərə, əmək qabiliyyətini müvəqqəti itirənlərə, əmək və müharibə veteranlarına, başçısını itirmiş uşaqlı ailələrə, tək analara maddi yardım artırdı. Qocalığa və əlilliyə görə dövlətdən təqaüd alanların sayı 1970-ci ildəki 643 mindən 1981-ci ildə 794 minə çatmışdı. 1981-ci ildə 145.6 min çoxuşaqlı anaya hər ay dövlətdən yardım ayrılırdı [399, 220–221]. Bu dövrdə əhaliyə verilən təqaüdlərin həcmi 4,4 dəfə, müavinətlərin həcmi isə 3,3 dəfə çoxalmışdı [195, 587].

Əhalinin sosial təminat hüquqlarının genişlənməsi, təqaüd və müavinətlərin artması ilə yanaşı, pulsuz və ya güzəştli xidmətlərin inkişaf etməsində də təzahür edirdi. Heydər Əliyev müharibə əlillərinə, veteranlara və onların ailələrinə daim qayğı göstərir, onların xidmətlərini yüksək qiymətləndirir, problemləri ilə yaxından tanış olur, tədbirlər görürdü. Təkcə bunu qeyd edək ki, hər il onlarla müharibə əlilinə pulsuz minik maşınları, motorlu kolyaskalar verilir, onlara güzəştli qiymətlərlə, habelə növbədənkənar motorlu hərəkət vasitələri satılırdı. 1972-ci ildə respublikada kəndlərdə yaşayan müharibə əlillərinə pulsuz olaraq 105, 1980-cı ildə isə 379 «Zaporojets» markalı minik avtomobili, yüzlərlə motorlu kolyaska verilmişdi.

1981-ci ildə respublikanın 338,8 min nəfər vətəndaşı istirahət evlərində, sanatoriyalarda, kurortlarda, turist bazalarında istirahət etmiş, müalicə olunmuşdu [399, 222].

Azərbaycan SSR-in gənc nəslinə qayğı Heydər Əliyevin diqqətdə saxladığı əsas məsələlərdən biri idi. Onun rəhbərliyi dövründə uşaqların pioner düşərgələrində istirahətinə ayrılan vəsaitlərin həcmi xeyli artırılmış, pioner düşərgələrinin, uşaq istirahət mərkəzlərinin şəbəkəsi genişləndirilmişdi. Uşaqların istirahəti üçün hər il ictimai sığorta fondlarından 120–130 min manat vəsait sərf olunmuş, pioner düşərgələrinin sayı 2 dəfədən çox artmışdı. Pioner düşərgələrində 1970-ci ildə 89,2 min, 1975-ci ildə 98,5 min, 1982-ci ildə isə 178,8 min məktəbli istirahət etmişdi [395, 191].

Respublika əhalisinin gəlirinin, maddi rifahının yaxşılaşmasında şəxsi yardımçı təsərrüfatlar da mühüm rol oynayırdı. 1970-ci illərdə

şəxsi yardımçı təsərrüfatlarda kənd təsərrüfatı məhsulu istehsalı 1,5 dəfə çoxalmışdı.

Şəxsi yardımçı təsərrüfatlarda kənd təsərrüfatı məhsulları istehsalının artması, ailələrin bu təsərrüfatlardan gəlirinin çoxalmasına müsbət təsir göstərirdi.

Maddi istehsalın, o cümlədən geniş istehlak malları istehsalının, habelə real gəlirlərin artması nəticəsində əhalinin alıcılıq qabiliyyəti yüksəlir, strukturu yaxşılaşırdı.

1970-ci illərdə və 80-ci illərin əvvəllərində Azərbaycan SSR-də istehlak malları istehsalı 190 % çoxalmışdı.

1971–1980-ci illərdə respublikada əhalinin müxtəlif növ ərzaq məhsullarına artan tələbatının ödənilməsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdi. Nəticədə əhalinin ərzaq məhsulları ilə təminatı 1970-ci illə müqayisədə 1,6 dəfə, o cümlədən ət məhsulları ilə 1,9, yumurta ilə 2,5, tərəvəzlə 2,6 dəfə yüksəlmişdi [172, v.31].

Respublikada xalq istehlakı malları istehsalının artması pərakəndə satış müəssisələrinin bu məhsullarla daha yaxşı təmin edilməsinə imkan yaratmışdı. Bu isə, öz növbəsində, ticarət və ictimai iaşə, peşə xidmətlərini daha da təkmilləşdirməyi və genişləndirməyi tələb edirdi.

Heydər Əliyev xidmət sahələrinin əhalinin rifah halının yüksəlməsində böyük rol oynamasını nəzərə alaraq, onların fəaliyyətinin əsaslı surətdə yaxşılaşdırılmasına xüsusi diqqət yetirirdi. Respublikada əhaliyə ticarət xidmətinin təşkilində buraxılan səhvləri, dözülməz nöqsanları aradan qaldırmaq üçün konkret tədbirlər müəyyənləşdirilmiş və bunlar tezliklə müsbət nəticəsini göstərmişdi.

Bununla belə, ticarət və xidmət sahəsində ciddi nöqsanlar və qüsurlar hələ çox idi. Bunları tezliklə aradan qaldırmaq, əhaliyə xidməti yaxşılaşdırmaq məqsədilə 1974-cü ilin iyulunda Azərbaycan KP MK plenumunda bu məsələ müzakirə edildi. Plenumda çıxış edən Heydər Əliyev ötən üç ildəki nailiyyətləri göstərməklə bərabər, əsas diqqəti mövcud ciddi nöqsanlara yönəltmişdi: «MK Bürosu bu məsələni plenumun müzakirəsinə verərkən onun məqsədi heç də yalnız ticarətin və əhaliyə məişət xidmətinin vəziyyətini hərtərəfli təhlil etməkdən, nöqsanları və onların səbəblərini aşkara çıxarmaqdan, xalq təsərrüfatının bu mühüm sahəsini partiyanın irəli sürdüyü vəzifələr səviyyə-

sinə qaldırmağa imkan verən tədbirlər müəyyən etməkdən ibarət deyildir. Məqsədimiz həm də ondan ibarətdir ki, partiya təşkilatlarının diqqətini doqquzuncu beşilliyin ictimai-iqtisadi probleminin həllində ticarətin və əhaliyə məişət xidmətinin böyük rolu və əhəmiyyəti üzərində cəmləşdirək» [52, 10].

1971–1975-ci illərin yekunları respublikada ticarət və məişət xidmətinin inkişafında mühüm işlər görüldüyünü sübut etdi. 1975-ci ildə pərakəndə əmtəə dövriyyəsi 2 milyard 750 manata çatdı, yəni 1970-ci ilə nisbətən 35 %, o cümlədən kənddə 37 % artmışdı. 1971–1975-ci illərdə respublikanın əhalisi 1966–1970-ci illərdəkinə nisbətən 3,5 milyard manatlıq çox mal almışdı. İctimai icarə şəbəkəsində yerlərin sayı 35 %, əmtəə dövriyyəsi 30 % çoxalmışdı [264, 229].

Dövlət və kooperativ idarə və təşkilatları tərəfindən tikilib istifadəyə verilən pərakəndə ticarət müəssisələrinin sayı sürətlə artırdı. Təkcə 1976–1979-cu illərdə 379 pərakəndə satış ticarət müəssisəsi və 12,1 min yeri olan 164 ictimai iaşə müəssisəsi istifadəyə verilmişdi. Dövrün tələblərinə cavab verən, müasir avadanlıqla təchiz edilən, geniş ticarət salonu olan ticarət müəssisələri də tikilmişdi [264, 230]. Respublikada ümumi ticarət sahəsi 1970-ci ildəkinə nisbətən 1982-ci ildə 2 dəfə genişlənmişdi.

1970-ci ilə nisbətən 1982-ci ildə respublikada ümumi pərakəndə mal dövriyyəsinin həcmi 79 %, o cümlədən ərzaq məhsulları üzrə 65 %, qeyri-ərzaq məhsulları üzrə 97 %, ictimai iaşə üzrə 79 % artmışdır. 1982-ci ildə istehlak kooperasiyasında mal dövriyyəsinin həcmi daha sürətlə artaraq, iki dəfədən çox olmuşdu [259, 43].

Bu dövrdə əhalinin istehlakının strukturunda da mütərəqqi dəyişikliklər baş vermişdi. Belə ki, əmtəə dövriyyəsinin ümumi yekununda qeyri-ərzaq mallarının xüsusi çəkisinin artması diqqəti daha çox cəlb edirdi. Məsələn, əgər 1970-ci ildə adambaşına düşən qeyri-ərzaq məhsulları bütün əmtəə dövriyyəsinin 47,6 %-ni təşkil edirdisə, 1975-ci ildə bu göstərici 49,2 %, 1980-ci ildə isə 53 % olmuşdur [264, 232]. 1970–1980-ci illərdə adambaşına əmtəə dövriyyəsi 48 %, o cümlədən ərzaq malları üzrə 34 %, qeyri-ərzaq malları üzrə 64 % çoxalmışdı.

Əhaliyə xidmət sahələri arasında məişət xidməti mühüm yer tutur. Məhz 1970-ci illərdə o, xalq təsərrüfatının müstəqil sahəsinə çevrilmiş və xeyli sürətlə inkişaf etmişdi. 1980-ci ildə məişət xidməti

müəssisələrinin ümumi sayı 9,2 minə çatmışdı [401, 189]. Bunlar əhaliyə 600 növ xidmət göstərirdi. Respublikanın kəndlərində radio və televiziya, məişət maşınları və cihazları, nəqliyyat vasitələrini təmir edən, mebel hazırlayan, ev tikən və təmir edən və s. xidmətlər xeyli inkişaf etmişdi. Bütün bunlar əhaliyə göstərilən xidmətlərin həcminin sürətlə artmasına imkan vermişdi. Əgər 1970-ci ildə respublikada əhaliyə 45.9 milyon manatlıq xidmət göstərilmişdirsə, 1975-ci ildə 72,2 milyon manat, 1984-cü ildə isə 157,4 milyon manat təşkil etmişdi [272, 109].

1970-ci illərdə kənd yerlərində də əhaliyə məişət xidmətinin yaxşılaşdırılması sahəsində irəliləyiş olsa da, bunun səviyyəsi tələblərə hələ tam cavab vermirdi. Məişət xidmətinin bir çox növünün təşkili qənaətbəxş deyildi. Kənd yerlərində adambaşına məişət xidmətlərinin həcmi İttifaq üzrə orta göstəricidən 2,2 dəfə aşağı idi.

Əhalinin maddi rifahının yüksəldilməsinin mühüm amillərindən biri də mənzil şəraitinin yaxşılaşdırılmasıdır. Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsini əhalinin mənzillə təminatı təşkil edirdi. Onun həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində 1970–1980-cı illərdə respublikanın şəhər və kəndlərində mənzil tikintisi sürətlə genişləndi. Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Mingəçevir, Əli Bayramlı (indiki Şirvan) və Daşkəsəndə yeni mikrorayonlar və qəsəbələr salınmış, çoxmərtəbəli yaşayış binaları tikilmiş, kənd yaşayış məntəqələri yenidən qurulub şəhər tipli qəsəbəyə çevrilmişdi. Həmin illərdə ümumi sahəsi 35 mln. kvadratmetr, o cümlədən kənd yerlərində 16 mln.m^2 olan mənzil sahəsi tikilib istifadəyə verilmişdi. 3 milyona qədər adamın mənzil şəraiti yaxşılaşdırılmışdı [401, 189].

Bakı və respublikanın digər şəhərlərinin abadlaşdırılmasına diqqət artırılır və bu işi genişləndirmək üçün mühüm tədbirlər həyata keçirilirdi. Heydər Əliyevin rəhbərliyi ilə Bakı şəhərinin baş planını yenidən hazırlamaq, şəhər nəqliyyatının işini yaxşılaşdırmaq üçün tədbirlər görülürdü. Respublika sarayı (indiki Heydər Əliyev sarayı) «Moskva», «Azərbaycan», «Abşeron» mehmanxanaları tikilib istifadəyə verilmişdi.

Heydər Əliyev Azərbaycan SSR-in şəhər və kəndlərinin yaşıllaşdırılmasına ümummilli məsələ kimi baxaraq, partiya, sovet təsərrüfat rəhbərlərindən bu işi daim diqqətdə saxlamağı tələb edirdi. Onun

Azərbaycan SSR-ə rəhbərliyi dövründə Bakıda yaşıllıqların sahəsi 10 min hektara, Sumqayıtda 700 hektara çatdırıldı. Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərdə Ağsu rayonunda Gursulu, Elabad, Qusar rayonunda Yeni Tahircal, Beyləqan rayonunda Xaçınabad, Sabirabad rayonunda Ahıska, Quba rayonunda Cağacıq, Dağüstü, İsmayıllı rayonunda Uştalqışlaq, Naxçıvan rayonunda (indiki Babək) Yenikənd, Bərdə rayonunda Güloğlular, Şəki rayonunda Palmetkənd və başqa aqrar qəsəbələr salınmışdı [243, 82]. Ümumiyyətlə, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər milli tarixə Azərbaycan kəndinin sosial-iqtisadi və mədəni tərəqqisi dövrü kimi düşmüşdür.

Əhalinin məişət şəraitinin yaxşılaşdırılmasında onun içməli su ilə təmin edilməsi xüsusi yer tuturdu. 1970-ci illərdə respublikada yeni mikrorayonların, kəndlərin salınması, mövcud şəhər və kəndlərin genişləndirilməsi ilə əlaqədar içməli suya tələbatı da artırmışdı. Bunu nəzərə alaraq, Heydər Əliyev 1970-ci illərdə əhalinin içməli su ilə tam təminatı üçün bir sıra tədbirlər həyata keçirmiş, respublikada yeni su kəmərləri çəkilişinə başlanmışdı. 1971-ci ildə Kür su kəmərinin çəkilib istifadəyə verilməsi Bakı şəhəri və onun ətraf rayonlarının içməli su təchizinin yaxşılaşmasında mühüm yol oynadı. Şəhərə su verilməsi sutkada 3,5 mln. kubmetr çoxaldı [141, v. 136–146].

Kənd əhalisinin içməli suya tələbatını kökündən yaxşılaşdırmaq üçün qrup və magistral su kəmərləri çəkilməsi işi xeyli sürətləndirildi. 865 km uzunluğunda Sabirabad, Ucar, Xaçmaz və s. qrup su kəmərləri çəkilmiş, 211 min nəfər əhalisi olan 200 kəndin bu kəmərlərin suyundan istifadəsinə imkan yaranmışdı [172, v.49].

Qrup, magistral su kəmərləri tikintisi 80-ci illərin əvvəllərində daha da genişlənmişdi. 1978-ci ildən tikintisinə başlanmış, suyu təmizləmə prinsipinə görə SSRİ-də nadir olan Sabirabad qrup magistral su kəməri 1982-ci ildə istifadəyə verilmişdi. 1982-ci ildə 100 min əhalinin suya ehtiyacını ödəyən, respublikada ən böyük Mil qrup su kəməri istifadəyə verilmiş, 1979–1984-cü illərdə Naxçıvan Muxtar Respublikasının bütün rayonlarını əhatə edən Naxçıvan qrup su kəməri çəkilişi müvəffəqiyyətlə başa çatdırılmış, 21 kənd və qəsəbə içməli su ilə təmin olunmuşdu [104, v.201].

Respublika əhalisinin məişət şəraitinin yaxşılaşdırılmasında elektrik enerjisi və qazla təminatı ən əsas yerlərdən birini tuturdu. Artıq

1970-ci illərin sonlarında respublikanın kənd və qəsəbələri tam elektrikləşdirilmiş, elektrik əhalinin məişətində mühüm yer tutmuşdu.

Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan SSR-in şəhər və kəndlərinin qazlaşdırılması sahəsində çox ciddi işlər görülmüşdü. Təkcə 1971–1976-cı illərdə qazlaşdırmanın inkişafına 56 mln. manat məbləğində vəsait sərf olunmuş, 3,1 min km magistral və yardımçı qaz kəməri istifadəyə verilmiş, 46 yaşayış məntəqəsi, 9 şəhər və rayon qazlaşdırılmışdı [172, v.49]. 1982-ci ildə respublikanın kənd yaşayış məskənlərinin 80 %-i artıq qazlaşdırılmışdı [158, v.187].

Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi tədbirləri haqqında» qərarında Yevlax – Xankəndi – Naxçıvan qaz xəttinin çəkilməsi nəzərdə tutulmuşdu [158, v.179]. Buraxılış qabiliyyəti ildə 2,4 mlrd. kubmetr, ümumi uzunluğu 367,5 km olacaq və 213,5 kilometri Azərbaycan SSR ərazisindən keçəcək bu xətt Naxçıvan MSSR, DQMV və kəmərə yaxın olan digər rayonları, ümumilikdə 587 yaşayış məntəqəsini, 187 kolxoz və 83 sovxozu əhatə edən yaşayış məntəqələrinin qazlaşdırılmasına imkan verməli idi. Lakin qaz kəmərinin böyük iqtisadi və sosial əhəmiyyətə malik olmasına baxmayaraq, onun tikintisi çox ləng gedirdi [158, v. 188]. Tikintiyə zəruri işçi qüvvəsi və maddi-texniki ehtiyatlar cəlb edilməmişdi, vəsait qoyuluşuna da fikir verilmir, tikinti-quraşdırma işləri çox aşağı səviyyədə aparılırdı. Ona görə də Heydər Əliyev bu məsələni öz üzərinə götürməli olmuşdu. 1977-ci il mayın 6-da Azərbaycan KP MK-nın Bürosu bu qaz kəmərinin tikintisinin və respublikanın kəmərə yaxın şəhər və kəndlərinin qazlaşdırılmasının sürətləndirilməsi tədbirləri haqqında müzakirələr keçirərək, qərar qəbul etdi [158, v.179]. Qərarda kəmərin tikintisi ilə məşğul olan idarələrin işi qeyri-qənaətbəxş hesab edilmiş və onlardan qaz kəmərinin 1979-cu ildə başa çatdırılması üçün təsirli tədbirlər görmək tələb edilmişdi. Nəhayət, 1980-ci ildə qaz kəməri çəkilib istifadəyə verildi [87, 78].

Respublikada yaşayış məntəqələrinin kommunikasiya səviyyəsinin yüksəldilməsi abadlıq və yenidənqurma işində mühüm istiqamətlərdən birini təşkil edirdi. Yollar salınması, nəqliyyat və rabitə əlaqələrinin inkişaf etdirilməsi bu istiqamətin başlıca sahələri idi. Respublikanın sosial-iqtisadi həyatında mühüm rol oynayın şose yollarının salınması işinə diqqət xüsusən artırıldı.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər respublikada yol tikintisini xeyli genişləndirməyə imkan vermişdi. 1970-ci illərdə hər il orta hesabla 500 km bərk örtüklü avtomobil yolları çəkilmişdi. 1984-cü ildə burada 24 min km, o cümlədən 21,2 min km bərk örtüklü avtomobil yolları vardı [272, 68].

Tarixi ədalətsizlik nəticəsində Azərbaycan SSR-in əsas ərazisindən ayrı düşmüş, Ermənistan tərəfindən anklav vəziyyətinə salınmış doğma Naxçıvanın coğrafi-strateji vəziyyətini dərindən dərk edən Heydər Əliyev muxtar respublikanın nəqliyyat problemlərinin həlli üçün əlindən gələni edirdi.

Azərbaycan KP MK-nın birinci katibi işləyərkən, Heydər Əliyev ermənilərin bütün təzyiqlərinə baxmayaraq, Azərbaycan SSR-in əsas ərazisini Naxçıvanla birləşdirən ən qısa avtomobil yolunun çəkilməsi məsələsini qaldırmış və Mərkəzi hökumətin razılığını ala bilmişdi. 1974-cü ildə tikintisinə başlanan yolun çəkilişi 1980-ci ildə tamamlanmalı idi. Bu yolun 48 km-i Mehri rayonu ərazisindən keçməli idi. Lakin «erməni barmağı» yenə öz işini gördü. 1977-ci ilin sonuna qədər mərkəzi hakimiyyət orqanları yolun texniki-iqtisadi əsaslandırma variantlarından başqa heç nə təqdim etməmişdilər. Heydər Əliyevin səyləri nəticəsində 1982-ci ilə qədər Zəngilan rayonu ərazisindən Ermənistan SSR sərhədinə qədər olan məsafədə yol çəkilsə də, onun Moskvaya rəhbər vəzifəyə getməsindən sonra ermənilər bu yolun tikintisinə qarşı çıxaraq, yolun Mehri rayonu ərazisi vasitəsilə Naxçıvan MSSR ərazisinə deyil, dağlardan keçməklə Ermənistan SSR mərkəzi rayonlarına çəkilməsində israr etməyə başladılar. Lakin Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tutan Heydər Əliyev ermənilərin niyyətlərini əvvəlcədən duymuş, Azərbaycan SSR rəhbərliyindən bu məsələ ilə ciddi məşğul olmağı tələb etmişdi. Lakin 1987-ci ilin sonunda ermənilərin Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinə iddia etməyə başlamaları Heydər Əliyevin bu strateji layihəsinin başa çatdırılmasına imkan vermədi [247, 91].

70-ci illərdə Heydər Əliyevin iradəsi və səyləri nəticəsində Azərbaycan SSR-də, bütövlükdə, nəqliyyat sisteminin genişləndirilməsi və inkişaf etdirilməsi, əhaliyə nəqliyyat xidmətinin yaxşılaşması sahəsində əhəmiyyətli irəliləyişlər baş vermişdir. Azərbaycan SSR-də əhaliyə göstərilən rabitə xidmətlərinin təkmilləşdirilməsi sahəsində də mühüm işlər həyata keçirildi. Respublikada rabitə vasitələri, xüsusən

telefon, radiorele xətləri, stansiyalar, ötürücü qurğular, qovşaqlar və başqa rabitə təsərrüfatları sürətlə inkişaf edirdi. Mənzillərin telefonlaşdırılması işi xeyli sürətləndirildi. 1970–1980-cı illərdə telefon şəbəkəsində telefon aparatlarının sayı 2,8 dəfə artmışdı. Bu dövrdə Heydər Əliyevin təşkilatçılığı ilə respublikada radio və televiziya verilişlərinin müntəzəm və keyfiyyətli qəbul edilməsi üçün mühüm tədbirlər həyata keçirildi. Kəndlərin radiolaşdırılması sahəsində də uğurlar əldə edilmiş, radioötürücü stansiyaların, şaxəli radio qovşaqlarının yeni dairələri yaradılmağa başlanmışdı. Əhalinin məişət şəraitinin yaxşılaşdırılmasında, uşaqlı qadınların ictimai istehsala daha geniş cəlb edilməsində məktəbəqədər uşaq tərbiyə müəssisələri mühüm əhəmiyyət kəsb edirdi. 1970-ci illərdə ictimai istehsalın genişlənməsi, əmək ehtiyatlarının ictimai əməyə daha çox cəlb olunması, əhalinin mədəni səviyyəsinin yüksəlməsi məktəbəqədər uşaq müəssisələrinə tələbatın xeyli artmasına səbəb olmuşdu. Bununla əlaqədar olaraq, respublikada belə müəssisələrin açılmasına diqqət xeyli artırıldı.

Azərbaycanın gənc nəslinə qayğı Heydər Əliyevin rəhbər seçildiyi gündən diqqətdə saxladığı əsas məsələlərdən biri idi. Onun rəhbərliyi dövründə uşaqların pioner düşərgələrində istirahətlərinə ayrılan vəsaitlərin həcmi xeyli artırılmış, pioner düşərgələrinin, uşaq istirahət mərkəzlərinin şəbəkəsi genişləndirilmişdi. Məsələn, 1970-ci ildə respublikada cəmi 347 pioner düşərgəsi var idisə və orada 89,2 min məktəbli dincəlmişdisə, 1985-ci ildə bu göstərici müvafiq surətdə 792-yə 183,2 minə çatdırılmışdı [401, 206].

Respublikada məişət şəraitini təkmilləşdirmək işinin mühüm sahəsi burada insanların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi üçün daha münasib şərait yaradılması idi.

Heydər Əliyev respublikaya rəhbərliyi dövründə əhalinin sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə xüsusi fikir verirdi. Onun rəhbərliyi altında respublikada həyata keçirilən tədbirlər nəticəsində bu sahədə əhəmiyyətli uğurlar əldə edilmişdi. Belə ki, respublikada xəstəxana çarpayılarının sayı 1970-ci ildəki 48,8 mindən 1982-ci ildə 62,2 minə çatdırılmış və ya 13,4 min ədəd artmışdı. Bu dövrdə bütün ixtisaslar üzrə həkimlərin sayı 13,1 min nəfərdən 22,4 min nəfərədək çoxalmışdı. 1982-ci ildə əhalinin hər on min nəfərinə 35 həkim düşürdü, halbuki, 1970-ci ildə bu rəqəm 25 nəfər təşkil edirdi.

Qadın və uşaqların müalicə profilaktika xidməti daha da inkişaf etməyə başlamışdı. Bütün bunlar əhalinin sağlamlığının möhkəmlənməsinə və xəstəliklərlə mübarizənin güclənməsinə kömək etmişdi.

Ümummilli lider Heydər Əliyevin 1969–1982-ci illərdə Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə onun xüsusi diqqət və qayğısı nəticəsində respublikada bədən tərbiyəsi və idmanın inkişafında da mühüm nailiyyətlər əldə olunmuş, bir sıra mühüm idman kompleksləri, meydanları, sarayları tikilmiş, nəhəng sağlamlıq mərkəzləri yaradılmışdı.

Respublikada bədən tərbiyəsi və idmanın inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmiş, qərarlar qəbul edilmişdi. Azərbaycan SSR-də bədən tərbiyəsi və idmançıların hazırlığının yaxşılaşdırılması işində partiya və sovet təsərrüfat işçilərinin 1974-cü il 21 iyun tarixli iclası mühüm rol oynadı. Həmin iclasda respublikada bu sahədə mövcud vəziyyət ətraflı təhlil edildi. Heydər Əliyev yığıncaqda çıxış edərək kütləvi idman işinin inkişafına rəhbərliyin siyasi əhəmiyyətli iş olduğunu deyərək, bədən tərbiyəsinin və idmanın partiya təşkilatlarının diqqət mərkəzində olmasını tələb etmişdi. Həmin il avqustun 6-da Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti «Respublikada bədən tərbiyəsi, idmanın daha da inkişaf etdirilməsi tədbirləri haqqında» qərar qəbul etdi. Qərarda bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olunması, idman qurğularının tikilməsi, şəhər və kəndlərdə bədən tərbiyəsi və idmanın inkişafı, respublikada idmançıların ustalığının, idmana rəhbərliyin yüksəldilməsi kimi məsələlər öz əksini tapmışdı.

Bu tədbirlərin həyata keçirilməsi respublikada idman işinin tərəqqisinə əməli kömək etmişdi. 1984-cü ildə idmançıların ixtiyarında 63 iri stadion, 1225 idman zalı, 29 üzgüçülük hovuzu, 29 futbol, 2,4 min voleybol, basketbol meydançaları və s. idman qurğuları vardı [272, 106].

Bu sahənin inkişafı özünü bədən tərbiyəsi və idmanın kütləviliyinin artmasında da göstərdi. 1970-ci ildə respublikada 5455 idman kollektivi var idisə, 1984-cü ildə onların sayı 7786-ya çatmış, bu kollektivlərdə idmanla məşğul olanların sayı müvafiq olaraq 1723 mindən və 2241 minədək artmışdı [272, 105].

1984-cü ildə respublikada 4055 idman ustası, 485,9 min nəfər müxtəlif idman dərəcəli idmançı, o cümlədən 0,9 min nəfər idman

ustalığına namizəd, 5,1 min nəfər I dərəcəli, 479,9 min nəfər II, III dərəcəli idmançı hazırlanmışdı [272, 105].

İdman və bədən tərbiyəsi respublikanın kənd əməkçilərinin də həyatına geniş şəkildə daxil olmaqda idi. 1970–1984-cü illərdə kənd yerlərində 20-dən çox uşaq idman məktəbi təşkil olunmuşdu. Kəndlərdə idman işinin təşkilində Azərbaycan SSR «Məhsul» Könüllü İdman Cəmiyyəti mühüm rol oynayırdı. 1984-cü ildə «Məhsul» cəmiyyəti idman kollektivlərinin sayı 3078-ə, o cümlədən kolxozlarda 612-yə, sovxozlarda 773-ə çatmışdı. Bu kollektivlərdə 445 min, o cümlədən kolxozlarda 113 min, sovxozlarda 144 min nəfər idmançı məşğul idi. 1984-cü ildə kənd idman kollektivlərində 215 nəfər idman ustası və ustalığa namizəd, 914 nəfər I dərəcəli, 104 min nəfər II, III və yeniyetmə dərəcəli idmançılar hazırlanmışdı. Bu, 1970-ci ildəkindən müvafiq surətdə 369,6 və 5 dəfə çox idi [243, 108].

Bütün bu irəliləyişlərə baxmayaraq, kənd yerlərində bədən tərbiyəsi və idman işinin səviyyəsi və miqyası müasir tələblərə cavab vermirdi. 1985-ci ildə kənd əhalisinin hər 11 nəfərindən biri bədən tərbiyəsi və idmanla məşğul olurdu [243, 108].

Beləliklə, 1970–1980-ci illərin əvvəllərində respublikaya rəhbərliyi dövründə Ümummilli lider Heydər Əliyevin sosial-iqtisadi strategiyasının tərkib hissəsi olan xalqın maddi və mədəni tələbatının daha dolğun ödənilməsi, insanların həyat şəraitinin yaxşılaşdırılması siyasəti əməli surətdə həyata keçirilmişdi. Onun müntəzəm qayğısı sayəsində əhalinin gəlirlərinin artması, respublikanın şəhər və kəndlərinin abadlaşdırılması, sosial və məişət xidmətlərinin səviyyəsinin yüksəldilməsi istiqamətində diqqətəlayiq işlər görülmüş, Azərbaycan SSR sosial inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdu.

5.2. Respublikada gənclər siyasəti və idmanın inkişafı

Hər bir ölkənin gələcəyinin etibarlı təminatı intellektual səviyyəli potensial gənclərin yetişdirilməsindən, onların cəmiyyət həyatının bütün sahələrində iştirakından və aparıcı qüvvəyə çevrilmələrindən çox asılıdır.

XX yüzillik Şimali Azərbaycanın tarixində öz əhəmiyyətinə görə mühüm bir dövrü təşkil edir. Bu qısa zaman kəsiyində Azərbaycan xalqı böyük tərəqqi dövrü yaşamış, ictimai, iqtisadi, mədəni həyatda tarixi uğurlara nail olmuşdur. Bu uğurların qazanılmasında gəncliyin də böyük rolu var. Azərbaycan gəncliyi yaşadığı cəmiyyətin inkişafı ilə bərabər özü də inkişaf etmiş, onun təhsil, mədəni səviyyəsi, siyasi dünyagörüşü, ictimai fəallığı xeyli yüksəlmişdi.

Xüsusən milli tariximizə Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrü kimi daxil olmuş 1969–1982-ci illər Azərbaycan xalqının və onun gəncliyinin taleyində silinməz izlər buraxmışdır.

1970–1980-ci illər Azərbaycan SSR-in quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi-rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycan SSR-in yeni tarixində mühüm yerləri tutur [3].

1960-cı illərdə respublika iqtisadiyyatı dərin böhran keçirirdi, bir sıra obyektiv və subyektiv səbəblərdən respublika sosial-iqtisadi inkişafdan geri qalırdı. Azərbaycan SSR bir çox göstəricilərə görə SSRİ respublikaları arasında axırıncı yerlərdən birini tuturdu. Belə ki, 1969-cu ildə SSRİ-də ümummilli məhsul 43 % artdığı halda, Azərbaycan SSR-də bu göstərici cəmi 12 % təşkil etmişdi. Respublika iqtisadiyyatında mövcud olan mənfi meyillərin qısa müddətdə aradan qaldırılması, iqtisadi sabitləşmə əsasında dinamik inkişafın təmin edilməsi, köklü struktur dəyişikliklərinin aparılması, sosial-mənəvi mühitin yaxşılaşdırılması üçün zəruri tədbirlər görülməsi tələb olunduğu halda, real vəziyyətin mənzərəsi, problemlərin həllindəki uğursuzluqlar silsiləsi bədbin sonluqdan xəbər verirdi.

1969-cu ilin iyulunda Heydər Əliyev siyasi rəhbərliyə gələndə respublikada real vəziyyət belə idi. Heydər Əliyev rəhbərliyə gələndən bir ay sonra, Azərbaycan KP MK-nın avqust plenumunda ölkə iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyətin hərtərəfli təhlilini verdi, mövcud nöqsanları və gerilikləri aradan qaldırmaq üçün konkret yollar göstərdi [128, v. 9–47].

Heydər Əliyevin həyata keçirdiyi kompleks təşkilatçılıq, ideya-tərbiyə və sosial-mədəni tədbirlər nəticəsində respublikanın iqtisadi poten-

sialı xeyli artdı, sənayenin strukturu yaxşılaşdı, kənd təsərrüfatı keyfiyyətcə yeni pilləyə qalxdı, əhalinin həyat səviyyəsində müsbət dəyişikliklər baş verdi. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər ərzində Azərbaycan SSR-də milli gəlirin ümumi həcminin 2,5 dəfə artması təmin olunmuş, onun artım səviyyəsi 5 mlrd. 370 mln. manat təşkil etmişdi.

Ümumiyyətlə, Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan SSR-in gələcək müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar – iqtisadi, mənəvi-mədəni potensial yaradılmış, milli kadr problemi həll edilmişdi. O dövrdə iqtisadiyyat, mədəniyyət, təhsil sahəsində əldə edilən tərəqqi, milli birliyə nail olunması, milli özünüdərkin yüksəlişi müstəqil dövlətin yaranmasına xidmət edən strategiyanın bünövrəsini qoymuşdu. Ona görə də tam əminliklə demək olar ki, bugünkü müstəqil Azərbaycan Respublikasının uğurları məhz həmin illərdə yaradılmış möhkəm təmələ əsaslanır.

Heydər Əliyevin siyasi-iqtisadi, sosial-mədəni tədbirlər silsiləsi gənclər siyasətində də öz əksini tapmışdı. Nəticədə, gənclərin maddi və mənəvi problemlərinin həlli, onların həyat şəraitinin, mədəni-təhsil səviyyəsinin yüksəldilməsi istiqamətində çox ciddi dönüş baş vermişdi. Respublikada mənəvi-psixoloji mühitin yaxşılaşdırılması, mənfi hallara qarşı ardıcıl və prinsipial mübarizə gənclərin sosial-siyasi fəallığının artmasına səbəb olmuş, onlar ictimai-siyasi, iqtisadi və mədəni həyatda daha fəal iştirak etməyə başlamışdılar. Bu baxımdan da 1970–1980-ci illərdə Azərbaycan xalqının əldə etdiyi möhtəşəm uğurlarda gəncliyin də öz payı olmuşdur.

Heydər Əliyev gənclərin ümumi səviyyəsinin yüksəldilməsində, mənəvi tərbiyəsində, onlarda vətəndaşlıq hisslərinin formalaşmasında təhsilin həlledici əhəmiyyət kəsb etdiyini bilir, ona görə də bu sahənin inkişafı məsələlərinin ön planda olmasına diqqəti cəlb edirdi.

1970–1980-ci illərdə Azərbaycan SSR-də təhsilin inkişafında, gənclərin təhsilə daha geniş şəkildə cəlb edilməsi sahəsində çox mütərəqqi keyfiyyət və kəmiyyət dəyişiklikləri baş vermişdi. Həmin illərdə 101 min yerlik məktəbəqədər uşaq müəssisəsi, 703 min yerlik 1058 məktəb binası tikilib istifadəyə verilmişdi. Ümumtəhsil məktəblərində hər il 1,4 milyon şagird təhsil alırdı. 1982-ci ildə Azərbaycan SSR-də 4395 ümumtəhsil məktəbi, müxtəlif fənlər üzrə dərinləşmiş proqramlarla təlim keçən kimya-biologiya, fizika-riyaziyyat, fars dili, ingilis dili və başqa təma-

yüllü internat məktəbləri fəaliyyət göstərirdi [395, 229]. Azərbaycan SSR-də milli hərbi kadrlar yetişdirilməsini və SSRİ dövlətinin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin daxil olmasını təmin etmək məqsədilə Heydər Əliyevin təşəbbüsü ilə C.Naxçıvanski adına respublika ixtisaslaşdırılmış internat məktəbi təşkil olunmuşdu [141, v. 222].

İşləyən gəncləri təhsilə cəlb etmək üçün gündüz məktəbləri yanında müstəqil qiyabi məktəblər təşkil olunmuş, kolxoz və sovxozlarda rayon qiyabi məktəblərinin 1531 tədris-məsləhət məşğələsi açılmışdı. Axşam və qiyabi məktəb şagirdləri üçün qısaldılmış iş həftəsi müəyyən olunmuşdu.

Heydər Əliyev gənclərin peşə hazırlığı səviyyəsinin yüksəldilməsinə daim diqqət yetirirdi. Azərbaycan SSR-də mütəxəssis hazırlığının mühüm forması olan peşə təhsilinin yüksəliş dövrü məhz bu dövrə təsadüf edir. Belə ki, o illərdə respublikada 100 yeni texniki peşə məktəbi təşkil edilmişdi. 1982-ci ildə 178 belə məktəbdə 104 min şagird təhsil alırdı [395, 134]. Təsərrüfat, maarif, mədəniyyət, səhiyyə və başqa sahələr üzrə orta ixtisaslı kadrlar hazırlayan 75 texnikumda hər il 70–75 min gənc təhsil alırdı [395, 192].

Azərbaycan SSR-də ali təhsilin yüksəliş mərhələsi də Heydər Əliyevin rəhbərlik etdiyi illərə təsadüf edir. Məhz onun uzaqgörən siyasəti nəticəsində ali məktəblərin maddi-texniki və tədris bazası xeyli möhkəmlənmiş, yeni ali məktəblər yaradılmışdı. Cəmiyyət həyatının bütün sahələrində ziyalılaşma prosesi dərinləşmiş, böyük tərəqqi və dirçəliş üçün zəruri zəmin formalaşmışdı. Təhsilin səviyyəsi yüksəlmiş, tədris prosesi yaxşılaşmışdı. 1982-ci ildə Azərbaycan SSR-də 18 ali və 75 orta ixtisas məktəbi fəaliyyət göstərirdi. Həmin il Azərbaycan SSR-də 18,5 min ali və 23,5 min orta ixtisas təhsilli mütəxəssis buraxılmışdı [395, 197]. Bütün bunlar respublika əhalisinin təhsil səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsinə və fəaliyyət sahələrində bilikli, perspektivli kadrların üstünlüyünə şərait yaratmışdı. Əhalinin hər 1000 nəfərinə düşən ali və orta təhsillilərin sayı 1970-ci ildəki 471 nəfərdən 1979-cu ildə 652-yə çatmışdı [399, 33].

1970–1980-ci illərdə Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilən düşünülmüş siyasət nəticəsində respublikada ictimai həyatın bütün sahələrində baş verən müsbət dəyişikliklər gənclərin sosial-psixoloji vəziyyətinə, siyasi fəallığına müsbət təsir göstərmişdi.

Azərbaycan gəncləri respublikanın ictimai-siyasi həyatında daha fəal iştirak etməyə başlamışdılar. Dövlət və cəmiyyət işlərinin idarə olunmasında gənclərin geniş və bilavasitə iştirakı onların ictimai-siyasi fəallığının bariz ifadəsi idi. Belə ki, 16 mindən çox gənc vətəndaş xalq deputatları sovetlərinin, o cümlədən 118 nəfər SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdi. 17.500 gənc rəhbər həmkarlar ittifaqı orqanlarında çalışır, 40 mindən çox gənc xalq nəzarəti işində fəal iştirak edirdi [144, v.173].

Gənclərin fəallığı ictimai həyatın bütün sahələrində təzahür edirdi. Gənclər sənaye müəssisələrinin tikilməsində, yenidən qurulmasında və işlədilməsində böyük rol oynayırdılar. Bu cəhətdən Bakı məişət kondisionerləri zavodunun təcrübəsi diqqətəlayiqdir. Gənclər bu iri sənaye müəssisəsinin tikintisində fəal iştirak etmiş, nadir istehsal texnologiyasına sürətlə yiyələnmiş, yüksək əmək məhsuldarlığına nail olmuşdular. Zavod işə salınanda işçilərin orta yaşı 25 təşkil edirdi.

Elmi-texniki tərəqqini müəyyən edən avtomatlaşdırılmış istehsal sahələrinin yaradılması, texnoloji proseslərin tətbiqi onları kadrlarla komplektləşdirmək sahəsində qarşıya yeni tələblər qoyurdu. Bununla əlaqədar Heydər Əliyev Azərbaycan komsomolunun XXX qurultayında bildirmişdi ki, indi bizim qarşımızda duran ən mühüm problem elə istehsalat kollektivləri yaratmaqdan ibarətdir ki, orada yalnız mühəndis-texniki işçilər deyil, fəhlə kadrları da yüksəkixtisaslı olsunlar və belə proseslərin idarə edilməsi sahəsində mürəkkəb vəzifələri yerinə yetirə bilsinlər. Bütün yeni və qabaqcıl üsulları gənclərimiz öyrənməli və irəli aparmalıdır [8, 13–14].

Respublika rəhbəri Azərbaycan SSR iqtisadiyyatının əsasını təşkil edən neft sənayesinin inkişafında gənclərin rolunu yüksək qiymətləndirir, onların ehtiyac və tələbatlarının ödənilməsinin, burada çalışanların sayının gənclərin hesabına artmasının qayğısına qalırdı. O bu işdə olan nöqsanlardan danışaraq deyirdi ki, uzun bir dövr ərzində bu sahədə yaşı 30-a qədər olan işçilərin sayı 22 %-dən yuxarı qalxmır, halbuki ümumən respublika sənayesində gənclərin sayı bütün işçilərin sayının 41 %-nə bərabərdir [8, 13–14].

Bundan sonra neft sənayesinə 2500-dən artıq, texniki peşə məktəblərinə də bir o qədər gənc göndərildi, neft sənayesində gənclərin sayı 30 faizə çatdırıldı [144, v. 187]

Gənclər respublika iqtisadiyyatı, eləcə də SSRİ-də olan bir sıra böyük istehsal obyektlərinin inşasında da yaxından iştirak edirdilər. 1971-ci ildə ölkənin zərbəçi tikintilərinə (bunlar o zaman zərbəçi komsomol tikintiləri adlanırdı – *Ə.Q.*). Azərbaycan SSR-dən 3002 nəfər oğlan və qız göndərilmişdir [83, 1972, 10 mart].

Təxminən 150 min hektar sahəni suvarmağa imkan verəcək Tərtərçay dəryaçasının tikintisində 812-dən çox gənclər briqadası işləyirdi [83, 1972, 10 mart].

1977-ci ildə respublikanın 1000-dən artıq gənci SSRİ-nin yeni tikintilərində işləməyə getmişdi. Onlar «Atommaş», BAM, KAMAZ, Rusiya Federasiyasının Sibir bölgəsində və Qeyri-Qaratorpaq zonada, Özbəkistan SSR-də aparılan tikinti işlərində, Tümen vilayətində neft və qaz yataqlarının mənimsənilməsində çalışırdılar [177, 411, v.157]. Təkcə 1978-ci ildə BAM-da azərbaycanlılardan ibarət 30 gənclər briqadası fəaliyyət göstərirdi. BAM-ın Ulkan qəsəbəsi azərbaycanlı gənclər tərəfindən tikilmişdi [206, 158]. 1978–1982-ci illərdə Azərbaycan SSR-dən SSRİ ərazisində aparılan tikinti obyektlərinə 5 mindən çox gənc göndərilmişdi.

70-ci illərdə bir sıra obyektlər, o cümlədən Bakı Neftayırma Zavodunun parafinsizləşdirmə qurğusu, Gəncə qənnadı fabriki və ət kombinatı, Cəlilabad və Giləzi quşçuluq fabrikləri gənclərin köməyi ilə tikilib istifadəyə verilmişdi. Həmin dövrdə 6 respublika və 43 yerli sürətlə tikilən tikinti obyektləri var idi [206, 138].

Bundan əlavə respublikada tikinti işlərində yay tətili zamanı ali təhsil ocaqlarının tələbələrindən istifadə olunurdu və bu məqsədlə tələbə tikinti dəstələri yaradılırdı. Onların yaradılmasına 1959-cu ildən başlansa da, 1970–1985-ci illərdə bu təşəbbüs daha geniş yayılmışdı. 1982-ci ildə 15 min nəfər gəncin cəlb olunduğu Azərbaycan SSR tələbə inşaat dəstələri respublikanın 48 rayonunda, habelə RSFSR-in Qeyri-Qaratorpaq zonasında, Sibir bölgəsində və Özbəkistan SSR-də mühüm tikinti obyektlərində işləyirdi. 1978–1981-ci illərdə Azərbaycan SSR-in tələbə inşaat dəstələrində 57 min oğlan və qız işləmişdi [30, 19].

1970–1980-ci illərdə Azərbaycan SSR-də kənd təsərrüfatının inkişafında qazanılan uğurlarda gəncliyin çox böyük xidmətləri var idi. 1980-ci illərin əvvəllərində respublikanın kənd təsərrüfatında 500 min gənc çalışırdı. Bu isə bütün kənd əməkçilərinin, demək olar ki,

yarısını təşkil edirdi [184, 58, 742, v. 199]. Aqrar sahədə 4,5 min komsomolçu-gənclər briqadaları fəaliyyət göstərirdi. Lakin respublikada gənc mexanizator kadrlarına kəskin ehtiyac duyulurdu, mexanizatorların yalnız üçdə birini gənclər təşkil edirdi ki, bu da çox aşağı göstərici idi. Görülmüş tədbirlər nəticəsində pambıqyığan mexanizatorların sayı, o cümlədən onların arasında qızların sayı durmadan artırdı. 1981-ci ilin məhsul yığımında 350 nəfər sürücü-mexanizator qız iştirak etmişdi.

Göstərilən dövrdə gənclərin kənddə sosial-mədəni quruculuqda iştirakının genişlənməsinə diqqət artırıldı. Azərbaycan KP MK-nın tapşırığı ilə sosial-mədəni və məişət məqsədləri üçün 31 kənd obyekti sürətlə tikilən tikinti obyektləri elan edilmişdi [83].

Yeni iri müəssisələrin və istehsalatların, əsasən, gənc fəhlələrlə, mühəndis-texniki kadrlarla komplektləşdirilməsi nəticəsində neft maşınqayırması, cihazqayırma, radiotexnika, elektron sənayesi kimi sürətlə inkişaf edən sahələrdə gənclər əsas yer tuturdu. 1982-ci ildə gənclərdən ibarət əmək kollektivlərinin sayı 7,5 minə çatmışdı və onlar, əsasən, istehsalın həlledici sahələrini əhatə edirdi [83].

Gənc nəslin mənəvi tərbiyəsi respublika rəhbərliyinin diqqət mərkəzində saxlanılırdı. Məktəblər gənclərin mənəvi şüurunun formalaşmasında həlledici rol oynayırdı. Bunu nəzərə alan Heydər Əliyev məktəblərin tərbiyəvi fəaliyyətini gücləndirməyi, gənclərin təkcə əqli qabiliyyətini formalaşdırmağı deyil, həm də onlarda iradə, xarakter, ictimai şüur aşılanmasını tələb edirdi. Heydər Əliyevi bu dövrdə özünü açıq göstərməyə başlayan «əşyabazlıq», meşşan psixologiyası, milli dəyərlər anlayışının aşınması və digər mənfi təzahürlər narahat edir, bütün cəmiyyəti bunlara qarşı mübarizəyə çağırırdı. Çalışırdı ki, hər bir gənc hələ məktəbdə oxuyarkən bilsin və möhkəm inansın ki, cəmiyyətdə nemətlər yalnız əməklə, halal zəhmət sayəsində əldə edilə bilər və edilməlidir. Yalnız belə nemətlərdən istifadə etmək, onlara bel bağlamaq, onlardan ağıllı, öz mənəvi zənginliyi üçün istifadə etmək olar. O deyirdi: «Bizim idealımız elə bir şəxsiyyətdir ki, intellektual və mənəvi cəhətdən hərtərəfli inkişaf etmiş olsun, zəngin biliyi coşqun fəaliyyətlə, ictimai borcu dərk etməyi fəal vətəndaşlıq mövqeyi ilə, həyatsevərliyi öz işləri və hərəkətləri üçün məsuliyyət hissi ilə ahəngdar şəkildə birləşdirsin» [184, v. 206–208].

Heydər Əliyevin Azərbaycan KP qurultaylarında, MK-nın plenumlarında, 1979-cu ilin aprelində Bakıda keçirilmiş «Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri» mövzusunda ümumittifaq elmi-praktik konfransdakı məruzəsində, «Pravda» qəzetinin səhifələrində «Vicdanımızın normaları» başlığı ilə və «Literaturnaya qazeta»nın müxbirinə verdiyi müsahibələrində, bir sıra başqa çıxış və məqalələrində mənəvi-əxlaqi məsələlərə xüsusi diqqət yetirməyi çox mühüm vəzifə kimi qeyd edirdi. Onun bu çıxış və müsahibələrinin gənclərlə geniş müzakirəsi keçirilirdi. Bütün bunlar isə gənclərin mənəvi tərbiyəsinin formalaşmasında mühüm rol oynamaqla, onların ictimai-sosial fəallığının daha da artırılmasına böyük təsir göstərmişdi.

Heydər Əliyev gənc nəslin vətənpərvərlik tərbiyəsinə də xüsusi əhəmiyyət verirdi. Gənclərdə yüksək vətəndaşlıq keyfiyyətlərinin formalaşmasında, onların cəmiyyət qarşısında öz borcunu düzgün başa düşməsində hərbi vətənpərvərlik tərbiyəsi mühüm rol oynayırdı. Heydər Əliyevin gənclərin hərbi vətənpərvərlik tərbiyəsini daha da gücləndirilməsi ilə bağlı tövsiyələrinin yerinə yetirilməsi üçün respublikanın əlaqədar təşkilatları hərbi komissarlıqlarla birlikdə kompleks tədbirlər həyata keçirirdi. Gənclərin döyüş və əmək şöhrəti yerlərinə yürüşləri, müharibə veteranları, əmək qəhrəmanları ilə görüşləri bu qəbildən idi. Uşaq və gənclərin hərbi hazırlığında, hərbi vərdişlər qazanmasında hərbi-tətbiqi idman oyunlarının («Üfüqdə parıltı», «Bala qartal») keçirilməsinə xüsusi diqqət yetirilirdi.

Heydər Əliyev ictimai-siyasi, maarif və mədəniyyət təşkilatlarından gənclərin bədii-estetik tərbiyəsi ilə daim məşğul olmağı tələb edirdi. O bu barədə danışarkən, xüsusi qeyd edirdi ki, estetik tərbiyə gənclərdə nəinki gözəlliyi duymaq və başa düşmək qabiliyyəti formalaşdırmalı, həm də gözəlliyi yaratmaq tələbatı tərbiyə etməli, hər adamda olan bədii rüşeymləri aşkara çıxarmalıdır [30].

Ümummilli lideri gəncləri incəsənətə qovuşdurmaq, onlarda incəsənətə maraq oyatmaq məsələləri daim düşündürür və bunun üçün bütün forma və vasitələrdən istifadə etməyə çağırırdı, bu işdə gənclər arasında bədii özfəaliyyətin, onun ən kütləvi formalarının inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verirdi. O çalışırdı ki, hər bir tədris müəssisəsinin, əmək kollektivinin bədii özfəaliyyət kollektivi olsun. Uşaq

və gənclərin estetik tərbiyəsini yaxşılaşdırmaq üçün müvafiq mədəniyyət müəssisələrinin şəbəkəsi genişləndirilir, gəncləri xor, rəqs, teatr kollektivləri, xalq çalğı alətləri, simfonik, nəfəs alətləri və estrada orkestrlərinə, bədii özfəaliyyət yaradıcılığının bütün növlərinə cəlb etmək üçün imkanlar yaradılırdı.

Heydər Əliyev Azərbaycan gənclərini öz xalqının qəhrəmanlıq tarixinin şanlı səhifələri ilə fəxr etməyi, onun çoxəsrlik tarixi ərzində yaratdığı bütün mənəvi sərvətlərə dərindən bələd olmağı tövsiyə edirdi. Bədii özfəaliyyət festivalları, olimpiadalar, sərgilər gənclərin bədii yaradıcılığının, mədəniyyətinin inkişaf etməsinə böyük təsir göstərirdi [184, v.216–218].

1970-ci ildən başlayaraq respublikada məktəblilərin ənənəvi mahnı festivalları keçirilməyə başlanmışdı. Bədii özfəaliyyətə respublika, rayon baxışları, yaradıcılıq festivalları, hər il keçirilən «Çal, oyna» respublika müsabiqəsi və digər tədbirlər gənclərin bədii yaradıcılıq imkanlarını üzə çıxarmaqda müsbət rol oynayırdı. Bu dövrdə Azərbaycan SSR-in bir sıra bədii kollektivləri beynəlxalq və ümumittifaq festivallarında respublikanı layiqincə təmsil etmişlər.

Respublikada gənc şair və yazıçıların, rəssamların yaradıcılığına xüsusi diqqət yetirilirdi. Onları yaradıcılığa həvəsləndirmək üçün müxtəlif müsabiqələr keçirilir, mükafatlar təsis edilirdi. Gənc yaradıcı işçilərin seminarlarının, hər il uşaqlar və gənclər üçün musiqi həftələrinin keçirilməsi və başqa tədbirlər yaradıcı gənclərə özlərini daha fəal göstərməkdə kömək edirdi. Gənc yazıçı və şairlərin yetişməsində 1975-ci ildə Azərbaycan Yazıçılar İttifaqı və respublika LKGİ MK tərəfindən yaradılmış «Gənc yazıçılar klubu» müəyyən rol oynayırdı. Uşaq-gənclər mətbuatı da respublika rəhbərinin xüsusi qayğısı və diqqəti ilə əhatə olunmuşdu. Uşaqlar və gənclər üçün «Azərbaycan gəncləri», «Молодёжь Азербайджана», «Pioner», «Göyərçin», «Ulduz» mətbu orqanları geniş tirajla çap olunurdu. «Gənclik» nəşriyyatında isə, bir qayda olaraq, gənc nəsil üçün bədii ədəbiyyat nəşr olunurdu. «Azərbaycan gəncləri», «Молодёжь Азербайджана» qəzetləri yanında ədəbi birliklərdə 300-dən çox gənc yazıçı iştirak edirdi. Gənc ədiblərin əsərlərindən ibarət almanaxlar nəşr edilirdi.

Heydər Əliyev gənclərin bədən tərbiyəsi və idmanla məşğul olmalarını daim tövsiyə edir, müvafiq şəraitin yaradılması üçün bütün

imkanların səfərbər olunmasını tələb edirdi. 1970-ci illərdə respublikada bədən tərbiyəsi və idmanı müasir tələblər səviyyəsinə qaldırmaq üçün mühüm işlər görülürdü. Nəticədə, əvvəlki illərlə müqayisədə idman kollektivlərinin, bədən tərbiyəsi ilə məşğul olanların sayı artmış, idman kütləvi hal almağa başlamışdı. 1970–1980-ci illər ərzində respublikada 714 idman qurğusu isə salınmışdı. 1982-ci ildə respublikada 59 stadion, 1071 idman zalı, 23 üzgüçülük hovuzu, 1,6 min futbol meydançası, 3,8 min voleybol, basketbol və tennis meydançası fəaliyyət göstərirdi. Respublikada 7256 idman kollektivində bədən tərbiyəsi və idmanla məşğul olanların sayı 2199 minə çatırdı [395, 216].

«Sevinc», «Ağ top», «Möcüzəli dama», «Neptun» respublika klubları 200 mindən çox məktəblini birləşdirirdi. «Əməyə və müdafiəyə hazıram» («ƏMH») çoxnövçülüyü üzrə yarışlar və «Ümid startları» uşaq idman oyunları böyük şöhrət qazanmışdı. Bu dövrdə respublikada 146 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi.

Respublikada şahmat uşaq və gənclər arasında böyük şöhrət və nüfuz qazanmış, şahmat məktəblərinin geniş şəbəkəsi yaradılmışdı. Hər il respublikada uşaq şahmat festivalı keçirilirdi.

Lakin respublikada bədən tərbiyəsi və idmanın inkişafı sahəsində müəyyən nöqsanlar hələ də qalmaqda idi. Belə ki, 1980-ci ilin əvvəllərində məktəblərin 77 faizinin idman salonları yox idi. Bir çox məktəbdə bədən tərbiyəsi ikincidərəcəli iş hesab edilirdi. Məktəblilər arasında «ƏMH» nişançılarının sayına görə Azərbaycan SSR orta İttifaq səviyyəsindən xeyli geri qalırdı [206, 147]. Tələbə gənclər arasında kütləvi bədən tərbiyəsi və idman işində ciddi nöqsanlar var idi. İdmanın kütləviliyinə lazımi diqqət yetirilmir, xüsusən kənd yerlərində gənclərin bu sahəyə cəlb edilməsi çox zəif idi. Qızlar bədən tərbiyəsi və idmana kifayət qədər cəlb olunmurdular.

Heydər Əliyev respublikada gənclər arasında bədən tərbiyəsinin və idmanın təşkili vəziyyətinin yarıtmaz olması barədə dəfələrlə narahatçılığını bildirir və geriliyin səbəblərindən bəhs edərək deyirdi: «Biz başlıca nöqsanı kütlələrin, birinci növbədə, oğlan və qızların bədən tərbiyəsində, onlarda fiziki təkmilləşməyə tələbatın formalaşdırılmasında olan ciddi qüsurlarda görürük. Bədən tərbiyəsinin əsasları lap uşaq yaşlarından qoyulmalı, sonra məktəbdə inkişaf etdirilməlidir. Məktəb uşaqların fiziki cəhətdən inkişaf etməsi üçün böyük potensial imkan-

lara malikdir. Məhz burada hər bir oğlan və qıza bədən tərbiyəsinə və idmana məhəbbət hissi ömürlük aşılanmalıdır» [184, v. 222].

Heydər Əliyevin həyata keçirdiyi çoxşaxəli idarəçilik siyasətinin mühüm istiqamətlərindən biri olan gənclər təşkilatının respublikanın ictimai-siyasi, mədəni inkişafında iştirakının genişləndirilməsi, gənclərlə iş sahəsində onun rolunu və əhəmiyyətini artırmaq təşkil edirdi. O, respublika XXVIII, XXIX, XXX və XXXI qurultaylarında geniş çıxış etmiş, Azərbaycan KP MK-nın gənclər təşkilatı olan komsomolun fəaliyyəti ilə bağlı bir neçə qərar qəbul edilmişdi. 1970-ci ildən sonra respublika komsomol təşkilatı üzvlərinin sayı üç dəfə artmış, 1982-ci ildə artıq onun üzvlərinin sayı 1300 minə çatmışdı. Komsomolçuların sayı sənayedə 2,4 dəfə, tikintidə 2,6 dəfə, kənd təsərrüfatında 3,2 dəfə artmışdı [83]. Komsomol təşkilatları gənclər arasında ictimai-siyasi, mənəvi tərbiyə işinin təbliğat və təşviqatının, kütləvi əyləncəli tədbirlərin əsas təşkilatçıları idilər. Bu məqsədlə gənclərə təsir etmək üçün ən müxtəlif forma və vasitələrdən istifadə edilirdi. Gənclərin tarixi, döyüş və əmək şöhrəti yerlərinə yürüşləri, müharibə veteranları, əmək qəhrəmanları ilə görüşləri bu qəbildən idi. Gəncləri «sovet vətənpərvərliyi və proletar beynəlmiləlçiliyi» ruhunda tərbiyə etmək komsomolun ən mühüm vəzifəsi idi. Lakin partiya inzibati amirliyi şəraitində komsomolun bu sahədəki fəaliyyəti daha çox formal xarakter kəsb etdiyindən, onlar gənclərin maraq və tələbatına cavab vermirdi. Bu isə partiya təşkilatları kimi, komsomolun da gənclər arasında «yadlaşması» prosesinin güclənməsinə gətirib çıxarırdı [247, 155]. Ona görə də Heydər Əliyev komsomolun fəaliyyətində açıq nəzərə çarpan bürokratizm, formalizm ünsürlərini tənqid etməkdən çəkinmir, komsomol təşkilatları rəhbərlərini gənclərin problemlərini vaxtında həll etməyə çağırırdı.

1970–1980-ci illərdə Azərbaycan SSR gənclərinin beynəlxalq əlaqələri, məhdud dairədə də olsa, inkişaf edirdi. Respublikanın nümayəndələri bir çox beynəlxalq tədbirlərdə, o cümlədən gənclər festivallarında iştirak edirdilər. Azərbaycan SSR-də də bir sıra beynəlxalq gənclər tədbirlərinin – dostluq həftələri və günləri, dünya gənclərinin görüşləri keçirilirdi. Bu tədbirlərdə, əsasən, sosializm birliyi ölkələri və inkişaf etməkdə olan ölkələrin nümayəndələri iştirak edirdilər. 1982-ci ildə Bakıda keçirilən «Gənclər, inkişaf və sülh» beynəlxalq konfransında dünyanın 38 ölkəsindən 50 gənclər təşkilatının 143 nümayəndəsi

təşkil olunmuşdu. Heydər Əliyev həmin konfransda «Gənclərin birliyinin, dostluğunun və əməkdaşlığının möhkəmləndirilməsi uğrunda, sülh və sosial tərəqqi uğrunda» adlı geniş məruzə ilə çıxış etmişdi. Böyük müvəffəqiyyətlə keçən bu beynəlxalq tədbir, onun iştirakçılarının etiraf etdiklərinə görə, Şərq gənclərinin I qurultayının tarixi varisi olmuşdur [242, 1982, 3 aprel].

Beləliklə, Ümummilli lider Heydər Əliyevin Azərbaycan SSR-in siyasi rəhbəri olduğu dövrdə respublikanın ictimai-siyasi, iqtisadi və mədəni sahələrində həyata keçirdiyi kompleks tədbirlər nəticəsində Azərbaycan gəncliyinin inkişafında mühüm irəliləyiş baş vermiş, gənclərin ictimai-siyasi fəallığı xeyli artmış, mədəni və təhsil səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmiş, gənclər cəmiyyətin aparıcı qüvvəsinə çevrilmiş, ölkənin dinamik inkişafında mühüm xidmətlər göstərmişdir. Ümummilli liderin dediyi kimi, Azərbaycan SSR-in sovet dövründə inkişafının ən bariz nəticəsi o oldu ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratdı [3, 41].

Lakin, çox təəssüf ki, keçmiş SSRİ-də 80-ci illərin II yarısında baş vermiş siyasi proseslərin dağıdıcı nəticələri bu potensialın müəyyən qədər itirilməsi ilə nəticələndi. Qorbaçovun uğursuz «yenidənqurma» siyasəti sovet rejiminin siyasi, iqtisadi, mənəvi böhranını daha da dərinləşdirdi.

Heydər Əliyev SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan cəmi 20 gün sonra ermənilər Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti torpaqlarına iddia irəli sürərək təcavüzkar müharibəyə başladılar. Bu dövrdə Azərbaycan SSR-in yaşadığı siyasi, iqtisadi, mənəvi sarsıntılar, Qarabağ müharibəsindəki uğursuzluqlar, cəmiyyətin bütün təbəqələri kimi, gəncliyin də həyatına mənfi təsir göstərdi. Gənclərlə bağlı dövlətin mövcud siyasəti tam tənəzzülə uğradı.

Yalnız Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıdışı ilə gənc nəslə diqqət və qayğı dövlətin mühüm istiqamətlərindən birini təşkil etdi.

Qısa zaman ərzində Heydər Əliyev tərəfindən gənclərin sosial-iqtisadi, mənəvi problemlərinin həlli üçün lazımi addımlar atıldı, dövlət gənclər siyasətinin əsas məqsəd, prinsip və istiqamətləri müəyyənləşdirildi.

5.3. Səhiyyənin inkişafı

XX əsrin 70–80-ci illəri Azərbaycan xalqının həyatının başqa sahələrində olduğu kimi, səhiyyə sahəsində də böyük uğurların əldə edildiyi dövrdür. Bu illərdə respublika əhalisinin sağlamlığının qorunması sahəsində mühüm tədbirlər həyata keçirilmişdi.

80-ci illərin əvvəlində respublika əhalisinin hər on min nəfərinə düşən tibb işçilərinin sayına, yüksəkixtisaslı kadrların və alimlərin yetişdirilməsinə, yeni səhiyyə-sağlamlıq ocaqlarının yaradılmasına, müxtəlif ixtisaslar üzrə elmi tədqiqat tibb institutlarının, elmi mərkəz və laboratoriyaların açılmasına görə Azərbaycan SSR-in səhiyyə göstəricilərini, hətta dünyanın qabaqcıl ölkələrinin səhiyyəsi ilə müqayisə etmək mümkün olmuşdu. Bütün bunlar Heydər Əliyevin əhalinin səhiyyə-sağlamlıq işlərinə mütəmadi qayğısının, nəhəng əməli fəaliyyətinin nəticəsi idi.

Qeyd etmək lazımdır ki, XX əsrin 60-cı illərinin sonu, 70-ci illərin əvvəllərində, bütövlükdə, SSRİ-də olduğu kimi, Azərbaycan SSR-in səhiyyə sahəsində də ciddi problemlər yaranmışdı. O dövrdə səhiyyənin vəziyyətinə diqqətlə nəzər yetirərkən, onun böhranlı bir vəziyyətdə olduğunu görməmək mümkün deyildi. Bir sıra yoluxucu xəstəliklər, o cümlədən vərəm, malyariya, difteriya, poliomielit, məxmərək və başqa xəstəliklər geniş yayılmışdı.

Heydər Əliyev məhz bu çətin dövrdə respublikaya rəhbərlik etməyə başladı. Onun siyasi hakimiyyətə gəldiyi ilk vaxtdan Azərbaycan SSR-in sosial-iqtisadi və mədəni həyatında böyük canlanma yarandı. Respublika iqtisadiyyatının bütün sahələrində, elm və təhsildə, incəsənət və mədəniyyət, səhiyyə və məişətdə sürətli bir inkişaf dövrü başladı.

Ölkə həyatında baş verən yeni quruculuq və yaradıcılıq işləri tədricən ictimai-iqtisadi və mənəvi həyatda özünü qabarıq surətdə büruzə verməyə başladı. Əgər 1960-cı ildə respublikada səhiyyənin saxlanılması və inkişafına ayrılan vəsait 70-ci illərin pulu ilə 67,9 milyon manat idisə, 1970-ci ildə bu rəqəm 140,2 mln. manat təşkil etmişdi. 1982-ci ildə isə artıq bu rəqəm təxminən 250 milyon manata çatmışdı [401, 252].

Səhiyyə sahəsinə qayğının əsası Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu ilin dekabr ayında respublika Ali Sovetinin yeddinci sessiyasında onun bilavasitə təşəbbüsü ilə səhiyyə ilə bağlı qanun-

vericiliyin əsasları barədə qəbul olunmuş qərar təşkil edirdi. Sonralar bu qərar səhiyyə sahəsində həyata keçirilmiş çoxsaylı və müxtəlif tədbirlərin hüquqi dayağı oldu.

1970-ci illərin başlanğıcından etibarən Azərbaycan SSR səhiyyəsi qapalı siyasi sistemin qadağalarına baxmayaraq, tədricən dünya səhiyyəsi ilə inteqrasiyaya girməyə başladı. Bu vəziyyət SSRİ-nin ən nüfuzlu mətbuat orqanı olan «Pravda» qəzetinin səhifələrində işıqlandırıldı. Qəzet yazırdı: «70-ci illərə qədər Azərbaycanda milyonçular, mesenatlar tərəfindən tikilmiş bir neçə köhnə xəstəxana binası olmuşdur. Lakin təkcə 1970–1980-ci illərdə Azərbaycanda yüzlərlə iri səhiyyə obyektləri inşa edilmişdir» [193, 156]. Ənənəvi qərəzli mövqeyinə baxmayaraq «Pravda»nın sosioloji qənaəti bu idi ki, bu səhiyyə binalarının hər biri Heydər Əliyevin quruculuq fəaliyyətinin tərkib hissəsini təşkil edirdi.

Heydər Əliyevin böyük enerjisi təkcə Azərbaycan SSR-də deyil, bütövlükdə Sovetlər İttifaqında böyük bir hadisə kimi qarşılandı. Onun müxtəlif tədbirlərdəki məruzələri, kütləvi-informasiya vasitələrində gedən çıxış və müsahibələri ictimaiyyətin geniş marağına səbəb olurdu. Ağıllı və cəsarətli təklifləri, eləcə də kəskin tənqid və iradları nəinki Azərbaycan SSR-də, həm də SSRİ miqyasında qibtə və rəğbətlə qarşılanırdı. Heydər Əliyev həmişə respublikanın iqtisadi, siyasi vəziyyəti ilə əhalinin ümumi sağlamlığının funksional asılılığını qəbul etmiş, onların üzvi vəhdətdə inkişafına nail olmağa çalışmışdır. Məhz bu zəmində sənayenin və kənd təsərrüfatının inkişaf dinamikasını təmin etmək mümkün olmuşdu.

Heydər Əliyev respublikada səhiyyə quruculuğu ilə əlaqədar qarşıya qoyduğu məqsədə, qlobal tədbirlər kompleksinə vaxtilə mövcud olan ilk səhiyyə ocaqlarının yenidən qurulması və abadlaşdırılması, ən vacib iş kimi əhalinin kütləvi surətdə dispanser qeydiyyatından keçirilməsi və sahə həkimlərinin fəaliyyətinin canlandırılmasından başlamışdı. Bununla da elmi tədqiqat laboratoriyaları ilə səhiyyə-sağlamlıq idarələrinin və müalicə-profilaktika ocaqlarının fəaliyyətində varislik əlaqələrinin yaradılması təmin edilmişdi. Bütün bunlardan sonra tibb işçilərinin nəzəri praktiki uğurlarının səmərəliliyini təmin etmək üçün səhiyyənin ayrı-ayrı sahələri üzrə elmi-təcrübə mərkəzləri açılmış, elmi forumlar, simpo-

ziumlar, konfranslar, konqreslər, qurultaylar keçirilmiş, beynəlxalq elmi əlaqələr möhkəmləndirilmişdi. Səhiyyənin yeni inkişaf planına uyğun olaraq, yüksəkixtisaslı həkim və alim kadrlarının hazırlanması bir daha ön plana çəkilmişdi. Bunlarla yanaşı, respublikada profilaktik tələbatın tələblərinə uyğun kurort-sanatoriya şəbəkəsinin genişləndirilməsinə, səhiyyə işçilərinin ixtisaslaşmasına və təkmilləşməsinə diqqətin, tələbkarlığın artırılması da mühüm məsələlərdən birinə çevrilmişdi.

1970-ci illərin əvvəllərində Azərbaycan SSR-in əksər rayonlarında xəstəxana və poliklinikaların, xüsusilə də ana və uşaqlar üçün səhiyyə müəssisələrinin ümumi vəziyyəti, demək olar ki, acınacaqlı idi. Buna görə də səhiyyənin səviyyəsini yüksəltmək tədbirləri həmin rayonlardan başlandı. Nəticədə, ana və uşaqların sağlamlığı ilə məşğul olan xəstəxana və poliklinikaların, eləcə də qadın məsləhətxanalarının sayı 1960-cı ildəki 231-dən 1970-ci ildə 313-ə, 1980-ci ildə 651-ə [395, 215], 1982-ci il üçün isə 949-a çatdı [401, 233]. Müvafiq olaraq, xəstəxana çarpayılarının da sayı artmağa başladı və 1970-ci ildəki 48.800-dən 1980-ci ildə 60.600-ə yüksəldi [401, 233]. Bu o demək idi ki, əhalinin hər 10.000 nəfərinə düşən çarpayıların sayı da 1970-ci ildəki 93,4-dən 1980-ci ildə 96,8-ə [401, 255] çatmışdı. Bununla belə, 1980-ci ildə respublika əhalisinin hər 10.000 nəfərinə düşən çarpayıların sayına görə İttifaq göstəricilərindən geri qalırdı. Belə ki, bu rəqəm hələ 1970-ci ildə SSRİ üzrə 104,1-ə bərabər idi. Rəqəmlər arasında fərqin kəskin azalması [401, 233] Heydər Əliyevin ciddi səyinin nəticəsi idi.

Respublikada səhiyyə sahəsində kadr siyasəti də diqqət mərkəzində idi. Heydər Əliyev hesab edirdi ki, bu işin konsepsiyası istər kəmiyyət, istərsə də keyfiyyət baxımından bir-biri ilə qarşılıqlı əlaqədə olan iki məsələni həll etməkdən ibarət idi. Ölkədə xəstəxanalar və poliklinikalar üçün yüksəkixtisaslı həkimlər hazırlanması, elmi tədqiqat institutlarında və tibbi profilli laboratoriyalarda işləmək üçün gənc alimlər hazırlanması ən mühüm vəzifələr hesab olunurdu. Heydər Əliyev bu məsələyə respublikaya rəhbərliyinin ilk günündən strateji əhəmiyyət verirdi. Nəticədə şəhər və rayon xəstəxanalarında, tibbi-sanitar hissələrində, poliklinika və səhiyyə məntəqələrində çalışan ixtisaslı kadrların tərkibi möhkəmləndirildi, ixtisasartırma və təkmilləşdirmə kursları xüsusi nəzarətə götürüldü. Aparılan məqsəd-

yönlü işlər sayəsində səhiyyənin ümumi vəziyyəti yaxşılığa doğru surətlə dəyişdi [81, v.11].

Heydər Əliyev yüksəkixtisaslı tibbi kadrların hazırlanmasının ilk mərhələsi kimi Azərbaycan Tibb İnstitutunun fəaliyyətinə xüsusi həssaslıqla yanaşırdı. Məhz onun səyləri sayəsində 1970–1980-ci illərdə institutun büdcəsi artırıldı, yeni tədris korpusu və yataqxanalar tikilib istifadəyə verildi. 1970–1980-ci illərin birinci yarısında institutun əməkdaşlarından 80 nəfəri doktorluq, 250 nəfəri namizədlik dissertasiyası müdafiə etmişdi. 1979–1980-ci tədris ilində institutun 920 nəfərlik professor-müəllim heyətini birləşdirən 75 kafedrada 85 elmlər doktoru və professor, 437 elmlər namizədi və dosent çalışırdı [81, v.12].

O dövrdə respublikanın elmi tədqiqat tibb institutlarında elmi işçi potensialını yeniləşdirmək məsələsi də bir problem kimi qarşıda dururdu. Çünki, təbii olaraq, elə bir məqam çatmışdı ki, yaşlı alım nəsli yeniləri ilə əvəz olunmalı idi. Yaşlı alimlər nəslini əvəz etməyə layiq gənc alimlər yetişdirilməli idi. Totalitar rejimin tüğyan etdiyi həmin dövrdə bunu ancaq yüksək dövlət səviyyəsində, Moskva ilə razılaşdırmaq vasitəsilə gerçəkləşdirmək olardı. Heydər Əliyev böyük çətinliklə SSRİ miqyasında Azərbaycan SSR üçün doktorantura yaradılmasına nail oldu. Məhz bunun sayəsində 1979–1980-ci illərdə Azərbaycan SSR-də 30-a yaxın gənc alim müxtəlif ixtisaslar üzrə doktorluq dissertasiyası üzərində işləmək üçün SSRİ-nin müxtəlif şəhərlərinə ezam olunmuşdular.

Həmin gənc alimlər elmi varisliklə bağlı etimadları doğrultdular və doktorluq dissertasiyalarını uğurla müdafiə edərək vətənə qayıtdılar. Sonralar həmin elmi kadrların çoxu hazırda Azərbaycan Respublikasında tibb elminin aparıcı təşkilatçılarıdır və bu sahənin rəhbərləri vəzifəsində çalışırlar.

ATİ-nin tədris və elmi-pedaqoji fəaliyyəti hər zaman Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Çünki səhiyyə sisteminin nailiyyətləri bu məsələnin uğurlu həllindən bilavasitə asılı idi.

Azərbaycan xalqının yeni və ən yeni tarixində heç bir dövlət rəhbəri ali məktəblərin həyatı, onun fəaliyyəti ilə Heydər Əliyevə qədər ciddi maraqlanmamış, onun çətinliklərini, problemlərini yerindəcə öyrənib, onların işinin yenidən qurulmasına xüsusi qayğı, maddi və mənəvi kömək göstərməmişdi. Heydər Əliyevin maarifə, təhsilə,

səhiyyəyə, elmə, mədəniyyətə, sosial-humanitar sahəyə böyük diqqət və qayğısı, təhsilə prioritet istiqamət kimi yanaşması hələ 60-cı illərin sonu, 70-ci illərdən etibarən həmin sahələrin yenidənqurma missiyasını öz üzərinə götürməsi və güclü kadr potensialı yaratmaq xətti sonrakı uğurların əsasını qoymuş, Azərbaycan SSR-də milli təhsili və səhiyyəni sürətli inkişaf yoluna istiqamətləndirmişdi. Məhz bu illərdə təhsil ölkə iqtisadiyyatını, elm və mədəniyyətini, səhiyyə xidmətini yüksəltməyə böyük səy göstərmişdir.

O, vaxtaşırı Tibb İnstitutuna gəlmiş və onun bu gəlişləri institutun tədris və elmi fəaliyyətinə stimul vermişdi. Heydər Əliyevin Tibb İnstitutuna ilk gəlişi 1972-ci ilin sentyabrında ümuminstitut partiya təşkilatının Azərbaycan KP MK-nın 1972-ci ilin avqust plenumu ilə əlaqədar ATİ-nun qarşısında duran vəzifələrə həsr edilmiş yığıncaqla bağlı idi. Yığıncaqda Heydər Əliyev böyük və dərin məzmunlu nitq söyləyərək institutun fəaliyyətini təhlil etmiş, onun kollektivi qarşısında duran vəzifələrdən ətraflı bəhs etmişdi. Heydər Əliyev Azərbaycan Dövlət Tibb İnstitutunun kollektivi qarşısında qoyulmuş mühüm və məsuliyyətli vəzifələrin yerinə yetirilməsi üçün onların bilik və bacarıqlarını sərf edəcəklərinə əmin olduğunu qeyd etmişdi [236].

Heydər Əliyevin Tibb İnstitutuna ikinci gəlişi 1976-cı ilin avqustunda qəbul imtahanlarının aparılması ilə tanış olmaq məqsədi daşıyırdı. O, abituriyentlərlə və valideynlərlə görüşü zamanı onları düşündürən və narahat edən problemlərin həlli yollarını göstərmiş, qəbul prosesinin obyektiv və ədavətli keçiriləcəyini, bundan sonra da bütün ali məktəblərdə, o cümlədən Tibb İnstitutunda bu xəttin davam etdiriləcəyini göstərmişdi.

Heydər Əliyevin instituta üçüncü gəlişi onun 50 illiyinin keçirildiyi vaxta təsadüf edirdi. 1980-ci ilin iyul ayının 9-da Azərbaycan SSR-in səhiyyə və tibb elmi ictimaiyyəti ATİ-nin 50 illiyi yubileyini təntənəli surətdə qeyd etmişdi. Şəhriyar adına Mədəniyyət evində keçirilən yığıncaqda çıxış edən Heydər Əliyev institutun yarıməsrlik tarixi inkişaf yolu haqqında, onun nailiyyətləri və xidmətləri barədə, habelə kollektivin qarşısında duran vəzifələri ilə bağlı nitq söyləmişdi və institutun Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 26 iyun 1980-ci il tarixli fərmanını

oxuyub ordeni institutun bayrağına sancmışdı. Həmin təhsil ocağının yarıməsrlik tarixi ilə əlaqədar institut əməkdaşlarının böyük bir qrupu SSRİ dövlətinin yüksək dövlət ordenləri və respublikanın fəxri adları ilə mükafatlandırılmışdılar. İnstitutun rektoru Z.T.Quliyeva və tədris işləri üzrə prorektor Y.J.Məmmədov Qırmızı Əmək Bayrağı ordeni ilə, Səhiyyə naziri T.Ə.Qasımov, prof. T.Ə.Əliyev, assistent S.A.Əbdürrəhmanova «Şərəf nişanı» ordeni ilə təltif edilmişdilər. Bundan bir qədər əvvəl, 1980-ci ilin yanvarında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1980-ci il tarixli fərmanı ilə Azərbaycan SSR-də tibb elminin inkişafında, yüksəkixtisaslı həkimlərin hazırlanmasında xidmətlərinə görə və ATİ-nun 50 illik yubileyi ərəfəsində institutun rektoru prof. Z.T.Quliyeva, SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü A.Ə.Namazova, habelə kafedra müdirləri: Azərbaycan EA-nın müxbir üzvü D.V.Hacıyev, professorlar Q.M.Qəhrəmanov, T.A.Tağızadə, N.J.Əliyev, T.Ə.Əliyev, A.Z.Babayev, T.K.Qədirova, Z.Ş.Qarayev, Ə.M.Məmmədov, N.Ə.Rzayev, Z.M.Salayev əməkdar elm xadimi adına, bir çoxları Azərbaycan SSR əməkdar həkimi, əməkdar səhiyyə işçisi adına layiq görülmüşdülər [318].

60-cı illərin sonundan etibarən Tibb İnstitutunda elmi-pedaqoji kadrlar hazırlanması işi tədricən qaydaya düşməyə başlamışdı. 1969–1982-ci illərdə Tibb İnstitutunda 29 elmlər doktoru və 140 elmlər namizədi hazırlanmışdı ki, bu, institutun o vaxtkı tələbatı ilə müqayisədə əvvəlki illərə nisbətən irəliyə doğru atılmış addım idi.

Heydər Əliyev 1982-ci ilin noyabrında Moskvaya rəhbər vəzifəyə irəli çəkildikdən sonrakı illərdə də respublikanın bütün sahələri kimi, onun səhiyyə və ali tibb təhsilinə maraq və qayğısının təzahürü kimi Tibb İnstitutunda tələbə qəbulu tədricən artırılaraq ildə 1300 nəfərə çatdırılmışdı. Bununla əlaqədar elmi-pedaqoji kadrların sayı da ildənilə artırılırdı [214, 69].

Səhiyyə sahəsi üçün kadrların hazırlanmasının mühüm mərhələsi kimi birillik ixtisaslaşma – internaturanın təşkili də Heydər Əliyevin xidmətidir. Məhz onun tapşırığı ilə institutda Azərbaycan SSR Səhiyyə Nazirliyinin 22 aprel 1973-cü il tarixli əmri ilə müalicə-profilaktika və pediatriya fakültələrində internatura sistemi tətbiq edilmişdi. İlk ixtisaslaşma subordinatura və internatura xəttilə iri tibb müəssisələrinin bazasında aparılırdı. Səhiyyə orqanları ilə əməkdaşlıq

prinsipi əsasında aparılan kadr hazırlığı məqsədilə 1973-cü ildə institut üçün 56 baza tibb müəssisəsi ayrılmış və o vaxtdan 80-cı illərin ortalarına kimi burada internaturanı 1058 nəfər bitirmişdi [214, 24]. Həkim-internlərə Bakı səhiyyə müəssisələri azlıq etdiyindən Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Şəki və b. şəhərlərin müalicə müəssisələrində ixtisaslaşma keçməyə şərait yaradıldı.

70–80-ci illərdə institutun büdcəsi 3 dəfədən çox artmışdı. Onun tədris binaları genişləndirilmişdi. Artıq 1984-cü ildə ATİ-də tədris-texniki şöbə yaradılmışdı [214, 24].

Tədrisin keyfiyyətinin yüksəldilməsi üçün institutun tədris bina və korpuslarının vəziyyətinin yaxşılaşdırılmasına Heydər Əliyev böyük əhəmiyyət verirdi. 60-cı illərin əvvəllərində nəzəri kafedralar, əsasən, 3 iri tədris korpusunda yerləşdirilmişdi. Klinik fənlər üzrə dərslər isə şəhərdə olan 6 klinik xəstəxanada, 4 elmi tədqiqat institutunda, iki doğum evində, 30 poliklinikada, həkim məsləhətxanalarında və dispanserlərdə keçirilirdi [214, 81]. 70-ci illərin əvvəllərindən etibarən yeni tədris korpusunun (4-cü korpus) istifadəyə verilməsi və kafedralara yeni laboratoriya avadanlığının alınması, əsas klinik bazaların yerləşdiyi 1 saylı klinik xəstəxananın yenidən qurulması, yeni klinik korpusların istifadəyə verilməsi tədris yerlərinin mövcud normativlərə müəyyən qədər yaxınlaşdırılmasına və tədrisin təkmilləşdirilməsinə qismən şərait yaratmışdı. Lakin instituta tələbə qəbulunun artırılıb ildə 1300 nəfərə çatdırılması ilə əlaqədar tədris auditoriyası azlığı mövcud idi. 70-ci illərdə institutun mərkəzi elmi tədqiqat laboratoriyası üçün yeni bina tikilib istifadəyə verildi. Bundan əlavə, institut üçün müasir tələblərə cavab verən idman kompleksi tikilib istifadəyə verildi. Buna qədər tələbələr bədən tərbiyəsi dərsi keçmək üçün dərsarası tənəffüs dövründə şəhərin kənarlarında yerləşən müxtəlif stadionlara gedib-gəlməli olurdular ki, bu da tədrisin keyfiyyətinə mənfi təsir göstərirdi. 70–80-ci illərdə institut tələbələri üçün bir neçə yataqxana binası tikilib istifadəyə verilmişdi ki, bu da respublikanın rayonlarından və xarici ölkələrdən gələn tələbələrin mənzil ehtiyaclarının müəyyən qədər təmin olunmasına imkan vermişdi.

60-cı illərdən etibarən SSRİ-nin ali tibb məktəblərində 7 illik təhsil müddətinə keçilməyə başlanmışdı. Sonuncu 7-ci tədris ilində məzunlar diplom hazırlığından sonrakı ixtisaslaşma kursu – inter-

natura keçirdilər. Klinik bazaların darısqallığı üzündən ATİ-də internatura yalnız yuxarıda qeyd olunduğu kimi, 1973-cü ildən etibarən – müalicə-profilaktika və pediatriya fakültəsində tətbiq edilmişdi. İnternatura keçmək üçün Bakı şəhər səhiyyə şöbəsinin 60 müalicə-profilaktika müəssisəsinin bazasında yer ayrılmışdı. Lakin bu da kifayət etmədiyinə görə, sonrakı illərdə həkim-internlərə daha sonra Gəncə və Sumqayıt, Mingəçevir, Şirvan (keçmiş Əli-Bayramlı), Şəki və b. şəhərlərin müalicə müəssisələrində ixtisaslaşma keçməyə şərait yaradılmışdı.

Heydər Əliyevin iradəsi ilə görülən tədbirlər sayəsində 70–80-ci illərdə instituta qəbul edilən tələbələrin sayı ildən-ilə artırdı. 1971–1980-ci illər ərzində 11436 məzuna həkim və əczaçı diplomu verildi, yəni bu onillik ərzində institutu bitirənlərin sayı əvvəlki onilliyə nisbətən 2, 3 dəfə çox, müharibədən sonrakı ilk 25 il (1946–1970-ci illər) ərzində institutu bitirənlərdən isə 114 nəfər çox idi.

Həmin illərdə institutun alimləri 200-dən artıq dərslik və tədris vəsaiti nəşr etdirmişdilər. 60-cı illərin sonu – 80-ci illərdə Mərkəzin milli respublikaların hüquqlarını məhdudlaşdırmaq siyasəti milli kadrlar tərəfindən yazılmış dərsliklərin də nəşrinə müəyyən məhdudiyyətlər qoyulması ilə nəticələnmişdi. Onların çapına yalnız Mərkəzin icazə verməsi lazım idi. Heydər Əliyev bu maneəni aradan qaldıraraq ana dilində dərsliklər yazılaraq çap edilməsinə nail oldu. Bunlara misal olaraq 1969-cu ildə çap olunmuş Ə.A.Hüseynovun 2 cildən ibarət «Fizioterapiya» dərsliyini, K.Ə.Balakişiyevin 40–50-ci illərdə çap edilmiş «İnsanın normal anatomiyası» (3 cilddə) dərsliyinin 1971–1981-ci illərdə təkrar nəşr edilməsini, akad J.Y.Hüseynovun 1979-cu ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüş 2 cildlik «Patoloji anatomiya» dərsliyini, Azərbaycan EA-nın müxbir üzvü A.S.Həsənovun 1974-cü ildə çap olunmuş «Bioloji kimya» dərsliyini göstərmək olar.

Heydər Əliyev belə bir həyati həqiqətə söykənirdi ki, səhiyyə kadrlarının hazırlanmasına yüksəkixtisaslı elmi qüvvələrin cəlb edilməsi daha səmərəli nəticə verir. Bu mənada istər ATİ-də, istərsə də Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda və Tibbi elmi tədqiqat Institutlarında elmi tədqiqat göstəriciləri daha uğurlu idi. İnstitutun alimləri kliniki və eksperimental təbabətin bir çox vacib, mühüm və geniş problemləri ilə məşğul olurdular. Bu illərdə, əsasən,

kafedralarda aparılan elmi tədqiqat işlərinin əsasını Azərbaycan SSR səhiyyəsinin bir sıra aktual nəzəri və kliniki problemlərinin tədqiqi təşkil edirdi.

XX əsrin 60-cı illərində akad. A.İ.Qarayevin, Azərbaycan EA-nın müxbir üzvü Z.M.Məmmədovun, professorlar M.E.Əfəndiyevin, A.T.Sadıqovun, T.Q.Paşayevin, Ə.A.Həsənovun, İ.S.Ginzburqun, H.B.Allahverdibəyovun və b. apardıqları kliniki və təcrübi işlər nəticəsində Azərbaycan SSR-in kurort-balneoloji ehtiyatlarının, Kəlbəcər İstisu mineral sularının müxtəlif orqanlara müalicəvi təsiri, Naftalan neftinin effektli müalicə vasitəsi olması tədqiq edilib öyrənilmiş və təcrübədə xəstələrə tətbiq olunmuşdu. Terapiya, fiziologiya, farmakologiya, ümumi gigiyena, dəri xəstəlikləri kafedralarının üzvləri Darzıdaq mışyak sularının təsirini öyrənmiş, Badamlı və Sirab mineral sularını, xüsusilə Şuşa şəhəri ərazisində Turşsuyun müalicəvi əhəmiyyətini müəyyən etmişdilər.

60-cı illərin sonu – 70-ci illərin əvvəllərində institutun praktik səhiyyə ilə bağlı olan nəzəri kafedralarında yaş anatomiyası, periferiya əsəb sistemi məsələləri, (professorlar K.Ə.Balakişiyeva, A.İ.Ballenkaya), kallateral qan dövranının (Azərbaycan EA-nın müxbir üzvü Ə.S.Həsənov) orqanizmə təsiri, aşağı çənə sümüyünün topoqrafik annotasiyası (prof. P.R.Qurbanov), xərçəngin meydana gəlməsində vegetativ xətt sisteminin rolu (prof. M.S.Milman), oksigen reduksiya mübarizəsi və onun müxtəlif amillərə təsiri (prof. M.M.Mirsəlimov), patomorfoloji reseptorların və sinansların quruluşu və funksiyaları (akad. J.Y.Hüseynov), mədəaltı vəzin fiziologigeniyası (prof. S.R.Ocaqverdizadə), bağırsaq iltihabının öyrənilməsi (professorlar T.A.Tağızadə və M.H.Səfərəlibəyov), traxoma, göz zədəsi və göz xəstəlikləri ilə mübarizə (Azərbaycan SSR EA-nın müxbir üzvü Ü.S.Musabəyli, professorlar B.D.Məmmədov, Q.K.Kambay, Z.T.Quliyeva) tədqiqatlar aparmışdılar.

Səhiyyənin əsas problemlərindən olan ürək-damar xəstəlikləri, onun patologiyasını öyrənən terapevtika kafedraları, xüsusən akad. C.M.Abdullayevin və prof. H.M.İsazadənin rəhbərliyi altında hospital terapiya kafedrasının əməkdaşları ürək-damar sisteminin patologiyası və farmaterapiyası [214, 81] və ürək xəstəlikləri problemləri sahəsində ciddi tədqiqatlar aparırdılar.

Odlu silahdan yaranmış və rezitual nəticələrin aradan qaldırılmasına professorlar B.M.Mahmudbəyov, A.N.Tahirov, dos.M.M.Əminbəyovun işləri həsr olunmuşdu.

70-ci illərdə fiziologiyanın və klinikada ayrı-ayrı xəstəliklərin öyrənilməsi və təcrübədə tətbiqi ilə professorlar A.V.Feyzullayev, S.R.Ocaqverdizadə, M.K. Mustafayev, Q.M.Qəhrəmanovun tədqiqatları mühüm elmi əhəmiyyət kəsb edirdi.

Endemik zob, onun cərrahi müalicəsi, daxili xəstəliklərin terapiyası problemləri professorlar Z.M.Məmmədov və İ.M.Orucov tərəfindən, habelə terapiya kafedrasının əməkdaşları prof. S.M.Salihovun rəhbərliyi ilə bir qrup alim tərəfindən araşdırılırdı. 70-ci illərdə hospital cərrahiyyəsi sahəsində akad. A.Ə.Namazova ilk dəfə yeni doğulanların patoloji klinikasını təşkil etmişdi. Bu dövrdə Azərbaycan SSR EA-nın müxbir üzvü R.A.Babaxanovun rəhbərliyi ilə ümumi və bioloji kimya kafedrasının əməkdaşları yeni bioloji aktib birləşmələrin sintezini işləyib həyata keçirmişdilər. Gigiyena profilli kafedraların əməkdaşları professorlar B.A.Şextmanın, İ.H.Səmədovun, Ə.M.Məmmədovun, M.Q.Kərimovanın, dosentlər N.D.Bağırovun, Ə.S.Qurbanovun, S.Q.Əhmədovun, S.H.Əliyevin, V.A.Əliyevin, Z.A.Kərimovun, S.A.Əhmədovun və b. ciddi araşdırmaları zehni əmək, peşə xəstəlikləri, sağlamlığın mühafizəsi, hava atmosferinin gigiyenası kimi problemlərə həsr edilmişdi.

Respublikada böyrək daşı xəstəliklərinin geniş yayıldığını nəzərə alan urologiya kafedrasının professoru S.B.İmamverdiyev görkəmli tibb alimi, prof. M.D.Knyazyevlə birlikdə «İkitərəfli böyrək arteriyalarının zədələnməsinin vazorenal hipertoniyasının cərrahiyyəsi» monoqrafiyasında (1979) bu cərrahiyyədə tətbiq edilən metodun diaqnostik təsnifatını vermiş və proqnostik əhəmiyyətini göstərmişdilər.

70-ci illərdə institutda səhiyyə müəssisəsinin tələbinə müvafiq olaraq elmi tədqiqat işləri, xüsusilə geniş vüsət almışdı. Bu dövrdə ölkədə infeksion xəstəliklərə qarşı aparılan profilaktik tədbirlərlə və əhalinin maddi rifahının yaxşılaşması ilə əlaqədar olaraq dünyanın bir sıra ölkələrində olduğu kimi, Azərbaycan SSR-də də orta ömür müddəti xeyli azalmış, ölüm və əlilliyə səbəb olan xəstələnmə halları arasında ürək-damar sistemi patologiyası və şiş xəstəlikləri ön plana

keçmişdi. Bununla əlaqədar olaraq, həmin xəstəliklərin öyrənilməsi tibb elminin əsas probleminə çevrilmişdi.

70–80-ci illərdə respublikada aparılan elmi tədqiqatların əsas istiqamətləri aşağıdakılardan ibarət olmuşdu: morfoloji elmlər kafedralarında bəzi periferik sinirlərin strukturunun yaş xüsusiyyətləri, uşaq orqanizminin anatomik xüsusiyyətləri, insan dərisində epitel hüceyrələrin histokimyəvi xüsusiyyətlərinin embriogenezin mərhələlərindən asılılığı, periferik reseptorlarda neyronlararası sinapslarda və sinir-toxuma terminallarında müxtəlif patoloji proseslər zamanı yaranan dəyişikliklərin kompensasiya-uyğunlaşma proseslərinin intensivliyindən asılılığı kimi elmi problemlər üzrə tədqiqat aparılmışdır.

Tibbi biologiya kafedrasında müxtəlif vəhşi heyvanların sümük sisteminin morfogenezi və vaskulyarizasiya xüsusiyyətləri öyrənilmiş, əvvəllər başlanmış paleobioloji tədqiqatlar davam etdirilmişdi. Gigiyenik elmlər sahəsində kənd təsərrüfatında istifadə edilən pestisidlərin insan sağlamlığına təsiri, bir sıra kimyəvi amillərin uşaq və yeniyetmə orqanizminə təsirinin öyrənilməsi sahəsində tədqiqat aparılmış, Azərbaycan SSR-in ölkə patologiyası üçün səciyyəvi olan tropik xəstəliklərinin epidemiologiyası tədqiq edilmişdir. Əczaçı alimlər tərəfindən Azərbaycan florasına daxil olan bir sıra dərman bitkilərinin farmakoloji keyfiyyətləri öyrənilmişdir.

Respublika alimlərinin elmi tədqiqatları klinisist ürək-damar sistemi xəstəliklərinin patogenetik müalicə vasitələrinin araşdırılmasına, şəkərli diabet xəstəliyinin ağırlaşmalarının profilaktikasına, allergik dermatozların müalicəsinə, uşaqlarda ağciyər xəstəliklərinin və allergik proseslərin müalicə və profilaktikasına, revmatizmin müalicə və profilaktikasına yönəlmişdir. Həmçinin nevropatoloq-alimlər neyroinfeksiyalar zamanı sinir sistemi funksiyasında baş verən dəyişikliklərin dinamikasını, uşaqlarda baş-beyin hipoksiyası ilə əlaqədar yaranan dəyişikliklərin klinikasını və müalicə perspektivlərini tədqiq etmişdilər.

Həkim psixiatrlar şizofreniya xəstəliyi zamanı immunoloji statusun dəyişməsini, cərrahlar öddaşı xəstəliyinin klinikası, diaqnostikası və cərrahi müalicəsinin yeni üsullarını, damar travmalarının müalicəsini, uşaqlarda diafraqmal yırtıqların müalicə perspektivlərini öyrənmişdilər. 70–80-ci illərin əvvəllərində oftalmoloqların apardıqları

tədqiqatlar sayəsində görmə orqanının fiziologiyasına və patologiyasına dair yeni məlumatlar əldə edilmişdi [422, 243].

Səhiyyənin müxtəlif sahələrdə çalışan həkim-alimlərin tibbi praktikanın tələblərinə müvafiq apardıqları araşdırmaların coğrafiyası qısaca sərhəddən qorunduğu kimi, çox geniş olmuşdur. Bu tədqiqatları respublika səhiyyəsinin maraqları ətrafında təmərküzləşdirən isə milli liderin yenilməz iradəsi olmuşdur.

Respublikanın elmi yaradıcı həkimləri xarici həmkarları ilə əməkdaşlıq nəticəsində bir sıra aktual problemlərin həlli sahəsində mühüm xidmətlər göstərmişdilər. Yalnız 1970-ci illərdə alimlərimiz xarici həmkarları ilə birlikdə 33 ixtira etmiş, 141 səmərələşdirici təklif irəli sürmüşdülər [422, 28].

Klinik tələbata uyğun olaraq həkimlərin ixtisaslarının təkmilləşdirilməsi vacib bir məsələ kimi Heydər Əliyevin səhiyyə siyasətinin mühüm bir hissəsini təşkil etmişdir. Belə bir vacib missiyanı Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu həyata keçirmişdir. 1962-ci ildə instituta görkəmli partiya və dövlət xadimi, Azərbaycan SSR səhiyyəsinin və təbabətinin sovet dövrü təşkilatçılarından biri olan Əziz Məmmədkərim oğlu Əliyevin vəfatından sonra onun adı verilmişdir. İnstitutun həyatında yeni mərhələ 60-cı illərin sonunda Heydər Əliyevin Azərbaycan SSR-də siyasi hakimiyyətə gəlməsi ilə sıx surətdə bağlıdır. ADHTİ Sovetlər Birliyi tərkibində olan respublikaların tələbat və sifarişlərini də nəzərə almaqla, həkimlərin ixtisaslarının kamilləşməsində yaxından iştirak etməyə başlamışdı. İnstituta həmişə məşhur səhiyyə xadimləri rəhbərlik etmişdir. Belə ki, Əziz Əliyevin 1962-ci ildə vəfatından sonra instituta rəhbərlik əvvəlcə tibb elmləri doktorları professorlar Böyükkişi Ağayev və Heybət Abdullayevə, 1975-ci ildən isə Heydər Əliyevin xeyir-duası ilə Azərbaycan uralogiya məktəbinin yaradıcısı, akad. M.C.Cavadzadəyə həvalə edilmişdi. O, ADHTİ-də istedadlı gənc elmi qüvvələrin toplanmasına xüsusi diqqət yetirmişdi. Bu illərdə institutun fəaliyyətindəki qüsurları aradan qaldırmaq məqsədilə yeni rəhbərlik ADHTİ-nin elmi və tədris fəaliyyəti istiqamətində ciddi dəyişikliklər etmişdi [422, 12]. İnstitutda tədris prosesinin keyfiyyəti və səmərəsi əsas götürülərək yeni formalar və təkmilləşmiş metodlar geniş istifadə olunmağa başlanılmış, təhsil proqramları müasirləşdirilmiş və praktik yönüm gücləndirilmiş, ma-

terialların mənimsənilməsinə nəzarət testlərin köməyi ilə aparılmışdı. Rektorluğun bilavasitə istifadə etdiyi və hamıya tövsiyə etdiyi əsas prinsip «tədqiqat, tədris və tətbiq» prinsipi idi. Bu isə, ilk növbədə, elmi araşdırmaların 70-ci illərin ortalarından etibarən artırılmasını və tədris prosesinin şəxsi təcrübə əsasında qurulmasını tələb edirdi. Heydər Əliyevin qayğısı nəticəsində institutun maddi-texniki bazası daha da möhkəmlənərək, akad. M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının ərazisində instituta yeni bina verildi. Orada rektorluq, kitabxana, mərkəzi elmi tədqiqat laboratoriyası, səhiyyənin təşkili və ictimai gigiyena kafedrası, rentgenologiya, genetika və immunologiya, II terapiya, nevrologiya, klinik laborator diaqnostika kafedraları yerləşdirildi [401, 213]. 1980-ci ildə çoxmərtəbəli mehmanxana tipli yataqxana tikilərək istifadəyə verilmişdi. İnstitutda 1980-ci ildə 30 kafedra, mərkəzi elmi tədqiqat laboratoriyası, kitabxana, müdavimlər üçün 450 yerlik mehmanxana tipli yataqxana və 130 çarpayılıq müalicə-məsləhət diaqnostik cərrahiyyə mərkəzi fəaliyyət göstərirdi. Bundan əlavə, respublikanın iri xəstəxanaları: Respublika Uroloji Xəstəxanası, akad. M.Mirqasımov adına Respublika Klinik Xəstəxanası, Respublika Onkologiya Mərkəzi, Respublika Diaqnostika Mərkəzi, Bakı şəhər 3 nömrəli Klinik Xəstəxanası, bir neçə dispanser, uşaq xəstəxanaları və poliklinikaları institutun tədris bazası funksiyasını yerinə yetirirdi.

Bu tədris və təcrübə müəssisəsinin cərrahiyyə, terapiya və tibbi profilaktika fakültələrində 50-dən çox ixtisas üzrə təkmilləşmə və ixtisasartırma işləri aparılmış, orta hesabla hər il üç mindən çox həkim ixtisasını artırmışdı.

1975-ci ildən institutda səyyar kurslar təşkil olunmuş, çoxsaylı səyyar kurslar keçirilmişdir. Eyni zamanda hər il səhiyyə orqanlarının və kafedraların praktik həkimləri və provizorları üçün seminarlar təşkil edilmişdi [401, 233]. Praktik səhiyyə üçün yüksək səviyyəli mütəxəssislər hazırlamaq məqsədilə 1972-ci ildə institutda ikiillik ordinatura da yaradılmışdır.

İnstitutun əsas fəaliyyəti istiqaməti xəstəliklərin profilaktikasına yönəldilmişdir. Elmi tədqiqatlar «Azərbaycan əhalisinin sağlamlığının möhkəmləndirilməsinin regional problemləri» yönümündə aparılmışdır. Bu istiqamətdə, əsasən, xroniki xəstəliklərin epidemiologiyası, diaqnostikası və müalicəsinin təkmilləşdirilməsi üzərində iş aparılmış,

iri sənaye şəhərlərinin ekologiyası öyrənilmiş və sanoekoloji monitorinqlər həyata keçirilmişdir.

ADHTİ-nin elmi-nəzəri və əməli təbabət sahəsindəki uğurları onu SSRİ və beynəlxalq səhiyyədə keçirilən tədbirlərin mərkəzinə çevirmişdi. Bu sahədə Heydər Əliyevin mütəmadi olaraq göstərdiyi qayğı özünü hər zaman büruzə verirdi. Nefroloqların 3-cü Ümumittifaq plenumu (1976-cı il), transplantoloqların Ümumittifaq konfransı (1979-cu il), nefroloqların 2-ci Ümumittifaq qurultayı (1980-ci il), həkim və əczaçıların diplomdansonrakı təhsili sisteminin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə Ümumittifaq yığıncaq (1982-ci il) və s. belə bir qayğının nəticəsində baş tutmuşdu.

İnstitutun yüksəkixtisaslı mütəxəssisləri səhiyyə orqanlarının, attestasiya komissiyalarının işində, xəstələrin müayinəsində, seminarların təşkilində, metodiki və təşkilati yığıncaqların keçirilməsində yaxından iştirak etmişdilər. Hər il institutun mütəxəssisləri tərəfindən 20 mindən çox xəstə müayinədən keçirilmiş və lazımi həkim məsləhəti almışlar [401, 235].

Heydər Əliyevin göstərişləri sayəsində səhiyyə sisteminin orta ixtisaslı kadrlarla təmin edilməsində də sabit bir qayda formalaşdı. 1970-ci ildən 1982-ci ilədək fəaliyyət göstərən 9 tibb məktəbindən 3-ü - X.Rəfibəyli adına 2 saylı Bakı Tibb Məktəbi, Sumqayıt şəhər Tibb Məktəbi, Mingəçevir şəhər Tibb Məktəbi Heydər Əliyevin xeyir-duası ilə təşkil edilmişdi və hər il respublika səhiyyə müəssisələrinə təxminən 3000 nəfər [401, 213] orta ixtisaslı mütəxəssis hazırlayıb göndərirdi.

Aparılan uğurlu səhiyyə siyasətinin nəticəsində tibb müəssislərinin yenidən təşkili və iriləşdirilməsi hesabına onların sayında artım olmasa da (1960-cı ildə tibb müəssisələrinin sayı 625, 1970-ci ildə 779 idisə, artıq onların sayı azaldılaraq 1980-ci ildə 756-ya endirilmişdi) [401, 233], onların ali və orta ixtisaslı kadrlarla təchiz olunmasında ciddi irəliləyişlər əldə edilmişdi. Belə ki, 1960-cı ildə Azərbaycan SSR səhiyyəsində çalışan həkimlərin sayı 9400 nəfər idisə, bu rəqəm artaraq 1970-ci ildə 13100 nəfərə, 1980-ci ildə isə 20700 nəfərə çatmışdı. Həmin illərdə orta tibb personalının sayı müvafiq olaraq 26100, 39700, 52200 nəfər təşkil etmişdi [401, 233]. Bununla da əhalinin hər 10000 nəfərinə düşən həkimlərin sayı 1970-ci ildə olduğu 25 nəfərdən 1980-ci ilin so-

nunda 33,4 nəfərə, orta tibb işçilərinin sayı isə müvafiq olaraq 76,1 nəfərdən 84,3 nəfərə çatmışdı [401, 235].

İnsanların müalicəsi, profilaktikası və səmərəli dincəlməsi üçün nəzərdə tutulmuş sanatoriya və istirahət evləri də yenidən qurularaq əlverişli vəziyyətə gətirildi. Onların da sayı artırılaraq 99-dan (1970), 111-ə (1980) çatdırıldı [401, 235].

Görülən bütün bu nəhəng işlərə baxmayaraq, xəstəxana və poliklinikalarda əhaliyə göstərilən səhiyyə xidmətinin keyfiyyəti, sanitariya və gigiyenik tələblərin vəziyyəti siyasi lider kimi Heydər Əliyevi heç də həmişə razı salmırdı. Belə ki, 1976-cı il yanvar ayının 28-də səhiyyə işçiləri ilə görüşərkən etdiyi çıxışında respublika səhiyyə sistemində olan nöqsanları göstərərək: «Səhiyyə orqanlarının işində olan ciddi nöqsanlar hələ də tamamilə aradan qaldırılmamışdır. Bir çox xəstəxanalarda lazımi qayda-qanun yoxdur, tibbi mədəniyyətin səviyyəsi aşağıdır. Səhiyyə Nazirliyi zəhmətkeşlərin sağlamlığı sahəsində bütün işləri yaxşılaşdırmalıdır [237] – deyərək onların qısa müddət ərzində aradan qaldırılmasını tələb etmişdi.

Onun bu nöqsanlara kəskin tənqidi yanaşmasından sonra səhiyyə sahəsində yeni bir rezonans, canlanma yaranmışdı. Kadr hazırlığı, səhiyyə-sağlamlıq ocaqlarının bərpası və tikintisi sahəsində aparılan işlər yeni vüsət almış və mükəmməl bir məzmun keyfiyyəti kəsb etməyə başlamışdı. Məhz belə bir ciddi tənqidi münasibətin nəticəsi idi ki, 1972–1982-ci illərdə şəhər və rayonlarda fəaliyyət göstərən xəstəxana və poliklinikaların, dispanser və tibb məntəqələrinin 46,5 %-i yeni binalarla təmin edildi. Uroloji xəstəliklərdən əziyyət çəkən insanlar üçün klinik uroloji xəstəxana tikilib istifadəyə verildi. Neyrocərrahiyyə Mərkəzi, Diaqnostika Mərkəzi, Toksikoloji Mərkəz, Yanıq Mərkəzi, Əlillərin Reabilitasiya Mərkəzi və digər müasir tipli müəssisələr açıldı. Elmi tədqiqat Oftalmologiya, Elmi tədqiqat Onkologiya İnstitutları üçün yeni binaların inşasına başlandı.

Heydər Əliyev kadrların kəmiyyəti ilə yanaşı, onların keyfiyyət məsələsinə də diqqət yetirirdi. O, dəfələrlə bildirmişdi ki, insanların sağlamlığı ilə məşğul olan şəxslər səhv etməməlidirlər, belə səhvlər ağır cinayətə bərabər tutulmalıdır. O, ATİ-nin professor-müəllim heyəti və tələbələri ilə görüşündə bu fikri bir daha konkretləşdirərək söyləmişdi: «Sizin zay məhsul – biliksiz həkim buraxmağınız ağır

nəticələr verər. Cəmiyyət qarşısında məsuliyyət hər birimizdən tələb edir ki, son dərəcə səmərəli işləyəsiniz ki, hər bir məzununuz mütəxəssis olsun». Daha sonra o deyirdi: «Kadrların mühüm tərbiyə vasitəsi rəhbərin şəxsi nümunəsidir, həm də onun möhkəm ideya əqidəsidir, biliyidir, işgüzarlığıdır və aydın məqsədli olmasıdır, bir də «bilmək üçün oxuyun, bacarmaq üçün oxuyun, yaşatmaq üçün oxuyun, qəlbinizə və ruhunuza yaxın olan nə varsa, onların uğrunda mübarizə aparmaq üçün oxuyun». Bu dərin məntiq, zəngin bilik və həyat təcrübəsi ilə aşılanmış sözlər gələcək və mövcud mütəxəssislərin fəaliyyətinin proqram göstərişinə və leytmotivinə çevrildi.

Heydər Əliyevin möhkəm iradəsi ilə onun tənqid və iradlarından, tövsiyə və göstərişlərindən irəli gələn vəzifələr ən qısa zaman ərzində yerinə yetirilərək reallaşmağa başladı. Tarixi mənbələrin araşdırılmasından aydın olur ki, XX əsrin 70-ci illərinin əvvəllərində respublikanın iri şəhərlərinin gigiyenik və sanitar vəziyyət çox ağır vəziyyətdə idi. Vəziyyəti düzəltmək üçün müxtəlif yollar axtarıldı və nəhayət, qərara alındı ki, Bakı, Gəncə, Sumqayıt şəhərlərində gigiyenik və sanitar vəziyyəti, su hövzələrinin və Xəzər dənizinin sanitar mühafizəsi, neft-kimya sənayesi və digər sənaye sahələri işçilərinin əmək şəraiti, kənd təsərrüfatı avadanlıqlarının sanitar ekspertizası, peşə patologiyası və sənaye toksikologiyası, cərrahi, uroloji, yoluxucu xəstəliklərin müalicə-profilaktikası sahəsində qarşıya çıxan çətinlikləri aradan qaldırmaq, dərman qıtlığı problemini həll etmək, narkomaniya və alkoqolizmə qarşı mübarizənin səmərəliliyini artırmaq yolları müzakirə edilib, dövlət səviyyəsində müvafiq qərarlar çıxarılsın və tədbirlər görülsün. Belə də edildi. Gələcəkdə səhiyyənin bu və ya başqa profillərini dövlət səviyyəsində həll etmək Heydər Əliyevin sayəsində bir ənənəyə çevrildi.

Elmi tədqiqatların koordinasiyası və onların səmərəli tətbiqi kimi aktual məsələlər də daim Heydər Əliyevin diqqət mərkəzində idi. Belə aktual məsələlərin müzakirə olunması üçün elmi forumların keçirilməsi də bir qaydaya çevrilmişdi. Bu baxımdan, Heydər Əliyevin tövsiyələri ilə patofizioloqların 1970-ci ilin noyabrında Bakıda keçirilmiş Ümumittifaq qurultayı xüsusilə diqqətəlayiqdir. Çünki bir çox xarici ölkələrdən gəlmiş məşhur alimlərin iştirak etdiyi həmin qurultayda tibbin bu sahəsi ilə bağlı çox maraqlı elmi məruzələr edilmişdi.

Heydər Əliyev patofizioloqların dörd gün davam edən həmin qurultayına təbrik məktubu göndərib, onların işini alqışlamış və qurultay iştirakçılarının bir qrupunu qəbul etmişdir [137, v.58]. O, qurultayın müstəsna əhəmiyyətini qeyd etməklə, müzakirə edilmiş tibbi problemlə əlaqədar fikrini belə ümumiləşdirmişdir: «Səhiyyənin inkişafında patofiziologiya elmi mühüm rol oynayır. Xəstə orqanizmin funksional pozğunluqlarının ümumi qanunauyğunluqlarını öyrənmədən xəstəliklərin sirrini açmaq mümkün deyildir. Onun sirrini açmaq isə siz alimlərin üzərinə düşür. Güman edirəm ki, bu elmi forumda elmi problemlərlə bağlı çox gərəkli söhbətlər olmuşdur. Həmin elmi məruzələrlə, söhbətlərlə, çıxışlarla nəinki siz təkcə özünüzü, həm də patofiziologiya elmini zənginləşdirmisiniz [193, 163–164]. Bu deyilənlər bir siyasətçidən çox əsl həkim mütəxəssisin qənaətinə oxşayır. Heydər Əliyevin belə ciddi yanaşmasından sonra Azərbaycan SSR-də patofiziologiya sahəsində yeni elmi kadrlar yetişib formalaşdı.

SSRİ Səhiyyə naziri Y.Çazov 2–3 oktyabr tarixində kardioloqların Ümumittifaq Cəmiyyətinin plenumunun Bakıda keçirilməsi haqqında 1981-ci ilin may ayının sonlarında Heydər Əliyevə müraciət etdi. Heydər Əliyev yubatmadan nazirin müraciətini Azərbaycan KP MK Bürosunda müzakirəyə çıxartdı. Büro 1981-ci il iyun ayının 3-də həmin plenumun Bakıda keçirilməsi barədə qərar qəbul etməklə yanaşı, tədbirin təşkilati və maliyyə məsələlərinin operativ həlli üçün tapşırıqlar verdi. Plenum 1981-ci oktyabrın 2–3-də Bakı şəhərində keçirildi. Burada 250 kardioloq-həkim iştirak etdi ki, bunlardan 150 nəfəri xarici ölkələrdən dəvət olunmuş mütəxəssislər idi [171].

Elmi tərəqqinin istehsalla birləşməsi özlüyündə mühüm inkişaf göstəricilərini şərtləndirsə də, peşə xəstəliklərinin yaranmamasını istisna edə bilmirdi. Xüsusilə neft sənayesi sahəsində çalışan işçilərdə tez-tez allergiya və şiş xəstəlikləri özünü büruzə verirdi. Əvvəllər bu məsələyə o qədər ciddi yanaşılmasa da, 70-ci illərin əvvəllərindən başlayaraq bu problem də dövlət qayğısı ilə əhatələndi. Heydər Əliyevin bilavasitə tövsiyəsi ilə tibb alimləri Naftalan neftinin müvafiq xəstəliklərə bioloji təsirini öyrənməyə başladılar. Bununla yanaşı, insanların sağlamlığını və sabit iş qabiliyyətini qoruyub saxlamaq məqsədilə fəhlə və qulluqçular kütləvi dispanserizasiyaya cəlb edildilər. Beləliklə, respublikada profilaktik tədbirlərin həyata keçirilməsi

nəticəsində 1970–1980-ci illərdə peşə xəstəliyinin göstəricisi 26% aşağı düşdü. Respublika səhiyyəsinin bütün cəhətlərinə dərindən nüfuz etməyin nəticəsi idi ki, 1969-cu ildən 1982-ci ilədək elə bir il yoxdur ki, Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində bu sahəyə aid bir və ya bir neçə ciddi qərar qəbul edilməsin. Belə ki, 1975-ci ildə üç, 1978-ci ildə yenə səhiyyə sisteminin perspektivləri ilə bağlı üç tənqidi qərar qəbul edilmiş və tezliklə icrası təmin edilmişdi.

Tibbin ayrı-ayrı sahələri üzrə ixtisaslaşmış sahə həkimlərinin cəmiyyətdə önəmli rolunu nəzərə alan Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1982-ci ilin oktyabr ayının 23–24-də SSRİ-də ilk dəfə olaraq onların qurultayı keçirildi. Ölkə başçısı iki gün davam edən qurultayın işində yaxından iştirak edərək həkimləri böyük diqqətlə dinləmiş, sonra çıxış edərək sahə həkimlərinin problemlərinə toxunmuş, bu sahədə mövcud olan pozuntuları, həkimə yaraşmayan hərəkətləri, Hippokrat andına dönüklük hallarını, səhlənkarlığı tənqid etmişdir. Bununla yanaşı, sahə həkimlərinin xidmətlərini də yüksək qiymətləndirmişdir: «Sahə həkimlərini sadə adamlarla çox-çox tellər bağlayır. Həkimin ürək hərarəti ilə isidilən və peşə ustalığı ilə dolğunlaşan bu əlaqələrdə xidmət borcunu xəstələrə şəxsi mehribanlıqdan ayırmaq mümkün deyildir [242].

Nöqsanları necə sərt tənqid edirdisə, tərifəlayiq olanları mükafatlandırmaq da onun rəhbər fəaliyyətinin başlıca prinsiplərindən idi. O, həmişə elm, incəsənət və tibb işçilərinə xüsusi bir qayğı ilə yanaşır və onların ən yaxşılarının əməyini yüksək qiymətləndirirdi. Səhiyyə tarixində ilk dəfə 4 nəfər alim-həkimin: görkəmli alim Mustafa bəy Topçubaşovun, tanınmış tibb işçiləri Böyükxanım Əliyevanın, Zəhra Qazıyevanın, Şamama Ələsgərovanın [193, 166] ən yüksək mükafata – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməsi Heydər Əliyevin qayğısı və səyi nəticəsində mümkün olmuşdu. Bunlarla yanaşı, çoxsaylı həkimlərə «xalq həkimi», «əməkdar həkim», «əməkdar səhiyyə işçisi», «səhiyyə əlaçısı» fəxri adlar verilmişdi. Göstərilən bu qayğı həkimləri daxilən daha ciddi surətdə səfərbər etməklə yanaşı, onları insanların sağlamlığı keşiyində daha sayıq dayanmağa ruhlandırırdı.

Heydər Əliyevin şəxsi təşəbbüsü və iştirakı ilə məşhur səhiyyə xadimlərinin və tibb müəssisələrinin yubileylərinin dövlət səviyyəsində, ümumxalq bayramı kimi təntənəli surətdə keçirilməsi də böyük

mənəvi və elmi əhəmiyyət kəsb edirdi. Nəriman Nərimanovun, Mirəsədulla Mirqasımovun, Vəli Axundovun, Əziz Əliyevin, Mustafa bəy Topçubaşovun yubileyləri, həmçinin Azərbaycan Elmi tədqiqat Virusologiya, Mikrobiologiya, Epidemiologiya və Gigiyena İnstitutunun, «Azərbaycan tibb jurnalının», Elmi tədqiqat Ana və Uşaqları Mühafizə İnstitutunun, «Naftalan» sanatoriyasının, Elmi tədqiqat Parazitologiya və Tropik Təbabət İnstitutunun yubileylərinin keçirilməsi bu qəbildən olmuşdur.

Ümumiyyətlə, Heydər Əliyevin səhiyyə sahəsində gördüyü işlər o qədər möhtəşəmdir ki, yalnız onların adını çəkmək sanballı bir kitab həcminə material ola bilərdi. Məhz Heydər Əliyevin düşünülmüş, elmi əsaslara söykənən səhiyyə siyasəti Azərbaycan səhiyyəsini dünya səhiyyəsi səviyyəsinə qaldırmağın əsasını qoydu.

5.4. Sosial strukturda dəyişikliklər. Demoqrafik inkişaf

XX əsrin 70–80-ci illərində Heydər Əliyevin nəhəng dövlətçilik fəaliyyəti nəticəsində respublikada sənaye, kənd təsərrüfatı, əsaslı tikinti, nəqliyyat, rabitə və digər sahələrdə sürətli inkişaf xəttinin həyata keçirilməsi, aparılan məqsədyönlü təşkilati işlər, Azərbaycan SSR-in iqtisadi sahədə uğurları əhalinin güzəranının yaxşılaşdırılmasına, sosial strukturda əsaslı dəyişikliklərə gətirib çıxardı. Respublika iqtisadiyyatının tərəqqisi, bir tərəfdən, əhalinin sosial strukturunda müsbət meyillərin formalaşmasına, bütün sosial təbəqələrin təhsil, peşə və mədəni səviyyələrinin durmadan yüksəlməsinə, mənəvi aləminin zənginləşməsinə, digər tərəfdən isə sovet cəmiyyətində özünü göstərməkdə olan kəskin demoqrafik problemlərin uğurla həll edilməsinə şərait yaratdı.

İttifaqın bəzi respublikalarından fərqli olaraq, Azərbaycan SSR-in demoqrafik şəraitində müsbət kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verirdi. Respublika əhalisinin sayının sürətlə artması demoqrafik struktura təsir edən əsas amillərdən biri idi. Respublika əmək ehtiyatlarının və bütövlükdə, əhalinin sürətlə artdığı çox az respublikalardan biri sayılırdı.

Belə ki, əgər 1970–1979-cu illəri əhatə edən iki əhali siyahıyaalınması dövründə SSRİ-də əhalinin sayı cəmi 9 faiz artmışdısa, Azərbaycan SSR-də bu göstərici 1,8 dəfə çox – 15,1 % olmuşdu. Statistika məlumatlarına görə, 1959-cu ildə əhalinin sayı 3698 min, 1970-ci ildə 5117 min, 1980-ci ildə 6112 min, 1982-ci ildə isə 6303 min nəfərə çatmışdı. Əhalinin 1979-cu il Ümumittifaq siyahıyaalınmasına görə, qadınlar əhalinin 51 %-ni təşkil etmiş (3089 min nəfər) və bu göstərici 1970–1983-cü illər ərzində sabit qalmışdı [399, 29].

Statistik rəqəmlərin təhlili göstərir ki, həmin dövrdə Azərbaycan SSR-də əhalinin təbii artımı orta İttifaq göstəricisindən 2,2 dəfə, o cümlədən RSFSR-dən 3,6 dəfə, Ukrayna SSR-dən 5 dəfə, Latviya SSR-dən 18,1 dəfə çox olmuşdu. 1979-cu ildə hər 1000 nəfərə düşən ölüm sayı İttifaq göstəricisindən 29,3 % aşağı idi. 1970-ci ildə əhalinin 50 %-i, 1980-ci ildə isə 53%-i şəhərlərdə yaşayırdı. Bu o demək idi ki, 10 il ərzində əhali artımı 1 milyon nəfəri ötmüşdü. Bunun başlıca səbəbi doğum səviyyəsinin və təbii artım göstəricilərinin daha yüksək, ölüm səviyyəsinin isə xeyli aşağı olması idi. Məsələn, əgər İttifaq üzrə əhalinin hər 1000 nəfərinə düşən doğumun sayı 18,2, təbii artım isə 8,1 nəfər təşkil etmişdisə, respublikada bu göstəricilər müvafiq olaraq 25,2 və 18,4 nəfər olmuşdu. Əgər 1970-ci ildə respublikada 151 min uşaq doğulmuşdusa, 1980-ci ildə bu göstərici 155 min, 1882-ci ildə 160,4 min nəfər olmuşdu ki, onlardan da 60,8 min nəfəri ailənin üçüncü uşağı idi.

Doğumun azalmasının başlıca səbəbi iqtisadiyyatda olan dəyişikliklər, elmi-texniki tərəqqinin həyata keçirilməsi, yüz minlərlə qadının ictimai əməyə cəlb edilməsi, əhalinin maddi və mədəni səviyyəsinin yüksəlməsi idi. Digər bir səbəb şəhər əhalisinin xüsusi çəkisinin artması olmuşdur. Doğum səviyyəsinə təsir edən mühüm amillərdən biri də əhalinin nikah səviyyəsi idi. Bu səviyyə uzun illər ərzində dəyişikliklərə məruz qalmışdı. Məsələn, 1959-cu ildə Azərbaycan SSR-də hər 1000 nəfərə düşən nikah bağlama əmsalı 12,8 nəfərdən 1970-ci ildə 6,7 nəfərə düşmüş, lakin 1980-ci ildə 9,8 nəfərə yüksəlmişdi. Nikahların pozulmasının aşağı əmsalına görə də Azərbaycan SSR İttifaq miqyasında öndə gedirdi. Hər 1000 nəfərə düşən boşanmalar SSRİ üzrə 3,5 olduğu halda, Azərbaycan SSR üzrə 1,2 idi [381, 16, 29; 410, 252].

Azərbaycan SSR əhalinin ölüm səviyyəsinin aşağı, uzunömürlülüyün yüksək olması ilə fərqlənirdi. Məsələn, 1960–1978-ci illərdə hər 1000 nəfərə düşən ölüm halları 6,7 nəfər olmaqla, sabit qalmış, təbii artım isə 1960-cı ildə 35,9 nəfər, 1970-ci ildə 22,5 nəfər, 1978-ci ildə isə 18,2 nəfər olmuşdu. Azərbaycan SSR doğumun səviyyəsinə görə Orta Asiya respublikalarından sonra İttifaq miqyasında beşinci yeri tuturdu.

Əhalinin təbii artımında baş verən azalma meyli, bütövlükdə, doğum səviyyəsinin aşağı düşməsi meyli ilə əlaqədar idi. Bu göstərici üzrə Azərbaycan SSR 15 müttəfiq respublika içərisində 5-ci yeri tuturdu [402, 24–25].

Respublikada uşaq ölümünün qarşısının alınması ilə ciddi mübarizə aparılırdı. Uşaq ölümünə qarşı görülən tibbi-profilaktik tədbirlər müsbət səmərə vermişdi: 1959–1979-cu illərin əhalinin siyahıyaalınması dövründə bu göstərici 1,5 dəfə aşağı düşmüşdü. Uşaqları bağırsaq, dizenteriya, qızılca, difteriya kimi xəstəliklərdən mühafizə etməklə, ölüm hallarının sayı azaldılmışdı [389, 60].

Bununla yanaşı, uşaqlar arasında bədbəxt hadisələrə, zəhərlənmələrə, maddələr mübadiləsinin pozulması və endokrin sistemi xəstəliklərinə görə ölüm hallarının artması narahatlıq doğururdu. Digər tərəfdən, 1979-cu ilə aid məlumatlara görə, hər 10 min nəfər diri doğulan uşaq arasında ölüm halları kənd yerlərində şəhər yerlərinə nisbətən 22,6 % çox olmuşdu. Kənd yerlərində ana və uşaqların sağlamlığının gücləndirilməsi, səhiyyə-sağlamlıq müəssisələri şəbəkəsinin genişləndirilməsi və onların tibb kadrları ilə təmin edilməsi tələb olunurdu. Bütün bunlar Azərbaycan SSR-in yeni demoqrafik şəraitə keçməsinə şərait yaratmalı idi.

Respublikanın demoqrafik inkişaf göstəricilərində baş verən mühüm dəyişikliklər əmək potensialının formalaşması və artımına əhəmiyyətli təsirini göstərmişdi.

Əmək ehtiyatlarının daha sürətlə artdığı regionlarda demoqrafik inkişafın xüsusiyyətləri, əhalinin təbii təkrar istehsal səviyyəsi və onun dəyişilməsi meyilləri nəzərə alınmalı idi. Əmək ehtiyatlarının, xüsusən qadın əmək ehtiyatlarının səmərəli məşğuliyyətinin təmin edilməsi fərqli və düşünülmüş demoqrafik siyasət yeridilməsi əsasında mümkün ola bilərdi.

Heydər Əliyev demoqrafik siyasətin uğurunu işləyən əhalinin təhsil və peşə səviyyəsinin yüksəldilməsi ilə sosial-məişət şəraitinin yaxşılaşdırılması arasında üzvi əlaqədə olmasında görür və bu məsələlərin həllini təxirəsalınmaz vəzifə hesab edirdi. Onun tapşırığı ilə yüksəkixtisaslı milli qadın kadrların hazırlanması və onların ictimai istehsala cəlb edilməsi üçün məqsədyönlü iş görülürdü. Həyata keçirilən kompleks sosial-iqtisadi tədbirlər gözlənilən nəticəni verirdi. 1967–1977-ci illərdə xalq təsərrüfatında çalışan azərbaycanlıların ümumi say tərkibində qadınların xüsusi çəkisi 33,9% 40, 3 %-ə, o cümlədən sənayedə 30,4 % 39,7 faizə, rabitə sahəsində 28,4 %-dən 32 %-ə, ticarətdə 33 %-dən 48,6 %-ə, ictimai iaşədə 34 %-dən 44 %-ə, mənzil-kommunal təsərrüfatı və əhaliyə məişət xidməti sahəsində 29,5 %-dən 42,5 %-ə , elm və elmi xidmət sahəsində 30,8 %-dən 40,4%-ə, dövlət, kooperativ və ictimai təşkilatların idarəetmə aparatında 28,7 %-dən 39,1 %-ə yüksəlmişdi [410, 264–265].

Demoqrafik inkişaf göstəricilərinin təhlilindən bu nəticəyə gəlmək olar ki, xalq təsərrüfatı sahələrinin sürətli inkişafı və bu sahələrdə məşğul olanların sayının artması, bütünlükdə, əhalinin məşğulluq səviyyəsini yüksəltməyə imkan vermişdi.

Bu illər ərzində əməkqabiliyyətli əhalinin sürətlə artması kimi demoqrafik problemin həlli iqtisadiyyatın inkişaf etdirilməsindən asılı idi. Bu dövrdə respublikanın iqtisadiyyatında, o cümlədən onun aparıcı sahəsi olan sənayenin quruluşunda mühüm dəyişikliklər oldu. Yeni, müasir sənaye sahələrinin inkişafı ilə yanaşı, kənd təsərrüfatının ixtisaslaşdırılması və təmərküzləşməsi, aqrar-sənaye birlikləri və müəssisələri yaradılması sahəsində də irəliləyiş baş verdi.

Pambıqçılıq və üzümçülük kimi yüksək əməktutumlu sahələrin inkişaf etdirilməsi hesabına kənd təsərrüfatı istehsalının quruluşu dəyişilmiş və əsas istehsal göstəriciləri xeyli yüksəlmişdi. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev 1970-ci illərin ortalarında bununla əlaqədar respublika sənayesinin inkişaf perspektivləri haqqında Sov. İKP MK-ya müraciət etdi. Moskvada bu təşəbbüs bəyənildi və 1976-cı il iyulun 27-də xüsusi qərar qəbul edildi. Qərarda respublikada yeni, perspektivli sənaye sahələri yaradılması, texniki tərəqqini müəyyən edən sahələrin sürətlə inkişaf etdirilməsi, ən qabaqcıl və müasir texnika və texnologiya ilə təchiz edilmiş müəssisələr tikilməsi nəzərdə tutu-

lurdu. Azərbaycan KP MK-nın oktyabrın 18-də keçirilmiş plenumunda həmin qərar geniş müzakirə edildi. Plenumda 14 yeni elektrotexnika, cihazqayırma, elektron, radiotexnika, maşınqayırma sənayesi sahəsinə aid müəssisələrin tikintisi, habelə mövcud istehsal obyektlərinin genişləndirilməsi və yenidən qurulmasının mühüm sosial-iqtisadi əhəmiyyəti vurğulandı. Bildirildi ki, qərarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi respublika sənayesinin sahə strukturunda və yerləşməsində əsaslı dəyişikliklərə gətirib çıxarmaqla bərabər, istehsal prosesinə sərbəst əmək ehtiyatlarının cəlb edilməsinə imkan verməlidir [41, 6].

Heydər Əliyevin yüksək təşkilatçılıq məharəti və tələbkarlığı sayəsində qarşıya qoyulan vəzifələr vaxtında həyata keçirildi. Bakıda, Sumqayıt, Gəncə, Naxçıvan və digər şəhərlərdə böyük sayda işçi qüvvəsi tələb olunan yeni sənaye müəssisələri yaradıldı. Bu, bir daha göstərdi ki, əhalinin məşğulluğu problemi iri sənaye obyektlərinin, aqrar-sənaye komplekslərinin inkişaf etdirilməsi yolu ilə reallaşa bilər.

Heydər Əliyev böyük uzaqgörənliklə Azərbaycan SSR-də demoqrafik dəyişikliklər prosesinin idarə edilməsini və arzu olunan istiqamətə yönəldilməsini son dərəcə zəruri hesab edirdi. O, dövlət səviyyəsində ilk dəfə olaraq, məhz bu amili nəzərə alaraq deyirdi: «Söhbət respublikada ictimai istehsalda çalışmayan əməkqabiliyyətli əhalinin xüsusi çəkisi yüksək olduğundan, bu əhalinin çevik hissəsinin, xüsusən cavan oğlanların işləmək üçün, əsasən, Bakı şəhərinə getmək istədiyindən, ayrı-ayrı zonaların və rayonların iqtisadi inkişaf səviyyələrini planauyğun şəkildə bərabərləşdirməkdən gedir. Başqa çətinliklərlə yanaşı, bu, gələcəkdə əhalinin artması üçün demoqrafik çətinliklər yaradır. Respublikanın şəhərlərində yeni istehsalatların və ya istehsal kooperasiyası ilə bir-birinə bağlı olan ərazi-istehsal komplekslərinin inkişaf etdirilməsi çox vacibdir. Kənd rayonlarında iri müəssisələrin filiallarının yaradılması da az əhəmiyyətə malik deyildir. Bu tədbir də əhalinin işlə təmin olunması strukturunu yaxşılaşdırar» [7, 128].

Heydər Əliyev bu fikirləri söyləyərkən nəzərə alırdı ki, Azərbaycan SSR SSRİ-nin uzun illərdən bəri əmək ehtiyatlarının ən sürətlə çoxaldığı regionlardan biri kimi fərqlənir və əmək ehtiyatlarının artımı, bir qayda olaraq, həmişə iş yerlərinin artımını üstələyirdi. Ümummilli liderin Azərbaycan cəmiyyətinin sosial inkişafının nəzəri və praktik

məsələləri haqqında fikirləri onun dövlətçilik irsinin mühüm hissəsini təşkil edir. Respublikanın demoqrafik inkişafının elmi cəhətdən əsaslandırılmış uzunmüddətli inkişaf konsepsiyasının hazırlanmasında Azərbaycan SSR rəhbərinin tövsiyə və tapşırıqları konkret olaraq aşağıdakı məsələləri ehtiva edirdi: 1) planlaşdırmada sosial-iqtisadi amillərin əmək ehtiyatlarının keyfiyyət və kəmiyyət tərkibi ilə düzgün əlaqələndirilməsi; 2) sənayenin yeni sahələrinin və sosial xidmət sahələrinin inkişaf perspektivləri ilə mövcud əmək ehtiyatları arasında nisbətin nəzərə alınması; 3) bütün istehsal sahələri üçün yüksəkixtisaslı mütəxəssis hazırlığının təkmilləşdirilməsi; 4) sənaye və tikinti müəssisələrində əməyin təşkilinin yaxşılaşdırılması, işçilərdə maddi və mənəvi marağın yüksəldilməsi; 5) bütün istehsal sahələrinin ixtisaslı və peşəkar kadrlarla möhkəmləndirilməsi və kadr axıcılığının qarşısının alınması; 6) aqrar sahədə istehsalın ixtisaslaşdırılması və təmərküzləşdirilməsinin kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərməsi; 7) kənd yerlərində sosial infrastrukturun inkişaf etdirilməsi; 8) əhalinin yaş və cins tərkibi üzrə əmək ehtiyatları balansının tərtib edilməsi.

Bütövlükdə, SSRİ-də olduğu kimi, Azərbaycan SSR-də də əhalinin sosial strukturunda sosializm cəmiyyətinə xas olan proseslər baş verirdi. Həmin illərdə Azərbaycan SSR-in əməkqabiliyyətli əhalisinin yaşayış vasitələri mənbələri üzrə inkişaf prosesində aşağıdakılar müşahidə olunurdu: əgər 1970-ci ildə respublika üzrə 2525,6 min nəfər əməkqabiliyyətli əhalinin 1676,8 min nəfəri və ya 66,3 %-i ictimai istehsala cəlb olunmuşdusa, 1979-cu ildə həmin sosial qrupa əməkqabiliyyətli 3183,9 min nəfərin 2525, 6 min nəfəri və ya 79,3 % daxil idi.

Azərbaycan SSR kəndində demoqrafik inkişafın daha qabarıq dəyişiklikləri müşahidə olunurdu. 1970-ci ildə respublikanın 4295 kənd yaşayış məntəqəsinin 57,5 %-ni təşkil edən əhalinin sayı hər kənddə cəmi 200 nəfər idi. 1979-cu ildə belə yaşayış məntəqələrinin sayı 53 ədəd azalmışdı. Bununla bərabər, əhalisi az olan yaşayış məntəqələri çoxluq təşkil edirdi. Belə ki, 191 kənddə əhalinin sayı 51 nəfərədək, 262 kənddə 51–100 nəfər, 595 kənddə 101–200-dək, 1370 kənddə isə 201–500-dək adam yaşayırdı [76, 73].

Kəndlərin belə kiçik olması və bir-birindən aralı yerləşməsi kompleks sosial tədbirlərin həyata keçirilməsinə mənfi təsir göstərirdi. Hesabla-

malar göstərirdi ki, kiçik kəndlərin birləşdirilərək, əsaslı sosial infrastruktura malik məntəqələrin yaradılması iqtisadi cəhətdən daha sərfəlidir. Bu təcrübə respublikamızda geniş tətbiqini tapdı və demək olar ki, əksər rayonlarda onlarca güclü təsərrüfatı və müasir yaşayış, sosial-mədəni obyektləri olan, abad yaşayış məntəqələrinin əsası qoyuldu.

Əgər 1970-ci ildə respublikanın bütün məşğul əhalisinin 75 faizi maddi istehsal sahəsində çalışırdısa, 1975-ci ildə bu göstərici 73,4, 1980-ci ildə isə 72,6 faizə düşmüşdü. Əksinə, qeyri-maddi istehsal sahəsində çalışanların xüsusi çəkisi müvafiq olaraq 25, 26,6 və 27,4 % yüksəlmişdi. İşləyən əhali arasında xalq təsərrüfatında çalışanların kəmiyyət və keyfiyyət göstəricilərində əsaslı dəyişikliklər baş vermişdi: xalq təsərrüfatında çalışanların mütləq sayı artaraq, 1970-ci ildəki 1273 min nəfərdən 1980-ci ildə 1802 min nəfərə, o cümlədən qadınların sayı 518 min nəfərdən 768 min nəfərə çatmışdı. Sosial strukturun mühüm tərkib hissəsi olan mütəxəssislərin sayı 275 min nəfərdən 499 min nəfərə çatmış, o cümlədən qadın mütəxəssislərin sayı 1,9 dəfə artaraq 232,4 min nəfər olmuşdu [389, 155; 399, 159].

1970-ci ildə kəndlərdə yaşayan 928 min nəfər əməkqabiliyyətlidən cəmi 726,9 min nəfəri və ya 78,3 % məşğul əhali statusuna daxil idisə, on il sonra 1341,7 min nəfər əməkqabiliyyətlinin 1129 min nəfəri və ya 84,2 % ictimai istehsala cəlb olunmuşdu.

1970–1980-ci illərdə sosial strukturun ən fəal qrupunu və əmək ehtiyatlarının əsas hissəsini 18–30 yaş arasında olan gənclər təşkil edirdi.

Respublika əhalisinin milli tərkibində baş verən kəmiyyət dəyişiklikləri demoqrafik prosesin mühüm tərkib hissəsi idi. SSRİ dövründə aparılmış 1926, 1939, 1959, 1970 və 1979-cu il əhali siyahıyaalınmasının nəticələrinə görə, respublikada azərbaycanlılar əhalinin əsas hissəsini təşkil etmişdir. 1979-cu ilin əhali siyahıyaalınması məlumatına görə, respublikanın 6028,7 min nəfər əhalisinin 4708,8 min nəfərini azərbaycanlılar (78,1 %), 475,2 min nəfərini ruslar (7,9 %), 475,2 min nəfərini ermənilər (7,9 %), 138,1 min nəfərini ləzgilər (2,3 %), 26,4 min nəfərini ukraynalılar (0,44 %), 35,5 min nəfərini yəhudilər (0,6 %), 31,2 min nəfərini tatarlar (0,51 %), 2,2 faizini isə digər millət və xalqların nümayəndələri təşkil edirdi. Başqa sözlə, 1979-cu ildə respublika əhalisinin hər beş nəfərindən dördü azərbaycanlı idi. Bununla

yanaşı, 115 millətin və azsaylı xalqların nümayəndələrinin yaşadığı Azərbaycan SSR əhalinin milli tərkibinə görə müttəfiq respublikalar sırasında çoxmillətli respublika sayılırdı. Respublikanın köklü əhalisi olan azərbaycanlılarla yanaşı, burada yaşayan başqa millətlərdən və xalqlardan olan əhalinin də sayı sürətlə artıb çoxalmış, mədəni-texniki səviyyəsi yüksəlmişdi [402, s.39].

Azərbaycan SSR-in iqtisadi və mədəni tərəqqisi ölkə əhalisinin sosial strukturunun təkmilləşdirilməsi üçün ilkin şərtləri müəyyənləşdirirdi. Sovetlər İttifaqının bir sıra respublikalarında olduğu kimi, Azərbaycan SSR-də də əhalinin məşğuliyyəti probleminin həlli aktual xarakter daşıyırdı. Bu onunla izah olunurdu ki, RSFSR, Ukrayna və Belarusda, Baltikyanı respublikalarda əmək ehtiyatlarının çatışmazlığı kəskin hiss olunsa da, Azərbaycan SSR-də, əksinə, əmək ehtiyatları çox idi. 1960–1980-ci illərdə respublikada doğum səviyyəsi və bunun nəticəsi olaraq əhalinin təbii artım meyli azalsa da, hər halda, İttifaq göstəricisi ilə müqayisədə xeyli yüksək idi. Buna görə də əhalinin məşğulluq probleminin həll edilməsi respublika rəhbərliyinin qarşısında duran əsas sosial problemlərdən biri idi.

Respublikanın əmək ehtiyatlarının sayı 1960–1970-ci illərdə 437 min nəfər artaraq, 1899 min nəfərdən 2336 min nəfərə çatmışdısa, 1970–1980-ci illərdə 1076 min nəfər artaraq 3412 min nəfərə çatmışdı. 1960–1970-ci illərdə əmək ehtiyatlarının ortaillik artımı 43,7 min nəfər (2,3 %), 1970–1980-ci illərdə bu artım 107,6 min nəfər (4,6 %) təşkil etmişdi. İqtisadiyyatın sürətli inkişafı böyük sayda əməkqabiliyyətli insanların maddi və qeyri-maddi istehsal sahələrində işlə təmin edilməsinə şərait yaradır, bu isə respublikanın şəhər və kənd yerlərində əsaslı sosial dəyişikliklərə səbəb olurdu.

Kolxozların iqtisadi inkişafının sürətləndirilməsi, maliyyə vəziyyətinin möhkəmləndirilməsi sahəsində görülən tədbirlər kənd əhalisinin maddi həyat şəraitini yaxşılaşdırmaqla bərabər, gənclərin kənddə qalıb işləməsi kimi mühüm sosial-demoqrafik problemin həllinə kömək etmişdi. Heydər Əliyev Azərbaycan KP MK-nın 1979-cu il noyabr plenumundakı məruzəsində bunu son on ildə kənddə baş verən müsbət dəyişikliklərin göstəricisi kimi səciyyələndirmişdi [240].

Sosial strukturda dəyişikliklər müsbət meyillərlə müşayiət olunurdu. Əgər 1970-ci ildə bütün respublika üzrə ictimai istehsal

sahəsində 1273 min nəfər məşğul idisə, 1978-ci ildə onların sayı 1692,5 min, 1980-ci ildə 1802 min, 1982-ci ildə 1906 min nəfərə çatmış və əhalinin ümumi sayında 24,9 %-dən 30,2 %-ə yüksəlmişdi. İşləyən əhalinin sahə quruluşundakı mütərəqqi dəyişikliklər sosial-iqtisadi inkişafın nəticələrini əks etdirirdi. Belə ki, 1970–1980-ci illərdə sənaye və tikintidə çalışan işçilərin sayı 1,4 dəfə, nəqliyyat və rabitədə 1,6 dəfə, kənd təsərrüfatında isə 1,4 dəfə artmış, əksinə, şəxsi təsərrüfatda çalışanların mütləq sayı azalmışdı [381, s. 189].

Azərbaycan SSR-in əmək potensialına təsir edən amillərdən biri də əhalinin yaş quruluşunda baş verən dəyişikliklər idi. Əhalinin ümumi sayının artması ilə əlaqədar əməkqabiliyyətli yaşda olan əhali də artırdı. Əgər 1959-cu ildə əməkqabiliyyətli əhali 1902 min nəfər, 1970-ci ildə 2242,8 min nəfər idisə, 1979-cu ildə 3183,9 min nəfərə olmuş və bütünlükdə, əhalinin tərkibində payı həmin illər üzrə müvafiq olaraq 51,5, 43,8 və 52,8 % təşkil etmişdi. Məlum olduğu kimi, həmin dövrdə əmək ehtiyatlarına 16–54 yaşda olan qadınlar və 16–59 yaşda olan kişilər, habelə bu yaşlara aid olmayıb, lakin ictimai istehsalda işləyən şəxslər daxil edilirdi.

Əmək ehtiyatlarının əsas hissəsini əməkqabiliyyətli əhali təşkil edirdi. Əmək ehtiyatlarının formalaşması prosesinə əhalinin yaş quruluşu əhəmiyyətli dərəcədə təsir göstərirdi. 1970-ci il əhalinin siyahıyaalınması məlumatlarına görə, əhalinin tərkibində ən yüksək xüsusi çəki 0–9 yaş, 10–19 yaş və 30–39 yaş, ən aşağı xüsusi çəki isə 70–79 və 80–89 yaş, 1979-cu ildə isə ən yüksək xüsusi çəkisi 0–9, 10–19 və 20–29 yaş, ən aşağı xüsusi çəkisi isə 30–39, 50–59 yaş və ondan yuxarı yaş qruplarına daxil olanlar arasında idi. Statistik rəqəmlərin təhlili göstərir ki, 1970–1980-ci illərdə əhalinin tərkibində uşaq və yeniyetmələrin xüsusi çəkisi yüksək olmuşdur [394, 130–131].

Heydər Əliyev azərbaycanlı gənclərin ali hərbi təhsilə cəlb edilməsi məsələsini Mərkəzi Komitənin Büro yığıncağında müzakirə edəndə də sovet cəmiyyətində baş verən demoqrafik dəyişikliklərdən faydalanmağı təklif edirdi. O, belə bir fakta xüsusi diqqət yetirməyi təklif edirdi ki, SSRİ-nin bəzi respublikalarında yaranan demoqrafik şərait RSFSR, Ukrayna SSR və Belarus SSR-in ali hərbi məktəblərində zəruri kontingent yığılmasına mane olduğundan, respublikada hərbi

çağırış yaşına çatmış daha çox sayda azərbaycanlı gəncin ali hərbi məktəblərə cəlb edilməsinə əlverişli imkan yaranmışdı. Heydər Əliyev respublikanın əlaqədar təşkilatlarından yaranmış şəraitdən istifadə olunmasını tələb edirdi [171, v. 316].

Heydər Əliyevin Azərbaycan KP-nin XXX qurultayına hesabat məruzəsində irəli sürdüyü nəzəri müddəalar və tövsiyələr əslində, bu sahədə bir sıra dövlət qurumları və elmi tədqiqat müəssisələri üçün fəaliyyət planı oldu. O, demoqrafik inkişaf məsələlərinə həssaslıqla, elmi cəhətdən yanaşılmasını tələb edərək deyirdi: «Biz sənayenin intensiv və proporsional inkişafının əlverişli imkanlarından əmək ehtiyatlarının daha səmərəli işlədilməsi üçün daha yaxşı istifadə etməliyik...Biz respublikanın demoqrafik inkişafı və əhalinin işlə daha səmərəli təmin olunması üçün elmi surətdə əsaslandırılmış uzunmüddətli konsepsiyaya malik olmalıyıq» [87, 91].

Azərbaycan KP MK-nın 1981-ci il 29 dekabr tarixli qərarında SSRİ Elmlər Akademiyasının Sosioloji Tədqiqatlar İnstitutu ilə birgə aparılan «Azərbaycan SSR-də fəhlə sinfi və mühəndis-texniki işçilərin sosial inkişafının indikatorları və göstəriciləri» adlı sosioloji tədqiqatın nəticələrinə yüksək qiymət verilmişdi.

Elmi tədqiqat işlərinin və sosioloji araşdırmaların nəticələri doqquzuncu və onuncu beşilliklərdə fəhlə və mühəndis-texniki işçilərin, digər sosial qrupların əməyinin təşkili və xarakterində, onların ixtisas və mədəni səviyyəsində, ictimai-siyasi və əmək fəallığında baş verən mütərəqqi dəyişikliklərə yanaşı, həllini gözləyən problemlərin də olduğunu göstərirdi. Məsələn, əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı bir çox tədbirlər həyata keçirilsə də, sənayedə peşə xəstəliklərinin yayılması və xəstəliyə görə işə çıxılmaması, habelə istehsalatda travmalar və ölümlə nəticələnən halları hələ də çox idi. Sənayedə əmək qabiliyyətinin müvəqqəti itirilməsi, əsasən, soyuqdəymə, infeksion, ürək-damar və əsəb xəstəlikləri, habelə istehsalat və məişət səpkisində baş verən bədbəxt hadisələrlə bağlı idi. Heydər Əliyevin imzaladığı qərarda müvafiq təşkilat rəhbərlərinə qısa müddət ərzində bu sahədə olan nöqsanların aradan qaldırılması və konkret tədbirlərin görülməsi haqqında tapşırıq verilmişdi [171, v.69].

Demoqrafik siyasətin əsas istiqamətlərindən birini əmək ehtiyatlarının kəmiyyət və keyfiyyət göstəriciləri ilə mövcud iş yerləri

arasında uyğunsuzluğun aradan qaldırılması təşkil edirdi. Məsələn, 1960-cı illər ərzində respublikada əmək ehtiyatları 353 min nəfər artmış, lakin cəmi 323 min yeni iş yeri açılmışdı. Əhalinin təbii artımının yüksək olduğu Azərbaycan SSR-də əsas diqqət iqtisadiyyatın tələbatına uyğun ixtisaslı milli kadrların hazırlanmasına yönəldilirdi. İşçilərin yaradıcı fəallığının inkişafı üçün əlverişli şərait yaradılır, onların ixtisas biliklərinin və peşə ustalıqlarının artırılmasına qayğı göstərilirdi. İstehsal prosesində yeni texnika və texnologiyanın tətbiqi, əl əməyinə əsaslanan peşələrin tədricən aradan qalxması son nəticədə işçilərin peşə strukturunda əsaslı dəyişikliklərə səbəb olurdu. Sosial xidmət səviyyəsinin təkmilləşdirilməsi, uşaq bağçaları və körpələr evləri şəbəkəsinin genişləndirilməsi qadın əmək ehtiyatlarının məşğulluğa cəlb edilməsi imkanlarını artırırdı.

1971–1980-ci illər ərzində iqtisadiyyata cəlb edilən işçilərin sayı 584 min nəfər artmışdı. Bununla yanaşı, yeni iş yerlərinin açılması mövcud əmək ehtiyatlarının istehsalata cəlbi sahəsində problemlərin kökündən həll edilməsi demək deyildi.

Əmək ehtiyatlarından səmərəli istifadə edilməsi hər hansı bir bölgədə sosial-iqtisadi inkişafa, demoqrafik problemlərin müsbət həllinə təsir edən məsələ idi. Eyni zamanda əmək ehtiyatlarından səmərəli istifadə bir sıra təbii-coğrafi, tarixi, sosial-iqtisadi, demoqrafik və s. amillərin təsirindən asılı olaraq ayrı-ayrı bölgələrdə ona müxtəlif yanaşmanı tələb edirdi. Bütün bu xüsusiyyətlər respublika rəhbərliyinin fəaliyyətində diqqətlə nəzərə alınır və müvafiq qərarlar qəbul edilirdi. Həmin dövrdə Azərbaycan SSR dövlətinin qarşısında bir-biri ilə sıx bağlı olan iki mühüm sosial-demoqrafik problemin eyni vaxtda həlli dururdu: yeni iş yerləri, yeni istehsal sahələrinin inkişaf etdirilməsi; həmin sahələrdə işləyə biləcək yüksəkixtisaslı mütəxəssislərin və fəhlə kadrlarının hazırlanması və onların peşə-ixtisas hazırlığının yüksəldilməsi.

Əmək ehtiyatlarının düzgün yerləşdirilməsi və demoqrafik şəraitin yaxşılaşdırılması respublikamızın ayrı-ayrı iqtisadi zonaları üzrə demoqrafik xüsusiyyətlərin öyrənilməsini tələb edirdi. Bu baxımdan, respublika Elmlər Akademiyası, Dövlət Plan Komitəsi və Kənd Təsərrüfatı Nazirliyinin elmi müəssisələrində Azərbaycan SSR-in əmək ehtiyatlarından səmərəli istifadə edilməsini elmi cəhətdən əsaslandıran

tədqiqat işlərinə, sosioloji araşdırmalara başlanmışdı. Dərc olunan elmi əsərlərdə Azərbaycan SSR-də demoqrafik proseslərin sosial-iqtisadi xüsusiyyətləri, sosial strukturda baş verən müsbət dəyişikliklər, Azərbaycan SSR-də demoqrafik şəraitin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər, respublika əhalisinin təkrar istehsalı xüsusiyyətləri, əmək ehtiyatlarından istifadənin vəziyyəti təhlil olunur və səmərəli istifadənin yolları göstərilirdi [194; 243; 381; 389].

Demoqrafik siyasətin düzgün həyata keçirilməsi əmək ehtiyatlarının cins üzrə tərkibinin də nəzərə alınmasını tələb edirdi. Bu dövrdə ictimai istehsala cəlbedilmə dərəcəsi kişi və qadın əmək ehtiyatları üzrə fərqlənirdi. Qadınların ictimai istehsala cəlb edilməsi kişilərə nisbətən aşağı idi. Bu mənada, qadınların məşğulluq probleminin həlli diqqət mərkəzində saxlanılsa da, vəziyyət qənaətbəxş deyildi. Digər tərəfdən, qadınların 23,5 %-i uşaqlarını məktəbəqədər tərbiyə müəssisələrinə verə bilmədiyinə görə ictimai istehsalda çalışmırdı. Bu sahədə görülən tədbirlər öz nəticəsini verməkdə idi. Əgər 1970-ci ildə ictimai istehsalda çalışan qadınların sayı 518 min, 1975-ci ildə 640 min, 1980-ci ildə 768 min nəfər təşkil edirdisə, 1982-ci ildə isə 821 min nəfərə çatmışdı [397, 45].

1980-ci ildə ictimai istehsaldan kənarda qalan əməkqabiliyyətli əhali arasında aparılan sorğu materiallarından görünürdü ki, ev və şəxsi həyətyanı təsərrüfatlarda məşğul olan qadın əmək ehtiyatlarının xüsusi çəkisi kişilərə nisbətən yüksəkdir. Mövcud vəziyyət qadın əmək ehtiyatlarının mədəni-texniki səviyyəsinin yüksəldilməsini və sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilən tədbirlərin həyata keçirilməsini tələb edirdi. Qadınların sayı ilə kişilərin sayı arasında nisbətin pozulması əhalinin nikah səviyyəsinə, bu isə, öz növbəsində, həm əhalinin ümumi sayına, həm də əmək ehtiyatlarının artımına mənfi təsirini göstərirdi.

Doğumun müxtəlif səviyyədə olduğu rayonlarda sosial xidmət sahələrinin və uşaq tərbiyə müəssisələrinin yerləşdirilməsinə düşünülmüş şəkildə yanaşılması vacib idi. Düzdür, 1970–1980-ci illərdə daimi fəaliyyət göstərən məktəbəqədər tərbiyə müəssisələrində uşaqların sayı 30 %, o cümlədən şəhərlərdə 26,5 %, kəndlərdə isə 56,1 % artmışdı. Lakin uşaqların məktəbəqədər tərbiyə müəssisəsinə cəlb edilməsi əmsalı respublikanın ayrı-ayrı rayonları üzrə ictimai is-

tehsalda çalışan hər 1000 nəfər qadının sayına görə 56,3 nəfərdən 176, 7 nəfərə qədər dəyişirdi. Məhz buna görə də əhalinin uşaq bağçaları və körpələr evinə olan tələbatının ödənilməsi, məişət xidməti səviyyəsinin yüksəldilməsi bu siyasətin mərkəzində dururdu.

Azərbaycan KP MK-nın xüsusi tapşırığı ilə dövlət plan və əmək komitələrində respublikada əmək ehtiyatlarından istifadənin daha da yaxşılaşdırılması istiqamətində işlər daha da gücləndirilmişdi. Bu işlər 1981–2000-ci illəri əhatə edən elmi-texniki tərəqqi proqramının «Əhali, əmək ehtiyatları və əməyin mühafizəsi» bölməsinin hazırlanması çərçivəsində görülürdü. Təkcə 1980–1981-ci illərdə bütün mənbələr hesabına 140766 nəfər işlə təmin edilmişdi. 1981-ci ildə 43 min nəfər ali və orta ixtisas təhsilli mütəxəssis göndərilmişdi. Texniki peşə məktəblərində 104 min nəfər təhsil alırdı. Bir il ərzində ixtisasartırma kurslarında 493 min nəfər yeni peşəyə yiyələnmiş və ya peşə səviyyəsini artıra bilmişdi. Orta ümumtəhsil məktəblərini bitirən 54, 5 min nəfər məzun iqtisadiyyatın müxtəlif sahələrində məşğulluğa cəlb edilmişdi [170, v. 84; 178, v. 36–37].

Əməkqabiliyyətli əhalinin ictimai istehsala cəlb edilməsi sahəsində dövlət səviyyəsində görülən tədbirlər öz səmərəsini verirdi. Əgər 1960–1970-ci illərdə əhali məşğulluğunun ortaillik artım sürəti 33 min nəfər idisə, 1970–1980-ci illərdə 55,3 min nəfərə çatmışdı.

Kəndlərin abadlaşdırılması, müasir qəsəbələrin yaradılması, mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması, mədəni səviyyənin yüksəldilməsi sahəsində görülən tədbirlər əhalinin sosial strukturunda müsbət meyilləri müəyyənləşdirirdi. Abad yaşayış məntəqəsi, rahat məişət və ev təsərrüfatı şəraiti adamların fiziki və mənəvi formalaşmasına imkan yaradır, istehsalın inkişafına mühüm təsir göstərirdi.

Azərbaycan KP MK və Nazirlər Sovetinin «Kənd əhalisinin mənzil, kommunal-məişət və sosial-mədəni həyat şəraitinin daha da yaxşılaşdırılması tədbirləri haqqında» 1982-ci il 2 iyun tarixli «Kolxoz və sovxozların rəhbər kadrlarla və mütəxəssislərlə möhkəmləndirilməsi və kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsində onların rolunun və məsuliyyətinin daha da artırılması haqqında», «Kolxoz və sovxozlarda və digər kənd təsərrüfatı müəssisələrində heyvandarlıqla məşğul olan işçilərin möhkəmləndirilməsi sahəsində əlavə

tədbirlər haqqında» 1982-ci il 24 iyun tarixli qərarları Azərbaycan kəndinin sosial-iqtisadi inkişafına rəvac verən sənədlər idi [175, v. 30–47].

Heydər Əliyev respublikada sürətlə artan əmək ehtiyatlarının tamamilə məşğulluğa cəlb edilməsi sahəsində vəziyyəti qənaətbəxş hesab etmirdi. Respublikanın sosial-iqtisadi inkişaf templəri yaxın perspektivdə, daha doğrusu, 80-ci illərdən başlayaraq, əsasən, işçi qüvvəsinə olan tələbatla müəyyənləşməli idi. Respublikada əmək ehtiyatlarından səmərəli istifadə problemi Azərbaycan KP-nin 1981-ci il dekabr plenumunda geniş müzakirə olunmuş, əməkqabiliyyətli əhalinin ictimai istehsala cəlb edilməsi sahəsində konkret vəzifələr müəyyən edilmişdi.

Heydər Əliyev yaxın perspektivdə əmək ehtiyatlarından səmərəli istifadə edilməsinin mühüm sosial-siyasi əhəmiyyətini düzgün qiymətləndirir və bu sahədə dövlət orqanlarının üzərinə mühüm vəzifələr düşdüyünü vurğulayırdı. O, 1981–1985-ci illər ərzində xalq təsərrüfatı və təhsil sahələrində 200 min iş yerinin açılması haqqında proqnoz göstəriciləri yetərli saymır, bu sahədə əlavə imkanların yaradılmasını vacib hesab edərək deyirdi: «Biz, xüsusən müəssisələrdə növbəlilik əmsalını artırmaq üçün əlavə tədbirlər həyata keçirməliyik. Hazırda həmin göstərici respublika sənayesi üzrə ancaq 1,32 %, o cümlədən maşınqayırma və metal emalı üzrə 1,21 %, yüngül sənaye üzrə 1,39 %-dir ki, bu da orta hesabla ölkə üzrə olduğundan aşağıdır. Təxmini hesablamalar göstərir ki, təkcə maşınqayırmada, yüngül sənayedə, ağac emalı sənayesində və tikinti materialları sənayesində orta ittifaq növbəlilik əmsalına çatmaq üçün sahələrə əlavə olaraq 30 min adam cəlb etmək lazımdır. Bütünlükdə, respublika sənayesi üzrə isə növbəlilik əmsalının, heç olmasa, 5 % artırılması ictimai istehsal sahəsinə on minlərlə adam cəlb etməyə, bunun hesabına əlavə olaraq 500 milyon manatlıq məhsul istehsal etməyə imkan verərdi...

Kənd yerlərində, kolxoz və sovxozlarda kənd təsərrüfatı xammalını emal edən və saxlayan, məhsul itkisini aradan qaldıran, tikinti materialları və ilkin tələbat malları, o cümlədən xalq bədii sənətləri məmulatları istehsal edən kiçik müəssisələri daha çox yaratmaq lazımdır. Həm də əməyin təşkilinin evdə işləmək, qısaldılmış iş günü kimi formalarından daha geniş istifadə edilməlidir. Bu, işdə ev təsərrüfatı ilə məşğul olan qadınların daha çox hissəsini ictimai istehsala cəlb etməyə

imkan verər... Elektrotexnika, cihazqayırma sənayesinin və başqa mütərəqqi sənaye sahələrinin mövcud müəssisələrinin kiçik və orta şəhərlərdə filiallarını yaratmaq sahəsində daha fəal iş aparmaq lazımdır».

Digər tərəfdən, Heydər Əliyev elmi-texniki tərəqqi proqramının hazırlanması işinə daha məsuliyyətlə yanaşmağı tələb edir, onun ciddi sosial-siyasi və iqtisadi əhəmiyyət daşıdığını bildirirdi: «Azərbaycan SSR-də ilk dəfə işlənib hazırlanmaqda olan 20 illik kompleks elmi-texniki tərəqqi proqramına ən ciddi münasibət bəslənilməlidir. Sonrakı onilliklər üçün iqtisadi və sosial inkişafın əsas istiqamətləri həmin proqram zəminində formalaşacaq» [241].

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1979-cu il 13 fevral tarixli qərarı tikinti sahəsində ixtisaslı kadrların hazırlanması sahəsində işlərin gücləndirilməsini nəzərdə tuturdu. Qərara olan 1 nömrəli əlavədə göstərilirdi ki, iki il ərzində respublikanın ayrı-ayrı tikinti təşkilatlarına texniki peşə məktəblərində tikinti-quraşdırma peşələrinə yiyələnmiş 7300 nəfər cəlb olunmalı idi. Texniki peşə təhsilinin inkişafı nəticəsində təkcə 1970–1980-ci illər ərzində 400 min nəfərdən çox ixtisaslı fəhlə kadrları hazırlanmışdı [162, v.52–53, 67; 410, 266].

Əhalinin təhsil səviyyəsinin artması sosial strukturda əsaslı dəyişikliklərə səbəb olurdu. 1979-cu il əhalinin siyahıyaalınmasının əsasən, 9–49 yaş arasında olanların 99,9 % savadlı idi. Ali və orta ixtisas təhsillilərin sayı 1959-cu ildəki 192,7 min nəfərdən 1970-ci ildə 360,2 min nəfərə, 1979-cu ildə 675,1 min nəfərə çatmışdı. Başqa sözlə, hər min nəfərə düşən ali və orta ixtisas təhsillilərin sayı müvafiq surətdə 74, 101 və 145 nəfər olmuşdu [394, 33].

Beləliklə, 1970–1980-ci illərdə Heydər Əliyevin nəhəng təşkilatçılıq fəaliyyətinin nəticəsi olaraq Azərbaycan SSR-in iqtisadi inkişafında həm sənaye, həm də aqrar sahənin mövqeyi əsaslı surətdə artmış oldu. Bu isə, labüd olaraq, respublikanın kənd təsərrüfatı rayonlarında əlavə işçi qüvvəsi ehtiyatlarından istifadəni zəruri edirdi. Həmin illərdə kənd təsərrüfatında çalışan işçilərin sayının artması məhz bununla əlaqədar idi və mürəkkəb demoqrafik şəraiti xeyli zəiflətməyə imkan verirdi.

Bu illərdə Azərbaycan SSR-də yüksəkixtisaslı mütəxəssislərin və fəhlə kadrlarının hazırlanması sahəsində çox böyük təşkilatçılıq işi

görülürdü. Bu dövrdə Heydər Əliyevin həyata keçirdiyi ən mühüm sosial tədbirlərdən biri də yüksək səviyyəli kadrların, xüsusilə milli kadrların hazırlanmasına ciddi qayğı göstərilməsi idi. O, Azərbaycan SSR-in gələcək sosial-iqtisadi və elmi-mədəni inkişafı üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərində yüksəkixtisaslı mütəxəssislərin hazırlanması işinə mühüm siyasi əhəmiyyət verirdi.

Azərbaycan SSR-in ali və orta ixtisas təhsili müəssisələrində mütəxəssis hazırlığının ilbəil artırılması nəticəsində əhalinin sosial strukturunda ziyalılar təbəqəsinin tərkibində əsaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdi. Təkcə 1979-cu ildə respublikanın ali və orta ixtisas təhsili müəssisələrini müvafiq olaraq 18 min və 22,2 min nəfər bitirmişdi. İqtisadiyyatın inkişafına uyğun olaraq, maddi istehsal sahəsində çalışan mütəxəssislərin sayı qeyri-maddi istehsal sahəsində çalışan mütəxəssislərin sayından daha üstün sürətlə artırdı. Sənayenin sahə strukturunda baş verən mütərəqqi dəyişikliklər yüksəkixtisaslı mütəxəssislərə olan tələbatı artırırdı. Əgər 1970-ci ildə mütəxəssislərin ümumi sayında ali təhsillilərin payı 47%, 1975-ci ildə 50,9% idisə, 1979-cu ildə bu göstərici 52,7%-ə çatmışdı [381, 71–72; 394, 279; 402, 218].

Heydər Əliyev Azərbaycan KP-nin XXX qurultayındakı məruzəsində bu hadisəni sosial-mədəni inkişafın mühüm əlaməti kimi belə dəyərləndirmişdir: «Respublikanın əməkçi əhalisinin peşə strukturunun daha da təkmilləşdirilməsi, işçilərin ixtisas səviyyəsinin durmadan yüksəldilməsi... ən mühüm vəzifələrdən biridir. Biz siniflərin və sosial qrupların, fiziki əməklə əqli əməyin bir-birinə yaxınlaşması proseslərini keyfiyyətcə yeni səviyyəyə qaldırmaq üçün hələ çox iş görməliyik ... Fəhlələrdən, texniklərdən, alitəhsilli mütəxəssislərdən onların ixtisaslarına son dərəcə müvafiq şəkildə istifadə olunmasını yaxşılaşdırmaq lazımdır. Yüksəkixtisaslı kadrlardan aşağı dərəcəli işlərdə istifadə edilməsi həm iqtisadi, həm də sosial baxımdan israfçılıqdır. Buna nail olmaq lazımdır ki, ... sənaye sahələri üzrə kadrların ixtisas-peşə dərəcəsi, strukturu iş yerlərinin strukturuna uyğunlaşdırılsın. Bu, fəhlə və mütəxəssis kadrlarını onların hazırlığına uyğun gələn iş yerlərində möhkəmləndirməyə imkan verər» [162, 73–74].

Heydər Əliyev 1980-ci il aprelin 25-də Azərbaycan SSR-in altmışilliyinə həsr edilmiş təntənəli yığıncaqda bu sahədə baş verən də-

yişikliklərə yekun vuraraq deyirdi: «... şəhər və kəndin bir-birinə yaxınlaşması, fiziki əməklə əqli əmək arasında hədlərin silinməsi prosesləri getdikcə daha dinamik xarakter alır. Respublika əhalisinin sosial strukturunda fəhlə sinfinin xüsusi çəkisi artmışdır, mühəndis-texniki ziyalıların və elm sahəsində çalışan ziyalıların sayı sürətlə çoxalır, sənaye və kənd təsərrüfatı işçilərinin əmək və məişət şəraiti təkmilləşir». Heydər Əliyev həmin nitqində deyirdi ki, Azərbaycan SSR əməkçiləri yeni insanın ən yaxşı keyfiyyətlərini – dərin bilik və peşə ustalığını və zəngin mənəviyyatı özündə cəmləşdirirdi. Ulu öndərin aşağıdakı fikirləri, əslində, həmin illərdə Azərbaycan SSR əhalisinin sosial strukturunda baş verən keyfiyyət dəyişikliklərini obrazlı şəkildə belə qiymətləndirmişdir: «Həyatın bütün sahələrində respublikanın nailiyyətlərini inandırıcı şəkildə sübut edən əlamətlər çoxdur.

Sözsüz ki, həmin illərdə Azərbaycan SSR əhalisinin sosial strukturunda və demoqrafik inkişafında baş verən dəyişikliklərin əsas mənbəyini Ulu öndər Heydər Əliyevin düzgün yeritdiyi iqtisadi inkişaf strategiyası təşkil edirdi. Bu inkişaf respublika rəhbərinin ayrıca olaraq hər bir rayonun, şəhər, qəsəbə və kəndin iqtisadi potensialının artırılmasına hədsiz qayğı və diqqətlə yanaşmasının nəticəsi idi. İqtisadiyyatın sahə quruluşu və yerləşdirilməsində baş verən bu müsbət irəliləyişlər şəhər və kəndlərin əmək ehtiyatlarından səmərəli istifadə etməyə imkan verirdi.

Demək olar ki, Heydər Əliyevin iştirakı və rəhbərliyi ilə keçirilən bütün partiya-təsərrüfat yığıncaqlarında iqtisadi və sosial-mədəni məsələlər bir-biri ilə qarşılıqlı əlaqədə müzakirə edilirdi. Heydər Əliyevin nəhəng dövlətçilik fəaliyyəti məhz Azərbaycan SSR əhalisinin rifahının, təhsil və mədəniyyətinin yüksəldilməsi, onların əmək və məişət şəraitinin yaxşılaşdırılması, mənzil tikintisinin genişləndirilməsi, sosial təminat və səhiyyə xidmətinin təkmilləşdirilməsi kimi məsələlərin həllinə yönəldilmişdi. Sosial inkişafda insan amilinin rolu durmadan artırdı, işçilərdən yüksək ixtisas biliyi, peşə hazırlığı və ümumi mədəni səviyyə tələb olunurdu.

Əhalinin maddi rifahı və mədəni səviyyəsinin yüksəldilməsi iqtisadi və sosial tərəqqini sürətləndirməyin zəruri şərtinə çevrilir, bu isə, öz növbəsində, cəmiyyətin sosial strukturunun təkmilləşməsinə gətirib çıxarırdı. Əhalinin məşğulluğundakı dəyişikliklərə müxtəlif amillər, o

cümlədən texniki tərəqqinin sürətləndirilməsi, əmək məhsuldarlığının yüksəldilməsi, habelə qeyri-maddi istehsal sahələrinin, xüsusilə mənzil-kommunal və əhaliyə məişət xidməti sahələrinin, təhsil, mədəniyyət, incəsənət, elm və elmi tədqiqat sahələrinin sürətli inkişafı təsir edirdi. Bunun nəticəsi olaraq, Azərbaycan cəmiyyətini təşkil edən bütün sosial qrup və təbəqələrin rifahı dönmədən yüksəlir, həyat səviyyəsi bərabərləşirdi.

Beləliklə, Heydər Əliyev 1969–1982-ci illərdə özünü görkəmli dövlət xadimi, qətiyyətli rəhbər, bacarıqlı təşkilatçı kimi təsdiq etdi, həyatın bir çox sahələrində, o cümlədən sosial sahədə xalqımıza əsl milli intibah bəxş etdi. Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində respublika dinamik və proporsional inkişaf yoluna qədəm qoydu. Danılmaz faktdır ki, Asiya, Afrika və Latın Amerikasının bir çox ölkələri Azərbaycan SSR-in zəngin təcrübəsindən öz sosial-iqtisadi problemlərinin həllində istifadə edirdilər.

Azərbaycan cəmiyyəti təkmilləşir, sosial inkişafda insan amilinin rolu durmadan artırdı. Respublikanın XX əsrin 70–80-ci illərində sosial-iqtisadi inkişaf sahəsində əldə edilən təcrübəsi, sosial problemlərin həlli yollarının işlənilib hazırlanan mexanizmi bu gün də aktualdır. Bu təcrübə bir daha təsdiq edir ki, müstəqillik dövrünün sosial-iqtisadi inkişaf konsepsiyasının işlənilib hazırlanması, yaxın və uzaq perspektivin inkişaf istiqamətlərinin müəyyən edilməsi, dövlətin gənclər və gender siyasətinin düzgün qurulmasında demoqrafik şərait və onun əsas tərkib hissələri, o cümlədən əhalinin təbii artımı, doğum, ölüm, miqrasiya, yaş-cins tərkibi, cinslər üzrə məşğulluq dərəcəsi, təhsil və peşə-ixtisas səviyyəsi və s. kimi amillər mütləq nəzərə alınmalıdır.

VI FƏSİL

HEYDƏR ƏLİYEV
və
AZƏRBAYCAN SSR-də MƏDƏNİYYƏTİN İNKİŞAFI

6.1. Təhsil

Cəmiyyətin tərəqqisi, elmin, mədəniyyətin inkişafının qüdrətli vasitəsi rolunu oynayan təhsil hər bir millətin gələcəyini müəyyən edir. Azərbaycan xalqının tərəqqisinin yeganə yolunu təhsildə, elmdə və mədəniyyətdə görən Ümummilli lider Heydər Əliyevin fəaliyyətinin mühüm bir istiqamətini bu məqsədin həyata keçirilməsi təşkil etmişdir.

Elm və təhsili cəmiyyətin ictimai, sosial tərəqqisinin əsas amili kimi səciyyələndirən Heydər Əliyev qeyd edirdi ki, Azərbaycan SSR-i elmi-texniki tərəqqi səviyyəsində inkişaf etdirmək üçün, şübhəsiz ki, yüksək təhsilə, elmə nail olmalıyıq [44, 172].

XX əsrin II yarısı Azərbaycan SSR-də elm və təhsilin böyük inkişaf dövrü kimi xarakterizə olunur. Lakin Azərbaycan SSR-də təhsil özünün genişmiqyaslı inkişaf və tərəqqisini Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrlərdə tapdı. Haqlı olaraq ölkənin intibah dövrü kimi səciyyələndirilən 1969–1982-ci illər Azərbaycan SSR-də təhsilin və maarifin inkişafında keyfiyyətcə yeni mərhələ hesab edilir.

Bu dövrdə Heydər Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan SSR-də təhsilin bütün formalarının inkişafı sahəsində çox böyük uğurlar əldə edilmiş, məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları yeni inkişaf mərhələsinə qalxmış, xalqın ümummədəni və intellektual səviyyəsi xeyli yüksəlmişdi.

Heydər Əliyev sonralar Azərbaycan SSR-də təhsilin inkişafı sahəsində qazanılmış nailiyyətlərdən bəhs edərkən deyirdi: «Bu 70 ildə, ideologiyadan asılı olmayaraq, ictimai-siyasi, iqtisadi sistemdən

asılı olmayaraq, Azərbaycan xalqının bir neçə nəsli təhsil almış, böyümüş, yüksək səviyyələrə çatmış, böyük elm və mədəniyyətə sahib olmuşdur. Bunların hamısı xalqımızın milli nailiyyətidir və indi bizim Azərbaycan Respublikasının intellektual potensialını təşkil edir» [44, 162].

Tam əminliklə demək olar ki, bu gün Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrinin geniş şəbəkəsi, güclü elmi-pedaqoji kadr korpusu öz mənbəyini məhz XX əsrin 70–80-ci illərindən, Heydər Əliyevin rəhbərliyi altında təhsil sahəsində aparılan uzaqgörən və məqsədyönlü siyasətdən almış, həyata keçirilən genişmiqyaslı təhsil quruculuğu işi gələcək inkişafın güclü təməlini qoymuşdur.

Həmin illərdə təhsili inkişaf etdirmək, əhalinin ümumtəhsil səviyyəsini yüksəltmək sahəsindəki tədbirlər, başlıca olaraq, bir-biri ilə bağlı olan iki istiqamətdə: 1) təhsil müəssisələrinin iş şəraitinin; 2) təhsilin forma və məzmununun yaxşılaşdırılması, onun həyatla, məhsuldar əməklə əlaqəsinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilmişdi.

1970–1980-ci illərdə ümumi təhsilə və uşaqların tərbiyəsinə dövlət büdcəsindən ayrılan vəsait 1,7 dəfə artaraq 1970-ci ildəki 219,8 milyon manatdan, 1980-cı ildə 363,9 milyon manata çatdırılmışdı [397, 294; 105, v.163].

70-ci illərdə Heydər Əliyevin rəhbərliyi altında respublikada təlim-tərbiyəni ən müasir səviyyədə qurmağa imkan verən məktəb binalarının tikintisi geniş vüsət aldı. Belə ki, 60-cı illərdə tikilən məktəblərin hər birində orta hesabla 161 şagird var idisə, 70-ci illərdə bu göstərici 2,3 dəfə artaraq – 372-ə çatdırıldı. 1970–1982-ci illərdə respublikada 16,2 min yerlik 761 ümumtəhsil məktəb binası tikilib istifadəyə verilmişdi [243, 182–189]. Ümumtəhsil məktəblərində hər il 1,5 milyondan çox şagird təhsil alırdı. 1982-ci ildə Azərbaycan SSR-də 4395 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi.

Həmin illərdə məktəblərin texniki və elmi-metodik vasitələrlə, pedaqoji kadrlarla təminatı əsaslı şəkildə yaxşılaşmışdı. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1978-ci ildə məktəblərin fizika və kimya kabinetləri ilə təminatı 92,2 %-ə çatmış, məktəb kitabxanalarının təminatı isə 97,9 %-ə qalxmışdı [223, 320]. 1970-ci illərdə ümumtəhsil mək-

təblərində müəllimlərin sayı 1,6 dəfə artmış, 1982-ci ildə 117 min nəfərə çatmışdı. Onların 73,8 %-ni ali təhsilli müəllimlər təşkil edirdi.

Xalq maarifi qarşısında qoyulan konkret vəzifələrə uyğun olaraq məktəblərin strukturunda mühüm dəyişikliklər edilmişdi. Gənclərin ümumi orta təhsilini həyata keçirmək üçün 1970-ci illərdə respublikada 718 ibtidai və 311 natamam orta məktəb bağlanmış, 823 orta məktəb təşkil olunmuşdu. 1980–1981-ci dərs ilində 369 ibtidai, 1577 natamam orta, 2004 orta məktəb fəaliyyət göstərirdi [401, 197]. Xalq maarifi müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, kadrlarla təchizinin yaxşılaşdırılması təhsil sistemini təkmilləşdirməyə, təlim-tərbiyə işini daha da səmərəli qurmağa imkan verirdi.

Məktəbəqədər uşaq müəssisələrinin, məktəbə hazırlıq siniflərinin, məktəbyanı internatların, günü uzadılmış məktəb və qrupların, məktəblərarası kombinatların təşkil olunması, fəhlə və kəndli gənclər məktəblərinin yeni şəraitə daha münasib olan qiyabi və əyani məktəblərlə əvəz edilməsi, texniki peşə, xüsusən orta texniki peşə məktəbləri şəbəkəsinin genişləndirilməsi respublikada xalq maarifi müəssisələri sistemini təkmilləşdirməyin başlıca istiqamətləri idi.

1970-ci illərdə ictimai istehsalın genişlənməsi, əmək ehtiyatlarının ictimai əməyə daha çox cəlb olunması, əhalinin mədəni səviyyəsinin yüksəlməsi məktəbəqədər uşaq müəssisələrinə tələbatın xeyli artmasına səbəb olmuşdu. Respublika rəhbərliyinin bu sahəyə diqqət və qayğısı sayəsində uşaqların məktəbəqədər ictimai tərbiyəsinin təşkili işi xeyli yaxşılaşmışdı. 1970–1980-ci illər 51,8 min yerlik məktəbəqədər uşaq müəssisəsi istifadəyə verildi. 1982-ci ildə daimi məktəbəqədər müəssisələrin sayı 1956-ya çatmışdı. Bu müəssisələrdə 153,4 min uşaq tərbiyə olunurdu ki, bu, 1970-ci illə müqayisədə 42,8 min nəfər çox idi [401, 321].

Göstərilən dövrdə şagirdlərin hərtərəfli inkişafını təmin etmək üçün xalq maarifi sistemində həyata keçirilən daha bir yenilik günüuzadılmış məktəb və qrupların şəbəkəsinin genişləndirilməsi idi. Onlar məktəbdən yayınmaya qarşı mübarizə, məktəblilərin ictimai tərbiyəsinin təşkili baxımından geniş imkanlara malik idi. 1970–1971-ci dərs ilində respublikada 105,5 min nəfəri əhatə edən 1149 günüuzadılmış məktəb və qrup fəaliyyət göstərirdisə, 1982–1983-cü dərs ilində bunların sayı müvafiq surətdə 358,1 və 2721-ə çatmış və ya 3,4 və 2,3 dəfə artmışdı [399, 321].

Respublikada ümumtəhsili həyata keçirmək üçün istehsalatda çalışan gənclərin ümumtəhsil səviyyəsini yüksəltməyin səmərəli formaları axtarılırdı. Kəndli gənclər məktəbləri müasir tələblərə cavab vermirdi, iş şəraiti ilə uzlaşmırdı. 1960-cı illərin əvvəllərində bu məktəblərdə tədrisin keyfiyyəti, mənimsəmə səviyyəsi çox aşağı idi və müasir tələblərə cavab vermədiyi üçün bu məktəblər sürətlə ixtisar olunurdu. İstehsalatda çalışan gənclər daha çox qiyabi təhsilə meyil edirdi. 1970-ci illərdə qiyabi təhsil belə gənclərin ümumtəhsilini təşkil etməyin mühüm formasına çevrilmişdi. 1980–1981-ci dərs ilində axşam və qiyabi məktəblərdə təhsil alanların sayı 145 min nəfərə çatmış və ya 1970/71-ci ildəkindən 1,5 dəfə çox olmuşdu [401, 195].

Təhsil alan, işləyən gənclərə geniş imtiyazlar verilmişdi. Onlar üçün qısaldılmış iş həftəsi müəyyən olunmuşdu, dərs günlərində onları artıq işə cəlb etməyə yol verilmirdi. İmtahan vaxtı XI sinif şagirdlərinə 20, VIII sinif şagirdlərinə 8, başqa siniflərin şagirdlərinə isə 4–6 gün pullu məzuniyyət verilirdi. Bu tədbirlər tam orta təhsili olmayan işləyən gənclərin ümumtəhsilə cəlb edilməsinin yaxşılaşmasına, məktəbdən yayınma hallarının azalmasına səbəb olmuşdu [243, 122].

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan SSR-də aparılan təşkilati-siyasi tərbiyəvi və maarifləndirmə işinin ən mühüm nəticələrindən biri qızların təhsilə cəlb edilməsi sahəsindəki müvəffəqiyyətlər idi. Bu dövrdə qızların məktəbdən yayınmasına səbəb olan əski məişət psixologiyasına qarşı mübarizə geniş miqyas almışdı. Respublikada qızların 16 yaşından ərə getməsinə icazə verən qanun mövcud olduğundan, qızların müəyyən hissəsi erkən ərə gedir, məktəbdən və təhsildən ayrılırdı. Aparılan təbliğat işi, ciddi nəzarət, qiyabi məktəblər şəbəkəsinin genişləndirilməsi nəticəsində bu sahədə vəziyyət xeyli yaxşılaşırdı. Məsələn, 1981/82-ci dərs ilində işləyən gənclər içərisində təhsil alanların 45 %-i qadın və qızlar idi.

Azərbaycan SSR-də təhsilin mühüm tərkib hissəsi olan texniki peşə təhsilinin yüksəliş dövrü də məhz Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi illərə təsadüf edir. Həmin illərdə Azərbaycan SSR-də gedən iqtisadi quruculuq prosesi, sənayenin və kənd təsərrüfatının coşqun inkişafı yüksəkixtisaslı fəhlə kadrlara tələbatı artırmış və bu da texniki peşə təhsili şəbəkəsinin genişləndirilməsinə zəmin yaratmışdı. Heydər Əliyevin təşəbbüsü ilə 1969-cu ilin sonlarında qəbul

edilmiş «Texniki peşə təhsili sistemi məktəblərində ixtisaslı fəhlə kadrlarının hazırlanmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərar təhsilin bu pilləsinin sonralar ahəngdar inkişafına təkan vermişdi. Heydər Əliyevin respublikaya rəhbərliyinin ilk iki ili ərzində 16 yeni texniki peşə məktəbi açılmış, 20 məktəb orta texniki peşə məktəbinə çevrilmişdi. Azərbaycan SSR-də texniki peşə təhsilinin inkişafında Azərbaycan KP MK və respublika hökumətinin 1971-ci il noyabr «Azərbaycan SSR-də texniki peşə təhsilinin daha da inkişaf etdirilməsi haqqında», «Azərbaycan SSR-də texniki peşə təhsili sisteminin inkişafının bəzi məsələləri haqqında» 1975-ci il may qərarları mühüm rol oynadı. 1971–1975-ci illərdə 54 yeni texniki peşə məktəbi açılmış və 165.120 nəfər ixtisaslı fəhlə kadrları hazırlanmışdı ki, bu da əvvəlkindən 1,5 dəfə artıq idi [206, 126].

1975-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə «Kənd orta texniki peşə məktəblərinin şəbəkəsini genişləndirmək və onların işini yaxşılaşdırmaq tədbirləri haqqında» qəbul edilmiş qərardan sonra kənd texniki peşə məktəblərinin sayı daha da artmağa başlamışdı. Belə ki, 1970/71-ci dərs ilində respublikanın kəndlərində 9, o cümlədən 3 şəhər texniki peşə, 1 texniki peşə, 5 kənd texniki peşə məktəbi var idisə, 1983–1984-cü dərs ilində onların sayı 28-ə çatmışdı. Bu məktəblərin 18-i orta kənd texniki peşə məktəbi, 10-u isə texniki peşə məktəb idi. Bunlarda 14 min nəfər və ya on il əvvəlkindən 6 dəfə çox şagird təhsil alırdı [243, 123].

Heydər Əliyevin göstərişi ilə 1977–1980-cı illərdə texniki peşə təhsili sisteminin iqtisadi və sosial inkişaf planı təsdiq olundu və həyata keçirilməyə başlandı. Plana uyğun olaraq, peşə təhsili müəssisələrində 43 nazirlik və baş idarə üçün 235 peşə və ixtisas üzrə ixtisaslı fəhlə kadrları hazırlanırdı [247, 111].

Respublikada texniki peşə məktəbləri şəbəkəsinin inkişaf dinamikasına nəzər salsaq, deyə bilərik ki, 1970-ci ildə 76 məktəbdə 40,9 min şagird oxuyurdusa, 1980-cı ildə 173 məktəbdə 99,8 min, 1982-ci ildə isə 184 məktəbdə 109 min şagird təhsil alırdı [269, 15–16]. Həmin illərdə Azərbaycan SSR iqtisadiyyatının müxtəlif sahələrində çalışan ixtisaslı fəhlələrin 70–80 %-i texniki peşə məktəblərinin məzunları idi.

Xalq maarifi müəssisələrinin iş şəraitinin yaxşılaşması, təhsil sisteminin təkmilləşməsi tədrisin məzmununu daha da zənginləşdir-

məyə, keyfiyyətini yüksəltməyə, pedaqoji işin yeni, daha səmərəli forma və metodlarının yaranmasına və yayılmasına geniş imkanlar açmışdı. Yeni tədris planları və proqramları tərtib edilməsi tədrisin məzmununu xeyli zənginləşdirmiş, onu mövcud elmi biliklər sisteminə daha uyğun etmişdi. Təhsil həyatla, məhsuldar əməklə daha sıx əlaqələndirilmişdi.

Məktəblərdə təlim-tərbiyənin keyfiyyətini, mənimsəmə səviyyəsini yüksəltmək üçün tədris prosesində şagirdləri fəallaşdırmaq metodları geniş tətbiq olunurdu. Əmək tərbiyəsi işinin səmərəsini yüksəltmək, məktəblilərin məhsuldar əməyini təşkil etmək üçün mühüm vasitə olan şagird istehsalat briqadalarının təşkilinə diqqət daha da artırılmışdı. 1983-cü ildə bu briqadaların sayı 2560-a çatmışdı. Məktəblilərin əməyə hazırlanması işini daha da təkmilləşdirmək üçün məktəblərarası istehsalat kombinatları təşkil edilməyə başlanmışdı. 1982–1983-cü dərs ilində respublikada gündüz orta ümumtəhsil məktəblərinin 99,95 %-ində əmək təlimi dərsləri keçilirdi [395, 185].

Məktəblilərin mənəvi-ideoloji tərbiyəsi sahəsində də mühüm irəliləyişlər baş vermişdi. Məktəblərdə hərbi vətənpərvərlik guşələri, hərbi şöhrət klubları, faşizm üzərində qələbəyə həsr edilmiş stendlər yaradılır, müharibə və əmək veteranları ilə müntəzəm görüşlər keçirilirdi. Dövrün ruhuna uyğun tərbiyə vasitələrindən biri də gənclərin döyüş və əmək şöhrəti yerlərinə yürüşlərinin təşkili idi. Yeniyetmələrin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində hərbi idman oyunlarının rolu danılmazdır. Respublika məktəbliləri «Üfüqdə parıltı» və «Qartal balası» Ümumittifaq hərbi idman oyunlarında fəal iştirak edirdilər. 1970-ci illərin ortalarından başlayaraq, məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi işinə respublika baxışının keçirilməsi məktəblərdə bu sahədə işin xeyli güclənməsinə səbəb olmuşdu. Bütün SSRİ məkanında artıq uzun illərdən bəri ənənəvi xarakter daşıyan, çox vaxt məktəblərarası, rayonlararası yarışlar kimi keçirilən belə oyunlar yeniyetmələrin sonrakı həyatının, peşə fəaliyyətinin, vətəndaşlığının formalaşmasında öz əyaniliyi və dinamikliyi ilə müəyyən müsbət rol oynayırdı.

Məktəb gənclərin estetik tərbiyəsinin, duyma mədəniyyətinin yüksəldilməsində böyük rol oynayırdı. 1970–1980-ci illərdə respublikada yeniyetmələrdə estetik hisslərin tərbiyə olunmasında, estetik davranışın qiymətləndirmə və yaradıcılıq qabiliyyətlərinin formalaş-

masında tədris olunan bütün fənlərin potensial imkanlarından istifadə etmək, sinifdən və məktəbdənkənar işlərin estetik səviyyəsini yüksəltmək üçün daha səmərəli üsul və formalar aşkara çıxarılır və tətbiq edilirdi. Məktəblilərin bədii özfəaliyyət festivalları, bədii olimpiadalar, uşaq rəsmləri sərgiləri onların bədii yaradıcılığının, estetik mədəniyyətinin inkişaf etməsinə böyük təsir göstərirdi. 1970-ci ildən respublikada məktəblilərin ənənəvi mahnı bayramları keçirilirdi. Demək olar ki, respublikanın bütün rayonlarında musiqi məktəbləri və onların filialları fəaliyyətə başlamışdı.

Gənc istedadların aşkara çıxarılması və inkişafında 1980-cı ildən keçirilməyə başlayan xalq mahnılarının gənc ifaçılarına ənənəvi respublika baxış-müsabiqəsi səmərəli vasitə olmuşdur. Bu baxışlarda ən istedadlı məktəblilər seçilərək, ixtisaslaşdırılmış məktəblərdə təhsilə cəlb olunurdular.

Azərbaycan KP MK-nın «Azərbaycan SSR-də uşaqların bədii təhsilini və tərbiyəsini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» 1984-cü il 2 yanvar tarixli qərarı xalq maarifi orqanları qarşısında uşaqların bədii təhsil və tərbiyəsinin, estetik səviyyəsini yüksəltmək işini daha da səmərəli qurmaq vəzifələrini qoymuşdur.

1970–1980-ci illərin əvvəllərində Heydər Əliyevin Azərbaycan SSR-də xalq maarifinin inkişafı sahəsində həyata keçirdiyi uzaqgörən siyasəti respublika əhalisinin ümumtəhsil səviyyəsinin xeyli yüksəlməsinə imkan vermişdi. 1959–1979-cu illərdə keçirilmiş əhalinin siyahıyaalmasının nəticələrinin müqayisəsi göstərir ki, bu müddətdə Azərbaycan SSR-də əhalinin yaşı 10 və bundan yuxarı olan hər min nəfərinə görə ümumi orta təhsillilərin sayı 3,1 dəfə artaraq 254 nəfərə çatmışdı [399, 33]. Bu müddət ərzində tam və natamam orta təhsillilərin sayı 1,6 dəfə çoxalmışdı. 1979-cu ilin əvvəllərində kənd yerlərində yaşı 10 və bundan yuxarı olan əhalinin hər min nəfərindən 535-nin tam və natamam orta təhsili vardı [399, 34].

Məşğul əhalinin ümumtəhsil səviyyəsi daha sürətlə artırdı. Hər min nəfərə görə ümumi orta təhsili olanların sayı 1959–1979-cu illərdə 6 dəfə artaraq 364 nəfərə, tam və natamam orta təhsili olanların sayı isə 2 dəfə artaraq 728 nəfərə çatmışdı [401, 34; 104, v.322].

Lakin şəhərlə kənd əhalisinin orta təhsil səviyyəsi arasında formal və faktik fərqlər hələ də böyük idi. 1979-cu il siyahıyaalınmasına

görə, kəndlərdə yaşı 10 və bundan yuxarı olan hər min nəfərə düşən orta (tam və natamam) təhsillilərin sayı şəhərdəkindən 15,1 % az – 630 nəfərə qarşı 535 nəfər idi [401, 34; 104, v.322].

1970–1980-ci illərdə Azərbaycan SSR-in inkişafının ən mühüm xüsusiyyətlərindən biri məhsuldar qüvvələrin, elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar ziyalıların sayının sürətlə çoxalması, əhalinin tərkibində onun xüsusi çəkisinin artması idi. Azərbaycan ziyalılarının sürətlə artması prosesi iqtisadiyyat və mədəniyyətin intensiv inkişaf tələbatlarına uyğun idi və ziyalıların sosial funksiyalarının genişlənməsini, respublikanın ictimai, iqtisadi və mədəni həyatında onların fəal iştirakını sübut edirdi.

1969-cu ildə Heydər Əliyev siyasi rəhbərliyə gəldikdən sonra ali və orta ixtisas təhsilinin inkişafı, yüksəkixtisaslı mütəxəssislərin hazırlanması dövlət siyasətinin üstün istiqamətlərinə çevrilməyə başladı. Yüksəkixtisaslı kadrların hazırlanmasının əsas mənbəyi, əvvəllər olduğu kimi, yenə də ali və orta ixtisas məktəbləri idi.

1970–1980-ci illərdə orta ixtisas təhsili şəbəkəsinin inkişaf etdirilməsi Heydər Əliyevin diqqət mərkəzində saxlanılmış, Azərbaycan SSR-də bu dövrdə 7 müxtəlif profilli yeni orta ixtisas məktəbi açılmış, bu tipdən olan təhsil müəssisələrinin maddi-texniki bazası xeyli gücləndirilmiş, tələbələrin sayı xeyli artırılmışdı. 1980-ci ildə Azərbaycan SSR-də 79 orta ixtisas təhsili müəssisəsində 191 ixtisas üzrə mütəxəssis hazırlanırdı. Bunlarda təhsil alan tələbələrin sayı 79 min nəfərə çatmışdı [401, 207]. 1980-ci ildə bu müəssisələrdə iqtisadiyyatın müxtəlif sahələri üçün 22 min nəfər orta ixtisas təhsilli mütəxəssis hazırlanmışdı.

1960-cı illərdə respublika ali məktəblərinin işində ciddi nöqsanlar var idi. Kadrların seçilməsi və yerləşdirilməsi prinsiplərinin pozulması halları, tərbiyə işində, ideoloji işdə nöqsanlar, himayəçilik, yerlipərəstlik, rüşvətxorluq, vəzifədən sui-istifadə, mənəvi-etik normaların pozulması və başqa mənfi hallar ali məktəbdə geniş yayılmışdı. Bütün bunlar Azərbaycan SSR ali məktəblərinin ciddi surətdə geridə qalmasına səbəb olmuşdu [1, 10].

Heydər Əliyev siyasi hakimiyyətinin ilk illərində respublika ali təhsil sistemində mənfi halların mövcudluğunu açıq bəyan edərək, ali təhsil müəssisələrində mənəvi mühitin sağlamlaşdırılması üçün zəruri tədbirlər həyata keçirməyə başlamışdı. Azərbaycan SSR rəhbərliyinin

ali məktəblərdə təlim-tərbiyə prosesini təkmilləşdirmək üçün həyata keçirdiyi kompleks tədbirlər, apardığı ciddi işlər orada mənəvi psixoloji iqlimi yaxşılaşdırmaq, yaxın keçmişdə yol verilmiş qeyri-sağlam halların kökünü kəsmək üçün əlverişli şərait yaratdı. Azərbaycan KP-nin XXVIII, XXIX və XXX qurultaylarında, MK-nın 1971-ci il oktyabr, 1975-ci il dekabr və 1979-cu il iyun plenumlarında ali və orta təhsilli kadrların hazırlanması məsələsinə xüsusi diqqət yetirilmiş, bu sahədə qəbul edilmiş qərarlar ali və orta ixtisas təhsilinin təkmilləşdirilməsində mühüm rol oynamışdı.

1970-ci illərdə respublika rəhbərliyi tərəfindən görülən təsirli tədbirlər nəticəsində Azərbaycan SSR-də ali təhsil daha da inkişaf etmiş, ali məktəblər həm sayca çoxalmış, həm də keyfiyyətcə yüksəlmişdi. Belə ki, 1971-ci ildə Pedaqoji Xarici Dillər İnstitutunun bazasında Rus Dili və Ədəbiyyatı (indiki Bakı Slavyan Universiteti) və Pedaqoji Xarici Dillər İnstitutu (indiki Dillər Universiteti) təşkil olundu. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialları əsasında 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Xankəndi pedaqoji institutları, 1976-ci ildə İnşaat Mühəndisləri İnstitutu (indiki Memarlıq və İnşaat Universiteti), 1981-ci ildə Gəncə Texnologiya İnstitutu (indiki Azərbaycan Texnologiya Universiteti) təşkil edilmişdi. Nəticədə ali məktəblərin sayı 12-dən 17-yə çatdırıldı [167, v.31].

Ayrı-ayrı bölgələrdə ali məktəblərin yaradılması da Heydər Əliyevin təkcə paytaxtın deyil, bölgələrin də hərtərəfli inkişafına nail olmaq strategiyasının tərkib hissəsi kimi özünü doğrultmuşdur.

Ali təhsilin maddi bazasının möhkəmləndirilməsinə diqqət artırıldı. Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə ali məktəblər üçün çoxlu yeni tədris korpusları, yataqxana kompleksləri tikilmişdi. Bu dövrdə Neft və Kimya, Xarici Dillər institutları, Bakı Dövlət Universitetinin humanitar fakültələri, pedaqoji institutlar üçün korpus binaları istifadəyə verildi. Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) təhsil bazası genişlənmişdi. Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) tələbələri üçün 9 mərtəbəli yataqxana binası istifadəyə verilmişdi. Bir çox ali məktəblərdə bədən tərbiyəsi və idman məşqləri üçün baza genişləndirildi. Universitetin təhsil-idman kompleksi və futbol meydançası, böyük idman salonu və 25 metrlik üzgüçülük hovuzu, boks və ağır atletika sa-

lonu, Dövlət Neft Akademiyasının velosiped stansiyası, Azərbaycan Texniki Universitetinin səkkiz salonlu idman korpusu, Bədən Tərbiyəsi İnstitutunun altı idman salonu olan yeni binası və s. tikilmişdi [195].

Ali məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni ixtisasların açılması prosesi davam edirdi. 1982-ci ildə ali məktəblərdə 134 fakültə və 570 kafedra fəaliyyət göstərirdi [167, v.32]. 1981/82-ci tədris ilində 18 ali tədris müəssisəsində 108,6 min nəfər təhsil alırdı [395, 192].

Xüsusilə, 1976–1980-ci illərdə ali məktəblərin elmi potensialı xeyli güclənmiş, elmlər doktoru və professorların sayı 32 %, elmlər namizədlərinin sayı 17% artmışdı. Ali məktəblərin kadr tərkibinin yaxşılaşmasında respublika Elmlər Akademiyasının, eləcə də sahə elmi tədqiqat müəssisələrinin görkəmli alimlərinin müəllimlik fəaliyyətinə aktiv cəlb edilməsi, müəllimlərin attestasiya və müsabiqələrinin keçirilməsinə diqqətin artırılması, onların SSRİ-nin aparıcı ali məktəblərində ixtisasartırma kurslarında müntəzəm iştirakının təmin edilməsi mühüm rol oynamışdı [167, v.30].

1970-ci illərdə Azərbaycan SSR-in iqtisadiyyatında mütərəqqi struktur dəyişikliklərinin baş verməsi ilə əlaqədar yaranan yeni sahələri yüksəkixtisaslı mütəxəssislərlə təmin etmək üçün ali məktəblərdə 6 yeni fakültə, 105 kafedra, bir sıra müasir problem laboratoriyaları yaradılmışdı [167, v.30]. 1980-ci ildə ali məktəblərdə 148 ixtisas üzrə mütəxəssis hazırlanırdı [306, 19–20]. Ali məktəbləri hər il 17–18 min gənc mütəxəssis bitirirdi.

Respublikanın ali məktəb tələbələrinin sosial tərkibində də əsaslı dəyişikliklər baş verirdi. Bu dövrdə ali məktəblərə qəbul olunanların tərkibində fəhlələr, kolxozçular və onların ailə üzvlərinin xüsusi çəkisi xeyli artmışdı. Belə ki, 1979-cu ildə ali məktəblərin birinci kursuna qəbul olunan tələbələr arasında fəhlə və kolxozçular və onların ailə üzvlərinin xüsusi çəkisi 69,8 % təşkil etmişdir, (1969-cu ildə bu göstəricisi 59 % idi) [167, v.32].

Ali məktəb tələbələri arasında qızların sayı və xüsusi çəkisinin xeyli çoxalması da səciyyəvi hal idi. 1970–1971-ci dərs ilində ali məktəblərdə oxuyan qızların sayı 36,7 min və bütün tələbələrin sayında onların xüsusi çəkisi 37 % təşkil edildisə, 1975-ci ildə müvafiq surətdə 40,7 min və 41 %, 1979-cu ildə isə 44,6 min və 42 % olmuşdu [264, 213].

Respublikanın ali məktəblərinin flaqmanı olan Bakı Dövlət Universitetində 15 min tələbə təhsil alırdı. Onların təlim-tərbiyəsinə 1200 professor-müəllim cəlb olunmuşdu [391, 88]. Universitet xalqın milli mənəvi dəyərlərinin qorunub saxlanmasında və inkişaf etdirilməsində, gənclərdə milli köklərə bağlılığın möhkəmləndirilməsində, azadlıq ideyalarının yayılmasında mühüm rol oynamışdı.

Naxçıvan MSSR-də müstəqil ali məktəbin yaradılması diyarın elmi mədəni inkişafının, ziyalı potensialının artmasına, maarifçilik hərəkatına müsbət təsir göstərmişdi. Muxtar respublikanın 50 illiyi ilə əlaqədar Naxçıvan Pedaqoji İnstitutunda olan Heydər Əliyev institutun müəllim və tələbələri ilə görüşmüş, onun daha da inkişafı üçün öz tövsiyə və tapşırıqlarını vermişdi. Elə həmin vaxtlarda Heydər Əliyev tərəfindən institutun universitetə çevrilməsi ideyası da irəli sürülmüşdü.

Azərbaycan SSR-də 1970–1980-cı illərdə təhsilin inkişaf göstəricilərindən biri dünyanın müxtəlif ölkələrindən buraya ali təhsil almaq üçün gənclərin gəlməsi idi. 1980-cı illərin əvvəllərində Bakının ali və orta ixtisas məktəblərində 72 xarici ölkədən 1700 nəfərdən çox tələbə təhsil alırdı [167, v.185].

Heydər Əliyev Cənubi Azərbaycandan (İran) olan gənclərin də Azərbaycan SSR-də təhsil almasına qayğı göstərirdi. Azərbaycan KP MK Bürosunun 1981-ci il 2 iyun tarixli qərarına [170, v.24] görə, Bakının ali məktəblərinə Cənubi Azərbaycandan olan gənclərin qəbul edilməsi nəzərdə tutulurdu. O bu qərar qəbul olunanadək Azərbaycan SSR rəhbərliyi tərəfindən bu istiqamətdə böyük iş aparmış, əvvəlcə Sov.İKP MK-nın SSRİ Ali və Orta İxtisas Təhsilli Nazirliyinə 1981–1982-ci tədris ilində Bakının ali məktəblərinə azərbaycanlı milliyyətindən olan iranlılar içərisindən on nəfərin qəbul edilməsi haqqında tapşırıq verməsinə dair qərar qəbul edilməsinə nail olmuşdu. Bundan sonra Azərbaycan hökumətinin qarşısında tələbələrin təhsil dövründə təqaüd və müvafiq vəsaitlə təminatı vəzifə kimi qoyulmuş, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinə onların qəbulu, yerləşdirilməsi və təhsilinin yüksək səviyyədə təşkili həvalə edilmişdi. Bu qərar o dövr üçün böyük tarixi hadisə idi. Əslində, bu qərar mahiyyəti etibarilə yalnız təhsillə bağlı olmayıb, həm də daha böyük siyasi məna kəsb edirdi. Burada Azərbaycanın Cənub və Şimal əraziləri arasında əlaqələrin

inkişafı, azərbaycanlıların birliyi, azərbaycançılıq ideyaları əks olunmuşdu [254, 51].

Bu dövrdə Heydər Əliyev Azərbaycan SSR gənclərinin SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almasının təşkilinə xüsusi önəm vermişdi. Müharibədən əvvəlki illərin ənənələrini bərpa edərək Moskva, Leninqrad (indiki Sankt-Peterburq), Kiyev, Daşkənd və SSRİ-nin digər şəhərlərinin ali məktəblərində Azərbaycan SSR iqtisadiyyatının bəzi sahələri üçün zəruri olan kadrlar hazırlanırdı. 1969-cu ildə Azərbaycan SSR-dən kənara təhsil almağa, əsasən də qeyri-azərbaycanlılardan ibarət olan 47 tələbə göndərilmişdisə [167, v.28], 1975-ci ildə bu rəqəm təqribən 700 nəfərə çatmışdı [254, 58]. Sonrakı illərdə gənclərin respublikadan kənarda təhsil almağa göndərilməsi daha intensiv xarakter almış, həm tələbələrin, həm də ali məktəblərin, həm də ixtisasların sayı baxımından yüksək artım sürəti müşahidə olunmuşdu.

Məsələn, 1977-ci ildə 818 nəfər SSRİ-nin 40 şəhərində 140 ali məktəbdə 244 ixtisas üzrə təhsil alırdı [176, v.1]. 1982-ci ildə respublikadan kənara təhsil almağa göndərilənlərin sayı 3309 nəfərə çatmışdı [175, v.9].

Heydər Əliyev sonralar bütün bunların heç də asanlıqla başa gəlmədiyindən danışarkən deyirdi ki, keçmiş Sovet İttifaqının ali məktəblərinə müsabiqədənkənar tələbə göndərmək hüququ almaq respublikanın rəhbəri kimi mənə nə qədər böyük çətinliklər törədirdi [44, 171].

1970-ci ilədək Azərbaycan SSR-dən kənarda təhsil alanların milli tərkibində azərbaycanlılar 40 %-dən az idi. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1976-cı ildə bu göstərici 85 %, 1977-ci ildə 92 %, 80-ci illərin əvvəllərində isə 97,6 %-ə yüksəlmişdi. Bu sahədəki işlərdən bəhs edən Heydər Əliyev deyirdi ki, bütün bunların hamısı o vaxtlar Azərbaycan SSR-in gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşıyırdı. Bu işə biz hələ 1970-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdu. Mən hələ o vaxtdan ölkənin gələcəyi haqqında düşünmüşəm.

Heydər Əliyev başda olmaqla, Azərbaycan SSR rəhbərliyi hər il avqustun sonlarında başqa şəhərlərdə təhsil almağa göndərilən gənclərlə görüşür, onlara xeyir-dua verirdi.

Heydər Əliyev başqa şəhərlərdə oxuyan azərbaycanlı tələbələrin təhsili, məişəti, sonrakı taleyi ilə daim maraqlanırdı. Respublika komsomolunun XXXI qurultayındakı (1982) nitqində Moskvanın, Leninqradın, Kiyevin və başqa şəhərlərin ali məktəblərini bitirmiş mütəxəssislərə bir sıra nazirliklərin və başqa idarələrin göstərdiyi biganə münasibəti kəskin tənqid edərək, bir çox gənc mütəxəssisin uzun müddət işə düzələ bilmədiyinə dair konkret faktlar gətirmiş, dövlət orqanlarının qarşısında ciddi tələblər qoymuşdu. O, tövsiyə edirdi ki, gənc mütəxəssislərin yaradıcılıq, peşə və vəzifə inkişafına gündəlik qayğı göstərmək, həyatda onların öz əməyinə və qabiliyyətinə layiq yer tutmasına kömək etmək lazımdır [30, 58–60].

Hər bir siyasi xadimin böyüklüyü həm də ondadır ki, o, taleyüklü məsələləri vaxtında görür və onları həll etməyə nail olurdu. Bu, özünü Heydər Əliyevin milli hərbçi kadrların yetişdirilməsinə böyük önəm verməsində göstərmişdi. 1971-ci il iyunun 20-də o, Azərbaycan SSR-in gələcəyini düşünərək Bakıda C.Naxçıvanski adına Respublika orta ixtisaslaşdırılmış internat məktəbinin açılmasına nail olmuşdu [141, v.222]. Bu, böyük bir tarixi uzaqgörənlik, zamanı və vaxtı qabaqlamaq idi. Bu gün Azərbaycan Milli Ordusunun zabitlərinin böyük əksəriyyəti bu məktəbin yetirməsidir. Sonralar Heydər Əliyev bu hadisəni xatırlayaraq deyirdi ki, 30 il öncə mən Azərbaycan SSR-də heç vaxt oxşarı olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratdım. Doğrudan da, mənim həyatımda gördüyüm işlər içərisində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən 30 il keçəndən sonra şəxsən özüm çox yüksək qiymətləndirirəm.

1981–1982-ci tədris ilində C.Naxçıvanski adına xüsusi hərbi məktəbin 540 nəfər məzunu SSRİ-nin ali hərbi təhsil müəssisələrində oxuyur, 130 məzun isə artıq zabit kimi hərbi xidmət keçirdi [83]. 1972-ci ildən etibarən Azərbaycan SSR-dən SSRİ-nin müxtəlif ali hərbi məktəblərinə hər il 300–400 nəfər göndərilirdisə, 1980-ci illərin əvvəllərində onların sayı 800–1000 nəfərə çatmışdı. Bütövlükdə, 1970–1980-ci illərdə keçmiş SSRİ-nin ali məktəblərində müxtəlif hərbi ixtisaslar üzrə 2000-dən dən çox azərbaycanlı zabit hazırlanmışdı [228].

Bakıda yerləşən iki ali hərbi məktəb kursantlarının tərkibində azərbaycanlıların sayı ilbəil artırdı. 1981-ci ildə tələbə gənclərlə görüşündə Heydər Əliyev deyirdi ki, indi ali hərbi məktəblərə hər il

yerli millətdən 300–400 nəfər oğlan qəbul edilir. 1981-ci ildə ölkənin ali hərbi məktəblərinə respublikamızdan 804 nəfər, o cümlədən yerli millətdən 416 nəfər daxil olmuşdur [178, v.201]. İlk dəfə gənclərin böyük bir qrupu təyyarəçilik məktəblərinə göndərilmişdi.

Ümummilli lider bütün bu işləri Azərbaycan SSR-in taleyini, onun gələcəyini düşünərək görürdü. Heydər Əliyevin səyləri sayəsində 1970–1980-ci illərdə SSRİ-nin 50-dən çox şəhərində Azərbaycan SSR üçün 17 000-dən çox mütəxəssis kadr hazırlanmışdı [244, 195]. Onlar özlərini iqtisadiyyatın müxtəlif şəhərlərində yüksəkixtisaslı mütəxəssis kimi göstərmişdilər və indi də istehsalın elmi-texniki tərəqqini müəyyən edən sahələrində, respublikanın səhiyyə, maarif, mədəniyyət və elm müəssisələrində çalışırlar.

1970–1980-ci illərin əvvəllərində Heydər Əliyevin xalq təhsilinin inkişafı sahəsində həyata keçirdiyi uzaqgörən siyasəti respublika əhalisinin təhsil səviyyəsinin əhəmiyyətli şəkildə artmasında da özünü göstərdi. Əgər respublikada 1970-ci ildə əhalinin 10 yaş və ondan yuxarı hər 1000 nəfərinə 471 ali və orta (tam və natamam) təhsilli mütəxəssis düşürdüsə, 1982-ci ildə bu göstərici 700 nəfər təşkil edirdi [399, 33]. Respublika iqtisadiyyatının müxtəlif sahələrində işləyənlərin 1000 nəfərinə düşən ali və orta (tam və natamam) təhsillilərin sayı 1970-ci ildəki 674 nəfərdən 1982-ci ildə 867 nəfərə çatmışdı [399, 194].

1970–1980-ci illərdə Azərbaycan SSR əhalisinin ümumtəhsil səviyyəsinin əhəmiyyətli dərəcədə artması, öz növbəsində, iqtisadiyyatın yüksəkixtisaslı kadrlarla təmin edilməsinin yaxşılaşmasına müsbət təsirini göstərdi. Bu illərdə mütəxəssislərin sayının artımını aşağıdakı statistik məlumatlar təsdiq edir. Respublika iqtisadiyyatının müxtəlif sahələrində 1960-cı ildə 152 min (o cümlədən 73 min ali və 79 min orta təhsilli), 1970-ci ildə 274 min (129 min ali və 145 min orta təhsilli), 1981-ci ildə 520 min (270 min ali və 250 min orta təhsilli) mütəxəssis çalışırdı [399, 194]. Ziyalıların sayca artması ilə yanaşı, onun tərkibində keyfiyyət dəyişikliyi də baş verildi. 1985-ci ildə Azərbaycan SSR-də 23,182 elmi işçi, 89,3 min mühəndis, 148,7 min pedaqoq və mədəniyyət işçisi, 26,9 min iqtisadçı, 14,7 min kənd təsərrüfatı kadrı var idi. Bu illərdə ali və orta ixtisas təhsili müəssisələrində hazırlanan qadın mütəxəssislərin sayının artımı səciyyəvidir. 1981–1982-ci tədris

ilində ali və orta ixtisas məktəblərində təhsil alan qadınların sayı 1970-ci ildəki 63,6 min nəfərdən 83,3 min nəfərə yüksəlmişdi [399, 272].

Beləliklə, 1969–1982-ci illər respublikada təhsilin inkişafında, əhalinin ümumtəhsil səviyyəsinin yüksəlməsində mühüm mərhələ olmuşdu. Bu dövrdə Ümummilli lider Heydər Əliyevin bilavasitə diqqət və qayğısı sayəsində təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların pedaqoji kadrlarla təmin edilməsi, təhsilin forma və məzmununun yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmişdi. Ümumtəhsil məktəblərinin şəbəkəsi genişləndirilmiş, onların strukturunda mühüm dəyişikliklər baş vermişdi. İşləyən gənclərin orta təhsilə cəlb edilməsində əhəmiyyətli irəliləyişlər baş vermiş, texniki peşə məktəblərinin və orada təhsil alanların sayı nəzərəçarpacaq dərəcədə artmışdı. Ali və orta ixtisas təhsilli kadrların hazırlanması, respublika iqtisadiyyatının ixtisaslı kadrlara olan tələbatının ödənilməsində böyük nailiyyətlər əldə edilmiş, əhalinin ümumtəhsil səviyyəsi sürətlə yüksəlmişdi. Bütün bunlar Ümummilli lider Heydər Əliyevin təhsil strategiyasının bariz nəticələri idi.

6.2. Elmin inkişafı

Azərbaycan xalqının çoxminillik tarixində XX əsr mühüm yer tutur. Ötən yüzillikdə Azərbaycan xalqı bir neçə əsrə bərabər inkişaf yolu keçmiş, özünün qədim mədəniyyətinin, elminin, dilinin sürətli tərəqqisinə nail olmuşdur. Azərbaycan tarixinin taleyüklü zəngin hadisələrlə dolu 30 ildən artıq bir dövrü Azərbaycan Respublikasına rəhbərlik etmiş Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin həyatı, fəaliyyəti Azərbaycan xalqının taleyi ilə çox sıx bağlı olmuşdur. Bu tarixi şəxsiyyətin fəaliyyətinin hər səhifəsi Azərbaycan tarixinin mərhələləri ilə üst-üstə düşür, bəzən hətta indi arxada qalmış o tarixin bütövlükdə dərkini şərtləndirir.

1969-cu ilin iyulunda, respublikada ictimai-siyasi durumun xeyli mürəkkəbləşdiyi, iqtisadiyyatın böhran keçirdiyi bir vaxtda siyasi rəhbərliyə gələn Heydər Əliyevin gərgin əməyi, müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycan SSR qısa bir zamanda SSRİ-nin geridə qalmış əyalətindən bütün sahələrdə sürətlə inkişaf edən, yüksələn respublikaya çevrildi.

Totalitar rejimin, imperiya təfəkküründün hakim olduğu bir dövrdə respublikaya rəhbərlik edən Heydər Əliyev öz böyük dühası, uzaqgörənliyi ilə Azərbaycan SSR-də gələcəyə hesablanmış böyük bir maddi-intellektual potensial yarada bilmişdi. Azərbaycan tarixinin sovet hakimiyyəti dövründə elmin və təhsilin ən yüksək inkişafı 70–80-ci illərə təsadüf edir. 1970–1982-ci illər Azərbaycan xalqının milli-mənəvi həyatında intibah dövrünə çevrilmiş, azadlıq ideyaları, azərbaycançılıq, dövlətçilik dəyərləri ictimai şüurda dərin kök salmışdı.

Azərbaycan aliminə və elminə xüsusi qayğı göstərən Heydər Əliyev bu sahədəki fəaliyyətini ardıcıl və sistemli olaraq bir neçə istiqamətdə həyata keçirirdi: elmi tədqiqat institutlarının və elmi işçilərin sayını artırır; Azərbaycan elminin ölkədə və dünyada təbliğinə səy göstərir; görkəmli alimlərin dövlət tərəfindən mənəvi həvəsləndirilməsinə nail olur; Azərbaycan milli tarixi, dili və ədəbiyyatı sahəsində tədqiqatların genişləndirilməsini təşviq edir; milli ruhlu alimləri təqib və təzyiqlərdən qoruyaraq himayə edir, onlara yaradıcılıq şəraiti yaradırdı və s. [246, 136–137].

Əlbəttə, Heydər Əliyevin fəaliyyətini sovet dövlətinin yeritdiyi ümumi siyasətdən kənarda izləmək düzgün olmazdı. Lakin danılmaz bir həqiqətdir ki, o, yaranmış ən kiçik imkanlardan belə xalqın mənafeləri naminə istifadə edirdi. Sovet rejiminin sərt qanunlarına baxmayaraq, Heydər Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi siyasət Azərbaycan xalqının tarixi ənənələrinin və zəngin mədəniyyətinin öyrənilməsini, təbliğini, milli ruhlu ziyalı elitanın formalaşdırılmasını, milli özünüdərkə, mənəvi dəyərlərə qayıdışı təmin etdi. Bu dövr ərzində Heydər Əliyev Azərbaycan xalqını və respublikanı zamanın ağır sınaqlarından çıxardı, ölkənin ictimai-siyasi, iqtisadi, mədəni-mənəvi tərəqqisinə nail oldu [233, 22].

Heydər Əliyevin rəhbərliyi dövründə bütün sahələrdə olduğu kimi, elmdə də sürətli irəliləyiş baş verdi. Azərbaycan elmi, onun əsas mərkəzi olan Elmlər Akademiyası Heydər Əliyevin daim diqqət mərkəzində idi və özünün dediyi kimi, Akademiyanın son 50 ilinin yarısından çoxu onun həyatı, rəhbərliyi ilə bağlıdır. O, sübut etmişdir ki, dövlətin sosial-iqtisadi qüdrəti, ölkənin müdafiə qabiliyyəti və milli təhlükəsizliyi, cəmiyyətin mədəni-mənəvi tərəqqisi və xalqın rifahı elmin inkişaf səviyyəsi ilə birbaşa əlaqəlidir.

Təsadüfi deyil ki, Heydər Əliyev respublikada rəhbər seçildiyi ilk günlərdən Azərbaycan SSR-də elmin bütün sahələrinin inkişaf etdirilməsi ilə bağlı məsələlərə xüsusi diqqət yetirmiş və onun sürətli inkişafını təmin edən mühüm qərarlar qəbul etmişdir. Azərbaycan KP MK-nın avqust (1969), oktyabr (1971), iyul (1975) plenumlarında respublikada elmi kadrların hazırlanması, bütövlükdə, elm sahəsindəki ciddi nöqsanlar aşkara çıxarılmış və onların həlli yolları göstərilmişdi [374, 14].

Heydər Əliyev Azərbaycan KP MK-nın 1969-cu il 5 avqust plenumunda elm və təhsil sahəsində mövcud nöqsanları kəskin tənqid edərək Elmlər Akademiyası institutlarının və sahə elmi tədqiqat müəssisələrinin fəaliyyətini daha da gücləndirməyin, ali məktəblərə, texnikumlara, aspiranturaya qəbulun tam obyektiv aparılmasının vacibliyini qeyd etmişdi. O, xüsusilə elmi kadrların hazırlanması işinə diqqəti cəlb edərək demişdir: «Biz aspiranturaya münasibəti kökündən dəyişməli, ona elmin tələbləri, kadrlar hazırlanması vəzifələri ilə heç bir əlaqəsi olmayan mülahizələrə görə qəbul hallarını aradan qaldırmalıyıq. Dissertasiya işlərinə tələbkarlıq xeyli artırılmalıdır, elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirməyə, irəlilətməyə qabil olan adamlar gəlsinlər» [283].

Heydər Əliyev milli kadr potensialının zənginləşdirilməsini respublikanın dinamik inkişafının əsas şərti kimi qiymətləndirirdi. Ümummilli lider Azərbaycan elminin maddi-texniki bazasının, təchizatının yaxşılaşdırılması, respublikanın elmi potensialının artırılması, elmi-texniki inkişafın təmin edilməsi, elm və təhsil sahələri üçün yüksəkixtisaslı kadrların hazırlanması, onlara hərtərəfli qayğı göstərilməsi, elmi işçilərin cəmiyyətdə nüfuzunun artırılması sahəsində bir sıra mühüm sosial-iqtisadi və sosial-mədəni dəyişikliklərin əsasını qoymuşdur [94, v.4]. Azərbaycan SSR-də təhsil ocaqlarının sayının çoxalması, azərbaycanlı tələbələrin SSRİ-nin ən qabaqcıl ali məktəblərinə oxumağa göndərilməsi, Azərbaycan Elmlər Akademiyasında bir sıra elmi tədqiqat institutlarının yaradılması, yeni elm və təhsil ocaqlarının tikilməsi və onların maddi-texniki bazalarının möhkəmləndirilməsi Azərbaycan SSR-in elmi və kadr potensialını gücləndirməyə xidmət edən, gələcəyə istiqamətlənmiş strategiyanın mühüm bir vəsiləsi idi.

Məhz Heydər Əliyevin gündəlik qayğısı və tələbkarlığı sayəsində respublika Elmlər Akademiyasının işi yenidən quruldu. 1970-ci il iyu-

nun 19-da Azərbaycan EA-nın ümumi yığıncağında görkəmli fizik, akademik Həsən Abdullayev Azərbaycan EA-nın prezidenti seçildi [94, v.222]. Həmin illərdə o dövr üçün çox yüksək texnika və avadanlıqla təchiz olunmuş laboratoriyalar, sənaye-təcrübə bazaları, eksperimental zavodlar, elmi mərkəzlər və yeni elmi tədqiqat institutları respublika alimlərinə elmin üstün istiqamətlərində səmərəli axtarışlar, məhsuldar tədqiqatlar aparmağa əlverişli imkanlar yaratdı.

Ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan SSR iqtisadiyyatının inkişafında akademiyanın elmi potensialından geniş miqyasda istifadə edilməsi haqqında Heydər Əliyevin göstərişlərinin həyata keçirilməsinin təmin olunması ilə əlaqədar akademiyanın Rəyasət Heyəti elmi tədqiqat mövzularının dəqiqləşdirilməsi və təkmilləşdirilməsi, elmi müəssisələrin fəaliyyətinin yenidən müəyyənləşdirilməsi sahəsində gərgin iş görürdü [249, 91].

1970–1980-ci illərdə Azərbaycan elmi dünya elminə birbaşa inteqrasiya olunmaq imkanı qazandı, cəmiyyət həyatına, onun tərəqqisinə xidmət edən fundamental kəşflərə imza atdı. Xalq təsərrüfatının və elmin özünün inkişafına müvafiq olaraq, Elmlər Akademiyası müəssisə və təşkilatlarının fəaliyyətinin aparıcı istiqamətləri müəyyən edildi. Respublika alimlərinin diqqəti elmin xalq təsərrüfatında səmərə verə biləcək istiqamətlərinə yönəldildi. Bununla yanaşı, respublikanın iqtisadi və sosial məsələlərinin uğurlu həlli üçün yeni texnika və texnologiyaların yaradılması istiqamətində tədqiqatların dairəsinin genişləndirilməsi qərara alındı [234, 3].

Heydər Əliyev Azərbaycan SSR-in sosial-iqtisadi və mədəni inkişafının bütün sahələrində olduğu kimi, elmin də inkişafını buxovlayan, ləngidən mənfi halların vaxtında aradan qaldırılması üçün bir çox mühüm tədbirlərin təşəbbüskarı olmuşdur. Bu, 1971–1980-ci illəri əhatə edən və Azərbaycan tarixinə ən məhsuldar dövr kimi daxil olmuş 1971–1975 və 1976–1980-ci illərdə özünü daha aydın şəkildə büruzə vermişdir. Azərbaycan SSR Cənubi Qafqazın qabaqcıl elm mərkəzinə çevrilmiş, digər respublikaları xeyli qabaqlamışdı.

Heydər Əliyev Azərbaycan SSR-i SSRİ elminin mərkəzlərindən birinə çevirmək məqsədilə elmi tədqiqat institutlarının, elmi işçilərin sayının artırılmasına mühüm diqqət yetirirdi. Elm mərkəzlərinin bazasının güclənməsi, Azərbaycan EA-da, habelə bir sıra digər elm mərkəz-

lərində ilk dəfə böyük miqyasda layihə-konstruktor bürolarının, təcrübə zavodlarının yaradılması, elmə böyük tələbkarlıq və eyni zamanda qayğı ilə yanaşma nəticəsində elmi tədqiqat işlərinin səviyyəsi yüksəldi, elmin sənayedə tətbiqi sürətləndi və genişləndi [257, 80]. Neft sənayesi, kənd təsərrüfatı, tikinti, səhiyyə və s. sahələr üzrə nazirliklərin, baş idarələrin nəzdində elmi tədqiqat müəssisələri fəaliyyət göstərirdi.

Respublikada aparılan elmi tədqiqatların maliyyələşdirilməsi və maddi-texniki təminatı məsələləri daima respublika rəhbərliyinin nəzarətində olmuşdur. 1971–1975-ci illər ərzində elmin inkişafına 159,5 mln., 1975–1980-ci illərdə 174,9 mln. rubl sərf edilmişdi [399, 60]. 1970-ci illə müqayisədə 1980-ci ildə Elmlər Akademiyasında elmi tədqiqatların maliyyələşdirilməsi 11180 min rubl artmış [94], EA əməkdaşlarının əməkhaqqı 1,5 dəfə yüksəlmişdi. Cihaz və elmi avadanlığın alınmasına çəkilən xərclər də 2 dəfə artmışdı [251, 138].

Bu illərdə respublikada 12 elmi mərkəz yaradılmış, Elmlər Akademiyasının Genetika və Seleksiya, Zoologiya, Aşqarlar Kimyası İnstitutlarının binaları, aspirantlar üçün yataqxana, Şamaxı rayonunda 40 mənzilli yaşayış binası, Təbii Ehtiyatların Kosmik Tədqiqatları İnstitutunun mühəndis-laboratoriya korpusu, Coğrafiya İnstitutunun Pirqulu stasionar bazası istifadəyə verilmiş, Nəbatat bağının yenidən qurulması və genişləndirilməsi həyata keçirilmiş, Riyaziyyat və Mexanika İnstitutunun laboratoriya korpusunun inşasına başlanılmışdı [111].

1970–1982-ci illərdə elmi müəssisələrin (ali məktəblər də daxil olmaqla) sayı 142-dən 151-ə, o cümlədən elmi tədqiqat institutlarının və onların filiallarının sayı 73-dən 85-ə çatmışdı. Elmi tədqiqatla məşğul olan işçilərin sayı 17082 nəfərdən 22987 min nəfərədək, elmlər doktorlarının sayı 652 nəfərdən 921 nəfərə, elmlər namizədlərinin sayı isə 5346 nəfərdən 8725 nəfərədək artmışdı [271, 22].

Respublika Elmlər Akademiyasında kadr potensialı kəmiyyət və keyfiyyət baxımından nəzərəçarpacaq dərəcədə yaxşılaşmış, elm adamlarının nüfuzu yüksəlmişdi. 1969–1982-ci illərdə Azərbaycan Elmlər Akademiyasında çalışan işçilərin sayı 1,9 dəfə artaraq 7892 nəfərdən 15072 nəfərə, o cümlədən elmi işçilərin sayı 45,6% artaraq 3431 nəfərdən 4995 nəfərə, elmlər doktorlarının sayı 1,5 dəfədən çox artaraq 188 nəfərdən 285 nəfərə, elmlər namizədlərinin sayı isə 1,6 dəfədən çox artaraq 1275 nəfərdən 2068 nəfərə çatmışdı [396, 18].

Bu illərdə respublikada aspirantura təhsilinə də qayğı və diqqət xeyli yüksəlmiş, bu sahədə müəyyən nailiyyətlər əldə olunmuşdu. Əgər 1969-cu ildə Elmlər Akademiyası institutlarının aspiranturasını bitirənlərin cəmi 22%-i dissertasiya işlərini vaxtında tamamlayıb müdafiə etmiş və ya müdafiəyə təqdim etmişdisə, 80-ci illərin əvvəllərində bu göstərici 30,8%-ə qalxmışdı [80, v.1]. Ali məktəblərin aspiranturalarını uğurla başa vuranların (dissertasiya müdafiə edənlərin və müdafiəyə təqdim edənlərin) ümumi göstəricisi 1971-ci ildə 50,3%, 1980-ci ildə isə 72 % təşkil etmişdi [189, v.188; 192; 191, v.126–128].

1971–1980-ci illərdə ali məktəblərdə 1055 namizədlik və 159 doktorluq, Akademiya üzrə isə 1545 namizədlik və 180 doktorluq dissertasiyası müdafiə olunmuşdu. Təkcə 1982-ci ildə Akademiyanın institutlarında 159 namizədlik və 20 doktorluq dissertasiyası müdafiə edilmişdi. Ümumilikdə isə 1970–1982-ci illərdə respublikada 265 elmlər doktoru və 3141 elmlər namizədi hazırlanmışdı [190, 95; 191, v.124; 94, v.6; 99, v.89].

Bu illərdə istedadlı, elmə marağı olan gənclərin Akademiyaya işə qəbul edilməsinə də xeyli diqqət, qayğı göstərilirdi. Bu səbəbdən də Akademiyanın kollektivi «cavanlaşmış» və elmi fəallığı əhəmiyyətli dərəcədə yüksəlmişdi. Belə ki, əgər 1976-cı ildə Azərbaycan EA-nın institutlarına ali məktəbləri və istehsalatdan ayrılmaqla aspiranturanı bitirmiş 131 nəfər gənc mütəxəssis işə qəbul edilmişdisə, 1982-ci ildə onların sayı 208 nəfərdən çox idi [256, 240].

Heydər Əliyevin elmi işçilər arasında azərbaycanlıların xüsusi çəkisinin artırılmasına ciddi münasibəti öz bəhrəsini verirdi. Məsələn, azərbaycanlı elmi işçilərin sayı 1970-ci ildəki 12111 nəfərdən 1977-ci ildə 16264 nəfərə çatmışdı [106, v.134].

Bu illərdə Azərbaycan Elmlər Akademiyasında dörd dəfə (1969, 1972, 1976 və 1980-ci illərdə) seçkilər keçirilmiş, nəticədə akademiyanın həqiqi və müxbir üzvlərinin sayı xeyli artmışdı. Respublika Elmlər Akademiyasında həqiqi, müxbir üzvlərin və professorların sayı 1960-cı ildəki 55 nəfərdən 1970-ci ildə 506, 1982-ci ildə 735 nəfərə çatmışdı [106, v.134]. Belə ki, 1972-ci ildə Fizika-Texnika və Riyaziyyat Elmləri Bölməsi üzrə H.Sultanov, Kimya Elmləri Bölməsi üzrə İ.Orucova, Yer haqqında Elmlər Bölməsi üzrə M.Quluzadə, Biologiya Elmləri Bölməsi

üzrə V.Ulyanişşev Akademiyanın həqiqi üzvləri, 13 nəfər alim isə müxbir üzv seçildilər. A.Muxtarov, C.Allahverdiyev (Fizika-Texnika və Riyaziyyat Bölməsi), Ə.Quliyev, T.Şahtaxtinski (Kimya Elmləri Bölməsi), K.Cəlilov, E.Şıxlinski (Yer haqqında Elmlər Bölməsi), M.Salayev, H.Həsənov (Biologiya Elmləri Bölməsi), C.Quliyev, Ə.Mahmudov və V.Qəhrəmanov (İctimai Elmlər Bölməsi) elmi nəticələrinin xalq təsərrüfatının müxtəlif sahələrində tətbiqinə nail olan, yeni fikirlər irəli sürən alimlər idilər. Sonrakı illərdə görkəmli alimlərdən C.Əliyev, F.Maqsudov, M.Əliyev, İ.İbrahimov, Ə.Quliyev, M.Abbasov, M.Əlizadə, M.Cavadzadə, C.Quliyev akademiyanın həqiqi üzvləri, M.Qasımov, M.Şahtaxtinski, F.Həşimzadə, H.Seyidov, T.Əliyev, F.Hüseynov, Ç.Qacar, R.Bakıxanov, N.Hüseynov, M.Hüseynov, Y.Qənbərov, K.Sadıxov, B.Dadaşov, İ.Kərimov, N.Səmədov, B.Ağayev, İ.Əliyev, T.Köçərli, B.Vahabzadə, Ə.Mirəhmədov, K.Talıbzadə və Z.Budaqova müxbir üzvləri seçilmişdilər. (1980-ci il). Beləliklə, təqribən on il ərzində akademiyanın tərkibinə 49 nəfər həqiqi və müxbir üzv daxil olmuşdu [249, 114].

Bilavasitə Heydər Əliyevin himayəsi altında Azərbaycan SSR-də elmin ən perspektivli sahələri üzrə geniş tədqiqat işləri aparılırdı. 1970–1985-ci illər ərzində Azərbaycan EA-nın nəzdində elmin müasir sahələri üzrə günün tələblərinə uyğun bir çox elmi tədqiqat institutları, xüsusi konstruktor büroları və sahə institutları yaradıldı. Belə ki, EA-nın Yer Fizikası Bölməsi, Radiasiya Tədqiqatları Bölməsi (1969), Fizika-riyaziyyat və texnika elmlər bölməsi üzrə Avtomatlaşdırılmış idarəetmə sistemləri (1971), Riyaziyyat və Mexanika İnstitutunun nəzdində Xüsusi Konstruktor Bürosu (1978), «Kristal» Xüsusi Konstruktor Bürosu (1979), «Registr» Xüsusi Konstruktor Bürosu, ümumiyyətlə, 13 yeni elmi tədqiqat idarəsi və xüsusi konstruktor bürosu yaradılmışdı.

Heydər Əliyevin təşəbbüsü ilə yaranan Neft Kimyası Prosesləri İnstitutunun Sumqayıt filialı bazasındakı Xlor-Üzvi Sintez İnstitutu (1978) sonralar Yüksək Molekullu Birləşmələr İnstitutuna çevrildi. Mikrobiologiya və İctimai və Humanitar Elmlər üzrə iki müstəqil bölmə yarandı. İctimai elmlər üzrə Elmi-İnformasiya Mərkəzi yaradıldı ki, bu da sonralar İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutuna çevrildi. Tarix İnstitutunun Arxeologiya və Etnoqrafiya Sektorunun

bazasında Arxeologiya və Etnoqrafiya İnstitutu yaradıldı. Xalqlar Dostluğu Sarayının bazasında Milli Münasibətlər İnstitutu, Neft Kimyası Prosesləri İnstitutunun təcrübə-sənaye zavodu (1973), «Xəzər» Bioloji Stansiyası (1974), Geofizika və Bioloji Cihazqayırma Konstruktor Bürosu (1977), Təbii Ehtiyatların Kosmik Tədqiqatları İnstitutu (1978), Elmi tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutu (1976) və «Kristal» Xüsusi Konstruktor-Texnoloji Bürosu (1985) yaradıldı.

Respublikanın rayonlarında EA-nın elmi müəssisələrinin və təşkilatlarının coğrafiyası əhəmiyyətli dərəcədə genişləndirilmişdi. Belə ki, Elmlər Akademiyasının nəzdində Naxçıvan və Gəncə Elm Mərkəzləri (1972), Şəki Regional Elmi bazası (1972), Zaqatala elm-eksperimental meydançası və digər rayonlarda biologiya profilli institutların bir sıra təcrübə təsərrüfatları təşkil olunmuşdu [96, v.188].

Bütün bunlar EA-da ciddi dəyişikliklərə, elmi-texniki tərəqqinin və respublikanın sosial-iqtisadi inkişafının tələbləri ilə əlaqədar onun imkanlarının genişlənməsinə dəlalət edirdi [251, 129].

Elmin istehsalatla əlaqəsinin yeni, keyfiyyətli formaları inkişaf edirdi. Akademiya institutları, nazirlik və idarələrin bazası əsasında olan sənaye və kənd təsərrüfatı müəssisələri ərazisində sahə laboratoriyaları təşkil edilmişdi. Bu amil elmi nailiyyətlərin maneəsiz şəkildə xalq təsərrüfatında sınaqdan keçirilməsinə şərait yaratmışdı. 1970–1985-ci illərdə EA-nın iqtisadi əhəmiyyətə malik 850-yə yaxın tədqiqatı xalq təsərrüfatında tətbiq edilmişdi.

Məlum olduğu kimi, ixtira və patent işləri uğurlu elmi tədqiqatların əsas göstəricisidir. Bu müddət ərzində EA-nın alimləri ixtira üzrə 1733 müəlliflik şəhadətnaməsi almışdılar ki, onlardan 94-nə dünyanın 56 ölkəsindən 333 patent verilmişdi.

Azərbaycan EA-nın müəssisələrində təbiət elmləri və ictimai elmlər sahəsində aparılan fundamental tədqiqatlar nəticəsində 2280 elmi, elmi-texniki və xalq təsərrüfatı əhəmiyyətli nəticə alınmışdı [251, 130].

Elmi işlərin təşkili və tətbiqinin yeni forması yaradılmışdı: respublika Elmlər Akademiyası və ayrı-ayrı nazirliklər tərəfindən uzunmüddətli kompleks elmi-texniki proqramlar üzrə birgə işlərin görülməsi öz müsbət nəticəsini verirdi. Bu illər ərzində respublika alimləri Moskvanın, Leninqradın, Tbilisinin və bir çox başqa şəhərlərin institutları, elmi idarələri ilə birlikdə 200-dən artıq kompleks elmi

tədqiqat işi yerinə yetirmiş və İttifaq miqyaslı 52 kompleks elmi-texniki proqramın yerinə yetirilməsində iştirak etmiş, hər il 690 milyon manatlıq iqtisadi səmərə verən 425 min ixtira və səmərələşdirici təklif tətbiq etmiş, 6200 yeni növ maşın, cihaz, avadanlıq (o cümlədən 450-si SSRİ-də ilk dəfə Azərbaycan SSR-də) yaratmışdılar. İstehsalatda tətbiq edilən mexanizm vasitələrinin 60%-i 1970–1980-ci illərin payına düşürdü [256, 239].

Təsərrüfat müqaviləsi ilə görülən işlərin sayının durmadan artması xalq təsərrüfatı vəzifələrinin yerinə yetirilməsində akademiya institutlarının və elmi müəssisələrin istehsalat müəssisələri ilə sıx əməkdaşlığının vacibliyini da sübut edirdi. Belə işlərin sayı 1969-cu illə müqayisədə 1980-ci ildə 10 dəfə, təsərrüfat hesablı təşkilatlar üzrə isə 40 dəfə artmışdı [249, 100; 101, v.123].

İqtisadi əhəmiyyətli elmi problemlərin tədqiqi respublika elminin üstün istiqamətləri kimi ön plana çəkilirdi. Akademiya rəhbərliyinin qayğısı sayəsində elmi işçilər aylarla SSRİ-nin ən məşhur elm mərkəzlərinin laboratoriya və kitabxanalarında işləmək imkanları əldə edirdilər. Yaşlı və cavan nəslin elmi əsərləri, monoqrafiyaları nəşr olunur, aparıcı elmi müəssisələrin fundamental tədqiqatları, xaricdə çıxan elmi nəşrlər kitabxanalara daxil olurdu. Elmi kadrların intellektual baxımdan zənginləşməsinə kömək edən birgə seminarlar, beynəlxalq simpoziumlar və konfranslar keçirilirdi. Akademiyanın potensial elmi qüvvələri dövrün elmi ritmini və onun gələcək perspektivlərini hiss edirdilər. Respublikada elmi, nəzəri, təcrübi mərkəz kimi, akademiya, bir tərəfdən, Azərbaycan SSR-in intellektual həyatına başçılıq edir, digər tərəfdən, xalqımızı dünya elminin nailiyyətləri ilə əlaqələndirirdi.

Azərbaycan SSR-in sosial-iqtisadi inkişafı ilə bağlı bir sıra mühüm dövlət sənədlərində respublika alimlərinin təklifləri, tövsiyə və proqnozları nəzərə alınırdı. Tədqiqatlar xalq təsərrüfatının tələbləri, respublikanın məhsuldar qüvvələrinin inkişafı, bütövlükdə, Azərbaycan SSR-in iqtisadi və mədəni inkişafı ilə əlaqələndirilirdi [249, 97–98].

Elmin inkişafı sahəsində ali təhsil müəssisələri də mühüm rol oynayırdı. Onların yüksək elmi potensialı fundamental xarakterli, istehsalın konkret tələblərinin təmin edilməsinə yönəldilmiş, təsərrüfat hesablı müqavilələr əsasında əhəmiyyətli tətbiqi araşdırmalar aparmağa imkan verirdi. Ayrı-ayrı elmi müəssisələr, ali məktəb kafed-

raları neft və qaz yataqlarının araşdırılması, tibbi termoelektrik turşuların hasilatı və yarımkeçirici maqnitlər problemi sahələrində aparıcı mövqe tuturdu.

Azərbaycan KP MK-nın dekabr 1979-cu il və fevral 1980-ci il plenumlarının qarşıya qoyduğu vəzifələrdən irəli gələn məsələləri həll etmək məqsədilə Elmlər Akademiyası bütün qüvvələrini elmi tədqiqat işlərinin keyfiyyətinin yüksəldilməsinə, nailiyyətlərin istehsalatda tətbiqinə, ətraf mühitin mühafizəsi problemlərinə dair tədqiqatların genişləndirilməsinə, yeni elmi ideyaların və texniki nəticələrin reallaşmasına, qüvvələrin iqtisadiyyatın inkişafına yönəldilməsinə səfərbər etmişdi. Elmlər Akademiyası qarşısında qoyulmuş yeni məsul vəzifələrlə əlaqədar olaraq onun institutlarında işlənən problemlərin və mövzuların sayı artdı. Bu illər ərzində ilk dəfə olaraq, Azərbaycan EA-da 170 problem üzrə 540 müxtəlif mövzu və 1000-dən artıq iş yerinə yetirilmişdi ki, onların da 210-u İttifaq əhəmiyyətli olub, SSRİ EA, SSRİ Nazirlər Soveti yanında Elm və Texnika Komitəsi və digər idarələrlə birlikdə aparılmış, 305-i isə respublika əhəmiyyətli işlər olmuşdu [256, 237].

Əgər 1970-ci ildə Azərbaycan Elmlər Akademiyasında cəmi 66 kompleks mövzu və iş yerinə yetirilmişdirsə, 1975-ci ildə onların sayı 2,2 dəfə artaraq 144-ə çatmışdı. Elmlər Akademiyasının alimləri 1945–1955-ci illərdə cəmi 5 elmi nəticə əldə etmişdilərsə, 1971–1975-ci illərdə bu nəticələrin sayı 96-dan çox idi və ya 19,2 dəfə artmışdı. Bu dövrdə Azərbaycan SSR-də elmin inkişaf səviyyəsinin yüksəlməsini həmin faktlardan aydın görmək olar [255, 130].

Elmi araşdırmaların ölkə iqtisadiyyatında tətbiqi onların əhəmiyyətlilik göstəricilərindən biridir. Bu baxımdan, 1971–1985-ci illərdə Azərbaycan SSR-də istehsalatda 88,1 min texnika sınağı keçirilmiş və bundan gələn iqtisadi gəlir 908, 5 mln. rubl təşkil etmişdi [398, 35]. 1971–1975-ci illərdə Elmlər Akademiyası alimləri tərəfindən ölkə iqtisadiyyatına 203 elmi tədqiqat işi tətbiq edilmiş, bunlardan da 235 mln. rubl gəlir əldə olunmuşdu. Müqayisə üçün bu faktı qeyd etmək olar ki, 1966–1970-ci illərdə istehsalatda tətbiq edilən 44 elmi tədqiqat işindən cəmi 52 mln. rubl gəlir götürülmüşdü [99, v.77]. Bütövlükdə, 1970–1980-ci illərdə Elmlər Akademiyası alimlərinin 611 tədqiqatının istehsalatda tətbiqi nəticəsində əldə edilən iqtisadi səmərə 570 mln.

rubldan çox olmuşdu. Həmin illər ərzində Elmlər Akademiyası alimləri onun müxtəlif sahələri üzrə etdikləri ixtiralar üçün 1000-dən çox müəlliflik şəhadətnaməsi almışdılar ki, bu da əvvəlki 25 ilin göstəricilərindən 5 dəfə çox idi [66, 82; 108, v.151].

1945–1970-ci illəri əhatə edən 25 il ərzində Azərbaycan Elmlər Akademiyası alimlərinin cəmi 170 əsəri sovet elminin ən mühüm nailiyyətləri kimi qiymətləndirilərək, SSRİ Elmlər Akademiyasının baş akademik-katibinin məruzəsinə daxil edilmişdisə [98, v.3; 310, 4, 6], cəmi 10 il ərzində, yəni 1971–1980-ci illərdə bu cür əsərlərin sayı 450-ə çatmışdı [108, v.5].

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi 1969–1982-ci illərdə Azərbaycan alimlərinin əldə etdiyi 540 elmi nəticə SSRİ Elmlər Akademiyası tərəfindən sovet elminin ən mühüm nailiyyətləri sırasına daxil edilmişdi. Bu da Azərbaycan SSR Elmlər Akademiyasının SSRİ Elmlər Akademiyasının tərkibində olduğu 46 il ərzində, yəni 1945–1991-ci illərdə SSRİ EA tərəfindən Azərbaycan alimlərinin həmin nailiyyətlər sırasına daxil edilmiş 1100 elmi nəticəsinin 49,1%-ni təşkil edir [256, 239]. Bu fakt, 1969–1982-ci illərdə Azərbaycan milli fundamental elminin böyük uğurundan xəbər verirdi.

Müasir iqtisadiyyatın uğurlarında fizika, riyaziyyat, mexanika, kibernetika, informatika, energetika və başqa texniki elmlərin rolu əvəzsiz və danılmazdır. 1960-cı illərin sonunadək bu sahələrdə Azərbaycan SSR-də müxtəlif elm sahələri üzrə elmlər doktorları və elmlər namizədlərinin sayı çox az idi. Bu isə sənayenin səmərəliliyinin aşağı səviyyəsini şərtləndirən amillərdən biri idi. 1970-ci illərdən başlayaraq Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı nəticəsində həmin sahələr üzrə onlarca aspirant və doktorant Sovet İttifaqının ən qabaqcıl alimlərinin çalışdığı nüfuzlu elmi mərkəzlərə göndərilir, onların ixtisaslarının artırılmasına şərait yaradılırdı. Az müddət, yəni cəmi bir neçə il ərzində SSRİ-nin 170-dən çox nüfuzlu ali məktəbində 17 mindən artıq azərbaycanlı gəncin təhsil alıb yüksəkixtisaslı mütəxəssis kimi respublikanın sosial-iqtisadi inkişafına uğurla xidmət etməsi Azərbaycan SSR-də kadr çatışmazlığını minimuma endirmişdi. Bu proses gənc kadrların nüfuzlu elm mərkəzlərində təcrübə qazanması üçün uzunmüddətli ezamiyyətlərə və doktoranturaya göndərilməsi ilə də müşayiət olunurdu. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1975-ci ildə

Azərbaycan EA-nın 750 doktorantından 200 nəfəri Moskva, Leninqrad (Sankt-Peterburq), Kiyev, Minsk, Xarkov və s. şəhərlərin qabaqcıl elm mərkəzlərində təhsil alırdı [249, 93]. Azərbaycan Elmlər Akademiyasının müxtəlif elmi tədqiqat institutlarından respublikadankənar elmi mərkəzlərə ezam olunan doktorantların, təcrübə keçən tədqiqatçıların və məqsədli doktoranturaya göndərilənlərin sayı da xeyli artmışdı. Əgər 1969-cu ildə Azərbaycan Elmlər Akademiyasından respublikadankənar elm mərkəzlərinə məqsədli aspiranturaya cəmi 4 nəfər (ayrılmış 16 yer əvəzinə) göndərilmişdisə, 1976-cı ildə onların sayı 18, 1982-ci ildə isə 22 nəfər olmuşdu. Respublikanın ali məktəblərini müvəffəqiyyətlə bitirmiş oğlan və qızların hər il orta hesabla 200 nəfəri Elmlər Akademiyasının institutlarının doktoranturasına daxil olurdu. 1982-ci ildə bu institutlarda doktorantların sayı 548 nəfər, dissertantların sayı isə 380 nəfər idi [373, 18; 372, 158–160].

1972-ci ildə Heydər Əliyevin SSRİ EA-nın prezidenti, akademik M.V.Keldışla görüşünün Azərbaycan SSR EA-nın inkişafına, onun texniki arsenalının artırılmasına böyük təsiri olmuş, respublikaya xeyli miqdarda çətin tapılan laboratoriya avadanlıqları və cihazlar göndərilmişdi [314, 47].

Bu illərdə Azərbaycan SSR EA Sovet İttifaqında selen və selen əsaslı cihazların tədqiqi üzrə əsas mərkəz, habelə termoelektrik tibbi qurğuların hazırlanması sahəsində əlaqələndirici (Fizika İnstitutu təcrübə zavodu ilə birlikdə), «İnterkosmos» Şurasına daxil olan sosialist ölkələri arasında «Yerin kosmosdan tədqiqi» probleminin araşdırılması üzrə peykaltı sınaq meydanlarında aparılacaq tədqiqatların təşkili və keçirilməsi işində əlaqələndirici kimi Təbii Ehtiyatların Kosmik Tədqiqatı İnstitutu, sintetik naften turşular probleminin işlənməsi üzrə Neft-Kimya Prosesləri İnstitutu və maqnit yarımötürücüləri problemi üzrə Qeyri-Üzvi və Fiziki Kimya İnstitutu ölkənin baş idarəsi idi [93, 219; 108, v.12–13].

Respublikada 1970–1982-ci illərdə ayrı-ayrı elm sahələrinə nəzər saldıqda, onların inkişafında Heydər Əliyevin gördüyü işlərin miqyas və sərhədlərini müəyyən etmək çox çətindir. Bu, Azərbaycan elminin bütün sahələrinə aiddir.

Neft kimyası prosesləri, aşqarlar kimyası, kimya texnologiyasının nəzəri problemləri üzrə araşdırmalar yüksək templə davam etdirilir,

fizika, riyaziyyat institutları böyük tədqiqat mərkəzlərinə çevrilirdi. Daha çox yarımkeçiricilər fizikası, elektrofizika, neft və təbii qaz kimyası sintezi, Azərbaycan geologiyası və mineral ehtiyatları, dərin qazıma işinin biofiziki və biokimyəvi prosesləri, kənd təsərrüfatı bitkilərinin genetikası və seleksiyası, mikrobiologiya və fiziologiyanın aktual məsələləri tədqiqata cəlb olunurdu. Elmi tədqiqat işləri respublikanın sosial-iqtisadi yüksəlişinə xidmət edəcək yanacaq-energetika komplekslərinə, qara və əlvan metallurgiyada istehsalın texnoloji səviyyəsinin yüksəldilməsinə, kimya və neft kimyası sənayesinin sürətli tərəqqisinə yönəldilən fundamental və tətbiqi işləri əhatə etməli idi [249, 92].

1970-ci illərdə Azərbaycan SSR-də riyaziyyat elminin sürətli inkişafı nəticəsində, xüsusən funksional analiz və diferensial tənliklərin ümumi nəzəriyyəsi sahəsində mühüm elmi nəticələr alınmış, dünya şöhrətli elmi məktəb formalaşmışdı. Spektral analizin tərs məsələləri, qeyri-xətti dinamik sistemlərin inteqrallanması nəzəriyyəsinin intensiv inkişafı da həmin dövrdə milli riyaziyyat elminin uğurlarından sayıla bilər. Azərbaycan riyaziyyat elminə dünya şöhrəti qazandıran alimlərimizdən Zahid Xəlilovun, İbiş İbrahimovun, Əşrəf Hüseynovun adlarını xüsusi vurğulamaq lazımdır. Azərbaycan mexanika elminin öz zəngin potensialını üzə çıxarması və bu elmi zəmin əsasında maşınqayırmanın intensiv inkişafı da bilavasitə Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda bu sahədə işlər irsi mühit mexanikası, dalğa dinamikası, elastiklik və plastiklik nəzəriyyəsi, kompozit materiallar mexanikası, neft və qazın qeyri-xətti mexanikası istiqamətlərində davam etdirilirdi.

1970-ci ilin iyununda respublika rəhbəri Heydər Əliyevin Azərbaycan EA-nın Fizika İnstitutuna gəlməsi, aparılan elmi araşdırmalarla yaxından tanış olması fizikanın perspektiv istiqamətlərində elmi tədqiqat işlərinə güclü təkan vermişdi. Onun göstərişi ilə institutun maddi-texniki bazası daha da gücləndirilmiş, yeni incə optik və elektron qurğuların alınması üçün əlavə vəsait ayrılmışdı. Azərbaycan EA Fizika İnstitutu SSRİ Nazirlər Sovetinin müvafiq qərarı ilə (1957-ci ildə) «Selen əsasında hazırlanan cihazların fizikası və texnikası» istiqaməti üzrə müəyyənləşdirilmiş baş müəssisələrdən biri idi. SSRİ EA-nın

müxbir üzvü Həsən Abdullayevin rəhbərliyi ilə həmin elmi-texniki istiqamət üzrə aparılan gərgin araşdırmalar keyfiyyət göstəricilərinə görə ən yaxşı dünya standartları səviyyəsində hazırlanmış cihazların kütləvi istehsalına imkan yaratmışdı [99, v.10–11].

1970-ci illərdən başlayaraq, akademik H.Abdullayevin rəhbərliyi ilə gərgin elmi axtarışların nəticəsi olaraq toplanmış zəngin təcrübi material və texniki ehtiyatlar hesabına selenin bioloji obyektlərə təsirinin aktual problemlərinin öyrənilməsinə, bu problem üzrə kompleks tədqiqat işlərinin aparılmasına şərait yaradıldı. Onun təşəbbüsü ilə Azərbaycan EA-nın nəzdində «Selen biologiyası» problemi üzrə Ümumittifaq Əlaqələndirmə Şurası təşkil edildi [249, 59].

Yeni yaddaş qurğularının yaradılmasının fiziki prinsiplərini işləmək və onların tətbiqini sürətləndirmək üçün Heydər Əliyevin köməyi və göstərişi ilə 1981-ci ildə institutda «Registr» Xüsusi Konstruktor Bürosu yaradılmışdı. Hazırda həmin büro respublika əhəmiyyətli mühüm tədqiqatlar aparır. H.Əliyevin Fizika İnstitutunda aparılan fundamental tədqiqatlara böyük əhəmiyyət verməsi və bu elm ocağına qayğısı bərk cism və yarımkeçiricilər fizikası, elementar zərrəciklər fizikası, elektrofizika və elektroenergetika istiqamətlərində tədqiqatların daha da inkişafına güclü təkan verdi. 1970-ci illərdən başlayaraq, institut nüvə fizikası sahəsində Birləşmiş Nüvə Tədqiqatları İnstitutu (Dubna şəhəri, RSFSR), Yüksək Enerji Fizikası İnstitutu (Serpuxov şəhəri, RSFSR) və digər elmi mərkəzlər ilə birgə elmi tədqiqatlar aparırdı.

Elementar zərrəçiklər fizikasında aksiomatik və simmetriya yanaşmalarının nəzəri tədqiqi daha da inkişaf etdirilmiş, zəif və elektromaqnit qarşılıqlı təsir tədqiq olunaraq, nüvə nəzəriyyəsi sahəsində mühüm nəticələr alınmış, alimlərimiz beynəlxalq miqyasda uğurlar qazanmışdılar. Belə ki, institut Avropa Nüvə Tədqiqatları Mərkəzi tərəfindən yerinə yetirilən «ATLAS» proqramının icraçılarından biridir [251, 147–148].

Atmosferin şəffaflıq sahəsində həssas, geniş temperatur sahəsində işləyən xüsusi təyinatlı fotoqəbuledicilərin və elektrooptik çeviricilərin yaradılması, istehsalı və sınağı üzrə tam tsiklə malik, İttifaqda yeganə olan Fotoelektronika İnstitutu 1972-ci ildə SSRİ Müdafiə Sənayesi Nazirliyi tərəfindən həmin nazirliyin ilk elmi tədqiqat müəs-

sisəsi kimi yaradılmışdı. Bu institutun məhz Bakıda yaradılması, sürətli inkişafı və təcrübə zavodları olan böyük kompleksə çevrilməsi o vaxt respublikaya rəhbərlik edən Heydər Əliyevin bilavasitə təşəbbüsü, köməyi və müntəzəm qayğısı sayəsində mümkün olmuşdu.

Milli astronomiya elminin müasir dünya təcrübəsi kontekstində inkişafı N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının timsalında öz əksini tapmışdı. 1970–1981-ci illərdə burada əldə olunan elmi nəticələr dünya standartlarına cavab verir, onun texniki və intellektual potensialı həsəd doğururdu. 1974-cü ilin sentyabrında Heydər Əliyev iki gün müddətində Şamaxı Astrofizika Rəsədxanası ilə tanış olmuş, bu sahədə kadr hazırlığı probleminin həlli ilə bağlı indiki Bakı Dövlət Universitetində astronomiya kafedrasının yaradılması haqqında göstəriş vermişdi. Pirqulu qəsəbəsində elm şəhərciyinin salınması, tədqiqatların aparılması üçün yüksək səviyyəli texniki-məişət şəraitinin yaradılması məhz Heydər Əliyevin adı ilə bağlıdır.

1970-ci ildə Şamaxı Astrofizika Rəsədxanasının Naxçıvan MR-in Batabat yaylağında yeni bir stansiyasının inşasına başlanılmışdı. Qısa müddətdə həmin ərazinin aqroiqlimi öyrənilmiş, ulduz müşahidələri üçün rayonun son dərəcə əlverişli olduğu müəyyən edilmişdi. 20 sm-lik reflektor və kornoqrafda aparılmış müşahidələr olduqca keyfiyyətli təsir bağışlamışdı.

1976-cı ildə Heydər Əliyev stansiyanın işi, qurğuları ilə tanış olmuş, stansiyanın fəaliyyətinin gücləndirilməsi barədə konkret göstərişlər vermişdi. Azərbaycan astronomlarının elmi işləri bütün dünyada tanınırdı. Beynəlxalq Astronomiya İttifaqının qərarı ilə görkəmli astronom Nadir İbrahimovun şərəfinə Mars planeti kraterlərindən birinə «İbrahimov krateri», tədqiq olunan asteroidlərə «Azərbaycan», «Nizami Gəncəvi» və «ŞAR» (Şamaxı Astrofizika Rəsədxanası) adları verilmişdi [251, 139].

Respublikada radiotexnika, elektronika və elektron sənayesinin inkişaf perspektivlərini nəzərə alan alimlər texniki fizika, tətbiqi riyaziyyat, kibernetika, radioelektronika və elmin digər müasir istiqamətlərində fəaliyyətlərini genişləndirirdilər.

Azərbaycan SSR-də 300-dən çox neft, qaz, faydalı qazıntı, tikinti materialları yataqları, çoxlu mineral su mənbələri aşkar edilmişdi. Bu sahədə görkəmli alimlər Miróli Qaşqay, Şəfaət Mehdiyev, Əhəd

Yaqubov, Əliəşrəf Əlizadə, Qambay Əlizadə, Şamil Əzizbəyov, Səftər Quliyev, Məmmədpaşa Quluzadə, Şirəli Məmmədov, Ədhəm Şıxəlibəyli, Əzəl Sultanov və başqaları mühüm elmi fəaliyyət göstərmişdilər.

Xəzər dənizinin Azərbaycan SSR sektorunda perspektivli yataqlar aşkara çıxarılmışdı. Respublikanın tam geoloji təsviri müəyyənləşdirilmiş, geoloji, geotektonik, dərinlik yataqları, coğrafi və başqa xarakterli atlaslar tərtib edilmişdi. «SSRİ geologiyası» çoxcildliyinin XXXXVII cildi – «Azərbaycan SSR» (iki kitabda), «Azərbaycan SSR Atlası» (1979), «Azərbaycan SSR-in istilik balansı» (1979) və s. kitablar nəşr olunmuşdu [195, 239].

Elmlər Akademiyasının elmi tədqiqat müəssisələrində respublikanın neft emalı, neft kimyası kimi ənənəvi sahələrində də böyük nailiyyətlər əldə edilmişdi. Azərbaycan SSR-i haqlı olaraq «Neft Akademiyası» adlandırırdılar, neftçi alimlər bütün SSRİ-də və dünyada məşhur idilər. Bu sahədə elmi məsələlərin müzakirəsi zamanı qərarlar, adətən, azərbaycanlı alimlərin yekun rəyindən sonra qəbul edilirdi. Onların dünyanın müxtəlif elmi mərkəzlərində və universitetlərində vaxtaşırı oxuduqları mühazirələr yüksək dəyərləndirilirdi [246, 141].

Katalitik krekinq nəzəriyyəsi sahəsində aparılan tədqiqatlar nəticəsində etilləşdirilməmiş Aİ-93 avtomobil yanacağının alınması prosesi işlənilmiş və tətbiqi tövsiyə edilmişdi. Aviasiya yanacaqlarının yüksəkoktanlı komponentlərinin hazırlanması və yüksək dispersil qatılığa malik birləşmələrin sintezi üçün metodlar hazırlanmış, neftin emalı və kimyəvi sintezinin sənaye proseslərini layihələşdirmək sahəsində mühüm nəzəri-təcrübi nəticələr əldə olunmuşdu. Azərbaycan SSR-in neft kimyaçıları ölkədə ilk dəfə «qaynar layda» baş verən prosesləri öyrənmiş, onlara əsaslanan texnologiyalarla işləyən qurğular hazırlamışlar. Yaradılan yeni texnologiya əsasında ilk qurğu Bakının neftayırma zavodlarında işə salınmışdı. Sürtgü yağlarının, yanacaqların və polimer materialların istismar xassələrini yaxşılaşdırmaq məqsədilə alınmış və yüksək səmərəliliyə malik bir sıra yeni aşqarlar daha keyfiyyətli yağların sənaye istehsalını təşkil etməyə də imkan vermişdi [249, 108].

Respublikada təbiətşünaslıq elmləri sürətlə inkişaf edirdi. 1978-ci ildə Elmlər Akademiyasında bu istiqamətdə güclü elmi mərkəz – Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu yaradıldı. Qısa müddət

ərzində institut alimlərinin tədqiqatları bütün SSRİ miqyasında mötəbər mənbə kimi qəbul edilirdi [246, 141].

Biologiyada mikroelementlərin kompleks tətbiqi, xüsusilə selenlə bağlı müstəqil elmi istiqamət müəyyənləşmişdi. Akademik Cəlal Əliyevin rəhbərliyi ilə Azərbaycan SSR-də becərilən əsas kənd təsərrüfatı bitkilərində gedən fizioloji və bioloji proseslərdə mineral elementlərin əhəmiyyətinin, potensial məhsuldarlığı reallaşdıran fizioloji-genetik əsasların, fiziki-kimyəvi biologiyanın müasir üsullarla öyrənilməsi sahəsində böyük uğurlar əldə edildi. 1976–1978-ci illərdə dördcildlik «Azərbaycan faunası»nın II–IV cildləri nəşr olundu. 1974-cü ildə Bəsitçay, 1978-ci ildə Ağgöl, Qarayazı, 1981-ci ildə İsmayıllı qoruqları yaradıldı. Azərbaycan SSR-in «Qırmızı kitabı» hazırlanaraq çap edildi.

Bütün bunlarla bərabər, respublika iqtisadiyyatının artıq təşəkkül tapmış, iqtisadi baxımdan ənənəvi sahələrinin yenidən qurulması prosesində ekologiya sahəsində elmi tədqiqatlara xüsusi diqqət yetirilir, müxtəlif elm sahələrində çalışan alimlərin səyləri birləşdirilirdi.

Təkcə 1981-ci ildə Azərbaycan SSR-in elmi tədqiqat və layihə institutları ölkə üzrə 25 kompleks proqramın işlənib hazırlanmasında iştirak etmişdilər [177, v.34–36].

Görkəmli alimlər Xudu Məmmədovun kristalloqrafiya, Zahid Xəlilov, Əşrəf Hüseynov və Fəraməz Maqsudovun riyaziyyat, Hacıbəy Sultanovun astronomiya, Tofiq İsmayılovun kosmik cihazqayırma, Həsən Abdullayev, Çingiz Cuvarlının fizika, Toğrul Şahtaxtınskinin kimya, Umnisə Musabəyova, Sona Vəlixanlı, Zərifə Əliyeva və Zəhra Quliyevanın oftolmologiya, Adilə Namazovanın pediatriya, Mirməhəmməd Cavadzadənin urologiya, Cəlil Hüseynovun patoloji anatomiya, Hüseyn Həsənovun neyrofiziologiya, Həsən Əliyevin torpaqşünaslıq, Cəlal Əliyevin bitki fiziologiyası və seleksiya, Validə Tutayuqun Qafqaz florası, Musa Musayevin, Mirzəağa Nəzərovun zoologiya, Vahid Hacıyevin botanika, Urxan Ələkbərovun genetika, neftçi alim Midhəd Abasovun, Akif Əlizadənin, Ələşrəf Məmmədovun geologiya, Budaq Budaqovun Azərbaycan Respublikasının geomorfologiyası sahəsində böyük xidmətləri olmuşdur.

Lakin elmlərin, xüsusən ictimai elmlərin inkişafına «hakim ideologiya»nın güclü təzyiqi mənfi təsir göstərirdi. Xüsusən Azərbaycan tarixi, ədəbiyyatı, incəsənəti sovet dövrü birtərəfli öyrənilir, mövcud

dərin ziddiyyətlər, onların kökü, ictimai quruluşun, təsərrüfat sisteminin qüsurları ilə bağlı səbəblər açıqlanmırdı. Məsələn, 1970-ci illərdə müttəfiq respublikaların tarix institutlarının əksəriyyəti öz xalqlarının çoxcildlik tarixini hazırlamağı planlaşdırmış, o cümlədən Azərbaycan EA Rəyasət Heyəti «Azərbaycan tarixi»nin 9 cilddə yazılması üçün Baş Redaksiya Şurası yaratmış və işə başlanmışdı. Bu təşəbbüs «ideoloji rəhbərliyi», xüsusilə də MK-nın katibi M.A.Suslovu çox narahat etmişdi. Hətta bu məsələ respublika rəhbərlərinin və tarixçilərinin iştirakı ilə Sov.İKP Mərkəzi Komitəsində müzakirə olunmuşdu. Müzakirədə hər respublikanın «çoxcildlik» tarixinin əvəzinə, regionlar (zonalar) üzrə birgə əsərlərin yazılması məsləhət görülmüşdü. Bu səbəbdən, bir müddət respublikalarda çoxcildlik tarixin yazılması ləngidilmişdi. Ancaq Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin və Qazaxıstan KP MK-nın birinci katibi D.Ə.Kunayevin Moskvaya məktubları sayəsində işə yenidən başlanılmışdı [195, 241–242].

Heydər Əliyev respublika ərazisindəki maddi-mədəniyyət abidələrinin yenidən qeydə alınmasına, tədqiqinə, mühafizəsinə və onlardan səmərəli istifadə olunmasına böyük diqqətlə yanaşırdı. 1978-ci ilin yanvarında indiki Qəbələ şəhərindən (Qafqaz Albaniyasının ilk paytaxtı) Bakıya həyəcanlı bir xəbər gəldi: SSRİ Müdafiə Nazirliyinin hərbçiləri 1950-ci illərdən Azərbaycan EA-nın Tarix İnstitutunun Arxeoloji Ekspedisiyasının işlədiyi ərazidə yüksək gərginlikli elektrik xətti üçün dirəklər quraşdırmağa başlamışdılar. Bu xəbər Heydər Əliyevə AMEA Tarix İnstitutunun «Azərbaycanın qədim tarixi» şöbəsinin rəhbəri t.e.d., prof İ.H.Əliyev tərəfindən Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Sədri Qurban Xəlilov vasitəsilə çatdırılır. Heydər Əliyev məsələ ilə tanış olduqdan sonra t.e.d.,prof. İqrar Əliyevi MK-yə dəvət etmiş, onu dinləmiş Moskvaya, SSRİ Müdafiə Nazirliyinin rəhbərliyinə zəng vuraraq öz qəti etirazını bildirmişdi. Bundan sonra Q.Xəlilovun sədrliyi ilə Dövlət Komissiyası yaradılır və onun hazırladığı məlumat Azərbaycan KP MK-nın Bürosunda baxılmaq üçün müzakirəyə çıxarılır. Heydər Əliyevin sədrliyi və general Konstantinovun iştirakı ilə keçən gərgin müzakirədə etiraz etməyə cəhd göstərən generala məsələnin əsas mahiyyəti izah edilir. Q.A.Xəlilov (sədr), Ə.C.Ləmbəranski, general Konstantinov, C.B.Quliyev və İ.H.Əliyevdən ibarət hökumət komissiyası indiki Qəbələ rayonuna

gəlir və qəbul olunmuş qərarının icrasına nəzarət edir. Beləliklə, Heydər Əliyevin müdrikliyi və möhkəm iradəsi sayəsində xalqımızın ən qədim abidələrindən biri – Şimali Azərbaycan ərazisində yaranmış Azərbaycan Albaniyası dövlətinin ilk paytaxtı Qəbələ şəhərinin qalıqları tam məhv olmaq təhlükəsindən xilas edildi [380, 76–78].

Həmin illərdə Azərbaycan ədəbiyyatşünasları əsas qüvvələrini milli Azərbaycan ədəbiyyatı tarixinin yaradılması üzərində cəmləşdirmişdi. Kollektiv tədqiqatların çoxillik nəticələri «Azərbaycan ədəbiyyatı tarixi» (3 cilddə), «Azərbaycan sovet ədəbiyyatı tarixi» (2 cilddə) nəşrlərində öz əksini tapmışdı. 1970–1980-ci illərdə dilçilərin əsaslı tədqiqatlarının nəticəsi olan «Müasir Azərbaycan dili» (3 cilddə), «Azərbaycan ədəbi dilinin tarixi» (3 cilddə), «Rusca-Azərbaycanca lüğət» (3 cilddə) və sair nəşrlər çapdan çıxmışdı.

1970–1980-ci illərdə Elmlər Akademiyasının fəaliyyətində Nizami Gəncəvi yaradıcılığının öyrənilməsi ilə əlaqədar görülən işlər xüsusilə təqdirəlayiqdir. Azərbaycan KP MK-nın Heydər Əliyevin imzası ilə təsdiq edilmiş 1979-cu il 5 yanvar tarixli «Azərbaycanın dahi şairi Nizami Gəncəvi ədəbi irsinin tədqiqini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında» qərarından sonra bu iş daha geniş vüsət aldı [100, v.120]. Respublika EA-da «Nizami komissiyası» təşkil edildi və «Nizami lektoriyası» yaradıldı. Qısa müddət ərzində «Nizami almanaxları» yenidən öz işini bərpa etdi, «Nizami Gəncəvi» adlı qısa məlumat kitabçası (tərtib edəni C.Qəhrəmanov, ön sözün müəllifi R.Əliyev, 1979), şairin əsərlərinin və onun haqqında mövcud tədqiqat işlərinin Azərbaycan, rus, alman, ingilis, fransız, ərəb və fars dillərində müxtəsər biblioqrafiyası (müəllif R.Əliyev, 1982) nəşr olundu. Respublika nizamişünaslığında əhəmiyyətli ədəbi hadisə kimi qiymətləndirilən Nizaminin ilk poetik tərcümələri müəyyən düzəlişlərlə çap olundu və 1981–1983-cü illərdə böyük şairin irsinin yeni filoloji tərcüməsi (Azərbaycan və rus dillərində) başa çatdırıldı.

Azərbaycan folklorunun dərindən araşdırılmasını və təbliğini tövsiyə edən Heydər Əliyev yazıçıların VII qurultayındakı nitqində deyirdi: «Yurdun folkloru, müxtəlif el sənətləri, etimologiya, dil tarixi hamısı küll halında öyrənilməlidir» [124, v.10].

Şərqşünaslıq İnstitutunun elmi tədqiqat fəaliyyətində Yaxın və Orta Şərqdə iqtisadi, sosial-siyasi təkamül prosesi, Cənubi Azərbay-

canın kompleks şəkildə öyrənilməsi, Şərq ölkələrinin daxili və xarici siyasətində islam amilinin rolu kimi aktual problemlər diqqət mərkəzində dururdu [249, 114–115].

Heydər Əliyev Azərbaycan SSR-i sovet şərqşünaslıq elminin qabaqcıl mərkəzinə çevirmək istiqamətində də böyük işlər görülməsinə nail oldu. Şərqdə baş verən proseslər, xüsusən İran inqilabı və Əfqanıstana sovet müdaxiləsi bu məsələnin həllini daha da aktuallaşdırırdı. Yaranmış şəraitdən Azərbaycan xalqının mənafeləri naminə istifadə edən Heydər Əliyevin təşəbbüsü ilə Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda Cənubi Azərbaycan tarixi şöbəsi, 1982-ci ildə isə Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Azərbaycan şöbəsi təşkil edildi. Elə həmin ildə görkəmli şərqşünas alim Mirzə Kazımbəyin anadan olmasının 180 illiyi qeyd olundu [246, 147].

Azərbaycan xalqının ən dəyərli tarixi əlyazmaları 30-cu illərdə kütləvi şəkildə məhv edilmiş, zərərli hesab edilərək yandırılmışdı. Heydər Əliyev siyasi hakimiyyətə gələnə qədər Respublika Əlyazmalar Fondundakı qiymətli əlyazmalar da binanın zirzəmisində bərbad halda saxlanılırdı. Azərbaycanın tarixi və mədəniyyətinə dair dünyanın müxtəlif arxiv və kitabxanalarında saxlanılan əlyazmalar respublikaya gətirilmir, alimlər onlardan yararlana bilmirdilər. Heydər Əliyev böyük təəssübkeşliklə bu sahədə də mühüm qərarların qəbul edilməsinə nail oldu. 1981-ci ilin avqust ayında Azərbaycan KP MK «Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmalar Fondunun fəaliyyətini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» məsələ müzakirə edərək, müvafiq qərar qəbul etdi [91].

Mühüm elmi və siyasi əhəmiyyət daşıyan həmin qərarda deyilirdi ki, fondda müxtəlif dillərdə 40 mindən çox nadir yazılı abidə saxlanılır. Həmin qərarın qəbul edilməsi ilə Əlyazmalar Fondu Əlyazmalar İnstitutuna çevrildi. Qərarda yazılı abidələrin saxlanılması üçün əlverişli şəraitin yaradılması, institutun maddi-texniki bazasının möhkəmləndirilməsi, əlyazmaların tapılaraq mühafizə edilməsi nəzərdə tutulurdu. XX əsrin əvvəllərində məşhur milyonçu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən tikilmiş, sonralar Azərbaycan SSR Ali Sovetinin yerləşdiyi bina Azərbaycan EA-nın Əlyazmalar İnstitutuna verildi. Heydər Əliyev bu qərara gələrkən hesab edirdi ki, qədim kitablar Azərbaycan xalqının tarixi keçmişi və milli sərvətidir. Azər-

baycan tarixinin və mədəniyyətinin araşdırılması istiqamətində mühüm mərhələnin başlanğıcı qoyuldu. Binanın nəmli zirzəmisində bərbad vəziyyətdə olan qiymətli kitablar bərpa edilərək, bir muzey nümunəsi kimi qorunmağa başlandı. Yaradıldıqdan sonra da Əlyazmalar İnstitutunun fəaliyyəti daim Heydər Əliyevin diqqət mərkəzində olmuşdu. Onun qayğısı sayəsində qədim Azərbaycan əlyazmalarına dair bir sıra respublika və beynəlxalq əhəmiyyətli elmi konfrans, seminar və simpoziumlar keçirilmişdi [246, 145].

Milli liderin respublikaya rəhbərliyi illərində Azərbaycan tarixinə, dilinə, mədəniyyətinə dair elmi tədqiqatların miqyası genişlənmiş və monoqrafiyaların nəşri xeyli artmışdı. Azərbaycan tarixi və dilçilik sahəsində yazılmış bir sıra əsərlərə dövlət mükafatları verilir, ictimai elmlər sahəsində araşdırmalar gücləndirilirdi. Ziya Bünyadov, Cəmil Quliyev, İqrar Əliyev, Sara Aşurbəyli, Teymur Bünyadov, Tofiq Köçərli, Qaraş Mədətov, Mahmud İsmayılovun və b.-nın Azərbaycan tarixinə, Məmmədağa Şirəliyev, Zərifə Budaqova, Əziz Əfəndizadə, Ağamusa Axundov, Əlövsət Abdullayev və Yusif Seyidovun Azərbaycan dilinə, Əziz Şərif, Məmməd Cəfər, Mir Cəlal, Həmid Araslı, Abbas Zamanov, Məmmədhüseyn Təhmasib, Mirzə İbrahimov, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Bəkir Nəbiyev, Yaşar Qarayev, Azadə Rüstəmova və b.-nın Azərbaycan ədəbiyyatına, Aslan Aslanov, Firudin Köçərli və Fuad Qasımzadənin fəlsəfəyə, Bəhman Axundov, Əhməd Mahmudov, Asəf Nadirov, Ziyad Səmədzadə, Aqasəlim Ələskərov, Teymur Vəliyev və b.-nın iqtisadiyyata dair tədqiqat işləri xalqın mənəvi sərvətinə çevrilmişdi. Azərbaycan SSR-də pedaqogika elminin inkişafında və xalq maarifinin təşkilində görkəmli alim, SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü Mehdi Mehdizadə böyük rol oynamışdı. O, YUNESKO-nun xətti ilə inkişaf etməkdə olan ölkələrdə təhsilin inkişafı planının hazırlanmasında fəal iştirak etmişdi [75, 16–17].

Nəzərdən keçirilən dövr Azərbaycan Elmlər Akademiyasının nəşriyyat fəaliyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşması ilə xarakterizə olunur. Təkcə onu qeyd etmək lazımdır ki, 15 il ərzində elmi nəşrlərin sayı 2 dəfədən çox artmışdı. Tematik planlaşdırmanın səviyyəsinin yaxşılaşdırılması, aktuallığının yüksəldilməsi, nəşrlərin elmi dəyərinin, poliqrafik səviyyəsinin yüksəldilməsi sahəsində mühüm işlər görülmüşdü.

1971–1980-ci illər ərzində ali məktəb alimləri tərəfindən 452 monoqrafiya, onların elmi əsərlərindən ibarət 714 toplu, 1135 dərslik və dərs vəsaiti, müxtəlif jurnallarda 12187 elmi məqaləsi dərc edilmişdi [293, 111].

Azərbaycan xalqının mənəvi həyatında əlamətdar hadisə – çoxəsrlik tariximizdə ilk universal-milli oncildlik Azərbaycan Sovet Ensiklopediyasının nəşrinin başa çatması da məhz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Məlumdur ki, sovet hakimiyyəti illərində Azərbaycan Ensiklopediyasının nəşrinə dörd dəfə təşəbbüs göstərilmiş, lakin hamısı nəticəsiz qalmışdı. Ötən əsrin 70–80-ci illərində oncildlik Azərbaycan Ensiklopediyası dünya ensiklopediyaları ailəsinə qoşuldu. Azərbaycan dilində universal-milli ensiklopediyanın çapdan çıxması o illərdə xalqımızın yüksək sosial-iqtisadi və mədəni səviyyəsinin göstəricisidir. Heydər Əliyevin daimi qayğısı və diqqəti sayəsində İçərişəhərdə Ensiklopediya üçün xüsusi bina tikildi, qarşısında Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabiyə abidə qoyuldu [251, 132–133].

1970-ci ildən başlayaraq, Azərbaycan SSR Elmlər Akademiyasının orqanı olan «Sovet türkologiyası» jurnalının nəşrinə başlanılmışdı; bu mətbu orqan nəinki SSRİ-də, eləcə də onun hüdudlarından kənarda böyük şöhrət qazanmışdı.

Bu illərdə «Müasir Azərbzaycan dili» (1978–1981), üçcildlik «Cənubi Azərbaycan ədəbiyyatı antologiyası» (80-ci illərdə), dördcildlik «Azərbaycan dilinin izahlı lüğəti» (1964–1987), «Azərbaycan dilinin orfoqrafiya lüğəti» (1975), «Sovet Azərbaycanının heykəltəraşlığı» (1973), «Azərbaycan Dram Teatrı» (1974), ikicildlik «Azərbaycan teatrı salnaməsi» (1975, 1983), «Sovet Azərbaycanın musiqi incəsənətinin oçerkləri» (1974, 1976), «Azərbaycan teatrı», «Azərbaycanın dekorativ-tətbiqi sənətləri» və başqa ümumiləşdirici əsərlər nəşr olunmuşdu.

Heydər Əliyev ali məktəblərin, Elmlər Akademiyasının, onun institutlarının, görkəmli alimlərin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına xüsusi önəm verirdi. Onun fikrincə, belə yubileylərin keçirilməsi respublikada elmə olan marağı daha da artırır, Azərbaycan elmini və alimlərini təkcə respublikada deyil, ölkədə və dünyada da tanıdırdı. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nın 1969-cu il 30 dekabr tarixli iclasında Azərbaycan EA-nın 25 illik

yubileyinin təntənəli şəkildə qeyd edilməsi barədə qərar qəbul olundu, elmi konfrans və simpoziumlar keçirildi. Yubiley tədbirlərində SSRİ-nin və xarici ölkələrin müxtəlif elm ocaqlarının nümayəndələri iştirak edərək, elmi nailiyyətlər haqqında fikir mübadiləsi aparır, Azərbaycan xalqının qədim tarixi və zəngin mədəni irsi ilə tanış olurdular [246, 142].

1969-cu il noyabrın 1-də Heydər Əliyev Azərbaycan Dövlət Universitetinin (indiki BDU) 50 illiyinə həsr olunmuş iclasda çıxış etmişdi. Burada bir məqamı xatırladaq ki, o vaxt bəziləri universitetin açılmasını sovet hakimiyyətinin qurulmasının nəticəsi kimi qələmə verməyə çalışır və yubileyi 1970-ci ildə, Azərbaycan SSR-in 50 illiyi ilə bir vaxtda qeyd etmək istəyirdilər. Lakin Heydər Əliyev tərəfindən Azərbaycan tarixinin saxtalaşdırmaq cəhdlərinin qarşısı alınmışdı. O, sonralar bu barədə deyirdi: «Bu, dözülməz bir hal idi. Elə həmin 1969-cu il noyabrın 1-də biz universitetin 50 illiyini qeyd etdik. Mən özüm bu mərasimdə çıxış etdim. Bakı Dövlət Universitetinin sonrakı yubileylərində dəfələrlə qeyd olunmuşdur ki, bu çıxışın universitetdə böyük əks-sədası oldu. Çünki bu çıxış Azərbaycan dilində idi və universitetin qarşısında qoyulan məsələlər bizim ümummilli problemlərimizlə çox bağlı idi» [252, 18–19].

1975-ci il sentyabrın 23-də Azərbaycan SSR Elmlər Akademiyasının 30 illik yubileyi təntənə ilə qeyd edildi. Heydər Əliyev təntənəli yubiley yığıncağında demişdir: «Qısa müddətdə Akademiyamız müasir elmin ən aktual problemlərini həll edən iri mərkəzə çevrilmişdir... Azərbaycan elmi müasir ideyaların, səmərəli axtarışların və məhsuldar tədqiqatların güclü generatoruna çevrilmişdir... Təkcə keçən il ərzində sovet elminin mühüm nailiyyətləri sırasında respublikada aparılmış 67 tədqiqat işi qeydə alınmışdır... Bu, Azərbaycan Elmlər Akademiyasının mövcud olduğu bütün müddət ərzində ən yaxşı göstəricidir... Azərbaycan alimləri fəhlələrlə, mühəndislərlə və texniklərlə birlikdə əmək və elm sahəsində əsl hünər göstərmişlər – onlar dünya praktikasında ilk dəfə olaraq açıq dənizdə neft çıxarılmasını təşkil etmişlər... Elmin sürətlə inkişaf etməsi, alimlərin müvəffəqiyyətləri biliklərin bir çox yeni və əsaslı sahələrinin təşəkkülünə güclü təkan vermişdir» [2, 2].

Azərbaycan KP MK-nın 1982-ci il sentyabr ayının 14-də Nizami adına Ədəbiyyat İnstitutunun 50 illiyi haqqında qərar qəbul olundu,

1976-cı ilin yanvar ayında görkəmli alim Yusif Məmmədəliyevin Ordubadda ev muzeyi açıldı [251, 183].

1970–1980-ci illərdə respublika alimlərinin fəaliyyəti dövlət və dünya elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdi. Leypsiq yarmarkasında iki böyük qızıl medal, Bağdad yarmarkasında qızıl medal qazanılması, Qahirə beynəlxalq yarmarkasının yüksək mükafatı buna sübutdur.

Heydər Əliyev Azərbaycan aliminə xüsusi diqqət yetirir, görkəmli alimlərin yubileylərini keçirir və məişət şəraitini yaxşılaşdırırdı. 1969–1982-ci illərdə Elmlər Akademiyasının onlarca əməkdaşına, o cümlədən akademiyanın həqiqi və müxbir üzvlərinin bir qrupuna yüksək fəxri adlar, mükafatlar, orden və medallar verilmiş, onların adları əbədiləşdirilmişdi. Həmin illərdə Azərbaycan SSR Elmlər Akademiyasında 4 nəfər Lenin mükafatı laureatı, 11 nəfər SSRİ Dövlət mükafatı laureatı, 1 nəfər SSRİ Ali Sovetinin deputatı, 3 nəfər Azərbaycan SSR Ali Sovetinin deputatı, 34 nəfər əməkdar elm xadimi çalışırdı. Akademiyanın alimləri xarici universitetlərin fəxri doktorları, nüfuzlu elmi cəmiyyətlərin üzvü seçilirdi. Elmi işləri ən yüksək mükafatlara layiq görülən alimlərdən akademiklər M.Nağıyev, M.Hüseynov, M.Topçubaşov, H.Əliyev, V.Volobuyev, H.Abdullayev, İ.Mustafayev, Ə.Quliyev, A.Əlizadə, M.Qaşqay, Ə.Sumbatzadə, M.A.Dadaşzadə, Ə.Hüseynov, M.Quluzadə, H.Əliyev, H.Araslı, İ.Orucova və b. göstərmək olar [151, v.82; 158, v.30; 158, 12; 159, v.2–5, v.65–66, v.81–82; 163, v.7–8, v.73–74].

Heydər Əliyev öz müstəqil fikirlərini söyləyən Azərbaycan alimlərini sistemin cəza tədbirlərindən məharətlə qoruyur, hətta onlara müxtəlif vəzifələr verirdi. Heydər Əliyev Azərbaycan alimləri: Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov, tanınmış professorlar Mahmud İsmayılov, Abbas Zamanov, Bəxtiyar Vahabzadə, habelə Süleyman Əliyarov, Xəlil Rza, Əbülfəz Əliyev və başqalarını sovet totalitar rejiminin təzyiqlərindən xilas etmiş, dəyərli araşdırmalar aparmaları üçün şərait yaratmışdı [246, 151].

Heydər Əliyevin respublikaya rəhbərliyi illərində alim cəmiyyətdə ən nüfuzlu şəxslərdən, elm ən hörmətli sahələrdən biri hesab edilirdi, buna görə də gənclər arasında elmə olan maraq güclənirdi. Sonralar Heydər Əliyev deyirdi: «Azərbaycan elmi çox irəliyə getmiş

və özünün nə qədər qüdrətli və güclü olduğunu bütün dünyaya göstərmişdir» [246, 154].

70–80-ci illərdə respublika Elmlər Akademiyası nəzdində yaradılmış müxtəlif elmi cəmiyyətlər – Azərbaycan Fiziklər Cəmiyyəti, Riyaziyyatçılar Cəmiyyəti, Tarixçilər Cəmiyyəti, Coğrafiya Cəmiyyəti, Rusiya Astronomiya-Geodeziya Cəmiyyəti, Rusiya Kimya Cəmiyyətinin, Mineralogiya Cəmiyyətlərinin Azərbaycan şöbələri, Azərbaycan Botaniklər Cəmiyyəti, Azərbaycan Helmintoloqlar Cəmiyyəti, Azərbaycan Genetiklər və Seleksiyaçılar Cəmiyyəti, Fizioloqlar Cəmiyyəti, Rusiya Şərqşünaslar Assosiasiyasının Azərbaycan şöbəsi, bundan əlavə, Rusiya biologiya, hidrobiologiya, mikrobiologiya, torpaqşünaslıq, protozooloqlar, entomoloqlar və fəlsəfə cəmiyyətlərinin Azərbaycan şöbələri müvafiq sahə alimlərinin səylərinin birləşdirilməsi və əlaqələndirilməsində, elmi konfrans və simpoziumların, digər tədbirlərin keçirilməsində böyük rol oynayırdı.

Heydər Əliyev müxtəlif sahələrdə aparılan tədqiqatların nəticələrinin həyatın bütün sahələrinə tətbiqində Elmlər Akademiyasının alimlərinin təşəbbüslərini qətiyyətlə müdafiə edir, onların gerçəkləşdirilməsinə istənilən köməyi göstərirdi. Ümumiyyətlə, bu dövrdə Azərbaycanın elmi nailiyyətləri ilə onun ümumi inkişaf istiqamətlərinin daha sıx əlaqələndirilməsinə xüsusi əhəmiyyət verilirdi.

Heydər Əliyev Elmlər Akademiyasının uğurlarını hələ 1976-cı ildə belə qiymətləndirmişdi: «Elmi-texniki tərəqqinin sürətləndirilməsində elmi tədqiqat idarələrinin və ən əvvəl Azərbaycan Elmlər Akademiyasının rolu böyükdür. Ötən beş il ərzində onlar müxtəlif texniki problemlər sahəsində 1367 tədqiqat işini başa çatdırmışlar ki, bu da səkkizinci beşillikdəkindən 2,2 dəfə çoxdur. Bu tədqiqat işlərinin 80%-i Elmlər Akademiyasının institutları tərəfindən görülmüşdür» [314, 45].

Bu deyilənlərin yekunu olaraq tam əminliklə qeyd etmək olar ki, 1970–1982-ci illərin əvvəllərində Azərbaycan SSR Elmlər Akademiyasında və bütünlükdə, respublikada aparılan elmi tədqiqatlar sahəsində uğurlu nəticələrin əldə edilməsinin əsas səbəblərindən biri həmin illərdə Azərbaycan SSR-ə rəhbərlik etmiş Heydər Əliyevin siyasi iradəsi, böyük təşkilatçılıq istedadı və tələbkarlığı sayəsində güclü kadr potensialının və maddi-texniki bazanın yaradılması olmuşdur.

Heydər Əliyev 1982-ci ilin noyabrında Sov.İKP MK Siyasi Bürosunun üzvü seçildikdə, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildikdən sonra da Azərbaycan elminə və aliminə qayğısını əsirgəmirdi. O, görkəmli azərbaycanlı alimlərin nümayəndələrini səmimi şəkildə qəbul edir, öz tövsiyələrini verirdi.

Heydər Əliyevin 70-ci illərdə respublikada elmin inkişafı sahəsində yeritdiyi məqsədyönlü siyasət nəticəsində ölkədə peşəkar milli kadrların hazırlanması planları fəal şəkildə həyata keçirildi. Güclü elmi infrastruktur, yeni elmi istiqamətlər, məktəblər yarandı. Həmin kadrlar bu gün Azərbaycanın elmi-intellektual potensialının daşıyıcılarıdır. Bu kadrların əksəriyyəti hazırda Azərbaycan Respublikası dövlətində ali strukturların, elmi müəssisələrin rəhbərləri, aparıcı insanlardır. Ümummilli lider Heydər Əliyevin keçən əsrin 70-ci illərində böyük uzaqgörənliklə əsasını qoyduğu bu möhtəşəm universitet bu gün də öz bəhrəsini verməkdədir.

Bu dövrdə elmi-texniki tərəqqini nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan SSR SSRİ respublikaları içərisində qabaqcıl mövqelərə çıxmışdı.

O zaman bu böyük şəxsiyyətin rəhbərliyi altında iqtisadiyyat, mədəniyyət, elm, texnika və s. sahələrdə əldə edilmiş böyük uğurlar Heydər Əliyevin Azərbaycan xalqı qarşısında unudulmayan tarixi xidmətləridir.

6.3. Respublikada mədəniyyətin inkişafı

Azərbaycan xalqının zəngin və qədim mədəniyyətinin çoxşaxəli kökləri tarixin ən dərin qatlarına gedib çıxır. Bir çox əsrlər boyu Azərbaycan xalqı dünya mədəniyyətinin və incəsənətinin, ədəbiyyatının, ictimai fikrinin ən yüksək nailiyyətlərini özündə təcəssüm etdirən zəngin və yüksək mədəniyyət yaratmışdır. Azərbaycan ərazisində qədim zamanlardan mədəniyyətin və incəsənətin ən müxtəlif sahələri inkişaf etmiş, dünya şöhrətli memarlıq məktəbi təşəkkül tapmışdır. Zaman keçdikcə öz əhəmiyyətini itirməyən bu zəngin mədəni-mənəvi irs Azərbaycan xalqı tərəfindən qorunaraq inkişaf etdirilmiş, bu günümüzədək gəlib çatmışdır. Əvəzsiz milli-mənəvi irsdən bəhrələnən

Azərbaycan milli mədəniyyəti xüsusən XX əsrdə misilsiz inkişaf yolu keçmişdir. Ötən yüzillikdə Azərbaycan milli mədəniyyətinin XX əsrin 70–80-ci illərində ən yüksək inkişaf mərhələsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə Azərbaycan xalqının tarixində böyük dönüş dövrünün, mütərəqqi dəyişikliklər mərhələsinin əsası qoyuldu. Sovet totalitar rejiminin bütün ideoloji-siyasi məhdudiyyətlərinə baxmayaraq, Heydər Əliyev respublikanı yaşadığı dərin iqtisadi və mənəvi böhrandan çıxarmaq üçün qətiyyətli tədbirlər görməyə başladı. O, bütün sahələrlə yanaşı, mənəvi-mədəni sahədə də ciddi uğurlara nail olmuş, Azərbaycan SSR-i mədəni intibah və dirçəliş yoluna çıxarmışdı. Məhz Heydər Əliyevin XX əsrin 1970–1980-ci illərində formalaşdırdığı maddi və mənəvi potensial Azərbaycan Respublikasının gələcək müstəqil inkişafının əsasını təşkil etmişdir. Heydər Əliyev rəhbərliyə başladığı ilk illərdən liderlik missiyasının ana xəttini təşkil edən milli-mədəni dirçəliş strategiyasını həyata keçirməyə başlamışdır.

1960-cı illər Azərbaycan SSR-in sosial-iqtisadi, mənəvi-mədəni həyatında dərin və uzunmüddətli böhranın hökm sürdüyü illər kimi səciyyələndirilə bilər. Sonralar həmin dövrün təhlilini verən Heydər Əliyev göstərirdi ki, müharibədən sonrakı beşilliklər ərzində Azərbaycan SSR-in keçdiyi tarixi yolun əhəmiyyətini azaltmadan qeyd etmək vacibdir ki, 60-cı illərdə respublika iqtisadiyyatının inkişafında mənfi meyillər özünü açıq şəkildə göstərmişdi. Azərbaycan SSR milli gəlirin inkişaf meyillərinə, sənaye, kənd təsərrüfatı istehsalının həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsinə, ictimai əməyin məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geri qalırdı. Sənaye sahələrinin və sosial sferaların potensialının gücləndirilməsi işində əldən verilmiş imkanlar respublikanın 60-cı illərdə sosial-iqtisadi cəhətdən geridə qalmasının başlıca səbəbləri idi [3]. Bütün bunlar respublikada mədəni həyata öz mənfi təsirini göstərirdi.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nın 1969-cu ilin avqustunda çağırılmış plenumunda respublikada sosial-iqtisadi və mənəvi böhranın, geriliyin səbəbləri geniş təhlil edildi, böhrandan çıxış

yolları müəyyənləşdirildi. Sonrakı illərdə görülmüş tədbirlər nəticəsində Azərbaycanın sosial-iqtisadi, mədəni inkişafında, əhalinin həyat səviyyəsində ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdi. Azərbaycan SSR-də 1970-ci illərin inkişaf göstəriciləri bunu əyani şəkildə təsdiq edir. Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə milli gəlirin ümumi həcmi 2,1 dəfə, sənaye istehsalı 2,7 dəfə, xalq istehlakı mallarının istehsalı 3 dəfə, kənd təsərrüfatı mallarının istehsalı 2,7 dəfə artmışdı [3].

Sosial-iqtisadi inkişaf sahəsində əldə edilmiş uğurlar əhalinin maddi rifahının və mədəni səviyyəsinin yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərdi. Təkcə X beşillik ərzində (1971–1975-ci illər) milli gəlir 39 %, adambaşına milli gəlir 26 %, əhaliyə məişət xidmətlərinin həcmi 57 % artmışdı. Bu dövrdə respublikada ümumilikdə 2,158 min insan (1970-ci ildə 1808 min) təhsilin müxtəlif növlərinə cəlb olunmuşdu. Kütləvi kitabxanaların sayı 2923-dən 3480-ə, onlardakı kitab və jurnalların sayı isə 25.4 mln. nüsxədən 29,8 mln. nüsxəyə çatdırılmışdı. Respublikada 1970-ci ildə 2146 klub müəssisəsi, 2004 kino qurğusu var idisə, 1975-ci ildə onların sayı müvafiq olaraq 2806 və 2220 təşkil edirdi. Bütün ixtisaslardan olan həkimlərin sayı 13,1 mindən 54,8 minə çatmışdı. 1975-ci ildə respublikadakı 103 sanatoriya və istirahət mərkəzində 198,9 min insan dincəlmişdi [382, 56–57].

Heydər Əliyev Azərbaycan xalqının milli mədəniyyətinin inkişafı, mənəvi dəyərlərinin, milli-mədəni irsinin qorunması, milli ruhunun, özünüdərkinin möhkəmləndirilməsi üçün bütün imkanlardan istifadə edir, dövlət strukturlarından öz fəaliyyətlərində milli-mənəvi dəyərləri üstün tutmalarını tələb edirdi. Azərbaycan xalqının bədii-estetik, ideya səviyyəsinin yüksəldilməsində, milli-mədəni ehtiyaclarının ödənilməsində mədəni-maarif işinin ən mühüm amillərdən biri olduğunu aydın dərk edən Heydər Əliyev bu sahəni daim diqqət mərkəzində saxlayırdı. Onun Azərbaycan Kommunist Partiyasının qurultaylarında, MK plenumlarında, yaradıcılıq ittifaqlarının qurultaylarında, ədəbiyyat, mədəniyyət və incəsənət tədbirlərində çıxışlarında Azərbaycan mədəniyyətinin inkişafı ilə bağlı strateji vəzifələr müəyyənləşdirilmiş, onların həlli yolları göstərilmişdi. Bu vəzifələrin yerinə yetirilməsi ilə müstəqil Azərbaycan Respublikasında milli mədəniyyət sisteminin möhkəm bünövrəsi qoyulmuşdur.

Heydər Əliyev əhaliyə mədəni xidmət sisteminin təkmilləşdirilməsi, bütün yaşayış məntəqələrində mədəni-maarif müəssisələrinin tikilməsi, onların yüksəkixtisaslı kadrlarla təmin edilməsi, mədəni tədbirlərin sayının və formalarının artırılmasının vacibliyini vurğulayırdı. 1970-ci illərin əvvəlləri Azərbaycan SSR-də mədəni-maarif müəssisələri sisteminin genişləndirilməsi, xüsusən kənd yerlərində mədəniyyət evləri, klubların, kitabxanaların və digər sosial-mədəni obyektlərin inşasının sürətlənməsi ilə əlamətdar idi. Həmin illərdə mədəni quruculuq işləri Azərbaycan SSR-in bütün rayonlarını əhatə etmişdi.

Azərbaycan KP MK-nın XXVIII qurultayında respublikada 2000-dən artıq klubun və mədəniyyət sarayının, 7242 kitabxananın, 2000 kino qurğusunun, 37 muzeyin olduğunu bildirən Heydər Əliyev, eyni zamanda bu qədər mədəni-maarif ocaqlarının imkanlarından tam istifadə edilmədiyini, əhali arasında, xüsusən kəndlərdə və şəhər tipli qəsəbələrdə mədəni-maarif işinin zəif olduğunu, orada çalışan işçilərin əksəriyyətinin xüsusi ixtisas keçmədiyini vurğulamış, mədəni xidmət səviyyəsinin yüksəldilməsi, mədəniyyət ocaqlarının fəaliyyətinin yaxşılaşdırılması üçün bu sahəyə cavabdeh olan strukturların işində dönüş yarıdılmasını tələb etmişdi [222, 13].

O, xüsusən respublika Mədəniyyət Nazirliyini tənqid edərək, onun klubların işinin yaxşılaşdırılması üçün heç nə etmədiyini, bunun nəticəsində onlardan bir neçəsinin ya bağlandığını, ya da başqa məqsədlər üçün istifadə edildiyini bildirmişdi [135, iş 126, v.137]. Doğrudan da, 1960-cı illərin sonu – 70-ci illərin əvvəllərində Azərbaycan SSR-də mədəni-maarif müəssisələrinin vəziyyəti, onların maddi-texniki bazası çox acınacaqlı idi. 1971-ci ildə 40 rayon mərkəzində mədəniyyət evləri köhnə, yöndəmsiz binalarda yerləşirdi və onlarda hər hansı mədəni-maarif tədbirinin keçirilməsindən söhbət gedə bilməzdi [111, v.15]. 2498 kitabxanadan yalnız 365-də oxu zalı var idi [111, v.24]. Klub işçilərinin yalnız 23,6 %-nin orta ixtisas təhsili vardı [111, v. 23, 25].

Respublikada həyata keçirilən tədbirlər sayəsində təkcə muzeylərin sayı 37-dən 1980-ci ildə 87-ə çatdırılmış, şəhər və kəndlərdə 220 min yerlik 1066 mədəniyyət evi və klub müəssisəsi, 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdi. Dövlət klub müəssisələrinin sayı 2146-dan 3680-ə, kütləvi kitabxanaların sayı 2004-dən 2167-yə çatmışdı [195, 213].

Heydər Əliyev yaxşı bilirdi ki, hər bir xalqı ucaldan, tanıdan təkcə iqtisadi potensialı, hərbi gücü, təbii resursları deyil, birinci növbədə, onun mədəniyyəti, mənəvi dəyərlər sistemidir. Elə buna görə də siyasi hakimiyyətə gəldikdən az sonra, 1969-cu il sentyabrın 30-da onun təşəbbüsü ilə Azərbaycan KP MK «SSRİ-nin baş muzeyləri vasitəsilə Azərbaycanın tarixinin və mədəniyyətinin təbliğinin yaxşılaşdırılması tədbirləri haqqında» qərar qəbul etdi. Qərarda Mədəniyyət Nazirliyinə və Elmlər Akademiyasına SSRİ Mədəniyyət Nazirliyi və SSRI EA ilə birgə 1970-ci ilin ikinci yarısında Şərq Xalqlarının İncəsənəti Muzeyində Azərbaycan xalq tətbiqi sənəti sərgisinin, 1971-ci ildə Dövlət Ermitajında «Azərbaycan mədəniyyətinin şah əsərləri» mövzusunda sərgi və elmi sessiya keçirilməsi tapşırılmışdı [132, iş 58, v. 153, 154].

Azərbaycan KP XXVIII qurultayında yaradıcılıq ittifaqlarının, ziyalıların, ədəbiyyat və incəsənət xadimlərinin cəmiyyətin mənəvi inkişafında, estetik-bədii zövqünün formalaşmasında yüksək rolunu vurğulayan Heydər Əliyev Azərbaycan SSR ədəbiyyat və incəsənət xadimlərinin qazandıqları uğurları, onların həyatla əlaqəsinin möhkəmləndiyini, bədii ustalıq səviyyəsinin nəzərəçarpacaq dərəcədə yüksəldiyini, ədəbiyyata və incəsənətə gənc qüvvələrin gəldiyini, onların bir çoxunun özlərini yaradıcılıq baxımından kamil əsərlərlə tanıtdığını böyük fəxarət hissi ilə xatırlatmışdır [222, 13].

Heydər Əliyev xalqın geniş kütlələrini, xüsusən uşaq və gəncləri mədəniyyətə, musiqiyə geniş cəlb etmək üçün bütün vasitələrdən istifadə olunmasını tövsiyə edir, şəxsi nümunə göstərirdi. 1979-cu ildə ideoloji işin problemlərinə həsr olunmuş Ümumittifaq elmi-praktik konfransında incəsənətin insanların mənəvi aləminə təsiri məsələsinə toxunaraq demişdir ki, incəsənət qüdrətli təsir vasitələrinə malikdir, insan isə əsl estetik sərvətlərə yiyələnərək mənəvi cəhətdən yüksəlir, çünki əsl gözəllik yüksək mənəvi prinsiplərə üzvi surətdə bağlıdır [28, 140].

Həmin konfransda o, tərbiyə işində klubların və mədəniyyət saraylarının imkanlarından kifayət qədər istifadə edilməməsini bildirərək, şəhər və kəndlərdə əsl sosial-mədəni mərkəzlər yaradılmasını təklif etmiş, bu mərkəzlərin mədəni-kütləvi işin, tərbiyə işinin gücləndirilməsində rolunun artırılmasını tövsiyə etmişdir [28, 34].

Gənc nəslin mənəvi simasının, estetik zövqünün formalaşmasında, onun dünya və Azərbaycan musiqi mədəniyyəti inciləri ilə

yaxından tanış olmasında, ifaçılıq sənətinin yüksəldilməsində musiqi məktəbləri böyük rol oynayırdı. Musiqi məktəbləri incəsənət və bədii özfəaliyyət kollektivlərinin istedadlı gənclərlə zənginləşməsində əməli fəaliyyət göstərirdi.

Heydər Əliyev tələbə-gənclərin, professor-müəllim heyətinin incəsənətə az maraq göstərmələrini ürəkağrısı ilə qeyd edirdi. O, 1980-ci ildə keçirilən ali məktəb işçilərinin müşavirəsində demişdir: «... bizim yaxşı opera teatrımız var, Azərbaycan bəstəkarlarının, rus və Avropa klassiklərinin əsərləri tamaşaya qoyulur. Lakin tələbələr opera teatrına az gedirlər. Gözəl simfonik orkestrimiz var, lakin onun da konsertlərində gəncləri az-az görmək olar. Bir çox professor və müəllimlərin teatra, konsert salonlarına getməkdənsə, evdə televizorun qabağında oturmağı üstün tutmaları, əlbəttə, pisdir və onlara başucalığı gətirmir. Tələbə gənclərin mədəniyyətinin yüksəlməsinə sizin qarşılıqlı təsir göstərməməyiniz, onların estetik zövqünün formalaşdırmaqda özünüzü kənara çəkməyiniz isə bağışlanılmazdır» [267, 76].

Heydər Əliyev Azərbaycan xalqının milli-mədəni irsinin, tarixi abidələrinin qorunması, bərpası və təbliğinə xüsusi diqqət yetirir və bu sahədə mühüm vasitə sayılan muzeylərin şəbəkəsinin genişləndirilməsinə xüsusi diqqət və qayğı göstərirdi. Onun təşəbbüsü ilə Azərbaycan KP MK Bürosu 1970-ci il sentyabrın 30-da Azərbaycanın tarixi və mədəniyyətinin təbliğində muzeylərin rolunun artırılması ilə bağlı xüsusi qərar qəbul olundu. Bu istiqamətdə görülən ilk tədbirlərdən biri 1970-ci ildə Azərbaycan EA Tarix Muzeyinin 50 illiyinin təntənəli şəkildə qeyd edilməsi olmuşdu [144, iş 170, v.43–61]. Milli tariximizin təbliğində mühüm rol oynayan bu elmi-təbliğat müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, orada nümayiş etdirilən eksponatların sayının artırılması və zənginləşdirilməsi üçün bir sıra qərarlar qəbul olunmuşdu.

Yeni açılmış muzeylər arasında Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti muzeyini, Ü.Hacıbəylinin, S.Vurğunun, H.Cavidin, C.Cabbarlının, Bülbülün ev-muzeylərini, rayon və kəndlərdə onlarla tarix-diyarşünaslıq muzeylərini göstərmək olar [195, 213]. Azərbaycanın bütün rayonlarında tarix-diyarşünaslıq muzeyləri yaradılmağa başlandı. Bədii muzeylər, şəkil qalereyaları təşkil olunmuş, S.Bəh-

lulzadə adına, R.Mustafayev adına, V.Səmədova adına sərgi salonları, uşaq şəkil qalereyası, ədəbiyyat və incəsənət xadimlərinin xatirə muzeyləri fəaliyyət göstərirdi.

Azərbaycan ərazisində mövcud olan çoxsaylı tarixi, dini və mədəniyyət abidələrinin mühafizəsi və bərpası istiqamətində təsirli tədbirlər həyata keçirilirdi. 1973-cü ildə respublika ərazisində 2000 tarixi abidə dövlət mühafizəsinə götürülmüş, 11 abidə bərpa olunmuşdu [246, 160]. Heydər Əliyev tarixi və mədəniyyət abidələrinin mühafizəsinə ayrılan xərclərin ilbəil artırılmasına nail olurdu.

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə İçərişəhər Dövlət Tarix-Memarlıq, Qəbələ Dövlət Tarixi-Bədii, Lahıc Dövlət Tarix muzey qoruqları yaradılmış, 1970–1982-ci illər 52 tarix-memarlıq abidəsində bərpa işləri aparılmış, 650-dən çox abidənin pasportu hazırlanmışdı. Respublika ərazisindəki abidələrin mühafizəsi, bərpası və istifadəsinin yaxşılaşdırmaq məqsədilə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin Tarix və Mədəniyyət abidələrinin mühafizəsi və istifadəsi Baş İdarəsi əsasında 1981-ci ildə Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsinin yaradılması bu sahədə aparılan işlərin əlaqələndirilməsi və təkmilləşdirilməsinə mühüm təsir göstərdi.

Bu dövrdə bəzi tarixi abidələrdən düzgün istifadə olunmur, onlar din mərkəzi kimi fəaliyyət göstərirdi. Məsələn, Qanzasar məbədinin ermənilər tərəfindən kilsə kimi istifadə olunması və burada çoxlu maddi yardımların yığılması məsələsi Azərbaycan İKP MK-nın 1971-ci il 2 fevral tarixli qərarında ətraflı təhlil edilmiş və bu hadisələrə düzgün qiymət verilmişdi [144, iş 120, v.1, 3–4].

Tarixi abidələrin təbliğinə, gənclərin vətənpərvərlik tərbiyəsində onlardan istifadə olunmasına xüsusi diqqət yetirilirdi və qısa müddət ərzində Azərbaycan xalqının tarixi abidələrinə həsr edilmiş müxtəlif dillərdə 8 adda buklet hazırlanaraq nəşr edilmişdi. Azərbaycan SSR kinematoqrafçılarının çəkdiyi 9 sənədli film müxtəlif kinofestivallarda nümayiş etdirilmişdi. Azərbaycanın tarixi abidələri, qədim yaşayış məskənlərinin elmi tədqiqi üçün bir sıra qərarlar qəbul edilmiş, arxeoloji ekspedisiya və dəstələrin sayı artırılmışdı.

Heydər Əliyev Azərbaycan ədəbiyyatına insanın simasını formalaşdıran, xalqın milli ruhunu qaldıran əsas vasitə kimi baxır və

hesab edirdi ki, ədəbiyyatı xüsusilə də milli ədəbiyyatı bilməyən adam yüksək mənəvi səviyyəyə çata bilməz [45, 174]. Buna görə də o, orta məktəblərdə, xüsusilə də rusdilli məktəblərdə Azərbaycan ədəbiyyatının tədrisinin aşağı səviyyədə olmasına çox ciddi milli problem kimi baxırdı, gənc nəslin Azərbaycan milli ədəbiyyatının klassiklərini, müasir nümayəndələrini daha yaxşı tanıması üçün tədbirlər görülməsini təhsil müəssisələri qarşısında əsas vəzifə kimi qoyurdu.

Həmin dövrdə «Azərbaycan», «Ulduz», «Ədəbiyyat və incəsənət», «Qobustan» kimi qəzet və jurnallarda milli dilimizin qorunub saxlanması, mədəniyyətimizin aktual problemləri, müasir ədəbi proseslər haqqında dövrünə görə çox cəsarətli və qətiyyətli materiallar da dərc olunurdu.

1969-cu ildə Azərbaycan KP MK SSRİ Xəbərlər Mətbuat Agentliyinin Azərbaycan SSR bölməsinin yaradılması barədə Əsasnamə qəbul etmişdi [134, iş 93, v.75]. Heydər Əliyev milli ədəbiyyatın təsiredici rolunu yüksək qiymətləndirir və göstərirdi ki, əsl sənətkar öz dövrü, öz cəmiyyəti, öz xalqı qarşısında və bəşəriyyət qarşısında çox dərin vətəndaş məsuliyyəti ilə yaşayan və əsərlər yaradan insanlardır [32, 18]. 1980-ci il noyabrın 28-də Bakıda yazıçıların Ümumittifaq yaradıcılıq konfransında çıxış edən Heydər Əliyev Azərbaycan milli ədəbiyyatının bəşəriyyətin mədəni irsinə verdiyi töhfələri, xalqımızın mədəni inkişafındakı rolunu əsl ədəbiyyatşünas alim kimi qiymətləndirərək deyirdi ki, Azərbaycan poeziyası, bədii ədəbiyyatı uzaq keçmişə dərin kökləri ilə bağlıdır. Onun tarixi xalqın bədii şüurunun yaranması və inkişafı tarixidir [32, 27].

Azərbaycan ədəbiyyatının mahir bilicisi olan Heydər Əliyev bütün SSRİ respublikalarından gəlmiş görkəmli ədiblər qarşısında çox böyük fəxarətlə vurğulayırdı ki, Azərbaycan ədəbiyyatı Xaqani, Nizami, Nəsimi, Füzuli, Natəvan, M.F.Axundzadə və M.Ə.Sabirin timsalında dünya şöhrəti qazanmış, Yaxın Şərq və Qərb ölkələrində ədəbi prosesin, estetik fikrin inkişafına nəcib təsir göstərmiş, Avropa ədəbiyyatını yeni ideyalar, mövzular və süjetlərlə zənginləşdirmişdir. Dahi söz ustaları bizə böyük estetik sərvətlər xəzinəsi, humanizm və xalqlar dostluğu kimi nəcib ideyaların çox zəngin bir aləmini qoyub getmişlər. Biz parlaq simaların adı ilə zənginləşmiş böyük bədii sərvətə yiyələnmişik. Bu mənəvi irs, obrazlı desək, bizim üçün işləyir [32, 28].

Heydər Əliyevin Azərbaycan ədəbiyyatı qarşısında ən böyük xidmətlərindən biri repressiya qurbanları olmuş yazıçı və şairlərin adının əbədiləşdirilməsi olmuşdur. Onun bilavasitə təşəbbüsü və iradəsi sayəsində görkəmli şair-dramaturq Hüseyn Cavidin cənazəsinin qalıqlarının uzaq Sibirdən gətirilərək Naxçıvan torpağında basdırılması, adının əbədiləşdirilməsi, onun 90 və 100 illik yubileylərinin keçirilməsi, Bakıda və Naxçıvanda ev-muzeylərinin yaradılması, əsərlərinin nəşr edilməsi ilə bağlı siyasi qərarlar qəbul edilmişdi [246, 222]. Antisovet yazıçı kimi tanınmış Yusif Vəzir Çəmənzəminlinin 1977-ci ildə 90 illiyi, 1978-ci ildə isə Mikayıl Müşfiqin 70 illiyi də Heydər Əliyevin təşəbbüsü ilə keçirilmişdi.

Heydər Əliyev Azərbaycan ədəbiyyatı və mədəniyyəti klassiklərinin xidmətlərini yüksək qiymətləndirir, onların xatirəsi ədəbiləşdirilir, yubileyləri keçirilirdi. 1970–1980-ci illərdə N.Gəncəvinin 840, M.Əcəminin 600, N.Tusinin 780, M.P.Vaqifin 250, Aşıq Alının 180, M.S.Ordubadinin 100, Ə.Q.Qəmküsarın 100, S.Vurğunun 70, Aşıq Ələsgərin 150, N.Nərimanovun 100 illik yubileyləri keçirilmişdi.

1972-ci il iyun ayının 6-da Bakıda N.Nərimanovun əzəmətli abidəsinin açılışı oldu. Heydər Əliyevin bu qərarı N.Nərimanovun görkəmli dövlət xadimi kimi tarixdə əsl yerini müəyyənləşdirməklə yanaşı, ədəbi yaradıcılığının təbliğinin gücləndirilməsinə də təkan verdi. Rusiyanın Ulyanovsk şəhərində də N.Nərimanovun abidəsi qoyuldu. Azərbaycan ziyalılarının bir çoxuna, o cümlədən C.Cabbarlıya, İ.Nəsimiyə, H.Zərdabiyə, M.Müşfiqə Bakıda, C.Məmmədquluzadəyə Naxçıvanda, M.S.Ordubadiyə Ordubadda, Vaqifə Şuşada abidələr ucaldılmış, bir çoxunun (C.Cabbarlı, S.Vurğun, M.Müşfiq, N.Nərimanov, M.S.Ordubadi, H.Cavid, Vaqif) ev-muzeyləri yaradılmışdı.

Görkəmli aktyor Hüseyn Məmməd oğlu Ərəblinskinin faciəli ölümünün 50 illiyi və anadan olmasının 90 illiyi ilə əlaqədar qəbul olunmuş qərara əsasən, Sumqayıt Dövlət Dram Teatrına, Bakıda küçələrdən birinə onun adı verilmiş, məzarı Dağüstü parkdan Fəxri Xiyabana köçürülmüşdü. O, Azərbaycan klassiklərinin yubileylərini keçirməklə həm onların yaradıcılığının xalqımız və dünya ictimaiyyəti tərəfindən daha yaxından tanınmasına nail olur, həm də bu zəngin irsin məhz Azərbaycan xalqına mənsubluğunu bütün dünyaya təsdiq

etdirirdi. Onun təşəbbüsü ilə Azərbaycan millətinin tarixi şəxsiyyətlərinin, müasir mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi, adlarının əbədiləşdirilməsi, əsərlərinin nəşri mənəvi irsimizin qorunmasında, gənc nəslin bu zəngin irsə məhəbbət ruhunda tərbiyə olunmasında böyük rol oynayırdı.

Eyni zamanda bu yubileylər mədəniyyətimizin klassiklərinin yaradıcılığının tarixinə və mahiyyətinə həqiqi müraciət, milli düşüncənin dərin qatlarını üzə çıxarmaq idi. Məsələn, Moskvada İttifaqlar Evinin sütunlu salonunda Cəfər Cabbarlının 70 və Aşıq Ələsgərin 150 illik yubileylərinin keçirilməsini xatırlayaq. İlk baxışdan sırf sovetpərəst dramaturq tanınan C.Cabbarlı əsərlərində bəzən Ezop dili ilə elə məsələlərə toxunmuşdu ki, bunlar yubiley tədbirlərinin iştirakçılarını fikrən Azərbaycan tarixinin zərdüştilik və atəşpərəstlik dövrünə qaytarır, XX əsrin əvvəllərindəki mürəkkəb sosial prosesləri göz özünə gətirirdi.

Yaxud, vətəni Sovet Rusiyası tərəfindən Ermənistan SSR-ə verilən Göyçə mahalı olan Aşıq Ələsgərin belə bir səviyyədə yubileyinin keçirilməsi ilə Heydər Əliyev həm də Azərbaycanın real sərhədlərinin tarixən necə olduğu, ulu ata-babalarımızın tarixi torpaqlarının hara olduğunu yeni nəslə çatdırır və onları bu yolla tarixi həqiqəti öyrənməyə çağırırdı [252, 17–18, 29].

1972-ci ildə Azərbaycan milli aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin 150 illik yubileyinin həm Azərbaycan SSR-də, həm SSRİ-nin müxtəlif respublikalarında, o cümlədən Ermənistan SSR-də geniş qeyd edilməsi respublikanın mədəni həyatında mühüm hadisə olmaqla yanaşı, Heydər Əliyevin milli-siyasi iradəsinin təntənəsi idi. Heydər Əliyevin səyləri nəticəsində Aşıq Ələsgərin yubiley gecəsi SSRİ-nin baş sarayında – Kremlin Qurultaylar Sarayında baş tutmuş, onun abidəsi isə doğulduğu və vəfat etdiyi Göyçə mahalının Ağkilsə kəndində, Ermənistan SSR ərazisində qoyulmuşdu.

Heydər Əliyevin himayəsi ilə Azərbaycan milli poeziyası və ədəbiyyatının klassiklərinin əsərləri kütləvi tirajla nəşr olunmağa başlamış və ilk olaraq 20 cildlik «Azərbaycan klassik ədəbiyyatı kitabxanası» işıq üzü görmüşdü. 1981-ci ildən başlayaraq, Cənubi Azərbaycan şairi M.H.Şəhriyarın əsərləri Bakıda çap olunaraq Şimali Azərbaycan oxucularına çatdırıldı. Həmin illərdə, həmçinin 50 cildlik

«Dünya uşaq ədəbiyyatı kitabxanası», 100 cildlik «Dünya ədəbiyyatı kitabxanası»nın da nəşrinə başlanmışdı.

Heydər Əliyev Azərbaycan ədəbiyyatı klassiklərinin yaradıcılığının öyrənilməsi və təbliğinə böyük diqqət verirdi. Bunu 1970–1980-ci illər Azərbaycan KP MK-nın qəbul etdiyi «Bədii ədəbiyyat klassikləri əsərlərinin tədqiqini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında» xüsusi qərarı, Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin, Cəfər Cabbarlının, Molla Pənah Vaqifin, Səməd Vurğunun [178, iş 411, v.147], Mirzə Şəfi Vazehin və başqa klassiklərin ədəbi yaradıcılıq irsinin öyrənilməsi, nəşrini və təbliğini gücləndirmək tədbirləri haqqında qərarlar da sübut edir [246, 186–228]. Azərbaycan yazıçılarının VII qurultayındakı nitqində Heydər Əliyev Azərbaycanın klassik və müasir ədəbiyyatı nümayəndələrinin əsərlərinin rus dilinə tərcüməsi sahəsində ciddi problemlərin olduğunu, fəaliyyət planlarının yoxluğunu, yüksəkixtisaslı tərcüməçi kadrların çatışmadığını, bədii tərcümənin keyfiyyətinin ciddi problem olduğunu açıb göstərmiş, Azərbaycan milli mədəniyyətinin daha da yüksəlməsi üçün bütün tərcümə işinin kökündən yaxşılaşdırılmasını tələb etmişdi [69, 38–39].

Heydər Əliyev Azərbaycan ədəbiyyatının müasir nümayəndələrinin də yaradıcılığını yüksək qiymətləndirir, onların problemlərinin həllinə nail olur, yubileylərini keçirirdi. Sovet dövlətinin azad yaradıcılığa törətdiyi maneələrə baxmayaraq, Azərbaycan SSR-də Heydər Əliyevin fəaliyyəti nəticəsində yazıçı və şairlər sərbəst yaradıcılıq mühitində işləyir, heç bir ideoloji və ya inzibati təqiblərlə üzləşmirdilər. Məhz bunun nəticəsidir ki, Azərbaycanda həmin illərdə «Sandıq ədəbiyyatı» adını almış, nəşri qadağan edilmiş ədəbiyyat əsəri yox idi. Əksinə, Heydər Əliyev antisovet əsərləri ilə tanınan bir çox yazıçı və şairləri özü himayə edirdi. Bunu həm gənc şair və yazıçılara xüsusi qayğı və diqqətin təzahürü, həm də, ilk növbədə, Heydər Əliyevin fəlsəfi və siyasi amalının konkret işlərdə öz əksini tapması kimi qiymətləndirmək olar [252, 27]. O, Azərbaycan ədəbiyyatının dörd görkəmli nümayəndəsinə (M.İbrahimov, S.Rüstəm, R.Rza, S.Rəhimov) sovet dövlətinin ən yüksək adının – Sosialist Əməyi Qəhrəmanı adının verilməsinə nail olmuşdu. Müxtəlif şairlərin poeziya günlərinin (Şamaxıda M.Ə.Sabirin, Xızıda M.Müşfiqin, Qazaxda S.Vurğunun, Şuşada M.P.Vaqifin, Naxçıvanda H.Cavidin) keçirilməsi mühüm mədəni və

bədii hadisəyə çevrilirdi. Heydər Əliyevin 1982-ci ilin yanvarında M.P.Vaqifin Şuşa şəhərində abidəsinin açılışında və həmin ilin avqustunda Vaqif poeziya günlərində şəxsən iştirakı həm onun Vaqifin yaradıcılığına verdiyi böyük dəyərin, həm də Qarabığ bölgəsinin Azərbaycan mədəniyyətində tutduğu yerin xalqımızın düşmənlərinə bir daha nümayiş etdirilməsi idi. Həmin illərdə Azərbaycan yazıçıları İ.Əfəndiyev, İ.Qasımov, Ə.Vəliyev, B.Bayramov, Əbülhəsən xalq yazıçısı, O.Sarıvəlli, M.Dilbazi, B.Azəroğlu, N.Rəfibəyli isə xalq şairi adına layiq görülmüşdülər. Bir çox şair və yazıçılar – ədəbiyyatşünaslar – M.İbrahimov, M.Dadaşzadə, S.Rüstəm, B.Vahabzadə, Qabil, Ə.Cəmil, Anar, H.Arif Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdülər.

Heydər Əliyevin Azərbaycan klassik ədəbiyyatının nümayəndələrinə, eləcə də müasiri olduğu yazıçı və şairlərə münasibəti milli ədəbiyyatın gənc nəslinin nümayəndələrində də ruh yüksəkliyi yaradırdı. O, hələ 70-ci illərdə ədəbiyyatın, mədəniyyətin gələcəyini düşünərək, gənc nəslin yaradıcılıq imkanlarının reallaşması üçün hər cür şərait yaratmağa çalışırdı. 1972-ci ildə Azərbaycan yazıcılarının V qurultayında ədəbiyyatda varislik məsələsinə toxunaraq, gənclərə daha geniş meydan verməyin, onları yaradıcılığa həvəsləndirməyin vacibliyini vurğulamış, gənclərin əsərlərinin gec-gec çap olunduğunu, onların yaradıcılığına bəzi hallarda qeyri-obyektiv yanaşıldığını göstərmişdi. Bu məsələyə Azərbaycan KP MK-nın ideoloji işə və siyasi tərbiyə işlərinə həsr olunmuş 17 iyun 1979-cu il plenumunda yenidən qayıdan Heydər Əliyev demişdir ki, elə etmək lazımdır ki, yaşlı nəsillərin yaratdığı yaxşı və qiymətli nə varsa, hamısı qayğı ilə gənc nəslə verilsin, milli mənəvi sərvətlər və ənənələr bundan sonra inkişaf edib təkmilləşsin, beynəlmiləl təcrübə və məzmunla zənginləşsin [27, 66].

1970-ci illərdə Azərbaycan ədəbiyyatı İ.Məlikzadə, S.Səxavət, A.Məsud, M.Süleymanlı, S.Sərxanlı, A.İbrahimov, P.Heydər, N.Kəsəmənli, A.Muxtar, R.Zəka, Ə.Salahzadə, V.Nəsib, M.Ələsgərli, S.Rüstəmxanlı, Z.Yaqub və b. gənc yazıçı və şairlərin yaradıcılığı sayəsində yeni inkişaf mərhələsinə qədəm qoymuşdu.

Heydər Əliyev yaradıcı gənclərə qayğıkeşliyini bütün başqa sahələrə münasibətdə də göstərirdi. Onun iradəsi sayəsində respublikanın bir çox gənc mədəniyyət xadimi yüksək fəxri adlara, mükafatlara layiq görülmüşdü.

Heydər Əliyev xalqın mənəvi sərvəti kimi Azərbaycan dilini qoruyur və inkişaf etdirirdi. Qeyd etmək lazımdır ki, sovet hakimiyyəti illərində Azərbaycan dili xeyli inkişaf etmiş, onun lüğət tərkibi zənginləşmiş, öyrənilməsi və təbliğində, statusunun möhkəmlənməsində böyük uğurlar əldə edilmişdi. Heydər Əliyev göstərirdi ki, sovet hakimiyyəti illərində Azərbaycan dili yüksək səviyyədə inkişaf etmiş, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdi. Lakin, eyni zamanda sovet dövlətinin xarakterinə uyğun olaraq bütün respublikalarda olduğu kimi, Azərbaycan SSR-də də milli dilin rəqabət imkanları, tətbiqi dairəsi getdikcə daralırdı. Əvəzində rus dili dövlət dilinə, respublika ərazisində əsas ünsiyyət, kargüzarlıq, elm, ədəbiyyat, mədəniyyət, tədris dilinə çevrilməyə başlayırdı. Sonralar Heydər Əliyev o dövrü xarakterizə edərək deyirdi: «...keçmiş illərin müəyyən xüsusiyyətlərinə görə Azərbaycan dili Azərbaycanda lazımi qədər inkişaf edə bilməmişdi. Doğrudur, biz buna çalışmışıq, 60-cı, 70-ci, 80-ci illərdə bu barədə çox səylər göstərilmişdir. Ancaq Azərbaycan dili hakim dil ola bilməmişdi. Biz Sovetlər İttifaqının tərkibində idik. Sovetlər İttifaqının ümumi dili rus dili idi və o vaxt valideynlərin çoxu öz övladlarını rusdilli məktəblərə qoyurdu. Bunlar hamısı bizim Azərbaycan dilinə tam inkişaf etməkdə müəyyən maneçilik törədirdi» [208, 2001, dekabr, № 2].

Dili xalqın böyük sərvəti adlandıran Heydər Əliyev ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisinin mümkün olmadığı qənaətində idi. O, Azərbaycan dilinin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərməyi tələb edir, bunu ədəbiyyatın mühüm vəzifələrindən biri hesab edirdi. Azərbaycan yazıçılarının VII qurultayında çıxışında o, Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərməyi, dilimizin jarqon, dialekt ifadələri ilə zibillənməsinə yol verməməyi, hər bir yazıçıdan dilin, nitq mədəniyyətinin ədəbi normasının qanunvericisi olmağı tələb etmiş və təəssüflə bildirmişdi ki, elə yazıçılar var ki, bu tələblər səviyyəsində dura bilmirlər, təkcə danışıqlarında yox, həm də əsərlərində dil xətalarına yol verirlər [69, 42–43]. Heydər Əliyev özü isə böyük dövlət xadimi kimi hamının həsəd apardığı bir səviyyədə səlis dilə və nitqə

malik bir şəxsiyyət idi. Onun hər nitqi mütəxəssis alimlər tərəfindən xüsusi olaraq qeyd olunurdu.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Heydər Əliyev özü Azərbaycan dilində səlis, rəvan danışığı, qeyri-adi natiqlik qabiliyyəti ilə başqalarına nümunə idi.

Heydər Əliyev çox böyük qətiyyət və fədakarlıq göstərərək, respublikanın 1978-ci ildə qəbul edilmiş yeni Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan SSR-də dövlət dili olması haqqında xüsusi maddənin salınmasına nail olmuşdu. Sonralar özü bunu o zamankı şəraitdə respublikada, ümumiyyətlə, Azərbaycan milli tarixində «çox böyük hadisə» adlandırmışdı [92, 2 may].

Heydər Əliyev Azərbaycan SSR-in orta və ali məktəblərində Azərbaycan dilinin, ədəbiyyatının, tarixinin zəif tədris olunduğunu dəfələrlə vurğulamış, vəziyyəti düzəltmək üçün konkret tapşırıqlar vermişdi. Məsələn, 1975-ci ildə, tələbələrlə görüşündə deyirdi ki, ana dilini, doğma xalqın ədəbiyyatını, mədəniyyətini dərindən bilmək elm adamı üçün zəruri keyfiyyətlərdəndir [267, 100].

Azərbaycan dilinin tarixi, müasir inkişaf problemləri ilə böyük tədqiqat qurumları məşğul olurdu. Çoxcildlik «Müasir Azərbaycan dili» kitabının, ali məktəblər üçün «Azərbaycan dili» dərsliyinin dövlət mükafatlarına layiq görülməsi Heydər Əliyevin ana dilinə qayğısının təzahürü idi.

Azərbaycan xalq yaradıcılığının, folklorun tədqiqi, təbliği və nəşri sahəsində tədbirlər Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi altında həyata keçirilirdi. Onun mənəvi dəstəyi ilə elm və tədris müəssisələrində milli-mənəvi dəyərlərin, folklorun öyrənilməsi ilə bağlı mühüm işlər görülmüşdü. Azərbaycan xalqının milli mənəvi abidəsi – «Kitabi-Dədə Qorqud» dastanının öyrənilməsi və təbliği sahəsində işlər birbaşa Heydər Əliyevin adı ilə bağlı idi. H.Araslı, M.H.Təhmasib, F.Zeynalov, T.Hacıyev, Ş.Cəmşidov dastanın öyrənilməsi ilə bağlı geniş tədqiqatlar aparmışdılar. Dədə Qorqud mövzusu təkcə ədəbiyyatın, mətnşünaslığın tədqiqat obyekti olaraq qalmadı. Kinematoqrafçılar, rəssamlar, heykəltəraşlar bu mövzu ilə bağlı bir sıra əsərlər yaratdılar. Yazıçı Anarın ssenarisi əsasında filmin çəkilməsi, M.Abdullayevin, F.Əliyevin, M.Avşarın və b. rəssamların «Dədə Qorqud» motivləri əsasında çəkdikləri silsilə rəsm əsərləri bu möhtəşəm oğuz eposunun

xalqımızın mənəvi-tarixi yaddaşında möhkəm yer tutmasına səbəb oldu [220, 30].

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan xalqının folklor nümunələri toplanaraq məcmu şəkildə nəşr edildi. M.H.Təhmasibin «Azərbaycan xalq folkloru» (orta əsrlər) adlı sanballı monoqrafiyası çap olundu. O, xalq yaradıcılığının nümayəndələrinə, el sənətkarlarına, aşıqlara, folklor ifaçılarına dövlət qayğısının və diqqətin artırılmasına xüsusi əhəmiyyət verirdi. 1981-ci ildə isə aşıq sənətinin digər görkəmli nümayəndəsi Aşıq Alının 180 illik yubileyi geniş qeyd olundu, onun irsinin toplanılması və nəşri üçün mühüm işlər görüldü. Heydər Əliyev müasir el sənətkarlarının yaradıcılığına da daim qayğı göstərirdi. Aşıq Şəmkir, Aşıq Hüseyn, Aşıq Pənah və başqaları «Azərbaycanın əməkdar artisti» fəxri adına layiq görülmüş, müxtəlif dövlət mükafatları ilə təltif olunmuşdular. Bu qayğı və diqqət sayəsində Azərbaycan SSR-də xalq yaradıcılığının inkişafı üçün geniş imkanlar yaradılmışdı. Bir çox folklor kollektivləri mədəniyyət saraylarının ştat vahidlərinə daxil edilərək, dövlət büdcəsindən maliyyələşdirilirdilər. El sənətkarlarının yaradıcılığını təbliğ etmək məqsədilə Bakıda və bölgələrdə konsertlər, festivallar, bayramlar keçirilirdi. 1980-ci ildə Tovuz rayonunda Ozan-Aşıq Muzeyi yaradılmış, Ağstafa şəhərində Saz Məktəbi açılmışdı. Kütləvi informasiya vasitələrində, radio və televiziyada xalq yaradıcılığının nümunələri geniş təbliğ olunurdu. «Ocaq», «Bulaq», «Ozan», «Elin sözü-elin sazı» verilişləri, dastan axşamları, qəzetlərdə, jurnallarda verilən folklor səhifələri xalq yaradıcılığının qorunub saxlanması, tanınması sahəsində çox uğurlu işlər idi [220, 27–28].

Bu illərdə xalq yaradıcılığının və folklorun ən görkəmli incilərinin nəşri sahəsində də əməli tədbirlər görülürdü. «Kitabi-Dədə Qorqud», «Aşıq Ələsgər», «Azərbaycan dastanları» və s. nəşrlər çap olunmuşdu. Heydər Əliyev folklor nümunələrinin nəşri ilə kifayətlənməyərək mühüm təşkilati tədbirlərin də həyata keçirilməsinin təşəbbüskarı olmuşdur. Respublika Aşıqlar Birliyinin yaradılması, Aşıqlar qurultayının çağırılması, «İrs», «Atəşgah», «Yallı» kimi kollektivlərin yaradılması, folklor festivallarının keçirilməsi Azərbaycan mədəniyyətinin inkişafında mühüm rol oynamış, xalqın zəngin mənəvi xəzinəsinin qorunaraq, gələcək nəsillərə ötürülməsinə güclü təkan vermişdi.

Heydər Əliyevin Azərbaycan milli, mədəni və tarixi irsinin qorunub saxlanılmasında oncildlik «Azərbaycan Sovet Ensiklopediyası»nın nəşrinə nail olması xüsusi qeyd edilməlidir. Heydər Əliyev bir neçə dəfə Azərbaycan KP MK Bürosunda ensiklopediya ilə bağlı məsələləri müzakirəyə çıxarmış, maliyyə problemlərini həll etmiş, ensiklopediya üçün İçərişəhərdə yeni inzibati bina tikilmiş, maddi-texniki bazası ilə bağlı məsələlər həll edilmişdi. Əvvəlcə 50 min tirajla nəşri nəzərdə tutulan ASE Heydər Əliyevin iradəsi sayəsində 80 min tirajla nəşr olunmuşdu.

Azərbaycan xalqının zəngin milli musiqi irsinə malik olduğunu bildirən Heydər Əliyev bəstəkarlardan öz yaradıcılıq fəaliyyətində bu təmələ əsaslanmağı, bu zəngin materialdan geniş istifadə etməyi tövsiyə edirdi. O, Azərbaycan milli musiqi mədəniyyətinin keçdiyi diqqətəlayiq yola nəzər salarkən, professional musiqimizin banilərini, ilk növbədə, Ü.Hacıbəylinin fəaliyyətini böyük minnətdarlıq və iftixarla xatırlayaraq deyirdi ki: «...onlar xalqa nəinki gözəl musiqi əsərləri bəxş etmiş, həm də Azərbaycanda bəstəkarlıq məktəbinin təməlini qoymuş və bu məktəbi yaratmışlar, bəstəkarların yeni nəslini tərbiyə edib yetişdirmişlər» [23, 9–10] .

Milli musiqi sənətinin mahiyyətini onun rəngarəngliyində görən Heydər Əliyev musiqi yaradıcılığının bütün janrlarına eyni münasibət və qayğı göstərməyi, onları qarşı-qarşıya qoymamağı tələb edirdi. O, bəstəkarlara öz yaradıcılığında milli cəhətlərlə beynəlmiləl cəhətlərin vəhdətinə xüsusi diqqət yetirməyi tövsiyə edərək deyirdi ki, bəziləri hesab edirlər ki, əsərlər yalnız professional klassik musiqi nümunələri əsasında yaradılmışdır, başqaları isə əksinə, deyirlər ki, hər şey xalq melodiyaları üstündə qurulmalıdır. Hər iki yanaşmanı ifrat, yanlış və zərərli hesab edən Heydər Əliyevə görə, professional musiqi öz mayasını Avropa sivilizasiyasından, bizim üçün isə həm də klassik rus musiqisindən almışdır. Başqa meyarlar, başqa əsas axtarmaq, ələlxüsus bunlara etinasızlıq göstərmək düzgün deyildir. Bəstəkarların sənətkarlığı, yüksək professionalizmi toplanmış sərvətlərdən istifadə etməklə, Azərbaycan xalq musiqisi, milli melodiyalar, Azərbaycan folkloru əsasında bütün janrlarda sanballı əsərlər yaratmaqdan ibarət olmalıdır [23, 16–17].

Q.Qarayevin «Yeddi gözəl» baletini, F.Əmirovun «Kürd ovşarı» simfoniyasını, Niyazinin «Rast» simfonik muğamını nümunə göstərən

Heydər Əliyev vurğulayırdı ki: «...bu əsərlər bizim qədim muğamlarımıza əsaslansa da, professionallıqla yaradılmış, xalq müsiqisindən yaradıcılıqla istifadə olunmuşdur, folklor və müasirlik bacarıqla və ülvi şəkildə birləşdirilmişdir. O, bəstəkarlara məhz bu yolla getməyi tövsiyə edərək deyirdi ki, əgər əsərlər bunun əsasında yaradılarsa, parlaq milli formaya, milli koloritə, Azərbaycan musiqisi üçün spesifik çalarlara malik olar, eyni zamanda beynəlmiləl xarakter daşıyar, beynəlmiləl məzmun kəsb edər» [16, 16–17].

1977-ci ildə Heydər Əliyev Azərbaycanın milli musiqisi həyatında daha bir ənənənin əsasını qoydu. O, öz ailəsi, rəhbər işçilər və onların ailələri ilə birlikdə hər həftənin cümə günü Azərbaycan Dövlət Filarmoniyasına simfonik konsertlərə gedərək, Azərbaycan, sovet və dünya klassiklərinin əsərlərinə qulaq asır, hamını bu təşəbbüsü dəstəkləməyə, insanların şüuruna təsir göstərməyə çağırır, insanlarda musiqi zövqünün düzgün formalaşması üçün şərait yaratmağı tövsiyə edirdi.

1969–1982-ci illər yaşlı nəsil bəstəkarlarının yaradıcılıq fəaliyyətinin güclənməsi, yeni bəstəkarlar nəslinin yaranması, bütün musiqi janrlarında mühüm nailiyyətlərin əldə edilməsi, beynəlxalq musiqi əlaqələrinin genişlənməsi ilə səciyyəvi olmuşdur. Opera və balet Azərbaycan bəstəkarlarının tez-tez müraciət etdikləri janra çevrilmişdi. Bu dövrdə F.Əmirovun «Nəsimi haqqında dastan» xoreoqrafik poeması, «Min bir gecə» baleti Azərbaycan musiqisinin inkişafında mühüm rol oynamışdı.

1979-cu ildə Qara Qarayevə Sosialist Əməyi Qəhrəmanı adı verilmiş, Fikrət Əmirov isə 1980-ci ildə «Min bir gecə» baletinə görə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Azərbaycan bəstəkarlarının simfonik və kamera musiqisi tez-tez xarici ölkələrdə səslənirdi. F.Əmirovun «Şur» və «Kürd ovşarı», Niyazinin «Rast» simfonik muğamları, Ü.Hacıbəylinin və Q.Qarayevin əsərləri bir çox ölkələrin tanınmış orkestrlərinin ifasında səslənmiş və böyük şöhrət qazanmışdı. 1980-ci illərdə Arif Məlikovun, Xəyyam Mirzəzadənin, Aqşin Əlizadənin, Firəngiz Əlizadənin, Fərəc Quliyevin və b.-nın əsərləri Avropa, Amerika və Asiyanın şəhərlərində uğurla ifa edilmişdi. Zeynəb Xanlarova, Fidan və Xuraman Qasımovalar, Fərhad Bədəlbəyli Azərbaycan musiqisini dünyada layiqincə təbliğ edirdilər. Azərbaycan xalq artisti Fidan Qasımova 1977-ci ildə İtaliyada, onun

bacısı Xuraman Qasımova isə Afinada musiqi mükafatı almış, Xuraman 1982-ci ildə Çaykovski adına 8-ci Moskva beynəlxalq müsabiqəsində ikinci yeri tutmuşdu.

Azərbaycan milli musiqisinin xarici ölkələrdə təbliğində dirijorlardan Niyazi, Rauf Abdullayev böyük xidmətlər göstərmişlər.

Azərbaycan SSR-də estrada və caz musiqisi də uğurla inkişaf edirdi. Rəşid Behbudov, Müslüm Maqomayev Azərbaycan milli estradasının bütün dünyada geniş şöhrət tapmasında böyük rol oynayırdılar. Estrada musiqisinin inkişafında bədii rəhbəri Teymur Mirzəyev olan «Qaya» vokal-instrumental ansamblı, R.Behbudovun rəhbərlik etdiyi Dövlət Mahnı Teatrı və 1975-ci ildə yaradılmış, bədii rəhbəri SSRİ xalq artisti Müslüm Maqomayev olan Dövlət Estrada – Simfonik Orkestri və Gülarə Əliyevanın «Dan ulduzu» ansamblı kimi kollektivlərin böyük xidməti var idi. Bəstəkar və pianoçu Vaqif Mustafazadə Azərbaycan caz musiqisinin təşəkkül tapmasında xüsusi xidmətlər göstərmişdi. V.Mustafazadə özünün yaratdığı «Sevil» və «Muğam» ansambllarının rəhbəri idi. O, 1978-ci ildə Monte-Karloda keçirilən Beynəlxalq caz müsabiqəsində mükafat almışdı [444]. Caz ifaçıları arasında R.Babayev, Ç.Sadıqov, A.Hüseynov, C.Zeynallının da adlarını çəkmək lazımdır.

1970-ci illər Azərbaycan xalq musiqisinin inkişafında mühüm mərhələ oldu. Xanəndə və müğənnilər muğam və xalq mahnılarının, ifaçılıq ənənələrinin qorunub saxlanılması və inkişafında böyük rol oynayırdılar. X.Şuşinski, Z.Adıgözəlov, Ş.Ələkbərova, R.Muradova, Ə.Məmmədov, T.Qasımov, İ.Mustafayev, Ə.Əliyev, S.Qədimova, T.İsmayılova, H.Hüseynov, A.Babayev, İ.Rzayev, Q.Rüstəmov, S.Mirzəyev, B.Mirzəyev, C.Əkbərov, M.Muradova, N.Musayev, N.Məmmədova, Ş.Haşımova, A.Qasımov və digər xanəndələr, tarzənlər Ə.Bakıxanov, B.Mənsurov, H.Məmmədov, R.Axundov, Ə.Dadaşov, H.Bayramov, B.Salahov, R.Quliyev, kamança ustaları H.Əliyev, H.Mirzəliyev, Ş.Eyvazova, E.Bədəlov, Ə.Vəzirov, qarmonçu A.İsrafilov, nağaraçı Ç.Mehdiyev və b. xalq musiqisinin mahir ifaçıları idilər.

Azərbaycanda mahnı janrının inkişafında S.Rüstəmov, C.Cahangirov, T.Quliyev, F.Əmirov, Ə.Tağıyev, O.Kazımov, H.Məmmədov, N.Məmmədov, Ş.Axundova, R.Mirişli və b. bəstəkarların böyük xidmətləri var idi.

1971-ci ildə Azərbaycan SSR Xor Cəmiyyətinin yaradılması da mühüm mədəni hadisə oldu. 1970–1980-ci illərdə Azərbaycan bəstəkarlarının bir sıra opera, balet, musiqili komediya tamaşaları səhnəyə qoyulur və onlar respublikanın musiqi həyatında mühüm hadisəyə çevrilirdi. Bunlardan biri Şərqdə ilk qadın bəstəkarlardan olan Şəfiqə Axundovanın «Gəlin qayası» operası idi. Heydər Əliyev bütün tamaşaların ilk təqdimatlarında iştirak etməyi özünün mənəvi borcu sayırdı. Musiqi sənətinin inkişafındakı xidmətlərinə görə Q.Qarayev, F.Əmirov, Niyazi, R.Hacıyev, R.Behbudov, Z.Xanlarova, F.Əhmədova, M.Maqomayev SSRİ xalq artisti fəxri adına layiq görülmüşdülər.

Uşaq və gənclərin musiqi zövqünün formalaşdırılması məqsədilə Azərbaycan SSR Dövlət Filarmoniyasının nəzdində xüsusi uşaq musiqi repertuarı açılmış, uşaq şöbəsi yaradılmışdı [111, v.15].

XX əsrin 70–80-ci illərində Azərbaycan milli teatrı özünün əsl dirçəliş dövrünü yaşayırdı. Respublika rəhbəri Heydər Əliyevin himayəsi, incəsənət insanlarına dövlət qayğısı sayəsində teatr sənəti sürətli inkişaf yoluna daxil olmuşdu. 1974-cü ildə Azərbaycan milli teatrının 100 illik yubileyi geniş şəkildə qeyd edildi. Heydər Əliyev təntənəli iclasda geniş məruzə etmiş, Azərbaycan milli teatrının keçdiyi şərəfli yolun təhlilini verərək bildirmişdi ki, Şərqdə ilk teatr olan Azərbaycan milli teatrı maarifçilik və azadlıq ideyalarının carçısına çevrilmişdi [222, 38]. Yubiley münasibətilə Azərbaycan teatrının bir qrup xadiminə fəxri adlar, dövlət mükafatları, mənzillər verilmişdi. Azərbaycan milli teatrının üç görkəmli ustası – Mehdi Məmmədov, İsmayıl Dağıstanlı və İsmayıl Osmanlı isə SSRİ xalq artisti adına layiq görülmüşdülər. Lenin ordeni ilə təltif olunmuş Azərbaycan Dövlət Dram Teatrı elə həmin ilin yayında Moskvada qastrol səfərində olmuş, 1972-ci ildə isə S.Vurğun adına Rus Dram Teatrının 50 illiyi qeyd edilmişdi.

1969–1970-ci illərdə Azərbaycan SSR-də 9 dram teatrı və kukla teatrı fəaliyyət göstərirdisə, 1971-ci ildə 12 teatr, o cümlədən 10 dram teatrı var idi. Onlar 5304 tamaşa səhnəyə qoymuş, bunlara 1,663 min tamaşaçı baxmışdı. 1982-ci ildə Azərbaycan SSR-də 12 dram teatrı olmaqla, bütövlükdə, 14 dövlət və 41 xalq teatrı [16, 146] fəaliyyət göstərirdi. Kənd əhalisinə professional teatr-konsert xidmətini yaxşılaşdırmaq üçün 1972-ci ildə Gəncə şəhərində Azərbaycan Dövlət

Filarmoniyasının və Kukla Teatrının filialları açılmış, Şəki və Lənkəran şəhərlərində dövlət dram teatrları təşkil edilmişdi [111, v.15].

Təqdim olunan dövrdə Heydər Əliyev Azərbaycan kino sənətinin inkişafına da çox böyük qayğı göstərmişdir. O, sovet ehkamlarına uyğun gəlməyən, lakin real vəziyyəti özündə əks etdirən, buna görə də kütləvi nümayişinə icazə verilməyən bir neçə filmə («Bir cənub şəhərində», «İstintaq», «Ulduzlar sönmür», «Bir ailə üçün bağ evi») şəxsən baxaraq, öz siyasi iradəsi ilə onların ekranlara buraxılmasına nail olmuşdu. Sonralar bu filmlər çox geniş əks-səda doğurmuş, bir neçə dövlət mükafatlarına, festival mükafatlarına layiq görülmüşdü. Heydər Əliyev xalqımızın mədəni səviyyəsinin inkişafında kinonun rolunu yüksək qiymətləndirir, onu mühüm tərbiyə vasitəsi hesab edirdi. Əhalinin geniş kütlələrinin kino sənətinə daha yaxından cəlb edilməsi, onların estetik dünyagörüşünün yüksəldilməsi üçün kinoteatrların, kinoprokatın işinin genişləndirilməsinə çalışırdı [144, iş 82, v.17,18]. O illərdə Azərbaycan SSR-də 140, o cümlədən 1980-ci ildə 45 yeni kinoteatr və kino qurğusu istifadəyə verilmişdi [71].

Əgər 1970-ci ildə kinofilmlərə 54,4 mln. tamaşaçı baxmışdısa [359, 113], 1980-ci ildə bu göstərici 61,9 mln. təşkil etmişdi [361, 104].

1970-ci illərdə milli koloriti və ideya dərinliyi ilə seçilən, cəmiyyətin mənəvi problemlərini özündə əks etdirən yeni filmlər meydana gəldi. Bunların arasında «Gün keçdi» (1971), «Əsas müsahibə» (1971), «Var olsun qızlar» (1973), «Həyat bizi sınayır» (1971), «Axırıncı aşırım» (1971), «Xoşbəxtlik qayğıları» (1976), «Nəsimi» (1973), «Babək» (1979), «Tütək səsi» (1975), «Dədə Qorqud» (1975) kimi filmləri göstərmək olar. 1970-ci illərin sonu – 80-ci illərin əvvəllərində çəkilmiş mənəvi-etik problemlərə diqqəti cəlb edən, cəmiyyətdəki eybəcərlikləri, nöqsanları cəsarətlə ifşa edən filmlər, o cümlədən «Bağlı qapı arxasında» (1981), «Park» (1983), «De ki, məni sevirsən» (1977), «Bizi bağışlayın» (1979), «Gümüşü furqon» (1982), «İşgüzar səfər» (1982) tamaşaçıların böyük rəğbətini qazanmışdı.

Həmin illərdə C.Cabbarlı adına Azərbaycan Dövlət Kinostudiyasının multiplikasiya filmləri şöbəsində 20 cizgi filmi çəkilmişdi: «Ayı və siçan», «Şir və öküz», «Pıspısa xanım və Siçan bəy», «Tülkü həccə gedir», «Bulud niyə ağlayır», «Cırtdanın yeni sərgüzəştləri», «Qız qalası əfsanəsi», «Sonrakı peşmançılıq», «Dınqıl sazım, dınqıl»,

«Günlərin bir günündə» və s. Bunların əksəriyyəti Azərbaycan xalq nağıllarının motivləri əsasında hazırlanmışdı. «Çaqqal oğlu çaqqal» (1972) ilk və yeganə genişekranlı Azərbaycan cizgi filmi idi [444].

Azərbaycan rəssamları bu dövrdə rəsm, boyakarlıq, heykəltəraşlıq, dekorativ-tətbiqi sənət sahələrində maraqlı əsərlər yaratmışdılar. Bütövlükdə, 1970-ci illər Azərbaycan rəssamlıq məktəbinin inkişaf dövrü kimi səciyyələndirilə bilər. Bu dövrün ən görkəmli nümayəndələri M.Abdullayev, T.Salahov, H.Əliyev, T.Nərimanbəyov, N.Əbdürrəhmanov, A.Cəfərov, T.Cavadov, R.Babayev, N.Rəhmanov, M.Abbasov, E.Rzaquliyev, A.Zeynalov, B.Mirzəzadə, S.Salamzadə, T.Tağıyev, B.Əliyev, M.Rəhmanzadə, O.Sadıqzadə, Əşrəf Murad, Mir Cavad, Q.Əfəndiyev, F.Xəlilov və b. öz əsərləri ilə Azərbaycan milli rəssamlıq sənətinin inkişafına böyük töhfə vermişdilər. Azərbaycan rəssamları və heykəltəraşlarının əsərləri SSRİ-nin və dünyanın bir çox sərgi salonlarında nümayiş etdirilmişdi. Hər il Bakıda Azərbaycan rəssamlarının fərdi sərgiləri təşkil olunurdu. M.Abdullayev, T.Salahov SSRİ xalq rəssamı fəxri adına layiq görülmüşdülər. T.Salahov 1977-ci ildə M.Qrekov adına qızıl medalla təltif olunmuşdu. Azərbaycanın qrafika ustaları O.Sadıqzadə, R.Babayev, E.Aslanov, rəsam T.Nərimanbəyov və b. dünya və Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərinə maraqlı illüstrasiyalar seriyası yaratmışdılar [125, v.78].

Azərbaycan heykəltəraşlarının respublikadan kənarda bir neçə əsərlərinin qoyulması onların yaradılıcılığına verilən qiymətin təzahürü idi. F.Əbdürrəhmanov Buxarada İbn Sinaya, Düşənbədə Rudəkiyə, Ulan-Batorda Suxe-Bator və Çoybalsana qoyulmuş abidələrin, Ö.Eldarov isə Düşənbədə Ayninin abidəsinin müəllifi idi.

Azərbaycan SSR-də qədim xalq sənətinin nümunələri, xüsusən xalçaçılıq dövlət tərəfindən himayə olunur və inkişaf etdirilirdi. Xalçaçılıq sənəti elmin mühüm sahəsi kimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunda, Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində, texniki peşə məktəblərində tədris olunur, öyrədilirdi.

Xalçaçılıq sənətinin inkişafında xalq rəssamı Lətif Kərimovun xidmətləri böyük idi. 1970–1980-ci illərdə onun eskizləri əsasında toxunmuş «Bahar», «Şəbi-hicran», «Zərxara», «Füzuli», «Nəsimi», «Səfiəddin Urməvi», «Əcəmi» xalçaları kompozisiyasının bitkinliyi, naxışları, incəliyi və ifadəliliyi baxımından və zəngin koloritinə görə

xalça sənətinin dəyərli nümunələrindən sayılır. 80-ci illərin əvvəllərində onun yaratdığı «Bəngi rumi», «Ləçəktürünc», «Xətai», «Açmayumma» xalçaları 1985-ci ildə Londonda təşkil olunmuş fərdi sərgisində uğurla nümayiş etdirilmişdi [125, v.78–88].

Heydər Əliyev orta əsr Azərbaycan milli memarlıq sənətinin öyrənilməsinə və təbliğinə, müasir dövrdə inkişafına xüsusi diqqət göstərirdi. Onun imzaladığı qərarla görkəmli Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçıvaninin 850 illik yubileyi 1976-cı ildə böyük təntənə ilə qeyd olunmuşdu. Bu münasibətlə xüsusi elmi sessiya və konfranslar keçirilmiş, Naxçıvan şəhərində əzəmətli abidəsi qoyulmuşdu.

Heydər Əliyev Azərbaycan memarları ilə görüşündə onların həyatla, respublikanın inkişafını müəyyən edən yüksək sürətlə ayaqlaşdıqlarını, Azərbaycanın nailiyyətlərinə layiqincə töhfə verdiklərini vurğulamaqla yanaşı, öz tövsiyələrini də verərək, onlardan memarlıq layihələrinin hazırlanması və icrasının keyfiyyətini yüksəltməyi tələb edirdi: «... nail olmaq lazımdır ki, tikilən hər bir binanın özünü fərqləndirən arxitektura görkəmi olsun, xüsusən şəhərlərin mərkəzi küçələrində və meydanlarında tikinti zamanı birtipli layihələrdən istifadə olunması minimuma endirilsin» [220, 78]. O, milli arxitektura formalarından, xüsusən Azərbaycan milli memarlığının səciyyəvi elementi olan naxışlardan istifadə etməyi, milli və beynəlmiləl xüsusiyyətlərin sintezinə nail olmağı tələb edirdi [220, 78].

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan memarlığının görkəmli nümayəndəsi M.Ə.Hüseynova SSRİ xalq memarı fəxri adı verilmişdi. Heydər Əliyev ideoloji işdə, xalqın siyasi və mənəvi tərbiyəsində kütləvi informasiya vasitələrinin böyük rolunu yüksək qiymətləndirir, bu sahənin inkişafına xüsusi diqqət göstərirdi. Bunun nəticəsi olaraq, 1970-ci illərin ortalarında Azərbaycan SSR-də birdəfəlik tirajı təxminən 2,5 milyon nüsxə olan 116 qəzet, 150 jurnal və başqa vaxtaşırı nəşrlər buraxılırdı. Hər il 12 milyon nüsxədən çox tirajla 1.200 adda kitab nəşr edilirdi. Televiziya və radio verilişlərinin gündəlik həcmi xeyli artmışdı [5, 102]. Azərbaycan KP MK Bürosu milli mətbuatımızın əsasını qoyan «Əkinçi» qəzetinin 100 illik yubileyinin keçirilməsi barədə qərar qəbul etmişdi.

Azərbaycan KP MK-nın və katibliyin iclaslarında əksər qəzet və jurnalların («Kommunist», «Sovet kəndi», «Ədəbiyyat və mədəniyyət»

qəzetləri, «Kənd həyatı, «Kirpi» jurnalları) fəaliyyəti müzakirə edilir, rayon partiya komitələrinin mətbuat orqanlarına rəhbərliyi haqqında hesabatları dinlənilirdi. Heydər Əliyevin səyləri nəticəsində bəzi rayonlarda, iri sənaye müəssisələrində, ali məktəblərdə yeni qəzetlər çıxmağa başlamış, mətbuatın poliqrafiya bazası daha da möhkəmləndirilmişdi [7, 197].

Televiziya və radio verilişləri daha da inkişaf etmişdi. Əslində, bunlar hər bir evə, hər bir ailəyə daxil olmuşdu. 1976-cı ildə Azərbaycan radiosunun 50 illiyi, 1981-ci ildə isə Azərbaycan televiziyasının 25 illiyi təntənəli surətdə qeyd edilmişdi.

Xalqın milli-mənəvi yüksəlişində ziyalıların müstəsna rolunu yaxşı başa düşən Heydər Əliyev 1970–1980-ci illərdə yaradıcılıq təşkilatlarının qurultaylarındakı çıxışlarında mədəniyyətin, elmin, incəsənətin, ədəbiyyatın problemlərinə əsl dövlət xadimi, milli lider mövqeyindən yanaşır, yüksək professionallıq və erudisiya nümayiş etdirirdi. Bununla o, öz dövrünün ehkamçı kommunist rəhbərlərindən kəskin şəkildə fərqlənirdi. Mənsub olduğu millətin maraqlarını hər şeydən üstün tutan Heydər Əliyev həmişə öz xalqının, onun ziyalı təbəqəsinin dəstəyinə arxalanır, bundan ilham alırdı. Buna görə də istər Sovet Azərbaycanına rəhbərlik etdiyi 70–80-ci illərdə, istərsə də müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi qəbul etdiyi bütün qərarlar xalqın həyati mənafelərinə, onun gələcəyinə tam uyğun idi.

Onun yaratdığı mühit, xalqın milli, siyasi, mənəvi problemlərini açıq müzakirə edən, müstəqil və yeniləşən düşüncəyə malik ziyalı nəslinin yetişməsinə şərait yaradırdı.

Məhz Heydər Əliyevin siyasi iradəsinin nəticəsi olaraq qəzet və jurnal səhifələrində, teleradio verilişlərində, filmlərdə və teatr tamaşalarında millətin milli-mənəvi dəyərləri geniş təbliğ edilir, yayılırdı.

Azərbaycan milli mədəniyyətinin qazandığı böyük uğurlara baxmayaraq, Heydər Əliyev yaradıcı ziyalılar qarşısında həmişə yüksək tələblər qoyurdu. O qeyd edirdi ki: «...yaradıcı ziyalılar qarşısında da vəzifələr böyükdür və buna görə də biz onlara qarşı daha tələbkar olmalı, yaradılmış əsərlərə tənqidi yanaşmalıyıq. Görməmək olmaz ki, bizdə hələ də bir çox miyanə, qeyri-bitkin, sönük, bəzən də ideyası

yetkin olmayan əsərlər meydana çıxır. Belə əsərlərə ədəbiyyatın və incəsənətin, demək olar ki, bütün sahələrində rast gəlmək olur. Bəzən, hətta istedadlı sənətkarlar da öz əsərlərinin lazımi səviyyədə olmadığını duyur, həyatımızın dərin proseslərinə nüfuz etməyə cəhd göstərmirlər» [222, 14].

Heydər Əliyev, xüsusən gənc nəslin estetik tərbiyəsinin, incəsənətə məhəbbət hissinin formalaşmasına xüsusi önəm verir, dövlət strukturlarından, mədəni-maarif müəssisələrindən bu istiqamətdə öz səylərini artırmağı tələb edirdi. O deyirdi ki, əsl tələbə müasir, mədəni insan olmalı, incəsənətdən yaxşı baş çıxarmalı, musiqini başa düşməli və duymalı, teatrı bilməlidir.

Bədii özfəaliyyət festivalları, olimpiadalar, sərgilər gənclərin bədii yaradıcılığının, mədəniyyətinin inkişafına böyük təsir göstərirdi. 1970-ci ildən başlayaraq respublikada məktəblilərin ənənəvi mahnı bayramları keçirilirdi, 1980-ci ildən isə «gənc ifaçıların respublika baxış müsabiqə»sinin keçirilməsinə başlanıldı. Azərbaycan SSR-in bir sıra bədii özfəaliyyət kollektivləri ümumittifaq və beynəlxalq festivallarda Azərbaycan SSR-i layiqincə təmsil edirdilər.

Gənc yazıçı və şairlərə, rəssamlara, artistlər və digər yaradıcı ziyalılara böyük diqqət yetirilirdi. Respublika komsomolu MK yanında gənc yaradıcı ziyalılarla iş üzrə Əlaqələndirmə Şurası fəaliyyət göstərirdi. Hər il uşaq və gənclər üçün musiqi həftəliyi təşkil olunurdu. Gəncləri yaradıcılığa həvəsləndirmək üçün müxtəlif müsabiqələr keçirilir, mükafatlar təsis olunurdu. Bunların arasında Respublika Lenin komsomolu mükafatı xüsusi yer tuturdu. 1982-ci ildə yazıçı Elçin Əfəndiyev povestlər və hekayələr məcmuəsinə görə Ümumittifaq Lenin komsomolu laureatı adına layiq görülmüşdü. Gənc yazıçı və şairlərin yaradıcılıq potensialının gerçəkləşdirilməsində 1975-ci ildən fəaliyyət göstərən Gənc yazıçılar klubu xüsusi rol oynayırdı.

Həmin illərdə uşaq və gənclər mətbuatı gənc nəslin estetik zövqünün formalaşmasında ən mühüm vasitə idi. «Azərbaycan gəncləri», «Molodyoj Azerbaydjana», «Pioner» qəzetləri, «Ulduz», «Göyərçin» jurnalları yüksək tirajla çıxırdı. Azərbaycan radiosu və televiziyasında gənclər üçün rəngarəng proqramlar efirə gedirdi.

Tam əminliklə demək olar ki, Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi 1969–1982-ci illər Azərbaycan milli mədəniyyətinin

çiçəklənməsi və yüksəlişi dövrüdür. Heydər Əliyevin çoxşaxəli fəaliyyəti nəticəsində milli mədəniyyətimiz, incəsənətimiz və ədəbiyyatımız dövlət sərhədlərini aşaraq bütün dünyada tanınmağa başlamış, bəşər mədəniyyətinin inkişafına layiqli töhfələr vermişdir. Heydər Əliyev Azərbaycan milli mədəniyyətinin mahir bilicisi və təbliğatçısı olmaqla yanaşı, onun himayədarı və təşkilatçısı idi.

6.4. Azərbaycan SSR-in xarici ölkələrlə və müttəfiq respublikalarla təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığı

Sovet dövlətinin xarici əlaqələri, digər ölkələrlə münasibətləri tarixinin tədqiqi uzun müddət, əsasən, problemin xarici siyasət və diplomatik aspektlərini əhatə etmişdir. Yalnız 1960-cı illərin əvvəllərindən təhsil, elm, mədəniyyət, texnika sahələrində əlaqələrin tədqiqinə başlanmışdır. 1960-cı illərin sonundan sosializm və kapitalizm sistemləri arasında gərginliyin zəifləməsi prosesi beynəlxalq münasibətlərdə tamamilə yeni şərait yaratdı. Bu isə SSRİ-nin müttəfiq respublikalarının da beynəlxalq əlaqələrinin genişlənməsinə müəyyən qədər təsir edirdi.

Tarixi təcrübə sübut edir ki, təhsil, elm və mədəniyyət sahələrində əlaqələrin inkişafı həmişə dövlətlər arasında münasibətlərin yaxşılaşdırılmasına və müxtəlif ölkə xalqlarının qarşılıqlı anlaşmasına xidmət etmişdir. Belə əlaqələr nəinki milli mədəniyyətlərin zənginləşməsinə, həmçinin siyasi ab-havanın yaxşılaşmasına və qarşılıqlı etimadın möhkəmlənməsinə də yardım etmişdir.

Heydər Əliyev Azərbaycan SSR-də siyasi rəhbərliyə gələndən sonra onun beynəlxalq əlaqələrinin yaxşılaşdırılması məqsədilə rəsmi qərarların qəbul edilməsinə və problemlərin həllinin Moskva qarşısında qaldırılmasına nail oldu. O, yaranmış əlverişli beynəlxalq siyasi vəziyyətdən, ən kiçik imkanlardan Azərbaycan xalqının mənafeləri naminə məharətlə istifadə etməyə başladı. Sovet sistemi şəraitində müttəfiq respublikaların xarici ölkələrlə birbaşa əlaqələr qurmaq imkanı olmadığından, Heydər Əliyev müxtəlif yollar axtarırdı. Bu sahədə Azərbaycan SSR rəhbərinin fəaliyyəti, əsasən, aşağıdakı istiqamətlərdə həyata keçirilirdi: həmin illərdə SSRİ-yə gələn müxtəlif səviyyəli nümayəndə heyətlərinin Azərbaycan SSR-ə səfərləri artdı;

Azərbaycan SSR beynəlxalq və ümumittifaq elmi, mədəni və siyasi tədbirlərin keçirildiyi mərkəzə çevrilməyə başladı; xarici ölkələrdə işləməyə göndərilən ixtisaslı azərbaycanlıların sayı artırıldı; beynəlxalq mədəni əlaqələr genişləndirildi və s. [246, 392].

Həmin dövrdə xarici vətəndaşların respublikanın ali məktəblərində, texnikumlarında, ali məktəblərin və elmi tədqiqat müəssisələrinin aspiranturalarında təhsil almaları, bilavasitə xarici ölkələrdə tədris mərkəzlərinin yaradılması, ixtisaslı sovet mütəxəssislərinin oraya müəllim, məsləhətçi, tərcüməçi kimi göndərilməsi, müştərək elmi tədqiqat işlərinin aparılması, dərslik və dərs vəsaitlərinin, monoqrafiyaların, topluların hazırlanması və nəşri, beynəlxalq elmi konqreslərdə, simpoziumlarda və konfranslarda iştirak, mühazirə oxumaq üçün alim mübadiləsi, tələbələrin, aspirantların, təcrübəçilərin xaricə məzuniyyəti və s. təhsil və elm sahələrində beynəlxalq əməkdaşlığın əsas formaları olmuşdur [375, 188].

1969–1982-ci illərdə Azərbaycan təhsili, elmi və mədəniyyəti dünya elminə birbaşa inteqrasiya olunmaq imkanı qazanmış, bu sahələrdə beynəlxalq əlaqələr daha ardıcıl və sistemli xarakter almağa başlamış və ölkəmizin milli maraqlarına müvafiq olaraq qurulmuşdur.

Beynəlxalq əlaqələrin vacib istiqamətlərindən biri ali məktəblərə əcnəbi tələbələrin cəlbi idi. Sovetlər İttifaqı dövründə Azərbaycan SSR-in ali təhsil müəssisələrində xarici ölkələrdən olan tələbələrin təhsili də müsbət təcrübə toplamışdır. Təsadüfi deyil ki, ali məktəblərin reytinqi müəyyənləşdirilərkən əsas göstəricilərdən biri orada təhsil alan əcnəbi tələbələrin sayıdır. Əcnəbi tələbələr əlavə maliyyə mənbəyi olmaqla yanaşı, ali təhsil müəssisələri mədəniyyətlərin rəngarəngliyi ilə fərqlənən intellektual mühitin yaranmasına kömək edir, bu isə bütün dünyada inkişaf, yaradıcı və yenilikçi fəaliyyətin əsasını təşkil edir. Eyni zamanda bu prosesdə ölkələr arasında əlaqələr, o cümlədən təhsil əlaqələri formalaşır [246, 129].

Azərbaycan SSR-ə ilk dəfə 1956-cı ildə Albaniya və Bolqarıstan Xalq Respublikasında 40 nəfər tələbə ali məktəblərdə təhsil almaq üçün gəlmişdi. 1960-cı illərdə Azərbaycan SSR ali məktəblərində xarici ölkələr üçün milli kadrların hazırlanması genişlənirdi.

Heydər Əliyev iki sistem dövlətləri arasında müsəlman ölkələrində nüfuz qazanmaq uğrunda gedən mübarizədə Azərbaycan

SSR-in rolunu qaldırmağa çalışırdı. O, müsəlman dünyası üçün Azərbaycan SSR-in nümunə rolunu oynamasının respublikada elm, təhsil və mədəniyyətin inkişafından keçdiyini partiya və dövlət rəhbərlərinə inandıra bilmişdi. Bu məqsədlə təhsilin inkişafına böyük diqqət yetirir, Azərbaycan SSR-də təhsilin beynəlxalq əlaqələrinin qurulmasına və respublikanın xarici ölkələr, o cümlədən Şərq ölkələri üçün mütəxəssis hazırlayan mərkəzlərdən birinə çevrilməsinə çalışır və buna nail olurdu. Bu işdə, heç şübhəsiz, sovet dövlətinin ümumi niyyətləri ilə yanaşı, Azərbaycan elmi, mədəniyyəti və təhsilinin təbliği də nəzərdə tutulurdu. Məhz Heydər Əliyevin rəhbərliyi illərində Azərbaycan SSR sovet dövlətinin xarici ölkələr üçün mütəxəssis hazırlayan başlıca mərkəzlərindən birinə çevrilmişdi. Onun bilavasitə səyləri nəticəsində Asiya, Afrika, Latın Amerikası, hətta Avropanın müxtəlif ölkələrindən gənclər Azərbaycan SSR ali məktəblərində təhsil almaq üçün gəlirdilər. Bu, həm də Azərbaycan ali təhsil sistemində işləyən şəxslərin məsuliyyətini artırır, təhsilin keyfiyyətinə daha çox diqqət yetirilirdi [246, 129–130].

Heydər Əliyev xarici ölkələrdən Azərbaycan SSR-ə gələn tələbələrlə işin aparılmasını, o cümlədən respublikanın nailiyyətlərinin təbliğ olunmasını xüsusilə tövsiyə edirdi.

1970–1980-ci illərdə Azərbaycan SSR-in ali məktəblərində təhsil alan əcnəbi tələbələrin və onların aldıqları ixtisasların sayı artmışdı. Əgər 1961–1970-ci illərdə respublikanın ali məktəblərində 300, 1971-ci ildə 43 ölkədən 943 əcnəbi tələbə oxuyurdusa, 1981-ci ildə 72 ölkədən 3 min nəfərə yaxın tələbə təhsil alırdı [213]. Təkcə 1971–1975-ci illər ərzində respublikanın ali məktəblərini 543 xarici tələbə bitirmişdi. 1971–1980-ci illər ərzində Azərbaycan SSR-in ali məktəblərinin aspiranturalarına Bolqarıstan, Almaniya, Polşa, Vyetnam, Suriya, Misir, İraq, Banqladeş və Əfqanıstandan 122 nəfər qəbul edilmişdi [385, 249]. 1971-ci ildən 1980-ci ilədək 40 nəfər əcnəbi respublikanın ali məktəblərinin aspiranturalarında hazırlıq keçmiş, onlardan 35 nəfəri (83,3%) müəyyən olunmuş vaxtda dissertasiya müdafiə etmişdi [186, v.66]. 1982-ci ilədək Azərbaycan SSR-də sosialist ölkələrindən və inkişaf etməkdə olan ölkələrdən 108 nəfər namizədlik dissertasiyası müdafiə etmişdi [292, 385].

Xaricdən təhsil almağa gələn gənclərin sayının belə artım dinamikası respublikada elm və təhsilin keyfiyyətinin yüksək olması,

xarici tələbələr üçün yaxşı məişət və təhsil şəraitinin yaradılması, Azərbaycanın qabaqcıl respublikaya çevrilərək nümunə rolu oynaması ilə bağlı idi. Ali məktəblərimizdə təhsil alan əcnəbi tələbələrin sayının artmasında 1962-ci ildə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyində Xarici Əlaqələr şöbəsinin yaradılmasının, 1971-ci ildə Əcnəbi tələbələrlə iş üzrə Katibliyinin təsis edilməsinin də rolu olmuşdur [245].

Azərbaycan Dövlət Neft Akademiyası (keçmiş Azərbaycan Neft və Kimya İnstitutu) və Bakı Dövlət Universiteti (keçmiş Azərbaycan Dövlət Universiteti) respublikada xarici ölkələr üçün mütəxəssis kadrlar hazırlayan əsas baza idi və onlarda xarici vətəndaşların təhsili üzrə xüsusi dekanlıqlar yaradılmışdı.

Xarici ölkələr üçün kadrların hazırlanmasının əsas formalarından biri də xarici əcnəbilərin respublikanın ali məktəblərində təcrübə keçməsi idi. Azərbaycan SSR-də müxtəlif illərdə Polşa, ADR, Kuba, Hindistan, İndoneziya və s. ölkələrdən olan mütəxəssislər elmi təcrübə keçmişlər. Təkcə 1977-ci ildə respublikanın ali məktəblərində təcrübə keçən xarici mütəxəssislərin sayı 174 nəfər idi [188, v.202].

Asiya, Afrika, Latın Amerikası ölkələri və hətta Avropanın sosial-iqtisadi inkişaf istiqamətinə və səviyyəsinə görə müxtəlif olan ölkələri üçün Azərbaycan SSR-in təhsil ocaqlarında hazırlanan kadrlar vətənlərinə qayıdaraq müxtəlif vəzifələrdə işləyir, bəziləri isə sonralar hətta dövlət başçısı olmuşdu.

1960-cı illərdən Azərbaycan SSR-də təqaüd proqramlarını həyata keçirməyə başlamış Alman Akademik Mübadilə Xidmətinin (DAAD) fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Belə ki, DAAD təhsil tariximizdə azərbaycanlıların Almaniya Demokratik Respublikası universitetlərində təhsilini təşkil edən ilk beynəlxalq təşkilat olmuşdur və indiyədək uğurlu əməkdaşlığını davam etdirir [245].

İnkişaf etməkdə olan ölkələrdə ali təhsilin təşkili və inkişafı, milli kadrların hazırlanmasına kömək məqsədilə bu ölkələrə elmi-pedaqoji kadrlar baxımından kömək göstərilməsi respublikanın ali məktəblərinin fəaliyyətində xüsusi yer tutmuşdur. Azərbaycan SSR-in ali məktəblərinin bir çox əməkdaşı müəllim və konstruktor kimi yerli mütəxəssislərə, tələbələrə müasir texniki bilikləri öyrədir, tikinti obyektlərində ixtisaslaşdırılmış məsləhətlər təşkil edir, proqram və tədris və-

saitləri işləyib hazırlayır, mühazirələr oxuyur, təcrübi məşğələlər aparırdılar. Respublikanın ali məktəblərinin əməkdaşlarından işləmək üçün xaricə ezam olunanların sayı ildən-ilə çoxalırdı. Azərbaycan Neft və Kimya İnstitutu Kabil Politexnik İnstitutunun, Əlcəzair Neft, Qaz və Kimya İnstitutunun, Ənnəbi Mədən işi, Metallurgiya, Maşınqayırma və Tikinti Materialları İnstitutunun (Əlcəzair) əsas hamilərindən biri idi. 1973-cü ildən ADU və AzPİ də bu işə qoşuldu. 1966–1970-ci illərdə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin xətti ilə xarici ölkələrə 252 nəfər ali məktəb əməkdaşı (hər il orta hesabla 50 nəfər), 1971–1975-ci illərdə 390 nəfər (hər il orta hesabla 78 nəfər) göndərilmişdi. Onların çoxu Afrika və Asiyanın inkişaf etməkdə olan ölkələrində işləyirdi.

SSRİ Ali Məktəblər Nazirliyinin «İnkişaf etməkdə olan ölkələrin ali məktəblərində pedaqoji fəaliyyət göstərmək üçün mütəxəssislərin seçimi» haqqında qərarına müvafiq olaraq, 1977-ci ilin dekabrından etibarən 3 il müddətinə xaricdə işləmək üçün respublikanın ali məktəblərinin professor-müəllim heyətindən 38 nəfər tövsiyə edilmişdi [186, v.79–80]. Həmin ildə Azərbaycanın ali məktəblərinin 85 nəfər müəllimi Əlcəzair, Əfqanıstan, Qvineya, Tanzaniya və Efiopiyanın ali məktəblərində fəaliyyət göstərmişdi [385, 249].

Azərbaycan SSR-in inkişaf etməkdə olan ölkələrdə ali təhsilin təşkilinə və inkişafına, həmçinin yüksəkixtisaslı kadrların hazırlanmasına köməyinin əsas formalarından biri dövlət xətti ilə yaradılan ali məktəblərin təşkilində iştirak olmuşdur. Azərbaycanlı mütəxəssislər, əsasən, Afrika ölkələrinə təhsilin inkişafına dair milli planlarının hazırlanması işində kömək göstərirdilər.

Heydər Əliyev imkan daxilində azərbaycanlı tələbələrin xarici universitetlərdə təcrübə keçmələrinə və mübadilə proqramları çərçivəsində təhsil almalarına da nail olurdu. Hər il ali məktəblərə qəbul ərəfəsində xaricdə təhsil üzrə qəbul planı təsdiq olunurdu və rektorlar bu planın yerinə yetirilməsi üçün məsuliyyət daşıyırdılar. Təhsil almağa gedənlərin xüsusi istedada malik olması və onların arasında azərbaycanlıların çoxluq təşkil etməsi daim diqqət mərkəzində saxlanılırdı. Məsələn, təkcə 1979-cu ildə 122 nəfər azərbaycanlı tələbə Almaniya Demokratik Respublikası, Polşa, Çexoslovakiya, Macarıstan və Yuqoslaviyada təhsil almağa göndərilmişdi. Öz

növbəsində, həmin ölkələrdən də tələbələr Azərbaycan SSR-ə oxumağa gəlmişdilər [166, v.55]. Bu ölkələr sosialist dövlətləri olsalar da, hər halda Avropa ölkələri kimi, onlar da elm, təhsil və mədəniyyətin yüksək səviyyəsi ilə seçilirdi.

Dünya siyasətini və beynəlxalq münasibətlərdə baş verən prosesləri dərindən bilən Heydər Əliyev, imkan düşdükcə, Azərbaycan SSR-in təhsil işçilərini inkişaf etmiş ölkələrin qabaqcıl təhsil sistemi ilə tanış etmək fürsətini də qaçırmırdı. O, SSRİ–ABŞ münasibətlərindəki yaxınlaşmadan istifadə edərək, mərkəzin tövsiyəsi ilə Azərbaycan SSR-də Amerika təhsil sisteminin tanıdılmasına və onun müsbət cəhətlərinin tətbiq edilməsinə çalışırdı. Azərbaycan KP MK-nın 1969-cu il 9 sentyabr tarixli Büro iclasında «ABŞ-da təhsil» sərgisinin Bakıda keçirilməsi barədə qərar qəbul edildi [131]. Azərbaycan SSR-in təhsil işçiləri 1969-cu il dekabrın 26-dan 1970-ci il fevralın 9-dək uğurla keçən sərgiyə böyük maraq göstərdilər. Sərgi, bütövlükdə, sovet sistemi şəraitində Azərbaycan SSR təhsil işçilərinin dünyanın qabaqcıl ölkələrindən birinin təhsil sistemi ilə tanış olmalarında müstəsna rol oynamışdı.

Həm tarixi-nəzəri, həm də praktik baxımdan Cənubi Azərbaycan məsələsini dərindən, mükəmməl bilən Heydər Əliyev sovet dövlətinin İrana münasibətdə yeritdiyi siyasətdə Azərbaycan SSR-in rolunu yüksəldir, cənubi azərbaycanlıların problemlərinin həllinin vacibliyini qabardır, beləliklə, eyni zamanda ümummilli məsələlərə xidmət edirdi.

Heydər Əliyev həm Şimali, həm də Cənubi Azərbaycanda yaşayan gənclərin Azərbaycan SSR-in ali və orta ixtisas məktəblərində təhsil almalarına çalışırdı. O, böyük iradə və inadla cənubi azərbaycanlıların Bakıdakı ali məktəblərdə təhsil alması məsələsini qaldırır və onun müzakirəsini keçirirdi. Cənubi azərbaycanlıların Bakıda təhsil almaları, qayıtdıqdan sonra vətənlərində işləmələri antisovet təbliğatın zəiflədilməsinə kömək edərdi. Sov. İKP MK bu barədə Azərbaycan SSR rəhbərliyinə müvafiq tövsiyə verdi. Azərbaycan KP MK Bürosunun 1981-ci il 2 iyun tarixli iclasında «Azərbaycan millətindən olan iranlıların Bakı şəhərində ali məktəblərə təhsil almaq üçün qəbul edilmələri barədə» məsələ müzakirə olundu [246, 481–482; 170]. Müzakirə zamanı çıxış edən Heydər Əliyev məsələnin çox ciddi əhəmiyyət daşıdığını bildirdi. Bu məsələ ilə bağlı qəbul edilən üç maddədən ibarət qərarda

deyilirdi: « 1. ... 1981/1982-ci tədris ilindən başlayaraq, Bakı şəhərinin ali təhsil müəssisələrinə Azərbaycan millətindən olan iranlılardan 10 nəfər qəbul edilsin. 2. Azərbaycan SSR Nazirlər Soveti Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin Rəyasət Heyətinə yuxarıda göstərilən tələbələri təqaüdlə təmin etmək üçün vəsaiti və müvafiq yardımları təhsil müddətində ayırsın. 3. Respublikanın Ali və Orta İxtisas Təhsili Nazirliyi Azərbaycan millətindən olan iranlıların uğurlu təhsil almaları üçün qəbul edilməsini, yerləşdirilməsini və müvafiq şəraitlə təmin edilməsini həyata keçirsin» [170, v.29]. Bu qərar sovet dövlətinin ümumi məqsədlərinə xidmət etsə də, cənubi azərbaycanlıların maraqlarına tamamilə uyğun idi. Həmin gənclərin Azərbaycan SSR-də təhsil almaları, sosial-iqtisadi və mədəni sahələrdəki uğurları əyani şəkildə görmələri milli şüurun, müstəqillik, vahid Azərbaycan ideyalarının güclənməsinə kömək edirdi [246, 481–482].

1970–1982-ci illərdə Azərbaycan SSR-də ali təhsilin inkişafı, o cümlədən ölkədən kənarda kadr hazırlığı Ümummilli lider Heydər Əliyevin fəaliyyəti ilə bilavasitə bağlıdır. Həmin dövrdə Azərbaycanın ayrı-ayrı ali məktəbləri ilə digər müttəfiq respublikaların ali məktəbləri arasında tələbə mübadiləsi, professor-müəllim heyətinin ixtisasının artırılması, elmi-pedaqoji kadr hazırlığı sahəsində əhəmiyyətli əməkdaşlıq əlaqələri də yaradılmışdı.

Sovet sistemi şəraitində Azərbaycan SSR xarici ölkələrlə birbaşa geniş əlaqə yarada bilmədiyindən, Heydər Əliyev azərbaycanlı gənclərin ölkənin qabaqcıl ali məktəblərində müxtəlif ixtisaslara yiyələnmələri üçün şərait yaradırdı. Lakin savadlı olmalarına baxmayaraq, azərbaycanlı gənclərin bir çoxu, xüsusən kənd yerlərindən çıxanlar rus dilini bilmədikləri üçün ümumi müsabiqə yolu ilə SSRİ-nin qabaqcıl ali məktəblərinə qəbul oluna bilmirdilər. Azərbaycan SSR üçün yeni olan ixtisaslar üzrə mütəxəssis hazırlayan ali məktəblərə daxil olmaq isə daha çətin idi. Bu ixtisasların bir çoxu, məsələn, informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya və s. kadr çatışmazlığı, həm də mərkəzin yeritdiyi siyasət ucbatından Azərbaycan SSR-də hazırlanmırdı. Buna görə də Heydər Əliyev azərbaycanlı gənclərin, ilk növbədə, Moskva, Sankt-Peterburq (keçmiş Leninqrad), Kiyev, Minsk və başqa şəhərlərdəki ali məktəblərə müsabiqədənkənar qəbuluna icazə almağa, onların təhsilinin İttifaq büd-

cəsindən maliyyələşdirilməsinə nail oldu. Eyni zamanda o, bu gənclərin məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirirdi. Azərbaycanlı gənclər qabaqcıl ali məktəblərdə təkcə elmlərə yiyələnmir, həm də onların dünyagörüşü genişlənir, respublikanı uğurla təmsil edirdilər [246, 131–133]. 1970–1980-ci illərdə SSRİ-nin 170-dən çox ən məşhur ali məktəbində Azərbaycan SSR-də zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 17 mindən artıq gənc ali təhsil almışdı. O illərdə görülən işlərin millətin mənəvi təkamülündəki rolunu, dövlətçilik baxımından miqyasını, mahiyyətini və perspektivlərini dərk etmək üçün bəzi statistik məlumatları yada salmaq yerinə düşərdi. 1969–1970-ci tədris ilində respublikadan kənara 60 nəfərlik plana qarşı cəmi 47 nəfər təhsil almağa göndərilmişdisə, 1975-ci ildə bu rəqəm 14 dəfədən çox artaraq 700 nəfərə çatıb, 1978-ci ildən bu proses daha intensiv xarakter alıb, respublikadan kənara hər il 800–900 tələbə göndərilməsinə nail olunub. 1969–1970-ci tədris ilində ölkədən kənarda təhsil alanların 40 %-i azərbaycanlı idisə, 1970–1980-ci illərdə bu rəqəm 97,6 %-ə yüksəlib. 70-ci illərin sonundan başlayaraq hər il 800–900 nəfər, 80-ci illərin əvvəllərindən isə hər il 1000–1400 nəfərədək gənc Azərbaycandan kənara təhsil almağa göndərilirdi. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bu ənənəyə əsasən, həmin illərdə Azərbaycan SSR üçün ümumilikdə 17 mindən artıq mütəxəssis hazırlanıb [245].

Heydər Əliyevin göstərişi ilə ölkənin müxtəlif ali məktəblərində təhsil alan gənclərlə müntəzəm görüşlər keçirilirdi. O, bu görüşlərdə geniş nitq söyləyir, onlara öz tövsiyələrini verirdi. Məsələn, 1977-ci ilin avqust ayında keçirilən görüşdəki nitqində deyirdi: «Bu illərdən özünüz üçün faydalı istifadə edin. Teatrların, muzeylərin, qoruq yerlərinin, kitabxana salonlarının qapıları sizin üzünüzə açıqdır. Siz də mümkün qədər daha çox öyrənməyə, öz görüş dairənizi genişləndirməyə, məlumatınızı artırmağa çalışın» [238].

Heydər Əliyev mərkəzi şəhərlərdə, xüsusən Moskvada təhsil alan tələbə və aspirantların təhsilinə, məişətinə başlıca diqqət yetirirdi. Onun təşəbbüsü ilə Azərbaycan KP MK Bürosunun 1979-cu il 2 noyabr tarixli iclasında büro üzvlərinin Moskvada təhsil alan tələbə və aspirantlarla görüşünü keçirmək barədə qərar qəbul edildi [162]. Qərarın icrası uğurla həyata keçirildi. Həmin ilin dekabr ayında M.Qorki adına Moskva Akademik Bədaye Teatrının yeni binasında Azərbaycan SSR-

dən Moskvada təhsil alan tələbə və aspirantlarla Azərbaycan KP MK Bürosu üzvlərinin möhtəşəm görüşü keçirildi. Bu görüşə Heydər Əliyevin dəvəti ilə SSRİ-nin ali təhsil naziri, şəhərin rəhbərləri, Moskvadakı bütün institutların rektorları, tanınmış professorlar gəlmişdilər. Görüşdə Heydər Əliyev geniş nitq söyləmişdir [43].

Bu istiqamətdə həyata keçirilən tədbirlər sonrakı illərdə də davam etdirildi. Həmin gənclər tələbə təqaüdü ilə təmin olunurdular. Onlarla keçirilən görüşlərdə geniş nitq söyləyən Heydər Əliyev elmlərə dərindən yiyələnməyi, rus dilini mükəmməl mənimsəməyi və Azərbaycanı layiqincə təmsil etməyi tövsiyə edirdi [70]. Qeyd etmək lazımdır ki, ölkənin başqa şəhərlərində təhsil alan azərbaycanlı gənclər həmin tövsiyələri yerinə yetirib kamil mütəxəssis kimi yetişirdilər. Minlərlə azərbaycanlı gənc ölkənin müxtəlif ali məktəblərində təhsil alaraq vətənə mütəxəssis kimi dönürdü. Dünyanın bir sıra qabaqcıl alimlərindən dərs alan bu gənclər özləri ilə Azərbaycan SSR-ə yeni bilik, yeni düşüncə, yeni nəfəs gətirirdilər. Ölkənin başqa şəhərlərində, uzaq vilayətlərində oxumaları, oraların mühiti, mədəniyyəti, adət-ənənələri ilə yaxından tanış olmaları onların hərtərəfli inkişafına kömək edirdi [246, 135].

Bu siyasətin bir məqsədi də azərbaycanlıların SSRİ ərazisində daha geniş coğrafiyada yayılması ilə Azərbaycan diasporunun yaranmasına nail olmaq idi.

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi illərində Bakı bir çox beynəlxalq elmi, mədəni və s. tədbirlərin keçirildiyi yerə çevrilmişdi. Respublika alimlərinin, mədəniyyət, incəsənət və ədəbiyyat xadimlərinin xarici ölkələrə səfərləri genişlənirdi. Azərbaycan SSR-in elmi idarələri ilə dünyanın qabaqcıl elmi mərkəzləri arasında əlaqələr qurulur və inkişaf etdirilir, birgə elmi tədqiqat işlərinin həcmi artırdı. Azərbaycan alimləri dünya elminin nailiyyətləri ilə yaxından tanış olurdular. Respublikaya səfər edən xarici ölkə alimləri isə Azərbaycan xalqının tarixi keçmişi, mədəniyyəti, incəsənəti, sosial-iqtisadi və b. sahələrdə qazandığı uğurlarla tanış olur, öz ölkələrindəki həmkarları arasında doğru ictimai rəyin formalaşmasında mühüm rol oynayırdılar.

Azərbaycan SSR Elmlər Akademiyası öz elmi potensialına görə 1970-ci illərdə SSRİ-nin aparıcı elmi mərkəzlərindən birinə çevrilmişdi

və onun beynəlxalq elmi əlaqələri daha ardıcıl, sistemli xarakter alırdı. Azərbaycan alimləri Yaponiya, İngiltərə, Türkiyə, ABŞ, İtaliya, Fransa, İran, Meksika, İraq, Kanada, Almaniya və digər ölkələrdə keçirilən beynəlxalq elmi konqres, konfrans, simpozium və seminarlarda respublikanı layiqincə təmsil edirdilər.

Azərbaycan alimlərinin beynəlxalq əlaqələrinin xarakteri də dəyişirdi. Əgər 1960-cı illərdə beynəlxalq elmi əlaqələr yalnız elmi informasiya mübadiləsi ilə məhdudlaşırdısa, 1970-ci illərdə texnologiya, elm və texnika sahəsində plan əsaslı, kompleks və əlaqələndirmə prinsiplərinə əsaslanan əməkdaşlığa keçid meyilləri formalaşmışdı [103]. Azərbaycan SSR EA-nın alimləri müştərək elmi araşdırmalarda (xüsusilə sosialist ölkələri ilə) qarşılıqlı elmi ezamiyyətlərin (həmçinin uzunmüddətli) reallaşmasında, elmi informasiya və təcrübə mübadiləsində, elmi məsləhət və texniki yardımın göstərilməsində, beynəlxalq elmi toplantıların, elmi-texniki sərgi və yarmarkaların təşkilində iştirak edirdilər [438, 18; 277, 271].

Respublikada bir sıra problemlər üzrə aparılan elmi tədqiqatların istiqamətləri və nəticələri xarici ölkə alimlərinin və mühüm elmi mərkəzlərin diqqətini cəlb edirdi. Həmin illərdə Azərbaycan alimlərinin – fiziklərin, kimyaçıların, geoloqların, bioloq və coğrafiyaşünasların, astrofiziklərin, riyaziyyatçıların və digər sahələrin mütəxəssislərinin elmi nailiyyətləri sosialist ölkələri ilə yanaşı, Asiya, Afrika və Latın Amerikasının inkişaf etməkdə olan ölkələrində, eyni zamanda qabaqcıl kapitalist ölkələrində (ABŞ, İngiltərə, Yaponiya, AFR, Fransa və İtaliya) maraqla qarşılanırdı.

Respublika Elmlər Akademiyası dünyanın 50 ölkəsinin 530 elmi tədqiqat institutu və təşkilatı ilə yaradıcılıq əlaqələri qurmuş (1980-ci il) və bu əlaqələr get-gedə daha intensiv xarakter alırdı [149, 119–120].

Elmlər Akademiyasının institutlarının bir çox xarici ölkələrin eyni profilli müəssisələri ilə ikitərəfli və çoxtərəfli əlaqələri formalaşmış, həm fundamental tədqiqatlar, həm də birgə elmi-texniki tədqiqatlar sahəsində geniş təcrübə qazanılmışdı.

Azərbaycan alimləri Avropa sosialist ölkələrinin elmi müəssisələri ilə birgə mühərriklər üçün texniki yağlara yüksəkkeyfiyyətli aşqar qatışıqların, ingibitorların hazırlanması, konstruksiyaların kor-

roziyadan müdafiəsinin elektrokimyəvi üsulları, selen düzləndiricilərinin fiziki proseslərinin tədqiqi, alunit yataqlarının geoloji-struktur yerləşməsi şərtlərinin xüsusiyyətlərinin, kimyəvi-mineraloji və fiziki-kimyəvi cəhətlərinin və genezisinin öyrənilməsində, ulduzların və ulduz topalarının tədqiqində iştirak edirdilər [315, 30].

Fizika İnstitutu, Radiasiya Tədqiqatları Bölməsi bir çox ölkələrin elmi mərkəzləri ilə razılaşdırılmış plan əsasında «Günəş, külək, kimyəvi və geotermal enerjilərin elektrik, istilik və mexaniki enerjiyə çevrilməsi, bu əsasda yüksək səmərəli qurğuların yaradılması proqramı» üzrə, Riyaziyyat və Mexanika İnstitutu Bolqarıstan EA-nın Riyaziyyat və Mexanika Mərkəzi ilə, Kibernetika İnstitutu Vyetnamın Elmi Araşdırmalar Mərkəzi ilə, Şamaxı Astrofizika Rəsədxanası 5 ölkənin müvafiq qurumları ilə, Kosmik Tədqiqatlar İnstitutu Almaniya, Kuba, Polşa, Macarıstan, Bolqarıstan və Çexoslovakiyanın elmi tədqiqat müəssisələri ilə Yerin təbii ehtiyatlarının aerokosmik üsullarla öyrənilməsi sahəsində əməkdaşlıq edirdi. Elmlər Akademiyasının Qeyri-Üzvi və Fiziki Kimya, Geologiya, Zoologiya, Coğrafiya, Botanika və Fiziologiya institutlarının alimləri də fəal beynəlxalq elmi əməkdaşlıq qurmuşdular [249, 123].

Azərbaycan alimləri ABŞ-ın elmi mərkəzləri ilə riyaziyyat, mexanika, fizika, kimyəvi kataliz, polimer və monomerlərin sintezi, ətraf mühit və iqlimşünaslıq, ekologiya kimi sahələrin aktual problemlərinə, Radiasiya Tədqiqatları Bölməsi Bordo Elm Mərkəzinin (Fransa) bərk cismlər laboratoriyası ilə seqneto-elektrik kristalların sintezi, strukturu və dielektrik xüsusiyyətlərinin öyrənilməsinə dair birgə araşdırmalar aparırdı.

1971–1982-ci illərdə xarici ölkə alimlərinin respublikada ictimai elmlər sahəsində aparılan tədqiqatlara marağı nəzərəçarpacaq dərəcədə artmışdı. Tarix İnstitutu, Şərqşünaslıq İnstitutu, Əlyazmalar Fondu, Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Ədəbiyyatı Muzeyi bu illər ərzində 620 xarici qonaq qəbul etmiş, Elmlər Akademiyasının 139 əməkdaşı xaricdə ezamiyyətdə olmuşdu [102]. Tarix İnstitutunun əməkdaşı, tarix elmləri doktoru İ.H.Nərimanov 1970-ci ildə Cənubi Azərbaycan ərazisində, xüsusilə Urmiya gölü hövzəsində, 1973–1979-cu illərdə SSRİ EA-nın Arxeologiya İnstitutunun İraqda təşkil etdiyi Mesopotamiya Arxeoloji Ekspedisiyalarında Cənubi Qafqazdan mün-

təzəm şəkildə iştirak edən ilk azərbaycanlı arxeoloq alim idi. Alim Şimali Mesopotamiyanın Sincar vadisində məşhur Yarımtəpə adlı qədim yaşayış məskənində aparılan qazıntılarda iştirak etmiş, bəşər sivilizasiyasının əsasını qoymuş məşhur Xələf və Übeyd mədəniyyətləri abidələri ilə yaxından tanış olmuşdu [100, 208; 261]. Akademiklər Z.M.Bünyadov, M.Ə.Hüseynov, EA-nın müxbir üzvü B.M.Hüseynov, elmlər doktorları İ.R.Səlimxanov və B.Ə.Nəbiyev müxtəlif ölkələrin ictimaiyyətçiləri ilə əlaqələrin möhkəmlənməsinə böyük töhfələr vermişlər.

ABŞ, AFR, Yaponiya, Fransa, İtaliya, Belçika və digər ölkələr Azərbaycan SSR alimlərinin ixtiralarına 34 patent almışdı [412, 11].

Azərbaycanın neftçi-geoloq alimlərinin neftlə bağlı tədqiqatları, neft kimyası, geofizika, geologiya sahələrindəki işləri SSRİ miqyasında böyük nüfuz qazanmışdı. Azərbaycan SSR mütəxəssisləri Asiya, Afrika və Latın Amerikasının bir sıra ölkəsində neft yataqlarının kəşfiyyatı, qazılması və işlədilməsində yaxından iştirak etmişlər. Neft və qaz quyularının qazılması sahəsində görkəmli alim, istedadlı ixtiraçı, texnika elmləri doktoru, professor Eyyub Tağıyev dünyada ilk çoxpilləli turboburun (qazıma turbininin) yaradıcılarından biri, maili və küt qazıma üsullarının müəllifi olub. ABŞ, Fransa, İtaliya və s. ölkələrin firmalarında onun istehsalına lisenziya verilmişdir. O, sürətli qazıma rejimlərini ilk dəfə tətbiq edənlərdən olub. Neft-qaz hasilatı texnologiyasında çoxlüləli qazımanın, həmçinin vibrasiya üsullarının yaradılmasında və reallaşmasında böyük əməyi olmuşdur. E.Tağıyev SSRİ-də çoxgövdəli qazıma üsulunu işləmiş (Brüsseldə Ümumdünya sərgisində qızıl medal almışdır) və həyata keçirmişdir. Hindistan, Braziliya və Argentinanın milli neft sənayesinin inkişafında E.Tağıyevin böyük rolu olmuşdur. O, Hindistan Dövlət Neft Komitəsinin daimi məsləhətçisi idi [305].

Azərbaycan SSR-in ali məktəblərinin alimləri də beynəlxalq elmi əlaqələrdə iştirak edir, Polşa, ADR, Çexoslovakiya, Yuqoslaviya, Kuba, Monqolustan, Rumıniya, Bolqarıstan, ABŞ, İngiltərə, Fransa, AFR, İtaliya, Meksika, Hindistan, Yaponiya, Əlcəzair, Əfqanıstan, Birma, İran, Yəmən, Liviya, Mali, Misir, Suriya, Qvineya, Madaqasqar, Nigeriya və s. ölkələrdə elmi tədqiqatlar aparırdılar.

Azərbaycan Neft və Kimya İnstitutu Almaniya Demokratik Respublikasının Frayberq Mədən Akademiyası, Azərbaycan Dövlət Uni-

versitetinin alimləri isə Yuqoslaviyanın Sarayevo universitetindən olan həmkarları ilə uzun illər əməkdaşlıq edirdilər [293, 6].

1978-ci ildə Frayberq Mədən Akademiyasının 6 alimi respublikaya gəldi. Bir sıra böyük elmi əhəmiyyət kəsb edən kompleks problemlərin işlənməsi iki elmi tədqiqat mərkəzinin alimlərinin əməkdaşlığının nəticəsidir. AzNKİ-nin professorları M.M.Mövsümzadə və Ə.L.Şabanov Frayberq Mədən Akademiyasının professorları İ.Beger və R.Yakobi ilə birgə dünya elmində müxtəlif nukliofinlərin iştirakı ilə doymamış birləşmələrə elektrofil əlavələr sahəsi üzrə toplanmış materialların ümumiləşdirilməsi istiqamətində tədqiqatlar aparmışlar. İki ali təhsil ocağının kimyaçı alimlərinin apardıqları tədqiqatların nəticəsində bir sıra dünya əhəmiyyətli, mühüm, yeni elmi nəticələr əldə edilmişdir. Əməkdaşlıq illərində AzNKİ almaniyalı alimlərlə neft və qaz yataqlarının qazılması sahəsində zəngin təcrübəsini bölüşmüşdülər. Eyni zamanda Frayberq Mədən Akademiyasının alimləri ilə 1976–1980-ci illər ərzində aparılmış informasiya mübadiləsi nəticəsində, AzNKİ-da neft sənayesi və mədən avadanlığının dinamikası, davamlılığı və onların optimizasiyası metodlarının işlənib hazırlanması üzrə tədqiqat yekunlaşdırılmışdı. Və bu elmi nailiyyətlərin istehsalatda tətbiqi nəticəsində 2,5 mln. rubldan artıq gəlir əldə edilmişdi. Azərbaycan SSR və Almaniya Demokratik Respublikası alimlərinin neft quyularının qazıntısı prosesində baltalardan istifadənin yeni metodikaları üzrə apardıqları tədqiqatlar «Azneft» istehsalat birliyində, tədqiqat prosesində yaradılmış qurğular vasitəsilə quyuların ağzının ətrafının örtülməsi üçün sütunlu başlıqlar L.Şmidt adına Bakı Maşınqayırma zavodunda tətbiq edilmişdi [292, 397].

Xarici ölkə alimlərinin AzNKİ-də – ölkənin neft sahəsində ən nəhəng ali məktəbinə göstərdikləri maraq təbiidir. İnstitutun yüksəkixtisaslı neftçi kadrlarının yetişdirilməsi, neft sənayesi sahələrinin mütəmadi şəkildə elmi-texniki baxımdan yenidən təchizatının miqyasının genişləndirilməsi ilə əlaqədar aktual elmi problemlərin işlənilməsi sahəsindəki təcrübəsi müxtəlif ölkələrin elmi ictimaiyyətinin geniş marağına səbəb olurdu. Belə ki, 1978-ci ildə bu ali məktəbin iş təcrübəsi ilə tanış olmaq üçün Ployeşt Neft və Qaz İnstitutunu təmsil edən rumıniyalı, Krakov Mədən-Metallurgiya Akademiyasından polşalı alimlər qrupu AzNKİ-də olmuşdular [292, 398].

1973-cü ildə Lion Milli Tətbiqi Elmlər İnstitutunun direktoru Robir Jan-Polun rəhbərliyi ilə bir qrup fransalı alim ADU-da və AzNKİ-də olmuşdular. 1973-cü ildə B.Gibson, M.Kazo, J.Matyei (Fransa), M.Maldalei (Avstriya), məşhur coğrafiyaşünas, Paris Universitetinin professoru A.Stomkin (Fransa), Bernard fon Gersdorf (AFR), B.Baranovskiy (Polşa) və b. Azərbaycan SSR-in ali məktəblərində pedaqoji fəaliyyət göstərmişlər.

Yalnız 1976–1980-ci illər ərzində sosialist ölkələrindən 30 alim elmi fəaliyyətlə tanışlıq, ixtisas artırmaq məqsədilə Azərbaycan SSR-in ali məktəblərində olmuşdur [192].

Öz növbəsində, azərbaycanlı alimlər Rumıniyanın Ployeşt Neft və Qaz İnstitutunda, Buxarest Politexnik İnstitutunda Polşanın Krakov Mədən-Metallurgiya Akademiyasında, Varşava Universitetində Almaniya Demokratik Respublikasının Drezden Texniki Universitetində, Frayberq Mədən Akademiyasında və Humbolt adına Berlin Universitetində, Mədən-Metallurgiya Akademiyasında, Praqa Politexnik İnstitutunda və bir çox digər xarici ölkələrin ali məktəblərində, elmi müəssisələrində olmuşlar.

1971–1980-ci illərdə elmi məqsədlərlə Azərbaycan Neft və Kimya İnstitutunun 360 əməkdaşı dünyanın müxtəlif ölkələrinə ezam edilmiş, inkişaf etməkdə olan ölkələrə elmi kadrların hazırlanmasına kömək məqsədilə 187 nəfər göndərilmişdi. Ümumilikdə, 1971–1980-ci illər ərzində respublikanın ali məktəblərindən xaricə 912 əməkdaş və tələbə göndərilmişdi [187, v.166; 192].

Azərbaycan fizikaçı alimlərinin ABŞ-a, Selenin və tellurun fizikası üzrə Avropa Konfransına, həmçinin elmi əlaqələrin qurulması və yarımkeçiricilər fizikası üzrə mühazirələrin aparılması, Azərbaycan SSR-də elmin vəziyyəti və perspektivləri haqqında məruzələrin oxunması üçün İran və Türkiyə Cümhuriyyətinə səfərləri xüsusilə məhsuldar olmuşdur. Həkim-alimlər sülhün müdafiəsi üzrə beynəlxalq hərəkatda fəal iştirak edir; geoloqlar və neftçilər Əlcəzair Səhrasının neft və qaz yataqlarının öyrənilməsində səmərəli fəaliyyət göstərir; bioloqlar torpaqşünasların beynəlxalq konqreslərində və milli qurultaylarında iştirak edir; respublika memarlarının nümayəndəsi Beynəlxalq Memarlar Konqresinin daimi katibliyinin tərkibinə daxil edilmişdi [277, 272].

Heydər Əliyev Azərbaycan SSR-in beynəlxalq elmi-texniki əlaqələrinin genişləndirilməsinə səylər edir, alimlərin əməkdaşlığının qurulması və inkişafı üçün mümkün olan şəraiti yaradırdı. Məsələn, tədqiq edilən dövrdə Azərbaycan alimləri ABŞ, Fransa, Danimarka, Avstriya, Kanada, Yaponiya, Türkiyə, Hollandiya və s. ölkələrin elmi təşkilatlarının ən müxtəlif mövzularda təşkil etdikləri təxminən 80 beynəlxalq görüşdə iştirak etmişdilər [277, 272]. 1971–1980-ci illərdə 642 nəfərdən çox elmi əməkdaşımız müxtəlif xarakterli tədbirlərdə iştirak etmək üçün xarici ölkələrə ezam olunmuşdu. Onlardan sosialist ölkələrinə 334 nəfər, kapitalist ölkələrinə 199 nəfər, inkişaf etməkdə olan ölkələrə 109 nəfər ezam olunmuşdu [102]. Azərbaycan SSR Elmlər Akademiyasından eyni məqsədlə xarici ölkələrə 1980-ci ildə 97 nəfər, 1982-ci ildə isə 103 nəfər alim ezamiyyətə göndərilmişdi. Bu dövrdə Elmlər Akademiyası institutlarında 207 nəfər xarici ölkə alimləri elmi tədqiqat işləri aparmışdılar [256, 242]. 1971–1980-ci illərdə respublika ali məktəblərinin 70 nəfər müəllimi beynəlxalq elmi konfranslarda, simpoziumlarda və konqreslərdə iştirak etmişdilər [192; 293, 133]. 1971–1980-ci illər ərzində Elmlər Akademiyası 2000 xarici elmi nümayəndəni qonaq qəbul etmişdi [424, 82–83].

Heydər Əliyevin bilavasitə səyləri nəticəsində 1971–1980-ci illərdə Azərbaycan SSR EA-nın müəssisələrinə təcrübə mübadiləsi və birgə elmi araşdırmalar aparılması məqsədilə 50 ölkədən 743 nəfər elmi işçi gəlmişdi. Bunlardan 314 nəfəri inkişaf etmiş ölkələrin, 88 nəfəri isə inkişaf etməkdə olan ölkələrin nümayəndələri idi. Belə təmaslar elmi tədqiqat işlərinin təşkili və istiqamətləndirilməsi təcrübəsinin öyrənilməsinə, elmi kadrların hazırlanması sistemi və formaları ilə tanışlığa, elmi-texniki nailiyyətlər, elmi informasiya və elmi ədəbiyyat mübadiləsinə, birgə tədqiqatların həyata keçirilməsinə, beynəlxalq elmi tədbirlərdə qarşılıqlı surətdə iştirak etməyə geniş imkanlar yaradırdı.

Respublikaya gələn dünyanın görkəmli elm xadimlərindən BMT Katibliyinin Elm və Texnika şöbəsinin Baş direktoru Qay Qresford, Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin Baş direktoru Jorj Şampetye, Kuba Elmlər Akademiyasının vitse-prezidenti Tireo Sayens Sançes, Bolqarıstan Elmlər Akademiyasının prezidenti Anqel Bolevski, ADR Elmlər Akademiyasının vitse-prezidenti, akademik Şeel, «BASF»

şirkətinin elmi tədqiqatlar üzrə baş direktoru Ernest Bartolome (AFR), İranın Dünya Ali Məktəbləri ilə Əməkdaşlıq İdarəsinin Baş direktoru M.T.Katibli və b. Azərbaycan elminin nailiyyətlərinə çox yüksək qiymət vermişdilər [314, 357].

1970–1980-ci illərdə Azərbaycan SSR inkişaf etməkdə olan ölkələrin xalqları üçün milli, mədəni və elmi inkişafda nümunə rolunu oynayırdı. Həmin ölkələrin alimləri, ictimai və siyasi xadimlərinin iştirakı ilə Bakıda böyük elmi məclislər keçirilirdi. 1977-ci ilin may ayında Bakıda keçirilən Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı mövzusunda nüfuzlu beynəlxalq elmi konfransda 70-dən çox ölkənin siyasi və ictimai xadimlərinin, alimlərinin təmsil olunması belə tədbirlərdən biri idi. Elmi konfransda geniş məruzə edən Heydər Əliyev bu ölkələrin xalqlarının milli azadlıq mübarizəsini yüksək qiymətləndirirdi. Bakıda belə bir tədbirin keçirilməsi və Heydər Əliyevin orada məruzə etməsi Azərbaycan SSR rəhbərinin nəinki türk və müsəlman dünyasında, habelə milli azadlıq mübarizəsi aparan ölkələrin xalqları, hökumət və ictimai dairələri arasında böyük nüfuza malik olan görkəmli dövlət xadimi, onların üzləşdikləri problemlərin həlli yollarını dərindən bilən dünya siyasətçisi olduğunu göstərirdi. Ümumiyyətlə, Heydər Əliyev SSRİ dövləti rəhbərləri arasında müsəlman Şərqinin problemlərini ən mükəmməl bilən siyasi xadim sayılırdı [246, 150].

Bu illərdə Azərbaycan SSR nümayəndələri Asiya, Afrika və Latın Amerikasının inkişaf etməkdə olan ölkələrinə geriliklə, milli iqtisadiyyatın və mədəniyyətin inkişafı uğrunda mübarizədə fəal kömək edirdilər. Bu kömək elmi-texniki əməkdaşlıq haqqında imzalanmış müqaviləyə uyğun formada, habelə YUNESKO-nun xətti, elmi tədqiqatlar təcrübəsi və ədəbiyyat mübadiləsi, mütəxəssislərin bu ölkələrə səfərləri və s. vasitəsilə həyata keçirilirdi. Azərbaycan SSR-in görkəmli alimləri BMT-nin ekspertləri və məsləhətçiləri kimi Hindistanda, Birmada, Braziliyada, Mərakeşdə və s. ölkələrdə fəaliyyət göstərmişlər [315].

Azərbaycan SSR Elmlər Akademiyası və respublikanın ali məktəbləri müxtəlif elmi tədbirlərin təşkilində böyük təcrübə toplamışdılar ki, bu da beynəlxalq elmi əməkdaşlıqda respublikanın mövqeyini və nüfuzunu artırırdı. Həmin illərdə Azərbaycan SSR Elmlər Akademi-

yasının təşkilatçılığı ilə respublikada 50-dən çox beynəlxalq elmi məclis keçirilmişdir. 1971-ci ildə Çexoslovakiya, Yuqoslaviya, İtaliya, ABŞ, Fransa və Yaponiya alimlərinin iştirakı ilə İFAK-ın təşkilati idarəetmə və ierarxik sistemləri üzrə Beynəlxalq simpoziumun, 1973-cü ildə 10 xarici ölkə aliminin iştirakı ilə Cənubi Qafqazın dördüncü dövrünün tədqiqinə dair IV Ümumittifaq müzakirənin, 1973-cü ildə 23 ölkə nümayəndəsinin iştirakı ilə «Yer qabığının ofiolitləri» Beynəlxalq simpoziumun, 1973-cü ildə YUNESKO-nun qərarına əsasən 20 ölkə nümayəndəsinin iştirakı ilə görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin 600 illiyinə həsr edilmiş yubiley təntənələrinin, 1975-ci ildə Yerin aerokosmik üsullarla distansion tədqiqi üzrə müzakirələrin keçirilməsi, 1978-ci ildə [277, 269] 12 sosialist ölkəsindən olan nümayəndənin iştirakı ilə yüksək termodinamik parametrlərdə dağ süxurlarının fiziki xüsusiyyətlərinə həsr olunmuş beynəlxalq tədbirin təşkili, 1979-cu ildə 10 ölkədən olan nümayəndə heyətinin iştirakı ilə «İnterkosmos» şurasının VIII sessiyasının keçirilməsi, 1980-ci ildə SSRİ və ADR mütəxəssislərinin yeni neft və qaz yataqlarının müəyyən edilməsi sahəsi üzrə aparılan elmi tədqiqatların keyfiyyətinin yaxşılaşdırılması üçün elektron-hesablama texnikasının istifadəsi üzrə beynəlxalq seminarın təşkili, 1980-ci ildə sosialist ölkələrindən olan 24 alimin iştirakı ilə zülal və peptidlərin fizikası və kimyası üzrə V Beynəlxalq simpoziumun keçirilməsi, 1983-cü ildə bütün sosialist ölkələrindən olan alimlərin iştirakı ilə Şərq xalçaçılıq sənəti üzrə Beynəlxalq simpoziumun keçirilməsi Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən bütün bu genişmiqyaslı işlərin yalnız bir qismini təşkil edir və s. [424, 94].

1972-ci ilin 5 dekabrında Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev XX elmi konfransda iştirak etmək üçün Bakıya gəlmiş ADR və SSRİ tarixçilərini qəbul etmişdi [275, 75].

Bakı kosmos problemlərinin bütöv bir institut tərəfindən tədqiq olunduğu azsaylı dünya şəhərlərindən biri idi. 1973-cü ilin oktyabrında Bakıda XXIV Beynəlxalq Astronavtika Konqresinin keçirilməsi təkcə Azərbaycan SSR-in deyil, həm də İttifaqın elmi həyatında mühüm hadisə idi. Konqresdə 29 ölkədən 560 alim, mütəxəssis, o cümlədən məşhur ABŞ astronavtı T.Stafford, ümumiyyətlə, 1500 nəfərdən çox nümayəndə iştirak edirdi [369, 10].

Heydər Əliyev tədbirin yüksək elmi və təşkilatçılıq səviyyəsində keçirilməsi üçün çox ciddi göstəriş vermişdi. Tədbirin təşkili Azərbaycan elminin nailiyyətlərinin təbliğində və alimlər arasında beynəlxalq əlaqələrin qurulmasında mühüm rol oynadı. ABŞ və digər xarici ölkə alimlərinin bu tədbirdə iştirakı, heç şübhəsiz, Azərbaycan elminin dünyanın qabaqcıl elmi dairələri tərəfindən qəbul olunmasına və respublikanın yüksək nüfuzuna dəlalət edirdi.

Bu konqresin iştirakçıları arasında görkəmli alimlər – Beynəlxalq Astronavtika Federasiyasının Prezidenti L.G.Napolitano (İtaliya), eksprezidenti A.Jommot (Belçika), vitse-prezidentlər M.Barrek (Fransa), Caffe L. (ABŞ), R.Paşek (ÇSSR), Beynəlxalq Astronavtika Akademiyasının Prezidenti Ç.S.Dreyper (ABŞ), Beynəlxalq Kosmik Hüquq İnstitutunun Prezidenti E.Pepen (Fransa) və bir çox başqaları olmuşlar. Qısa zamanda 350 elmi məruzə, məlumat dinlənilmiş və müzakirə edilmişdir; Azərbaycanın aparıcı mütəxəssisləri akademik H.F.Sultanovun, aparıcı elmi işçilər H.D.Məmmədbəylinin, R.A.Zeynalovun, Q.T.Arazovun, M.A.Məmmədovun, M.B.Kərimbəyovun da çıxışları bu qəbildəndir [97, v.20].

Konqresdə Azərbaycan alimlərinin kosmik tədqiqatlarda fəal iştirakı barədə səslənmiş ideya dərhal Azərbaycan KP MK-da dəstəklənmişdi, bu, respublikada Yerin kosmosdan tədqiqi sahəsində işlərin təşkilində Azərbaycan SSR Elmlər Akademiyasının qarşısında duran kompleks məsələlərin həllinin sürətlənməsinə təkan verdi. Akademik T.K.İsmayılov yazırdı: «İlk növbədə, demək istərdim ki, bizim ölkədə kosmik tədqiqatların inkişafı ilə əlaqədar olan bütün təşəbbüslərimizdə daim Azərbaycan KP MK-dan və şəxsən Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevdən fəal və operativ dəstək alırdıq – bunu vurğulamaq xüsusilə vacibdir. Məhz bu şərait fəaliyyətimizin, sözün əsl mənasında, kosmik sürətlə inkişafını təmin etdi» [369, 13].

1975-ci ildə laboratoriyaları, konstruktor büroları, istehsal təcrübəsi olan «Kaspi» (xüsusi tədqiqatların kosmik aparatları) elmi-istehsalat mərkəzi yaradıldı. Səmərəli fəaliyyət nəticəsində ölkənin Qafqaz-Xəzər poliqonunda uğurla istismar sınağından keçirilmiş təbii mühitin kosmik tədqiqatlarının alt peyk sisteminin SSRİ-də birinci eksperimental nümunəsi yaradılmışdı. Bu sistemin ayrı-ayrı kompleks qurğuları «Soyuz-salyut», habelə «İnterkosmos» proqramları Bolqarıs-

tan, Macarıstan, Çexoslovakiya və Monqolustan poliqonlarında orbital elmi stansiyaları müşayiət edən elmi və metodik işlər zamanı geniş tətbiq edilmişdi [94, v.39–40].

1975-ci ildə Bakıda XII Beynəlxalq Botanika konqresi keçirildi. Konqresdə Botanika İnstitutunun əməkdaşları iştirak edirdilər. Daha sonra Azərbaycan SSR üzrə ekskursiya təşkil edildi və ekskursiyada konqresin vitse-prezidenti Fransa EA-nın müxbir üzvü R.Ozenda, ABŞ EA-nın həqiqi üzvü, ABŞ EA-nın İcraedici Komitəsinin fəxri üzvü P.Klaud, Böyük Britaniya Muzeyinin mühafizi Ross, həmçinin Kanada, Avstraliya, Avstriya, Türkiyə Cümhuriyyəti, AFR, İngiltərə, İtaliya, PXR, Hollandiya, ÇSSR, ADR, YSFR, MXR-dan olan nümayəndələr də iştirak etmişdilər. «Botanika bağı», «Mərdəkan dendrarisi» bukletləri nəşr edilmiş, «Azərbaycanın florası və nəbatatı» albomu və Azərbaycan SSR-in rayonlarına botanik ekskursiya üzrə soraq kitabçası hazırlanmışdır [103]. 1977-ci il mayın 28-də Bakıda dünyanın 70 ölkəsinin nümayəndəsinin iştirak etdiyi beynəlxalq konfrans keçirildi. Bu, bütün dünya ictimaiyyəti üçün olduqca əhəmiyyətli bir forum idi. Bu konfransda əsas məruzə ilə çıxış edən Heydər Əliyev o zaman Asiya, Afrika və Latın Amerikası ölkələrində baş verən inqilabi proseslərin tədqiqinə dair bir sıra yeni elmi və nəzəri ideyalar irəli sürmüşdü [358, 61].

Bakıda dəfələrlə inkişaf etməkdə olan ölkələrdə milli azadlıq hərəkatlarının başlanması məsələlərinin müzakirəsinə həsr olunmuş beynəlxalq forumlar keçirilirdi. Azərbaycan KP MK-nın birinci katibi bu tədbirlərdə dəfələrlə iştirak etmişdi. 1976-cı ilin mayında Azərbaycan SSR-in paytaxtı Bakı şəhərində keçirilən Asiya və Afrika xalqlarının IV Sovet Həmrəylik Konfransında çıxış edən respublika rəhbəri H.Əliyevin məzmunlu «Xalqlar arasında sülh, dostluq və həmrəylik uğrunda» adlı məruzəsində milli-azadlıq hərəkatının əsas mərhələləri işıqlandırılmışdı [433, 25].

1981-ci il sentyabrın 21–25-də Bakıda keçirilən ümumi və tətbiqi kimyaya dair XII Beynəlxalq Mendeleyev qurultayı Azərbaycan elminin həyatında böyük tarixi hadisə idi. Qurultayda 20-dən çox xarici ölkəni təmsil edən 2000 nümayəndə, o cümlədən 9 ölkənin kimya sənayesinin rəhbərləri, keçmiş SSRİ EA-nın 18 nəfər həqiqi üzvü və bir çox görkəmli mütəxəssislər iştirak edirdi. Qurultay iştirakçılarını qəbul edən Heydər Əliyev bu tədbirin əhəmiyyətini xüsusi qeyd edərək çox

böyük uzaqgörənliklə demişdir ki, xarici ölkələrin görkəmli alim və mütəxəssislərinin geniş təmsil olunduqları Bakı görüşünün fərqləndirici xüsusiyyəti bəşəriyyətin xeyrinə tədqiqatların səmərəsini daha da yüksəltmək məqsədilə elm xadimlərinin səylərinin birləşdirilməsinə, beynəlxalq şəraitin sağlamlaşmasına, xalqlar arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə, sülhün və təhlükəsizliyin möhkəmlənməsinə böyük töhfə verir. Bakıda beynəlxalq əhəmiyyətli böyük simpoziumların və konqreslərin çox keçirilməsinə baxmayaraq, Azərbaycan torpağında hələ heç vaxt, heç bir məclis ümumdünya şöhrəti qazanmış alimlərin belə parlaq dəstəsini vəhdət halında birləşdirməmişdi [249, 121–122; 211].

Elmi əlaqələrin güclənməsi xarici elmi mətbuatda Azərbaycan alimlərinin əsərlərinin və elmi nəticələrini əks etdirən məqalələrinin daha çox dərc olunmasına, Azərbaycan elminin beynəlxalq nüfuzunun artmasına təkan verirdi. Azərbaycan alimlərinin geologiya, coğrafiya və təbiətin mühafizəsi, torpaqşünaslıq, biologiya, fiziologiya, tibb, parazitologiya sahəsində tədqiqatları Avstraliya, Macarıstan, Kanada, ABŞ, Fransa və Türkiyə, Yaponiya, Niderland, Almaniyanın elmi ictimaiyyətini maraqlandırdığına görə tərcümə edilərək nəşr olunurdu.

Azərbaycan tarixi və arxeologiyası, şərqşünaslıq, dilçilik, folklor, memarlıq və incəsənət sahəsindəki dərin araşdırmalar Əfqanıstan, İran, İraq, Suriya, ABŞ, Fransa, Almaniya, Çexoslovakiya, Bolqarıstan və Türkiyədə nəşr edilmişdi [314, 354].

Beynəlxalq kitab mübadiləsi vasitəsilə elmi-texniki informasiyaların və ictimai elmləri əhatə edən məlumatların istifadəsi beynəlxalq elmi əlaqələrin mühüm formalarından biri idi. Xarici ölkələrlə elmi-informasiya və elmi nəşrlərin mübadiləsinin genişləndirilməsi Azərbaycan Elmlər Akademiyasının əsaslı Elmi Kitabxanasının xətti ilə aparılırdı. 1982-ci ildə kitabxana dünyanın 51 ölkəsinin 569-dən çox elmi təşkilatı ilə əməkdaşlıq etmiş, beynəlxalq kitab mübadiləsi ilə 7085 nüsxə ədəbiyyat almış və 7877 nüsxə ədəbiyyat göndərmişdi [256, 242]. Elmlər Akademiyasının elmi tədqiqat müəssisələri tərəfindən də xarici dillərə tərcümə edilən elmi əsərlərin mübadiləsi aparılırdı.

Azərbaycan elmi ədəbiyyatının xarici ölkələrə göndərilməsi Azərbaycan xalqı və respublika haqqında, onun tarixi, mədəniyyəti, elmi

haqqında yüz minlərlə insanı məlumatlandırır və dünya ictimaiyyətində düzgün və dolğun təsəvvür yaradılmasına imkan verirdi.

Həmin illərdə Azərbaycan elminin beynəlxalq nüfuzunun artmasını belə bir fakt da sübut edir ki, Azərbaycan SSR EA-nın 23 nəfər əməkdaşı dünyanın bir çox elmi mərkəzləri və cəmiyyətlərinin, o cümlədən Bolqarıstan və İraq elmlər akademiyalarının, Beynəlxalq Cərrahlar Assosiasiyasının, ABŞ, Böyük Britaniya və İrlandiya mineralogiya cəmiyyətlərinin, Türkiyə Cümhuriyyəti Dil Qurumunun, Beynəlxalq Astronavtika İttifaqının, Yaponiyanın Geoloqlar Cəmiyyətinin, Ümumdünya Paleontologiya Cəmiyyətinin, Beynəlxalq Zoologiya Akademiyasının, YUNESKO-nun Amerika Muzeyləri Assosiasiyasının, Çexoslovakiya Entomoloji Cəmiyyətinin, Alman Arxeologiya İnstitutunun fəxri üzvü seçilmişdi [375, 191]. Bunlardan Azərbaycan SSR EA-nın həqiqi üzvləri H.Ə.Əliyev, Z.M.Bünyadov, V.R.Volobuyev, H.H.Həsənov, M.C.Cavadzadə, M.Ə.İbrahimov, Ə.C.Sultanov, H.F.Sultanov, M.Ə.Şirəliyev və M.Ə.Hüseynovu, EA-nın müxbir üzvləri P.Ə.Əzizbəyova, U.K.Ələkbərov, C.Ə.Kərimov, N.H.Səmədov və Q.M.Sultanovu, elmlər doktorları T.K.İsmayılov, H.C.Məmmədbəyli, N.İ.Qarayeva, A.H.Seyidov və İ.R.Səlimxanovu, elmlər namizədləri A.M.Əsgərov, Ə.M.Məlikov və L.M.Rzayevanı göstərmək olar [102].

Azərbaycan SSR EA Tarix İnstitutunun Arxeoloji Texnologiya laboratoriyasının rəhbəri, professor İ.R.Səlimxanovun xarici ölkələrlə elmi əlaqələri daha geniş idi. Alim 46 xarici ölkədə olmuş, ABŞ, Yeni Zelandiya, Avstraliya, İngiltərə, Yunanıstan, İsrail, Fransa, İtaliya, Misir, Almaniya, İraq, Livan, Avstriya, Meksika, Çexoslovakiya, Hindistan, Macarıstan, Polşa və s. ölkələrdə keçirilən elmi konqres, konfrans və simpoziumlarda fəal iştirak etmişdi. Onun spektral analiz üsulunun arxeologiya sahəsində tətbiqi mövzusunda əsərləri xarici ölkələrdə nəşr olunan elmi məcmuələrdə dərc edilmiş, böyük marağa səbəb olmuşdu. O, 1967-ci ildə Almaniya Demokratik Respublikası Arxeologiya İnstitutunun müxbir üzvü, 1977-ci ildə isə həqiqi üzvü, 1977-ci ildə Kaliforniya Universitetinin Arxeologiya Elmləri Cəmiyyətinin, 1981-ci ildə İngiltərə Metallurgiya Cəmiyyətinin fəxri üzvü seçilmişdi. İ.R.Səlimxanov 1978-ci ildən ömrünün sonuna qədər YUNESKO nəzdində tarixdən əvvəlki və ibtidai tarix elmləri Beynəlxalq ittifaqının Metal Tarixi Komitəsinin vitse-prezidenti olmuşdur [76].

Azərbaycan elminin nailiyyətlərinin təbliğində elmi-texniki sərgilərin böyük rolu var idi. Respublikanın alimləri bu sərgilərdə elmimizin nailiyyətləri barədə məlumat verməklə yanaşı, elmi tədqiqat işlərinin və ən yeni elmi nailiyyətlərin iqtisadiyyatda tətbiqi sahəsində təcrübə mübadiləsi aparır, xarici ölkə alimləri ilə elmi yaradıcılıq əlaqələri qururdular. 1970–1980-ci illərdə SSRİ məkanında və bir sıra xarici ölkədə Azərbaycan SSR EA-nın nailiyyətlərini əks etdirən 40-dan çox sərgi təşkil olunmuşdu. 1970–1980-ci illərdə bizim alimlərin işləri dünyanın 15 ölkəsində – Türkiyə Cümhuriyyətində (İzmir, 1970-ci il), Bolqarıstanda (Plovdiv, 1971-ci ü), ADR-də (Leypsiq, 1972-ci il), İraqda (Bağdad, 1973-cü il), Misirdə (Qahirə, 1974-cü il), Suriyada (Dəməşq, 1975-ci il), Yaponiyada (Okinava, 1975-ci il), İtaliyada (Bari, 1975), Hindistanda (Nyu-Dehli, 1976-cı ıl), Polşada (Poznan, 1977-ci il), Yuqoslaviyada (Zaqreb, 1978-ci il), Macarıstanda (Budapeşt, 1979-cu il), Rumıniyada (Buxarest, 1980-ci il), Kolumbiyada (Boqota, 1980-ci il) keçirilən sərgilərdə və Leypsiq Beynəlxalq yarmarkasında (Almaniya, 1981-ci il) nümayiş etdirilmişdi [102; 314, 354]. Respublika alimlərinin elmi işləri və ixtiraları 1969–1977-ci illərdə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində (XTNS) iştirakına görə 124 medalla təltif olunmuşdu.

1970–1980-ci illərdə Azərbaycan SSR-in İttifaq respublikaları ilə elmi münasibətlərində yeni meyillər yaranırdı. Bu dövrdə Azərbaycan alimləri Gürcüstan SSR-in elmi mərkəzləri (riyaziyyat, fizika, astronomiya, humanitar elmlər sahələri), Ukrayna SSR və Litva SSR (fizika, kimya sahələri), Qazaxıstan SSR (riyaziyyat, fizika, astronomiya, geologiya, biologiya, türkologiya sahələri) və Özbəkistan SSR (geofizika, coğrafiya, təbiətin mühafizəsi sahələri) alimləri ilə sıx əməkdaşlıq və yaradıcılıq əlaqələri qurmuşdular [249, 117].

Gürcüstan SSR və Azərbaycan SSR alimləri Gürcüstan SSR EA Fizika İnstitutunun atom reaktoru əsasında polimerləşmə proseslərini birlikdə öyrənmiş və bu tədqiqat əsasında çox qiymətli fiziki-kimyəvi xassələrə malik yeni polimerlər alınmışdı. Azərbaycan alimləri dünyada birinci olaraq butanın katalitik üsulla hidrogensizləşdirilməsini işləyib hazırlamış, gürcü həmkarları ilə birlikdə isə sintetik seolitlərin tətbiq edilməsi sahəsində kompleks tədqiqat işləri aparmışdılar. Hər iki respublika alimlərinin birgə tədqiqatları nəticəsində həmin illərdə 200-dən artıq müəlliflik şəhadətnaməsi alınmışdı.

1976-cı ildə A.Mlikadze, K.Qoderdzaşvili və C.Zülfüqarlının müəllifliyi ilə nəşr edilmiş «Gürcüstan neftinin mikroelementlərinin öyrənilməsi» monoqrafiyası hər iki respublika alimlərinin birgə əməyinin bəhrəsi idi.

Azərbaycan-gürcü ədəbi əlaqələrinin öyrənilməsində xidmətlərinə görə Azərbaycan SSR EA-nın əməkdaşı D.Əliyeva 1980-ci ildə Gürcüstan SSR-in Əməkdar Mədəniyyət işçisi fəxri adını almışdı [249, 118].

Azərbaycan SSR EA alimlərinin Geologiya İnstitutunun RSFSR, Qazaxıstan SSR və Özbəkistan SSR-dən olan həmkarları ilə sıx yaradıcılıq əlaqələri neft və qaz axtarışları sahəsində görülən işlərin təkmilləşməsinə səbəb olmuşdu. Azərbaycan SSR EA Geologiya İnstitutunun palçıq vulkanizmi sektoru alimlərinin və «Manqışlaqneft» Birliyi (Qazaxıstan SSR) ilə yaradıcı əməkdaşlığının nəticəsində Uzen və Jetıbay neft-qaz yataqlarının quruluşunun əhatəli qrafik modeli yaradılmışdı. Bu model yanacaq yataqlarının quruluşu haqqında tez və səmərəli məlumatlar əldə etməyə, onların əldə olunma prosesinə nəzarət etməyə, layların tərkibindəki dəyişiklikləri nəzarətdə saxlamağa, onlarda suyun tükənməsini izləməyə imkan vermişdi [320].

Respublika geologiya elminin böyük nailiyyətlərini nəzərə alaraq, SSRİ EA-nın Geologiya, Geofizika və Geokimya Bölməsi Bürosunun qərarı ilə 1976-cı ilin oktyabrında Azərbaycan SSR EA-nın Geologiya İnstitutu SSRİ-nin cənub palçıq vulkanlarının kompleks tədqiqi sahəsində baş müəssisəyə çevrilmişdi [297, 220].

Həmin illərdə Azərbaycan SSR EA-nın Neft-Kimya Prosesləri İnstitutunun əməkdaşları ölkənin bir sıra elmi tədqiqat institutları və ali məktəbləri ilə birgə xammal bazasını genişləndirmək məqsədilə Sovet Rusiyasının Qırğızıstan SSR, Özbəkistan SSR və Moldaviya SSR-in yeni yataqlarının təbii sorbentlərinin adsorbsiya və katalitik xüsusiyyətlərinin tədqiqində fəal iştirak etmişdilər.

Azərbaycanın fizikaçı alimlərinin SSRİ-nin müxtəlif elmi mərkəzlərinin alimləri ilə əməkdaşlığı geniş vüsət almışdı. Onlar müasir fizika elminin müxtəlif istiqamətləri, xüsusilə yarımkeçiricilər fizikası üzrə ölkənin aparıcı elmi mərkəzləri – A.F.İoffe adına Fizika-Texnika İnstitutu və SSRİ EA-nın Fizika İnstitutu, maqnit fizikası sahəsində SSRİ EA Ural İnstitutunun Elmi Mərkəzi, elementar hissəciklər fizikası və sahə nəzəriyyəsi üzrə Birləşmiş Nüvə Tədqiqatları İnstitutu (Dubna ş.)

və M.V.Lomonosov adına MDU, zəif temperaturlar fizikası sahəsində SSRİ EA Fiziki Problemlər İnstitutu və Ukrayna SSR EA Zəif Temperaturlar Texniki İnstitutu ilə əməkdaşlıq edirdilər.

SSRİ EA-nın biokimya, bitkilərin fiziologiyası, bioüzvi kimya, molekulyar biologiya, biofizika, botanika, astrofizika institutları, M.V.Lomonosov adına MDU ilə əməkdaşlığın nəticəsində Azərbaycan SSR-də riyazi biologiya, texniki kibernetika, bioloji mühəndislik kimi perspektiv sahələr inkişaf etməyə başlamışdı [412, 134–135].

Azərbaycan alimlərinin Yerin kosmik metodlarla tədqiqinin inkişafında iştirakı respublikanın yüksək elmi və texniki potensialının göstəricisi idi. Azərbaycan SSR EA-nın Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu (dünyada bu profilli ilk elmi müəssisə) bir sıra elmi-texniki problemlərin həllində ölkənin 25 elmi müəssisəsi və idarəsi ilə səmərəli əməkdaşlıq edirdi [412, 66–67].

Azərbaycan mədəniyyəti SSRİ-nin beynəlxalq əlaqələrinin güclənməsinə və genişlənməsinə öz sanballı töhfəsini vermişdi. Bu da, ilk növbədə, 1970–1980-ci illərdə Heydər Əliyevin ardıcıl, məqsədyönlü siyasəti sayəsində Azərbaycan mədəniyyətinin intibah yoluna çıxması nəticəsində mümkün olmuşdu.

Mədəni əlaqələr müxtəlif formalarla həyata keçirilirdi: mədəniyyət günləri, musiqi kollektivlərinin mübadiləsi, kitab sərgi-yarmarkaları, şairlərin, yazıçıların, jurnalistlərin əlaqələri, kitab çapı, teatr, kino, televiziya, radio sahəsində əməkdaşlıq, qardaşlaşmış şəhərlər arasında müxtəlif formalı mədəni əlaqələr, idman və turizm sahəsində əlaqələr. O illərdə Azərbaycan SSR-in 120 ölkənin 860 təşkilatı ilə mədəni əlaqələri vardı [424, 126]. Belə əlaqələr xalqlar arasında qarşılıqlı anlaşmanın artmasına, dostluğa və etimada kömək edirdi.

Azərbaycan SSR-in mədəni əlaqələrinin mühüm sahələrindən biri ədəbi əsərlərin nəşri idi. Burada qarşılıqlı kitab çapı özünəməxsus yer tuturdu. Bir sıra çatışmazlıqlara baxmayaraq, Azərbaycan SSR-də kitab nəşri bu sahədə əlaqələr yüksələn xətlə inkişaf edirdi. Xarici ölkələr üçün Azərbaycan kitablarının nəşri işi daha sürətlə gedirdi. Azərbaycan şair və yazıçılarının və xarici ölkə müəlliflərinin əsərləri qarşılıqlı şəkildə tərcümə və nəşr olunurdu.

1970-ci illərdə Polşada, Bolqarıstanda, Slovakiyada, Türkiyə Cümhuriyyətində və bəzi ərəb ölkələrində Azərbaycanın Nizami,

Füzuli, Xaqani, Vaqif, M.Ə.Sabir, M.F.Axundzadə, C.Məmmədquluzadə kimi klassiklərinin, habelə C.Cabbarlı, S.Vurğun, M.İbrahimov, R.Rza, S.Rüstəm, M.Rahim, M.Cəlal, S.Rəhimov, İ.Əfəndiyev, Anar, M.İbrahimbəyov, Ç.Hüseynov, Elçin, H.Abbaszadə və başqalarının əsərləri nəşr edilmişdi [298, 136].

Praqa Universitetinin professoru Yan Rınka Nizami Gəncəvinin əsərlərini, populyar çex yazıçısı və dramaturqu, Çexoslovakiyanın Dövlət mükafatı laureatı İrji Marek isə xalq şairi Səməd Vurğunun əsərlərini çex dilinə tərcümə və nəşr etdirmişdi [319]. Nizami Gəncəvinin məşhur «Xosrov və Şirin» poeması 1970-ci ildə Parisdə Anri Massenin tərcüməsində nəşr olunmuşdu. YUNESKO-nun təşəbbüsü ilə Məhəmməd Füzulinin ölməz «Leyli və Məcnun» poeması ingilis dilində çapdan çıxmışdı [379, 39, 51].

Azərbaycan SSR-in Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti beynəlxalq mədəni mübadilədə müsbət rol oynayırdı və XX əsrin 60–70-ci illərində dünyanın 118 ölkəsinin 720-dən çox təşkilatı ilə əlaqələr yaratmışdı. 1969-cu ildən respublikada 7 dildə çıxan «Azərbaycan bu gün» jurnalında Azərbaycan SSR-in iqtisadi, elmi, mədəni və sosial həyatını əks etdirən materiallar çap olunurdu. Jurnal dünyanın 120 ölkəsində 860 ünvana göndərilirdi [424, 121].

Heydər Əliyev Azərbaycan SSR-in Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin fəaliyyətinə şəxsən nəzarət edirdi, onun tövsiyə və göstərişləri sayəsində Cəmiyyətin fəaliyyətində yeni formalar tətbiq olunurdu. Azərbaycan zəhmətkeşlərinin dünya xalqlarının həyatı və mədəniyyəti ilə tanışlıq tədbirləri, xarici tələbələrlə, turistlərə iş, təbliğat materiallarının göndərilməsi ilə yanaşı, müxtəlif ölkələrdə kompleks tədbirlər – mədəniyyət günləri, həftələri (ongünlükləri) təşkil edilirdi [112, v.49].

Azərbaycan SSR-in timsalında 1972-ci ilin sentyabr-oktyabr aylarında Neapolda, 1972-ci ilin dekabrında Seneqalda, 1973-cü ilin yanvarında AFR-də [112, v.174], 1974-cü ilin noyabrında Danimarkada [112, v.46], 1975-ci ilin oktyabr-noyabr aylarında Portuqaliyada [112, v.47] və s. keçirilmiş SSRİ mədəniyyəti günləri məhz bu qəbildən idi. Azərbaycan SSR-də isə 1971-ci ildə Sovet–İraq dostluğu günləri [117, v.131], 1975-ci ildə Türkiyə mədəniyyəti günləri, 1976-cı ildə Portuqaliya günləri və s. keçirilmişdi [118, v.47].

Kitab mübadiləsi, kitab sərgiləri və yarmarkaları beynəlxalq mədəni əməkdaşlığın səmərəli formaları idi. Bu işlə Azərbaycan SSR Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti, «Azərkitab» Birliyinin kitab ixracı şöbəsi, Kitab Palatası, Dövlət Mətbuat Komitəsi, «Vətən» Cəmiyyəti və respublikanın əsas kitabxanaları məşğul olurdu [246, 79].

Dövlət Mətbuat Komitəsi 30-dan çox xarici ölkə ilə mütəmadi əlaqə saxlayırdı. ABŞ, İngiltərə, Fransa, Yaponiya, AFR, habelə Cənubi Amerika, Afrika və Asiyanın bir sıra ölkəsi Azərbaycan kitablarının daimi sifarişçiləri idi. 1973-cü ildə yalnız Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti tərəfindən 65 ölkəyə 19,5 min kitab, buklet, prospekt, albom, təqvim, plakat, açıqca toplusu göndərilmiş, habelə respublikaya gələn nümayəndə heyətlərinə, turistlərə təqdim edilmişdi [116, v.7].

1970-ci illərdə jurnalistlərin də əməkdaşlığı genişlənirdi. Xarici qəzet və jurnalların əməkdaşları Azərbaycan SSR-də qonaq olur, respublikanın həyatı haqqında oçerk və məqalələr dərc etdirirdilər. Belə səfərlər dünyada Azərbaycan xalqı haqqında informasiyanın yayılmasına şərait yaradırdı. Bu illərdə Azərbaycan Jurnalistlər İttifaqının xətti ilə «Mond» və «Le'Humanite» (Fransa), «Dertau», «Folk Ştimme» və «Fraysayt» (ADR) qəzetlərinin nümayəndələri, Kuba, Polşa, Macarıstan, Rumıniya, Nigeriya, Yuqoslaviya, Seneqal, ABŞ jurnalistləri, Budapeştdəki Beynəlxalq Jurnalistlər Mərkəzinin məzunları Azərbaycan SSR-də olmuşdular [116, v.118]. Eyni zamanda Azərbaycan jurnalistləri Fransa, ABŞ, Əlcəzair, İtaliya, Suriya, Livan, Yuqoslaviya və s. ölkələrdə olmuşdular.

Beynəlxalq əməkdaşlıqda incəsənət sahəsində əlaqələr də mühüm yer tuturdu. 1969-cu ilin sonunda Azərbaycan SSR-in balet ustaları Fransada keçirilən Beynəlxalq rəqs festivalında Qara Qarayevin «Yeddi gözəl» və «Leyli və Məcnun», R.Hacıyevin «Ləzgi rəqsi», T.Bakıxanovun «Xəzər balladası» və F.Qarayevin «Qobustan kölgələri» əsərlərini təqdim etmiş, böyük uğurlarına görə Paris Rəqs Akademiyasının diplomu ilə təltif olunmuşdular [274, 117].

1974-cü ildə M.F.Axundov adına Akademik Opera və Balet Teatrının balet truppası Fransaya altı həftə davam edən qastrol səfəri zamanı ölkənin 22 şəhərində çıxış etmişdi. 1970-ci ildə 40 nəfər Azər-

baycan mədəniyyəti nümayəndəsi Türkiyə Cümhuriyyətində, Cənub-Şərqi Asiyada, Portuqaliyada, Rumıniyada, Yaxın və Orta Şərq ölkələrində, Polşada, Macarıstanda, ADR-də, Çexoslovakiyada, Bolqarıstanda, İraqda, İranda olmuşdular [110, v.18].

1974-cü ildə SSRİ xalq artisti, SSRİ-nin və Azərbaycan SSR-in Dövlət mükafatları laureatı Niyaziyə Hindistan mövzusunda yazdığı «Çitra» baletinə görə Beynəlxalq Nehru mükafatı verilmişdi [275, 145].

Müğənnilərdən R.Behbudov, M.Maqomayev, Z.Xanlarova və İ.Rzayevin, «Qaya» vokal-instrumental ansamblının və digər musiqi kollektivlərinin xarici ölkələrdəki konsertləri böyük uğurla keçirdi.

Azərbaycan SSR-in incəsənət xadimləri VII Beynəlxalq Musiqi konqresində (Moskva, 1971), Asiya və Afrika ölkələrinin III Beynəlxalq Musiqi tribunasında (Alma-ata, 1973), Beynəlxalq Musiqişünaslıq Simpoziumunda (Səmərqənd, 1978) və digər tədbirlərdə iştirak etmişdilər [378, 59].

1970-ci illər – 80-ci illərin birinci yarısı teatr sahəsində Azərbaycan teatr kollektivlərinin beynəlxalq əlaqələri çox geniş olmuşdur. 1975-ci ilin mayında SSRİ-də, o cümlədən Azərbaycan SSR-də ADR-in dram incəsənəti festivalı keçirildi [246, 162]. Niyazi 1973-cü ildə Türkiyədə A.Sayqının «Koroğlu» operasını səhnələşdirdi. 1980-ci ildə Timişoara (Rumıniya) şəhərində bəstəkar A.Məlikovun «Məhəbbət əfsanəsi» baletinin ilk tamaşası oldu [429, 33].

Azərbaycan SSR kinematoqrafçıları xarici ölkələrdə olan həmkarları ilə əməkdaşlıq edir, dünya kinematoqrafının nümayəndələri, beynəlxalq kino festivallarının iştirakçıları Azərbaycan SSR-ə səfər edirdilər.

1970-ci illərdə rəssamların, memarların və heykəltəraşların beynəlxalq əlaqələrinin inkişafında yeni mərhələ başlandı. Bu əlaqələr həm keyfiyyət, həm də miqyas baxımından yenilənmişdi. 1975–1977-ci illərdə Polşa, Bolqarıstan, Avstriya, Portuqaliya, ABŞ və Yaponiyada Azərbaycan SSR rəssamlarının əsərlərindən ibarət sərgilər təşkil olunmuşdu. Sərgilərdə boyakarlıq, qrafika əsərləri, xalq tətbiqi sənəti nümunələri – Azərbaycanın mahir ustalarının əl işləri olan xalçalar, mis qablar, milli geyim atributları təqdim edilmişdi [120, v.85]. Respublikanın aparıcı rəssamlarının ən yaxşı əsərləri Fransada, ABŞ-da, İsveçdə keçirilən rus-sovet rəsm əsərlərinin satış sərgisinə çıxarılmışdı

[122, v.102]. Azərbaycanın görkəmli rəssamları Mikayıl Abdullayevun, Səttar Bəhlulzadənin, Tahir Salahovun, Toğrul Nərimanbəyovun və s. əsərləri xaricdə nümayiş etdirilmişdir.

1969-cu il dekabrın 16-dan 1970-ci il yanvarın 16-dək rəssam S.Salamzadənin «Ərəb ölkələrində» adlı sərgisi nümayiş etdirilmişdi. Bu, rəssamın 1966-cı ildə 6 ay boyunca BƏR-ə, Suriyaya, İraqa, Livana etdiyi səfərlərdən aldığı təəssüratları idi [113, v.7]. 1976-cı ilin mayında Azərbaycan Dövlət Rəsm Qalereyasında açılmış «Asiya və Afrika ölkələri Azərbaycan rəssamlarının gözü ilə» adlı sərgidə 30 müəllifin 90-a yaxın əsəri təqdim olunmuşdu [276, 28].

1975-ci ildə «Azərbaycanfilm» Kinostudiyasının və Azərbaycan SSR Dövlət Radio və Televiziyasının istehsalı olan kinofilmlərin və telefilmlərin xaricə göndərilməsinə başlanıldı. Akademik İzzət Orucovanın həyat və yaradıcılığından bəhs edən «İşıqlı yol» kinofilmi, dirijor və bəstəkar Niyazinin yaradıcılığından bəhs edən üç hissəli «Maestro Niyazi» sənədli filmi xarici ölkələrə göndərilmişdi.

Xarici ölkələrə Üzeyir Hacıbəylinin və Fikrət Əmirovun əsərlərindən ibarət notlar, qrammofon valları, lent yazıları [119, v.92–93], Azərbaycan simfonik, kamera, estrada, rəqs və xalq musiqisindən ibarət 950 qrammofon valı, lent yazısı komplektləri göndərilmişdi [119, v.92–93].

1971-ci ildə Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti 60-a yaxın ölkənin ictimaiyyəti ilə əlaqə saxlayırdı. Cəmiyyətin ünvanına 8 dildə 19 min kitab, jurnal, albom, açıqca toplusu, plakat, buklet və digər əyani təbliğat vəsaitləri, 7 fotosərgi göndərilmişdi [114, v.11].

1978-ci ilin ilk altı ayı ərzində cəmiyyət xarici ölkələrin mədəniyyət və elm evlərinə və sovet mədəniyyət mərkəzlərinə «Sovet Azərbaycanı» bülleteninin 10 min nüsxəsini göndərmişdir ki, bu da ötən 1977-ci illə müqayisədə 2,5 dəfə çox idi. Bundan əlavə, 300 illüstrasiyalı albom, buklet, 500 illüstrasiyalı təqvim və s. materiallar göndərilmişdi [121, v.151].

Heydər Əliyev xarici ölkələrlə turizm sahəsində əlaqələrin genişləndirilməsini Azərbaycan SSR-in beynəlxalq aləmdə tanıdılmasının yollarından biri kimi görürdü. Bu sahədə qazanılan uğurlar Azərbaycan SSR-i dünyada tanıdır, respublikaya valyuta gətirir, yeni iş yerləri açılır, turist kompleksləri tikilirdi. Xarici ölkələrə səfər edən

azərbaycanlılar dünyanı görür, onların dünyagörüşü genişlənir, ayrı-ayrı ölkələrin həyatında və beynəlxalq aləmdə baş verən dəyişiklikləri, ümumi istiqaməti başa düşürdülər.

Azərbaycan SSR-də idman və turizm sahəsində beynəlxalq əlaqələr genişlənirdi. Əgər 1972-ci ildə Azərbaycan SSR-ə 6364 nəfər turist gəlmişdisə, 1973-cü ildə onun coğrafiyası və gələn turistlərin sayı da artmışdı. Belə ki, onların sayı 32 ölkədən 10146 nəfərə çatmışdı. Bu isə əvvəlki illə müqayisədə 60% çox idi [152, v.70–73]. 1980-ci ildə respublikaya 18017 nəfər xarici ölkələrdən turist, 18 idman nümayəndə heyəti gəlmiş, xarici ölkələrə 6184 nəfər turist, 5 idman nümayəndə heyəti getmişdi [171, v.16].

Azərbaycan SSR-in beynəlxalq əlaqələrində qardaşlaşmış şəhərlər hərəkatı özünəməxsus yer tuturdu. Respublikanın paytaxtı Bakı dünyanın 9 şəhəri ilə qardaşlaşmışdı: Dakar (Seneqal), Sarayevo (Yuqoslaviya), İzmir (Türkiyə), Neapol (İtaliya), Bordo (Fransa), Hyuston (ABŞ), Maynts (AFR), Bəsrə (İraq) və Vunqtay-Kondao (Vyetnam). Abşeron rayonu Bolqarıstanın Razqrad əyaləti ilə, Sumqayıt Rumıniyanın Piteşti və Almaniya Federativ Respublikasının Lüdviqshafen şəhərləri ilə dostluq əlaqələri saxlayırdı.

Heydər Əliyev bu dövrdə respublikanın beynəlxalq mədəni əlaqələrinin genişlənməsini yüksək dəyərləndirərək deyirdi: «Respublikanın xarici ölkələrlə mədəni əlaqələri getdikcə daha böyük vüsət alır. İndi Azərbaycan SSR-in mədəni əlaqələrinin coğrafiyası bütün beş qitənin 90-dan çox ölkəsinin ictimaiyyətini təmsil edən təşkilatları əhatə edir. Azərbaycan SSR incəsənətinin xadimləri inkişaf etməkdə olan ölkələrə milli mədəniyyətin təşəkkülündə və inkişafında xeyli yardım göstərirlər. Azərbaycan SSR-in bir sıra görkəmli incəsənət ustaları beynəlxalq və milli mükafatlara layiq görülmüşlər. Sovet Azərbaycanının bədii kollektivlərinin və incəsənət ustalarının xaricdə çıxışları daim müvəffəqiyyətlə keçir... Son illər ərzində Danimarka, Fransa, İtaliya, Portuqaliya, Belçika, Əlcəzair, Avstriya, AFR, Qvineya-Bisau kimi ölkələrdə keçirilmiş Azərbaycan SSR günləri zamanı respublikanın mədəniyyət və incəsənətinin yüksək nüfuzu əyani şəkildə təzahür etmişdir» [66, 97].

1970–1980-ci illərdə SSRİ-nin tərkibinə daxil olan respublikaların qarşılıqlı mədəniyyət, ədəbiyyat və incəsənət günləri, dekadaları,

həftələri, musiqi, mahnı, kinofilm festivallarının keçirilməsi, aparıcı teatrların, ansamblların qastrol səfərləri, təsviri incəsənət sərgilərinin mübadiləsi, alimlərin, rəssamların, ədiblərin görüşləri, ən yaxşı ədəbi əsərlərin ayrı-ayrı xalqların dilinə tərcümə edilməsi ənənəyə çevrilmişdi. Bu illərdə Azərbaycan xalqının mənəvi həyatı da geniş yaradıcılıq əlaqələri, İttifaq respublikalarının xalqları ilə daim ünsiyyətdə olması ilə əlamətdar idi. Müttəfiq respublikalarda yüksək səviyyədə keçirilən Azərbaycan mədəniyyəti günləri və qarşılıqlı olaraq Azərbaycan SSR-də həmin respublikaların mədəniyyət günləri, bir sıra digər ikitərəfli tədbirlər bu prosesə təkan verirdi.

Azərbaycan SSR-in dövlət incəsənət kollektivləri – Mahnı Teatrı, Estrada-Simfonik Orkestri, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, «Qaya» vokal-instrumental ansamblı SSRİ-nin yüzlərlə şəhərində konsert proqramları ilə çıxış edirdi [425, 109]. 1971–1980-ci illər ərzində Sovet İttifaqının 80-ə yaxın teatrı Azərbaycan SSR-də qastrol səfərlərində olmuşdu.

Heydər Əliyev SSRİ-nin türk və müsəlman xalqları arasında mədəni əlaqələrin möhkəmləndirilməsinə təşəbbüs edir və bu sahəyə çox böyük diqqət göstərirdi. Onun fikrincə, bu əlaqələrin genişləndirilməsi həm ölkə daxilində birliyə daha çox kömək edər, həm də onları türk və müsəlman dünyası üçün cəlbedici edərdi. Buna görə Heydər Əliyev böyük əzmlə bu sahədə konkret qərarların qəbul edilməsinə nail olmağa çalışırdı. Azərbaycan KP MK Bürosunun 1970-ci il 25 fevral tarixli qərarı əsasında qazax şairi Abay Kunanbayevin 125 illiyi Azərbaycan SSR-də təntənəli şəkildə qeyd edildi [136]. Azərbaycan xalqına, Bakıya şeirlər həsr etmiş Cambulun əsərləri Azərbaycan dilinə tərcümə olunmuşdu. Bütün bu tədbirlər SSRİ-də yaşayan türk xalqlarının tarixini, dilini, mənəvi və əxlaqi dəyərlərini bir-birinə daha da yaxınlaşdırırdı. Azərbaycan KP MK Bürosunun 1978-ci il 14 aprel tarixli iclasında görkəmli özbək yazıçısı, pedaqoqu və alimi, özbək ədəbiyyatının klassiki, milliyətcə azərbaycanlı olan Maqsud Şeyxzadənin anadan olmasının 70 illiyinin Azərbaycan SSR-də keçirilməsinə dair tədbirlər planı bəyənildi, onun əsərlərinin Azərbaycan dilinə çevrilməsi barədə göstəriş verildi və həmin qərar uğurla yerinə yetirildi [161, v.86]. Azərbaycan KP MK Bürosunun 1978-ci il 25 mart tarixli iclasında Özbəkistan SSR-də Azərbaycan SSR mədəniyyəti gün-

lərinin keçirilməsi və Azərbaycan SSR-də cavab tədbirlərinin təşkil olunması barədə qərar qəbul edildi [158].

Özbəkistan SSR-in Daşkənd və başqa şəhərlərində Azərbaycan milli mədəniyyətinin nümunələri nümayiş etdirildi. Heç şübhəsiz, mədəniyyət günləri eyni kökə malik olan iki xalq arasında əlaqələrin inkişafında mühüm rol oynayırdı. Keçirilən tədbirlərdə özbək və Azərbaycan musiqisinin səsləndirilməsi, kitab mübadiləsi xalqların bir-birinə yaxınlaşmasında, milli oyanışında müstəsna əhəmiyyət daşıyırdı. Xalqlar öz tarixi keçmişləri və gələcək inkişaf yolları barədə düşünürdülər. Bu isə türk dünyası yolunda geniş strateji fəaliyyətin tərkib hissələrindən biri idi.

Heydər Əliyev bu barədə öz fikir və düşüncələrini açıq-aşkar söyləyirdi. O, 1979-cu ildə Azərbaycan SSR-də Özbəkistan SSR ədəbiyyatı və incəsənəti günlərinin, bir il sonra Özbəkistan SSR-də Azərbaycan SSR ədəbiyyatı və incəsənəti günlərinin keçirilməsi ilə bağlı keçirilən tədbirlərin hər iki respublikanın həyatında çox əlamətdar hadisəyə çevrildiyini xüsusilə qeyd edirdi. Heydər Əliyev Bakıda keçirilən tədbirdə «özbək və Azərbaycan xalqlarının əlaqələrinin qədim, zəngin tarixinin olduğunu xüsusi vurğulamışdı» [240; 246, 502–503].

Beləliklə, Heydər Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi humanitar siyasət nəticəsində xalqımızın milli-mənəvi həyatında intibah dövrünə çevrilən 1970–1980-ci illərdə Azərbaycanın elm, təhsil və mədəni əlaqələrinin inkişafı respublikanın dünyaya tanıdılmasına geniş imkanlar yaratdı, beynəlxalq inteqrasiyasına yol açdı.

III BÖLMƏ

HEYDƏR ƏLİYEVİN SOVET SOSİALİST RESPUBLİKALARI İTTİFAQININ ALİ RƏHBƏRLİYİNDƏKİ FƏALİYYƏTİ

(1982 – 1987)

VII FƏSİL

HEYDƏR ƏLİYEVİN SSRİ DÖVLƏTİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA XİDMƏTLƏRİ

Heydər Əliyevin həyat yolu və ictimai-siyasi və dövlət xadimi kimi fəaliyyəti təkcə Azərbaycan xalqı üçün deyil, bütün bəşəriyyət tarixi üçün böyük maraq və əhəmiyyət kəsb edir. Onun fəaliyyətinin hər bir mərhələsi Azərbaycanın tarixində örnək olmaqla yanaşı, hər bir dövrü xarakterizə etmək, onun müxtəlif məqamlarının mahiyyətini dərk etmək və həmin mərhələdə cəmiyyətin öncül bir şəxsiyyətinin baxışlarını öyrənmək baxımından çox dəyərli və ibrətamizdir.

Heydər Əliyevin SSRİ-nin ali rəhbərliyindəki fəaliyyətinin Moskva dövrü 1982–1987-ci illəri əhatə edir. Doğrudur, o, Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə də Moskva ilə sıx bağlı idi. Xüsusən 1976-cı ildə o, Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçildikdən sonra onun ölkənin ali hakimiyyətində daha yaxından iştirakı mərhələsi başlanır. 1982-ci ildə isə Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosuna üzv seçildikdən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildikdən sonra onun Sovet İttifaqının ali siyasi rəhbərliyində fəaliyyətinin Moskva dövrü başlanır.

Heydər Əliyevin Moskvaya SSRİ dövlətinin ali siyasi hakimiyyətinə gətirilməsi bu dövrdə fövqəldövlət kimi tanınan Sovet İttifaqının yaşadığı ən gərgin və böhranlı dövrünə təsadüf edir. Böhran məngənəsində sıxılan sovet cəmiyyətinin və hakimiyyətinin güclü şəxslərə ehtiyacı açıq-aşkar hiss olunurdu. Bu ehtiyacdan çıxış edən SSRİ dövlətinin yeni rəhbəri Y.V.Andropov da hakimiyyətə gələrkən ölkədə ağır problemlərin baş alıb getdiyi şəraitdə onları aradan qaldırmaq üçün öz komandasını formalaşdırmaq və onun gücü ilə ölkəni xilas etmək istəyirdi. Bu komandanın əsas iştirakçılarından biri Heydər Əliyev idi.

Heydər Əliyevin SSRİ ali siyasi rəhbərliyində fəaliyyətindən danışmazdan əvvəl həmin dövrə ümumi bir nəzər yetirməyə, onun ictimai-iqtisadi, siyasi və mənəvi vəziyyətini qiymətləndirməyə ehtiyac vardır. Belə ki, həmin dövrü araşdırmadan, onun problemlərini, habelə dünya miqyasında gedən prosesləri qiymətləndirmədən bu və ya digər dövlət xadiminin və bütövlükdə, hakimiyyət elitasının fəaliyyətinin, mövcud hakimiyyət sisteminin məntiqini dərk etmək, onun tarixdə yerini müəyyən etmək mümkün deyildir. Hadisə və proseslərə kompleks yanaşma, onların bütün komponentlərinin digər amillərlə əlaqədə nəzərdən keçirilməsi düzgün nəticə çıxarılmaq üçün zəruri şərt kimi qəbul edilməlidir.

O dövrdə Sovetlər İttifaqı və dünya sosializm sistemi özünün ağır böhranlı mərhələsini yaşayırdı. Uzun illər ərzində üst-üstə yığılan problemlər artıq çox kəskin şəkildə sovet sosialist sisteminin əsaslarını təhlükə qarşısında qoyurdu. Son 20 ildə nəşr olunmuş elmi, publisistik, memuar ədəbiyyatında Sovet İttifaqının dağılması, sosializm sisteminin süqutu, kommunist təliminin iflasa uğramasının səbəbləri, onun qanunauyğun olub-olmaması barədə bir-birini tam inkar edən ən müxtəlif versiyalar irəli sürülür. İlk baxışda gözlənilməz olan bu iflasın səbəblərini tarixi inkişafın qanunauyğun nəticəsi kimi izah etməkdən tutmuş, ayrı-ayrı şəxslərin subyektiv səhvlərinin və məqsədyönlü pozuculuq fəaliyyətinin nəticəsi kimi qələmə verməyə qədər genişdiapazonlu fikirlər mövcuddur [428, 451–455; 437; 355; 423; 363; 364, 365, 366, 367; 432; 312; 421; 411].

1982-ci ildə Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnevin ölümünə qədər yaranmış siyasi, sosial-iqtisadi və mənəvi böhran öz həllini gözləyirdi. Lakin vəziyyət nə qədər ağır olsa da, statistik göstəricilərin araşdırılması sübut edir ki, həmin dövrə qədər SSRİ dövlətinin ictimai-iqtisadi inkişaf vəziyyəti heç də həmişə ümidsiz olmamış, onun məhvinin labüdlüyü heç də hamı tərəfindən birmənalı şəkildə qəbul edilməmişdi. Hətta bu cəmiyyətin məhvinə yönəldilmiş «yenidənqurma» dövrünün axırıncı mərhələlərində də onun iflasına inanmaq çətin idi. Bütün bunlara baxmayaraq, SSRİ dövlətinin və bütövlükdə, sosializm sisteminin iflasında onun yarandığı gündən malik olduğu obyektiv çatışmazlıqlar, nəzəri qüsurlarla yanaşı, həyati təcrübədən gələn aşınmaların və digər subyektiv amillərin də rolu böyük olmuşdur.

Heydər Əliyev «Kommersant» qəzetinin müxbirinə verdiyi müsahibəsində həmin dövrdəki vəziyyəti belə xarakterizə edirdi: «Artıq 70-ci illərdə Sovet İttifaqı böhran keçirirdi. Hərbi güc çox idi, lakin iqtisadiyyat geriləyirdi. SSRİ iqtisadi rəqabətə davam gətirmirdi. Təkcə Sovet İttifaqı deyil, Şərqi Avropa ölkələri də» [325]. Artıq XX əsrin 80-ci illərinin əvvəllərində SSRİ-də hakimiyyət dəyişiklikləri başlayan anda bir həqiqət hamıya aydın idi: sovet sosialist sisteminin köklü dəyişikliklərə ehtiyacı vardır. Yaranmış böhranı aradan qaldırmadan SSRİ dövlətini, onun ətrafında olan digər sosialist dövlətlərini inkişaf etdirmək qeyri-mümkün idi. Çoxsaylı tədqiqat əsərlərində XX əsrin 70–80-ci illərində möhtəşəm SSRİ dövlətinin iflasa uğramasının əlamətləri olmasa da, bu dövlətin, bütövlükdə, isə sosialist ölkələrinin kifayət qədər problemlərə malik olması, bu zəmində sosial-iqtisadi, siyasi və mənəvi-ideoloji böhranın yaşanması reallıq idi. Bu böhranı, birinci növbədə, «sosializm dünyasına» mənsub olan insanlar, ümumiyyətlə isə bütün dünya ictimaiyyəti dərindən hiss edirdi.

Mövcud olduğu 71 il ərzində SSRİ dövləti çox böyük çətinliklərlə üzləşmiş, hətta 1941–1945-ci illər müharibəsi zamanı yer üzündən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. O, hər dəfə özündə güc taparaq həmin təhlükələrin qarşısını almış, sınaqlardan böyük sayda insani, maddi və mənəvi itkilərlə çıxa bilmişdi. Bu dəfə isə ilk baxışda mövcud vəziyyətin onun varlığına təhlükə yaratmadığı bir vaxtda, özündən əvvəlki bütün dövrlərdəkindən qat-qat güclü və varlı olduğu, kənardan bilavasitə iqtisadi və ya hərbi güc tətbiq edilmədiyi bir şəraitdə iflasa uğrayırdı. Lakin, dəfələrlə qeyd olunduğu kimi, SSRİ dövlətini iflasa doğru aparan səbəblər heç də hər kəs üçün gizli bir sirr deyildi. Həm nəzəri əsaslarında olan boşluqlar, həm də özünün real tarixində özünü büruzə verən və zaman keçdikcə dərinləşən mənfi meyillər və çatışmazlıqlar bu cəmiyyətin geriləməsi üçün zəmin formalaşdırırdı. Sovet sosialist cəmiyyətinin və digər sosialist rejimlərinin sonunu labüd edən məqamlardan biri də ictimai-iqtisadi inkişafın təbii qanunları və qanunauyğunluqlarından sapınmalar idi. İqtisadiyyatın həddən artıq mərkəzləşdirilərək dövlətin əlində cəmləşdirilməsi onun idarə olunmasını günbəgün ağırlaşdırır, son məqamda kəskin böhrana gətirib çıxarırdı.

Sovet cəmiyyəti və onu əhatə edən «sosializm dünyası» ağır böhran yaşadığı dövrdə heç bir böhranın olmadığını iddia edən və

sosializm üçün dramatik nəticələrə gətirib çıxaran səbəbləri ayrı-ayrı tarixi şəxsiyyətlərin subyektiv fəaliyyətində axtaranlarla da razılaşmaq olmaz. Eyni zamanda bu problemləri təkcə bir ölkə – konkret olaraq Sovetlər İttifaqı ilə və yalnız, konkret olaraq XX əsrin 80-ci illəri ilə də bağlamaq düzgün olmazdı. Həmin böhranlı məqamlar ictimai həyatın bütün sahələrində, bütövlükdə, «sosializm düşərgəsi»nin bütün həyatında vaxtaşırı özünü çox kəskin şəkildə göstərirdi. Müxtəlif «sosialist» ölkələrində həmin böhranı aradan qaldırmaq üçün müxtəlif xarakterli cəhdlər də edilmişdi. Bu dövrdə mövcud olmuş «sosializm quruluşu»nun ən böyük bəlalarından biri də məhz onun radikal dəyişikliklərdən qorxması və köklü islahatlardan çəkinməsi idi. SSRİ-nin müharibədən sonrakı tarixində cəmiyyətin dinamikliyini artırmaq, idarəetmənin böhranlı məqamlarını aradan qaldırmaq baxımından azsaylı cəhdlər həmin səbəblər üzündən yarımçıq qalmışdı. Ən pisi isə onda idi ki, ictimai-iqtisadi həyatı sağlamlaşdırmağa yönəldilmiş islahat cəhdləri hər dəfə boşa çıxanda sovet cəmiyyəti daha da geri atılır, yeniliklərin qarşısı alınır, bürokratik rejim öz mövqeyini möhkəmləndirirdi.

Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnevin ölümündən sonra hakimiyyətə gələn yeni qüvvələr ölkə həyatının bütün sahələrində, o cümlədən ictimai-iqtisadi sahədə islahatların qaçılmazlığını başa düşürdülər və təbii ki, bu zaman qabaqcıl təcrübələrə də diqqət yetirməli olurdular. Bu, diqqətdən kənarda qala bilməzdi. Sovetlər ölkəsinin ağır bir vaxtında hakimiyyətə gələrkən belə nəhəng problemləri həll etmək vəzifəsi ilə üz-üzə duran Yuri Andropovun Heydər Əliyevi öz komandasına cəlb etməsi və ona güvənməsi heç də təsadüfi deyildi.

Heydər Əliyevin SSRİ ali siyasi rəhbərliyinə gətirilməsinə tədqiqatçıların və o dövrdə söz sahibi olan daxili və xarici mütəxəssislərin fikirləri birmənalı deyildi. Bu təyinatdan dərhal sonra, xüsusən Qərb mətbuatında müxtəlif fikirlər və mülahizələr irəli sürülməyə başlanılmışdı. Onu da qeyd etmək lazımdır ki, bu fikirlərin əksəriyyətinin ciddi əsası var idi və onların nəzərə alınması vacibdir. İlk növbədə demək lazımdır ki, Qərb müəllifləri uzunmüddətli müşahidələrinə istinadən hesab edirdilər ki, Y.V.Andropovun yaratdığı komandada ən ciddi və güclü seçimlərdən biri məhz Heydər Əliyev olmuşdur. Həmin müəlliflər onun SSRİ dövlət idarəçiliyinin özəyi olan Sov.İKP MK Siyasi Bürosuna üzv seçilməsində və hökumətdə ikinci şəxs vəzifəsinə təyin

edilməsində gələcək irəliləyişin başlanğıcını görürdülər. «Andropov onu SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin etməklə, xəstə, iclaslarda iştirak edə bilməyən 77 yaşlı hökumət sədri N.A.Tixonovun boşalacaq yerinə məntiqi olaraq hazırlayırdı» – Nyu Yorkda nəşr olunmuş kitabın müəllifləri öz fikirlərini belə bildirirdilər [443, 140–141].

Fransa jurnalisti, «Kuryer İnternasional» jurnalının baş redaktoru Aleksandr Adlerin də fikri bununla üst-üstə düşür: «Heydər Əliyevin Azərbaycanın rəhbəri vəzifəsində uğurlu və çoxşaxəli fəaliyyətinin nəticəsi idi ki, Yuri Andropov öz islahatlarının ilk dövrünə başlayanda Heydər Əliyevi ən yaxşı baş nazir hesab edir və düşünürdü ki, o, ölkənin dövlət aparatına təkan verməyə qadirdir. Andropov hakim rus millətçiliyinin düşməni idi, hesab edirdi ki, «Leninin milli siyasətinə» qayıtmaq, yəni respublikaların rəhbərlərinə Mərkəzdə layiq olduqları yeri vermək lazımdır (Dünyanı heyran qoyan insan. Bakı, AzərTAC, 2004, səh. 336).

Hakimiyyətin bu səviyyəsində edilən gedişlər və qüvvələrin yerdəyişməsi uyğun nəticəyə gəlməyə əsas verirdi. O vaxt SSRİ Nazirlər Sovetinin Sədri vəzifəsini tutan Nikolay Tixonovun həm yaşı, həm də ona olan münasibət onun tezliklə öz vəzifəsini verib gedəcəyini gözləməyə əsas verirdi. Doğrudur, hadisələrin və proseslərin gedişində bu məsələ bir qədər sonra və fərqli şəraitdə baş verdiyindən, həmin vəzifəni başqa bir şəxs – Nikolay Rıjkov tutdu. Lakin həmin dövrdə Heydər Əliyev bu mövqeyə daha yaxın idi. Baxmayaraq ki, SSRİ Nazirlər Soveti Sədrinin bir neçə birinci müavini var idi, onların içərisində yalnız o, SSRİ Xarici İşlər naziri A.A.Qromıko Sov.İKP MK Siyasi Bürosunun üzvləri idilər. Eyni zamanda, Heydər Əliyev öz səlahiyyətlərinin genişliyinə görə başqa müavinlərdən əsaslı şəkildə fərqlənirdi.

Hər şeydən əvvəl onu demək lazımdır ki, Heydər Əliyevin siyasi karyerasında qalxdığı bu yüksəklik özünün gərgin, məzmunlu fəaliyyətinin nəticəsi idi. Mənşəcə azərbaycanlı müsəlman olan bir insanın həmin mənsəbə yüksəlməsi və böyük bir fövqəldövlətin hakimiyyətinin 2-ci, 3-cü şəxsi zirvəsinə qalxması digərlərinə nisbətən son dərəcə çətin, həm də şərəfli idi. «Mən on il Moskvada yaşadım, özü də ən yüksək vəzifədə işlədim. Azərbaycan xalqının, müsəlman aləminin tarixində nə keçmiş rus imperiyası dövründə, nə də Sovet İttifaqının hakimiyyəti zamanı o cür zirvəyə çatan azərbaycanlı olmamışdır. Bu

da tarixdir. Bəziləri deyirlər ki, Heydər Əliyev Siyasi Büronun üzvü olubdur və sairə. Bəli, olmuşam. Mən bununla fəxr edirəm. Çünki Azərbaycan xalqını tanıtmışam, Azərbaycan xalqını Kremlin sarayında qaldırmışam. Bununla fəxr edirəm. Mən orada on il yaşadım, ancaq mənim ürəyim də, gecəm də, gündüzüm də Azərbaycanla olub. Çünki Azərbaycan mənim doğma vətənim, torpağımdır» [78].

Hələ 1982-ci ildə, Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilərkən, həm SSRİ-nin özündə, həm də xarici ölkələrdə bu fakta çox böyük diqqət ayrılmışdı. Bu təyinatı hər bir müəllif ən müxtəlif amillərlə izah edirdi. Bəziləri bunu SSRİ rəhbərliyinin müsəlman dünyasında itirilmiş mövqeləri geri qaytarmaq, onların keçmiş rəhbərlərini bərpa etmək arzusu ilə izah edirdi. Onlar hesab edirdilər ki, Heydər Əliyev – müsəlman ölkələri üçün Əli, Heydər, – müsəlmandır. ABŞ tarixçisi D'Aqostino yazır ki, Heydər Əliyev nəinki Moskvada, hətta hələ Azərbaycan SSR-də işləyərkən SSRİ-nin Əfqanıstan, Livan, Cənubi Afrika, Mərkəzi Amerika və s. yerlərdə yeritdiyi siyasətdə mühüm rol oynayırdı. Brejnevin yanında özünün müsəlman dünyasının lideri və mahir bilicisi olması obrazını yarada, SSRİ-nin digər türk və müsəlman rəhbərlərini çox məharətlə geridə qoya bilmişdi [440, 80, 103].

ABŞ tədqiqatçısı hesab edirdi ki, Heydər Əliyevin Moskvada yüksək dövlət vəzifəsinə gətirilməsi ilə sovet dövləti müsəlman dünyasında itirilmiş mövqelərinin qaytarılmasında zahiri görüntü üçün yeni təşəbbüs əldə etdi. Çünki Heydər Əliyev Orta Şərqin kommunist qrupları arasında xeyli məşhur və nüfuzlu idi [442, 118].

Digər tərəfdən, sovet mühiti şəraitində tərbiyə almış, sovet məktəbi keçmiş bir şəxs kimi Heydər Əliyev sovet hakimiyyətinin bütün tələblərinə cavab verirdi və nəzərdə tutulan vəzifəyə ideal namizəd idi. Bu fikirlərin nə qədər həqiqətə uyğun olduğunu demək çətindir. Lakin bir məsələ həqiqət idi ki, doğrudan da, SSRİ-nin Şərq və müsəlman dövlətləri ilə münasibətlərində Heydər Əliyevin xidmətləri kifayət qədər böyük idi və onun bu keyfiyyətinin müəyyən rol oynaması mümkün idi.

Müəlliflərin diqqət yetirdikləri başqa bir məqam Heydər Əliyevin lider kimi Azərbaycan SSR-də çox böyük nüfuza malik olması, xalqının böyük məhəbbətini qazanması idi. Medvedevin fikrincə, Azərbaycan

SSR-in Heydər Əliyevin güclü təsiri altında olması Moskva üçün əlverişli deyildi. Onun respublikadan aparılmasının səbəbi bu təsirə son qoymaq idi [442, 160].

SSRİ üçün Heydər Əliyev şəxsiyyətində aktual olan cəhətlərdən biri mövcud problemləri Azərbaycan miqyasında uğurla həll etməsi, güclü siyasətçi, bacarıqlı təsərrüfatçı, iradəli dövlət başçısı olmasını praktikada sübut etməsi idi. Heydər Əliyevin özünün dediyinə görə, Y.V.Andropov Azərbaycan SSR-də görülən işlərlə daim maraqlanmış, görüşlərində bu məsələlər barəsində tez-tez söhbətlər aparmışdılar. Heydər Əliyev jurnalist A.Karaulova verdiyi müsahibəsində deyirdi: «Bizim görüşlərimiz işgüzar xarakter daşıyırdı, mən ona partiya təşkilatının işi haqqında məlumat verir, yaxşı məsləhətlər alırdım. Söhbətlərimizdə ən çox ideologiya, əxlaq məsələlərinə toxunurduq. O, mənim mənfi halların aradan qaldırılması haqqında məlumatıma həvəslə qulaq asır, əminlik təlqin edirdi» [327].

ABŞ tarixçisi M.İvon hesab edirdi ki, Heydər Əliyev Andropovun yanında etibarlı adam idi [441, 113].

Y.V.Andropovun hakimiyyət komandasına cəlb olunmasında Heydər Əliyevin onunla şəxsi münasibətlərinin, xüsusən peşəkar əlaqələrinin də təsiri olmuşdu. Doğrudur, M.S.Qorbaçovun memuarlarında Y.V.Andropovun bu məsələyə münasibəti barədə yanlış təsəvvür yarada biləcək məlumat verilir. Orada yazıldığına görə, Heydər Əliyevin nəyə görə ali siyasi hakimiyyətə gətirilməsinin səbəbi barədə sualına cavabında o, bunun hələ L.İ.Brejnev tərəfindən həll edilmiş olduğunu və onun bu qərarı dəyişmək istəməməsi ilə bağlı olduğunu bildirir. Lakin, əslində, M.S.Qorbaçov özü bu fikrə şübhə ilə yanaşır və onun Yuri Andropovun Heydər Əliyevlə peşəkar və şəxsi əlaqələri ilə bağlı olduğunu qeyd edir [387].

XX əsrin 80-ci illərində SSRİ dövlətinin siyasi, ideoloji və sosial-iqtisadi mahiyyətindən, onun yaşadığı böhrandan danışarkən bir məsələyə aydınlıq gətirməyə böyük ehtiyac hiss olunur. Xüsusən mövcudluğunun son onilliklərində uzun müddət ört-basdır edilən bütün mənfi keyfiyyətlərinin qabarıq şəkildə üzə çıxdığı bir vaxtda, onun taleyinə münasibət prinsipial əhəmiyyət daşıyırdı.

SSRİ dövlətinin dağılması bu imperiyanın tərkibində olan digər respublikalar kimi, Azərbaycan SSR üçün də dövlət müstəqilliyinə yol

açdı. Belə olan halda, belə bir imperiyanın saxlanılmasına, problemlərinin aradan qaldırılmasına dəyərdimi? Doğrudanmı, bu dövlətin böhrandan xilas edilməsi, onun əsaslı ziddiyyətlərinin aradan qaldırılması, geniş inkişaf imkanlarının yaradılmasına cəhd edilməsi Azərbaycan SSR-in də bu gün əldə etdiyi dövlət müstəqilliyinin qarşısının alınması demək idi? Bu nəhəng imperiyanın bütün problemlərini dərindən bilən Heydər Əliyev özü bu suala cavab vermişdi. Əslində, onun SSRİ dövlətinə, Sov. İKP-yə öz xüsusi münasibəti var idi ki, onları nəzərdən keçirmək bu tədqiqat işi üçün, habelə tarixdə ziddiyyət təşkil edən bir sıra məqamlara aydınlıq gətirmək üçün xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyev qeyd edirdi ki: «Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişdirə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsan da, sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı» [78].

Sosializm geniş humanist şüarlarla tarixin səhnəsinə çıxarılmışdı. Kütlələrin istismardan azad edilməsindən tutmuş, millətlərin öz müqəddəratını təyin etmək hüququnun reallaşdırılmasına qədər geniş humanist vəzifələr qarşıya qoyulsa da, real həyatda bu məsələlər kağız üzərində qalmışdı. Belə bir dövlətin sağlamlaşması, elan etdiyi prinsiplərə qayıtması onun ərazisində yaşayan xalqların və millətlərin rifahı üçün sərfəli ola bilərdi. Normal cəmiyyətdə ziddiyyətli problemləri həll etmək, ölkə və sistem çərçivəsində mövcud münaqişələri nizama salmaq mümkün idi. Nəhayət, normal cəmiyyət şəraitində belə bir ittifaqın ləğv edilməsi sivil qaydada bas verə bilər və bu məkanda yaşanan qanlı münaqişələrin qarşısını almaq mümkün olardı. Bir qədər irəliyə gedərək demək lazımdır ki, SSRİ dövləti içərisində yetişmiş böhranın aradan qaldırılmasının ən pis variantı seçildi.

Heydər Əliyevin SSRİ-nin ali siyasi rəhbərliyində fəaliyyətində bir neçə fərqli mərhələləri müşahidə etmək mümkündür. Birinci mərhələ onun Y.V.Andropov tərəfindən hakim komandaya daxil edilməsi – Siyasi Büroya üzv seçilərək, Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin edilməsi və bu çərçivədə fəaliyyət göstərməsi dövrü idi. Həmin dövrdə daim hadisə və proseslərin mərkəzində olması ölkə əhalisinin

də diqqətindən yayınmır, onun siyasi karyerasında sürətli irəliləyiş gözlənirdi. Lakin hakimiyyətin içərisində gedən proseslər, xüsusən Y.V.Andropovun xəstələnərək öz işindən təcrid olması və belə bir vəziyyətdə sovet ali hakimiyyət olimpində gedən gərgin mübarizə vəziyyətin dəyişməsinə, qüvvələr nisbətinin müxtəlif qrupların xeyrinə dəyişməsinə gətirib çıxardı. Nəhayət, Y.V.Andropovun ölümü ali hakimiyyət uğrunda mübarizənin yeni mərhələsinin başlanmasına, yeni qüvvələr nisbətinin formalaşmasına gətirib çıxardı. Belə bir vəziyyətdə hakimiyyətdə olan siyasətçilərin mövqeyində baş verən dəyişiklik təbii idi. O cümlədən yeni mərhələdə Heydər Əliyevin mövcud şəraitdə yeri və rolu, ona olan ümidin dərəcəsi önəm kəsb edirdi.

K.U.Çernenkonun Sovetlər İttifaqına rəhbərlik etdiyi dövr L.İ.Brejnev dəyərlərinə qayıdış təəssüratı yaradırdı. Həmin dövrdə hamını düşündürən məsələlərdən biri də ölkənin hansı istiqamətdə gedəcəyi, kimlərin hakimiyyətə gələcəyi və çox ağır olan yükü öz üzərinə götürərək həll etmək istiqamətində hansı tədbirləri görəcəyi məsələsi idi. Belə bir şəraitdə hakimiyyət zirvəsindəki çəkişmələr, qruplaşmalar, bu və ya digər siyasi xadimə münasibətdə hakimiyyət elitasının özünün və cəmiyyətin fikirləri və gözləntiləri kifayət qədər mürəkkəb və dəyişkən idi.

1985-ci ilin martında K.U.Çernenkonun ölümü və M.S.Qorbaçovun Sov.İKP MK-nın Baş katibi seçilərək ölkə ali hakimiyyətinə gətirilməsi, haqqında danışılan mərhələnin məntiqi yekunu və yeni, daha mürəkkəb bir mərhələnin başlanğıcı idi.

Həmin dövrün hadisələri və proseslərini izləyərkən, sovet cəmiyyətinin və dövlətinin yolayrıcında dayandığını, bir-birini inkar edən iki istiqamətdən birini seçməli olması reallığını müşahidə etmək olar. Onlardan biri «sosializmin» təməl prinsiplərinin bərpa edilməsi, onun yad və qondarma ideyalardan, pərdələnmiş saxta siyasətdən xilas edilərək, həqiqətən, dinindən, dilindən, irqi və milli-etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların bərabərliyini və rifahını təmin edən ictimai-iqtisadi, siyasi və mədəni mühitin təmin edilməsi, digəri isə mövcud quruluşdan imtina edərək, demokratik cəmiyyət dəyərlərinə söykənən quruluşa və ondan irəli gələn münasibətlər sisteminə keçid idi. L.İ.Brejnevin ölümü ilə bu iki inkişaf perspektivinin aşkar qarşıdurmasına start verilmiş oldu. İlk mərhələdə

Andropovun başçılığı altında götürülmüş xətt birinci istiqamətə xidmət edirdi. Lakin obyektiv proseslər bu istiqamətin zəifləməsinə, M.S.Qorbaçovun hakimiyyətə gəlişindən sonra ikinci istiqamətin xeyrinə tam dəyişməsinə gətirib çıxardı. K.Çernenkonun ölümündən sonra partiya və dövlətin yeni rəhbərinin müəyyənləşdirilməsi zamanı edilən seçim ölkənin taleyində fəlakətin başlanğıcı oldu.

Xarici mətbuatda Sov.İKP MK-nın yeni Baş katibinin kim olacağı ilə bağlı müxtəlif şəxslərin adı hallanırdı. Onların içərisində Heydər Əliyevin də adı çəkilirdi. Lakin onun türk və müsəlman mənşəyi başlıca maneə kimi hər bir halda vurğulanırdı. SSRİ-nin ən nüfuzlu siyasi xadimlərindən biri olan Andrey Qromıko bu məsələ barədə maraqlı fikirlərini bölüşmüşdü. Oğlunun yazdığına görə, o demişdi: «Bizim Siyasi Büroda yalnız üç nəfər nisbətən cavandır: Romanov, Qorbaçov və Əliyev. Sonuncu o birilərindən daha çox xoşuma gəlir. Onun vaxtında Azərbaycan, xüsusən onun kənd təsərrüfatı çox sürətlə inkişaf edirdi. Əliyev gözəl təşkilatçıdır, təmiz və tərbiyəli bir insandır. Lakin, təəssüf ki, onun namizədliyi istisna olunur». Səbəbini soruşduqda, o, bunun Heydər Əliyevin milli mənsubiyyəti ilə bağlı olduğunu açıq şəkildə etiraf edir [356, 86].

Məşhur politoloq, vaxtilə ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi işləmiş Zbiqnev Bjezinskinin AzərTAC-ın Vaşinqtondakı xüsusi müxbirinə müsahibəsində dediyi sözlər də bu fikirlə üst-üstə düşür: «Mən, xüsusilə Ağ Evdə çalışarkən sovet sistemi ilə maraqlanırdım və sovet liderləri ilə əlaqələrim var idi. Bilirdim ki, Heydər Əliyev aparıcı rəhbərlərdən biridir və onun adı hansısa məqamda hətta partiyanın baş katibi vəzifəsi üçün hallandırılırdı. Mən bilirdim ki, onun geniş siyasi təcrübəsi var» [209, 110].

Heydər Əliyevin SSRİ-nin ali siyasi rəhbərliyində fəaliyyət göstərdiyi dövrdə əhəmiyyət kəsb edən məqamlardan biri hakimiyyətdə olan siyasi qüvvənin mövcud real şəraitdə ictimai-iqtisadi, siyasi-mənəvi məsələlərə münasibətdə baxışları idi. L.İ.Brejnevdən sonra rəhbərliyə gələn Y.V.Andropov və onun komandası köhnə hakimiyyətin tərkib hissəsi olsalar da, yeni statusda çıxış etməyə başlayarkən heç də əvvəlki hakimiyyətin səhvləri və günahlarını ört-basdır etmək, onu öz üzərinə götürərək, ağırlığını çəkmək fikrində deyildi. Onlar başa düşürdülər ki, ölkə ağır böhran keçirir. İctimai həyatın bütün

sahələrində özünü açıq-aşkar şəkildə büruzə verən böhran fundamental dəyişikliklər və köklü islahatlar tələb edir. Yeni hakimiyyət komandası belə bir məsuliyyətli vaxtda və mürəkkəb şəraitdə özünün məsələlərə münasibətini və ictimai-iqtisadi, siyasi-ideoloji, mənəvi-mədəni platformasını ortaya qoymalı idi.

İlk növbədə demək lazımdır ki, Heydər Əliyevin aparıcı nümayəndələrindən biri olduğu Y.V.Andropov komandasının ilk vaxtlar mövcud vəziyyətdə konkret fəaliyyət planı və nəzəri konsepsiyası olmasa da, bütövlükdə, aydın mövqeyi vardı. Başlıca məqsəd ölkəni yaranmış ictimai-iqtisadi böhrandan xilas etmək, sosializmi saflaşdırmaq və ölkə həyatının bütün sahələrini bürümüş mənfi hallardan qurtarmaq, mövcud quruluşu möhkəmləndirmək və onun sağlam inkişafını təmin etmək idi. Həmin dövrdə ölkənin iqtisadi inkişafı üçün xarakterik maneələr aşağıdakılar idi:

– idarəçiliyin həddən artıq mərkəzləşməsi və inzibati amirlik sisteminin böhranı nəticəsində ölkə iqtisadiyyatının inkişafında problemlərin yaranması;

– korrupsiya və rüşvətxorluğun bütün sahələri əhatə etməsi;

– dövlət mülkiyyətinin talan edilməsi, yalançı statistika, gözdən pərdə asmaların geniş vüsət alması;

– istehsalda maddi maraq prinsiplərinin pozulması;

– hərbi sənayenin iqtisadiyyatın yükünə çevrilməsi;

– ölkə iqtisadiyyatının xammal ixracından asılı vəziyyətə düşməsi;

– texnoloji gerilik;

– əmək intizamının aşağı səviyyədə olması, rəhbər heyətdə məsuliyyət, cavabdehlik məsələlərində ciddi problemlərin olması;

– sosial sahələrin qalıq prinsip əsasında maliyyələşdirilməsi;

– əyalətlərin və milli regionların mərkəzə nisbətən ənənəvi geriliyi və sair.

Y.V.Andropov komandasının ictimai-iqtisadi həyatda birinci növbədə həll etmək istədiyi məsələ ölkədə əmək intizamının möhkəmləndirilməsi, mənfi proseslərin qarşısının alınması, qanunçuluğun gücləndirilməsi və bu kimi digər tədbirlərin görülməsi oldu. Uzun illər iqtisadiyyatda baş alıb gedən hərc-mərcliyə, özbaşınalığa, məsuliyyətsizliyə, oğurluğa, yalançı göstəricilərlə gözdən pərdə as-

malara son qoymadan ölkə iqtisadiyyatında sağlamlaşdırmadan söhbət gedə bilməzdi. Hətta demək olar ki, ölkənin ictimai-iqtisadi və siyasi həyatında demokratiyanın genişləndirilməsindən daha çox bu bəlaların qarşısını almaq tələb olunurdu. Qeyd etmək lazımdır ki, M.S.Qorbaçov dövründə başlanan islahatların iflasa uğramasının və SSRİ dövlətinin dağılmasına gətirib çıxarmasının başlıca səbəblərindən biri, bəlkə də birincisi, hərc-mərcliyi, özbaşınalığı aradan qaldırmadan demokratiya pərdəsi altında özbaşınalığa geniş meydan verilməsi oldu.

Təsadüfi deyil ki, əmək intizamının möhkəmləndirilməsi istiqamətində başlanan tədbirlər ilk baxışda insanların sərbəstliyinin məhdudlaşdırılması təsəvvürü yaratsa da, əksəriyyət bunu alqışlayır və mövcud pozuntuların, korrupsiya və rüşvətxorluğun aradan qaldırılmasına ümid verən siyasi xətt kimi qəbul edirdi. Həyata keçirildiyi vaxt qısa olsa da, bu tədbirlərin insanların yaddaşında dərin iz qoyması, indiyə qədər düzgün bir siyasi xətt kimi qiymətləndirilməsi də həmin səbəblə bağlıdır.

Hakimiyyət komandasının həmin dövrdə bir-birinin ardınca gördüyü tədbirlər deyilən xəttin reallaşmasına xidmət edirdi. Əmək intizamının möhkəmləndirilməsi, hər kəsdən məsul olduğu sahənin hesabatının ciddi şəkildə tələb edilməsi daha fundamental islahatların aparılması üçün zəmin yaradırdı.

Bütün bu proseslərdə, konkret işlərdə, hazırlanan həyati əhəmiyyətli qanunlarda Heydər Əliyevin dəsti-xətti açıq-aşkar müşahidə edilir. Onun iqtisadi baxışları, iqtisadi problemləri həll etmək təcrübəsi həmin dövrün tarixindən qırmızı xətlə keçir. SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi SSRİ Ali Sovetinin sessiyasında «Əmək kollektivləri və onların müəssisələrin, idarələrin və təşkilatların idarə olunmasında rolunun artırılması haqqında qanun layihəsi» barədə etdiyi məruzədə həmin məqamlar bir daha səslənir [329].

Sovet iqtisadiyyatının problemlərinin kökündə duran başlıca səbəblərdən biri onun idarə edilməsində inzibati amirlik sisteminin kök salması idi. Zamanın inkişafına reaksiya verə bilməyən ləng idarəetmə sistemi məsuliyyətsizliklər, bürokratik süründürməçiliklər üçün möhkəm zəmin yaradır, mülkiyyət münasibətlərində mücərrəd mühit formalaşdırırdı. İstehsalda maddi maraq prinsipinin pozulduğu,

təsərrüfatda fərdi məsuliyyətin olmadığı mücərrəd münasibətlər şəraitində ictimai mülkiyyət sahibsiz, heç kimə məxsus olmayan mülkiyyət anlamına gəlib çıxmışdı. Bütün bunlara baxmayaraq, uzun illərin böyük səyləri və sadə sovet zəhmətkeşlərinin vicdanlı, gərgin əməyi sayəsində vahid iqtisadi sistem kimi kifayət qədər güclü, yetərincə böyük potensiala malik iqtisadiyyat təşəkkül tapmışdı.

Heydər Əliyevin 1983-cü ilin iyulunda Voloqda şəhərinin Oktyabr İnqilabı ordeni ilə təltif olunması mərasimindəki çıxışında bu məsələyə prinsipial münasibətini ifadə etmişdi: «Vahid xalq təsərrüfatı kompleksi heç də, sadəcə olaraq, böyük kəmiyyət deyil, necə deyərlər, bir-birindən asılı olmayan respublikaların, regionların, sahələrin, birləşmələrin iqtisadiyyatlarının məcmusu deyildir. Vahid xalq təsərrüfatı kompleksi, hər şeydən əvvəl, bizim iqtisadiyyatın keyfiyyət vəziyyətidir. Bu onun elə bir sistemə çevrilməsidir ki, elmin dili ilə desək, bir elementin hərəkəti bütün sistemin hərəkətinə təsir edir» [346, v.19].

Vahid iqtisadi kompleks sisteminin təşəkkül tapması və cəmiyyətdə öz möhkəm yerini tutması ilə yanaşı, ölkənin ictimai-iqtisadi həyatında zərrə-zərrə toplanmış problemlər artıq 1980-ci illərin əvvəllərində ağır böhrana gətirib çıxarmaqla, iqtisadiyyatın idarə olunmasında əsaslı dəyişikliklərin aparılmasını, mənfi meyillərdən azad edilməsini həyati zərurətə çevirmişdi.

Həmin dövrdə sovet ictimai-iqtisadi sisteminin iqtisadi bazisini təşkil edən ictimai mülkiyyətdən və planlı təsərrüfatdan imtina edilməsi nəzərdə tutulmurdu. Bu dəyərlərə söykənən «sosialist» iqtisadiyyatının mənfi cəhətlərdən xilas edilməsi, sağlam məcraya qaytarılması, qondarma volyuntarist buxovlardan azad edilərək daxili işlək mexanizmləri olan iqtisadi sistem vəziyyətinə gətirilməsindən söhbət gedirdi. Elə buna görə də yuxarıda adıçəkilən qanun məhz həmin problemin aradan qaldırılmasına yönəlmiş növbəti prinsipial addım idi. Qanunda qoyulan başlıca məsələ mülkiyyətin sahibinin dəqiqləşdirilməsi, onun konkret fərdlərə yaxınlaşdırılması, mülkiyyət və mülkiyyətçi münasibətində mücərrədliyi aradan qaldıraraq, iqtisadi münasibətlər sistemində maddi maraq prinsipinin işləməsinə nail olunması idi. Əvvəllərdə olduğu kimi, yeni hakimiyyət də kollektiv mülkiyyətçilik mövqeyindən çıxış edir, xüsusi mülkiyyəti inkar edirdi.

Lakin, eyni zamanda əmək kollektivlərinin hüquqlarının, o cümlədən mülkiyyət hüquqlarının genişləndirilməsi, alınan gəlirlərin bölüşdürülməsində rolunun artırılması yolu ilə sovet mülkiyyət münasibətləri sistemində köklü dəyişikliklərin həyata keçirilməsini nəzərdə tuturdu. Əslində, bu, o dövr üçün ən optimal bir çıxış yolu idi. Vahid dövləti və deməli, vahid ictimai-iqtisadi məkanı qoruyub saxlamaq, bütün regionların ritmik inkişafını təmin etmək, milli respublikaların və digər milli ucqarların inkişafında ənənəvi geriliyin qarşısını almaq, əyalətlərə münasibətdə ayrı-seçkiliyə son qoymaq, ölkədə müasir və sivil iqtisadi inteqrasiyaya nail olmağın düzgün yolu seçilmişdi. Heydər Əliyev bu qanunun layihəsi ilə əlaqədar məruzəsində deyirdi: «Əmək kollektivləri öz işlərini elə qurmalıdır ki, ümumdövlət və ümumxalq maraqlarının üstünlüyündən çıxış edərək dövlətin, kollektivin və fərdlərin maraqlarının düzgün uyğunlaşdırılmasına nail ola bilsin. Bu, xüsusilə bizim iqtisadiyyatın vahid xalq təsərrüfatı kompleksinə çevrildiyi, ayrı-ayrı regionlar, sahələr arasında əlaqələrin və qarşılıqlı asılılığın əhəmiyyətli dərəcədə mürəkkəbləşdiyi müasir mərhələdə vacibdir» [329].

Məruzədə diqqət sovet idarəçilik sistemi üçün dəyişilməz hesab edilən ictimai mülkiyyətin ziddiyyətli məqamlarına yönəldilir, onun bilavasitə istehsalçıya yaxınlaşdırılması ehtiyacı qeyd olunurdu: «...O halda ki, hər əmək kollektivinə ictimai mülkiyyətin, bəzi hallarda hətta əhəmiyyətli bir hissəsi etibar edilir, onun üzərinə mövcud ehtiyatlardan sərfəli və səmərəli istifadə edilməsi məsuliyyəti qoyulur. Söhbət həm maddi resurslardan, həm maliyyə, həm də əmək resurslarından gedir» [329].

Qanun birgə əməyin nəticələrində kollektiv maraqların gücləndirilməsinə xüsusi diqqət yetirərək, bunun üçün əmək kollektivlərinə geniş imkanlar verirdi. Məruzədə vurğulanırdı ki, hazırkı vaxtda müəssisələrin müstəqilliyinin və hüquqlarının genişləndirilməsi, təsərrüfat hesabının möhkəmləndirilməsi, işgüzarlığın və təşəbbüskarlığın üzə çıxmasından ötrü ən yaxşı iqtisadi imkanların yaradılması üçün tədbirlər planı hazırlanır [329].

Mülkiyyətə münasibətdə qanunla edilən dəyişikliklər nəticəsində əmək kollektivlərinin hüquqları genişlənir, onların səlahiyyətlərinə aid olan məsələlərin – istehsal, sosial, tərbiyəvi, – sırası genişlənir, onlara

çox məsələlərdə müstəqil qərar çıxarmaq hüququ verilirdi. Nəticədə əmək kollektivlərinin, hər bir əməkçi insanın təsərrüfatın idarə edilməsində rolu artırdı. Xüsusən əmək kollektivlərinin səlahiyyətlərində qanun iqtisadi və sosial sahədə planlaşdırmada birinci yerə hüquq məsələsini qoyurdu: «Qanun bizim iqtisadi və sosial proqramlarımızın həyata keçirilməsinin başlıca problemlərini hərtərəfli əks etdirir. Bu, iqtisadiyyatın, əsasən, intensiv inkişaf yoluna keçirilməsi, bütün əmək kollektivlərinin işinin səmərəliliyinin və keyfiyyətinin artırılmasıdır.... Qanun əməkhaqqının, mükafatların, həvəsləndirmə fondlarının təkmilləşdirilməsində kollektivlərin səlahiyyətlərini genişləndirir» [329].

Başlanan bu islahat ilk baxışda SSRİ dövlətinin tarixində dəfələrlə edilmiş və sonda uğursuzluqla nəticələnmiş növbəti islahat kimi qiymətləndirilə bilərdi. Lakin əvvəllər edilmiş islahat cəhdlərində rejimin əsaslarına toxunulmadan, yalnız ötəri tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu. Yeni islahatda isə məsələlər qəti şəkildə qoyulmuş, onun həyata keçirilməsi mexanizmi dəqiqliyi ilə hazırlanmışdı. Düzdür, əvvəlkilər kimi bu islahat da gözlənilən nəticəni verə bilmədi. Lakin bunun səbəbi əvvəlkilərdən köklü şəkildə fərqlənirdi.

Heydər Əliyevin iqtisadi platformasında diqqəti cəlb edən məsələlərdən biri ardıcıl idarəçiliyin həyata keçirilməsi, vahid xalq təsərrüfatı kompleksinin həyatiliyinin təmin edilməsi yolu ilə onun qorunub saxlanması idi. Onun 1985-ci ildə V.İ.Leninin 115 illik yubileyi münasibətilə etdiyi məruzədə də bu məqam tam qabarıqlığı ilə özünü büruzə verirdi. «Sosializmin» mövcudluğu və yaranmış böhrandan xilas olması üçün başqa çıxış yolu yox idi. Elə bir şərait yetişmişdi ki, o, özünün ideallarına uyğun olmalı idi. Əks halda onun iflası labüd idi.

Heydər Əliyevin iqtisadi baxışlarında əsaslandığı reallıqlardan biri o idi ki, SSRİ dövlətinin mövcudluğu dövründə yaradılmış iqtisadi potensial onun iflas ərəfəsində olduğunu düşünməyə əsas vermirdi. Son onilliklər ərzində tədqiqatçıların çoxunun əsərlərində bu reallığın əksi təlqin edilir. Heydər Əliyev adıçəkilən yubileylə əlaqədar məruzəsində deyirdi: «Bizim ölkəmizdə qüdrətli istehsal və müdafiə potensialı yaradılmışdır. Qabaqcıl elm inkişaf etmiş, kütlələrin yüksək səviyyədə savadlanmasına və maariflənməsinə nail olunmuşdur» [285, 5].

Göründüyü kimi, artıq 1985-ci ildə Heydər Əliyevlə M.S.Qorbaçovun və onun yaxın ətrafının görüşlərində fərqli yanaşmalar özünü büruzə verirdi. Doğrudur, o vaxt M.S.Qorbaçov komandasının irəli sürdüyü şüarların arxasında hansı niyyətlərin dayandığı hələ aydın deyildi. Lakin zaman keçdikcə onların yollarının ayrılacağı və fərqli mövqedə olacaqları daha çox hiss edilməyə başlayırdı.

Heydər Əliyevin həmin məruzəsi əsaslı xarakter daşıyırdı. Orada faktik olaraq, Heydər Əliyevin məsələlərə nəzəri yanaşması bir daha ortalığa qoyulur, ötən dövr ərzində görülmüş işlər və onların əsaslı nəticələri həmin fəaliyyət istiqamətinin düzgünlüyünün təsdiqi kimi nümayiş etdirilirdi. Məruzədə iqtisadiyyatda həll edilməli olan problemlərin istiqamətləri dəqiq şəkildə qoyulur, bildirilirdi ki, iqtisadiyyatın intensiv inkişaf yoluna çıxarılması və bu mənada dünya dövlətlərindən geridə qalmalara son qoymaqla, dünya səviyyəsinə yüksəlmə bu sahədə vacib vəzifələrdəndir. Bu məqsədə isə məhsuldar qüvvələrin yeniləşdirilməsi ilə, istehsal münasibətlərini təkmilləşdirilməklə çatmaq mümkündür: «Bu məqsədlərə aparan magistral yol məlumdur – istehsal münasibətlərinin təkmilləşdirilməsi ilə sıx birlikdə məhsuldar qüvvələrin keyfiyyətcə yeniləşdirilməsidir» [285, 8].

Bu, sadə məsələ deyildi. Söhbət SSRİ iqtisadiyyatını sağlamlaşdıra bilən və o vaxta qədərki dövrdə özünü artıq sovet təcrübəsində təsdiq etmiş prinsipial dəyişikliklərdən gedirdi. Bu dəyişikliklərin uğurunun vacib şərti hələ əsası 1982-ci ildən qoyulmuş əmək intizamının möhkəmləndirilməsi, iş yerlərində məsuliyyətin artırılması, bu sahədəki mənfi meyillərin və pozuntuların aradan qaldırılması, dövlət malının talan edilməsinə qarşı qətiyyətlə mübarizə aparılması idi.

Məruzədə Heydər Əliyev iqtisadiyyatın vacib problemlərindən biri kimi elmi-texniki cəhətdən geriliyi vurğulayır, diqqəti ona yönəldirdi ki, ölkənin elmi-texniki potensialı ilə onun həmin dövrdəki vəziyyəti arasında uyğunsuzluq yaranmışdır. Elmi-texniki geriliyin başlıca səbəbi isə bu potensialın zəifliyində deyil, onun düzgün idarə edilməməsində, elmlə istehsalın inteqrasiyasında olan boşluqlarda idi [285, 9].

Bu işlərin düzgünlüyünün sübutu kimi Heydər Əliyev 1982-ci ildən bəri başlamış fəaliyyətin yekununu əyani sübut olaraq göstərirdi: «Son illərin təcrübəsi yaxşı göstərdi ki, milyonların yaradıcı qüvvəsini

düzgün istiqamətləndirə bilsək, iqtisadi artımın necə böyük ehtiyatlarını hərəkətə gətirmək iqtidarındayıq. Axı, əslində, heç bir əlavə sərfiyyat etmədən, yalnız qaydaları və mütəşəkkilliyi artırmaqla, tələbkarlığı gücləndirməklə, müxtəlif cür itkiləri azaltmaqla xalq təsərrüfatının inkişafı 1983–84-cü illərdə əhəmiyyətli dərəcədə sürətləndi. Sənaye istehsalının ortaillik artım tempi beşilliyin əvvəlki iki ili ilə müqayisədə üçdəbir qədər, əmək məhsuldarlığının artımı bir dəfə yarım yüksəldi» [285, 10].

Heydər Əliyevin iqtisadi problemlərə münasibətdə diqqət mərkəzində saxladığı məsələlərdən biri təsərrüfat mexanizmini, iqtisadiyyatın idarə edilməsini məhsuldar qüvvələrin inkişaf səviyyəsi və zamanın tələblərinə uyğun vəziyyətə gətirilməsi məsələsidir. Bu işin təsərrüfatın aşağı strukturları ilə yanaşı, ali idarəedici orqanlarda, o cümlədən nazirliklər səviyyəsində həyata keçirilməsinin vacibliyini xüsusi qeyd edirdi. Ölkədə yaranmış böhranın daha çox resursların çatışmazlığı, məhsul azlığı və s. bu kimi maddi ehtiyatlarla deyil, onun idarə olunması ilə bağlılığı bildirilirdi: «Bir sözlə, məsələnin, həqiqətən, yeni həllini tapmaq, ciddi, hərtərəfli düşünülmüş şəkildə ictimai münasibətlərin bütün sistemini təkmilləşdirmək, sosializmin obyektiv iqtisadi qanunlarının tələblərini tam nəzərə almaq lazımdır. Bu cür, yalnız bu cür ölkənin inkişafının köklü problemlərini həll edə bilərik» [285, 11].

Heydər Əliyev SSRİ iqtisadiyyatının problemlərinin aradan qaldırılmasının vacib şərtlərindən biri kimi ölkənin ictimai həyatının bütün sahələrini bürümüş mənfi hallara qarşı prinsipial mövqeyin ortaya qoyulmasını hesab edirdi. 1985-ci ilin sentyabrında Sov.İKP MK Siyasi Bürosunun iclasında partiyanın yeni proqramına təklifləri ilə çıxışında həmin məsələlərə xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayırdı: «...xüsusən rəhbər kadrlar üçün dözülməz olan halların, məsələn, xidməti səlahiyyətlərindən sui-istifadə, rüşvətxorluq, təkəbbürlülük, lovğalıq, tərəfbazlıq, qohumbazlıq kimi nöqsanların tənqidinə diqqət ayırmaq lazımdır» [349, v.113].

Bu problemin qarşısının alınmasını digər inzibati tədbirlərlə yanaşı, əhalinin ictimai fəallığının artırılması, səlahiyyətlərin mümkün qədər əməkçilərin özlərinin və onların müəssisələrinin ixtiyarına verilməsində görürdü. Bu nəzarətin adi çağırış formasında deyil, gəlirlərin bölüşdürülməsi və onların xərclənmə istiqamətlərinin

müəyyənləşdirilməsində əmək kollektivlərinin səlahiyyətlərinin genişləndirilməsi yolu ilə reallaşması məqbul hesab edilirdi [285, 11–12].

Onun ideyalarının düzgünlüyünü «Əmək kollektivləri haqqında» qanunun artıq üzdə olan nəticələri təsdiq edirdi. Ölkə iqtisadiyyatının bu istiqamətdə yenidən qurulması 1982-ci ildən addım-addım həyata keçirilən islahatların mahiyyətini özündə əks etdirirdi. Lakin Y.V.Andropovun vəfatı və ondan sonra SSRİ-nin ali siyasi rəhbərliyində baş verən yerdəyişmələr, hakimiyyət uğrunda fasiləsiz gedən mübarizə həmin islahatların təkcə tempinə deyil, mahiyyətinə də güclü təsir edirdi. 1985-ci ilin aprelində M.S.Qorbaçovun hakimiyyətə gəlməsindən sonra ilk vaxtlar islahatların davam etdirilməsi təsəvvürü qalırdısa da, tezliklə bu islahatlarda məntiqsizlik, başlıca prinsiplərin pozulması onu köklü şəkildə dəyişdi. Lakin bütün bu dəyişikliklərə baxmayaraq, Heydər Əliyev həmişə öz əqidəsində qalmışdır. 1985–1987-ci illərdə o, dəfələrlə ölkə həyatının ən müxtəlif məsələləri, o cümlədən ölkə iqtisadiyyatının çoxsaylı məsələləri barədə M.Qorbaçov, Y.Liqaçov və digərləri ilə üz-üzə gəlməli olmuş, onların dağıdıcı əməllərinin qarşısını ala bilməsə də, öz prinsipial sözünü demişdi.

Heydər Əliyevin Sovetlər İttifaqının iqtisadi həyatında xidmətlərindən danışarkən, onun tutduğu yüksək vəzifəyə uyğun olaraq praktik fəaliyyətinə xüsusi diqqət yetirilməsi vacibdir. Onun ictimai-iqtisadi və siyasi baxışları bu fəaliyyətin nəzəri əsasını, anlam platformasını təşkil edirdisə, nəzarət etdiyi sahələrin inkişafı üçün etdikləri bu möhkəm əqidənin konkret işlərdə, konkret məsələlərdə reallaşmasının parlaq nümunəsi idi. O, sahənin prinsiplərinin, sadəcə, tərəfdarı və ya təlqin edəni deyildi, həm də o prinsiplərin həyata tətbiqi vasitəsilə onun üstünlüklərini praktikada təsdiq edən, konkret problemlərin konkret həllinin nümunəsini verən bir şəxs idi.

Heydər Əliyev öz karyerasını təhlükəsizlik sistemində başlamış və uzun müddət bu sahədə fəaliyyət göstərmişdi. Burada o, böyük uğurlar əldə etmiş, bu sahənin sıravi əməkdaşından general rütbəsinə, yekunda isə Azərbaycan SSR DTK-nın sədri vəzifəsinə qədər yüksəlmişdi. Lakin SSRİ respublikalarından birinin siyasi rəhbəri seçildiyi vaxtdan onun fəaliyyətinin yeni bir istiqaməti parlaq şəkildə üzə çıxırdı. Onun Azərbaycan SSR-də iqtisadi inkişaf sahəsində gərgin, məqsədyönlü və köklü

islahatlara söykənən fəaliyyəti, əldə olunan nailiyyətlər 1982-ci ilin axırında Moskvada buraxılmış «Sovetski Azerbaydjan» kitabında aşkar şəkildə diqqəti cəlb edir. Həmin kitabda verilmiş statistik məlumatlar, respublikanın sosial iqtisadi həyatının bütün tərəflərini əks etdirən faktlar Heydər Əliyev dövrünün bu cəhətdən fərqini əyani şəkildə əks etdirir.

Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildikdən sonra onun ictimai-siyasi fəaliyyətində daha məsuliyyətli bir dövr başlanmışdı. SSRİ Yol-Nəqliyyat Nazirliyi, SSRİ Dəniz Donanması Nazirliyi, SSRİ Yollar Nazirliyi, SSRİ Rabitə Nazirliyi və SSRİ Avtomobil, Çay Nəqliyyatı Təsərrüfatı Nazirliyinə ümumi rəhbərlik və SSRİ Nazirlər Soveti yanında Baykal–Amur Magistralının (BAM) tikintisi məsələləri üzrə Daimi Komissiyanın işinə rəhbərlik Heydər Əliyevə həvalə olunmuşdu.

1983-cü il fevralından isə o, SSRİ Səhiyyə Nazirliyi, SSRİ Tibb Sənayesi Nazirliyi, SSRİ Mədəniyyət Nazirliyi, SSRİ Maarif Nazirliyi, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi, SSRİ Rabitə Nazirliyi, Dövlət Texniki Peşə Təhsili Komitəsi, Dövlət Radio və Televiziya Verilişləri Komitəsi, Dövlət Mətbuat Komitəsi, Dövlət İdman Komitəsi, Sovet İttifaqı Teleqraf Agentliyi, SSRİ Nazirlər Soveti Yanında Baş Arxiv İdarəsi və Müəllif Hüquqları Agentliyinə ümumi rəhbərlik edirdi.

Sovet cəmiyyətinin həyatının vacib tərəflərini əhatə edən bu sahələrin fəaliyyətinə nəzarət etmək, onları düzgün istiqamətləndirmək, hər birinin spesifik problemləri ilə məşğul olmaq asan deyildi. Xüsusən nəzərə almaq lazımdır ki, bunlardan daha vacib məsələlər Heydər Əliyevin üzərində idi. Belə ağır və məsuliyyətli işi güzgün aparmaq və onların hər birinin ritmik işini təmin etmək üçün böyük təcrübə, miqyaslı yanaşma və gərgin əmək tələb olunurdu.

Heydər Əliyevin nəqliyyat sahəsində xidmətləri elə Moskvada işlədiyi ilk vaxtlarından nəzərə çarpırdı. SSRİ iqtisadiyyatının ən mühüm sahələrindən biri olan nəqliyyatın mühüm rolu və yeri çox böyük idi. SSRİ-nin nəqliyyat təsərrüfatı, o cümlədən dəmiryol nəqliyyatı 1981–1982-ci illərdə ağır böhran yaşayırdı. Dəmiryol nəqliyyatının inkişafı üçün ayrılan büdcə vəsaitinin artırılmasına baxmayaraq, geriləmə daha da dərinləşmişdi. 1982-ci ilin axırında bu sahənin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilmiş Heydər Əliyevin nəzarətinə verilməsindən sonra onun zəngin təcrübəsi, təsərrüfatı

idarə etmək sərişləsi, idarəçiliyi düzgün təşkil etmək qabiliyyəti sayəsində nəqliyyatda geriləmə prosesinin qarşısı alındı. Gərgin axtarışlar, professional tənqidi təhlil, hər bir məqamın nəzərə alınması, mənfi halların aşkar edilərək kəskin tədbirlərin görülməsi, rəhbər vəzifəli şəxslərin məsuliyyətinin artırılması və ciddi nəzarət altına alınması tezliklə öz nəticəsini verdi. Ən başlıcası isə idarəçilik işinin güzgün təşkili, məsuliyyətlərin düzgün bölüşdürülməsi, işdə yol verilən səhlənkarlıqların, mənfi halların qarşısının alınması bu sahənin vəziyyətində dönüş etməyə imkan verdi.

1983-cü il dekabrın 26–27-də Sov.İKP MK Plenumunda Y.V.Andropovun çıxışının mətni oxundu. Burada əmək intizamının və əməyin təşkilinin yüksəldilməsi, məhsul təchizatına dair müqavilə öhdəliklərinə əməl edilməsi, elmi-texniki tərəqqinin sürətləndirilməsi, Ərzaq Proqramının reallaşdırılması başlıca vəzifə kimi qeyd olunurdu. Xüsusən nəqliyyatın qarşısında mühüm vəzifələr qoyulmuşdu. «Əlbəttə, son zamanlar burada müsbət meyillər müşahidə olunur. Lakin, görünür, nəqliyyatda başqa sahələrdən daha çox ehtiyatlar və istifadə olunmamış imkanlar var ki, onları qısa müddətdə hərəkətə gətirmək olar» [331].

1984-cü ildə yanvarın 23-də Heydər Əliyevin rəhbərliyi altında SSRİ Nəqliyyat Tikintisi Nazirliyinin, Dəmiryol Nəqliyyatı və Nəqliyyat Tikintisi, Avtomobil Nəqliyyatı və Şose Yolları Fəhlələri Həmkarlar İttifaqları Mərkəzi Komitəsi rəyasət heyətlərinin geniş kollegiya iclasında BAM-ın, Qərbi Sibir neft-qaz, Ekibastuz Yanacaq-Energetika və Həştərxan qaz komplekslərinin tikintisinin gedişi müzakirə edilmiş və sosial məsələlərə diqqətin artırılması da tövsiyə olunmuşdu.

SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi Heydər Əliyev nəzarətində olan nəqliyyatın problemlərini dərindən başa düşür, bunların bütövlükdə xalq təsərrüfatının ümumi vəziyyətinə necə mənfi təsir etdiyini görürdü. O, öz zəngin təcrübəsindən bilirdi ki, nəqliyyat təsərrüfatın bütün sahələrini və ölkənin bütün regionlarını bir məkanda birləşdirərək, vahid xalq təsərrüfatı sistemində mövcudluğunu təmin edir. Nəqliyyatın düzgün və ritmik işləməsi dövlətin bütün ərazisində iqtisadi inkişaf səviyyəsindəki fərqləri araqdan qaldırmağa imkan verir, milli respublikaların və ucqarların normal inkişafı üçün zəmin yaradır. Bu səbəbdən də Heydər Əliyev nəzarətində olan bu

sahənin bütün məsələlərinə qayğı ilə yanaşır və ən kiçik məqamları belə diqqətdən qaçırmırdı. Yerlərdən, xüsusən nəqliyyatda çalışan sadə insanlardan gələn siqnallara da böyük diqqət ayırır, onların araşdırılmasını və müvafiq ölçü götürülməsini axıra kimi diqqətdə saxlayırdı [328].

Heydər Əliyevin nəqliyyatda xüsusi diqqət verdiyi məsələlərdən biri əmək intizamının möhkəmləndirilməsi, işçilərin, xüsusən rəhbər işçilərin məsuliyyətinin artırılması idi. Bu sahədə olan mənfi hallara, korrupsiya və rüşvət hallarına qarşı amansız mövqe nümayiş etdirir, onların qəti şəkildə aradan qaldırılmasına çalışırdı.

1984-cü il fevralın 23-də Heydər Əliyev SSRİ Ali Sovetinin İttifaq Sovetinə deputatlığa namizəd kimi Bakıda seçicilərlə görüşündə nəqliyyatın problemlərindən danışaraq deyirdi ki: «...sonuncu il ilk dəfə olaraq dəmiryol nəqliyyatında müşahidə olunan geriləmə meylinin qarşısı alınmışdır. O, təkcə beşilliyin üçüncü ilinin əsas göstəricilərini yerinə yetirmədi, həm də 1981 və 1982-ci illərdə yol verilmiş geriliyi aradan qaldırdı. Yəqin izah etmək lazım deyil ki, bu nə deməkdir. Axı ölkədə dəmiryol nəqliyyatının payına bütün yük dövriyyəsinin 50%-i, sərnişindaşımalarının isə üçdəbiri düşür» [333].

İdarəetmədəki boşluqlar nəqliyyatın ən zəif cəhətlərindən hesab edilirdi. Sərnişin və yükdaşımalarında gecikmələr, boşdayanmalar, avadanlığın və texnikanın düzgün istismar edilməməsi, əməkhaqlarının ödənilməsində, işçilərin əməyinin və istirahətlərinin təşkilində yol verilən səhlənkarlıq xarakterik çatışmazlıqlar idi. Heydər Əliyevin rəhbərliyi altında bu məsələlərə ciddi diqqətin göstərilməsi və onların əsaslı şəkildə araşdırılması bu sahədə irəliləyişlərə nail olmağa imkan verdi. Artıq 1983-cü ilin axırlarında nəqliyyat sahəsində geriləmələrin qarşısının alınması meyli müşahidə edilir.

Heydər Əliyev 1984-cü ilin avqustunda SSRİ Yollar nazirinə məktubunda yazırdı: «Sizdən zəhmətkeşlərin məktublarında qoyulmuş məsələlərə ciddi diqqət yetirməyinizi və dəmiryol nəqliyyatındakı nöqsanların aradan qaldırılması üçün zəruri tədbirlər görməyinizi xahiş edirəm» [345, v.56–63].

Heydər Əliyevin təşəbbüskarlarından biri olduğu əmək kollektivlərinin səlahiyyətinin və məsuliyyətlərinin artırılması, onların maliyyə sərbəstliyinin genişləndirilməsi nəqliyyat sahəsinə də aid idi. O, 1984-cü ilin yanvarında SSRİ Yollar Nazirliyi ilə Dəmiryol Nəqliy-

yatı və Nəqliyyat Tikintisi fəhlələri Həmkarlar İttifaqları Mərkəzi Komitəsi Rəyasət Heyətinin geniş iclasında, bir həftə sonra isə Nəqliyyat Tikintisi Nazirliyi ilə Dəmiryol Nəqliyyatı, Nəqliyyat Tikintisi, Avtomobil Yolları Tikintisi fəhlələri Həmkarlar İttifaqları Mərkəzi Komitəsi rəyasət heyətlərinin müşavirəsində çıxış edərək, bu sahədə olan nailiyyətləri və nöqsanları göstərmişdi [342; 333].

SSRİ Yollar nazirinin müavini V.Morozov Heydər Əliyevlə bağlı xatirələrində yazır ki, o, yol işlərinin ağırlığını öz gözləri ilə görəndə sonra xaricdən maşın və avadanlıq alınması üçün valyuta ayrılması barədə göstəriş vermişdi.

O, Heydər Əliyevin rəhbərlik üslubunu səciyyələndirən bir faktı da xüsusilə qeyd edirdi: «1984-cü ilin avqustunda Yollar Nazirliyində ölkənin 32 dəmir yolunun … nümayəndələrinin, SSRİ Nazirlər Soveti işçilərinin iştirakı ilə geniş kollegiya iclası keçirilirdi… Heydər Əliyev bu iclasdakı 1 saat 30 dəqiqəlik çıxışında ölkənin dəmiryol nəqliyyatındakı vəziyyətin dərin təhlilini verdi və çatışmazlıqları göstərdi. Onun heç bir yazılı mətndən istifadə etmədiyi bu əhatəli çıxışına hamı valeh olmuşdu. Kollegiya iclası qurtardıqdan sonra, əsas etibarilə yol təsərrüfatı işçiləri mənə yaxınlaşıb deyirdilər ki, yəqin yoldaş Əliyev dəmir yolu mütəxəssisidir. Mən isə onları inandırmalı oldum ki, belə deyildir. Yoldaş Əliyev Bakı Universitetinin tarix fakültəsini bitirmişdir. İlk dəfə mənimlə də dəmiryolçu dilində danışanda məəttəl qalmışdım» [209, 316].

Nəqliyyat tikintisindəki vəziyyəti hərtərəfli təhlil edən Heydər Əliyev bu sahədə son illərdə özünü göstərən geriləmə meylini rəqəmlər və faktlar əsasında vurğulamışdı. O, məsələni qəti şəkildə qoymuş, yollar və nəqliyyat tikintisi nazirliklərinə onların qarşısına qoyulmuş vəzifələri yerinə yetirmək üçün qısa müddətdə tədbirlər planı hazırlayaraq təqdim etməyi tapşırmışdı. Nəzərdə tutulan tədbirlərin dəqiq, real, konkret olması vacib tələb kimi irəli sürülürdü. Məsələnin bu cür qoyuluşu Heydər Əliyevin iş prinsiplərinə, onun nəhəng ictimai-iqtisadi problemləri həll etmə üslubuna tam uyğun idi. Məsələnin qoyuluşu və reallaşması hər kəs üçün örnək olacaq qədər dəqiq və prinsipial idi. Hətta ən kiçik və fərdi məsələnin qoyulması, araşdırılması və həllində nümayiş olunan yanaşma və prinsipiallıq böyük dövlətin böyük məsələlərinin həlli üçün nümunə olacaq səviyyədə idi. Məhz

buna görə də Heydər Əliyevin həmin çıxışları sahənin kollektivləri, onun hər bir rəhbər işçisi və əməkdaşı tərəfindən düzgün fəaliyyət istiqaməti kimi qəbul edilir. Təsadüfi deyil ki, artıq 1985-ci ildə nəqliyyat sahəsində əhəmiyyətli irəliləyiş artıq göz qabağında idi.

Heydər Əliyevin nəzarətindəki məsələlərdən biri də öz çətinliyi və ziddiyyətliliyi ilə seçilən, miqyasına görə dünyada analoqu olmayan, böyüklüyü qədər də çoxsaylı problemləri olan Baykal–Amur Magistralının tikintisi idi. Ən əvvəl onu deyək ki, BAM-ın tikintisinə münasibət heç də birmənalı olmamışdır. Əgər «yenidənqurmaya» qədər onun nəhəngliyi, dövlətin kommunist təbliğatının güclülük, böyüklük, məğlubedilməzlik rəmzi kimi təqdim edilməsi fonunda əhali arasında mənfi münasibət təzahürləri görünürdüsə, «yenidənqurma» dövründə ötən illərin bütün nailiyyətlərinin kiçildilməsi, kommunist dəyərlərinin şübhə altına alınması şəraitində dövlətin iflasının səbəblərindən biri kimi, israfçılıq, qeyri-səmərəli iqtisadiyyat rəmzi kimi təlqin olunurdu.

Məlum olduğu kimi, Baykal–Amur Magistralı kimi nəhəng tikintinin xeyli uzun bir tarixçəsi vardır. Onun əvvəli Türksib Dəmir Yoluna gedib çıxır. Bilavasitə BAM-ın tikintisinə 1974-cü ildə başlanmışdı. İqtisadi əhəmiyyəti ilə yanaşı, siyasi və hərbi-strateji əhəmiyyət kəsb edən bu magistralın tikintisinin on il davam etdirilməsi və 1984-cü ildə təhvil verilməsi nəzərdə tutulurdu.

1970–1980-ci illərdə sovet dövlətinin ictimai-iqtisadi həyatında başlanan böhranlı vəziyyət BAM-ın tikintisində də özünü büruzə vermişdi. Miqyasının və əhəmiyyətinin nəhəngliyinə görə dünyanın böyük tikintiləri ilə müqayisə edilən BAM 3150 km dəmir yolu çəkilməsini, minlərlə körpünün, stansiyanın tikilməsini, şəhər və qəsəbələrin salınmasını nəzərdə tuturdu.

BAM-ın tikintisi SSRİ dövləti üçün böyük strateji əhəmiyyət daşıyırdı. O, Şərqi Sibirin və Uzaq Şərqin təbii sərvətlərindən istifadə ilə yanaşı, SSRİ-nin bu regionda hərbi-strateji maraqlarının möhkəmlənməsinə xidmət etməli idi. Buna görə də onun tikintisinin vacibliyi ilk illərdə heç kimdə şübhə doğurmurdu. Düzdür, ölkədə əhalinin sosial-iqtisadi ehtiyaclarının təmin edilməsində yaranmış problemlər fonunda belə bir nəhəng layihəyə milyardlarla vəsaitin ayrılması cəmiyyətdə o qədər də müsbət qarşılanmasa da, hər halda, bu ehtiyaclar götürülmüş xəttin dəyişdirilməsinə təsir edəcək səviyyədə deyildi.

Belə bir vaxtda hakimiyyətə gəlmiş Y.V.Andropovun komandası hər şeylə yanaşı, BAM-ın tikintisini də vacib və strateji sahə kimi uğurla aparmaq və başa çatdırmaq əzmində idi. Bu ağır sahəyə rəhbərlik işi də komandanın ən nüfuzlu və təsərrüfatçılıq sahəsində təcrübəli bir şəxs olan Heydər Əliyevə tapşırılmışdı.

1983-cü il martın 4-də SSRİ Nazirlər Sovetinin Baykal–Amur Magistralının tikintisi üzrə Komissiyanın onun sədrliyi ilə keçirilən birinci iclasında bu tikintinin ən aktual məsələləri gündəliyə salınmışdı: a) Baykal–Amur Magistralının 1982-ci il üçün tikinti planının yerinə yetirilməsinin vəziyyəti və 1983-cü il planının yerinə yetirilməsinin təmin edilməsi; b) Baykal–Amur Magistralının bütün sahələrində qatarların birbaşa hərəkətinin açılışına hazırlıq və Sov.İKP-nin XXVI qurultayının qərarlarına uyğun olaraq, on birinci beşillikdə onun ayrı-ayrı hissələrinin daimi istismara təhvil verilməsi; c) BAM-da Severomuysk – Kadarsk tunellərinin tikintisinin gedişi və Severomuysk tunelinin dolama dəmiryolunun tikintisi.

İclasda gedən müzakirə zamanı 1982-ci ilin tikinti planının yerinə yetirilməsinə baxmayaraq, bu tikintinin problemlərinə münasibətdə ciddi səhvlərin buraxıldığı aşkar edilir. Həmin nöqsanların aşkarlanması məsələlərə prinsipcə yeni yanaşmanın nəticəsi idi. Məlum olur ki, nəhəngliyi və mürəkkəbliyi ilə seçilən bu tikintidə, sadəcə, planları yerinə yetirməklə istənilən nəticəni əldə etmək mümkün deyildir. Onun bilavasitə tikintisinin ətraf yerlərdəki yaşayış məntəqələrinin problemləri ilə uyğunlaşdırılması, iqtisadi, sosial, texniki, kommunal problemlərin birlikdə qoyulması və həlli vacibdir.

Heydər Əliyev BAM-ın tikintisi ilə bağlı məsələni daim diqqət mərkəzində saxlayır, bu məsələyə tez-tez qayıdırdı. 23 fevral 1984-cü ildə Bakının Lenin rayonu seçki dairəsinin seçiciləri qarşısındakı çıxışında da həmin məsələyə bir daha toxunur. Orada qeyd edir ki, 1984-cü ilin axırına kimi BAM-ın bütün məsafələri boyu qatarların hərəkətinin açılması planlaşdırılır [336].

23 mart 1984-cü ildə Sov.İKP MK Siyasi Bürosunda BAM kollektivinin dəmiryolu çəkilişinin vaxtından bir il əvvəl başa çatdırmaq təşəbbüsünü müzakirə edərək, bunun böyük əhəmiyyətini, xüsusən Sibirin və Uzaq Şərqin böyük təbii ehtiyatlarının təsərrüfat dövriyyəsinə cəlb olunmasının əhəmiyyəti qeyd edilmişdi.

1984-cü il iyunun 3-dən 10-dək Heydər Əliyev BAM-ın tikintisində olmuş, iyunun 7-də Tındada BAM-ın tikintisi məsələləri üzrə Daimi Komissiyanın səyyar iclasında magistralın tikintisinin gedişi bilavasitə yenidə müzakirə edilmişdi. İclasda görülmüş işlərlə yanaşı, mövcud nöqsanlar, çətinliklər və problemlər də geniş araşdırılmışdı. Heydər Əliyevin magistralda çalışan insanlarla görüşləri, onların iş və yaşayış şəraiti ilə bilavasitə tanışlığı ona düzgün qərar qəbul etməyə imkan vermişdi. Məhz onun səyləri və verdiyi cəsarətli qərarın sayəsində 1984-cü ildə BAM-ın fəaliyyətə başlaması mümkün oldu. O vaxt BAM-ın bütün xətt üzrə işə düşməsinə başlıca maneə Severomuysk tunelində yaranmış obyektiv çətinlik idi. Məhz Heydər Əliyevin məsələni yerində araşdırması və düzgün göstəriş verməsi ilə tunelin dolama yolunun tikintisi qərara alındı ki, bu da başlıca problemi həll etməyə imkan verdi. Qeyd etmək lazımdır ki, Severomuysk tunelinin tikintisinin başa çatdırılması həmin vaxtdan 20 il sonra – 2003-cü ildə mümkün olmuşdur.

1985-ci il yanvarın 25-də Heydər Əliyev SSRİ Nəqliyyat Tikintisi Nazirliyinin 1984-cü ilin yekunlarına dair keçirilən geniş iclasındakı çıxışında həmin dövr üçün müşahidə olunmuş irəliləyiş qeyd edilmiş, bütün bu nailiyyətlərin əsasında işdə məsuliyyətin artırılması və əmək məhsuldarlığının yüksəldilməsinin dayandığı xüsusi qeyd olunmuşdu.

Sözün əsl mənasında, BAM-ın çətin günləri 1985-ci ildən sonra – M.S.Qorbaçovun hakimiyyətə gəlməsindən sonra başladı. İlk vaxtlar iqtisadiyyatın digər sahələrində olduğu kimi, nəqliyyat da, o cümlədən BAM ətalətə görə müəyyən qədər inkişaf edirdisə də, «yenidənqurma» adı altında başlamış xaos ona da öz təsirini göstərməyə başladı. Hərcmərclik şəraitində belə nəhəng bir tikintinin davam etdirilməsi ağır maneələrlə üzləşdi. Bunun günahkarı isə bu sahəyə cavabdeh olan şəxslər, o cümlədən Heydər Əliyev hesab edilirdi. Baş katibin köməkçilərindən biri olan V.İ.Boldin yazdığı kitabında BAM-ın tikintisində yaranmış problemlərə görə Heydər Əliyevin haqsız və yersiz günahlandırılmasını xüsusi olaraq qeyd edir [307, 140].

1985-ci ildə iqtisadi inkişafa vurulan yekunlar 1982-ci ildə başlanmış iqtisadi xəttin məntiqi yekunu idi. Doğrudur, 1984–1985-ci illərdə bu inkişafın sürətində geriləmələr müşahidə edilirdi, lakin bütövlükdə

1982-ci ilin sonundan götürülmüş iqtisadi inkişaf xətti öz nəticələri ilə düzgünlüyünü təsdiq edirdi.

1985-ci il yanvarın 23-də SSRİ Nazirlər Sovetinin iclasında 1986–1990-cı illərdə SSRİ-nin sosial-iqtisadi inkişafının əsas istiqamətləri layihəsi müzakirə olunur. Faktlar əsasında bildirir ki, 1983–1984-cü illərdə ölkə iqtisadiyyatının bütün sahələrində iqtisadi irəliləyişə nail olunmuş, 1984-cü ildə milli gəlir 2,6 %, sənaye istehsalı 4,2%, nəqliyyatın yük dövriyyəsi 2,9% artmışdır. 200-ə qədər yeni iri sənaye müəssisəsi işə salınmışdır. Baykal–Amur Magistralı boyunca qatarların hərəkəti vaxtından əvvəl təmin edilmişdir [338].

Bu nailiyyətlər ölkə iqtisadiyyatına əlavə resursların və kapital qoyuluşunun hesabına deyil, intizamın gücləndirilməsi, məsuliyyətin artırılması, idarəçilikdə qayda-qanunun təmin edilməsi hesabına əldə edilmişdi. Bu təcrübə sübut edirdi ki, ölkə iqtisadiyyatının böhranının aradan qaldırılmasının düzgün yolu seçilmişdi. Lakin sonradan bu xətt tədricən pozulur və büsbütün fərqli istiqamətin götürülməsi onun tam iflasına gətirib çıxardı.

1985-ci il fevralın 14-də Heydər Əliyev Qazaxıstan SSR-in Barnaul şəhərində seçicilərlə görüşündə, faktik olaraq, partiya və dövlətin proqram sənədi ilə çıxış etmişdi. O bildirirdi ki, indiki mərhələdə iqtisadiyyatda əsas xətti xalq təsərrüfatının inkişafının intensivləşdirilməsi və texnoloji geriliyin aradan qaldırılması üçün elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiqidir. Bu xəttin tərkib hissələrindən biri onun rəhbərliyi altında hazırlanan 1986–2000-ci illər üçün xalq istehlakı malları istehsalı və xidmət sahəsinin inkişafı proqramı idi.

RSFSR-in Altay diyarında olarkən və ümumiyyətlə, yerlərdə işgüzar səfərləri zamanı Heydər Əliyevin təsərrüfatda yaratdığı möcüzələrin səbəbləri hər dəfə aşkar şəkildə özünü göstərirdi. Getdiyi regionun, şəhərin, kəndin iqtisadi qayğılarına formallıq və rəsmiyyətdən uzaq şəkildə nüfuz edə bilməsi, insanlarla təması və səmimi söhbətləri problemlərin kökünü görməyə, onların həllinin düzgün yollarını müəyyənləşdirməyə imkan verirdi. Müqayisə üçün qeyd etmək lazımdır ki, Moskvada işlədiyi illərdə həmin səviyyədə duran heç bir rəhbər işçidə bu cür iş fəaliyyətini müşahidə etmək mümkün deyildi. Məhz buna görə sadə insanlar ona rəğbətlə yanaşır, öz problemlərini onunla bölüşməyə çalışırdılar. «Yenidənqurma» zamanında

sadə vətəndaşlar məktub yazaraq, ölkədə yaranmış hərc-mərcliyin izahını ondan eşitmək istəyirdilər.

Barnaula səfərində Heydər Əliyev zavodlarda, fabriklərdə olmuş, kolxoz və sovxozlara baş çəkmiş, təhsil müəssisələrinin kollektivləri ilə görüşərək onların fikirləri, ölkədə gedən proseslərə münasibətləri ilə tanış olmuşdu [339; 322].

1985-ci il iyunun 21–23-də Heydər Əliyev dəmir yolunun Kazan magistralı istiqamətində işgüzar səfərə çıxmışdı. Burada da o, öz iş üslubuna sadiq qalaraq, hər bir məsələ ilə yerində tanış olmuş, istehsal müəssisələrində, dəmir yolu stansiyalarında əmək adamları ilə görüşmüşdü. Kazan şəhərində keçirdiyi müşavirədə dəmir yolu tikintisində yaranmış problemləri araşdırmış, sonra Volqa üzərində avtomobil yolu körpüsünün tikintisi ilə tanış olmuşdu. Kazan Universitetinin professor-müəllim heyəti ilə görüşündə ali təhsilin təkmilləşdirilməsi, elmi-texniki potensialın səmərəsinin artırılması məsələlərini müzakirə etmişdi [341].

1985-ci il noyabrın 14–17-də isə Heydər Əliyev Kurqan şəhərində sənaye müəssisələrinə baş çəkmiş, mövcud problemləri müzakirə etmişdi. 1986-cı ilin iyulunda Heydər Əliyev Çuvaşiya MR-in yüngül sənaye fəallarının iclasında bu sahənin təsərrüfat hesabına keçirilməsinin vacibliyini vurğulamış, buraxılan məhsulun keyfiyyətinin aşağı olmasının səbəblərini araşdırmış, onların aradan qaldırılması yollarını müzakirə etmişdi. Heydər Əliyev çıxışında təəssüflə demişdi ki, əmək kollektivləri haqqında qanun «yerində sayır» [323].

1987-ci ilin yanvar plenumunda M.S.Qorbaçov XX əsrin 70-ci illərini durğunluq dövrü kimi xarakterizə edir. Götürülmüş xətlə əlaqədar olaraq ölkənin ictimai-iqtisadi və siyasi həyatında idarəolunmaz proseslərin başlaması vəziyyəti ağırlaşdırır. Nazirlər Sovetinin aprelin 24-də keçirilmiş iclasında ilin birinci rübünün yekunları ümumiləşdirilərkən etiraf olundu ki, başlanmış genişmiqyaslı islahatlar gözlənilən nəticələri vermir [340].

Bütün bu çətinliklər və çatışmazlıqlar göz qabağında idi. Xüsusən Heydər Əliyev kimi bir insan dövlətin, onun başda oturanlarının ictimai həyatın bütün sahələrində apardığı siyasətin ölkəni həlli çətin problemlərə sürüklədiyini görürdü, lakin o, öz üslubunda işləməkdə davam edir, məsuliyyətini daşıdığı sahələrin işini istiqamətləndirirdi. Buna əyani misal, onun 1987-ci il martın 15–18-də Volqoqrad vilayə-

tində keçirdiyi görüşləri, apardığı müzakirələri göstərmək olar. O burada olduğu müddətdə Kamışin pambıq-parça Kombinatında, trikotaj və ayaqqabı fabriklərində, traktor zavodunda əməkçilərlə söhbətlər aparmış, onların ölkədə gedən proseslərə münasibətilə tanış olmuşdu. Bundan başqa, əhalinin vəziyyəti, gündəlik qayğıları ilə tanış olmaq üçün Volqoqrad bazarına, mağazalarına, yeməkxanalarına baş çəkmiş, təcili yardım stansiyasının, dəmiryolu stansiyasının işçiləri ilə görüşmüşdü. Vilayət fəalları ilə görüşdə yenidənqurma prosesinin aktual məsələləri müzakirə olunmuş, əsas diqqət əhalinin sosial problemlərinin aradan qaldırılmasının yollarına yönəlmişdi.

Təhsil Heydər Əliyevin nəzarətində olan məsələlərdən biri kimi böyük diqqət və qayğı tələb edirdi. 1980-ci illərin əvvəllərində SSRİ dövlətinin ictimai həyatının digər sahələrində olduğu kimi, burada da kifayət qədər problemlər yığılıb qalmışdı. Təhsil sisteminin dəyişdirilməsinə böyük ehtiyac var idi. Onun yeniləşməsi, müasir dünya səviyyəsinə çıxarılması gündəlikdə dururdu. Buna görə də təhsilin bütün mərhələlərində islahatın keçirilməsinə başlanmışdı.

1983-cü il martın 29-da Heydər Əliyevin sədrliyi ilə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi Kollegiyasının geniş iclasında mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsi, ictimai istehsalın intensivliyinin artırılmasında ali məktəblərin elmi potensialından tam istifadə edilməsi problemləri müzakirə olundu. O vaxt təhsildə müşahidə edilən başlıca məqam həm orta təhsildə, həm də ondan sonrakı təhsil mərhələlərində mücərrədləşmə meyillərinin güclənməsi, onun real praktikadan uzaqlaşması, çox zaman təhsilin formallaşaraq real həyatın tələblərindən uzaqlaşması idi. Keçirilməsi nəzərdə tutulan islahatda diqqətin bu cəhətlərə yönəldilməsi də təsadüfi deyildi.

Sovet təhsil sistemində dəyişdirilməyə ehtiyacı olan məqamlardan biri onun peşə yönümlülüyünün gücləndirilməsi idi. Xüsusən SSRİ-nin hər yerində texniki peşə təhsilinin problemlərinin qaldırılması və operativ həlli böyük aktuallıq kəsb etməyə başlamışdı. 1983-cü ilin avqustunda Heydər Əliyevin sədrliyi ilə SSRİ Dövlət Texniki Peşə Təhsili Komitəsi Kollegiyasının geniş iclasında nöqsanların aradan qaldırılması və texniki peşə təhsilinin islahatları müzakirə olundu.

Sov. İKP MK Siyasi Bürosunun Ümumtəhsil məktəbləri və peşə-texniki təhsil sisteminin islahatı üzrə komissiyasının üzvü olan Heydər

Əliyev onun işində yaxından iştirak edir, bu sahədə layihələrin, proqramların hazırlanmasında və həyata keçirilməsinə nəzarətdə bilavasitə öz bilik və bacarığını, zəngin təcrübəsini sərf edirdi. Hazırlanmış sənədlərin çoxunda onun dəst-xətti hiss olunurdu. 1984-cü il yanvarın 4-də mətbuatda «Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri» haqqında qanunun layihəsi çap olundu. Müəlliflərindən biri də Heydər Əliyev olan layihədə təhsilin bütün problemləri fundamental şəkildə qoyulur, onların islah edilməsinin mexanizmi dəqiq və detallarla göstərilirdi [348, v.8–33].

Ümumxalq müzakirəsinə təqdim edilən bu islahat layihəsinə görə, həmin ildən etibarən orta təhsilin müddətinin bir il artırılması, 10 illik təhsildən 11 illik təhsilə keçilməsi, uşaqların 6 yaşdan etibarən məktəbə getməsi təklif edilirdi. Bu, sovet orta təhsil sistemi ilə dünya ölkələrinin əksəriyyətindəki orta təhsil sistemləri arasındakı fərqi azaldırdı.

Layihədə orta təhsilin peşə yönümlülüyü məsələsinə yeni yanaşma müşahidə edilirdi. Şagirdlərin əmək tərbiyəsinin yaxşılaşdırılması, məktəblərin peşə istiqamətinin təmin edilməsi istiqamətində nəzərdə tutulan işlər təhsili real həyatın problemlərinə yaxınlaşdırmağa, məktəb məzunlarının yetkin həyata və əmək fəaliyyətinə hazırlanmasına xidmət etməli idi.

Layihədə müəllim problemlərinin həllinə xüsusi diqqət ayrılmışdı. Bir tərəfdən, müəllimlərin bilik səviyyəsinin yüksəldilməsi, onların daim öz üzərlərində işləməsi, tədrisin keyfiyyətinin artırılması məsələsi bir vəzifə kimi qoyulurdusa, digər tərəfdən, müəllimlərin ictimai nüfuzunun qaldırılması, əməkhaqlarının artırılması, məişət şəraitlərinin yaxşılaşdırılması, müxtəlif sosial problemlərinin həll edilməsi islahatın uğurunun vacib şərti kimi irəli sürülürdü [348, v. 8–33].

Nəhayət, təhsilin lazımi səviyyəyə yüksəldilməsi üçün məktəblərin idarə olunmamasında köklü dəyişikliklərin edilməsi, bunun üçün ümumtəhsil və peşə təhsili məktəblərinin strukturunun və xalq təhsilinin idarə edilməsinin təkmilləşdirilməsi təklif olunurdu.

1984-cü il aprelin 12-də Heydər Əliyev 11-ci çağırış SSRİ Ali Sovetinin birinci sessiyasında ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri haqqında məruzə ilə çıxış edir. Birinci növbədə təhsilin əmək tərbiyəsi ilə birləşdirilməsinə xüsusi diqqət yetirilən məruzədə

vurğulanırdı ki, məktəbin başlıca vəzifələrindən biri gənc nəslə əməksevərliyi tərbiyə etməkdir. Müəllimin nüfuzunun artırılması, onun peşəkarlığının artırılması, onun daim öz bilik səviyyəsini yüksəltməsi məktəbin müasirləşməsinin və güclənməsinin vacib şərti kimi qeyd edilir. Onun fikrincə, müəllim təkcə zamanla addımlamamalı, həm də onu qabaqlamalıdır [348, v.24]. Sessiyada ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri haqqında qərar qəbul olunmuşdu.

Heydər Əliyev SSRİ-nin səhiyyə sahəsinin inkişafına da öz tutarlı töhfəsini vermişdir. Hər bir halda onun bu və ya digər sahəyə ümumi rəhbərliyi formal xarakter daşımır, iş başında olduğu müddətdə güclü dəstəyini hiss edir, həm də onun inkişafı üçün zəruri olan konseptual yanaşma, professional təhlil imkanı qazanılırdı.

1983-cü ilin fevralında Heydər Əliyevin sədrliyi ilə SSRİ Səhiyyə Nazirliyi Kollegiyasının və Tibb İşçiləri Həmkarlar İttifaqı MK-nın Rəyasət Heyətinin müttəfiq respublikaların səhiyyə nazirləri, həmkarlar ittifaqları işçiləri və tibb alimlərinin iştirakı ilə keçirilmiş geniş iclasında ölkədə səhiyyənin vəziyyəti, onun aktual problemləri müzakirə olunmuşdu.

1985-ci ilin martında Sov.İKP MK Siyasi Bürosunun iclasında Heydər Əliyevin təklifi ilə ürək xəstəliklərinin cərrahiyyəsi zamanı elektrostimulyatorlardan geniş istifadə edilməsi fikri müdafiə olunmuşdu. Bunun üçün iri şəhərlərin xəstəxanalarında ixtisaslaşdırılmış bölmələrin yaradılması, onların avadanlıq və tibb mütəxəssisləri ilə təmin olunması üçün tədbirlər nəzərdə tutan qərar qəbul edildi. 1986-cı ilin aprelində Sov. İKP MK Siyasi Bürosunda Heydər Əliyev başqa məsələlərlə yanaşı, «Gözün mikrocərrahiyyəsi» elmi-texniki kompleksinin təşkil edilməsi təklifini irəli sürmüşdü. Moskvada S.Fyodorovun başçılıq etdiyi məşhur tibb müəssisəsi məhz bundan sonra yaradılmışdı. 1987-ci il avqustun 15-də Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin Heydər Əliyev tərəfindən işlənib hazırlanmış «On ikinci beşillikdə və 2000-ci ilə qədərki dövrdə əhalinin sağlamlığının qorunması və SSRİ səhiyyəsinin yenidən qurulmasının başlıca istiqamətləri» haqqında qərar layihəsi mətbuatda dərc olunmuşdu [343].

Layihədə tibbi profilaktikanın mükəmməl sisteminin yaradılması vəzifəsi və onun işləmə mexanizmləri diqqət mərkəzində idi. Heydər Əliyev hələ 1984-cü ildə Bakıda seçicilər qarşısında çıxış edərkən

demişdir ki, səhiyyədə başlıca məsələ onun profilaktik istiqamətinin gücləndirilməsi və əhalinin tibbi maarifləndirilməsidir. Bu sahənin məsələləri sırasına əhalinin kütləvi dispanserizasiyası, təbiətin mühafizəsinə dair kompleks tədbirlər, müəssisələrdə sanitar-gigiyenik normalara əməl edilməsi, istehsalatda əl əməyinin və ağır fiziki əməyin həcminin azaldılması, ərzaq məhsullarının emalı, saxlanması, daşınması və satışı proseslərində sanitar-gigiyenik nəzarətin sərtləşdirilməsi, insanlarda sağlam həyat tərzinin formalaşdırılması və s. daxil idi. Bundan əlavə, böyüməkdə olan nəslin sağlamlığının əsası kimi, məktəblərdə və məktəbəqədər müəssisələrdə bədən tərbiyəsi və idman dərslərinin genişləndirilməsi nəzərdə tutulurdu.

Əhaliyə tibbi yardımın keyfiyyətinin yüksəldilməsinin səhiyyənin başlıca vəzifəsi kimi vurğulandığı layihədə hər bir respublikada, vilayətdə, iri şəhərlərdə müasir avadanlıqlar, tibbi texnika ilə təchiz edilmiş diaqnostika mərkəzlərinin təşkili, bütün respublikalarda onkoloji mərkəzlərin yaradılması əksini tapmışdı. Bundan əlavə, layihədə səhiyyəni idarəetmənin təkmilləşdirilməsinin istiqamətləri, tibbi kadrların hazırlanması və yerləşdirilməsi məsələləri ciddi şəkildə qoyulur, onların həyata keçirilməsi yolları və metodları göstərilirdi, elmin son nailiyyətlərinin səhiyyə sahəsində tətbiqi, elmi tədqiqatların praktikaya yaxınlaşdırılması xüsusi vurğulanır, elmi mərkəzlərdə və elmi tədqiqat institutlarında təcrübə-eksperimental istehsalın yaradılması nəzərdə tutulurdu.

Mükəmməlliyi və əsaslılığı ilə seçilən layihədə diqqəti cəlb edən başlıca cəhət, Heydər Əliyevin hazırladığı digər sənədlərdə olduğu kimi, məsələyə kompleks şəkildə yanaşma, professional münasibət, nəzəri və praktik cəhətlərin vəhdətdə götürülməsi və ictimai həyatın bütün digər sahələri ilə əlaqənin nəzərə alınması idi. Heydər Əliyevin bütün fəaliyyəti üçün səciyyəvi olan bu üslub cəmiyyətin sosial məsələlərlə məşğul olduğu bütün məqamlarda özünü büruzə verirdi.

Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi Heydər Əliyev həm də mədəniyyət, yaradıcılıq təşkilatları, nəşriyyat işi radio və televiziya ilə bağlı məsələlərlə də məşğul olurdu. Hələ gənc yaşlarından incəsənətin bir sıra sahələrinə meyil etmiş Heydər Əliyevin rəssamlığa, musiqiyə, teatr və kino sənətinə, jurnalistikaya məxsusi münasibəti olmuşdu. Bu

sahələrin yaradıcı insanları həm Azərbaycan SSR-də, həm də SSRİ miqyasında onu öz adamları kimi, onların qayğı və problemlərini dərindən bilən bir insan kimi tanımış, fikirləri və problemlərini onunla bölüşmüşlər.

1984-cü ilin mayında kino təşkilatlarının Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «Kinofilmlərin ideya-bədii səviyyəsinin daha da yüksəldilməsi və kinematoqrafiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi tədbirləri haqqında» qərarının yerinə yetirilməsi vəzifələrinə həsr olunmuş ümumittifaq müşavirəsində Heydər Əliyevin nitqində kinematoqrafçıların spesifik problemlərinə yanaşma, onların cəmiyyətdə oynadığı rolun qiymətləndirilməsi, qarşılarına qoyulan vəzifələr elə peşəkarlıqla ifadə olunmuşdu ki, bunlar müxtəlif zaman və məkandan, ictimai-iqtisadi və mədəni-siyasi mühitdən asılı olmayaraq, aktuallığını indiyədək saxlayır [337; 321; 326].

Qeyd etmək lazımdır ki, həmin qərarın hazırlanmasına Heydər Əliyev özü rəhbərlik etmişdi. Mədəniyyətin ən müxtəlif sahələrinin nümayəndələri ilə görüşlərində, xüsusən həmin sahələrin problemlərinin həlli ilə məşğul olarkən onların hər birinin özünəməxsus xüsusiyyətlərini, incəliklərini, qayğılarını dərindən bilməsi ilə həmsöhbətlərini təəccübləndirirdi. Mədəniyyətin və incəsənətin hər bir sahəsinin nümayəndəsi ona müəyyən məsələlərlə bağlı müraciət edərkən, onu həqiqətən, bu sahəni ən yaxşı bilən adam və bilicisi hesab edirdi. Heydər Əliyev jurnalist Andrey Karaulovun: «Yaradıcı ziyalılarla Sizin münasibətiniz necə idi?» – sualına cavab verərkən demişdir: «Onlar həmişə mənə yaxın idilər. Mən buna daxili tələbat hiss edirdim. Mən MK-nın birinci katibi olandan sonra isə bu tələbat genişləndi və möhkəmləndi. Mən bunu öz işimin vacib tərəfi hesab edirdim, həmişə yaradıcılıq ittifaqlarının işində iştirak edirdim, qurultaylarında çıxış edirdim. Ziyalılarla fərdi görüşlər zamanı məişət, təşkilati problemlər də çıxırdı. Biz onu həmişə həll edirdik. ...Yazıçılar, rəssamlar, bəstəkarlar bir-birindən kəskin fərqlənirlər, forma və janrlarını sərbəst şəkildə seçirdilər. Biz bu işə heç vaxt qarışmırdıq» [327].

Heydər Əliyev elm adamları tərəfindən xüsusi rəğbətlə qarşılanırdı ki, bu da onun özünün həmin insanlara yaxınlığı, onların əməyini düzgün qiymətləndirməsi, qayğı və problemlərini başa düşərək, həllinə kömək etməsi ilə izah olunur. Məşhur akademik Roald Saqdeev

deyirdi ki, Heydər Əliyev SSRİ-nin aparıcı alimləri arasında o qədər məşhur idi ki, bu, Siyasi Büronun üzvlərinin paxıllığına səbəb olmaya bilməzdi. Akademikin fikrincə, onun məşhurluğu onları qorxudurdu

Heydər Əliyev çalışdığı bütün vəzifələrdə gözəl bir diplomat olduğunu əyani şəkildə sübut etmişdi. Hələ təhlükəsizlik orqanlarında işlədiyi vaxt incə diplomat qabiliyyətini dəfələrlə göstərmiş, dövlətlərarası bir sıra məsələlərin uğurlu həlli üçün öz töhfəsini vermişdi. Sənədlərdən göründüyü kimi, həmin illərdə Şərq dillərini öyrənmiş, Şərq ölkələrinin özünəməxsus xüsusiyyətlərini bilən bir mütəxəssis kimi proseslərə cəlb olunmuşdu. 1970-ci illərin ortalarından Şərq və müsəlman ölkələri üzrə məsələlərdə SSRİ-nin ali siyasi hakimiyyət orqanlarına, hətta Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnevə məsləhətçi kimi kömək göstərmişdir. Azərbaycan SSR-ə rəhbərlik etdiyi müddətdə dəfələrlə xarici səfərlərdə olmuş, dövləti təmsil etmiş, danışıqlar aparmışdı. Bununla yanaşı, xarici nümayəndə heyətləri də Bakıya gələrkən onlarla yüksək səviyyədə danışıqlar aparmış və onların təsəvvüründə özü haqqında, Azərbaycan xalqı haqqında xoş təəssürat yarada bilmiş, bu görüşlərdən konkret olaraq Azərbaycan SSR-in problemləri üçün istifadə edə bilmişdi. O, Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə müstəqil xarici siyasət sahəsində hüquq və səlahiyyətlərinin son dərəcə məhdud olduğu müttəfiq respublikada maksimum nəticələr əldə etməyin parlaq nümunəsini göstərmişdi. Onun xarici siyasətlə bağlı fəaliyyəti çoxşaxəli olmuş, Azərbaycan xalqının dünyada tanınması, mədəniyyət və incəsənətinin təbliği, respublikanın xariclə iqtisadi əlaqələrinin qurulması, mütəxəssis mübadiləsinin təmin edilməsi, diplomat kadrlarının hazırlanması və onların SSRİ miqyasında fəaliyyət göstərmələrinə nail olunması, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin yaradılması və möhkəmləndirilməsi bu gərgin fəaliyyətin tam olmayan siyahısı idi [246, 391–411].

Heydər Əliyevin diplomatik fəaliyyətinin yeni mərhələsi 1982-ci ildən Moskvada Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi fəaliyyət göstərdiyi dövrə təsadüf edir.

Rusiya Federasiyasının dövlət arxivlərinin tədqiqatçılar üçün açıq olan məhdud informasiyalı sənədlərindən bu fəaliyyəti incəliklərinə

qədər araşdırmaq, fərqli baxışlar və konkret mövqelər haqqında ətraflı fikirlər söyləmək, nəticələr çıxarmaq çətin olsa da, bu məhdud informasiyanın özü müəyyən təsəvvür yaratmağa imkan verir.

Heydər Əliyevin azərbaycanlı-müsəlman olması amili onun xarici siyasət sahəsindəki fəaliyyətinin istiqamətində müəyyən rol oynamışdır. O, tez-tez Şərq və müsəlman ölkələrinə səfərlərində SSRİ-ni təmsil etmiş, həmin ölkələrlə əlverişli münasibətlərin yaranması və inkişaf etdirilməsinə öz töhfəsini vermişdir.

Yaxın Şərqin müsəlman ölkələri ilə olan problemlərin həllində, onların istiqamətləndirilməsində Heydər Əliyevin imkanları və diplomatik bacarığı əhəmiyyətli rol oynayırdı. 1984-cü il martın 10-da Suriyaya səfəri zamanı həmin ölkə üçün, habelə digər qonşu müsəlman dövlətləri üçün vacib olan problemlər müzakirə olunmuşdu [348, v.3]. Geniş tərkibli nümayəndə heyətinin başçısı olan Heydər Əliyev Suriya hakimiyyətində yaranmış münaqişəni həll etməklə yanaşı, Livan Kommunist Partiyasının Baş katibi C.Hayi ilə də görüşmüş, region üçün vacib problemlərə dair müzakirələr aparmışdı [334]. Mərkəzi mətbuatda dərc olunmuş Sovet–Suriya rəsmi məlumatında BMT Təhlükəsizlik Şurasının İsrail qoşunlarının Livandan tezliklə və qeyd-şərtsiz çıxarılması haqqında qətnaməsi dəstəklənir. Yaxın Şərqdə sülhə nail olunmasında Fələstin amilinin vacibliyindən və Fələstin Azadlıq Təşkilatının dəstəklənməsinin zəruriliyindən danışılır, hər iki ölkənin bütün sahələrdə əlaqələrini möhkəmlətmək səyləri qeyd olunurdu [335].

Heydər Əliyev 1986-cı ilin oktyabrında Mozambik Prezidenti S.Maşelin dəfnində iştirak etməyə gedərkən, yolüstü Yəmən Xalq Demokratik Respublikasında dayanaraq, ölkənin partiya və dövlət xadimləri ilə görüşmüşdü. Maputuda dəfndə iştirak edən Heydər Əliyev orada Nikaraquanın vitse-prezidenti Ramireslə, Anqola Prezidenti J.E.Duş Santuş (indiki Azərbaycan Dövlət Neft Akademiyasının keçmiş məzunu), ADR Nazirlər Sovetinin Sədri V.Krolikovski, Efiopiyanın nümayəndəsi Voderess, Kuba nümayəndəsi Voqdereslə danışıqlar aparmışdı [351, v.20].

Nümayəndə heyətinin rəhbəri kimi, Heydər Əliyev xarici səfərləri zamanı apardığı danışıqlarda missiyasını peşəkar diplomat və dövlət xadimi kimi yüksək səviyyədə həyata keçirirdi. O, xarici səfər-

lərində də özünəməxsus iş üslubu, həssaslığı, vəziyyəti düzgün qiymətləndirmək, həmsöhbətlərinin rəğbətini qazanmaq bacarığı ilə fərqlənirdi. Protokol qaydaları çərçivəsində keçirilən bu görüşlər, aparılan danışıqlar qarşı tərəfdə dərin təəssürat doğururdu.

1983-cü ilin yayında Heydər Əliyev ABŞ-ın Kənd Təsərrüfatı naziri ilə görüşündə SSRİ–ABŞ münasibətlərinə dair məsələlərdən söhbət getmiş, ABŞ-dan taxıl alınması barədə yeni müqavilə imzalamışdı. 1983-cü il sentyabrın 8-də Sov.İKP MK Siyasi Büronun iclasında Heydər Əliyevin ABŞ nümayəndə heyətinin başçısı ilə apardığı danışıqlar haqqında hesabatı dinlənilmiş, onun nəticələri və bağlanmış müqavilə yüksək qiymətləndirilmişdi. MK katibi K.U.Çernenko nazirin ABŞ-a qayıdandan sonra bu görüş haqqında müsbət təəssüratlarını söylədiyini xatırlatmışdı [420, v.2].

Heydər Əliyev Asiya və Afrikanın müsəlman ölkələri ilə münasibətlərin qurulması və yüksək səviyyədə saxlanmasında müstəsna rol oynamışdır. O, həmin ölkələrdə olmuş, Kremldə onların nümayəndələrini qəbul etmiş, bu ölkələrlə işgüzar münasibətlərin saxlanmasına, dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə öz töhfəsini vermişdir.

Heydər Əliyevin xarici siyasətlə bağlı fəaliyyətində sosialist ölkələri ilə münasibətlərin tənzimlənməsi mühüm istiqamətlərdən birini təşkil edir. Onun Vyetnam, Koreya Xalq Demokratik Respublikası və Laosa səfərləri həmin ölkələrlə ideya-siyasi, ictimai-iqtisadi və mədəni əlaqələrin daha da möhkəmlənməsinə, onların mövqelərinin güclənməsinə və təhlükəsizliyinin təmin olunmasına xidmət edirdi.

1983-cü ilin oktyabrında Vyetnam Sosialist Respublikasına səfəri zamanı aparılan danışıqlarda Vyetnam, Laos və Kampuçiyanın siyasi ittifaqının möhkəmləndirilməsinin vacibliyi xüsusi qeyd olunmuşdu. Bundan əlavə, həmin ölkələrə, xüsusən Vyetnama iqtisadi yardım və elmi-texniki kömək göstərilməsi məsələləri müzakirə olunmuş, Sovet–Vyetnam birgə bəyanatı qəbul edilmişdi. Bu səfər çərçivəsində keçirilən görüşlər, aparılan danışıqlar, qəbul edilən sənədlər bu regionda sovet dövlətinin mövqelərinin daha da möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli idi [330]. Noyabrın 10-da səfərin nəticələri Siyasi Büroda bəyənilmiş və iki dövlət arasında birliyin möhkəmlənməsinin yeni mərhələsi kimi qiymətləndirilmişdi. Heydər Əliyev nümayəndə heyə-

tinin başçısı kimi 1985-ci ilin avqustunda Koreya Xalq Demokratik Respublikasında olmuş, 1986-cı ilin noyabrında isə Kampuçiya partiya və dövlət nümayəndələri ilə görüşmüşdü [342].

Heydər Əliyev Yaponiyanın siyasi partiyalarının nümayəndələri ilə dəfələrlə danışıqlar aparmışdı. O, 1983-cü ilin noyabrında Demokratik Sosializm Partiyasının sədri R.Sasaki başda olmaqla, 4 siyasi partiyanın nümayəndələrini, habelə 1984-cü ilin dekabrında «Mitsui» maliyyə qrupunun nümayəndə heyətini, 1986-cı ilin oktyabrında Yaponiyanın Xarici Ölkələrlə Mədəni əlaqələr Assosiasiyasının prezidentini qəbul etmişdi [348, v.40; 349, v.67–68].

Heydər Əliyev 1984-cü ilin martında Efiopiya Müvəqqəti Hərbi İnzibati Şurasının sədri Mengistu Hayle Mariam ilə ikitərəfli ticarət-iqtisadi əməkdaşlıq məsələlərinə dair müzakirələr aparmış, 1985-ci ilin noyabrında Anqolanın Azadlığı Uğrunda Xalq Hərəkatının (MNLA) qurultayında iştirak etmiş və nitq söyləmişdi.

Fransada çıxan «Kuryer İnternasional» jurnalının baş redaktoru Aleksandr Adler yazırdı ki, sovet diplomatiyasında inkişaf zəifliyinə qarşı yönəldilmiş böyük dəyişikliyin təşəbbüsçüsü məhz Heydər Əliyev olmuş, o, sovet diplomatiyasının istiqamətinin dəyişdirilməsində ən başlıca rol oynamışdı [209].

Moskvada işlədiyi müddətdə Heydər Əliyev dəfələrlə ölkədə baş vermiş fəlakətli qəzalarla bağlı yaradılmış hökumət komissiyalarına rəhbərlik etmiş, hər dəfə də qarşısında duran çətin işlərin öhdəsindən bacarıqla gəlmişdi. 1983-cü ildə o, Volqa çayında «Admiral Suvorov» gəmisinin insan tələfatı ilə nəticələnmiş qəzaya uğraması ilə əlaqədar yaradılmış komissiyanın rəhbəri kimi, ona verilən səlahiyyətlər çərçivəsində zərərçəkənlərə yardım göstərmişdi.

1985-ci ildən sonra isə Heydər Əliyevi komissiyalara rəhbər təyin edərkən, əslində, onu fəlakətli hadisələr zamanı gərgin emosional sarsıntı keçirən insanlarla üz-üzə qoymaq, beləliklə də onun nüfuzuna xələl gətirmək məqsədini güdürdülər.

1985-ci il iyunun 25-də «K–429» Atom sualtı qayığında 16 nəfərin ölümü ilə nəticələnmiş qəza üzrə yaradılmış komissiyanın Heydər Əliyevin sədrliyi ilə gəldiyi nəticələr M.Qorbaçovun rəsmi xətti və məsələyə şəxsi münasibəti ilə uyğun gəlmədiyindən, onun üstü örtbasdır edilmişdi.

Bu cür fikir ayrılıqları 1986-cı ildə Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəza barədə dövlətin mövqeyini müəyyənləşdirərkən də üzə çıxmışdı. M.Qorbaçov və Siyasi Büronun digər üzvləri həqiqəti xalqdan, dünya ictimaiyyətindən gizlətmək haqqında düşünürdülərsə, Heydər Əliyev əhaliyə həqiqəti çatdırmağı, fəlakət zonasında yaşayan insanları təhlükədən xəbərdar edərək, müvafiq tədbirlərin görülməsini tələb edirdi. Belə halda mövqelərin üst-üstə düşməməsi ona qarşı qərəzli münasibətin daha da kəskin xarakter almasına səbəb olurdu.

Heydər Əliyevin Moskvadakı fəaliyyəti dövrünün ən ağrılı məqamlarından biri onun 1986-cı ilin avqustunda Novorossiysk yaxınlığında «Admiral Naximov» sərnişin teploxodunun «Pyotr Vasev» yük gəmisi ilə toqquşması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar yaradılmış hökumət komissiyasına rəhbərlik etdiyi günləri idi. Bu iki gəminin toqquşması nəticəsində sərnişin teploxodundakı 1234 nəfərdən yalnız 836 nəfəri xilas edilmiş, 423 nəfər həlak olmuşdu [415, v.4]. Qəzanın qurbanlarının sayının bu qədər çox olmasına səbəb toqquşmadan sonra teploxodun 7–8 dəqiqə ərzində batması idi. Gərgin iş rejimində işləyən komissiya həlak olanların cəsədlərinin axtarışı, qəzanın səbəblərinin araşdırılması ilə məşğul olur, faciə qurbanlarının qohum-qardaşları ilə (onların sayı 900-ə qədər idi) görüşürdü. O vaxt Ukrayna KP MK-nın katibi işləyən və qəza ilə bağlı yaradılmış Ukrayna qrupunun rəhbəri Yakov Poqrevnyakın «Faktı i komentarii» qəzetinin 2003-cü il 13 may tarixli nömrəsində dərc olunmuş müsahibəsində deyilir ki, suda boğulanların cəsədləri yola salınmaq üçün dəmiryol terminalına gətirilir və refrijeratorlara yığılırdı. Onların qorxudan sifətləri əyilmiş, saçları çəngə-çəngə qopmuşdu. Heydər Əliyev qəmgin-qəmgin gəzinir və tez-tez təkrar edirdi: «Deyəsən, bu yara ürəyimdə həmişəlik qalacaq!» O, əzizlərini itirmiş adamlarla görüşlərin birində valideynləri həlak olmuş 15 yaşlı oğlanı qucaqlayıb astadan dedi: «Başımıza belə bir iş gəldi. Biz əlimizdən gələni edəcəyik ki, sən ali məktəbi bitirəsən, sənə təqaüd təyin edəcəyik» [209, 278]. Bu iki fakt Heydər Əliyevin yüksək insani keyfiyyətlərin, çətin məqamda adamlara həyan olmağın, onların dərdlərini başa düşməyin nə qədər zəruri olduğunu ətrafındakılara bir daha nümayiş etdirmişdi. Komissiya baş vermiş qəzanı araşdıraraq müəyyən etmişdi ki, onun səbəbləri

hər iki kapitanın işə səhlənkarlığı, aidiyyəti idarələrin məsuliyyətsizliyi, bu sahədə mövcud olan özbaşınalıq olmuşdur. Heydər Əliyev komissiyanın iclaslarının birində demişdir: «Bizim möhkəm qənaətimizdir ki, qəza «Pyotr Vasev» yük gəmisinin kapitanı və «Admiral Naximov» teploxodunun kapitanının öz vəzifələrinə başısoyuq-cinayətkar, məsuliyyətsiz münasibətləri nəticəsində baş vermişdir».

Qara dənizdə baş vermiş bu faciə, bütövlükdə, SSRİ-də gedən mənfi meyillərin fəlakətli nəticələrini özündə əks etdirən kiçik bir epizod idi. Yerli hakimiyyətin və müəssisə rəhbərlərinin, o cümlədən gəmi kapitanlarının işə belə məsuliyyətsiz münasibəti, ümumilikdə, ölkə rəhbərliyinin mövcud vəziyyətə və öz xalqının taleyinə biganə münasibətindən irəli gəlirdi. Baş verən faciələrin ört-basdır edilməsi, insanların taleyinə etinasız münasibət sovet cəmiyyəti üçün, necə deyərlər, heç də qeyri-adi bir hal deyildi. Ölkə rəhbərliyindən heç kim, ilk növbədə, M.S.Qorbaçov dövlət başçısı kimi belə faciələrin baş verdiyi yerlərin heç birində olmamışdı. Həmin qəza baş verən dövrdə isə «yenidənqurma» adı altında nə vaxtsa qüdrətli olmuş bir ölkənin iflasını daha da sürətləndirməklə məşğul idilər. Krasnodar diyarının ruhanilərinin Heydər Əliyevin «Admiral Naximov» teploxodunda qəza üzrə fəaliyyətinə görə təşəkkürləri bu fikirləri bir daha təsdiq edir [350, v.8].

1986-cı il oktyabrın 30-da Heydər Əliyev Siyasi Büronun iclasında komissiyanın işinin yekunları haqqında məlumat vermişdi. Komissiyanın gəldiyi nəticələr əsasında müvafiq tədbirlər görülmüş, günahkarlar cəzalandırılmışdı.

Ancaq dünyanın fövqəldövlətlərindən biri olan SSRİ-ni inkişaf etdirməyə dair özünün əsaslı düşüncəsi və konsepsiyası olan bir insanın bu ölkəni dağıtmaq, onun sosial-iqtisadi əsaslarına zərbə vurmaq, malik olduğu dəyərlər sistemini məhv etmək yolunu tutmuş M.Qorbaçov komandası ilə axıra kimi yol getməsi mümkün deyildi.

VIII FƏSİL

HEYDƏR ƏLİYEVİN SSRİ DÖVLƏTİNİN ALİ SİYASİ RƏHBƏRLİYİNDƏ İŞLƏDİYİ DÖVRDƏ AZƏRBAYCAN SSR-in İNKİŞAFINA QAYĞISI

Heydər Əliyev bütün varlığı ilə Azərbaycan xalqına və torpağına bağlılığını həmişə sübut etmişdir. Hansı vəzifədə çalışmasından və harada fəaliyyət göstərməsindən asılı olmayaraq, o bunu daim açıq-aşkar büruzə vermiş, bəzən özünün ad-sanına xələl gətirə biləcəyinin də fərqinə varmayaraq, ölkəsinin və xalqının mənafeyini hər şeydən üstün tutmuşdur. Bu onun Moskvada SSRİ-nin ali rəhbərliyində çalışdığı dövrə də aiddir.

Hələ Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olduğu dövrdə respublikanın hərtərəfli inkişafını təmin etmək istiqamətində gördüyü işlər məqsədyönlü, ardıcıl və planlı xarakter daşıyırdı və gələcəyə hesablanmışdı. Azərbaycan SSR-də o dövrdə görülən nəhəng işlər ilk baxışda vəzifə borcunun yerinə yetirilməsi kimi qəbul edilə bilərdi. Lakin üstündən xeyli müddət keçdikdən sonra bu işlərin nəticəsi onların necə uzaqgörənliklə düşünüldüyünü əyani şəkildə göstərirdi. Onun böyük səyləri və bilavasitə təşəbbüsü sayəsində SSRİ hökuməti tərəfindən qəbul edilmiş bir sıra qərarlar Azərbaycan SSR-in kompleks şəkildə dirçəldilməsini və sürətli inkişafını təmin etmiş oldu. Bu qərarların qəbuluna nail olunması 1970-ci ildən başlayaraq Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının həyata keçirilməsində həlledici rol oynamışdı. 1980-ci illərdə Azərbaycan SSR-in ictimai-iqtisadi inkişafı həmin strategiyanın davamı kimi gedirdi. Heydər Əliyev bu illərdə həmin xəttin davam etdirilməsini daim nəzarətində saxlayır, ona dəstək verirdi. Lakin elə həmin illərin özündə respublika rəhbər-

liyində buraxılan səhvlər, müəyyən səhlənkarlıqlar əvvəlki dövrə nisbətən geriləmələrə şərait yaradırdı. Eyni zamanda İttifaq miqyasında olan iqtisadi problemlər, sovet rəhbərliyində dəyişikliklər də öz mənfi təsirini göstərirdi.

Heydər Əliyevin SSRİ-nin rəhbərlərindən biri olduğu müddətdə həmin istiqamətdə işlər görmək imkanların genişliyi baxımından nə qədər asan idisə, onların yerinə yetirilməsi üçün zəruri olan mənəvi-siyasi mühitin yaratdığı problemlər baxımından son dərəcə çətin idi. Çünki həmin mühitdə onun fəaliyyətinə münasibət birmənalı deyildi və çox vaxt qısqanclıqla qarşılanırdı. Hər bir hərəkəti, hər bir qərarı, müxtəlif məsələlərə münasibəti çox ciddi nəzarət altında idi. Ona irad tutmaq üçün bəhanə axtarırdılar. Lakin bütün bu çətinliklərə baxmayaraq, Heydər Əliyev öz xalqına, onun qayğılarına, problemlərinə, maraqlarına münasibətdə prinsipial mövqeyindən çəkilməmişdi.

Moskvada işlədiyi müddətdə Heydər Əliyevin Azərbaycan xalqına qayğılarından danışarkən, bir məqamı xüsusi olaraq qeyd etmək lazımdır. İnsanların, regionların, ayrı-ayrı respublikaların hər birinin, bütövlükdə, bütün sovet vətəndaşlarının maraqlarına münasibətdə o, həmişə ədalətli mövqedə dayanmış, onlara imkanları və səlahiyyətləri çərçivəsində kömək etmişdir. İnsanlar onun səmimiyyətinə inanır, çox hallarda həqiqəti bilmək, ədalətə nail olmaq üçün ona müraciət edirdilər. SSRİ-nin müxtəlif regionlarına səfərləri zamanı insanlarla ünsiyyətdə olur, onların problemləri ilə maraqlanır, iş və yaşayış şəraiti ilə tanış olur, qarşıya çıxan məsələləri hərtərəfli öyrənərək, yoluna qoymağa çalışırdı.

Milliyyətindən asılı olmayaraq, hər kəs ona xüsusi rəğbətlə yanaşır, tez-tez müraciət edirdilər. Ona görə indinin özündə də deyirlər ki, əliyevsevərlərin sayı RSFSR-də və keçmiş sovetlər ölkəsinin digər yerlərində Azərbaycan SSR əhalisindən qat-qat çoxdur. Təbii ki, belə münasibəti və məhəbbəti yalnız böyük ürək sahibi olan insanlar qazana bilər.

Çerepovets şəhərindən Nina Andreyevna Kudryayeva yazırdı: «Ölkəmizi sevən çoxları kimi, məni də onun bu günü və gələcəyi narahat edir. Mən Sizinlə görüşmək, bir sıra düşüncələrim və təkliflərim barədə Sizin fikrinizi bilmək istərdim» [345, v.52].

Kremldə Çernobıl faciəsinin müzakirəsi zamanı Heydər Əliyevin konstruktiv mövqe tutması, fəlakət barədə əhaliyə doğru-düzgün informasiyanın verilməsini tələb etməsi də təsadüfi deyildi. Buna görə də çox illər keçməsinə baxmayaraq, Rusiya Federasiyası əhalisi onu daim hörmət və məhəbbətlə yad edir. Bu məsələyə münasibətdə tutduğu mövqeyə görə o, hətta Baş katiblə və Siyasi Büronun digər üzvləri ilə mübahisəyə girməli olmuşdu. Bunun əksinə olaraq, fəlakət zonası ilə bağlı olan insanlar Heydər Əliyevin Çernobıl qəzası barədə mövqeyini rəğbətlə qarşılamışdılar. Ukrayna SSR Ali Radasının deputatı Boris Oleynik deyirdi: «Heydər Əliyevin mövqeyi yadımızdadır və biz onu qiymətləndiririk» [227].

Heydər Əliyev, xüsusilə M.S.Qorbaçovun vaxtında qeyri-rus, qeyri-slavyan və qeyri-xristian xalqlara, əyalət əhalisinə münasibətdə bəyan edilən prinsiplərin ziddinə olaraq, reallıqda hökm sürən ədalətsizliyə dözmür, bu cəmiyyəti saflaşdırmaq istəyirdi. Milli amilləri nəzərə almadan M.S.Qorbaçovun 1986-cı ilin dekabrında təxminən 25 il Qazaxıstan KP MK-nın birinci katibi işləmiş Dinmühəmməd Kunayevi Ulyanovsk Vilayət Partiya Komitəsinin birinci katibi Gennadi Kolbinlə əvəz etməsi respublikada kütləvi iğtişaşlarla nəticələnən etirazlara səbəb olmuşdu. Heydər Əliyev bu təyinata etiraz edərək, qazax xalqına münasibətdə belə bir qərarın yolverilməz olduğunu bildirmişdi. Qazaxıstan SSR-də baş verən hadisələr SSRİ məkanında məqsədyönlü şəkildə milli respublikaların hüquqlarının kobud şəkildə pozulması və bu zəmində SSRİ ərazisində qanlı münaqişələrin başlanmasına təkan oldu.

Moskvada işlədiyi müddətdə Azərbaycan SSR vətəndaşları ona məktublar yazır, çox zaman isə öz problemlərinin həllini onun bu məsələlərə müdaxiləsində görürdülər. Öz növbəsində, bu müraciətlərə Heydər Əliyev diqqətlə yanaşır, kömək etməyə çalışır və nəzarətdə saxlayır, nəticələri ilə maraqlanırdı. O illərdə SSRİ Nazirlər Soveti Katibliyi müdirinin müavini işləyən Vladimir Uxovun sözləri bunu əyani şəkildə təsdiqləyir: «Mən Heydər Əliyevin rəhbərliyi altında işləyirdim. Bizim şöbəyə onun adına çoxlu məktub gəlirdi. Təkcə Azərbaycandan ildə 6–7 min məktub alırdıq… Xahişlərə, məktublara xü-

susi həssaslıqla yanaşır, insanların problemlərinin, fərqi yoxdur, kiçik və ya böyük problemlərinin həllinə daim kömək edirdi. Xatirimdədir, bir nəfər musiqi aləti almaqda yardım göstərməsini xahiş edirdi. Heydər Əliyeviç hətta belə adi xahişi də diqqətsiz qoymadı. O, Azərbaycan KP MK ilə əlaqə yaradaraq, bu işlə kimin məşğul ola biləcəyini öyrənməyi tapşırdı. Mən də problemi həll edə bildim. Belə məktublar çox idi və o, hamıya kömək edirdi. O, respublika ilə daim sıx əlaqə saxlayır, məktubları oxuyur, məsələləri həll edirdi» [209, 297]. Heydər Əliyevin Azərbaycan SSR-ə qayğısının istiqamətlərindən biri onun bütövlükdə Azərbaycan SSR-in ictimai-iqtisadi inkişafını daim diqqət mərkəzində saxlaması və bu istiqamətdə kömək göstərməsi idi. Heydər Əliyevin SSRİ Ali Sovetinə məhz Azərbaycan SSR-dən – Bakının indiki Sabunçu rayonundan deputat seçilməsi ona bu işlərə daha fəal şəkildə təsir etmək imkanı verirdi. Seçicilərlə görüşə gələrkən, ilk növbədə, müəssisələrdə olur, onların inkişafı və genişlənməsi üçün əlindən gələni edirdi.

Azərbaycan SSR-in iqtisadi inkişafı üçün Heydər Əliyev hələ respublikaya rəhbərlik etdiyi vaxt başladığı işi davam etdirirdi. Məsələn, Azərbaycan SSR-də neft emalı sənayesinin inkişaf səviyyəsinin qorunub saxlanması, yəni Sibir neftinin artması ilə əlaqədar onun zəifləməsinə yol verməmək üçün Qroznı–Bakı Neft Kəmərinin çəkilməsi başa çatdırıldı və 1983-cü ildə istifadəyə verildi. Beləliklə, Qroznıdan gələn neft Bakının zavodlarında emal edilir və sonra hazır məhsul kimi ixrac olunurdu. Yəni respublikanın neft emalı müəssisələri tam gücü ilə işləyir, iş yerlərinin azalmasının, sənaye potensialının aşağı düşməsinin qarşısı alınırdı [226]. Qeyri-neft sektorunun əsaslarının yaradılması işi davam etdirilirdi. Hələ 1970-ci illərdə Azərbaycan SSR-də əsası qoyulmuş Məişət Kondisionerləri, Kosmik cihazların istehsalı, zavodlarının istehsal imkanları daha da genişləndirilirdi. Bilavasitə bu məsələlərdə adı çəkilməsə də, onun ecazkar təsiri hiss olunurdu.

Heydər Əliyev kənd təsərrüfatında 1970-ci illərdə təməli qoyulmuş nəhəng işlərin davam etdirilməsi üçün də əlindən gələni edirdi. Pambıq, üzüm istehsalındakı uğurların davam etdirilməsi onun diqqət mərkəzində idi. Özünün gərgin əməyi sayəsində yaratmış olduğu bu

potensialın qorunub saxlanması və daha da inkişaf etdirilməsi Moskvada fəaliyyət göstərdiyi bütün dövrlərdə onu düşündürən məsələlər sırasında olmuşdur.

M.S.Qorbaçovun «yenidənqurma» siyasətinin həyata keçirildiyi dövrdə Azərbaycan SSR-in 70–80-ci illərdə yaradılmış güclü iqtisadi potensialı məqsədyönlü dağıdıcılıq obyektinə çevriləndə o, buna müqavimət göstərməyə çalışmışdı. Lakin, bir tərəfdən, Azərbaycan SSR-də ondan sonra rəhbərliyə gəlmiş şəxslərin səhlənkarlığı, digər tərəfdən, Mərkəzdə Azərbaycan SSR-ə münasibətdə dağıdıcılıq fəaliyyəti ilə məşğul olan İttifaq hakimiyyətinin siyasəti bu güclü iqtisadi potensiala ağır zərbə vurdu. Xüsusən «antialkoqol» kampaniyası dövründə Azərbaycan SSR-in üzümçülük-şərabçılıq təsərrüfatına ağır zərbə dəydi. Böyük zəhmət bahasına yaradılmış üzüm bağlarının 70%-i məhv edildi. Bu kampaniyadan SSRİ-nin digər respublikaları da müəyyən qədər zərər çəkdi, lakin hamıdan çox zərər çəkən məhz Azərbaycan SSR oldu. Son 28 illik hadisələr sübut etdi ki, həmin kampaniyanın başlıca məqsədlərindən biri məhz Azərbaycan xalqına zərbə vurmaq idi və Heydər Əliyevin sonralar dediyi kimi, M.S.Qorbaçov komandasının başladığı «antialkoqol» kampaniyası zamanı üzüm plantasiyalarının məhv edilməsi Azərbaycan SSR iqtisadiyyatına vurulan ilk ağır zərbələr idi [325].

Uzun müddət SSRİ Dövlət Plan Komitəsinin sədri işləmiş N.Baybakov sonralar yazırdı ki, alkoqolizmlə mübarizədə tutduğu mövqeyə görə Heydər Əliyevi dəfələrlə tənqid etmişdilər [304, 248]. Azərbaycan SSR-in təkcə iqtisadiyyatı deyil, həyatının bütün sahələri Heydər Əliyevin diqqətində idi. Yuxarıda qeyd edildiyi kimi, Moskvada ali siyasi hakimiyyətdə olduğu zaman Heydər Əliyev Azərbaycan SSR-də bu vəzifəyə gəldiyi və Azərbaycan SSR-ə bilavasitə rəhbərlik etdiyi zaman hər bir sahədə gördüyü işlərin davamlılığı üçün çalışır, onların maksimum həyata keçməsinə və yaşadılmasına çalışırdı. Respublika əhalisi də bu vəziyyəti hiss edir, bütün məsələlərlə bağlı ona müraciət edirdilər.

Heydər Əliyev hələ respublikaya rəhbərlik edərkən, tələbə gənclər təhsil almaq üçün SSRİ-nin aparıcı ali təhsil müəssisələrinə göndərilirdi. Xüsusən Azərbaycan SSR ali təhsil müəssisələrində olma-

yan ixtisaslar üzrə göndərilən tələbələrin də qayğısına qalır, onların hər bir müraciətinə həssas yanaşır, Azərbaycan SSR-in gələcək inkişafı üçün vacib olan kadrların yetişməsinə xüsusi əhəmiyyət verirdi. Məsələn, 1984-cü ildə RSFSR-inn aviasiya akademiyalarının birinin kursantı Q.A.Hacıyev kosmonavtlar dəstəsinə düşmək üçün şəxsən ona müraciət etmişdi. Heydər Əliyev bu məsələ ilə ciddi məşğul olmuş və onun müsbət həllinə kömək etmişdi [347, v.143–145].

O, son dərəcə gərgin iş rejiminə baxmayaraq, imkan tapıb Moskvada işləyən azərbaycanlılarla görüşür, onların həyatı ilə maraqlanırdı. Heydər Əliyevin SSRİ-nin paytaxtında yaşayan həmvətənlərinə diqqət və qayğısı, mənəvi dayaq olması orada Azərbaycan diasporunun formalaşmasına və fəaliyyətinə güclü təsir göstərirdi [252, 34].

Moskvada işlədiyi müddətdə də Heydər Əliyev respublikada sosial problemlərin aradan qaldırılmasına qayğı ilə yanaşırdı. Onun şəxsən özünün göstərişi ilə 1985-ci ilin sentyabrında Bakıda Azərbaycan SSR Səhiyyə Nazirliyinin Analıq və Ginekologiya İnstitutu açılmışdı. Elmi tədqiqat Ana və Uşaqların Mühafizəsi İnstitutu Pediatriya İnstitutuna çevrilmişdi ki, bu da İttifaq səviyyəsində sosial yönümlü proqramın bir hissəsi olmaqla, respublikanın imkanlarının genişlənməsi demək idi [358, 95]. 1984-cü il fevralın 23-də Bakının Lenin seçki dairəsinin seçiciləri ilə görüşündə çıxışı zamanı Azərbaycan SSR-in 1983-cü ilin yekunlarına görə 14-cü dəfə Keçici Qırmızı Bayraq almasını fəxrlə qeyd etmişdi. Bu, Heydər Əliyevin hakimiyyətə birinci gəlişindən başlayaraq 1970-ci ildən etibarən Azərbaycan SSR-in hər il belə bir mükafata layiq görülməsi, əslində, boş şan-şöhrət dalınca qaçmaq, öz nailiyyətini nümayiş etdirmək üçün deyildi. Bu, İttifaq miqyasında Azərbaycan SSR-in layiq olduğu mənsəbin, onun İttifaq iqtisadi sistemində oynadığı rolun, ümumittifaq büdcəsinə başqalarından daha çox verdiyi töhfənin bir fakt kimi təsdiqi və etirafı idi. Başqa cəhətlərlə yanaşı, keçici qırmızı bayraqların alınması onun üçün daha çox imkanların açılması, bu və ya digər qlobal problemlərin həlli üçün mühüm amil idi [324].

Heydər Əliyevin Moskvada işlədiyi dövrdə Azərbaycan SSR-ə köməyi, dəstəyi daim hiss olunur və dəyərləndirilirdi. Lakin respub-

likaya bilavasitə rəhbərlik etdiyi illərdə olduğu kimi, Moskvada SSRİ-nin ali rəhbərliyindəki fəaliyyəti dövründə də öz xalqına ən başlıca xidmətlərindən biri prinsipial mövqedə duraraq, Azərbaycan xalqının maraqlarını müdafiə etməsi idi. Həmin illərdə heç kim hansısa şəkildə Azərbaycan xalqının maraqlarına təcavüz edə bilməmişdi, respublikaya qarşı açıq-aşkar şəkildə ayrı-seçkilik edilməmişdi. Belə cəhdlər olanda isə Heydər Əliyev susmamış, öz sözünü demişdi.

Azərbaycan xalqı hər bir anda Heydər Əliyevin qayğısını öz üzərində hiss edirdi. Buna konkret olaraq saysız miqdarda misallar gətirmək olar. Sonralar Heydər Əliyev deyirdi: «... Moskvada 5 ildən artıq işləyərkən yenə də, ümumiyyətlə, Azərbaycana ...himayədarlıq etmişəm» [229, 24]. Hər bir konkret vəziyyətdə problemlərin həllində, çətinliklərin aradan qaldırılmasında bilavasitə adı çəkilməsə də, onun həmin məsələlərdən xəbərdar olduğu hiss edilirdi. 1986-cı ildə Azərbaycan SSR-də baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılmasından ötrü SSRİ Nazirlər Sovetinin 1986-cı il 7 aprel tarixli 420 saylı qərarı verilmişdi. Qərara uyğun olaraq, Azərbaycan SSR-ə 15,4 mln. manat, o cümlədən tikinti işlərinə 11,4 mln. manat ayrılmışdı [408, 15–16].

Moskvada fəaliyyət göstərdiyi dövrdə Heydər Əliyevin Azərbaycan xalqına köməyindən danışarkən erməni həmlələrinin qarşısının alınmasındakı rolunu xüsusi vurğulamaq lazımdır. Hələ 1969-cu ildə Azərbaycan KP MK-ya birinci katib seçildikdən dərhal sonra bir sıra torpaqların Ermənistan SSR-ə verilməsi haqqında artıq qəbul olunmuş qərarların icrasını dayandırmış, ermənilərin arzusunu gözündə qoymuşdu. 1969–1985-ci illərdə ermənilər, faktiki olaraq, Azərbaycan SSR-ə qarşı heç bir iddia ilə çıxış edə bilməmişdilər, baxmayaraq ki, onların məkrli niyyətləri vaxtaşırı müxtəlif mənbələrdə öz əksini tapırdı. Sov.İKP MK-nın 1989-cu il aprel plenumunda çıxışında da Heydər Əliyev ona qarşı yönəlmiş əsassız ittihamlara cavab olaraq bildirmişdi ki, «mənim Azərbaycan KP MK-nın birinci katibi işlədiyim bütün dövr ərzində Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxarılması haqqında heç bir məktub, müraciət alınmayıb» [413, v.64]. Azərbaycan SSR hesabına Ermənistan SSR ərazilərini genişləndirmək arzusunda olan, daim türk dünyasına qarşı düşmənçilik mövqeyində duraraq re-

gionda özgə maraqlarına xidmət edən erməni millətçi qüvvələrinin əlqolu M.S.Qorbaçovun hakimiyyətə gəldiyi 1985-ci ilin fevralından yenidən açılır. Qondarma «erməni soyqırımının» 70 illiyinin qeyd olunması haqqında məsələ Sov.İKP MK Siyasi Bürosunun iclasına çıxarılır. Lakin açıq-aşkar siyasi cinayət xarakteri daşıyan, SSRİ – Türkiyə Cümhuriyyəti münasibətlərinə zərbə vuracaq bu məsələ keçməsə də, türk dünyasına və Azərbaycan xalqına qarşı erməni hücumlarının yeni dalğasının başlanğıcı oldu. M.S.Qorbaçovun açıq-aşkar himayəsi altında qaldırılan və tədricən gücləndirilən bu antitürk, antiazərbaycan təbliğatının Heydər Əliyevin SSRİ-nin rəhbərlərindən biri olduğu müddətdə genişlənmək və uğur qazanmaq şansı, demək olar ki, sifra bərabər idi. Lakin artıq proses başlanmışdı. Bir-birinin ardınca gələcəkdə Cənubi Qafqazda ən qanlı münaqişənin zəmini hazırlanırdı. 1985-ci il iyunun 20-də SSRİ Nazirlər Soveti «1985–1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiya edilməsi haqqında» qərar qəbul etmişdi. Qəbul edilən qərar isə Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyanın Sov.İKP İKP MK-nın Siyasi Bürosuna qondarma «erməni soyqırımı»nın 70 illiyi ilə bağlı 24 aprel tarixinin hər il SSRİ-də anım günü kimi qeyd olunması ilə bağlı ünvanladığı məktubla bağlı idi. M.S.Qorbaçov buna razılıq versə də, H.Ə.Əliyevin, N.A.Tixonovun və A.A.Qromıkonun sərt etirazları ilə qarşılaşmışdı. K.Dəmirçiyanın təklifini qəbul edən M.S.Qorbaçov H.Ə.Əliyevin kəskin etirazını gördükdən sonra onunla qarşıdurmaya getməyə cəsarət etməmiş, lakin bu münasibəti ona bağışlamamışdı. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu proses sovet hakimiyyətinin əvvəlki dövrlərində aparılmış, hazırkı qərarda isə söhbət onun davam etdirilməsindən gedirdi. Bütün mövcud olduğu dövrdə Kommunist Partiyası və SSRİ dövləti «proletar beynəlmiləlçiliyi», millətlərin «bərabərhüquqluluğu», «xalqlar dostluğu» mövqeyində dayandığını bəyan etsə də, lazım olan anda güclü bir vasitə kimi, həmin millətlərə və xalqlara qarşı istifadə etmək üçün xüsusi potensiala malik münaqişə ocaqları yaradır, gizli və riyakar siyasət yeridilirdi. Bu sırada 1965-ci ildə Ermənistan SSR-də qondarma «soyqırımı» abidəsinin ucaldılması və onun ətrafında türklərə, azərbaycanlılara, müsəlmanlara qarşı

düşmənçilik əhval-ruhiyyəsinin təlqin edilməsi «çox vacib siyasi məsələ» adı altında dünyanın müxtəlif ölkələrindən ermənilərin xəlvəti şəkildə Ermənistan SSR-ə köçürülməsi, xaricdə fəaliyyət göstərən millətçi erməni daşnak qəzetlərinə maliyyə yardımı göstərilməsi kimi tədbirlər, demək olar, birinci yerdə idi.

1986-cı ilin noyabrında Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan yenidən Sov.İKP MK Siyasi Bürosuna müraciət edərək, repatriasiya prosesinin SSRİ üçün mühüm siyasi əhəmiyyət daşıdığını vurğulamış və onun 1990-cı ilədək uzadılmasını xahiş etmişdi: «Əldə olan məlumata görə, Yaxın və Orta Şərq ölkələrində (İran, Suriya, Livan, İraq, İordaniya) yaşayan ermənilər arasında Ermənistan SSR-ə daimi yaşayış üçün gəlmək istəyənlər vardır. Repatriasiyanın vacib siyasi əhəmiyyətini nəzərə alaraq, Ermənistan KP MK SSRİ Nazirlər Sovetinin 1985-ci il 20 iyun tarixli «1985–1986-cı illərdə ermənilərin xarici ölkələrdən SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında» qərarının fəaliyyət müddətinin 1990-cı ilin sonuna kimi uzadılmasını xahiş edirik» [416, v.3].

Məktubda bu prosesin SSRİ üçün hansı siyasi əhəmiyyət daşımasından danışılmasa da, M.S.Qorbaçovun məlum sonrakı fəaliyyətini nəzərə almaqla, onun məqsədlərini təsəvvür etmək o qədər də çətin deyildir. Doğrudur, həmin vaxt hələ M.S.Qorbaçovun və onun yaxın ətrafının əsl məqsədləri hələ o qədər də aydın deyildi. Lakin sonradan pərdələnmiş şəkildə görülən bu növ işlərin nəticəsi özünü büruzə verməyə başlayır.

Partiya və dövlət arxivlərinin bağlı olması üzündən həmin məktubla bağlı nə kimi qərar qəbul edildiyini aydınlaşdırmaq mümkün olması da, onun üstündəki dərkənarlar müraciətin müsbət həllindən xəbər verir. Sov.İKP MK inzibati orqanlar şöbəsinin müdiri Savinkinin və təşkilat şöbəsi müdirinin müavini Zolotaryovun Mərkəzi Komitəyə hazırladığı təqdimatda deyilir: «Ermənistan KP MK-nın ermənilərin xarici ölkələrdən Sovet İttifaqına repatriasiyasının davam etdirilməsi haqqında məktubu ilə bağlı tapşırığa uyğun olaraq aşağıdakıları bildiririk: Sov.İKP MK-nın şöbəsi tərəfindən Sov.İKP MK-ya sovet əhalisinin bir hissəsi arasında mühacir əhvali-ruhiyyəsinin qarşısını almaq

probleminə dair təkliflər hazırlanmışdı. Bu materiallarda ermənilərin SSRİ-yə köçürülməsi məsələsinə də toxunulur» [416, v.1].

Göründüyü kimi, belə bir məktubun yazılması, ermənilərin SSRİ ərazisinə, xüsusən Ermənistan SSR-ə repatriasiya adı altında kütləvi şəkildə köçürülməsi təsadüfi xarakter daşımır, sovet dövlətinin zaman-zaman gücləndirdiyi məqsədyönlü riyakar siyasi xəttin təzahürü idi və konkret məqsədlərə xidmət edirdi. K.Dəmirçiyanın məktubunda göstərilir ki, ötən dövr ərzində Ermənistan SSR ərazisinə 230 min nəfər erməni köçürülmüşdür [416, v.3]. Məktubun ruhundan da aydın olurdu ki, yeni köçürülən ermənilər heç də kommunist əqidəli insanlar deyillər. Söhbətin guya I Dünya müharibəsi zamanı didərgin düşmüş ermənilərdən getdiyi aydın olur. Göründüyü kimi, onların ideoloji kökləri sosializm, kommunizm, beynəlmiləlçilik ideologiyası ilə deyil, qondarma «soyqırımından» qidalanan millətçi daşnak ideologiyası ilə bağlı idi.

M.Qorbaçov komandasının millətçi erməni qüvvələri və onların təşkilatları ilə şübhəli əlaqələrindən xəbər verən digər bir fakt 1986-cı ilin avqustunda K.Dəmirçiyanın müraciəti əsasında xaricdə fəaliyyət göstərən «mütərəqqi» erməni qəzetlərinə maddi yardımın göstərilməsi idi. Sov.İKP MK Katibliyinin 1986-cı il 14 avqust tarixli iclasının 19 saylı protokolunda deyilirdi: «Xaricdəki mütərəqqi erməni qəzetlərinə maliyyə yardımı göstərilməsi haqqında:

– Ermənistan KP-nin mütərəqqi erməni qəzetlərinə maliyyə yardımı göstərilməsi haqqında təklifi qəbul edilsin. «Kanç» (Livan), «Aşkar» (Fransa), «Lbarer»(ABŞ) qəzetlərinin hərəsinə hər il 14080 xarici valyuta (20 min ABŞ dolları), «Sevan» (Argentina) qəzetinə 7040 xarici valyuta, (10 min ABŞ dolları) ayrılsın;

– Maliyyə Nazirliyinə: bu məqsədlər üçün Dövlət Təhlükəsizliyi Komitəsinə hər il 60 min xarici valyuta rublu ayrılsın» [417, v.1–9].

Ermənilərin regionda gücləndirilməsi, onlarda millətçilik əhvali-ruhiyyəsinin qızışdırılması xəttini tutmuş M.S.Qorbaçov hakimiyyəti Heydər Əliyevin Siyasi Büro üzvü olduğu şəraitdə öz cinayətkar, çirkin niyyətini tam yerinə yetirə bilmirdi. Onun tədricən sıxışdırılması və son məqamda rəhbərlikdən uzaqlaşdırılmasında bu faktın rolu az ol-

mamışdır. Təsadüfi deyil ki, Azərbaycan SSR-də milli münaqişənin başlanması Heydər Əliyevin vəzifədən çıxarılmasından sonrakı dövrə təsadüf edir. Elə həmin dövrdə də Heydər Əliyev həmişə öz xalqı ilə mənəvi cəhətdən bir yerdə olmuş, onun maraqlarını daim yüksək hakimiyyət dairələrində təmsil etməyə çalışmışdır [418, v.1–11].

Artıq 1987-ci ilin axırlarından etibarən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə start verilməsində konkret addımlar atılmağa başlayır. Növbəti ilin fevralında isə Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-in tərkibindən çıxarılaraq, Ermənistan SSR-ə birləşdirilməsi haqqında Vilayət Sovetinin qərarı bu işin rəsmiləşdirilməsi istiqamətində atılan ilk addımlardan biri oldu. Qarabağ münaqişəsinin səbəbləri, onun konkret məqsədləri haqqında bu vaxta qədər çox deyilsə də, hələ də onda müəmmalı məqamlar kifayət qədər çoxdur və bunlar öz tədqiqini gözləyir. Lakin bir məsələ hamı üçün aydındır ki, o, regionda gedən demokratikləşmə proseslərinə, müstəqillik uğrunda başlayan mübarizəyə maneə olmaq, ilk növbədə isə Azərbaycan xalqının qarşısını kəsmək, onun müstəqillik iradəsini sındırmaq məqsədi daşıyırdı. Bu işdə başlıca vasitə isə əsrlər boyu sınanmış erməni xəyanətindən istifadə idi [419, v.1–8].

Əvvəlki yüksək vəzifələrində olmasa da, Heydər Əliyev bütün gücünü və enerjisini Azərbaycan xalqı əleyhinə aparılan bu siyasətin qarşısını almağa yönəltmişdi. Həmin dövrdə Azərbaycan xalqının sözünü danışan, məsələlərə əsl qiymətini verərək, onlara son qoymağı tələb edən yeganə nüfuzlu şəxs Heydər Əliyev idi. Hadisələrin təzə başladığı vaxtlarda o, imkanı çərçivəsində sovet rəhbərliyindəki şəxslərlə görüşərək, Azərbaycan xalqının mənafeyi ilə bağlı mövqeyini bildirmişdi. A.Karaulova verdiyi müsahibəsində Y.Liqaçov və G.Razumovski ilə görüşlərini, onların deyilən həqiqətlərə verdiyi reaksiyaları xüsusi olaraq qeyd etmişdi.

IX FƏSİL

HEYDƏR ƏLİYEVƏ QARŞI SİYASİ VƏ MƏNƏVİ TƏZYİQLƏR VƏ ONUN SSRİ-nin ALİ SİYASİ RƏHBƏRLİYİNDƏN UZAQLAŞDIRILMASI

1985-ci ildən başlayaraq Sovetlər İttifaqının ictimai-siyasi həyatında yeni bir meyil müşahidə edilirdi. İlk vaxtlar dövlətin təməlinin möhkəmləndirilməsi, iqtisadiyyatın sağlamlaşdırılması, ölkədə baş alıb gedən korrupsiya və rüşvətxorluğun, ictimai mülkiyyətin talan edilməsinin qarşısının alınması istiqamətində islahat təsiri bağışlayan «yenidənqurma» başlanğıcda Y.Andropovun xəttinin davamı kimi başa düşülürdü. Həmin dövrdə qəbul olunan proqramlar, bəyan edilən direktivlər bunu deməyə əsas verirdi. Lakin vaxt keçdikcə götürülmüş xəttin əsl mahiyyəti üzə çıxmağa, o vaxta qədərki iqtisadi islahatlarla «yenidənqurmanın» köklü fərqləri özünü göstərməyə başladı. İlk illərdə bu yeni xətt çərçivəsində görülən işlərin son məqsədləri hələ aydın olmasa da, onun əvvəlki iqtisadi siyasətlə daban-dabana zidd olduğu özünü göstərirdi.

Belə bir dəyişiklik, şübhəsiz, bu islahatların həyata keçirilməsində mühüm mövqedə dayanan şəxslərə münasibətdə də özünü büruzə verir, yeni komanda onun tələblərinə uyğun olmayan şəxslərlə vidalaşırdı.

«Yenidənqurma dövrü» adını almış həmin mərhələdə sovet dövlətində yaxşı nə varsa, hamısının üzərindən xətt çəkilmişdi. Müasir dövrdə nəşr olunan tədqiqatlarda o illərdə sovet siyasi, iqtisadi və mənəvi dəyərlər sisteminin dağılması, yeni dəyərlər sisteminə keçid əksər hallarda bəsit bir şəkildə təqdim edilir, bütün cəmiyyət tərəfindən birmənalı şəkildə qarşılanan müsbət hal kimi təlqin olunurdu. Əslində isə SSRİ-nin dağılması onun yaşaması və rifahı üçün həyatını həsr etmiş insanların faciəsi idi və diqqətdən kənarda qalırdı. Naqislik, mənfi hallar sosializmin mahiyyətində yox, onun zəif cəhətlərindən istifadə edən və bəyan olunmuş prinsiplərin əksinə olaraq, cəmiyyətin

mənafeyinə qarşı çıxan qüvvələrin pozucu fəaliyyətində idi. Nəhəng bir dövlətdə hakimiyyətdə olanların hərəkətləri ölkə əhalisinin qayğılarından çox-çox uzaq idi. XX əsrin 80-ci illərində baş verən proseslər çox vaxt adi, təbii hal kimi qələmə verilir və dərk edilir. Lakin, doğrudanmı, bütün sovet adamları bu yeni mühiti və şəraiti «gül-çiçəklə» qarşılayırdı? Bu tipli suallar hələ də öz cavabını, çox mətləblərə aydınlıq gətirilməsini gözləyir.

Özünün sonuna yaxınlaşan SSRİ artıq iflasının finiş xəttinə çıxmışdı. Bu mərhələdə başlıca vəzifə uzun illər üst-üstə yığılmış böhranın yetişdirdiyi süqut məqamını «gözəl şəkildə» başa çatdırmaq qalırdı ki, o da M.S.Qorbaçov və onun komandası tərəfindən həyata keçirildi. Sonuncu mərhələdə reallaşdırılan siyasi xəttin məqsədləri bəlli idi. Bu prosesdə hər kəsin özünün getmək, prosesdən uzaqlaşmaq məqamı var idi. Həmin prosesi qəbul etməyənlərə orada yer yox idi. Hakimiyyət zirvəsində təmsil olunanların da bu mənada seçimi artıq böyük deyildi: onların hər biri ya M.S.Qorbaçovun dağıdıcılıq missiyasına qoşularaq ona xidmət etməli, yaxud da gec-tez hakimiyyətdən getməli idi. Möhkəm əqidəli, öz prinsiplərinə sadiq olan xalqına sədaqətli bir insan olan Heydər Əliyev bu komandanın qarşısında böyük maneə idi. 1970–1980-ci illərdə dərin böhran keçirən sovet dövlətinin, onu addım-addım təkrarlayan dünya sosializm sisteminin iki alternativi vardı. Ya sosializmin təməl prinsiplərinin düzgün işlədiyi, həqiqətən demokratik, milli, dini, sosial, mədəni ayrı-seçkilik olmayan sağlam idarəçilik sisteminin qurulması, mənfi hallara son qoyularaq, hər kəsin haqqını təmin edən bir mühitin yaradılmasına nail olunmalı, ya da gedən proseslər sürətlənərək nəzarətdən çıxmalı və SSRİ-nin və dünya sosializm sisteminin iflasına gətirib çıxarmalı idi.

Birinci yol 1982-ci ildə seçilmişdi. Heydər Əliyevin də daxil olduğu Y.V.Andropovun komandası o həqiqətdən çıxış edirdi ki, ölkədə demokratik dəyərlərin tam bərqərar olması, qabaqcıl, dünya standartları səviyyəsində mədəni dövlətin və cəmiyyətin qurulması üçün, ilk növbədə, özbaşınalığın qarşısı alınmalı, mənfi halların kökü kəsilməli, ölkə ictimai-iqtisadi, siyasi və mənəvi cəhətdən saflaşmalıdır. Lakin bir sıra obyektiv və subyektiv səbəblər üzündən bu xətti davam etdirmək mümkün olmadı. 1985-ci ildə hakimiyyətə gələn M.S.Qorbaçov isə ikinci yolu seçdi. Onun məntiqi nəticəsi isə SSRİ-nin və

dünya «sosializm sistemi»nin iflasa uğraması, bu günə qədər davam edən qanlı münaqişələrə rəvac verilməsi oldu.

SSRİ-nin hamı tərəfindən qəbul edilən nüfuzlu rəhbərlərindən biri səviyyəsinə yüksəlmiş Heydər Əliyevin şəxsiyyəti sadə sovet adamlarında, əqidəsi düz olan partiya və dövlət xadimlərində, xüsusilə öz yerində vicdanla çalışan yüksək vəzifəli təsərrüfat rəhbərləri, elm və mədəniyyət adamlarında, bütün ziyalılarda rəğbət hissi ilə qarşılanırdısa, onun nüfuzundan, işgüzarlıq qabiliyyətindən, möhkəm iradəsindən vahimələnən rəqiblərini qorxuya salırdı. Bu insanlar imkan düşdükcə, onun nüfuzuna xələl gətirməyə çalışırdılar. M.S.Qorbaçov onun simasında özünə ciddi rəqib görür, onun olduğu yerdə öz çirkin və cinayətkar planlarını həyata keçirməyə cürət eləmirdi. Dövlət Plan Komitəsinin keçmiş sədri N.Baybakov yazırdı: «Əliyev hər hansı bir qərara gəlməzdən öncə onu diqqətlə ölçüb-biçir, problemi incəliyinə qədər öyrənir, mütəxəssislərlə məsləhətləşir və yalnız bundan sonra qərar qəbul edirdi. Qərar qəbul edəndən sonra isə mütləq onun yerinə yetirilməsini axıra qədər tələb edirdi» [303, 57–58].

Bu keyfiyyət Heydər Əliyev fəaliyyətini xarakterizə edən cəhətlərdən biri idi. Onun başqa keyfiyyətləri ilə yanaşı, bu qətiyyəti və işgüzarlığı Kremlin bu cür qabiliyyəti olmayan digər sakinlərində qısqanclıq yaradırdı.

1987-ci ilin oktyabrında SSRİ dövləti rəhbərliyinin Heydər Əliyevi «səhhətinə görə» istefaya göndərmək qərarı Mərkəzin Azərbaycan xalqına qarşı riyakar siyasətinin həyata keçirilməsi yolunda ilk addım oldu, erməni millətçilərinin və onların Kremldəki havadarlarının əl-qoyunu açdı. Heydər Əliyevə qarşı çirkin təbliğat və təqib kampaniyasına başlanıldı. Əslində, bu, hələ xeyli əvvəl – M.S.Qorbaçovun hakimiyyətə gəldiyi 1985-ci ildən başlanmışdı. İlk vaxtlar öz əsl cinayətkar niyyətlərini gizli saxlayan və yalançı sözçülüklə pərdələnən M.S.Qorbaçov Heydər Əliyevə qarşı qərəzli münasibətini tədricən büruzə verirdi. M.S.Qorbaçov onu öz konstruktiv mövqeyi və dəmir məntiqi ilə qorxudan Heydər Əliyevi Kremldən uzaqlaşdırmaq üçün hər cür vasitədən istifadə edirdi. Bu mənada, Heydər Əliyevin 1987-ci ilin mayında qəflətən «xəstələnməsi», daha doğrusu, xəstələndirilməsi və bir müddət xəstəxanada yatmağa məcbur olması faktının özü də bu günə qədər tam aydınlaşdırılmamış məsələ kimi qalır

və M.S.Qorbaçovun cinayətkar planlarının mərhələlərindən biri kimi tədqiq edilməlidir.

Sov.İKP MK-nın Baş katibi postunu tutduqdan sonra ilk vaxtlar onun ətrafındakı güclü şəxslərdən, o cümlədən Heydər Əliyevdən canını qurtarmaq arzusu tədricən özünü büruzə versə də, o, hələ buna cürət etmirdi. Boris Yeltsin sonradan V.Şerbitskiyə münasibətdə M.S.Qorbaçovun planlarından danışarkən deyirdi: «Qorbaçov ona toxunmaqdan qorxurdu, necə ki, bir vaxt Əliyevlə məsələni həll etmək istəmirdi». Lakin gizli şəkildə onun əleyhinə ola biləcək materiallar toplanılır, Azərbaycan SSR-də işlədiyi illərdə müxtəlif səbəblər üzündən ondan narazı qalmış, vaxtilə cəzalandırılmış adamlar səfərbər edilir, onların Heydər Əliyevdən şikayət məktubları təşkil edilirdi. Özlərini günahsız qurbanlar sifətində təqdim edən bu adamlar, Heydər Əliyevin son illərdə baş verən bütün problemlərin səbəbkarı olduğunu iddia edirdilər.

1987-ci ilin axırında Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən azad edildikdən sonra bir müddət dövlət müşaviri vəzifəsində saxlanılsa da, 1988-ci ilin payızında bu vəzifədən də çıxarıldı. Onun vəzifədə olarkən istifadə etdiyi imtiyazlar ləğv edildi, yaşadığı bağ evi geri alındı. Oğlu İlham Əliyev müəllim kimi fəaliyyət göstərdiyi Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda işdən azad edildi. Daimi təqiblər, hər addımda yaradılan maneələr onun ailəsini izləyirdi. 1989-cu ilin aprel plenumunda isə o, 100-dən artıq Mərkəzi Komitə üzvü ilə birlikdə üzvlükdən çıxarıldı. Hər dəfə həlledici bir hadisə ərəfəsində isə mərkəzi və yerli qəzetlərdə yalan və böhtanlarla dolu məqalələr dərc edilir, onu susdurmaq, iradəsini qırmaq üçün müxtəlif təzyiqlərə əl atırdılar. Onunla bağlı olan bütün hadisələr saxtalaşdırılır, yalan və böhtanlar yayılırdı.

Heydər Əliyevi Qazaxıstan SSR və Özbəkistan SSR-in keçmiş rəhbərləri Dinmühəmməd Kunayevin və Şərəf Rəşidovun vəziyyətinə salmaq üçün ən iyrənc vasitələrdən istifadə olunurdu. M.S.Qorbaçov 1970-ci illərdə SSRİ-dəki durğunluqdan danışanda, Azərbaycan SSR-in istisna təşkil etməsindən xəbəri var idi və bu istisnanın «günahkarının» Heydər Əliyev olduğunu yaxşı bilirdi. Sovet rejiminin xüsusiyyətlərini dərindən bilən, nadir şəxsi keyfiyyətləri sayəsində ölkənin ən nüfuzlu

rəhbərləri sırasına daxil olan, nəzəri hazırlığı, natiqlik məharəti və əməli fəaliyyəti ilə Siyasi Büroda da hamıdan seçilən, yüksəkdə dayanan, qəlbində Azərbaycan sevgisi gəzdirən bir türk, müsəlman oğlunun daha nələr edə biləcəyini yaxşı anlayırdı. Ermənipərəst, Azərbaycan xalqına qarşı xəyanətkar mövqeyi sonralar, «Qarabağ problemi»ni dəstəkləyərkən üzə çıxan M.S.Qorbaçov – Sergey Baburinin təbirincə desək, – «hakimiyyət piramidasının zirvəsində təsadüfi olan adam» Heydər Əliyevin Kremldə qalmasını özünə bağışlaya bilməzdi [230, 17–18]. 1988-ci il sentyabrın 21-də «Literaturnaya qazeta»da Arkadi Vaksberqin «Gurultulu alqışlar», oktyabrın 23-də isə «Sosialistiçeskaya industriya» qəzetində «Klanın əsirliyində», 1990-cı il fevralın 4-də «Pravda» qəzetində «Əliyevçilik və ya xoş əyyamlar üçün göz yaşları» adlı iftira və böhtanlarla dolu məqalələr çap olundu. Lakin bu məqalələri təşkil edənlərin əksinə olaraq, vicdanlı insanlar qərəzli yazıları qəbul etmirdi. Arkadi Vaksberq «Gurultulu alqışlar» məqaləsində Azərbaycan KP MK-nın 1978-ci ildə keçirilmiş plenumunda baş verən prosesləri yada salmağa, onlara yeni qiymət verməyə çalışır və həmin plenumda tənqid edilərək məsuliyyət məsələsi qoyulmuş respublika prokuroru Q.Məmmədovun təmizə çıxarılmasına, Heydər Əliyevin respublikadakı fəaliyyətinə kölgə salmağa cəhd edilirdi. Məqalənin özündən onun xüsusi hazırlanmış material əsasında yazıldığı hiss olunurdu. Heydər Əliyev «Literaturnaya qazeta»ya və digər mətbu orqanlara müraciət etsə də, ona həmin yazını təkzib etmək imkanı verməmişdilər.

1970-ci illərdə Azərbaycan SSR-in Baş prokuroru olmuş Q.Məmmədov 1980-ci illərin axırlarında partiya sıralarına bərpa edilmiş, elə həmin vaxtda da «Moskovskiye novosti» qəzetinə müsahibəsində, Heydər Əliyev haqqında əsassız ittihamlar irəli sürmüşdü. Sonralar Heydər Əliyev verdiyi müsahibədə dəqiq faktlarla bu ittihamların əsassızlığını sübut etmişdi: «Pozuntulara yol vermiş şəxslərin bəziləri indi baş qaldırmışlar, özlərini keçmişin qurbanları kimi qələmə verirlər. Əslində isə haqlı cəzaya görə məndən qisas alırlar. Təəssüf ki, onlar respublikanın indiki rəhbərliyinin dəstəyini alırlar. Düşünürəm ki, bu cür subyektiv yanaşma yaxşı nəticələrə gətirib çıxarmayacaq» [327].

Heydər Əliyev ona qarşı mətbuat səhifələrində aparılan böhtan kampaniyasına 1989-cu il aprelində MK üzvlüyündən çıxarıldığı ple-

numda hamı qarşısında öz etirazını bildirmişdi : «Son zamanlar mətbuatda Azərbaycan KP MK-nın birinci katibi olduğum vaxt mənim işimə tənqidi qiymət verən yazılar çıxmışdır. Əgər onlar obyektiv xarakter daşısaydı, sağlam əsasa malik olsaydı, mən haqlı hesab edərdim. Lakin onların heç biri olmadığından, bu, məndə etiraz hissi doğurur, mənəvi cəhətdən sarsıdır. Mən onları qərəzli, qeyri-obyektiv, sübutsuz ittiham kimi rədd edirəm» [413, v.64].

Həmin dövrdə Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi illərindəki fəaliyyətinə kölgə salmaq istəyənlərin ittihamlarının xeyli hissəsi o vaxt guya Dağlıq Qarabağın inkişafında problemlərin olması və onlara kifayət qədər diqqətin yetirilməməsi barədə idi. Heydər Əliyev müxbirin verdiyi suala cavabında faktlar və rəqəmlər əsasında həmin ittihamların əsassızlığını, bununla da Dağlıq Qarabağ ətrafında yaradılmış problemin qondarma olduğunu, onun Dağlıq Qarabağda yaşayan insanların maraqlarına xidmət etmədiyini faktlarla sübut etmişdi [317].

O, cavabında tutarlı dəlil kimi, Sov.İKP MK-nın 1988-ci ildə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafı haqqında qəbul etdiyi qərarda verilmiş qiyməti xatırlatmışdı. Həmin sənəddə göstərilirdi ki, Sovet İttifaqının bütün xalqlarının köməyi ilə Dağlıq Qarabağ Muxtar Vilayəti sosial-iqtisadi inkişaf sahəsində əhəmiyyətli nailiyyətlər əldə etmişdi. 1970–1985-ci illər ərzində sənaye istehsalının həcmi 3 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 1,5 dəfə artmışdı. DQMV sosial iqtisadi inkişafın göstəricilərinə görə Azərbaycan SSR və Ermənistan SSR-in ümumrespublika göstəricilərini üstələyir. Vilayət 1970–1980-ci illərdə daha sürətlə inkişaf etmiş, həmin dövrdə oraya dəmir yolu xətti çəkilmiş, aeroport işə salınmışdır ki, bu da onlara bütün ətraf ərazilərlə sıx əlaqə saxlamağa imkan vermişdir. Üzüm istehsalı 1970-ci ildəki 50–60 min tondan 1980-ci ildə 120–130 min tona qaldırılmışdır. Heyvandarlıq məhsulları istehsalı həmin dövr ərzində 2 dəfədən çox artmışdır. Su anbarı, zavod və fabriklər işə salınmışdır.

Dağlıq Qarabağ münaqişəsi qondarma olduğu kimi, onun istiqamətləndirildiyi məsələlər də regionun problemlərindən uzaq olmuşdur. Bu problemdən M.Qorbaçov rəhbərliyinə lazım olan bütün məqamlarda vasitə kimi istifadə edilmişdir. Bu məsələdə Heydər

Əliyevin də ittiham edilməsi həmin qəbildəndir və heç də təəccüb doğurmur. M.S.Qorbaçovun köməkçisi olmuş Anatoli Çernyayevin xatirələrində yazdığı kimi, Heydər Əliyevə qarşı istifadə etmək üçün hər hansı fakt əldə etmək üçün Baş katibin özünün şəxsi göstərişi ilə onun o dövrə qədərki fəaliyyəti, xüsusən də Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövr dərindən araşdırılır, özlərinin etiraf etdikləri kimi, «onun ayağının altını möhkəm qazırdılar». Belə bir niyyət üçün tutarlı bir şey ələ keçməyəndə, qondarma məsələlər, qurama faktlar kara gəlirdi [435].

Heydər Əliyevə qarşı başlanmış kampaniya çərçivəsində SSRİ Dövlət Təhlükəsizliyi Komitəsindən tutmuş, SSRİ Prokurorluğunun xüsusi qruplarına qədər saysız-hesabsız strukturlar səfərbər olunmuşdu. 1988-ci ilin sonunda Azərbaycan SSR-ə bu orqanların 1500 nəfər nümayəndəsi ezam olunmuşdu. Lakin onlar nə qədər «qazsalar»da, özlərinin rəzil niyyətlərinə çatmaq üçün lazımi faktları əldə edə bilmədilər, çünki belə faktlar, sadəcə, yox idi [252, 36].

Heydər Əliyevin aprel plenumundakı çıxışı sükutla qarşılansa da, bir neçə gün sonra, «Sosialistiçeskaya industriya» qəzetinin 30 aprel tarixli sayında Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Azərbaycan SSR tərkibindən çıxararaq sonrakı cinayətkar münaqişənin əsasını qoymuş DQMV-nin Xüsusi İdarə Komitəsinin sədri Arkadi Volskinin müsahibəsi dərc edildi. Bu yazıda ermənipərəst M.S.Qorbaçovun başçılığı ilə Azərbaycan xalqına qarşı yönəldilmiş qatı düşmənçilik siyasətini ört-basdır etmək üçün münaqişənin bütün günahını Azərbaycan xalqının, xüsusilə də 70–80-ci illərdə respublikaya rəhbərlik etmiş Heydər Əliyevin üzərinə atmağa cəhd göstərilirdi. Bu, bir tərəfdən, M.Qorbaçova və onun komandasına öz cinayətlərini ictimaiyyətdən gizlətmək məqsədi daşıyırdısa, digər tərəfdən, Heydər Əliyev kimi güclü bir şəxsiyyəti hadisə və proseslərdən təcrid etmək, onun təsirini minimuma endirmək, bununla da Azərbaycan xalqını başsız qoyaraq, orada riyakar planlarını həyata keçirmək üçün zəmin yaratmaq idi.

Heydər Əliyev isə plenumdakı çıxışında Dağlıq Qarabağda başlanmış münaqişənin kökündə sosial-iqtisadi səbəblərin dayanmadığını, bu regionun ümumi inkişaf sürətinin Azərbaycan SSR və Ermənistan SSR göstəricilərindən yuxarı olduğunu faktlar və dəlillərlə əsaslandırmışdı. O, qətiyyətlə bildirmişdi ki, onun dövründə münaqişə

üçün heç bir əsas olmamışdır və heç kim Dağlıq Qarabağ ərazisinin Azərbaycan SSR-dən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi tələbini irəli sürməmişdir. Bir sıra millətçi əhval-ruhiyyəli ermənilər haradasa planlar hazırlasalar da, Dağlıq Qarabağın erməni əhalisi onları müdafiə etməmişdi. Unutmaq lazım deyil ki, «yenidənqurma»ya qədər Zaqafqaziyada (Cənubi Qafqazda) ermənilərlə azərbaycanlılar arasında heç bir problem olmamışdır: «Azərbaycan KP MK-nın birinci katibi postunda işlədiyim 14 il ərzində mən hər il Dağlıq Qarabağda olmuşam və bu vilayətdən heç bir kəs mənim qarşımda elə bir məsələ qoymamışdır ki, DQMV-ni Azərbaycanın tərkibindən çıxarıb Ermənistana vermək lazımdır. Heç kim, başa düşürsünüzmü?! Ermənistanda ayrı-ayrı millətçi əhvali-ruhiyyələr var idi, orada kimlərsə belə planlar qururdular, lakin onlar DQMV əhalisi tərəfindən dəstəklənmirdilər» – söyləyərək ona böhtan atanlara sərt cavab vermişdi. Həmin fikri o dövrdə SSRİ DTK sədrinin birinci müavini işləyən Filip Bobkov da öz kitabında təsdiq edirdi ki, bu illərdə Azərbaycan SSR-də heç bir millətlərarası münaqişə yox idi [413, v.63–64].

1990-cı ilin yanvarında Bakıya qoşun yeridilərək dinc əhaliyə divan tutulanda, Moskvada «ev dustağı» şəraitində yaşayan Heydər Əliyev özünün və ailəsinin həyatı üçün yaranmış real təhlükəyə baxmayaraq, Azərbaycan SSR-in daimi nümayəndəliyinə gəlib orada M.S.Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayətilə bağlı kəskin bəyanatla çıxış etdi. O, bu qanlı faciə ilə əlaqədar xalqına başsağlığı vermiş, eyni zamanda Azərbaycan SSR-də baş verən hadisələrin hüquqazidd, demokratiyaya yad, humanizm prinsiplərinə və hüquqi dövlət quruculuğuna tamamilə zidd olduğunu bildirərək, qırğın törədənlərin hamısının layiqincə cəzalandırılmasını tələb etmişdi. Elə həmin vaxt Heydər Əliyev Azərbaycan KP MK-ya, Ali Sovetə və Nazirlər Sovetinə Azərbaycan xalqına ünvanlanmış teleqram göndərərək, bu ağır məqamda öz xalqı ilə bir yerdə olduğunu bir daha bəyan etmişdi. Onun Azərbaycan xalqına ünvanladığı teleqramında deyilirdi: «Azərbaycan xalqına!

Bakıya çoxlu insanın ölümünə səbəb olmuş qoşun yeridilməsi ilə bağlı xalqımıza üz vermiş faciədən dərin ağrı hissi ilə xəbər tutdum. Bizim üçün kədərli olan bu gündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Mən

törədilmiş hərəkəti pisləyirəm, onu antihumanist, antidemokratik, hüquqazidd hesab edirəm. Bu ağır saatda sizi təmkinliliyə, həmrəyliyə və birliyə çağırıram. Xahiş edirəm, mənim teleqramımı respublika mətbuatında dərc edəsiniz, radio, televiziya ilə verəsiniz və matəm mitinqlərində səsləndirəsiniz. Heydər Əliyev. 21 yanvar 1990-cı il».

1990-cı ilin yanvarında Heydər Əliyevin öz xalqının ağır günündə susmaması, baş vermiş hadisəyə düzgün qiymət verməsi və bununla da sovet dövlətinin və Kommunist Partiyası rəhbərlərinin cinayətlərini ifşa etməsi ona qarşı dərhal yeni hücumlarla müşayiət olundu. 1990-cı ilin fevralında, Sov.İKP MK-nın növbəti plenumundan bir gün əvvəl «Pravda» qəzetində «Əliyevçilik və ya xoş əyyamlar üçün göz yaşları» adlı yalan və böhtanla dolu məqalə dərc edirdi. Onun qəzetdə çıxması elə planlaşdırılmışdı ki, plenumda həmin söhbət davam etdirilsin, Heydər Əliyevi cəzalandırmaq, ləkələmək, onun iradəsini qırmaq və beləliklə, siyasi fəallıqdan uzaqlaşdırmaq məqsədi daşıyan məqalənin müəllifi kimi tibb elmləri doktoru V.M.Əfəndiyev göstərilmişdi. Lakin onun bu məqaləni yazmadığını və onun qurama olduğu barədə Sov.İKP MK-ya, «Pravda» qəzetinə və Heydər Əliyevin özünə teleqram göndərməsinə baxmayaraq, qəzet onun bu təkzibini verməkdən imtina etmişdi.

Heydər Əliyev özü də bu məqalədə deyilənləri təkzib etmək üçün dəfələrlə partiya və ali dövlət orqanlarına müraciət etsə də, ona bu imkan verilməmişdi.

1990-cı il fevralın 5-də Sov.İKP MK plenumunda M.Qorbaçov öz çıxışında Dağlıq Qarabağ münaqişəsi haqqında danışarkən, öz törətdiklərini başqalarının üstünə atmağa, baş verənləri guya əvvəlki illərdə buraxılmış səhvlərlə izah etməyə, Azərbaycan SSR-in 1970–1980-ci illərdəki rəhbərlərini, o cümlədən Heydər Əliyevi günahlandırmağa cəhd göstərmişdi [414, v.6].

Azərbaycan SSR-ə edilən təzyiqlər artdıqca, ona qarşı törədilən cinayətlər dərinləşdikcə, Heydər Əliyevə qarşı da böhtan xarakterli hücumlar güclənirdi. Bu iki məsələnin arasında sıx əlaqə var idi. Təsadüfi deyildir ki, Azərbaycan xalqına qarşı başlanan açıq erməni təcavüzü Heydər Əliyevin vəzifəsindən çıxmasından az sonra başlandı. Bununla yanaşı, SSRİ ali siyasi hakimiyyətində çalışdığı son illərdə Heydər Əliyevin fəaliyyətinin müxtəlif dövrləri, xüsusən də, Azər-

baycan KP MK-sına rəhbərlik etdiyi dövrləri barəsində böhtan xarakterli məktublar təşkil edilirdi. Həmin məktublar onun Siyasi Büro üzvlüyündən təqaüdə göndərilməsi üçün bəhanə rolunu oynayırdı. 1990-cı il yanvar hadisələrindən sonra yenidən fəal şəkildə ictimai-siyasi proseslərə qoşulan Heydər Əliyevə qarşı təzyiqlərin güclənməsinə baxmayaraq, o, Azərbaycan SSR-ə qayıtmağa və xalqının bu ağır günlərində onunla bir yerdə olmağa, qarşılaşdığı problemləri həll etmək üçün öz gücünü sərf etməyə qərar vermişdi. Buna görə də dağılmaq mərhələsinə qədəm qoymuş və öz ictimai-iqtisadi və siyasi simasını itirməkdə olan SSRİ dövlətinin rəhbərliyi və onun Azərbaycan SSR-də olan təmsilçiləri Heydər Əliyevin fəal siyasi fəaliyyətə qayıtmasını özləri üçün böyük bir təhlükə kimi görürdülər. Onlar çox gözəl başa düşürdülər ki, Heydər Əliyevə qarşı nə qədər böhtan kampaniyası aparsalar da, onu Azərbaycan xalqının qəlbindən silmək, ona olan münasibəti dəyişmək mümkün deyildir. Onun Vətənə, xalqının yanına qayıtması, ona qovuşması bu vaxta qədər Azərbaycan xalqına münasibətdə yeritdikləri cinayətkar siyasətin qarşısının alınması demək idi. Uzun müddət başsızlıq və pərakəndəlik ucbatından zəiflədilmiş, təcavüzə məruz qoyulmuş Azərbaycan xalqının öz lideri ilə yenidən birləşməsi onu gücləndirə bilir. Belə olan halda isə onun azadlığa aparan yolunu kəsmək və müstəqillik iradəsinə mane olmaq qeyri-mümkün olardı. Bu xalq artıq böyük qurbanlar vermiş və tarixdə dəfələrlə müstəqil dövlət yaratmaq iradəsini təsdiq etmişdi.

Azərbaycan xalqının Heydər Əliyev kimi liderə malik olmasının əhəmiyyətini onun düşmənləri çox gözəl başa düşür, buna görə də onun Vətənə qayıtmasına hər vasitə ilə əngəl törətməyə çalışırdılar. SSRİ rəhbərliyinin və o dövrdə Azərbaycan SSR-də hakimiyyətdə olan kommunist rəhbərliyinin qorxusu əsassız deyildi. 1990-cı ildə Naxçıvan MSSR seçiciləri onu Azərbaycan SSR Ali Sovetinə deputat seçmişdilər. Bununla əlaqədar ona zənglər edərək hədələyir və onun Vətənə qayıtmasının qarşısını almağa çalışırdılar. Bu hədələr həm SSRİ rəhbərliyi tərəfindən, həm də Azərbaycan SSR rəhbərliyi tərəfindən təşkil edilirdi. Onların hədələri bir nəticə verməyəndə isə açıq terrordan belə çəkinmədilər. Heydər Əliyevin Bakıya qayıtması ərəfəsində «Azərnəşr»in direktoru Əjdər Xanbabayevin öldürülməsi vəziyyətin nə qədər təhlükəli olduğunu bir daha sübut etdi.

Nəhayət, Heydər Əliyev ona qarşı yaradılmış bütün maneələri keçərək, 1990-cı ilin iyulunda Vətənə dönməyə müyəssər oldu. Lakin Bakıda təzyiqlərin davam etdiyi üçün o, Naxçıvan şəhərinə getməyə və öz siyasi fəaliyyətini yeni şəraitdə başlamağa qərar verdi.

1991-ci ilin iyulunda Heydər Əliyev Sov.İKP sıralarından çıxmaq barədə Moskvada 1982-ci ildən qeydiyyata dayandığı ilk partiya təşkilatına müraciət etdi. Bu sənəd Heydər Əliyevin baş verən bütün proseslərə bir dövlət xadimi kimi münasibətini, prinsipial mövqeyini özündə əks etdirir. Orada əldə olunan başlıca nəticələrdən biri o vaxtkı M.S.Qorbaçov hakimiyyətinin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin genişlənməsində maraqlı olduqlarını faktlarla sübut etməsi idi: «Əminəm ki, partiya rəhbərliyi istəsəydi, üzdəniraq Qarabağ problemi ətrafında milli münaqişənin qarşısını hələ 1987-ci ildə, təzəcə başladığı vaxt ala bilərdi, istər Azərbaycan xalqı üçün, istərsə də erməni xalqı üçün dəhşətli fəlakət və müsibətlər gətirmiş qarşıdurmanın, qan tökülməsinin daha da dərinləşməsinə yol verməzdi. Deməli, bu münaqişə siyasi Mərkəzə lazımdır» [404].

Heydər Əliyev bu qərarı ilə sovet dövlətinin və Kommunist Partiyasının o vaxtkı rəhbərliyinə son və qəti cavabını verdi. Qısa bir müddətdən sonra bu deyilənlərin həqiqət olduğu əyani şəkildə təsdiq edildi. Moskvada başlayan avqust qiyamı, onun ardınca partiyanın buraxılması və nəhayət, SSRİ-nin dağılması dağıdıcı «yenidənqurma» siyasətinin məntiqi nəticəsi oldu.

Heydər Əliyevin Vətənə dönməsi və yenidən böyük siyasətə qayıtması gələcək müstəqil Azərbaycan Respublikasının parçalanıb məhv olmaqdan xilasının çətin və mürəkkəb yolunun başlanğıcı demək idi. Bu, həm də ona qarşı mübarizə üçün, sözün həqiqi mənasında, geniş cəbhə yaratmış erməni millətçilərinin məğlubiyyəti demək idi və onlar özləri də sonralar bunu etiraf etməyə məcbur oldular.

Heydər Əliyevin siyasi iradəsini qıra bilmədikləri kimi, onu xalqından ayırmağa Sovet dövlətinin yeni komandasının gücü çatmadı. Yaradılmış bütün maneələrə, təqiblərə və təzyiqlərə baxmayaraq, Heydər Əliyev 1990-cı il yanvar faciəsi günlərində öz xalqına qovuşaraq cinayətkar İttifaq hakimiyyətini Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərdə ittiham edir. Bundan sonra ona qarşı olan təzyiqlər və təqiblər güclənsə də, onun öz ölkəsinə qayıdaraq ölkəsinin

xilası və yenidən dirçəlişi naminə siyasi fəaliyyətə başlamasına mane ola bilmir [414].

Heydər Əliyevin 1991-ci il iyulun 19-da Sov.İKP sıralarını tərk etməsi haqqında ilk partiya təşkilatına yazmış olduğu müraciət həm Azərbaycan xalqının maraqlarının yüksək səviyyədə qabardılaraq ölkə rəhbərliyi qarşısında qaldırılması, ona qarşı aparılan ayrı-seçkilik və düşmənçilik siyasətini ifşa etmək, həm də Sov.İKP-nin həmin dövrdə yeritdiyi antixalq, qərəzli və uğursuz siyasətin mahiyyətini açıq-aşkar şəkildə bəyan edilməsi baxımından böyük əhəmiyyət kəsb edir: «Məndə Sov.İKP-dən çıxmaq məsələsi hələ 1990-cı il 20 yanvarda Mərkəzin siyasi rəhbərliyinin və Azərbaycan Kommunist Partiyası MK-sının Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüzlə bağlı ortaya çıxmışdı. ... Öz çıxışlarımda bu qeyri-humanist, qeyri-konstitusion, qeyri-qanuni aktı pisləyərək, mən ümid edirdim ki, Sov.İKP MK, Azərbaycan KP MK bu cinayəti açacaq, cinayətkarları aşkar edəcək. ... Bu çıxışa cavab olaraq mənə qarşı «Pravda» qəzetinin başlamış olduğu və partiyanın mətbu orqanları tərəfindən gücləndirilmiş təqiblər başladı. Mənim elə həmin kütləvi informasiya vasitələrində uydurma faktları əsaslı şəkildə təkzib etmək üçün bütün cəhdlərim əbəs idi. Yenidənqurmanın əsas nailiyyəti kimi təqdim edilən aşkarlığın praktikada birtərəfliliyi məlum oldu» [404].

Həmin müraciətdə digər səbəb kimi hakimiyyətin bəyan etdiyi demokratik prinsiplərin ziddinə olaraq Azərbaycanda ucdantutma repressiyaların həyata keçirilməsi, fövqəladə vəziyyətin elan olunduğu şəraitdə seçkilərin və referendumların keçirilməsi göstərilir: «Bütün cəmiyyətin demokratikləşdiyi, siyasi azadlıqların və plüralizmin elan edildiyi dövrdə Azərbaycanda respublikanın ərazi bütövlüyünü müdafiə etmək və cəmiyyəti demokratikləşdirmək üçün 1988-ci ildə qalxmış geniş demokratik hərəkat, Sov.İKP MK-nın rəhbərliyi altında Azərbaycan KP MK-nın gücü ilə inadkarcasına boğulur. Bu illər ərzində siyasi motivə görə çox adamlar cəzalandırılıb. İl yarımdır ki, Azərbaycanın iki milyonluq paytaxtı heç bir əsas olmadan fövqəladə vəziyyət rejimində yaşayır. Məhz belə bir şəraitdə respublika Ali Sovetinə mənfur «demokratik» seçkilər və İttifaqın saxlanmasının xeyrinə əvvəlcədən müsbət nəticəsi olan referendum keçirilmişdir. Fövqəladə vəziyyət şəraitində hər hansı demokratiyanın

olmasına və xalqın öz iradəsini azad ifadə etməsinə ümid etmək sadəlövhlük olardı» [404].

Bütün bunlar böyük Azərbaycan xalqının və onun dahi övladının məğlubedilməz olduğu fikrini bir daha təsdiq edir. Onun keçdiyi şərəfli həyat yolu Azərbaycan xalqının dövlət orqanizmi və dövlət yaratmaq iqtidarına malik olduğu, onun yaratdığı Azərbaycan dövlətinin müstəqilliyinin əbədi olacağı fikrinin böyük həqiqət olduğu sübuta yetirilmişdir. Müasir Azərbaycan Respublikası dövləti bunun bariz nümunəsidir.

SON SÖZ
və ya
DAHİ ŞƏXSİYYƏTİN VƏTƏN VƏ XALQ NAMİNƏ MÜBARİZƏ YOLU

XX yüzillikdə dəfələrlə istiqlal savaşına qalxmış Azərbaycan xalqı, nəhayət, əsrin sonunda öz tarixi torpaqlarının bir hissəsində – Şimali Azərbaycanda qədim dövlətçilik ənənələrini dirçəldə bildi. Azərbaycan yenidən siyasi varlığa çevrildi. Bu gün dünya birliyində Azərbaycan Respublikası adlanan ölkəmiz qlobal miqyasda ən sürətlə inkişaf edən və sayılıb-seçilən dövlətdir. Müstəqilliyimizə qənim kəsilən xarici qüvvələrin və onların daxildəki əlaltılarının bitib-tükənməyən məkr, hiylə və qəsdlərinə baxmayaraq Azərbaycan dövləti artıq iyirmi iki ildir ki, yaşayır və getdikcə daha da qüvvətlənir. Hüquqi, demokratik, dünyəvi dövlət quruculuğundakı uğurlarımız göz qabağındadır. Bu gün xalqımız sarsılmaz bir inamla yaşayır: müstəqilliyimiz sarsılmazdır, dönməzdir, dövlətimiz əbədiyyətə qədər yaşayacaqdır!

Azadlıq, müstəqil dövlət halında yaşamaq hər bir xalqdan ötrü, o cümlədən bizim xalqımız üçün ən böyük xöşbəxtlikdir, misilsiz nemətdir. Çünki, dövləti olmayan xalq məhvə məhkumdur. Məhz buna görə də qədirbilən xalqımız ilk növbədə öz dahi oğluna – Heydər Əliyevə minnətdardır. Hər bir Vətən övladına gün kimi aydındır ki, əgər XX yüzilliyin sonunda Ulu Tanrı **şəxsiyyət** və **zaman** problemini Azərbaycanımızın xeyrinə həll etməsəydi – xalqımızın Heydər Əliyev kimi qüdrətli şəxsiyyəti olmasaydı müstəqilliyimizi qoruyub saxlaya bilməyəcəkdik!

Heydər Əliyev XX yüzilliyin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində xalqımızın yetirdiyi dahi şəxsiyyətdir. O, öz xalqının bağrından qopub gələn, doğma yurdunun, Vətən torpağının **misilsiz təəssübkeşi olan böyük azərbaycanlı idi.** Heydər Əliyev öz xalqının

dahi oğlu olmaqla yanaşı, həm də **dünyanın ən qüdrətli tarixi simaları sırasına yüksəlmiş nadir şəxsiyyətdir**.

Azərbaycan xalqının XX yüzillikdəki tarixi Heydər Əliyev şəxsiyyəti ilə, onun 30 ildən artıq bir müddət ərzində öz xalqının, doğma yurdunun gələcəyi naminə həyata keçirdiyi böyük quruculuq işləri ilə qırılmaz surətdə bağlıdır. Bütün ruhu, varlığı ilə öz xalqına, doğma yurduna bağlı olan bu böyük şəxsiyyət müxtəlif sistemlərdə, bir-birinə zidd siyasi quruluşlarda fəaliyyət göstərsə də həmişə, ən çətin tarixi dövrlərdə və təqiblər şəraitində belə, doğma Azərbaycana xidmət etmişdir. Böyük dövlət xadiminin ömür yolunun bütün məqamlarını bir nadir keyfiyyət səciyyələndirir – **Vətən mücadiləsi**, **hər yerdə, bütün vəzifələrdə, hər zaman ana Vətənin, doğma xalqın tərəqqisi üçün can qoymaq!**

Elmi ictimaiyyətə və geniş oxucu kütləsinə təqdim olunan ikicildlik «**Heydər Əliyev**» fundamental araşdırmasının 1-ci cildində əsas diqqət dahi şəxsiyyətimizin nəsillərə nümunə olan həyat yolunun məhz bu məqamına – ana xəttinə yönəldilmişdir. Şübhə etmirik ki, zaman keçdikcə Heydər Əliyevin Vətən naminə mübarizələrdə keçən ömrünün hər bir səhifəsinə yeni-yeni əsərlər həsr olunacaq. Elə bunu nəzərə alaraq Heydər Əliyevin müasiri, onun böyük quruculuq işlərinin canlı şahidi və iştirakçısı kimi, bu böyük şəxsiyyətə həsr olunmuş həmin araşdırmanı yekunlaşdırarkən onun keçdiyi **Vətən mücadiləsi** yolunu dövrləşdirmək, bu barədə öz mülahizələrimizi oxuculara yetirmək qərarına gəldim.

Heydər Əliyevin doğma xalqına həsr olunmuş ömür yolu, ictimai-siyasi və zəngin dövlət quruculuğu fəaliyyəti, fikrimizcə, bir-biri ilə üzvi surətdə bağlı olan aşağıdakı dövrləri əhatə edir:

Birinci dövr – *XX əsrin* **40-cı** *illərindən* **1969***-cu ildə Azərbaycanın rəhbərliyinə gəlməsinə qədərki illəri əhatə edir.* Həmin illərdə Azərbaycanın hüquq-mühafizə orqanlarında fəaliyyətə başlayan Heydər Əliyev son dərəcə ağır maneələri və çətinlikləri dəf edərək Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə qədər yüksəldi. Onun olduqca gərgin, səmərəli və çox çətin şəraitdə göstərdiyi məqsədyönlü fəaliyyəti nəticə-

sində bu dövrdə Dövlət Təhlükəsizliyi Komitəsinin xalqımızın düşmənlərindən təmizlənməsi sahəsində çox ciddi addımlar atıldı, ilk dəfə olaraq xalqımızın qeyrətli övladları təhlükəsizlik orqanlarında işə cəlb olundu. **O zaman Heydər Əliyev xalqımızın vətənpərvər oğullarını, milli əhval-ruhiyyəli ziyalılarını təqiblərdən qorudu və bununla, əslində, milli oyanışımızın başında durdu**.

İkinci dövr – *Azərbaycana birinci rəhbərlik dövrüdür.* **1969–1982**-ci illəri əhatə edən bu dövrdə ölkəmiz, ümumiyyətlə Şimali Azərbaycan Rusiya İmperiyası və Sovet dövləti tərkibində olduğu bütün tarixi dövr ərzində, özünün ən yüksək inkişaf zirvəsinə qalxdı. Heydər Əliyevin çox dərindən ölçülüb-biçilmiş, gələcəyə istiqamətlənmiş müdrik və cəsarətli fəaliyyəti nəticəsində o zaman Azərbaycan bütün Sovet İttifaqında ən qabaqcıl sənaye və kənd təsərrüfatı respublikasına, SSRİ məkanında nəhəng tikinti meydanına çevrildi. Elm, mədəniyyət və kadr hazırlığı ən yüksək zirvəyə qalxdı. Uzaqgörən və daim Vətəninin gələcəyini düşünən böyük dövlət xadimi öz xalqını həyatın bütün sahələrində **müstəqil yaşamağa hazırladı**. SSRİ-nin dağılacağını qabaqcadan görən **Heydər Əliyev bugünkü müstəqil, yeni Azərbaycanın quruculuğuna hələ o zaman başlamışdı**. **Bir sözlə, ötən əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi və himayəsi ilə Şimali Azərbaycanda milli oyanış və müstəqilliyə doğru Böyük Dönüş dövrü başlanmışdı. Buna görə də XX yüzilliyin 90-cı illərində böyük Sovet İmperiyası çökərkən məhz Heydər Əliyevin uzaqgörən, olduqca gərgin, səmərəli və cəsarətli dövlətçilik fəaliyyəti nəticəsində Azərbaycan müstəqil yaşamağa tamamilə hazır idi.**

